AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
DƏDƏ QORQUD ADINA
FOLKLOR ELMİ-MƏDƏNİ MƏRKƏZİ

# AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI

## VIII kitab

## (AĞBABA FOLKLORU)

BAKI – 2003

Az
A-39

Azərbaycan Respublikası MEA
Folklor Elmi-Mədəni Mərkəzi
Elmi Şurasının qərarı ilə çap olunur.

**TOPLAYIB TƏRTİB EDƏNLƏR:**
**f. e.n., dos. Hüseyn İSMAYILOV,**
**Tacir QURBANOV**

**ÖN SÖZÜN MÜƏLLİFİ: Hüseyn İSMAYILOV**

**REDAKTORU: f.e.d., prof. İsrafil ABBASLI**

**RƏ'YÇİ: f.e.n. Əziz ƏLƏKBƏRLİ**

**Azərbaycan folkloru antologiyası, VIII kitab, (Ağbaba folkloru).** Bakı, "Səda" nəşriyyatı, 2003.

Azərbaycan Respublikası MEA Dədə Qorqud adına Folklor Elmi-Mədəni Mərkəzinin "Azərbaycan folkloru antologiyası" seriyasından nəşr etdiyi bu cilddə Azərbaycanın əzəli, əbədi torpaqlarından olan **Ağbaba mahalının** zəngin və təkrarsız folklor inciləri toplanmışdır.

**ISBN-5-86874-037-8**

**©"Səda" nəşriyyatı, 2003**

## ÇOXCİLDLİ "AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI"NIN (AFA) NƏŞR OLUNMUŞ KİTABLARI

1. **AFA, I.** Naxçıvan folkloru, tərtib edənlər: Təhmasib Fərzəliyev, Məhərrəm Qasımlı, elmi redaktoru və "Ön sözü"ün müəllifi İsrafil Abbasov, rəyçilər; Vəli Əliyev, Bəhlul Abdulla, Bakı, "Sabah" nəşriyyatı, 1994.

2. **AFA, II.** İraq-Türkman cildi, tərtibçilər: filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, doktor Əbdüllətif Bəndəroğlu, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər; filologiya elmləri doktoru, professor Azad Nəbiyev filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, Bakı, "Ağrıdağ", 1999.

3. **AFA, III.** Göyçə folkloru, toplayıb tərtib edəni, Hüseyn İsmayılov, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər; fiollogiya elmləri doktoru, professor Qara Namazov, filologiya elmləri namizədi Oruc Əliyev, Bakı, "Səda" nəşriyyatı, 2000.

4. **AFA, IV.** Şəki folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Oruc Əliyev, Hikmət Əbdülhəlimov, Ramazan Qafarov elmi redaktoru və "Ön sözü"ün müəllifi filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər; filologiya elmləri namizədi H.İsmayılov, Sənətşünaslıq namizədi F.Çələbi, Bakı, "Səda" nəşriyyatı, 2000.

5. **AFA, V.** Qarabağ folkloru, toplayanlar İsrafil Abbaslı, Təhmasib Fərzəliyev, Nəcəf Nazim (Quliyev), tərtib edəni və "Ön sözü"ün müəllifi filologiya elmləri doktoru professor İsrafil Abbaslı, redaktorları: filologiya elmləri doktoru, professor Yaşar Qarayev filologiya elmləri namizədi, dosent Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri doktoru Bəhlul Abdulla, filologiya elmləri namizədi Oruc Əliyev, "Bakı", "Səda" nəşriyyatı, 2001.

6. **AFA, VI.** Şəki folkloru, tərtib edəni Hikmət Əbdülhəlimov, elmi redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, "Ön sözü"n müəllifi sənətşünaslıq namizədi Faiq Çələbi, rəyçi filologiya elmləri namizədi H.İsmayılov. Bakı, "Səda" nəşriyyatı, 2002.

7. **AFA, VII.** Qaraqoyunlu folkloru, tərtib edənlər filologi-

ya elmləri namizədi H.İsmayılov, Qurban Süleymanov, elmi redaktoru filologiya elmləri doktoru, professor Qara Namazov, rəyçilər filologiya elmləri doktoru İsrafil Abbasov, filologiya elmləri namizədi Oruc Əliyev. Bakı, “Səda“ nəşriyyatı, 2002.

## AĞBABA FOLKLORU

***Əski türk torpağı olan Ağbaba mahalının tarixi taleyi qlobal və regional siyasi proseslərin təsiri ilə elə şəkilə gətirilib ki, bu ərazi Türkiyə ilə Azərbaycanı həm qovuşdurub, onların arasında ortaq bir məntəqə olub, həm də ayırıb-yadelli ölkələrin hərbi-siyasi təcavüzü nəticəsində iki yerə parçalanıb; bir hissəsi müstəqil Türkiyənin, bir hissəsi isə müstəmləkə Azərbaycanın tərkibində qalıb.***

***Türkün əfsanələşmiş tarixinə görə, bizim etnik folklor yaddaşımızdan "Nuhun tufanı" kimi keçən "Dünya daşqını" zamanı tanrının hökmüylə gəmisi Ağrı dağa dayanan Nuh Əleyhüssəlam bu yerləri Oğuzun, Türkün babası Yasəfə verib, onları bu ərazilərdən başlayaraq Böyük Türküstanda məskun edib.***

***İkinci minilliyin başlanğıcından oğuz Türklərinin Türküstanı və Ön Asiyanı Saman oğullarından, Kiçik Asiyanı bizanslılardan azad edərək öz əski ərazilərində Türk siyasi hakimiyyətini bərpa etdikdən sonrakı 8 əsr ərzində Ağbaba Türk dövlətinin siyasi sınırları içində olub. Tarixi materiallardan mə'lum olur ki, Ağbaba XVI yüzillikdən başlayaraq Çıldır sancağı, Çıldır əyaləti adıyla Türkiyə ərazisinin inzibati vahidi kimi qeyd olunur. Çıldır əyalətinin içərisində yerləşən Ağbaba bölgəsi bir tərəfdən Axılkələyə, bir tərəfdən Çıldır – Qarsa, bir tərəfdən də Dağ-Borçalıya söykənir. Bu ərazi 1877-1878-ci illərdə baş vermiş rus-türk müharibəsindən sonra işğalçı rusların əlinə keçmişdir. Bu dövrdə Ağbaba Qars vilayətinin tərkibində bir nahiyə idi. XIX əsrin əvvəllərindən başlayaraq rus imperiyasının Qafqaza doğru başlanan işğalçı hərbi təcavüzü nəticəsində bütövlükdə regionun sosial-mədəni həyatında tənəzzül baş vermişdir. Müstəqil xanlıqlar şəklində mövcud olan Azərbaycan xalqının həyatında ağır sarsıntılar yaşanmış, 1828-ci il rus işğalı ilə Azərbaycan türkü siyasi və iqtisadi azadlığını itirmişdir. 1828-1918-ci illər ərzində müstəmləkə rejiminə düçar edilmiş Azərbaycan xalqı ağır sosial sarsıntılardan keçmiş, Milli ruhu və Azadlığı öz mənəvi dünyasında qoruyub sağ saxlaya bilmişdir. Bizim - Azərbaycan türklüyünün məhv olmama-***

*sında, təbii ki, əsas faktor möhtəşəm və qüdrətli Türkiyə dövlətinin mövcudluğudur. Mühitdən aldığı ağır zərbələrdən deformasiyaya uğrayan Azərbaycan türklüyünün etnik mövcudluğu məhz Türkiyə dövlətinə arxalanaraq ən ağır sınaqlardan çıxa bilmişdir.*

*XIX yüzilliyin müharibə şəraitində keçmiş ilk 30 ilindən başlayaraq Azərbaycana və onun Ermənistan adlanan hissəsinə Livandan, Yunanıstandan, İrandan, Türkiyədən və dünyanın başqa ölkələrindən erməni (hay) axını başlanmış, rus imperiyasının geosiyasi maraqlarına uyğun gəldiyindən onlardan alət kimi istifadə olunmuş, tədricən bu ərazilərdə məskunlaşdırılan haylardan həm destabilləşdirici faktor kimi faydalanılmış, həm də Türkiyə və Azərbaycan türklüyü arasında etnik bufer zona yaradılmışdır.*

*1918-20-ci illərdə gəlmə ermənilərin törətdiyi kütləvi qırğınlar nəticəsində Ağbaba əhalisinin bir qismi Türkiyənin Qars vilayətinə köçmüş, bir hissəsi isə erməni "təmərküzləşməsi" nəticəsində ağır məhrumiyyətlərə düçar edilmiş, kəndləri xarabazara çevrilmişdir. Erməni (hay) vəhşiliyinin çoxsaylı təsdiqi faktorlarından biri kimi bu xarabalıqların bə'zilərinin adları (Zazanın xarabası, Düzxaraba, Selim xarabası, Tez xaraba və s.) bu gün də yaddaşlardan silinməmiş, bə'zilərinin adı isə (Güllübulaq yaxınlığındakı yeddi xarabadan ikisi, Qaragüneytəpənin ətəyində üç xaraba, Qaraçanta kəndinin yanında iki xaraba) artıq unudulmuşdur. Rəsmi sənədlərdən mə'lum olduğu kimi, keçən əsrin əvvəllərində Ağbabada əllidən artıq kənd olmuşdur. Rus imperiyasının havadarlığı ilə ermənilər tərəfindən bölgə kəndlərinin təxminən yarısı 50-ci illərədək yerlə-yeksan edilmişdir. XX əsrin əvvəllərindən artan erməni axını bu əraziyə, əsasən, Muş, Sarıqamış, Van, Qızılçaxçax, İqdır və s. yerlərdən gəlmişdir.*

*Ağbaba bölgəsində 1988-ci ilə qədər 27 kənd var idi. Bunlardan 21-də (Güllübulaq, Xozu, Qaraçanta, Qaranamaz, Çaybasar, Göllü, Balıxlı, Güllücə, Öksüz, Ellərkənd, Çaxmaq, Ağbaba Təzə İbiş, Qonçalı, Düzkənd, Oxçoğlu, Daşkörpü, Təpəköy, Şurabad, Qarabulaq və Mağaracıq) türklər yaşayırdılar. Əsrin əvvəllərindən gəlmiş ermənilər*

*isə cəmi beş kənddə məskunlaşmışdılar. Amasiyada əhalinin böyük əksəriyyətini türklər təşkil edirdilər.*

*Təbii coğrafi mövqeyinə görə, Ağbaba Şərqi Anadolunun bir hissəsi olub, dağlıq ərazidə yerləşir.*

*Ağbabada böyük meşələr, zəngin heyvanlar aləmi olmuşdur. Oxçoğlu, Güllübulaq ətrafındakı meşəliklər, Yabıqırılan meşəsi, Söyüdlünün yaxınlığındakı təpələrin yamaclarındakı topa-topa ağaclıqlar və ona yaxın dərələrdəki pöhrəliklər, Çaxmaq kəndinin sərhəd tərəfində olan kiçik meşəlik və s. o meşələrdən yadigardır.*

*Öksüz, Güllücə, Çivinli, Ellərkənd, Xozu, Göllü və s. kəndləri əhatə edən onlarca qala və qalaçalar vardır.*

*Ağbabada əkinçilik və maldarlıq çox inkişaf eləmişdi. Dənli bitkilərdən arpa, buğda əkilir, cins mal-qara və qoyun saxlanılırdı. Qabaqlar taxıl zəmiləri çox geniş əraziləri tuturmuş. Təsadüfi deyildir ki, Ağbabada bə'zi kəndlərdə bir neçə dəyirman (Daşdanoğlunun dəyirmanı, Qəribağanın dəyirmanı, Paşanın dəyirmanı, Qrellərin dəyirmanı, Səfərin dəyirmanı, Şaban katdanın dəyirmanı və s.) olmuşdur. Bu dəyirmanların bir qismi 30-cu illərə qədər, bir qismi 60-cı illərədək işləmişdir. Bə'zi dəyirmanların qalıqları indiyə qədər qalmaqdadır.*

*Ağbabanın Qoncalı, Çivinli, Xozu və s. köylərində öncələr çoxlu zəyrək əkilər və bu bitkidən min bir dərdin dərmanı olan yağ-bəzir alınarmış. Bə'zi kəndlərdə rast gəlinən bəzirxana qalıqları və bəzir daşları dediklərimizi təsdiq edir.*

*Ağbaba ərazisi başdan-başa türk adı ilə bağlı dağlar, dərələr, qayalar, çayırlar və bulaqlarla doludur. Burada hər daş, hər qaya, hər dağ, hər dərə türk adından, türk soyadından, varlığından soraqlar verir. Bunu daha yaxşı təsvir etmək üçün bə'zi coğrafi adlara nəzər yetirək:*

*Dağlar: Yanıq, Bolluq, Biryana, Ahar-Bahar, Qardaşvay, Bığelli, Çalağan yuvası, Maral yatağı, Şişdağ, Balıxlı, İkiqat, Ağbaba, Aşdıbaba, Kaloğlan, Göy dağ, Allahu Əkbər, Börəel, Kalley, Dihnə, Qalaça, Güney, Kaldağ, Qoyun dağı, Səngər, Qızıldağ və s.*

*Təpələr: Bayramalının təpəsi, Şiştəpə, Məzartəpə, Xa-*

*tınoğlunun təpəsi, Üç təpə, Orta yal, Qaragüneytəpə və s.*

*Dərələr: Dərvişin dərəsi, Dərin dərə, Çətin dərə, Nazik dərə, Ömər dərəsi, Sadıqlının dərəsi, Mumuxan dərəsi, Çaxmaq dərəsi, Sınıq dərə, Şəlalə dərəsi, Cinli dərə, Ay dərəsi, Haxoyun dərəsi, Böræl dərəsi, Çələb dərəsi, Xozeyn dərəsi, Asdanın dərəsi, Məmədqasım ağanın dərəsi, Söyünpaşanın dərəsi, Məmmədəminin dərəsi, Abutalıbın dərəsi və s.*

*Qayalar: Ceyran qayası, Qara qaya, Şiş qaya, Qızıl qaya, Taya qaya, Quş qayası, Cin qayası, Topqaya və s.*

*Çaylar: Qaraxan, Arpa çayı, Lalaxan, Qızılkilsə, Xəncərdüşən, Danasulağı və s.*

*Bulaqlar: Aydın bulağı, Qırmızı bulaq, Gölbulaq, Tağı bulağı, Üçbulaq, Həmzənin bulağı, Məsimin bulağı, Şəfa bulağı, Göy bulaq, İlanlı bulaq, Muncuqlu bulaq, Qanqallı bulaq, Qoşabulaq, Soyuqbulaq, Sallı bulaq, Şaqlamgözə, Təndir bulaq, Məşədi Əhmədin bulağı, Turş xalxalın bulağı, Qarasu, Ağsu, Çalağan yuvası, Altıbulaq, Qoşadaşaltı, Ziyarət bulağı və s.*

*Ağbabada tez-tez rast gəlinən mağaralar; Göy dağ, Taya qaya, Topqaya (bu abidələrin sayı üçdür), Türkiyə sərhəddinə doğru nazik zolaq şəklində uzanan daş xiyabanlar, Allahu-Əkbər dağındakı Ziyarət, Ağbaba və Şiş ocağı ziyarətgahları, Öksüz, Üçqardaş və Süddaş pirləri babalarımızın əski dövrlərdən bu ərazilərdə yaşadığını göstərən ölməz tarixi abidələrdir. Mustuqludakı daş mustuqlardakı (Mustuq daş növ anlamındadı - H.İ.) qabartmalar, qonçalar ("Günəşcik"lər), "Qoncalı" ("günəşciyi olan - H.İ.") ulu əcdadlarımızın əski dünyagörüşləri ilə bağlıdır. Günəşə sitayiş inamının bu günümüzə qədər gəlib çatan nişanəsidir. Öksüzdəki qaya təsvirləri, Xozunun Təpəbaşı adlanan ərazisindəki bir neçə qəbirdaşında bu günümüzə qədər gəlib çatan Orxon-Yenisey yazıları, Qoncalı, Göllü, Öksüz və s. kəndlərindəki oğuz qəbirləri Ağbaba bölgəsinin Oğuz məskəni olduğunu təsdiq edən təkzibolunmaz dəlillərdir.*

*Ağbaba yer-yurd adlarının içərisində Qarammәd, Qaraçanta, Qaranamaz, Qarabulaq, Qaraxan kimi toponimlərdə rastlaşdığımız qara sözü "böyük", əzəmətli, "nəhəng" an-*

*lamlarındadır. İbiş (Təzə və Köhnə İbiş. Köhnə İbiş Qarsın tərkibindədir) və Öksüz yer-yurd adları da xüsusi maraq doğurur. Yaşlıların dediklərinə görə İbiş və Öksüz qaraqoyunlu tayfasının iki tirəsinin adıdı. Bölgədəki Dəli Sərsəran (Güllücənin əski adı), Çələb, İlanlı (Çaybasarın əski adı) toponimləri də əslimizdən-kökümüzdən soraqlar verməkdədir. Dəli Sərsəran ("Dəli Sərsərlərin yaşadığı yer"), "Çələb", (türk dilində "Allah" deməkdir). İlanlı yer adı da təsadüfi yaranmayıb, ulu əcdadlarımızın animistik və totemistik görüşlərindən bu günümüzə yadigar qalır. Tarixdən bəllidir ki, qədim türklər müqəddəs əcdadların ruhunu ilan şəklində təsvir etmişlər. İlanlı toponiminin yaranması, heç şübhəsiz bununla bağlıdır.*

*Ağbaba ərazisində əski dini görüşlərin (şamanizm, sufizm) izləri günlərimizə qədər gəlib çatmışdır. "Hər adam xırxa geyə bilməz", "sofudu, əyə bilməzsən", "sofu kimi dünya ne'mətlərinə göz yumub", "babamın goruna and olsun" və b. deyimlər dediklərimizi təsdiq edir.*

*Ağbaba ərazisində "Kitabi-Dədə Qorqud" dastanları ilə səsləşən yer-yurd adları da az deyil. Oxçoğlu, Göy dağ, Domrulun qalaçası, Qaragüneytəpə, Mumuxan kimi toponimlər bu qəbildəndir. "Kitabi-Dədə Qorqud" dastanlarının bir boyunda deyilir. "Alp Rüstəm aydır: Mənim qırımım Ənsə Qoca oğlu Oxçu olsun“. Deməli, Oxçoğlu (əslində Oxçuoğlu) Ənsə Qoca oğlu Oxçunun oğlunun adından götürülmüşdür. Yenə "Kitabi-Dədə Qorqud"da deyilir: Qazan xan deyir: "Kafir sərhəddinə, Cızıxlara, Ağlağana, Kökcə dağa çıxayın:" Burada adı çəkilən Kökcə dağ Ağbabanın Göy dağıdır. Güllücə kəndi yaxınlığındakı Domrul qalaçası Dəli Domrulun, Qaragüneytəpə isə Qazan xanın qardaşı Qaragünənin ünvanından soraqlar verir. Mumuxan yer-yurd adı (bu kənd 1918-ci ildən xarabadır) "Kitabi-Dədə Qorqud"da adı çəkilən "dəmir donlu Mumağ"ın adı ilə bağlı yaranmışdır.*

*Ağbaba ərazisindəki lap sərhəddə yerləşən Dədəpir adlı pir də çox qədim tarixi abidələrdən sayılır. Ahılların dediklərinə görə bu pir Dədəpir adlı bir dədənin qəbridir. Bə'zi rəvayətlərdə Dədəpir Dədə Qorqudun ortancıl qardaşı kimi*

*anılmaqdadır.*

*Ağbaba ərazisində ən əski zamanlardan türklər yaşamışlar. Qaraqoyunlular, arpalılar (Arpa çayı, Arpa gölünün adları "arpalı" tayfasının adını daşıyır), Sorsorlar, qarapapaqlar, siraqlar, qrellər və b. tayfalar qədimlərdən bu ərazidə məskunlaşmışlar. Şörəyel yer-yurd adı da, "Dədə Qorqud"da xatırlanan Şəruq da siraq tayfaların adı ilə bağlı yaranmışdır.*

*Ağbaba bölgəsində Ağbaba kəndi, Ağbaba adlı zirvə, Ağbaba ziyarətinin olması onu göstərir ki, bu yer-yurd adı təsadüfi yaranmayıb, həmin yörənin əski çağları ilə sıx bağlıdır. Vaxtilə Ağbaba ərazisində əllidən ziyadə kənd olsa da rus işğalından sonra bölgədə bu kəndlərin sayı yarıbayarı azalmışdır. Elə bundan yana əhalinin bir qismi Qarsın içərilərinə, bir qismi qonşu Borçalıya üz tutmalı olmuşdur.*

*"Ağbaba" toponiminin etimoloji açımı ilə bağlı bir sıra maraqlı mülahizələr vardır. Bə'zi yaşlı adamlar bu sözün "ax, baba"dan yaranmasını söyləyirlər. Alimlərimizin bir qismi (tədqiqatçılar f.e.d. professor Buludxan Xəlilov, f.e.n., dosent Aslan Bayramov) "Ağbaba" sözünün ağbaba adlı yırtıcı quş adından götürüldüyünü iddia edirlər. Onlar göstərirlər ki, ağbaba quşu (ağ qartal) Ağbaba ərazisində yaşayan türklərin onqonu olmuşdur.*

*Maraqlı mülahizədir. Bəs onda Ağbaba dağ zirvəsi, ordakı Ağbaba ziyarəti nə ilə bağlı yaranmışdır? Bu sualı cavablandırmaqdan ötrü sözün özünə diqqət yetirək. "Ağbaba" iki hissədən ("Ağ" + "baba") ibarətdir. İkinci hissə ("baba") mə'lumdur. Ağbaba ərazisində çox vaxt ataya "baba" deyə müraciət olunur. "Ağ"ın mə'na çalarları çoxdur. V.V.Radlov "ağ" sözünün üç mə'nasını (rəng, təmiz, xeyirxah) göstərir. Görkəmli mifoloq alim M.Seyidov qeyd edir ki, "ağ"ın "ucalan", "yüksələn" mə'naları da vardır. Buradan mə'lum olur ki, "Ağbaba", "Uca atanın yurdu", bir az da dəqiq desək "İşıqlı atanın (Ulgen) yurdu" deməkdir.*

*Bu antologiyanın sonunda verilən sözlük böyük elmi-filoloji əhəmiyyətə malikdir. Çünki bu ərazidə, Ağbaba ərazisində el arasında işlənən elə sözlər var ki, başqa regionlarda işlədilmir. Məsələn: Ağızəmməz (əfəl, tənbəl, iş bacarma-*

*yan), qənətmə (yemlik şirəsindən hazırlanan saqqız), qorozdanmaq (özünü öymək, şişkin danışmaq), çıppa (yuxa təndir çörəyi), fasıl (müddət), sosur (qaş-qabağlı adam), xırça (balaca boy), titiz (kəmhövsələ, tələsik adam), təyarə (qalaqlanmış peyin yığını), bökən (qalın təndir çörəyi), doruq (qabığı soyulmamış nazik tir), dirgan (yaba ilə götürülən ot, bəlim topası), epey (çoxlu), kələcoş (yağ və quruddan hazırlanmış yemək), eyrəti (çirkin, bədheybət), yərənnix (şit zarafat), Xəsim (ortaq) və b. Bu bölgə ərazisində elə sözlər var ki, onun bir neçə dəyişən adı da var. "herla" sözü belə sözlərdəndi, mə'nası "qozbel" deməkdir, amma qüzdük, künkün sözləri də işlənir və eyni mə'nanı bildirir. El arasında danışıqda işlədilən "çəpik", "qadı-qadı", "böyürsək", "ufax", "solux" Şərqi Anadolu türklərində də eynidir. Sadəcə burada bə'zi sözlər təhrif olunur. (Məs: "çəpik" əslində türkcə "çapuk" sözündəndir). Bayaq göstərdiyimiz sözlərin çoxu indi ancaq Türkiyə türkcəsində işlədilir. "Ufaq" (narın) "soluq" (nəfəs) qadı-qadı (qazı-qazı) anlamlarındadır. Türkiyə türklərində qazıya "qadı" deyilir.*

*Ağbabanın təbii-coğrafi şəraiti zəngindir, gözəldir. Siyasi taleyi bütövlükdə Qərbi Azərbaycan türkünün taleyi ilə həmahəngdir. Belə ki, 1988-ci ildən sonra bu ərazilərdən yerli əhali olan türklər (azərbaycanlılar) son nəfərədək deportasiya olunmuşdur.*

*Sosial-siyasi məhrumiyyətlər tüğyan edəndə, təbii ki, əhali öz təskinliyini sözdə axtarıb, mə'nəvi-ruhani, ədəbi-estetik ehtiyatlarından daha çox istifadə edib. Ağbabalılar da ən əski çağlardan tanrının, təbiətin və insanın gözəlliyini sözdə, sənətdə tərənnüm ediblər, mə'nəvi ehtiyaclarını onunla ödəyiblər. Ona görə də "Ağbaba folkloru"nda qədim dövrlərin sosial emosiyaları ilə yanaşı, son iki yüz ilin ruhi çırpıntıları, könül, qəlb və can ağrıları öz bədii ifadəsini tapıb.*

*Ağbaba folklorundan təqdim etdiyimiz bu antologiyada xalqımızın mə'nəvi dünyasını tam dolğunluğu ilə ifadə edə bilən milli və məhəlli nümunələr toplanmışdır. Burada toplanan mətinlərə aşağıdakılar daxildir. Mifoloji mətnlər (o cümlədən, mifoloji rəvayətlər), alqışlar, atalar sözləri və*

*zərb-məsəllər, tapmacalar, yanıltmaclar, xalq deyimləri, rəvayətlər, lətifələr, nağıllar, aşıq rəvayətləri, qaravəllilər, düzgülər, bayatılar, vəsfi-hallar, sanamalar, nanaylar, holavarlar, tırınqılar, aşıq şe'rləri (o cümlədən, qoşma, gəraylı, təcnis), uşaq folklorundan nümunələr və s. Qeyd edim ki, təqdim edilən örnəklər zəngin regional spesifikaya malikdir və gələcəkdə hökmən müstəqil tədqiqata cəlb olunmalıdır.*

*Bu antologiyada verilən holavarlar ilk dəfədir ki, nəqarətlə (oxunduğu kimi) yazıya alınıb. Holavarı məjgal (rəncbər) başlayar, hodaq davam etdirərdi. Holavarlar məjgallara, qız-gəlinə, öküzlərə, kotana deyilirdi. Qız-gəlinlərə deyilən holavarlardan bir örnəyə nəzər salaq:*

*Məjgal: qırmızı don bəri gəl,*
*Hasan qızı Pəri gəl.*
*Hodaq, ho de.*
*Hodaqlar: Hoo, hoo, hoo, hoo*
*Dördünə ha, dördünə ha, dördünə ha, dördünə ha.*
*Məjgal: sonra peşman olarsan,*
*Gəl incitmə əri, gəl.*
*Hodaq, ho de.*
*Hodaqlar: Hoo, hoo, hoo, hoo*
*Dördünə ha, dördünə ha, dördünə ha, dördünə ha.*

*Bu nümunədən göründüyü kimi hodaqlar ancaq oxuyurdular. Məjgalın dili ilə deyilən "hodaq, ho de" sözləri bir növ məjgala xəbərdalıqdı, yə'ni öküzə diqqət elə, yer xərək (əkilməmiş torpaq zolağı) qalmasın. Əkin prosesinin holavarlarla müşaiyət edilməsi işi xeyli yüngülləşdirir, əkinçilərin yorğunluğunu aradan qaldırırdı.*

*Ağbaba bayatılarında qəm-kədər, kövrək hisslər, müxtəlif çalarlarla göstərilir.*

*Məni vurdu üç ilan,*
*Yumurtası puç ilan.*
*Mənim kimi olmasın,*
*Zəmisi göy biçilən.*

*Məzə dursun,*
*Doldur ver, məzə dursun.*
*Dərdim çoxdu demirəm,*
*Ağzını közə, dursun.*

*Böyük dərd, üzüntü, qüssə həmin bayatılarda hardandı? Belə duyğuları yalnız və yalnız yurd həsrəti, el-oba itkisi ilə alışıb-yanan insanların naləsi, fəryadı yarada bilərdi. Ağbaba kimi müqəddəs bir torpağın itkisi bu qəlbdağlayan poetik misraların yaranmasına, eldən-elə, dildən-dilə düşməsinə səbəb olmuşdur.*

*Ağbaba bayatılarında didərginlik, qəriblik, yurd itkisi motivləri daha çoxdur.*

*Qocalıq betər gəldi,*
*Götürdü xətər gəldi.*
*Oldum qaçqın, didərgin,*
*Qəzavü-qədər gəldi.*

*Duman dağa uyandı,*
*Qəribə kim həyandı?*
*Dərdli olan nə çəkir,*
*O tanrıya əyandı.*

*Dərd əhli eşqinə bax,*
*Düşdüm həm peşinə bax.*
*Bizi saldı dərbədər,*
*Fələyin işinə bax.*

*80 yaşlı İsgəndər baba ilə, Aşıq Qərib Hasanın bayatılarında qəribliyin yaratdığı böyük faciə - vətənsizlik öz əksini tapıb. Hər iki bayatıda eyni bir ovqat var: qəribin qəbri də qəribdi, kimsəsizdi.*

*Aşıq Qərib Hasanda:*

*Eləmi qərib olar,*
*Ah çəkən qərib olar,*
*Qürbət eldə ölənin,*
*Məzarı qərib olar.*

*İsgəndər babada:*

*Düşdü hara güzarım,*
*Yurdsuz artdı azarım.*
*Qəribəm, dərd öldürər,*
*Qərib olar məzarım.*

*Ağbaba folklorunda mifoloji mətnlər öz rəngarəngliyinə və zənginliyinə görə başqa bölgələrdən ciddi şəkildə fərqlənməkdədir. Mifoloji mətnlərdə əfsanəvi varlıqlar (saraltmış, cin dəyişiyi, hal anası, vurğun, fəriştə, şeşə və b) öz əksini tapmışdır. Bunlardan cin dəyişiyi, fəriştə kimi mifoloji varlıqlara Azərbaycanın başqa regionlarından toplanmış mifoloji mətnlərdə çox nadir hallarda rast gəlinir. Həm də mifoloji mətnlərdə çoxlu əyələr (su əyəsi, astana cini, qaya cini, yer əyələri, dəyirman əyəsi, ağac əyəsi, ev əyəsi və b.) vardır. Bu mətnlərdən birində rast gəlinən "Kəsikbaş" motivi Şərqi Anadolu folkloru ilə daha yaxından səsləşir.*

*Tırınqılar vaxtilə Qarakilsə, İrəvan, Qafan, Dərələyəz, Ağbaba, Çıldır-Qars, Axılkələk yörələrində geniş yayılmışdı. Bu yer-yurdlarımızdan tırınqıya daha çox həssas olan ərazi Ağbabadır. Tırınqılar qoşmadan demək olar ki, çox az fərqlənir. Bu folklor nümunələri adətən üç bənddən ibarət olur, müəllifin adı çəkilmir. Tırınqılarda kövrək bir ruh, incə hisslər əsas motiv sayılır. Tırınqılarda ümumi qayda belədir ki, birinci bəndin birinci misrasının əvvəlindəki bir və ya bir neçə söz o biri bəndlərin birinci misrasında təkrar olunur. Bu qayda dördüncü misralara da aiddir. Yəni birinci bəndin dördüncü misrası eynilə o biri bəndlərin dördüncü misrasında təkrar edilir. Tırınqılarda da yurd həsrəti, vətən dərdi, torpaq nisgili həmişə ön plandadır, başlıca motivdir. Bunlar Yetim Əsgərin bir tırınqısında özünü daha qabarıq biruzə verməkdədir.*

*Seşgin oldum qohum-qardaş içinnən,*
*Yola tüşdüm, gəldim oba köçünnən,*
*Yurt həsrəti keşdi od təh içimnən,*
*O dağlardan bu dağlara gəlmişəm.*

*Seşgin oldum vətənimnən, elimnən,*
*Qonum-qonşu, köyüm çıxdı əlimnən,*
*Danışanda nalə qopur dilimnən,*
*O dağlardan bu dağlara gəlmişəm.*

*Seşgin oldum, yarımadım, gülmədim,*
*Qəzə məni qaraladı, bilmədim.*
*Üzüm daşmış bu qürbətdə ölmədim,*
*O dağlardan bu dağlara gəlmişəm.*

*Düzgülər əsasən məişətlə bağlı, məşğuliyyətlə əlaqədar yaranmış folklor örnəklərindəndir və təbii ki, çox vaxt bu motivləri özündə əks etdirir. Amma onların içərisində əski dünyagörüşlərimizin izlərini saxlayan nümunələr də az deyil. "Dərviş", "Qələndəri", "Qaralı-ağlı baba", "Yalvarma", "Qara-ağın ağası" kimi düzgülər bu qəbildəndir. Bu düzgülərdə şamanizmlə, təsəvvüflə bağlı inancların, dini görüşlərin izləri açıq-aydın görünməkdədir. Həmin folklor örnəklərindən aşağıdakı nümunələr dediklərimizi daha qabarıq təsdiqləməkdədir.*

*Bizə hərəkət gəti,*
*Bizə bərəkət gəti.*
*Səni ərlər yanlasın,*
*Anlamıyan anlasın.*
*Duaları bol elə,*
*Ürəklərə yol elə.*
*Nurlat odanı, xanı,*
*Sofuluğun sultanı.*

*("Qələndər")*

*Qara-ağın əlində,*
*Kilit-bağın əlində.*
*Üç aləmin xanısan,*
*Könüllər sultanısan.*
*Müşkülün yoxdu sənin,*
*Nurun nə çoxdu sənin.*

*("Qaralı-ağlı baba")*

*Ağbaba folklorunda lətifələr çox geniş yayılmış janrlardan biri kimi diqqəti cəlb edir. Cinni Söyün, Mahmud dayı,*

*Toyçu Xəlil, Çoban Calal, Rusdam kimi baməzə, hazırcavab kişilərin bəzəmələri ağbabalılar arasında indi də yaşamaqdadır. Bu baməzə adamlar içərisində Mahmud dayı istər belə söhbətlərinin sayına, sanbalına görə, istərsə də öz bədii-estetik dəyərinə görə o biri zarafatçılardan fərqlənir, Molla Nəsrəddin ən'ənələrinin layiqli daşıyıcısı olan bu müdrik el ağsaqqalı olduqca geniş dünyagörüşə malik bir adamdır, sinədəftərdir. Onun "Xırman səyi", "Atın xətrinə dəyif", "Sən vurmuşdun, o da vurdu", "Eşşəyin it xasiyyəti" lətifələri özünəməxsusluğuna və tərbiyəvi əhəmiyyətinə görə Molla Nəsrəddin lətifələrindən geri qalmır.*

*Lətifələrin birində göstərilir ki, bir nəfər kənd adamı Mahmud dayının hazırcavablığını yoxlamaq üçün suvarmağa apardığı inəklərdən birini "Mahmud" deyə çağıranda kişi özünü itirməyib deyir:*

*– Adam dədəsinin adını inəyə qoymaz. Eşidən üstünə gülər, a bala.*

*Oğlan utanıb başını aşağı salanda Mahmud dayı ona qayıdır ki:*

*– Yaxşı, utanma, get. Əmə, bir də inəyi elə çağırma.*

*Ağbaba ərazisi qədim zamanlardan saz-söz diyarı kimi tanınıb, Çıldırla bineyi-qədimdən bir ərazidə, bir yerdə olduğundan burada el arasına yayılan aşıq havaları Çıldır aşıq havaları kimi tanınmışdır. Bu saz havaları Azərbaycanın ayrı-ayrı bölgələrindəki saz havalarından seçilir. Bir az Göyçə, bir az da Borçalı saz havalarına oxşasa da, daha çox Urmiya aşıq havalarına yaxındı. Çıldır havaları içərisində sufi havaları və nanayılar da var. "Çıldır zinharısı", "Çıldır çuxurobası", "Sarı yaylıq", "Çalpapaq", "Köşəbaşı", "Urfani", "Tərcümanı", "Şörəyeli", "Ağbabayı", Ağbaba gözəlləməsi, "Çıldırı", "Aşıroğlu", "Daşdanoğlu", "Atüstü", "Süründürmə", "Qəza nişanı", "Dərbədəri", "Diyarbəkri", "Qurdoğlu", "Dəli hicranı" kimi çıldır havaları məlumdur. Təxminən 22-yə qədər sufi havası olsa da, ondan ancaq bir neçəsinin adı ("Ağam hey", "Göy atlı", "Sirri-sübhani", "Rəhmanı") dövrümüzə qədər gəlib çatmış, nanaylardan isə ancaq üç hava ("Gəlin nanayı", "Ota" nanayı, "Aşıq Tüccarın nanayı") məlumdur. Təəssüflər ki, Çıldır*

*saz havalarının xeyli hissəsi unudulmuş, yaddaşlardan silinmişdir. Bunun əsas səbəbi Qars müqaviləsindən sonra sərhədlərin bağlanması ilə əlaqədar Ağbaba, Çıldır və Qars arasında əlaqələrin qismən kəsilməsi, digər tərəfdən Çıldır ərazisində yaşayan aşıqların tədricən Anadoluya üz tutması ilə bağlı olmuşdur. Çıldır havaları Ağbaba ərazisində Aşıq Nəsib, Çorlu Məhəmməd, daha sonralar Aşıq İsgəndər Ağbabalı və Aşıq Paşa Göydağlı kimi el sənətkarları tərəfindən qorunub muhafizə olunmuşdur.*

*1918-ci ildə erməni vəhşətindən dolayı Qoncalı, Sınıx, Mumuxan, Mustuxlu, Baxçalı, Söyüdlü, Çal və b. kəndlərin əhalisi elliklə Türkiyəyə - Qarsa pənah apardığından Ağbabanın tanınmış aşıq və el şairlərinin bir qismi (Aşıq Alışan, Aşıq Qəhrəman, Şair Yunus, Kəndirbaz Alı, Aşıq Məhərrəm və b.) öz dədə-baba yurdlarını tərk edib Qarsa üz tutmağa məcbur oldu.*

*Ağbabalı Şirəkli Həsən, Aşıq Qərib Hasan, Sofu Baba, Dədə Dərbədəri, Sofu Dədə, Qoca Alı, Şahverdi Qarapapaqoğlu, Aşıq Nəsib, Çorlu Məhəmməd, Aşıq Məhəmməd, Aşıq Heydər, Yetim Tapdıq, Yetim Əsgər, Xəstə Zərnişan, Gülbahar, Aşıq İsgəndər Ağbabalı, Aşıq Paşa Göydağlı kimi el sənətkarları Ağbabanın sazını-sözünü eldən-elə, dildən-dilə salıb yaşatdılar. Ağbaba aşıq və el şairlərinin yaradıcılığında keçmiş Sovet quruluşuna dərin nifrət öz əksini tapıb. Aşıq Nəsibin "Var" adlı qoşmasında bunu aydın görmək mümkündür.*

*Türk deyənin dil-dilçəyin kəsərlər,*
*Haqq deyəni boğazından asarlar.*
*Ər olanı düz Sibirə basarlar,*
*Görən harda belə divan-dərə var?!*

*O mən gedən yoldan-izdən ot bitib,*
*Dərd əkilib, qəm yetişib, yad bitib.*
*Aşıq Nəsib, sənin dünyan tez itib,*
*Gir məzara, ört üstünü, yerə var.*

*Yetim Tapdıq şe'rlərinin birində Sovet hökumətini "gədə hökuməti" adlandırır.*

*Gədə hökuməti, gədə töhməti,*
*Küsdürdü könlümü cana gətirdi.*
*Kişilik, yaxşılıq çıxdı qəhətə,*
*Tanrı bu Soveti qana gətirdi?!*

*Ağbaba aşıq və el şairlərinin yaradıcılığında erməni vəhşəti də öz əksini tapıb. Erməni vəhşətini öz gözü ilə görən öksüzlü Aşıq Məhəmməd belə yazır:*

*Ölülərin sayı yoxdu, sağ hanı?*
*Kim bulacax seldə-suda axanı?*
*Ey müsəlman, dərd tapıbdı yaxanı,*
*Tab eyləyim, necə dözüm bu dərdə?!*

*Çorlu Məhəmməd də yanıqlı bir dillə ermənilər tərəfindən qohum-əqrəbasının qırılmasından söz açır.*

*Qohum-qardaş qırılıbdı,*
*Qanlar axıb durulubdu.*
*Nahaq divan qurulubdu,*
*Qan ağlayır dilim mənim.*

*Ağbaba ağız ədəbiyyatında önəmli yer tutan janrlardan biri də aşıq rəvayətidir. Bu kitabda xeyli aşıq rəvayətləri ("Aşıx Şenniyin Mumuxan səfəri", "Pəhlivan Ağaynan Çələbi pəhlivanın görüşməyi", "Aşıq Nəsivin İrşidi səfəri", "Haxverdi Qarammədoğlunun əhvalatı", "Novruz", "Yetim Tafdığın pendir-yağ əhvalatı", "Qara Əyyarnan Uz Hasanın görüşməyi" və b.) toplanmışdır. Bu aşıq rəvayətlərindən "Aşıx Nəsivin Çivinniyə gəlif Usda Allahyarı tərif eləməsi"ndə göstərilir ki, yolda Alaşa (Aşıq Nəsibin atı) sahibini incidir. Aşıq Nəsib acıqlansa da Alaşanı qamçılamır, "tə'rifləyir". Həmin qoşmada atın bütün pis vərdişləri duzlu-məzəli bir dillə təsvir edilir:*

*Genə nə oldu ki, tutdu tərsliyin,*
*Ayqırdan, köhləndən qoçax Alaşa.*
*Halsızsan, ayağın qatdanır, nədi?*
*Olufsan laf betər naçax, Alaşa.*

*Göyçək yeriyirsən addımbaaddım,*
*Bəs niyə duruxdun, mənzilə çatdın?*
*Səni sınıx gördüm, dərdim unutdum,*
*Girli olmaq sənə yasaq, Alaşa.*

*Yolda saman olmur, onu az ara,*
*İnsaf et, məni də salma azara.*
*Yoxsa göyçək atsan gəldin nazara?*
*Nazarlı gözlərə bıçaq Alaşa.*

*"Yetim Tapdığın pendir-yağ əhvalatı"nda göstərilir ki, Yetim Tapdıq Gümrüyə satmağa bir az yağ-pendir aparır. Orada oğrular onun ümidini puça çıxarır, nəyi varsa oğurlayıb aparırlar. Kişi əliboş arvad-uşağın yanına qayıdacağından bərk narahat olur. Həmin rəvayətdəki "Qara baxtım" adlı qoşma təkcə onun özünün deyil, bütöv bir millətin sonsuz dərdi, kədəri kimi ümumiləşdirilir. Bu narahatlıq qəm-kədər dolu bir rəvayətə çevrilir.*

*Üzün qara olsun, bir gün sən də qalx,*
*Qolumdan bir yapış, ay qara baxtım.*
*Mənə canın yanmır, uşağı düşün,*
*Arvadı da üstə say, qara baxtım.*

*Əlinə gələni yox eləyirsən,*
*Dığanı-doydurub tox eləyirsən.*
*Gücün mənə çatır, "xox" eləyirsən,*
*Vermirsən bir qismət, pay, qara baxtım.*

*Tapdığın canını yığdın boğaza,*
*Arvad-uşaq necə çıxacaq yaza?*
*Başıma gətirdin olmazın qəza,*
*Heç mənə vermədin hay, qara baxtım.*

* * *

*Topluya daxil olan mətnlərdə dil baxımından iki üslub nəzərə çarpır. Ədəbi dil normalarına yaxın mətnlər ziyalılar tərəfindən toplanmışdır. Əksər mətnlər isə birbaşa söy-*

*ləyicilərdən yazıya alındığı üçün onlarda xalq danışıq tərzi aha çox qorunmuşdur.*

*Ağbabalıların mənəvi dünyasını, ruhunu və azadlıq ideyasını, İnsan və dünya münasibətlərində reallaşan estetik idealını daşıyan xalq yaradıcılığı, ağız ədəbiyyatı mükəmməl sənət nümunəsi kimi milli və bəşəri dəyərləri özündə ehtiva edir. Xalqın sevinci və kədəri, vüsalı və həsrəti, nisgili və kədəri, gülüşü və göz yaşı bu nümunələrdə öz əksini tapıb. Ağbaba folklorunun mədəni-mənəvi dəyəri nədirsə, ağbabalının da mənəvi-estetik, ədəbi-fəlsəfi statusu odur.*

*Ağbaba bölgəsi (Amasiya rayonu) də qürbətdə qalan vətənlərimizin bir hissəsidir, əsarətdə qalan yurd yerimizdir. Şübhə etmirəm ki, folklorumuzun geniş miqyasda öyrənilməsi, folklor işinin müqəddəs mahiyyət daşıması və bu işin dövlət səviyyəsində dəstəklənməsi ilə genişlənməsi xalqımızın ruhi-mənəvi dünyasında böyük tərəqqini tə'min edəcək. Ruhu və mənəviyyatı yüksələn xalqın yurd yerləri əsarətdə qalmayacaq - mən buna inanıram!*

*HÜSEYN İSMAYILOV*
*f.e.n., dosent.*

# I. MÖVSÜM-MƏRASİM NƏĞMƏLƏRİ

## HOLAVARLAR

Holavarlar əkinçiliklə bağlı mövsümi nəğmələrdi. Ağbaba-Qars-Axılkələk ellərimizdə əkinə, adətən, aprelin sonlarında, mayısın (may) əvvəllərində çıxardılar. Holavarlar kotana məjgala, hodağa, eləcə də əkinçilərin yanından keçib gələn qız-gəlinlərə də deyilirdi. Əvvəlcə kotanın xopunu zodlayardılar, yəni dəmirçixanada döyüb itiləyirdilər. Əkinə hazırlıq görülürdü, məjgallar, xodaqlar müəyyən olunurdu. Məjgal cütün, xışın və ya kotanın məcindən (dəstək) tutan adama, boyunduruqda oturanlara hodaq deyirdilər. Əkində hər şeyə cavabdeh, əkinçilərə başçılıq edən məjgal idi. O, yeri gələndə hodaqları möhkəm cəzalandırırdı. Hər kotana üç boyun öküz qoşulurdu. Hodaqları öz işinə görə: boyun, qaraqayış, xorazan hodağı adlandırırdılar. Xorazan hodağı o biri hodaqlara nisbətən boylu-buxunlu idi. O, lazım gələndə məjgalı da əvəz edə bilərdi. Hodaqlar öküzlərə diqqət etməli idilər ki, xərək qalmasın. Xərək əkilməyən zolaq yerə deyirdilər. Kotanın torpaqda açdığı şırıma haqos deyirdilər. Əkinçilərin işini onda bəyənirdilər ki, yeddi haqos yoxlansın. Bundan ötrü möhkəm çubuğu əkilmiş yerə sancır, çıxarırdılar. Əgər çubuq bir yerə ilişsə, dərhal o yeri qazıb təmizləyir, xərəyi aşkara çıxarırdılar. Harosu (bir neçə il əkilməmiş yer) qırdırmaq (əkdirmək) üçün pukur deyilən kotandan, xamı (əkilməyən yer) əkmək üçün voronsov kotanından istifadə edirdilər. Pukurun xopunun qabağında iti qılıncı var idi. O, torpağı kəsib gedir, xop isə çevirirdi, ancaq voronsov kotanın bir neçə xopu vardı. Pukura 5-6 boyun, voronsova 12 boyun öküz qoşulurdu.

Adətən, işə hələ gün çıxmamış başlayırdılar. Səhər-səhər əkin sahibinin adamları əkinçilərə isti-isti xəşil, mafış, lalanda, pişi və s. gətirirdilər. Yemək yeyəndən sonra yenidən işə başlayırdılar. Günorta olan kimi öküzçülər (onlar iki nəfər olurdu, gündə  biri işləyirdi) öküzləri açıb suvarır, otlağa gətirirdilər. Xəşil, şilə aşı, qatıq, ayran aşı və s.  günorta yeməkləri idi. Yemək yeyiləndən sonra qatıqdan atlama düzəldir, içirdilər, çünki atlama yuxu gətirici idi. Bundan sonra dalda bir yer tapıb məjgal da, hodaqlar da bir-iki çimir alırdılar. Axşam olanda yenə xəmir

xörəklərinə üstünlük verirdilər. Əkin işi ağır idi. Həftənin bir günü dincəlirdilər. Əkinçilər yuyunur, təmizlənir, paltarını dəyişir, camaat içinə çıxardılar. Səpin də, əkin də növbəli aparılırdı, yəni bir tərəfdən də əkilən yer səpilirdi. Toxum səpən adamlar səriştəli olurdu. Adətən, əkin yerinə iki dəfə toxum səpirdilər. Bu vaxt ona diqqət yetirirdilər ki, toxum nə az, nə də çox olmasın-normal səpilsin. Bundan sonra toxumu dəmir dırmıqla (zırzaqla) dırmıqlayır, tapanla tapanlayırdılar. Tapan kəsəkləri əzir, əyri yerləri düzəldirdi.

Adətən, holavarı məjgal başlayır, hodaqlar davam eləyirdi.

## KOTANA DEYİLƏN HOLAVARLAR

Məjgal: Pukurun qılıncı var,
Yaxşı iti ucu var.
Hodax, ho de.

Hodaqlar: Hoo, hoo, ho, hoo.
Başa ha, başa ha, başa ha, başa ha.

Məjgal: Xozeyinin bizdərə,
Kəsmək üçün qoçu var.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, ho, hoo.
Başa ha, başa ha, başa ha, başa ha.

Məjgal: Kotanın xopu olar,
Gədənin gopu olar.
Hodoq, ho de.

Hodaqlar: Hoo, hoo, ho, hoo.
Başa ha, başa ha, başa ha, başa ha.

Məjgal: Məjgalın da üzünə,
Açılan qapı olar,
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, ho, hoo.
Başa ha, başa ha, başa ha, başa ha.

## QIZ-GƏLİNƏ DEYİLƏN HOLAVARLAR

Məjgal: Qırmızı don bəri gəl,
Hasan qızı, Pəri, gəl.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, ho, hoo.
Dördünə ha, dördünə ha, dördünə ha, dördünə ha.

Məjgal: Sonra peşman olarsan,
Gəl incitmə, əri, gəl.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, ho, hoo.
Dördünə ha, dördünə ha, dördünə ha, dördünə ha.

Məjgal: Uzaq getmə yaxın dur,
Qəlbim sənə yaxındır.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, ho, hoo.
Dördünə ha, dördünə ha, dördünə ha, dördünə ha.

Məjgal: Sən mənimsən, mən sənin,
Öz işinə bax indi.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, ho, hoo.
Dördünə ha, dördünə ha, dördünə ha, dördünə ha.

Məjgal: Özünə gülsən, özün gül,
Gül əndamlı, gül əyin.
Hodaq, ho de.

Hodaqlar: Dördünə ha, dördünə ha, dördünə ha, dördünə ha.

## MƏJGALLARA DEYİLƏN HOLAVARLAR

Xorazan: Məjgal, qüvvət qoluna,
İşin düşüb yoluna.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Baravar ha, baravar ha, baravar ha, baravar ha.

Xorazan: Bir qız sənə vurulub,
Ay sənin xoş halına.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Baravar ha, baravar ha, baravar ha, baravar ha.

Xorazan: Məjgal olan yana bax,
Bax, bu gələn cana bax.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Baravar ha, baravar ha, baravar ha, baravar ha.

Xorazan: Əvvəl arıq qız idi,
Dolub ətə-qana bax.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Baravar ha, baravar ha, baravar ha, baravar ha.

Xorazan: Kotan gedər iz açar,
Qara torpaq göz açar
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Baravar ha, baravar ha, baravar ha, baravar ha.

Xorazan: Gəlib gedən qız-gəlin,

Məgjaldan da söz açar.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Baravar ha, baravar ha, baravar ha, baravar ha.

## HODAQLARA DEYİLƏN HOLAVARLAR

Məjgal: Xaşıl tavası hanı,
Hodaq havası hanı?
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Başa ha, başa ha, başa ha, başa ha.

Məjgal: Yuxu tutdu yıxıldı,
Bunun qafası hanı?
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Başa ha, başa ha, başa ha, başa ha.

Məjgal: Xərək qoyma, yaxşı ək,
Tənbəllikdən gəl əl çək.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Başa ha, başa ha, başa ha, başa ha.

Məjgal: Alnından tər süzülsün,
İşə qatdan, zəhmət çək.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Başa ha, başa ha, başa ha, başa ha.

Məjgal: Haqosa diqqət elə,
Özünü al bir ələ,
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Başa ha, başa ha, başa ha, başa ha.

Məjgal: Boşunamı gedirsən?
Gədə, belədən-belə.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Başa ha, başa ha, başa ha, başa ha.

Məjgal: Huşun başında olsun,
Əlin işində olsun.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Başa ha, başa ha, başa ha, başa ha.

Məjgal: Döyülərsən boş yerə,
Canın dişində olsun.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Başa ha, başa ha, başa ha, başa ha.

## ÖKÜZLƏRƏ DEYİLƏN HOLAVARLAR

Məjgal: Yetişib yaz, öküzüm,
Eyləmə naz, öküzüm.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Baravar ha, baravar ha, baravar ha, baravar ha.

Məjgal: İşə olan həvəsdən,
Gəlir avaz, öküzüm.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Baravar ha, baravar ha, baravar ha, baravar ha.

Məjgal: Öküzlər qoşa gedər,
Ayaqdan başa gedər.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Baravar ha, baravar ha, baravar ha, baravar ha.

Məjgal: Məjgal məcdən yapışar,
Hodaqlar huşa gedər.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Baravar ha, baravar ha, baravar ha, baravar ha.

Məjgal: Öküz tər tökər gedər,
Torpağı əkər gedər.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Baravar ha, baravar ha, baravar ha, baravar ha.

Məjgal: Tutar yerin damarın,
Bağırın sökər gedər.
Hodaq, ho de.

Hodaqlar: Hoo, hoo, hoo, hoo.
Baravar ha, baravar ha, baravar ha, baravar ha.

## NOVRUZ MƏRASİMLƏRİ

Ağbabada Novruz bayramı hələ Novruza 30-40 gün qalmış bir sıra mərasimlərdən sonra başlanırdı. Bu mərasimlər Xıdırelləz, Kürdoğlunun qayada qalması, çillə çıxarmaq, külfə ilə danışıq (ilk niyyət), duzlu kökə və ya duzluca yemək, aş qoymaq və s. ibarət idi.

Xıdırelləz boranı fevralın onundan başlanırdı. Boran 10 gün davam edirdi. Ağbaba kəndlərində sacda qovrulan buğda əl dəyirmanında, yəni kirkirədə çəkilər (üyüdürlər), qovut edilərdi. Sonra bu qovut iri qabda ovulub (quru qovudun içinə yağ, şəkər tozu və su əlavə edilərdi) xəlvət bir otağa, pəncərə qabağına qoyulardı. Səhər olunca onun üstünə diqqətlə baxar, Xıdırelləzin qamçısının izini tapmağa çalışardılar.

Fevralın 19-da Kürdoğlu qayada qalırdı.

Bu əfsanəni danışan Ağbaba ağsaqqalları həmişə belə deyərdilər: “Kürdoğlu qayada qalan günü yer nəfəslənir, küpədəki yağ şəhrlənir.

Martın əvvəllərində quş boranları deyilən boranlar başlanırdı. Əvvəlcə sığırçının boranı, ondan sonra durnanın boranı olurdu. El içində belə deyirdilər: “Səkkizə qalmaz, doqquza gəlməz“. Yə’ni durna gecə gələr.

Quş boranlarının dalınca niyyət gecələri gəlirdi.

Həftənin ikinci günü, yə’ni çərşənbə axşamı (buna Ağbabada “tək günü“ deyirdilər) qaranlıq basan kimi bir nəfər nisbətən ürəkli qadın evin təndir damına gedər, külfənin qarşısında durub deyərdi: “A Bacıxanım, hacı Kərimin sağ olsun, mənə qardaşımdan, atamdan bir xəbər... Guya bu zaman külfədən səs gələrmiş. Həmin qadın niyyət edib yatarmış. Əgər yaxşı yuxu görsə, onun niyyəti qəbul ediləcəkdir.

Elə həmin günlərin birində, növbəti çərşənbə axşamında 10-11 yaşlı uşağa duzluca və ya duzlu kökə (buna xalq içində kökə də deyirlər) bişitdirirdilər. Yeniyetmə qız ilə oğlanlar duzluca yeyib yatardılar. Hər kəs yuxuda kimi görsə, o, onun butası hesab olunurdu. Duzluca niyyətinə aid iki misala diqqət yetirək. 90 yaşlı Həsən baba (Güllücə kəndi) deyir: “Mən duzluca yeyib yatanda yuxuda gördüm ki, Qaranamaz kəndindən olan bir qız mənə su verdi: 60 yaşlı Reyhan xala (Təzə İbiş kəndi) danışır ki,

“Mən duzluca yeyib yatanda gördüm ki, Abbas ağam (Ağbabada böyük qayına gəlinlər “ağa“ deyirlər) bir parçda su verib dedi ki, al iç, bu suyu bizim Əhməd mənə verdi ki, ver Reyhana“.

Gələn çərşənbə axşamı günü bir qab suya bir neçə cavan üzük salırdı. 10-11 yaşlı bir oğlanın gözlərini bir qırmızı parça ilə bağlayırdılar. Bundan sonra oğlan əlini qaba atıb bir üzük çıxarırdı. Həmin vaxt kimin üzüyü ilk dəfə çıxsa, onun mətləbi hasil hesab olunurdu.

Aş, xəşil bişirib çərşənbə axşamı günlərinin birində (III çərşənbə axşamı) dam üstünə, qalaq başına qoyardılar. Quş xəşili və ya aşı götürüb ha tərəfə aparsa, aşı və ya xəşili niyyətlə ora qoyan yeniyetmənin sevgilisi o tərəfdə olardı, butası o tərəfdə müəyyən edilirdi. Qəribədir ki, aş qoymaq, duzluca yemək, ümumiyyətlə, hər iki niyyət çox sınaqlı sayılar, təbii ki, bütün yeniyetmələr tərəfindən xüsusi zövqlə yerinə yetirilərdi. Bunu təsdiq etmək üçün əvvəlki iki misalı (duzluca ilə bağlı misalları nəzərdə tuturuq) eynilə aş qoymaq niyyətinə də şamil edək. Daha doğrusu, Həsən baba və Reyhan nənənin bu barədə dediklərinə diqqət yetirək. “Qalağın üstünə qoyduğum aşı quş götürüb Qaranamaz tərəfə uçdu“. (Həsən baba). “Damın üstünə qoyduğum aşı quş götürüb düz Əhmədgil tərəfə uçdu“. (Reyhan nənə) misalları duzluca niyyətinin nəticəsi ilə eyniyyət təşkil edir, yə’ni buta tam müəyyən olunmuşdur.

Ağbabada kiçik çillədə “çillə çıxarmaq“ da çox sınaqlı, gərəkli heçab edilirdi. Bu, adətən, yeniyetmələr tərəfindən icra edilərdi.

Kiçik çillə Ağbabada çox sərt keçərdi. Çillə çıxarmaq üçün iri bir qab götürürdülər, bir qızı isə su gətirməyə göndərirdilər. Qız suyu yolda gətirəndə də, qaba tökəndə də danışmamalı idi. Ona “lala gəlin“ deyərdilər. Suyu qaba tökən kimi xam iynə, xam pambıq götürərdilər. İynənin ucuna pambıq dolayıb qarşı - qarşıya iki iynəni suya salardılar. Əgər iynələr baş-başa toqquşsa, o zaman niyyət edənin arzusu çin olardı. İynələr toqquşmasa, suya batsa, bunun əksi sayılardı. Bu mərasim vaxtı yemək - içmək hazırlanardı, ara xəlvət olardı. Yə’ni mərasim keçirilən evdə böyüklərdən heç kəs olmamalı idi. Evin adamları qonşugilə gedərdilər. Qızlar otağın tavanına,  karana (ağaca) kəndir keçirir, onun hər iki ucunu sayırtmac eləyib, arasına bir taxta

parçası qoyub yelləncək hazırlayardılar. Buna el içində "küflən getmə" deyərdilər. Bir qız yelləncəyin üstə dururdu. Onun sağ və solunda duran qızlar yelləncəyi yavaş-yavaş yelləyirdilər. Bu vaxt yelləncəkdə olan qız nanaya başlayırdı. Otaqdakı qızlar dərhal yelləncəyin ətrafında yallı gedirdilər.

Novruza üç çərşənbə qalanda birinci çərşənbə axşamı günü tonqal qalanar, böyük-kiçik tonqalın üstündən atılardı, tonqal qalama hər üç çərşənbə axşamı yerinə yetirilərdi.

İkinci çərşənbə axşamı günü evin tavanını unla naxışlar, otaqları silib-süpürərdilər. Bir neçə çubuğu bir-birinə köndələninə iplə sarıyıb çatma düzəldərdilər. Onun üstündə 10-11 yaşlı bir oğlanı oturdurdular. Onun qabağına bir qabda su və güzgü qoyurdular. Elə edirdilər ki, güzgünün işığı suyun içinə düşsün. Bundan sonra oğlanın başına bir qırmızı parça örtürdülər. Cavanlar növbə ilə ürəklərində bir qızı niyyət eləyib parçanı qaldırar, oradan suyun içinə baxardılar. Guya bu zaman suda kimin əksi görünsə, o qız oğlanın butası sayılardı.

Axırıncı tək günü hər evdə, ocaqda qazan asılar, ulu babalar yad edilərdi. Çünki bu gün ulu babaların ruhları bacaya dolanar, evə diqqət yetirər. Evdə sakitlik, qazan asılması bununla əlaqədar idi. Əski inama görə əgər evdə sakitlik olsa, ulu babanın adına qazan asılsa, evin ətrafına dolanan ulu babanın ruhu şad olar. Bu, evdə bərəkət, bolluq, bunun əksi isə qatlıq və bədbəxtliklə nəticələnər deyə-fikirləşirdilər. Çünki evdə bu vaxt qazan asılmaması, hay-küy evin ətrafını dolanan ulu babanın ruhuna xoş gəlmədiyindən o perikir, bir də öz ocağının başına dolanmağa gəlmir. Çərşənbə axşamı günü (2-ci çərşənbə axşamı) gecəsi "yeddiləvin" (löyün) gecəsi adlanırdı. Bu vaxt hər bir evdə bayram süfrəsi hazırlanar, ortaya yeddi növ meyvə və s. düzülərdi. Bunların içində südaşı və ya südlü aş da diqqəti cəlb edərdi.

Mart ayının iyirmi biri "baca-baca günü" adlanır. Bu gün əvvəlcədən tikilmiş çantalar çiyinlərə taxılır, uşaqlar martın iyirmi birindəki gecə il təhvil gecəsi (buna Ağbabada "il təhfil gecəsi" deyirdilər) adlanırdı. Həmin gecə bütün adamlar çox erkən qalxar, bulaqdan evə dinməzcə su gətirər, bulaqdan, mustuğun içindən bir neçə daş götürərdilər. Suyu evə gətirən kimi evin hər küncünə bir qədər su çiləyib bir daş atar, yağ küpəsinin yanına da bir daş qoyardılar. Mal-qoyunun üstünə də azca su çilən-

məsi yaddan çıxmazdı. Su çiləmək aydınlıq, daş qoymaq isə bərəkətin, xoşbəxtliyin evdə, ocaqda qalması demək idi.

İlin təhvil olunduğu gecə “sulaşma“ deyilən hadisə də olardı. Bu vaxt evdə yatanda yatanların üzünə su çilənərdi. Bu qərəmətin, yə'ni tənbəlliyin aradan qalxması, adamların da ayıq olmasını arzulamaq idi. Heç kəs su çiləməyə görə narazılıq edə bilməzdi, təbii ki, el adətinə xilaf çıxmaq olmazdı.

Novruzda bir neçə nəfər qırmızı parçaya bürünüb “dəvə“ olar, zurna-balaban sədaları altında dəvəsayağı hərəkət edər, oynayardılar, rəqs edərdilər. Bu vaxt “dəvə-dəvə“ oyunu da diqqəti cəlb edərdi. Cavanlar yarımdairə şəklində bir-birinin çuxasının büzməsində xalq oyunçularına məxsus zövqlə, məzəylə ləngərlənə-ləngərlənə oynayardılar. Bir neçə nəfər isə qırmızı parçaya bürünüb “maral“ olar, qara zurnanın sədaları altında maral kimi hərəkət edər, camaatı əyləndirərdi. Ağbabalı qocaların dediklərinə görə ta 20-ci yüzilliyin 30-cu illərinə qədər Novruz bayramında cavan oğlanlar yaşıl çuxa, qızlar-gəlinlər yaxası göy, qırmızı və yaşıl rənglərlə işlənmiş bədənlik (bu bədənliyin arxası qırmızı rəngdə olardı), açıq və ya tünd qırmızı don geyib, ayaqlarında başmaq oynayardılar.

Novruz bayramı Ağbabada martın başına qədər davam edərdi. Mart qurtarınca qəfildən qar yağar, boran olardı. Bu cəmi üç gün davam edərdi. Buna xalq içində “xərc-borc“ və “xərc-borcdan təmizlənmə“ deyərdilər. Aprelin 1-dən 3-nə qədər “xərc-borc“, aprelin 4-ü isə “xərc-borcdan təmizlənmə“ adlanardı. Martın sonlarında bə'zi yerlərə alaca düşər, danaqıran, otla örtülü təpələr üzə çıxardı. Qoyun-quzu yavaş-yavaş, mələşə-mələşə baharın sədasını alıb bu təpə və yamaclara yayılardı. “Xərc-borc“ vaxtı qoyun-quzu eşiyə çıxa bilməzdi. Bununla bağlı Ağbabada “Mart və qarı“ (bu rəvayət  “Dəli mart” və “Qarı” da adlanır) əfsanəsi vardır.

## GÖRÜŞMƏLƏR, DEYİŞMƏLƏR

Martın iyirmi biri günü bulaq başı qələbəlik olardı. Bu zaman ürəyində sözü olan cavanlar onu bayatı ilə istədiyi qıza deyərdi. Oğlanlar burada çox qala bilməzdilər, çünki yaşlılardan, yə'ni ağsaqqallardan, ağbirçəklərdən həya edərdilər. Həm də oğlanın ərgən qızın yanında görünməsi yaxşı hal sayılmırdı. Odur ki, bu görüşlər atüstü olardı. Görüşmələrdə, deyişmələrdə qızın verdiyi cavab hər şeyi həll edirdi. Əlbəttə, qız cavabı bayatı ilə deyirdi.

**1. OĞLAN:**

Araqçını yana qoy,
Tellərinə xına qoy.
Ölürəm səndən ötrü,
Bu işə bir bina qoy.

**QIZ:**

Araqçını qoymuşam,
Tellərimi saymışam.
Atam vermir, götür qaç,
Dərd əlindən doymuşam.

**2. OĞLAN:**

Araqçının tər-təzə,
Dodağında söz-məzə.
Mən bəy olum, sən gəlin,
Gəl bizim evi bəzə.

**QIZ:**

Araqçının təzədi,
Mənimki naz, məzədi.
Oğlan, bəlkə evini,
Bir başqa qız bəzədi.

**3. OĞLAN:**

Birçəklərin qızıldan,
Donun ipəkdən-şaldan.

Tanrı özü qorusun,
Gözəl, səni zavaldan.

**QIZ:**

Birçəkliyim qızıldı,
Donum ipəkdi, şaldı.
De sevirəm, könül ver,
Deyim yar könül aldı.

**4. OĞLAN:**

Durubsan yenə başda,
Dingə tacdımı başda?
Mənim gözüm qalıbdı,
O kiprikdə, o qaşda.

**QIZ:**

Lal üzümə ha baxnan,
Nə çıxar qaş-qabaxnan.
Dingəm qaçmır yerinə,
Danış, məni qabaxla.

**5. OĞLAN:**

Araqçının bahadı,
Donun çox isbahadı.
Sevənin var, yoxsa yox?
Gümanım Allahadı.

**QIZ:**

Araqçının bahadı,
Donum çox isbahadı.
Deyən məni sevirsən,
Gümanım Allahadı.

**6. OĞLAN:**

Qantarın başı şümal,
Özün çiçək, mahcamal.
Cınqırı əy, su içim,
Könül qırma, könül al.

**QIZ:**

Ay boyu şümşad oğlan,
Damağında dad oğlan.
Könül qıran deyiləm,
Könlün olsun şad, oğlan.

7. **OĞLAN:**

Araqçınlı, bəri gəl,
Ağbaba dilbəri, gəl.
Qaş-qabaqdan nə çıxar?
Danış, de-gül, bəri gəl.

**QIZ:**

Ay qarabığlı oğlan,
İtirmə ağlı, oğlan.
Ürəyimə giribdi,
Başqa el oğlu, oğlan.

**8. OĞLAN:**

Bulağın gözünə gəl,
Sevdanın düzünə gəl.
Taylarına toy olur,
Bir ayıl, özünə gəl.

**QIZ:**

Boyu bəstə, gələrəm,
Olub xəstə gələrəm.
Təki görüm bir səni,
Bulaq üstə gələrəm.

## BƏXTİ BAĞLI QIZLARIN BULAQ ÜSTƏ GETMƏSİ

Eldə-obada nişanlısı ölən, üstündə qan düşən qız həmişə təndir başında oturar, od-ocaqdan xoşbəxtlik diləyər. Həmin qız ilaxır çərşənbə günü çox erkən, hələ quşlar yerindən qalxmamış, suyun pak vaxtı əlində bir açıq qıfıl bulaq başına gələr. Əl-üzünü yuyub bulağın gözündən içər. Qıfılı suyun içinə salar. Sonra o, sağ əli ilə açıq qıfılla bərabər, əl boyda bir daş da çıxarar. Qız sağ ayağını açıq qıfılın, sol ayağını daşın üstünə qoyub üzünü bulağa tutub belə oxuyar:

Səhər gözü açılıb,
Göyün üzü açılıb.
Neçə qızın, ay ana,
Sənə sözü açılıb.

Üstün ilə gül gəlsin,
Altından da sel gəlsin,
Bəxtimi aç, anacıq,
Şənliyimə el gəlsin.

Sənə qurban, ay anam,
Qoyma alışam, yanam.
Qismət ver, aç kilidi,
Şenlənsin odam-xanam.

Təndir başında qaldım,
Dərdin tuşunda qaldım.
Anam, öldür, ya dirilt,
Bulaq başında qaldım.

Çaldırmışam çalmamı,
Məni bilir gül hamı.
Anam qurban gözünə,
Ver qırmızı almamı.

Qız sözünü qurtaran kimi bulaqdan götürdüyü daşla qıfılı öz otağına aparır. Yeddi gün qıfılla daş onun otağında saxlanılır. Yeddi gündən sonra qıfıl bir yerdə gizlədilir, daş isə bulağa atılır.

## PAPAQALTI

Papaqaltı oyunu ilaxır çərşənbədə keçirilir. Bu vaxt bir evdə süfrə açılır. Yeddi oğlan öz papağını çıxarıb ortaya qoyur. Bir nəfər bir qızıl üzüyü o papaqlardan birinin altında gizlədir. Həmin oğlan üzüyü gizlədəndə belə oxuyur:

Bir üzük, yeddi papaq,
Ərlər, bir oyun yapaq.
Bəxtli kimdi burdaca,
Gəlin arayaq, tapaq.

Üzüyü tapan cavan ilin ən baxtlısı kimi qəbul edilir. O biri oğlanlar onu əhatə eləyib oynaya-oynaya oxuyurlar:

**I OĞLAN:**

Bəxtli olan başa keç,
Yandan dur, dörbaşa keç,
Başımıza sağ əlin,
Ay səni min yaşa, keç.

**II OĞLAN:**

Bəxtli igid, başda dur,
Sənin yerin başdadı.
Deyək-gülək, oynayaq,
Şənlik, məclis başdadı.

**III OĞLAN:**

Ay baxtlı olan oğlan,
Baxtını bulan oğlan.
Biz də bir şövqə gələk,
Meydanı dolan, oğlan.

Bu vaxt altı oğlan yallı tutub bəxtli oğlanın ətrafında dövrə vurur, o, ortada tək oynayır. Dövrə vurub oynayan oğlanlar xorla oxuyurlar:

Hayın-harayın olsun,
Tanrıdan payın olsun.
Səni görək biz qoşa,
Tezliklə toyun olsun.

Oyun başa çatan kimi bəxtli oğlan sağ əlini o biri oğlanların başına çəkəndən sonra, sürfənin başına keçir, o biri oğlanlar da əyləşir.

## YAYLIQALTI

Yaylıqaltı oyunu ilaxır çərşənbədə keçirilir. Bu vaxt bir evdə sürfə açılır. Yeddi ərgən qız öz yaylığını ortaya qoyur. Bir nəfər yaylıqlardan birinin altında bir qızıl üzük gizlədir. Üzüyü gizlədən qız o biri qızların saçlarını qarışdırır. Üzüyü tapan qız ilin ən bəxtli qızı kimi qəbul edilir.

Dərhal o biri qızlar onu əhatəyə alıb oynaya-oynaya oxuyurlar:

**I QIZ:**

Yollara gül döşə, çıx,
Qız, baxtınla başa çıx.
Oyna, meydan sənindi,
Əl xınalı, baş açıq.

**II QIZ:**

Nanay çağır səs, elə,
Ay qız, bir həvəs elə.
Bu yığnaqdan söhbət aç,
Bir bizlərdən bəhs elə.

**III QIZ:**

Sağ əlini başa çək,
Ağ bıçağı daşa, sək.
Sürfə bizi gözləyir,
Gəl özünü başa çək.

Bu vaxt altı qız bəxtli qızın ətrafında yallı gedir. O qız ortada tək oynayır. Oyun bitən kimi bəxtli qız sağ əlini bi-bir qızların başına çəkib sürfənin başında əyləşir, o biri qızlar da əyləşəndən sonra bəxtli qız bıçağı daşa çəkib bir qırmızı almanı dilimləyib qızlara paylayır.

## VƏSFİ-HALLAR

Oğlan, adın Mustafa,
Ağzın gül, qoynun səfa.
Nə mən öldüm qurtardım,
Nə sən gəldin insafa.

İrəvan ağ olaydı,
Dörd yanı bağ olaydı.
Mən getdiyim oğlanın
Anası sağ olaydı.

Akuşqada boyağam,
Yatmamışam, oyağam.
Nə qaş-qabaq tökürsən?
Mən gedərgi qonağam.

Akuşkada quş mənəm,
“Kiş“ desələr, uçmaram.
Yarım qaş-göz eləyər,
Mən heç başa düşmərəm.

Arxalığın dizdən, yar,
Gəl qapıda gizlən, yar.
Anam sənə nə dedi?
Ayaq kəsdin bizdən, yar.

Ağ almanı dişlədim,
Dişlədim, gümüşlədim.
Qardaş gəldi, qıymadım,
Yar gəldi bağışladım.

Bu yola yol salaydım,
Karvana pul salaydım.
O qədər ölməyəydim,
Boynuna qol salaydım.

Oğlan, adın Yaqubdu,
Gün dağlarda doğubdu.
Verdiyin qızıl üzük,
Barmağımı boğubdu.

Göydə buludum səni,
Sərim qurudum səni.
Ölüm torpağa gedim,
Bəlkə unudum səni.

Su atdım yara dəydi,
Əlim divara dəydi.
Dilim-ağzım qurusun,
Nə dedim yara dəydi?

Göydə ulduz tək gedir,
Gah dayanır, gah gedir.
Qorxma, ürəhsiz oğlan,
Üstüncə Allah gedir.

Göydə ulduz qalmadı,
Dibəkdə düz qalmadı.
Yıxaram belə kəndi,
Qardaşa qız qalmadı.

Qardaş, atın beş olsun,
Əldə tərlan quş olsun.
Hər səfərə gedəndə,
İmamlar yoldaş olsun.

Qapı qapı tuşuna,
Qurbanam ov quşuna.
Adam da müştaq olar,
Qapı bir qonşusuna.

Çoban, qoyuna gedər,
Baxıb boyuna gedər.
Çobanın haq toğlusu,
Nişan toyuna gedər.

Qoyun gedər ağıla,
Südü yoxdu sağıla.
Çağırın xan çobanı,
Bəlkə düşmən dağıla.

Çoban itin qudursun,
Arxasınca su dursun.
Özünə qarğamıram,
Yengənin dili dursun.

Arxalığın dardarı,
Yeri, qoşun sərdarı.
Sən ki bizə gəlmədin,
Əmimgilə gəl barı.

Qara yar, ha qara yar,
Qara telin dara yar.
Gündüz yerin bilirəm,
Gecə yerin hara, yar?

Ay doğuf bədir Allah,
Günahım nədir, Allah?
Ya məni yara yetir,
Ya mənə səbir, Allah.

Tiflisdə fanaram mən,
Od tutub yanaram mən.
Qaş altdan göz eyləsən,
Arxayın qalaram mən.

Gözlərin, sini gözlər,
Tar çalan simi gözlər.
Qaşın kimi qaş olmaz,
Gözlərin kimi gözlər?

Ayım, ulduzum Pəri,
Ay göyçək qızım Pəri.
Qardaşına al məni,
Olum baldızın, Pəri.

Qara qazan qoldadı,
Sağda deyil, soldadı.
Duman çəkil, çən çəkil,
Yarım çıxıb-yoldadı.

Maniyə xoşum gəlir,
Ağlatma yaşım gəlir.
Çıxım gedim qapıya,
Bəlkə qardaşım gəlir?

Reyhan əkdim bitdimi?
Yara xəbər getdimi?
Eşitdim yar evlənib,
Muradına yetdimi?

Üşütmə tutdu məni,
Tutdu, qurutdu məni.
Neynirəm elə yarı,
Getdi, unutdu məni.

Bu dərə holuqludu,
Holuğu balıqlıdı.
Neynirəm elə yarı,
Ayağı çarıqlıdı.

Bu dərənin yovşanı,
Yüyrək olar dovşanı.
Gözəl ona demişəm,
Çəkilməsin kirşanı.

Qarşıda görünürsən,
Al kürkə bürünürsən.
İsitmən mənə gəlsin,
Nə məlul görünürsən?

Zənənə bax, zənənə,
Ağ otlaxdan enənə.
Dörd kitab qənim olsun,
İlqarından dönənə.

Ay oğlan, hərd eləmə,
Bostanı hərd eləmə.
Məni sənə verməzlər,
Özünə dərd eləmə.

Müxək əkdim gördülər,
Yetişməmiş dərdilər.
Bəxtəvərsən bəxtəvər,
Sevdiyinə verdilər.

Dağda xaşxaş əkəllər,
Xaşxaşa su səpəllər.
Sənin kimi qızdara,
Qənfet verib öpəllər.

Bacadan gəl, bacadan,
Köynəyi alacadan.
Məni sənə verməzlər,
Çəkil bizim bacadan.

Su gəlir buruq-buruq,
Suya vurma yumuruq.
Sevdin, ala bilmədin,
Get, şuluq oğlu şuluq.

Həvəsiynən,
Yar sevdim həvəsiynən.
Məni yardan ayıran,
Gün keçirsin yasıynan.

Ay lilparlı bulaxlar,
Üstü qarrı bulaxlar.
Yarım sizdən su içif,
Etibarrı bulaxlar.

Qara balıx sudadı,
Gözdəri yuxudadı.
Yara kasıf demiyin,
Mal verən o Xudadı.

Biçinçilər biçində,
Mənim yarım içində.
Köynək tikim göndərim,
Batdı qan-tər içində.

Yar getdi Balıqlıya,
Tapşırdım xalıqlıya.
Allah yazımı yazsın,
Bir qarapapaqlıya.

Kəkliyim səkər gedər,
Tükünü tökər gedər.
İki könül bir olsa,
Dağları sökər gedər.

Sarı ləngə üç ennən,
Sevdiyim dönmə mənnən.
Sıdqımı kəsmə belə,
Bir də görüşməm sənnən.

Dəyirman daşdı gərək,
Yar qələmqaşdı gərək.
Neynirəm qoca yarı,
Yar on beş yaşlı gərək.

Yar gəldi Ördəkliyə,
Tər tökdüm köynəkliyə.
Kasıbdı, kamallıdı,
Verməyin dövlətliyə.

Gedirəm beləsinə,
Çiyələm dərəsinə.
Alagöz əvdə yoxdu,
Od vurax məhləsinə.

İlana bax, ilana,
İlan yerdə dolana.
Yarı yoldan ayıran,
Torba sala dilənə.

Şilayı yastıq üzü,
Yar qoydu getdi bizi.
Əcəl sancısı tutsun,
Yarı öyrədən qızı.

Göydə ulduz beş nişan,
Yalandı sinə düşən.
Ya Hürüdü, ya Pəri,
Sevdiyinə qovuşan.

Əlində süd küləyi,
Süddən ağdı biləyi.
Yığılın, qohum-qardaş,
Hasil oldu diləyi.

Güzgü atdım bayıra,
Şövqü düşdü çayıra.
Yazan yazıb əzəldən,
Bəndə kimdi ayıra.

Çobanam qoynunuza,
Babalım boynunuza.
Ya məni evləndirin,
Ya alın qoynunuza.

Yar getdi, bayax getdi,
Cibində boyax getdi.
Mənim fikir-xəyalım,
Gedənlə bəyax getdi.

Çoban, itin aladı,
Yeri tala-taladı.
Gündüz yerin bilirəm,
Gecə yerin haradı.

Qaya başında çaşır,
Qolun boynumnan aşır.
Qolundakı bilərzik,
Kəkilimə dolaşır.

Ay qız, adın Nisənə,
Qənfet verim yesənə.
Anan evdən çıxanda,
Gəlib mənə desənə.

Dürməyi tutan oğlan,
Qaşını çatan oğlan.
Qoymur məni alasan,
Zalımdı atan, oğlan.

Dərdə-qəmə mola ver,
Pulun ipək şala ver.
Mən sənə gəlməm, oğlan,
Uzaqdadır Dələver.

Ağbabanın mazı var,
Gölün ördək-qazı var.
Modatəpə qızının,
Necə işvə-nazı var.

O qızın ərki nədən,
Dünyanı dərki nədən.
Gedişi ər evindən,
Gəlişi Ərginədən.

Bir düyməc ov, ver yeyim,
Açım sənə sirr deyim.
Doğru sözüm budur ki,
Mən bəy olum, sən bəyim.

Güllü gözəldi güldən,
Çalışar canı dildən.
O da uçub gedəcək,
Ər evinə bu ildən.

Örtmə üstən baxan yar,
Döşünə gül taxan yar.
Xulqumanın tərs qızı-
Məni oda yaxan yar.

Pıçanın qızı budur,
Donu qırmızı budur.
Xoş halına, ay oğlan,
Qızların gözü budur.

Sinəbəndin açma gəl,
Başıma iş açma gəl.
Deyiklim ayrı qızdır,
Qanadlanıb uçma gəl.

Burda kafir yer aldı,
Bərkidi, binə saldı.
Müsəlmanı qovdular,
Xocabəy urus oldu.

## TOY ADƏTLƏRİ

Ağbabada toy üçün hazırlıq bəlgə, nişan və toydan ibarətdir. Qızqaçırma da Ağbabada geniş yayılmışdır. Bunun səbəbləri müxtəlif olsa da, mərkəzində ya kasıblıq, ya da atanın qızını verməməsi - bir sözlə ailə qurmaq istəyən gəncin qabağında çətinlik durur, bunu da həll etmək üçün o, son çarəyə - qızqaçırmağa (əlbəttə, qızqaçırmanın əksəriyyətində qızın razılığı olmalıdır. Zorla qızqaçırmaya az təsadüf olunur) qərar verir. Bundan sonra oğlanın ata-anası bir neçə ağsaqqalla qız evinə gəlir. Buna barışıq deyirlər. Barışıq zamanı kəsim kəsilir (nə qədər ət, düyü, çörək, yağ, çay, qənd lazım olacaq miqdara kəsim deyilir). Barışıq ona görə bağlanır ki, oğlanın toyuna qız tərəfdən gələnlər olsun, bir növ qız tərəfin də xeyir işə xeyir duası alınır. Bundan sonra toy başlanır.

Toy iki hissədən ibarətdir. Qız və oğlan toyu. Qız toyu üçün əvvəlcədən oğlan evi kəsilən kəsimdə göstərilənləri (ət, yağ, düyü, içki, çay, qənd və s.) qız evinə verir, habelə toyçuları (nağara vuran, zurnaçı və dəmkeş) da oğlan evi gətirdir. Nəhayət, toy başlanır. Qız toyu bir gün yarım, oğlan toyu yarım gün davam edir. Qızın (gəlinin) sağdış və soldış adlı iki bacısı olur. Qız yengəsi gəlini bəzəyir. O, telkəsmə adlanan gəlin bəzəmə vaxtı ev sahibindən pul alır. Qızın belinə kəməri böyük qardaş bağlayır. Sonra onun əlindən tutub təndiri, ocağı dolandırırlar. Qız od-ocaqla vidalaşır, dədə ocağından özünə kömək istəyir, xeyir-dua alır. Bu vaxt gəlin belə oxuyur:

Anam, anam öz anam,
Qoynu dolu göz anam.
Bir günümə dözmürsən,
Min günümə döz, anam.

Yar gedir hamam yoluna, yoluna,
Qızıl bilərzik qoluna, qoluna...

Çiyələk çiçəkləndi,
Gün vurdu ləçəkləndi.
Toy qapıya gələndə
Ayrılıq gerçəkləndi.

Yar gedir hamam yoluna, yoluna,
Qızıl bilərzik qoluna, qoluna...

Ana, məni al elə,
Al belinə, şal elə
Yeyib-içib gedirəm,
Çörəyin halal elə.

Yar gedir hamam yoluna, yoluna,
Qızıl bilərzik qoluna, qoluna...

Sonra onun hər iki əlinə pul qoyub sarıyırlar. "Bu, əli pulla oynasın, dövlətli olsun" anlamındadır. Eşikdən içəri gəlmək istəyən oğlan adamlarını qız yengəsi içəri buraxmır, nəmər tələb edir. Ona pul verəndən sonra qapı açılır. Toyçular içəridə xeyli qalandan sonra eşiyə çıxmaq istəyəndə qızın qohumlarından biri qapını basır, nəmər istəyir. Buna el içində qapıbasma deyirlər. Oğlanın adamları nəmər verəndən sonra hər şey axarına düşür. Günortadan sonra "atdandırma" və ya "gəlinin atlandırılması" başlanır. Gəlin bəy evinə yola salınır.

Gəlinin bəy evinə xəbər vermək üçün atına və özünə güvənən gənc müjdə yastığını götürür, birinci olaraq gəlinin gəldiyini bəy evinə xəbər verən oğlan müjdə alırdı. Adətən müjdə qırmızı rəngli yaylıq və ya şal olub dərhal atın boğazına bağlanırdı. Yolda atlılara qız yengəsi bir büküm halva verirdi. Yolda gəlinin qabağını çoban kəsər, yanandakı qoçu göstərərdi: -Ya bu qoçun bahasını verin, ya gəlin bacı qoçu ata qaldırsın. Əgər gəlin qoçu atın tərkinə qaldıra bilsə, çoban "halalın olsun" deyib yoldan çəkilər, qaldıra bilməsə, bəy adamları çobana pul verərdilər. Bundan sonra toy karvanının qarşısını pəhləvan kəsərdi: "Ya namərimi verin, ya qənimimi meydana çıxarın". Bəy adamları, ya namər verər, ya da güləşməyə adam çıxarardılar. Əgər pəhləvan rəqibini yıxsa, ona nəmər verilirdi. Bundan sonra bəy evinə gedən yol qısalırdı. Gəlin xeyli yolu ayaqyalın getməli idi. (Ayaqqabı "darlıq", "çətinlik" anlamlarında olduğu üçün onu çıxarmaq bir adətə çevrilmişdi). Gəlin evə yaxınlaşan kimi onun ayağı altında qurban kəsilirdi. Sonra bəyin ata və anasını oyuna dəvət edirdilər. "Gülşəngi" çalınırdı. Adamlar qəflətən kişinin qol-qılçasından tutub yerə yıxır, arvadı qalib kimi

alqışlayırdılar. Bu, çox zarafat və məzə ilə yerinə yetirilirdi. Bundan sonra bəy sağdışı ilə artırmanın (örtmənin) üstünə çıxıb əlində üstü qırmızı parça ilə örtülü xonçanı tutardı.

Bu vaxt bəyin, sağdışın çiyninə aşırma (qırmızı parça) salınardı. Xonçada bir alma, şirni konfet olardı. Bəy əlində almanı hazır saxlayardı. Elə ki gəlin astananın yaxınlığına gəldi bəy tez almanı gəlinin başına atırdı. Alma dəysə "alması tutdu" deyərdilər, yəni bu evlənmə uğurlu olacaq, bəy gəlinlə həmişə birlikdə yaşayacaq. Alma dəyməsə "alması tutmadı" deyər, yəni bu evlənmənin ömrü uzun olmayacağına inanardılar. Gəlin hələ astanadan adlamamış ayağının altına qoyulmuş boşqabı ürəyində: "Pis gözlər kor olsun, pis adamın evi, ailəsi beləcə dağılsın" deyər dabanı ilə onu sındırıb içəri keçərdi. Gəlin içəriyə düzülmüş lavaşı yığa-yığa gedərdi. Bu "lavaşyığma" özüylə bərəkət, var gətirmək, bolluq mənasında idi. Gəlin hələ yerində oturmamış onun qucağına körpə oğlan uşağı qoyulardı. Bu onun il öncə oğlu olsun demək idi. Bəy adamı uşağı gəlinin qucağından götürüb uşağın anasına nəmər verirdi. Nəhayət, gəlin gəlib öz yerinə çatırdı. Gəlin yerində əyləşən kimi gəlin tərifi başlanırdı.

## GƏLİN TƏRİFİ

Gəlin deyər hanı atam,
Qoynum yoxdur qoçaq atam.
Məjlum da olsun sənin atan,
Anam xoş gəldin, gəl otur,
Gəlnim xoş gəldin, gəl otur.

Gəlin deyər hanı anam
Başımdan aldılar valam,
Qəmər də olsun sənin anan.
Anam xoş gəldin, gəl otur,
Gəlnim xoş gəldin gəl otur.

Gəlin deyər hanı qardaşım,
Qarlı dağlar necə aşım.
Həsən də sənin qardaşın,
Anam xoş gəldin, gəl otu /r/
Gəlnim xoş gəldin, gəl otu /r/

Gəlin deyər hanı bacım,
Başımdan aldılar tacım.
Tahirə də sənin bacın,
Anam xoş gəldin, gəl otu /r/
Gəlnim xoş gəldin, gəl otu /r/

Gəlin deyər hanı yengəm,
Başımdan aldılar dingəm.
Ofelya da sənin yengən:
Anam xoş gəldin, gəl otu /r/
Gəlnim xoş gəldin, gəl otu /r/

Gəlin deyər hanı elim,
Başımdan aldılar telim.
Seyidlərdi sənin elin,
Anam xoş gəldin, gəl otu /r/
Gəlnim xoş gəldin, gəl otu /r/

Bacadan baxdım işıqdı,
Ləmbəli dolu qaşıqdı.
Qəmər gözün aydın olsun,
Gəlin evə yaraşıqdı,
Anam xoş gəldin, gəl otu /r/
Gəlnim xoş gəldin, gəl otu /r/

Qapıları palçıqladı,
Çörəkli, qılçıqladı.
Gəlini tez götürdük,
Anası çox acıxladı.
Anam xoş gəldin, gəl otu /r/
Gəlnim xoş gəldin, gəl otu /r/

Nəhayət, gəlin gərdəyin dalına keçirdi. Gecə yarıya yaxın "xına yaxdı" olur, xınaya pul salırdılar. Sonra şaxqaldırma (həm qız-sağdış, həm oğlan-sağdış şax hazırlayırdı) olurdu. Şax bir metr uzunluğunda ağacdan hazırlanırdı. Üstünə taxta "budaq"lar vurulmuşdu. Onun başına bişirilmiş xoruz keçirilərdi. Üstünə şirni, konfet, alma bağlanardı. Hər iki şax bəyin əli ilə pozulmalıydı. İlk öncə almalar yeyilməli idi.

# II. MİFOLOJİ MƏTN VƏ RƏVAYƏTLƏR

## ŞƏYƏTİN

Şəyətin cinə oxşar, tühlü, arıx əmbə adam yalladan bir şeydi. Elə ki, şər qavışdı, hər yanı qarannıx basdı, şəyətin gələr durar asdananın yanında. Əmbə asdana cininin, bir də əv əyəsinin qorxusunnan içəri girməyə o qədər də ürəy eləməz. Əmbə bir iş də var kı, fərişdələrin balaları içəri doluşanda bu da onnara qarışıf özünü içəri vurar. İçəri girən kimi şəyətin özünü bir xəlvət yerə verər; ya taxçıya girər, ya taxtın altına, ya da yatağın dalına. Fürsat tüşən kimi əvdəki uşaxlardan birini alladıf əvdən çıxardar, xatıya uğradar. Ya aparıf qayadan uçurar, ya uçurumnan salar, ya da qorxuduf dəli eliyər. Ona görə də gərəh şər qarışan və'dələri böyühlər göz-qulax ola, uşaxları eşiyə çıxmağa qoymuya, yoxsa bir xata törüyər.

## DAMDABACA

Bir gün uşax vaxtdarımda çıxmışdım bacıya. Ordan içəri baxırdım. Anam məni görən kimi bir hay-küy saldı az qaldım damnan içəri düşəm. Əmbə anamın bu qaraqışqırığı məni yaman cinnəndirdi. Acıxnan genə bacadan boylandım. Anam dəli olmadımı:

– Ədə, a səni öləsən. Tez tüş ordan, gəlif ölünü salaram ha. Tüş damın üstünnən, bacadan çəkil.

– Tüşmürəm, damın bacasınnan baxacam. Hələ bunun damdabacasına bax. Damdabaca, ay damdabaca.

Əyə, bu sözdər mənim hardan ağlıma gəldi. Bir də baxdım, əyə bir yekə ilan duruf yanımda. Qorxumnan özümnən getdim. Bir də gözümü aşdım kı, damnan xeyli uzaxdayam, baxdım yanımda yekəağızdı insana oxşar bir şey var. O mana dedi:

– Məni bəyax niyə çağırırdın?

Quruyuf qaldım. Əmbə özümü tofluyuf dedim.

– Sən kimsən axı?

– Damdabaca mənəm, ay uşax!

– Nə?

– Bu əvin sahabıyam, bax əvin bacası, yuxarısı mənim sayı-

lır. İndi de görüm nə isdiyirsən?

– Heş nə.

– Bə niyə məni çağırdın, adımı çəhdin?

– Nə bilim, dilimə gəldi.

Bir də baxdım ki, bu adama oxşar şey ağzını elə ayırdı, daha nə deyim, əjdahı ağzı kimi. Qorxumnan genə huşumu itirdim. Bir də gözümü aşdım, əyə heş kəs yoxdu. O tərəfə, bu tərəfə ha baxdım, gördüm yox, heççə kəs görünmür. Duruf gəldim əvə. Anam məni görən kimi özünü üsdümə saldı:

– Ay İsgəndər, ədə harda qalmışdın? Bəyaxdan başıma-gözümə o qədər döymüşəm ki, sana qarğadığıma görə. Səni ha gəzdim tapa bilmədim. Dedim bə başını götürüf gedifsən.

Mən heş dillənmədim.

– Sənnən döyüləmmi, a bala? Bə harya getmişdin.

Gördüm anam əl çəhmir, əmbə o gördüyüm damdabacadan yaman qorxmuşdum deyin, demədim. Dedim sirri açaram, birdən genə onun adını çəkərəm. Gəlif başımın üsdünü kəsdirər, ağzını əjdahı ağzı kimi ayırar. Mən onda neyniyərəm? Odu ku, anama yalannan dedim ki, küsüf çölə getmişdim. Əmbə hersim soyuyan kimi geri qayıtdım. Bilmirəm, mənim dediyim anamın axlına batdımı, batmadımı? Əmbə mən də bir daha damdabacanın adını çəhmədim.

## QUŞOĞLU

Qədim zamanlarda Ağbabada, Göy dağda Alı adlı addı-sannı bir ovçu yaşayırdı. Bir gün bu ovçu Cınqıla tərəf yolu düşəndə nəhəng bir qayanın başında arxasında körpə uşaq olan qartalı görüb mat qalır. Qartal qıy vurub qanadlananda ovçu cəld oxu kamana qoyub onu nişan alır. Ox qartala dəyir. O, daş kimi dərəyə düşür. Alı tez özünü oraya yetirir. Görür ki, qartal ölüb, amma onun belindəki uşaq anadangəlmə lüt-üryan olsa da, salamatdı, qartalın belindən yapışıb qalıb. Ovçu balaca oğlanı götürmək istəyəndə körpə dilə gəlir:

– Ovçu Alı, işıqlı Babaya and olsun, məni atasız qoyduğuna görə sən də atasız qaldın. İndi, qayğım da boynuna düşdü.

Ovçu balacanın danışığına mat qalır. O, əllərini göyə açıb Tanrıdan bağışlanmasını istəyəndə körpə yenə dilləndi.

– Tanrı yalvarışını qəbul etməyəcək, onsuz da bir günah elədin.

Alı çox bikef oldu: “nə iş idi düşdüm, ay Tanrı“. Ovçu bir təhər özünü cəmləşdirib bir çala qazır, qartalın cəsədini basdırır. Sonra gəlir uşağı qucağına götürsün, amma nə qədər güc versə də onu götürməyə gücü çatmır. Qalır məəttəl ki, ayıya pəncə verən, nəhəng qayaları yerindən oynadan Alı doğrudanmı gücsüzləşib? Bəs gücü yerindədirsə, bu nə sirdi belə?! Körpə özü ona yol göstərir:

– Məni qucağına almamış əlinə bir daş al, onda gücün çatar. Ovçu Alı əlinə daş alan kimi doğrudan da uşaq yüngülləşir. Ovçu onu qucağına götürüb evə qayıdır. Görür ki, atası arxası üstə düşüb qalıb, yanında da bir iri daş var. Alı bilmir neyləsin. Bu vaxt uşaq yenə dilə gəlir:

– Atanı basdır. O iri daşı da başdaşı dik ona.

Alı atasını basdırır.

Bu hadisədən xeyli illər keçir. Uşaq böyüyüb 10-12 yaşına çatır. Di gəl ki, elə nəhəng, elə güclü olur ki, daha nə deyim. Oğlanın axşam olanda isə alnından nur tökülür. Onun nurundan ovçu Alının evi işıqlanır. Bu işə hamı təəccüb edir. Uşaq elə ki, on beş yaşına girir, başlayır qayadan-qayaya dırmanmağa, yüyürməyə. O, göyə qalxıb 20-30 addım qədər fırlanıb havadan yerə düşür, yenə təzədən. Belə-belə tullana-tullana, atıla-atıla, sıçrayışlarla gedir. Bir kimsə onunla ayaqlaşa bilmir.

Bir gün el ağsaqqalı Ovçu Alını yanına çağırıb deyir:

– Oğluna niyə ad qoymursan?

Alı onu belə cavab verir.

– O, quşoğludur.

Sonra o, əhvalatı olduğu kimi danışır. Ağsaqqal onu dinləyəndən sonra deyir:

– Onda qoy adı Quşoğlu qalsın.

Beləliklə oğlanın adı Quşoğlu olur.

Elə haman günün axşamı Quşoğlu evə gəlir, Alının əllərindən öpüb deyir:

– Ata, sən gərək bu sirri, yə’ni mənim quş oğlu olduğumu, qartal övladı olduğumu heç kəsə açmayaydın. İndiki bu sirri açdın, bir daha məni görməyəcəksən.

Ovçu Alı bu sözləri Quşoğlundan eşitcək ona yalvarır:

– Oğul, məni bağışla mən bilmədim.

– Daha iş işdən keçib. Hər gün Qaraxan çayının dərəsinin o üzündə olan çınqıllığa gələrsən. Orda ən hündür qayanın yanında dayanarsan. Elə ki, gördüm o qayanın başına bir qartal qondu, bil ki, mənəm. Amma bunu olmaya bir kəsə deyəsən.

Bəli, Ovçu Alı bir gün səhər vaxtı Quşoğlu dediyi qayanı tapdı. Gördü doğrudan da az keçməmiş bir qartal gəlib o qayaya qondu. Belə-belə hər gün Alı oraya gedib-gəlməyə başladı.

Bir gün bir-iki nəfər yaşlı kişi Ovçu Alını hər gün dərədə görüb maraqlandılar. Bunun səbəbini soruşdular. Əvvəlcə o, demək istəməsə də, onlar ümu-kusu elədilər ki, bəs axı burada nə sirr var? Alı da hadisəni olduğu kimi danışdı. O elə danışıb qurtaran kimi qıy səsi eşidib başını yuxarı qaldırdı. Gördü qartaldı. Qartal dilə gəlib dedi:

– Mən sənə nə dedim. Daha bir də məni görə bilməzsən.

Qartal bunu deyib bir andaca gözdən itdi. Alı başına-gözünə nə qədər döysə də, dərdinə bir dəva olmadı. Ovçu Alı bir də Quşoğlunu görə bilmədi, amma o həmişə Quşoğlu qonan qayanın yanına gedib-gəlirdi. Bu da çox çəkmədi, qoca ovçu bu dərdə dözməyib vəfat etdi.

İndi Ağbabada, Qaraxan çayının dərəsinin sol tərəfində yerləşən nəhəng çınqıllıqda iri və hündür bir qaya ucalır. Buna Ağbabada Quş qayası deyirlər. Bu haman Quşoğlunun qonduğu qayadır. Adı da elə o vaxtdan qalıb. Əvvəlcə Quşoğlu qayası adlanıb. Sonra illər keçdikcə bu da dəyişib. Bu qayaya sonralar Quş qayası deyiblər.

## AĞAC ƏYƏSİ

Palıd, şam ağaclarının əyələri var, yə’ni yiyələri, sahibləri var. Əyə həmişə gözə sarı qız donunda görünər. Palıda, şama balta vurmaq, kəsmək xatalıdı. Çünki ağacı kəsən və ya yaralayan adam özü zədə alar. Özü də qəfildən. Yə’ni ağac əyəsi ağac kəsən adamı vurar. Bu vurulan adam ya ölər, ya da zəlil, şikəst olar. Odur ki,palıd, şam ağaclarını kəsmək olmaz, çünki sarı qız ağac kəsəndən qisas alar. Belə deyirlər ki, guya sarı qızın anası qədimlərdə bir ağaş olub. Odur ki, sarı qız ağacı qoruyur.

## ŞEŞƏ

Şeşə yarasaya oxşayır, balaca bir canlıdı. Şər qarışanda uçur, harda qırxlı uşaq varsa, özü də oğlan uşağı varsa, o evə girmək istəyir. Əgər evdə yaşlı adam varsa, uşağın üstündə gözmuncuğu, dağdağan varsa şeşə evə girə bilmir. Hansı ev xəlvət olsa, şeşə oraya girir. Qırxlı uşağın başı üstündən bircə dəfə uçub keçən kimi uşağın rəngi göyərir. Az keçmir ki, uşaq ölür. Odur ki, körpəni qırxı çıxana qədər şeşədən qorumaq lazımdır.

## QARAÇUXALI

Təh söyüdün sahabı var. Bu qaraçuxalıdı. Axşam olanda, qarannıx ətrafı basanda söyüdün altına getməh olar da, olmaz da... Orya gedən gərəh bir əz diqqətdi olsun. Gərəh söyüdün divinə gedən adam orya nə zir-zivil tökə, nə də natəmizdih eliyə. Yoxsa qaraçuxalı onu vurar. Qaraçuxalının vurduğu adamın vay halına. O adamı ya öldürər, ya şikəst eliyər – ona söz yox. Üstəlih, adamın əgər uşaxları varsa, onnara da sağalmaz azar verər. Qaraçuxalı vuran adamın bir uşağı da qalmaz, ölər. Ocağı batar, çırağı keçər. Elə buna görə də gecə tüşəndə, qarannıx olanda təh söyüd ağacının altına gedəndə adam əli, gözü, nəfsi təmiz olmalıdı kı, qaraçuxalı ona toxunmasın.

## BABA RUHU

Baba ruhu çox müqəddəsdi, ocağın başına dolanar. Evə bərəkət, bollux gətirər. Baba ruhu ocaxdan küsəndə vay əv sahabının halına. Nə qazansa, kisəsinin divi dəlih olduğunnan, itif-batar, ələ gəlməz. Əvdə sakitdih olmaz, dava-dalaş azalmaz. Baba ruhu küsənnən sonra əv sahabı özünü düzəltməsə, tez yola gəlməsə, ruh yuxuda üş dəfə onun gözünə görükər, ona hədə-qorxu gələr. Bunnar köməh eləməsə, baba ruhu əv sahabını vurar. Ona görə də gərəh əv sabahı özünü yaxşı aparsın kı, ruh onu vurmasın. Əgər əvdə baba ruhunun adına qazan asılsa, ət pişsə, əvdə də sakitdih olsa, baba ruhu şad olar. Əv sahabının nə diləyi varsa qabul olunar. Əv sahabı babanın ruhunu çağırıf yatsa, ruh onun yuxusuna girər. Beləsinin işi yaxşı, özü hörmətdi olar. Heş vaxt neynim-neceliyim deməz.

## FƏRİŞTƏ

Fəriştə həməşə əvin asdanasına yaxın yerdə yaşayır, yaşadığı yerin sahabıdı. Onun çoxlu balaları var. Şər qavışan kimi fəriştənin balaları asdanadan içəri doluşur, bir-biriynən oynuyallar. Biri o birinin quyruğunnan, o biri bu birinin buynuzunnan yapışar. Onların ayaxlarının altı tühlü, yumuşax olduğuna görə səs-küy eşidilmir, olsa-olsa küləyə bənzər səs eşitməh olar. Fəriştə həməşə əv əyəsinnən qorxar, çəkinər. Ona görə də hər vaxt adamı vura bilmir. Əmə şər qavışanda asdanada duran, ya tez-tez əvə çıxıf girən adam ya fəriştənin balalarınnan birini tafdıyar, ya da birini vuruf yıxar. Bu vaxt fərişte hirsdənər. Qara buğa şəkilinə tüşüf balasına zərəl yetirən adamı buynuzuna alıf yerə çalar. Fəriştənin vurduğu adam ya yarımcan olur, ya da ölür. Ona görə də şər qovaşan və'dələri tez-tez eşiyə gedif-gəlməh olmaz. Belə eliyən adam həməşə xatıya tuş gələr.

## KÜFLƏ ƏYƏSİ

Küflə əyəsi həmməşə günüzdən uçuf dünyanı dolanar. Şər qavışan kimi öz yerinə–küflüyə qayıdar. Küflə əyəsi qırmızısakqallı, qırmızı gözdü, qırmızı üzdü, qırmızı paltarrıdı. Nəfəsinnən od çıxır. Acıxlananda küfləni tərk eliyir. Onda əv sahabının əvində dava-dalaş başdanır. Ayilə dağılır, ocax sönür.

## GÖYATLI

Göyatlı ağsakkallı, nurani bir kişidi. Həmməşə darda qalannarın dadına-hoyuna yetişər. Acıxlandımı, yayda da boran-tufan qopardar. Yaddar, yabanalar ona türkün Allahı deyillər.

## BABAL

Dünyada pütün daşdarın sahabı Babaldı. Yaşı bilinmiyən çox qoca bir kişidi bu. Bu kişi dünyuya gələn hər adama bir daş ayırır. O daş hər kəsin boynunda olur. Babal o daşa əl çəhdiyinnən daşın ağırrığı, çəkisi olmur, özü də gözə görünmür. İnsan ölən kimi onun daşı boynunnan avılıf yerə düşür. Kim onnan götürüf

saxlasa, ömrü uzun, özü də hər şeyi bilən olar. Dünyadan niyaran gedənin daşı avılan kimi onun içinnən bir quş çıxıf göyə uçar. Buna Ah quşu deyəllər. Ah quşu sızıllıya-sızıllıya dünyanı dolansa da, onun sızıltısı kəsilməz.

## SEHİRRİ OT

Urmiyadan iki dərviş Ağbabıya, Öysüzə gəlir. Bir əməli saleh adam tapıf ona qonağ olullar. Yeyif-içənnən sonra əv sahabınnan xayış eliyillər ki, onnarnan çölə gəzməyə çıxsın. Əv sahabı buna razı olur. Onnar çölə gəzməyə çıxıllar. Dərvişdərdən biri xurcunnan bir qazan çıxardır, o biri də çır-çırpı yığıf gətirir, ocax yandırır. Sonra dərvişdər oturuf duva oxuyullar. Elə bu vaxt bir boz ilan peyda olur. O sahat dərvişdərdən biri ilanı tutuf başıynan quyruğunu kəsif atır. Sonra ilanın dərisini soyuf onu doğruyuf qazanın içinə tökür, asır ocağın üstünə. Ət pişənnən sonra onu qavlara çəkif qoyullar ortuya. Dərvişdərdən biri əv sahabına deyir:

– Buyur, sən də ətdən ye.

Əv sahabı əlini yelliyir.

– Siz yeyin, mənim işdahım yoxdu.

Dərvişdər əti yeyif kutarırlar. Əv sahabı görür kü, dərvişdər o, bu tərəfə boylanıllar. O, bu işə çox təəccüb eliyir. Əv sahabı qazanı yumax adıynan bulağa aparanda ətdən yemədiyinə görə peşman olur. Əmə baxır ki, qazanın divində bir qazmax qalıf. Onu udanda baxır nə... Pütün otdar, çiçəhlər, ətrafda nə varsa danışır. Bu vaxt dərvişdər işi başa tüşürlər, onu kusdurullar. Qazmax onun ağzınnan gəlif tüşür. Dərvişdərdən biri onu yuyuf götürür.

– Sən belə işi başarmazsan, sən gəl bizəköməh elə. Gedəh Göydağ tərəfə, Çətin dəriyə. Orda bir ot var, onu tapax. Bu ot elə bil yanır.

Əv sahabı bunu eşidəndə çox maraxlanır. Gəzə-gəzə gəlif həmin otu tapıllar. Dərvişdər onun kökünün hər tərəfini çox ehtiyatnan qazır genişdəndirirlər. Əv sahabı baxır otun çox qəribə balaca uşağa oxşar yumru kökü var. Dərvişdər işi qurtarannan sonra bir it tapıf gətirillər. Onu ehtiyatnan həmin otun kökünə bağlıyıllar, sonra itin qabağına xeylax çörəh töküllər. Dərvişdər-

dən biri əv sahabına deyir:

– Durun qaçax, çünki it çörəyi yeyif qurtaran kimi dartınıf getməh istiyəndə otun kökünü çəkif qopardacax. Ot çox sehirridi. Ot o sahat elə səs salacax ki, yaxınnıxdakı bütün canlılar öləcəh. Tez əllərinnən qulaxlarını tutuf qaç.

Əv sahabı o sahat deyiləni eliyir. Aradan xeylax keçənnən sonra dərvişdər əv sahabına deyillər:

– Gəl gedəh, hər şey kutardı.

Gəlif görürlər ki, it gəvərif. Əmə otu kökünnən qopardıf. Dərvişdər həmin kökü ehtiyatnan ağa püküf götürürlər. Əv sahabı dərvişdərə deyir:

– Bu kökün əhəmiyyəti nədi?

– Bu çox qıymatdıdı. Bunun qıymatı heş pətşağın xəznəsində yoxdu. Bunnan belə bunu nəyə toxundursan qızıl olur.

Dərvişdər əv sahabıynan halallaşıf ayrılıllar.

## QARA AT

Bir yerdə xəsdəlih düşür. Çox adam ölür. Bir kişinin bircə oğlu varıymış. Kişi tez hazırrıx eliyif köçür kü, xata onnardan uzax olsun. Yolda onnara bir adam rast gəlir. O, bir qara atın ciloyunu əlindən tutufmuş. O adam kişiyə deyir:

– Kişi, gəl bu atın ciloyunu tut, mən bu yaxına gedif gəlirəm.

– Yaxşı.

– Gələn kimi aparacam ha.

O gedən kimi kişinin oğlu deyir:

– Ay ata, bu atı ver minim. Deyəsən bu qara at yaxşı atdı.

– Bala, əmə tez elə. Kişi atı bizə amanat eliyif.

Oğlan atı minən kimi at sankı küləyə dönür. Dağlar aşır, dərələr keçir, dəryalardan üzüf gedir. Oğlan gördühlərinə mat qalır. Bir təhər atın başını geri çəkir. O gəlif atasının yanına çatanda deyir:

– Bu at çox qəribə atdı, ata. Elə yerrərə getdi, elə sür’ətnən getdi ki, mat qaldım.

Kişi də maraxlanıf atı minir, oğluna deyir:

– Bir hövurrux minim görüm sən deyən düzdümü.

Kişi atı tərpədir. At ildırım sür’ətiynən irəli atılır. Az keçir, çox keçir kişi gəlif çıxır. Atdan tüşüf deyir:

– Oğul, doğurdan da bu at çox qəribə bir atdı.
Bir əz keçənnən sonra atın sahabı gəlif çıxır.
– Kişi, sağ ol, əmə...
– Nə oluf?
– Atı minifsiniz.
– Necə?
– Məni allada bilməzsiniz.
Kişi heş nə demir. At sahabı atı görsədif deyir:
Bu atı görürsünüzmü? O durur, siz durursunuz. Vaxt gələndə gəlif sizi sıraynan aparacax. Ocağınızı kor qoymuyun. Köşməhnən xatadan qurtulmax olmaz.
Kişi bu sözdəri eşidən kimi köçünü geri qaytarır.

## KƏSİHBAŞ

Bir nəfər uzax səfərə çıxır. Gəzə-gəzə gəlif bir köyə çatır. Görür axşam tüşüf. Odu ku, rasd gəldiyi əvlərdən birinin qapısını takqılladır. Onu içəri alıllar. Allah verənnən yeyif-içənnən sonra qonax deyir:
– Mən bu yerrərdən çoxlu şeylər almağa gəlmişəm. Yanımda bəs deyincəh pul var.
Bu sözdəri eşidəndə əv sahabının hərisdihdən gözdəri ət görən pişiyin gözdəri kimi parıldıyır.
– Sən nə yaxşı qonaxsan, maşallah.
Qonax əv sahabının tamahkar olduğunu başa tüşüf deyir:
– Qardaş gəl bir şərt kəsəh. Sən mana bir and iş, sonra yatım. Xəsiyətimdi, əv sahabı and işməsə yata bilmərəm.
– Nə and, a kişi, at başını yerə.
– Yox, and iş sonra.
– Nəyə and içim.
– And iş ki, sən Allah qonağısan, Xızırın eşqinə sana toxunmayacam.
– Mən razı. And iş deyirsən içim da.
Əv sahabı o sahat and içir. Qonax bunnan razı qalıf başını atır yerə. Əmə ilan vuran yatır, əv sahabı yatmır. O, gecənin bir və’dəsi yerinnən qalxıf qonağın başını kəsir.
– And işməyimə işdim, əmə mana pul lazımdı, pul.
Həyə, kişi pulu təzəcə yerbəyer eliyəndə qapı döyülür. Kişi

isdiyir bir qapını aşmasın. Görür əyə, balam, eşihdəki kimdisə əv yerinnən ləngərriyir elə bil. Qapı az qalır qırılıf tüşə. Kişi qorxa-qorxa birtəhər qapıyı açır. Görür bir atdıdı. Həmin adam əv sahabınan xəbər alır:

– Kişi, qonağın hanı?

– Nə qonax, hansı qonax?

– Axşamkı qonağın.

– Qonağım-zadım yoxdu.

– Vardı! Əmə gecə başını kəsdin. O sana and verməmişdimi?

Əv sahabı gördü yox, atdı hər şeydən xəbərdardı. Buna mat qalır. Atdı əlini içəri uzadıf deyir:

– Ey günahsız adam, qalx. Əlini uzadıf atımın dırnağının altınnan bir əz torpax  götür. Başını yerinə qoyuf torpağı boğazına çəh.

Başsız bədən o sahat tikəlir, bir avcıynan atdının atının dırnağı altınnan bir əz torpax götürür, başını yerinə qoyuf torpağı boğazına çəkir. Dərhal axsırıf özünə gəlir. Əv sahabı bunu görəndə qorxusunnan bağrı çatdıyıf ölür. O vaxtdan həmin adamın adı Kəsihbaş qalır.

## ASDANA CİNİ (VURĞUN)

Vurğun həmməşə asdanada olur. Ona asdana cini də deyillər. Odu ku, axşam olanda, hava qaralanda asdanada durmax çox xatalıdı. Çünkü orda duranı vurğun, yanı asdana cini vurar. Vurğun vuran adam ya ölər, ya da həmin adamın ağzı əyilif qulağının divinə gedər, ömrü boyu zəlil qalar.

## QALAÇANIN SİRRİ

Civinninin yaxınnığındakı qalaçanın qapısını çox axtaran oluf, əmə heş kəs bunu tafmıyıf. Bir gün Urmiyadan burya bir dərviş gəlif. Dərviş ağsakqalları, qarasakqalları yığıf deyif:

– Mən bu qalaçanın qapısını açacam. Bu çox sehirri yerdi, əmə gərək bu vaxtı heş kəs səs eləməsin. Gözdərinizə çox şeylər görsənəcəh. Əgər qırx gün dözüf səs-küy salmasanız mən duva oxuduxca qalaçanın qapısının sehiri açılacax.  Həyə, o qapılar öz-özünə açılacax.

Camahat dərvişə söz verir. Dərviş başdıyır duva eləməyə. Otuz səkkiz gün duva oxuyur, otuz doqquzuncu günə keçəndə birdən gurultu qopur, dağ bir-birinnən aralanır. Bu vaxt bir çılpax qadın görünəndə biri:

– Əyə, bu kimdi, – deyəndə dağ o sahat xırıltıynan bir-birinə qavışır, qapı yox olur. Dərviş əlini dizinə vuruf deyir:

– Namərd oğlu namərd, heyif zəhmətimnən. Bir-iki gün səbir eləsəydin, qapını tapardıx. Bir daha bu qapının siri açılmıyacax. Üsdəlih, burda ona-buna toxunacaxlar. Qorxusunnan ölən, dəli olan da olacax.

Dərviş, kor-peşman geri, Urmiyaya qayıdır. O vaxtdardan çox illər keçif, əmə qalaçanın qapısının sirri hələ açılmır kı, açılmır.

## SU ƏYƏSİ

Bir dəfə iki nəfər şər qarışan vaxtı balıx tuturmuş. Birdən tilova bir balıx tüşür. Əmə balıx elə betər səs çıxardır kı, elə haray salır kı, balıxçı onu tez suya atır. Di gəl ki, az keşmir hər iki balıxçının gözdəri tutulur. Sən demə, tilova tüşən su yiyəsi, yanı su əyəsiymiş.

## KAFDARKÜŞTÜ

Kafdarküştü birinin arxasına, yanı dalına hopbanır. Kişi qorxuf özünnən gedir. Kafdarküştü onu sürüyə-sürüyə qəbirstannığa gətirir, bir başdaşına söküyüf dalı-dalı geri çəkilir. Birdən kişi özünə gəlif başdaşınnan yana çəkilir. Elə bu vaxt kafdarküştü surətnən özünü vurur başdaşına. O sahat da gəbərir. Sən demə, o ölüləri beləcə qəbirdən çıxardıf daşa söyküyənnən sonra arxadan gəlif zərbnən vuruf onun içalatını çıxardırmış. Əmə bu dəfə iş elə gətirir ki, bir təsadüfdən kafdarküştü gəbərir, camahatın onnan canı kutarır.

## DƏYİRMAN ƏYƏSİ

Dəyirman əyəsi həmməşə dəyirmanda olur. Gecələr, əlalxüsus aylı gecələrdə gözə görünür. O, həmməşə dingəli gəlin

donunda olur. Başı dingəli, biləhləri bilərzihli, bərli-bezəhli gəlin oluf tüşür adamların dalına. Ona rast gələnnər ya dəli olur, ya da xəsdə oluf ölür. Dəyirman əyəsi olan dingəli gəlinin bir xəsiyəti var: adamı adıynan çağırar. Əgər o çağırdığı adam ürəhlidisə, ona heş fikir vermirsə, ona toxunmur, çəkilif gedir. Yox, qorxax adam olsa, iş pisdi. Dəyirman ayəsi o adamı ya dəli eliyər, ya da öldürər. Odu ku, gecə vaxdı, dəyirmanın dörd tərəfinə dolanmax xatalıdı, orya təh getmək olmaz.

## CİN DƏYİŞİYİ

Cin dəyişiyi həməşə xərəbəlih yerrərdə, qayalıxlarda olur. Aylı gecələrdə rasdına çıxan adamı adıynan çağırır. Cin kimi cürbəcür dona girə bilmir deyin, uzaxdan-uzağa adamı allatmağa çalışır. O isdiyir ki, allatdığı adamı dağdan-daşdan, qayadan uçurtsun. Onu ya canbəsər eləsin, ya da öldürsün. Əgər ürəhli adam olsa, cin dəyişiyinin sözünə əhəmiyyət verməz. Belə olanda olduxca arıx, tühlü, heybətdi olan cin dəyişiyi burulur, əyilir, ciyilliyir. Özünü çırpır yerə. Mayallax aşır, yumbalanır kı, hersi soyusun. Bunnan sonra kiçilir-kiçilir, qara bir nöqtə kimi yox olur.

## SARALTMIŞ

Saraltmış sarı, tühlü, bürüşüh cinə oxşar bir şeydi. Çox ağır, pis nəfəsi var. Xəlvət yerrərdə gizdənər. Şər vaxtı peydah olar. Rasdına gələnə bircə dəfə “pıx“ eliyər, vəssalam. O sahat saraltmışa rasd olan adam safsarı saralar, onun dərdinə dərman tapılmaz. Ona görə də şər vaxtı küş-bucağa təh getməh adama xeyir gətiməz.

## UCUBILIX

Ucubılıx deyillər çox uca boylu, nəhəh bir adamdı. O qədər yekə, azmandı kı, bircə onun əyaxlarını görməh olur. Ucubılığın bir ədəti var: sakitdiyi sevəndi. Sakitdih olanda ayda, ildə bir neçə dəfə, daha doğrusu, yazda, yayda gələr. Həyə, əyər sakitdih olsa gələr. Onda əlini uzadar dərin dərənin divinə. Orda bir

kıfıl var, onu açar. O sahat çayların suyu, bulaxların suyu artar, yağış yağar. Yox, əyər sakitdih olmasa, Ucubılıx küsüf gedər, quraxlıx olar. Bar-bərəkət göyə çəkilər.

## SUCUL DEV

Deyillər çox-çox bunnan qabaxlar Ağbabada bir sucul dev varıymış. Kefi isdiyəndə bir gölün suyu qədər su içərmiş. Adam-zad yeməyi yoxuymuş, elə onunku suyumuş. Harda bulax-filan görsə soruf-soruf suyunu qurudurmuş. Bu insafsız belə-belə dağda-daşda, çöldə-düzdə bulax qoymur, soruf məhf eliyir.

Bir gün sucul dev gəlir Ağbabada yeddi gözələ rasd olur. Yeddisinnən də xoşu gəlir. Ağsakqallara xəbər yolluyuf deyir:

– Ya bu yeddi gözəli mana verin, ya sizin sonuncu bulağı da qurudacam, susuz qalıb qırılın.

Ağsakqallar bura razı olmullar. Sucul dev gur bulağın gözünə ağzını dayıyıf sorur, sorur... Su quruyur.

Genə ağsakqallara xəbər yolluyur:

– Qızdarı verirsinizmi mana?

– Yox, – deyillər.

Dev hirsdənif suyu geri əndərir. Sel-su aşıf daşır. Çökəhdə böyüh bir göl yaranır. Sucul dev də elə o gedən gedir bir də qayıtmır. Deyillər elə o yaranan göl elə bu Arpagöldü.

## KOR DƏDƏ

Deyillər Gümrüdə əvvəllər bir Kor Dədə vardı. Bu kişinin anadangəlmə gözdəri koruydu. Əmə hər şey ona qabaxcadan əyan olurdu. Nə desə düz çıxardı.

Bir gün bir cavan da Kor Dədənin yanına gedir. Kor Dədə ona baxıf deyir: “A bala, sən çox yaşıyacaxsan“. Oğlan gedən kimi Kor Dədə öz adamlarına deyir

– Çox maraxlı işdi. Bu oğlan xəstə-zad dəyildi, əmə uruzqusu kəsilif. Bu gün o ölməlidi. Özüm demədim, qəlbi qırılardı.

Doğurdan da, həmin əhvalatdan az keşmir ki, Kor Dədiyə xəbər gəlir ki, həmin oğlan filan yerdə harabadan yıxılıf ölüf. Bunu eşidəndə Kor Dədə deyir:

– Ölməliydi. Mənim yanımnan çıxanda hiss elədim ki, bir qara bulut onu izdiyir. O qara bulut onun əcəliydi. Əcəldən qaşmax olmaz.

## QURDOĞLU

Kafirlər hamını qırıb tökmüşdülər. Leş üst-üstə qalanmışdı. Yağı obalara od vurmuş, ələ keçən var-dövləti talayıb aparmışdı. Törəli adlı 7-8 yaşında bir oğlan uşağı ot yığınlarından birinin altına girib salamat qalmışdı. Artıq hava qaralırdı. Bir azdan qaranlıq düşdü. Uşaq özünü itirmiş, huşsuz uzanıb qalmışdı. Az keçdi, çox keçdi, uşaq birtəhər özünə gəldi, amma gördü sürü-sürü canavar ağzını göyə tutub ulayır. Birdən göydən kütlə quyruq yağdı. Bir kütlə quyruq oğlanın gizləndiyi ot yığınının yanına düşdü. Oğlan əl atıb onu götüdü. O, bir də gözünü açdı ki, səhər açılıb. Yerindən qalxdı, amma başı hərləndi, az qaldı yıxılsın. Tez quyruqla kütü götürüb yedi. Gözlərinə işıq gəldi. O, Göy dağa doğru yola başladı. Baxdı göydən bir işıq yendi. Uşaq dağa çatmağa az qalmış gördü bu işıq deyil, ağ rəngli bir qurddu. Oğlan əvvəlcə ondan qorxdu. Ağ qurd ona dedi:

– Oğul, sən bu gündən Qurdoğlu oldun. Yeddi ildən sonra başına yenə bəla gələcək. Dediklərimə qulaq as, bəlaya hazır ol. Sənə iki daş verirəm. Bu daşların balaca olmağına baxma, hər ikisi hikmət xəzinəsidi. Bu daşın biri həmişə cibində, o biri ocağının böyründə olmalıdır. Nə qədər ki, bu daşın biri sənin cibindədi, o biri daşı heç kəs ocağın yanından götürə bilməz. Daşın balacalığına baxma, yüz nəfər yığıla belə, onu ocağın yanından qaldıra bilməz. Bu daş ocağına bərəkət, xeyir, bolluq gətirəcək. Hə, bir az irəlidə, Göy dağın ətəyində bir boz at var, ayağı çıdarlıdı. Bu at Arpa gölündən çıxan göl ayğırından törəyib. Onun çıdarını alıb, yəhəri belinə bas, min, qamçını əlinə al. Qamçını heç vaxt əlindən yerə qoyma. Qamçını əlindən yerə qoydun, at əlindən çıxacaq. Göy dağın ətəyində bir mağarada gürz, dəmir don var. Dəmir donu geyinərsən, gürzü götürərsən. Gürz də sehrlidir. Onu həmişə yeddi dəfə hərləyər, üç nərə təpəndən sonra düşmənə vurarsan. Hə, yeddi ildən sonra sənin adamlarının sayı dörd 7 yan-yana, dal-dala olduğu qədər olacaq. Bu yeddinin biri sağındı, biri solundu, biri önündü, biri arxan.

Sən bunlara arxasan. Sənin üstünə gələn kafirlər basılmaz adamlardı. Onların başçısının adı Daşüzdü. Ömründə gülüş nədi bilmir. Sifəti qara, ürəyi qara, niyyəti qara. Onunku qan tökmək, baş kəsmək, göz çıxarmaq, burun-qulaq kəsmək, el-obanı yağmalamaqdı. Onun bədəninə qılınc-nizə batmır, ox batmır. Gərək onu dediyim kimi gürzlə vurasan, çünki onun canı daşdandı. Sən onu gürzlə vurandan sonra daş kimi parçalanıb dağılacaq. Elə adamları da belədi, atları da burnundan od püskürür, kişnərtiləri dəhşətlidi, yeddi ildən sonra Bəytoba, Bağdəmir, Aşdıbaba, Kaloğlan, İrişdi, Gülbağı, Kəlbağı adında yeddi igid sənin yanına gələcək. Onları göz bəbəyi kimi qoru. Onlar sənə sədaqətli olacaqlar. Ağır döyüşdən çıxacaqsınız. Dara düşəndə göyə üz çevir, bircə dəfə: "Hu, yaruq, hu" de. Mən yanında hazır olacam.

Ağ qurd sözünü qurtaran kimi yox oldu. Oğlan bu işə mat qaldı. Amma özünü ələ alıb həmin deyilən mağaraya gəldi. Mağaranın yaxınlığındakı bulağın başında əyləşdi. Bulaqdan doyunca su içdi. O, su içən kimi qollarında tükənməz güc duydu. Elə bil boy-buxunu da böyüdü, iriləşdi, əzəmətləşdi. Bir də ayılıb bulağa baxanda özünü boylu-buxunlu, əsil igid gördü, sevindi. Axtarıb atı tapıb, çıdarını açdı. Yəhəri belinə basıb mindi, qamçını əlinə aldı, üzünü göyə tutub: "Hu, yaruq, hu" dedi. Dərhal Ağ qurd hazır oldu.

– Oğul, nə diləyin var?

– Sənə necə minnətdarlıq eliyim. Bulaq da sehrli imiş!

– Bəli, amma bu sehr təmiz ürəkli insanlara kömək eləyir, başqalarına yox. Sən həmişə xeyirxah ol, aman istəyəni öldürmə, zülm eləmə. Hara getdin, yaxşılıq elə, ədalətli ol, sərvətə, var-dövlətə tamah salma, ev-eşiyini daş-qaşla doldurma. Könlünü uca, saf sözlərlə bəzə. Könül zənginliyi ən böyük zənginlikdi.

Yenə Ağ qurd yox oldu. İl dolandı, vaxt - vədə gəldi. Yeddi il tamam olanda Göy dağa yeddi igid gəldi. İgidlər şiv kimi olsalar da, sifətdən çox mərdanə görünürdülər. Qurdoğlu onları qəbul eləyib bulağın başında əyləşdirdi. Yedilər, içdilər. Yeddi igid sehrli bulaqdan su içən kimi boy-buxunlu, dağ gövdəli igidlərə çevrildilər. Onlar Qurdoğlunun yanında qalıb xidmət elədilər. Ordan-burdan ellər Qurdoğlunun başına toplandı. Şənlənən

obalarda ocaqlar yanmağa, itlər hürməyə, tüstü çıxmağa başladı. Bundan az keçməmiş elə bil günbatandan bir qasırğa qopdu. Kafirlər sel kimi Qurdoğlunun el-obasına, yurduna soxuldular. Qurdoğlu bu döyüşə hazır idi. Dərhal dəmir donunun geyindi, boz ayğırını mindi, gürzün əlinə aldı, yeddi igidi yanına aldı, ərləri-ərənləri topladı. Döyüş çox ağır oldu. Neçə-neçə ər igid can verdi. Başlar kəsildi, gözlər dəlindi, qan sel kimi axdı. Kafir qoşunu eli qara bulud kimi bürüdü. Eldən qırılan, ölən çox oldu. Qurdoğlu yeddi igidlə özünü kafir qoşununun ortasına vurdu. Vuruşa-vuruşa Daşüzlə üz-üzə gəldi. Daşüz işarə eləyən kimi onun adamları geri çəkildi. Bu heybətli, dağ boyda adamın qan sağılmış gözlərindən od çıxırdı. O, nəhəng atının cilovunu çəkəndə at şahə qalxıb dəhşətli səslə kişnədi. Onun nə gürzü var idi, nə də qalxanı. Bir qılıncı, bir cidası var idi. Qurdoğlu Daşüzlə təkbətək döyüşə girdi. O, üç dəfə nərə təpib, yeddi dəfə gürzünü hərləyəndən sonra onu Daşüzə vurdu. Gürz Daşüzə elə zərblə dəydi ki, onun bədənindən alov çıxdı. Bu alov onu yeddi yerə parçaladı, at da yeddi yerə parçalandı. Qurdoğlu kafirlərə həmlə elədi, ardınca yeddi igid də at çapdı, qılınc çaldı. Düşmənin qırılanı qırıldı, qalanı qaçıb canını qurtardı. Döyüş başa çatdı. Deyirlər, bu vaxt bir nurani dərviş gəlib Qurdoğlunun adına bir dastan qoşdu, söz dedi. O vaxtdan "Qurdoğlu" adlı bir nəğmə də dildən-dilə, eldən-elə yayıldı.

Bizə də çatdı, biz də sizlərə ad elədik.

## QARAXAN YAPMASI

Qaraxan çayının da öz yiyəsi, sahibi var. O da su yiyəsidi.

Bir gün bir kişi çaya balıq tutmağa gəlir. Qarmağı atır, axşama qədər xeyli balıq tutur. Amma axırıncı dəfə qarmağı atanda boş çıxır, balıq ələ gəlmir. Kişi bundan acıqlanır. Maraqlıdır ki, o həmin gün düz bir cınqır dolu balıq tutubmuş. Di gəl ki, naşükürlük edib çaya tüpürür:

– Lə'nət sənə, nə balıq verdin ki, tutmağa.

Elə bunu dediyini eşidir. Dərhal sudan yapma kimi yumru bir şey çıxıb çəkir kişinin ayağından suya. Kişinin qorxudan bağrı çatlayıb ölür. Yapma cınqırı çəkib çaya salır, cınqırdakı balıqlar cana gəlir. Çayda o yana, bu yana üzürlər.

O vaxtdan çaya gələndə, çayda çimməndə, balıq tutanda ehtiyatlı olurlar.

## GÖL BUĞASI

Çox qədimlərdən Arpa gölünün ortasında, yə'ni lap dərin yerində bir göl buğası yaşayır. Bu buğa hər vaxt böyürür. Yaz başında, ələlxüsus, yaz günlərində, o, daha uca səslə böyürür. Deyirsən, göy guruldayır. Buğanın böyürməyinin xeyri çoxdur, çünki ətrafda, yəni Ağbabada çox qüvvətli, igid oğullar yetişərdi, gölün dörd yanı ot-ələflə, taxılla dolu olardı. Bu yerdəki el varlı-hallı idi. Elə bil təzə doğulan oğlan uşaqları buğanın səsindən güc alardılar, tərs böyüyərdilər, yəni canlı - cəsədli, iri olardılar. Elə buna görə də qabaq zamanlarda Ağbaba pəhləvanları adla deyilirdi. Bunların belə olmasında göl buğasının səsinin böyük xeyri var idi. Mal, qoyunun iyini alanda, elin ərənlərini görəndə göl buğası sanki coşurdu, bör-bör böyürürdü,. Boş yerə deyil ki, uca səslə ağlayan oğlan uşaqlarına "göl buğası" deyərdilər. O uşaqlar yekələndə buğa kimi güclü olardılar.

Amma kafirlər gölü böyütdülər. Göl böyüyəndən sonra buğa daha əzəlki kimi böyürmədi, bəlkə də bir az küsdü elindən. Elə ona görə də nər biləkli, şir ürəkli, buğa dizli igidlər az doğulur.

İndi də Arpa gölünün ortasında göl buğası durur. Di gəl ki, böyürmür. Ona görə də bolluq, bərəkət göyə çəkilib.

## ALP RÜSTƏMİN QARAYOLA GETMƏSİ

Çox qədim zamanlarda Ağbabada Alp Rüstəm adlı bir kişi yaşayırdı. Onun boyu elə uzun idi ki, deyirdin bəs nəhəng bir dirəkdi. Kürəyi elə enli idi ki, biləkləri elə iri, qolları elə əzələli idi ki, daha nə deyim. Bu igidin bircə zəifliyi var idi, o da o idi ki, çox naşükür idi. Bir də övladı olmadığından fikir eləyirdi. O, nə qədər qazansa da, qızılı xərcləməz "Sonra övladım olsa, xərcləyər", deyərdi. Bir gün Alp Rüstəm gözünü açıb gördü ki, yaşı keçir. Tez iri bir quyu qazdı, qızıllarını ora basdırdı. Üstünə bir daş qoydu ki, heç min nəfər də belə zor versəydi qaldıra bilməzdi. Bundan sonra Alp Rüstəm o daşın üstündə oturub övlad sarıdan ah-uf eləməyə başladı.

Bir gün yenə Alp Rüstəm qayanın üstündə oturub ah-uf eləyəndə bir Xırxalı Qoca ona yaxınlaşdı, salam verdi, onun dərdini xəbər aldı. Alp Rüstəm gördü ki, bu, nurani bir qocadı. Qayıtdı ki:

– Baba, mənim övladım yoxdu, neynim?

– Naşükür olma, övladın olacaq, adını Alpcıq qoyarsan.

Alp Rüstəm Xırxalı qoca gedən kimi evə gəlib arvadına dedi:

– Arvad, bizim övladımız olacaq! Bunu mənə Xırxalı baba dedi.

Arvad bu xəbəri eşidəndə çox sevindi.

Bu hadisədən xeyli keçəndən sonra doğrudan da Alp Rüstəmin bir oğlu oldu. Uşağın adını Alpcıq qoydular. Oğul, nə oğul. Süd çatdıra bilmədilər. Elə ki, bir yaşını keçdi, yemək çatdırmaq mümkün olmadı. Ayla, illə deyil, uşaq günlə böyüdü. O, beş yaşına çatanda on üç-on dörd yaşlı uşaq boyda oldu. Alpcığın belə çox yeyib-içməyi atasını lap cana gətirmişdi. Kişi təzədən naşükürlük etməyə başladı: "Tanrı, belə övladı nəyə verdin mənə".

Bir gün qəfildən göyün üzü tutuldu. Alp Rüstəm bir də göyə baxdı ki, nəhəng bir qartal günün qabağını kəsib. O, bircə dəfə qartalın qanadlarının vıyıltısını eşitdi. Bir də onda gördü ki, Alpcığı qartal caynağına götürüb uçdu. Oxuna əl atdı, əlinə gəlmədi:, nizəyə əl atdı, tapa bilmədi, əlini belinə apardı - qılıncını tapmadı. Çarəsiz qaldı kişi, başına-gözünə döydü. Nə fayda, bir göz qırpımında qartal gözdən itdi.

Bu hadisələrdən az keçdi - Alp Rüstəm xəbər tutmadı. Bir gün yenə xəzinə basdırdığı daşın üstə oturanda gördü ki, budur, Xırxalı qoca gəlir. Ehtiramla durdu ayağa, düşdü onun ayaqlarına. Qoca onun əllərindən tutub qaldırdı, özü də əyləşdi yanında.

– Mən sənə demədimmi naşükür olma.

– Olan oldu, oğlumdan ötrü burunumun ucu göynəyir.

– Buna bircə çarə var. Gərək Qarayola gedəsən.

– Ora haradı?

– Qaraxan çayının üstündəki Çınqıllığın ətəyindəki mağaranın Deşikdaş adlanan ağzı Qarayoldu. Ora getməlisən. Çox çətindi, amma gərək dözəsən.

Xırxalı Qoca sözünü bitirib getmək istəyəndə Alp Rüstəm onun əlindən tutdu:

– Sən sənin inandığın İşıqlı babanın eşqinə, de görüm, səni mən harada tapa bilərəm.

– İş elə gətirəcək ki, sən məni tapa bilməyəcəksən, amma eybi yox. Sən dalımca Bığelli dağına adam göndər. Mən orada olacam.

Alp Rüstəm Xırxalı Qocadan ayrılıb evə gəldi, halalı ilə halallaşdı. Üz çevirdi Qaraxan tərəfə. Gəlib çatdı Qarayol deyilən yerə. İçəri keçmək istəyəndə dəhşətli bir fısıltı eşidib dayandı. Əvvəlcə bir şey başa düşmədi. Sonra gördü ki, qabağında bir nəhəng qara ilan dayanıb. İlanın başı qara buludlara dəyir, yarısı Qarayolun içindədir. Kişi ömründə ilk dəfə geri çəkildi. Elə bu an gördü ki, qara ilan da yox oldu. Alp Rüstəm oradan geri qayıtmağa məcbur oldu. O, evə çatanda artıq saç-saqqalı ağappaq olmuşdu, nəhəng bədəni zəifləmişdi. Ovurdları çıxmış, beli əyilmişdi.

Alp Rüstəmi halalı güclə tanıdı:

– Kişi, bu nə haldı düşdün?

– Sorma, arvad, yerim sal, deyəsən öləcəyəm. Durma, get, dədələrdən bir-iki nəfəri yanıma çağır, vəsiyyətim var.

Arvad tez dədələrə xəbər elədi. Dərhal bir neçə dədə Alp Rüstəmin yatağının yanını kəsdirdi:

– Buyur, sözünü söylə, səni eşidirik.

– Bığelli dağına bir-iki ər göndərin. Xırxalı Qocanı tapsınlar. Ona sözüm var.

Dədələr göstəriş verdilər. Üç igid Bığelli dağına getdi. Di gəl ki, dağı nə qədər gəzib dolaşdılarsa da, Xırxalı Qocanı tapa bilmədilər, amma gördülər ki, dağın bir tərəfində böyük bir tonqal yanır. Onlar tonqala yaxınlaşanda gördüklərinə inanmadılar. Xırxalı Qoca tonqalın ortasında oturmuşdu, fikrə getmişdi. Elə bir alovun istisi ona təsir etmirdi. Cavanlardan biri handan-hana dilləndi:

– Dədə, səni Alp Rüstəm çağırır, vəsiyyəti var.

– Yaxşı, -deyə Xırxalı Qoca əllərini göyə qaldıran kimi tonqal yox oldu. O cavanlara:

– Siz gedin, mən indi gəlirəm – dedi:

O bir az keçməmiş dağ gövdəli, əzəmətli bir igidlə geri qayıtdı:

– Odda təmizlədim Alpcığı. İndi gedək.

Onlar gəlib Alp Rüstəmin evinə çatdılar. İçəri girdilər ki, kişi artıq can üstdədir. Alp Rüstəm Xırxalı Qocanı görəndə tanıdı:

– Dədə, dediyini elədim, amma Qarayola gedə bilmədim. Qara ilan qabağımı kəsdi, ömrümdə ilk dəfə geri çəkildim.

– Mən bunu bilirəm. O gördüyün ilan ölümdü, kişi vəsiyyətini elə. Görürsən, oğlunu da gətirmişəm.

Alp Rüstəmin üzü bir an işıqlandı. Dikəlib oğlunu qucaqladı:

– Tanrıya şükürlər olsun, səni gördüm, Alpcığım, Qarayola heç bir ər getməsin - mənim vəsiyyətim budur. Alpcığım, səndən bir xahişim var, mənim kimi naşükür olma. Var-dövlətim həmişə oturduğum daşın altındadır, onu yetim-yesirə payla.

Alp Rüstəm vəfat etdi. Onu haqqına qoydular. Alpcıq dədə yurduna yiyəlik elədi. Ata vəsiyyətini yerinə yetirdi. Xırxalı Qoca da Bığelli dağına getdi. Varmamışdan qabaq bu sözü söylədi:

– Ürəyi təmiz olmayan, torpağın, suyun haqqını bilməyən, öz elinə kəm baxan mənim yanıma gəlməsin. Qabaqdan ağır günlər gəlir.

Deyirlər, indi də Xırxalı Qoca Bığellidədi. Tonqalın ortasında oturub fikirləşir. Qarayol da Qaraxanın üstündəki Çınqıllıqdan azca aşağıdakı mağarada yerləşir. Oraya bircə Xırxalı Qoca gedə bilər.

## QARAXANIN KƏLLƏGÖZÜ ÖLDÜRMƏSİ

Qədim dövrlərdə iki qardaş var idi. Arpaxan və Qaraxan. Arpaxan Ağbabada, Qaraxan Qarsda yaşayırdı. Bir gün Ağbabada Kəlləgöz peyda oldu. Şiştəpədə məskən salıb Göy dağda qalaça yapdı. Duranda, Fezidə, Dərviş dərəsində, Qaynaq bulaq tərəfdə, Mumuxanda, dağda-daşda adam qoymadı, basıb yedi. Elin başına dünya dar oldu. Bir gün Durandan, Duran təpəsindən bir ağsaqqal gəldi Arpaxanın yanına:

– Arpaxan, qadan alım, Kəlləgöz bizdə adam qoymadı.

Arpaxan dinməzcə ayağa qalxdı. Dəli-dolu igidləri ilə atlanıb Kəlləgözün qoyun sürüsü otlayan dağa gəldi. Kəlləgöz onları görəndə əlini-əlinə vurub qəhqəhə çəkdi:

– Yaxşı, öz ayağınızla gəldiniz.

O, sözünü bitirər-bitirməz çomağını çəkib cumdu onların üs-

tünə. Bir-iki ağaca Arpaxanın igidlərini qatım-qatım qatdı. Kimini öldürdü, kimini şikəst elədi. Arpaxan bunu görüb bərk qəzəbləndi. Bir nərə çəkib özünü ona yetirdi. Yüz putluq əmudu ilə onun ağacına elə vurdu ki, çomaq tikə-tikə oldu. Kəlləgöz bir göz qırpımında əmudu onun əlindən alıb kənara tulladı. Üz-üzə, döş-döşə gəldilər. Qırx gün, qırx gecə vuruşdular. Yorulub əldən düşdülər. Hərə çəkilib bir tərəfdə oturdu. Arpaxan o qədər yorulmuşdu ki, bir azdan sonra yuxuya getdi. Kəlləgöz tez yerindən qalxdı. Bir ayağını bu dağa, bir ayağını o dağa qoydu. Bir anda çatdı qalaçasına. Dağ boyda daş toppuzu əlinə götürüb geri qayıtdı. Gördü Arpaxan hələ də yuxudadı. Daş toppuzu göyə qaldırıb bütün gücü ilə onun təpəsinə endirdi. Zərbə elə güclü oldu ki, torpaq oyum-oyum oyuldu, Arpaxanın hərəkətsiz bədəni yarğana düşdü, ətrafını qan gölməçəsi bürüdü.

Xəbər elə çatınca Arpaxanın adamları Qaraxana xəbər göndərdilər. Qaraxan ildırım kimi Kəlləgözün üstünə şığıdı. Kəlləgöz daş toppuzunu onun başına endirmək istəyəndə Qaraxan polad qalxanını qabağa verdi. Toppuz qalxana elə zərblə dəydi ki, qalxan da, toppuz da parça-parça olub yerə töküldü. Toppuzun böyük bir hissəsi xeyli uzaqlığa düşüb yerə batdı, təpə oldu. Kəlləgöz işi belə görüb qaçmaq istədi. Qaraxan elə bir nərə çəkdi ki, dağlar, dərələr tir-tir titrədi, zirvələr əsim-əsim əsdi, qayalar qopub dərələrə dığırlandı. Qaraxan cıdasını bütün gücü ilə Kəlləgözün gözünə sapladı. O, vəhşi bağırtı ilə qaçmağa başladı. Qaraxan ona nə qədər qılınc, nizə vurdusa da, xeyri olmadı, nə qılınc kəsdi, nə nizə batdı. Qaraxan bundan daha qəzəbləndi. Yüyürüb Kəlləgözü haqladı. Kəlləgöz acıqlı bir nərə çəkib onun üstünə cumdu. Xeyli vuruşandan sonra Qaraxan onu başı üzərinə qaldırıb gücü gəldikcə yerə çaldı. Kəlləgöz yerin yeddi qatına keçdi. Onun qanı yerin altından su kimi çıxmağa buşladı, az keçməmiş böyük bir bataqlıq əmələ gəldi.

Qaraxan qardaşını axtarmağa başladı, onu tapa bilmədi. Kəlləgözün toppuzu dəyən yerdə, dərin çökəkdə bir göl yaranmışdı. Qaraxan "Arpaxan" deyə-deyə nə qədər çağırsa da, cavab tapmayınca çox məyus oldu. O bildi ki, qardaşını Kəlləgöz öldürüb. Bikef-bikef geri qayıtdı. Yurdda ona şad xəbər verdilər.

– Qardaşının bir oğlu olub.

– Adını Arpaxan qoyun, -dedi.

Qaraxan ağlaya-ağlaya yola düşdü. Göz yaşları selə-suya döndü, axdı o gölə sarı, "Arpaxan" deyə-deyə.

İndi Ağbabada Qaraxan adlı bir çay var. Çay axıb Arpa adlı gölə tökülür. Göldən isə Arpa adlı bir çay başlanır. Çay axan dərənin bir üzündə çoxlu daş yığınları - böyük çınqıllıq, bir az uzaqda təpənin o üzündə nəhəng daş yığınları - Kəlləgözün toppuzunun kiçik qırıntıları, xeyli uzaqdakı Tilburun isə həmin daş toppuzun yerə batmış iri parçasından yaranmış, Kəlləgözün qanından isə Sarı Çayır, Qara Çayır bir də Feyzi çayırı əmələ gəlmişdir.

## UFULDAYAN DAŞ

Ağbabada bir usta bir iri daşı iki parçalayıb divara hörmək istəyir. Çox əlləşir, axır ki, daşı azca paralaya bilir. Di gəl, daşdan bir inilti, bir ufultu qopur ki, gəl görəsən. Usta baxır ki, çəkici qana boyandı. İşini yarımçıq qoyub dünya görmüş babanın yanına qaçır. Usta başına gələnləri ona danışır. Baba usta ilə bərabər həmin yerə gəlir. O, dua oxuyub daşın üstünə bir ovuc torpaq tökən kimi ufultu kəsilir, parçalanan hissə bitişir. Usta buna mat qalır. Dədə deyir:

– Bu daş elə-belə daşlardan deyil. Bunu qəbiristanlığa aparıb bir tərəfdə torpağa dik basdır, ama yaxşı qurtardın. Daşı iki bölsəydin, öləcəkdin. Amma bundan belə sağ qolun şikəst qalacaq.

Söz dədənin ağzından çıxan kimi usta görür ki, sağ qolu biləkdən yoxdu. Dədə ona ürək-dirək verib deyir:

– Oğul, olan oldu. Dediyimi yerinə yetir. Sən bir də nə daş yon, nə də daşa toxun.

## HAL ANASI

Hal anası çox yekə bir arvatdı. Hər döşü bir quzu başı boydadı. Bu hal anası sağ döşünü sol çiynınə, sol döşünü sağ çiyninə atıf gəlin ciyarına yerihliyər, gələr kətdərə. Harda zahı arvat varsa, o bacada duruf gözdüyər. Arvat yatan kimi onun ciyarını çıxardar, aparar ki, suya çəkif yesin. Həyə, bu vaxt xəbər olsa suyu xançallıyar, güllə atallar kı, bəlkə hal anasını qorxudalar. Gəlini şapaxlayıllar kı, oyansın. Əgər hal anası ciyarı suya çəh-

sə o sahat zahı arvat ölər. Əyər xəbər tez tutsalar o, ciyarı geri gətirər, zahı arvat salamat qalar.

*   *   *

**1**

Deyillər Novruz bayramında iltifil gecəsində ürəhli adam suyun dayandığı vaxta qədər gecə gözdəsə o vaxt ayğır atdan nə soruşsa, o at hər şeyə cavaf verər. Çünkü ayğır at çox vəfalı, insana gərəhli heyvandı. Ona görə də iltifil gecəsində su dayananda bu at da dilə gələr, oluf-olacaxları xəbər alan kimi deyər.

**2**

Bir gün gecə vaxtı yola çıxmışdım, kəndə gəlirdim. Cinni bulağa çatanda baxdım əyə, burda bir çal-çağır var daha nə deyim? Çalan kim, oynuyan kim. Ortada da yeməh-işməh. Məni görən kimi səsdəndilər.

– Gəl sən də otu, bir yaxşı ye-iş. Sonra qoşul yallı oynuyannara.

Dedim:

– Siz yeyin-için, mənim vaxtım yoxdu. İşim var, gecikirəm.

Həyə, onu da deyim atdıydım. Bunu deyif ata bir acıxlı qəmçi çəhdim. At götürürdü. Gəlif kəndə çatanda çobannara rast gəldim. Onnar mana dedilər:

– Əyə o tərəfdə zurna-balaban səsi gəlir. Bu nə işdi gecənin bu vaxtı. Sən bilərsən, o tərəfdən gəlirsən.

– Əşi, yığnax var, cin yığnağıdı, – dedim.

**3**

Qolxozun tayasında gecə qaryolu qalırdım. Bir gün gecə vaxtı gördüm kü, tayalardan birinin üstündə fanar yanır. Dedim görən kimdi bu. Qoşalülüyü dolduruf nişan aldım, əmə güllə açılmadı. Çıxdım eşiyə, düz tayanın yanına gəldim. Diqqətnən baxanda nə görsəm yaxşıdı. Qara bir tülkü, anında da bir təh gözü. Mat qaldım, əyə, bu nə təhər heyvandı belə. Güllənin lüləsini genə qaldıran kimi güllə açılmadı. Tülkü tayanın üstünnən tüşüf getdi, elə dalıncax baxa-baxa qaldım.

**4**

Bir gün öküz harabasıynan qonşu kətdən öz kəndimizə gəlirdih. Yanımda bir nəfər yoldaşım da varıydı. Elə şər təzəcə qavışırdı. Bir də baxdım bir qara tülkü az qalır özünü harabanın altına soxa. Qamçıynan ha qoyaladıx o genə gəldi, onnan baş gələ bilmədih. Eləcə özünü bizə toxumax isdiyirdi. Yol yoldaşım harabıyı saxladı, öküzdəri əylədih. İkimiz də harabadan tüşdüh, cumdux tülkünün üstünə. Bu vaxt elə bil kimsə qəsdən ikimizi də qaldırıf çaldı yerə. İkimiz də yerə zərbnən gəldih. Ufulluya-ufulluya genə qayıdıf mindih harabıya, əmə genə bu qara tülkü bizdən əl çəhmədi. Əmə haraba kəndə çataçatda tülkü yox oldu.

**5**

Bir gün Məhərrəm dayım gecə eşiyə çıxanda baxır bir şey hoppanıf onun dalına mindi. Elə bilir itdi. Səs-küy salır:

– Ay it, cəhənnəm ol.

Səsə itdər tökülüşür. Məhərrəm dayım belə dönüf baxır nə, bir qara tülkü kürəyinin ortasınnan tüşdü. Əmə tülkünün bircə gözü var, o da fanar kimi yanır. Nə işdisə itdər ona qorxusunnan yaxınnaşmır. Tülkü arxeyin-arxeyin uzaxlaşır.

**6**

Bir gün gecə vaxtıydı. Çobanlıx eliyirdim. Qış vaxtıydı, şər qavışmışdı. Birdən qaxdım, dedim birdən qoyun-zad doğuf eliyər, bir baxım, görüm. Gördüm bir yapınçılı, ağsakqallı kişi əlində çıraq qoyunnarın arasında gəzir. Qorxumnan irəli gedə bilmədim. Sonra bunu yaşdılardan xavar aldım, dedilər o gördüyün kişi əvin sahabıymış.

7

Bir gün bizim qonşu əvdə bir erməni usdası qonaq qalmışdı. Özü də qış gecəsiydi. Gecənin bir və’dəsi qapı döyüldü. Aşdım ki, erməni çılpax, alt paltarında, əyaxları yalın, paltarı da qoltuğunda. Onu birtəhər içəri apardıx. Əyaxlarını qarnan avdıx, bir əz özünə gəldi. Başdadı başına gələnnəri mana danışmağa.

– Yatmışdım. Birdən oyandım. Baxdım başımın üstündə bir ağsakqal kişi. Dedim yaqın yuxudu. Elə təzədən yatmax isdiyəndə o, iki barmağını cüt tutdu gözümə:

– Kafır, sənin gözdərini çıxardaram, buraları mundarrama. Qalx, rədd ol burdan!

Qorxumnan qaxdım, ayaxyalın, başıaçıx, paltarı vurdum qoltuğuma düz burya gəldim.

Mən o sahat ermənininin dedihlərinnən başa tüşdüm kü, o qaraçuxalı, ağsakqal kişi əvin sahabıymış.

**8**

Gecənin bir vaxdı gördüm əyə, tuvarın divində, pəyənin tuvarını deyirəm, üş qoca arvad oturuf ağlıyıllar. Elə yanıxlı-yanıxlı ağlıyıllar kı, başımın tühləri biz-biz oldu. Quruyuf qaldım. Həlvət ki, mən qorxax adam dəyiləm. Əmə bunu, yanı bu arvaddarı içəri də görəndə mətəl qaldım. Gecə vaxtdı bu arvaddar bağlı qapıdan necə keçif içəri gəlmişdilər?.. Bunu heş qana bilmədim. Bir təhər özümə toxdaxlıx verdim, əmə cavan çoban yoldaşım xorhaxor yatırdı, qaldırmadım. Dedim cahıl adamdı, qorxuf eliyər, yaxşı dəyil. Əmə, düz sabbağa qədər o üş qoca arvad tuvarın divində ağlaşdılar. Savax açılmağa az qalmış bir də baxdım əyə, o üş arvad üş quş oluf uşdu. Bir də belə baxdım kı, heş nə yoxdu.

**9**

Bir gün yuxuda gördüm kü, ağsakqallı, nuranı bir kişi maa deyir: "Ay oğlu, sən gəl o pəyədə işdəmə, o biri pəyədə get işdə. Bu pəyə xatalıdı, çünkü tuvarın birinin altında beş-altı adamı basırıflar: elə ona görə də hər gecə ağlaşma, ax-uf səsi kəsilmir burdan".

Beyqafıl yuxudan ayıldım. Məni tər basmışdı. Əmə bu yuxuyu heş kimə açıf söyləmədim. Nə bilim tüşəri, tüşməzi olar. Əmə xayış eliyif o pəyədən işdən çıxıf o biri pəyiyə işdəməyə getdim.

**10**

Bir gün qolxozun pəyəsində qaroul vaxtım idı. Baxdım sağınçılardan birinin inəyi doğur. Dedim ona gedif bir xəbər eliyim, indi nə eliyəh ki gecə vaxtıdı. Bə mənim insafıma nə gəlif? Sahada baxdım kı, düz ikidi. Aylı bir gecəydi, pəyədən çıxdım. Gəldim həmin sağınçının əvinə. Əyə, baxdım bunnarın təzəh

qalağının üstündə boz bir şey var. “Pişt“ elədim (mən nə bilim, elə bildim pişihdi, nədi) baxdım yox, bu heş pişiyə oxşamır. Hə, bu nəyisə belə duruf mana belə mırıllıyan kimi elədi. Mətəl qaldım əyə, bə bu nədi axı. Marax mana irəli gəlməyə imkan yaratdı. Laf ona yaxınnaşdım. Baxdım ki, bu boz, tühlü, quyruxlu itdən yekə bir şeydi. Əlimdəki çombaxnan acıxlı-acıxlı onun gərdəninə bir yaxşı çombax ilişdirdim. Onnan bir od çıxdı. Bir də baxdım ki, orda heş nə yoxdu. Əyə, bu andır nəydi, necoldu? Vallah, qaldım belə mat-mətəl. Birdən yadıma tüşdü kü, deyillər bu məhlədə cin yığnağı, həmi də cin çox olur. Deməh bu gördüyüm də elə o cinnərdəniymiş.

**11**

Bizim yaşdılar söylüyürdülər ki, bir vaxt Göydağın yaxınnığında bir təpədə qavırsannıx varıymış. Di gəl iş elə gətirir ki, burda sonralar betər işdər baş verir. Yanı ölüyü qavra qoyuf gedənnən sonra gəlif görüllər əyə, qəvir açılıf, kəfən cırılıf, ölü yoxdu. Mətəl qalıflar buna. Belə-belə xeylax vaxt keçir. Əmə ölüyü genə orya, qavırsannığa basdırıllar. İş o yerə çatır kı adamlar da iki-bir, üş-bir yoxa çıxır. Camahat bu işdəhləri görəndə qorxuya tüşür. Çox arıyıf axtarıllar, əmə heş nə tapmıllar. Bu gün Göy dağdan bir güjdü oğlan qanı tökülə-tökülə özünü kəndə çatdırır. Əyə, baxıllar ki, bunun əyağının biri tamam yoxdu. Qan da yazığı aparır. Birtəhər qanı əyliyillər. Oğlan deyir:

– Tez gedin, qəvirstannıqda bir buynuzdu, tühlü, dev kimi bir adam var. Onu tutun. Məni bu günə o saldı.

Bəyax yirmi-otuz iyit əli silahlı qəvirstannığa gedir. Baxıllar ki, nə, nər kimi, tühlü, buynuzdu, baltatişdi bir şey... Bunu alıllar çənbərə. Ona kimi elin ağsakqalı da özünü yetirir. İşarə verir ki, hələ buna dəymiyin. Bir mən onnan bə’zi şeyləri xəbər alacam. Cavannar ağsakqala fursat verillər. O, buynuzdu adama deyir:

– Sənsənmi bizim ölüləri çıxardan, adamları yeyən?

– Mənəm, düz tapıfsınız. Əmə, bilirsənmi bunları niyə eləmişəm?

– Yox.

– Bilməh isdiyirsənmi?

– İsdiyirəm.

– Ölülərinizin hamısını mən yemişəm, o sizin adamları da mən yemişəm. Qabaxca ölüləri çıxardıf aparırdım. Bəlkə qorxuf bir də burya onu basdırmıyasınız. Mana baş qoşmadınız, mən də məjbur qalıf ölüləri yeməyə başdadım. Genə sizə dərs olmadı kı, burya ölü basdırmax olmaz. Odu ku, indi də başdadım adamları yeməyə.

– Bə sən niyə belə eliyirsən? İndi de görüm sən kimsən?

– Kişi, bu qəvirsannıxdan başqa yerin altında alt-alta iki qəvristannıx da var, bilirsənmi? Mən lap altdakı qəvristannığın qoruyucusuyam. Sana bircə sözüm var, bir də bu qəvirstannığa ölü bastırmıyın, altdakı ölüləri ağırrıx basır. Gedin başqa yerdə qəvirstannıx salın, yoxsa sizdə adam qalmıyacax.

Bu sözdəri deyən kimi buynuzdu adam yoxa çıxır. O sahat ağsakqal göstəriş verir ki, daha qəvristannığı başqa yerə dəyişsinlər. Bəli, qəvristannığı başqa yerə dəyişənnən sonra daha nə ölü yoxa çıxır, nə də adamlara toxunan olur.

## 12

Bizim qonşunun bir köhnə damları varıydı, onun bir gözünü aşxana eləmişdilər. Onun o biri tərəfi hiniydi, toyux hini. Yuxarıda toyuxlara tar qoyulmuşdu. Bir də laf yuxarda, harmıya yaxın quşdar yuva qayırmışdılar. Qonşumuzun uşaxları tez-tez yuxarı dırmanar, tardan yumurta götürərdilər. Bir gün gördüm əyə, daha qonşu orya nə özü gedir, nə uşaxları qoyur. Səvəvini xəbər alanda o belə bir təhər oldu.

– A qonşu, bir gün gecə yuxuda gördüm, kü mana deyillər sənin qırılmışdarın (yanı uşaxların) bizi rahat yatmağa qoymullar, bir gün onnarı başımıza qaldırıf yerə elə çalacağıq kı, elə bir dəfəlih olsunnar.

– Yox, əşi.

– Əyə, vallah, uşaxları adbaad deyəndə, qorxumnan inan, ürəyim tüşdü.

– Bir də a qonşu, hər gecə orya gedəndə elə eymənirəm, elə eymənirəm. Qorxumnan az qalır ödüm ağzımnan gəlsin. Məni bir tər basır, bir tər basır... Bilirsən niyə? Həmməşə hər gecə eləcə orda ağlaşma səsi gəlir. Elə dil deyif ağlıyıllar ürəyim od tutur.

– Belə de.

– A qonşu, bunnarı bir molluya dedim. Kişi dedi:

– A bala, daha orya gedif-gəlmə, heş uşaxları da qoyma. O otağın altında xeylax qəvir var. Onnarın uruhları nərahat olur. Acıxlandırarsan onnarı, onnar da sizə zərəl toxuyallar. Odu ku, o əvdən gen durun, uzax hərrənin.

Odu ku, daha bu damın boşunu vermişəm.

**13**

Axşam tərəfiydi. Maşınnan əvə, yanı Çivinniyə gəlirdim. Əmə hava qaralmışdı. Əyə, elə Xozu tərəfə, dəyirmanın yanına çatanda baxdım bir tülkü... Tülkü hopbandı çıxdı düz maşının pencərəsinin qabağına. O sahat maşının matoru keşdi. Mat qaldım. Nə qədər elədim maşını xoda salım, mator işə tüşmədi ki, yoluma davam eliyəm. Eləcə yolda qaldım. Tülkü hoppanıf maşının pencərəsinin qabağınnan tuşdu. Açarı açan kimi maşının matoru işə tuşdu. Sürüf kəndə gəldim, əmə məni möhkəm xof basmışdı.

**14**

Uşax vaxtdarımıydı, qoyuna gedirdim. Gecə pəyədə qaraol sıramızdı, yatmışdım, əmə İmanı dayım oyağıydı. Birdən ayıldım. Belə baxdım nə, aylı bir gecəydi. İmanı dayım duva oxuyur, əmə anarı tərəfdən başı dingəli bir gəlin gəlir. Dedim Allah, Allah! Gecənin bu və’dəsi bu gəlin nə gəzir burda? Uşax axlıdı da, nə bilim bu nədi, kimdi? Əmə baxdım ki, bu başı dingəli gəlin düz bizə tərəf gəlir. Dedim:

– Ay İmanı dayı, bu gələn gəlin kimdi.

Dedi:

– A bala, sən yat, gözünə görünür. Gəlin-zad yoxdu. Əmə birdən beynimə nə gəldisə yüyürdüm daşa. Bu gəlini daşdıyıf qovaladım. Əmə birdən məni elə bil göyə qaldırıf yerə çaldılar. İmanı dayım özünü mana yetirif məni yerdən qaldırdı.

– A bala, saa demədimmi sən yat, xata taparsan.

Ona heş nə demədim, əmə bu işə mətəl qaldım.

**15**

Bir gün şər vaxtıydı. Elə dəyirman tərəfdən gəlirdim. Bulağa çatanda gördüm arxadan səs gəlir:

– A Əsəd, əylən, ədə, əylən. Məni də apar.

– Cəhənnəm ol, – deyif heş dalıma da baxmadım, yoluma davam elədim. Əmə bu kimiydisə mənnən əl çəhmədi.

– Əsəd, sana əylən demirəm?

Baxdım əyə, bu arvad səsidi, istədim ona bir gəlim, əmə dedim nəhlət şeytana. Kimdi, nəçidisə qoy rədd olsun anarı. Gördüm bu genə mənnən əl çəhmir, tüşüf dalımcax. Hirsdənmədimmi? Hirsdi-hirsdi geri çevrildim ki, görüm axı mənim zəhləmi tökən bu hayasız qızı kimdi. Baxdım kı, dingəli bir gəlindi, dalımcax gəlir. Ayıf-zad qammır. Mən getdim, o da dalımcax gəldi. Belə-belə gəlif kəndə yetişdim. Əmə dingəli gəlin birdən yox oldu.

## 16

Bir dəfə kəndin köhnə qəvristannığı yaxınnığında ekskvatorrar işdiyirdilər. Hər yanı söküf -töhmüşdülər. Burdan neçə-neçə salqaya, qəbirrər çıxmışdı. Elə kəllələr vardı ki, daha nə deyim? Qırıx küpələr, ox, qılışdar da çıxmışdı. Nolacax, həmən günün sabağının axşamı şər vaxtı gəlif o yerin yanınnan keşməh isdiyəndə gördüm biri, dedihcən uzun adam bir daşın üstündə oturuf. Dedim bu adam kimdisə yaqın fürsat gəzir tayadan ot oğurruyuf aparsın, sovxozun tayasını deyirəm. Mən tayaların gecə qaraoluydum. Həyə, dedim bu kimdisə tayadan ot aparmağa gəlif, əmə buna macal vermiyəcəm. Ona yaxınnaşıf hirsdi-hirsdi dedim:

– Əyə, sən kimsən axı, gözümün qabağında tayadan oğurruyuf ot aparasan ay-hay...

Elə bunu dediyimi gördüm. Adam yerinnən tikəldi, elə bil dağ tikəldi. Onun uzun bığları, qan daman gözdəri canıma üşütmə saldı. O, sağ əlini az qaldı gözümə soxa.

– Axmağın biri, mən gör nə tüşünürəm, gör bunun ürəyinnən nə keçir? Bizdən oluf, bizə oxşamıyan... Göreşənnih elədiyiniz bəs döyül, indi bir boş-boş danışırsan da.

Huşumu itirdim. Aradan nə qədər keçif bilmirəm. Bir də onda özümə gəldim ki, yanımda heş kəs yoxdu. Ordan düz əvə gəldim. Əmə iki-üç ay özümü düzəldə bilmədim, xəsdə oldum.

## 17

Qabaxlar bir kasıv kişi varıymış. İki inəyi, iki qoyunu bir də üş keçisi varıymış kişinin. Əmə bu qədər var-dövlətnən kişi haca getməh, hacı olmax isdiyirmiş. Odu ku, mal-heyvanını pütün satır, əmə onun pulu yolun yarsına da bəs eləmir. Kişi qalır yarıyolda. O, əllərini göyə qaldırıf Allahdan köməh isdiyir. Bir də baxır ağsaqqallı, qara paltarrı bir kişi peyda oldu. O deyir:

– A kişi, gecə yatma. Nə görsən savax mana danışarsan.

Əmə kasıf kişiyi gecə yuxu mökkəm tutur. O biri gün genə kişi özünü gecə saxlıya bilmiyif yatır. Üçüncü gün həmən qara paltarrı kişi kasıva hisdənif deyir:

– Yatma, gecə nə görsən sabax mana danış.

Kişi belə deyən kimi harıyasa çıxıf gedir. Gecə tüşən kimi kasıf kişi özünü tofluyuf yatmır. Baxır gecənin bir vədəsi bir neçə qatar ağ dəvə gəldi, qəbirrər açıldı, orya kəfənni ölülər qoyuldu. Hər qəbrin üstündə bir gül pitdi. Kişi gördüyünə mat qalır. Sabax açılan kimi kasıf kişi baxır həmən kişi gəldi. O sahat gecə gördühlərini kişiyə nağıl eliyir. Kişi ona diqqətnən qulax asıf deyir:

– O gördüyün ölülər ziyarata gələnlərdi, kişi. Yaxşı başa tüş, sən də axrətdə belə bir yer qazandın.

Sabax kişi gözdərinə inanmır. Görür öz əvindədi. Başında fəs, əynində çuxa, cevində yaxşı pul, özü də oluf hacı. Allahına çox şükür eliyir.

## 18

Deyillər qabax vaxtdar elə bu ziyarətin yaxınlığındakı bir kişi baxır ki, ağsakqal, nurani bir kişi yedəyində bir at dolanır. Ha gəzir, bir münasif yer tapbır. Mətəl qalır əyə, bu kişi kimdi, nəçidi. Kişi ona deyir:

– A bala, ha gəzif dolanıram, burda bir təmiz yer tapbıram. Bu atı bağlıyam, özüm də bir az dincəlim. Bu ətrafı bir əz təmiz saxlasanız yaxşı olar.

Kişi bir də belə baxır kı, nə ağsakqal var, nə də onun atı. Buna çox təccüf eliyir. Sonra annıyır kı, bu ağsakqal elə ziyaratın sahabıymış.

**19**

Bizim tərəfdə bir xərəbəlih yer var. Həmməşə ələm gəzdirəndə gedif orya qonardı. Hamı bu işə təəccüf eliyirdi. Bir gün dedilər:

– Hələ gəlin elə bu yeri qazax, orda nə var kı, ələm qonur. Ələm boş yerə qonmaz.

Qazdılar. Baxdılar kı nə... Sən demə, bir vaxtdar, yanı ağzı yanmış ermənnərin əlinnən ellərkətdi molla Sadıx Türküyyə qaçanda Qur'anı orda basdırıfmış, ələm də ona görə gedif orya qonurmuş.

**20**

Yay vaxtıydı. Çöldən əvə gəlirdim. Günün günorta vaxdıydı. Birdən elə bil məni titrətmə tutdu. Bədənim başdadı əsməyə. Mat qaldım maa nooldu. Bir də gördüm ildırım kimi bir şey düz qavağıma gəldi. Baxam görəm tülkü. Tülkü düz qavağıma gəldi. Yerimdə quruyuf qaldım. Nə irəli getdim, nə geri. Əmə genə əyaxlarım əsirdi. Birdən tülkü qafqara qaralıf yox oldu. Birtəhər özümü yaxınlıxdakı bulağa çatdırdım. Əl-üzümü yudum ki, bir əz özümə gəlim.

**21**

Bir gün çölə ot pişməyə getmişdim. Bilmirəm, vallah, nə qədər işdədim, əmbə baxdım günorta oluf. Bir əz çörəh yeyif bir kölgəlih yerdə başımı atdım yerə. Əyə, bir və'də oyandım kı, başımın üstündə bir ağ ilan dayanıf. Özü də bu ağ ilan düz quyruğu üsdə dururdu. Mən qabaxcax çox eyməndim, əmbə can şirindi deyin birtəhər ilanın altınnan çıxdım. Ordan düz əvə qaşdım. Əmbə bu işi heş kəsə demədim. Ürəyimə dammışdı kı, burda bir sirr var. Elə həmən gün gecə yatanda yuxuda gördüm kü, hayatdakı ocağımız elə gur yanır, elə gur yanır daha heş demə. Öz-özümə acıxlanmax isdiyirdim ki, əyə, bunu kim belə qalıyıf, aloy göyə daranır. Birdən ocağın, odun içindən bir nurani kişi çıxıf yanıma gəldi:

– Oğul, sənin halallığını mən dünən çəmənnihdə verdim. Bilirsənmi?

Mat qaldım. Əyə, bu dədə nə deyir. O, mana dedi:

– Hələ irəli bax, gör o gələn kimdi.

Mən irəli baxanda gördüm kişi yox oldu.

**22**

Bir dəfə danamız itmişdi. Özümün də cavan vaxtdarımıydı. Gəzə-gəzə Türkiyəynən Ağbaba arasındakı Qaraxan çayının qırağına, yanı Camışboğana gəlif çıxdım. Bir də gördüm nədisə qara-qara tühlü, quyruxlu şeylərdi, çimişillər. Geriyə çəvrildim ki, neyvətin biri məndən xeylax uzaxda duruf. Ayın işığında gördüm bu herti-pertinin biridi. Sinəsinin tükü iki qarış olardı. Vallah, mən qorxax adam dəyiləm, əmə xof məni basdı. Birdən axlıma nə gəldisə dedim:

– Tfu, indi mən neyniyim?

Elə bunu dediyimi gördüm. Əyə, birdən sudan, yanı çaydan bir göyçəh qadın çıxdı. Əllərini bir-birinə necə vurdusa od qofdu. O tühlü şeylər də, o neyvət suvat da yoxa çıxdılar, ilim-ilim itdilər. Bu işə laf təəcüf qaldım. Qadın mana baxıf gülümsədi:

– Məni köməyə çağırdın. Get daha yolun açıxdı.

Bir də belə baxdım kı, qadın suda əriyif yox oldu. Əmə bunu nədənsə heş yanda danışmadım. Qorxurdum danışsam xatası çıxar.

**23**

Gecəydi. Qolxozda naxırçıydım deyin o günü qalmışdım qaraolda. Əyə, gecənin bir vaxdı gördüm bir tap-tuf tüşüf gəl görəsən. Baxam görəm nə? Bir gözəl-göyçəh gəlin bir sındırır, bir sındırır. Yüyürdüm kü, onu qucağıma alıf yatağıma salam. Əlimi ona atan kimi elə bil əllərimə iynə batırdılar. Əllərimi ağrıdan ağzıma soxdum. Gəlin başdadı gülməyə. Yanıf-yaxıldım: “Ə, a başıbatmış oğlu“ – dedim özüm-özümə. Yanı bir gəlinnəndəmi başarmırsan?“. Bir də cumuldum gəlinə, genə əllərimə iynə batdı. Yaman hirsdəndim, bu köpəhqızı gözümə allax-bullax göründü. Puxçaxdakı çalğıyı aldım əlimə, çırfdım onu gəlinin təpəsinə. Gəlin əlini necə qaldırdısa “Bismillah“ deyə bildim. Bir də gördüm gəlin-zad nədi, heç kəs yoxdu. Sən demə, ciniymiş bu.

**24**

Hələ onda heş əvlənməmişdim. Yaxşı vaxtdarımıydı. Keçmiş günüydü, yaddan çıxıf... Bilmirəm əvdəkilər harya getmişdilərsə əvdə təkiydim. Qorxu-ürkü bilməzdim deyin arxeyin

uzanıf yatmışdım. Bilmirəm, gecənin nə və'dəsiydi hay-küyə ayıldım. Gördüm, vallah, telli, tokqalı, başı dingəli bir dəsdə qız əvə doluşuf. Çox təəccüf elədim ki, balam, mən qapıyı yaxşıca bağlamış, üsdəlih qapının dalına da bir lom qoymamışdımmı? Bə bu qızdar?.. Hər nəysə, nə başını ağrıdım, gördüm qızdar oynaşıllar. Hers başıma vurdu, dəli beynim oynamağa başdadı, əmə hirsimə tət dedim. Birdən axlıma nə gəldi, nə gəlmədi tez paltarımı əynimə keçirif özümü verdim qızdarın içinə. Başladım oynamağa. Oyunun qızğın yerində gördüm qızdardan biri, maa göz-qaşını oynadıf, işarat eliyir. Düzü, az qaldı axlım başımnan çıxsın. Allah, Allah, qız nə gözəliydi. Sonra öz-özümə tüşündüm: "Sən xalxın qızına elə baxırsan, ayıf dəyil?" Gənə öz-özümə dedim: "Qızı səvməh olmaz? Pis fikirə tüşməmişəm ki, ha". Həyə, oynuyan qız o biri qızdara dedi: Durun, bu oğlanın sağına, soluna düzülün, tez! Qızdar o sahat dayandılar, mən də əl-qolumu aşağı saldım. Qızdarın üçü sağ, üçü sol tərəfimdə durdu. Qız maa dedi:

– İndi başını qaldır üzümə bax.

Baxdım.

– İndi sağına, soluna bax.

Gördüm qızdardan əsər-əlamət yoxdu. Daha tüşünməyə vaxt tapbadım. Qız birdən yapışdı biləyimnən:

– Sən görürəm məni səvirsən, əmə şərtim var. Gərəh mənnən güləşəsən. Yıxsan razıyam, yıxmasan vay sənin halına.

Qərəz, özüm də bilmədim meydana nə vaxıt girdim. Qıznan tutuşdux, nə tutuşdux. Gördüm əyə, bu zalımın qızının canı dəmir kimidi. O, ha zor verdi məni başına qaldırsın, başarmadı.

Mən isdədim onu qaldırıf yerə çalam, olmadı. Üstəlih, paltarım parça-parça oluf töküldü. Qurşağa qədər çılpax qaldım. Yoruldum laf, nəfəsim tıncıxdı. İstədim əlimi atıf onun döşünnən tutam, bu vaxıt qız döşümə elə bir dürtmə vurdu ku, özümnən getdim. Ayılanda gördüm bir ayrı yerdəyəm. Həmin qız yanımdadı, əmə baş tərəfdə bir ağsakqallı, üzü nurru bir kişi oturuf. Ağsakqal qızdan xəbər aldı:

– Bu oğlan həmən oğlandı?

– Bəli.

– Yaxşı.

Ağsakqal əllərini maa uzatdı. O sahat hər tərəfi od bürüdü.

Gördüm yox, çırta-çırt yanıram. Canımı tişimə tutuf dillənmədim. Ağsakqal əllərini yanına salan kimi od yox oldu. O dedi:

– Əyə, bu oğlana  toxunma. Ürəyi təmizdi, apar qoy yerinə.

Genə sinəmə dürtmə dəydi. Gördüm qız nəydisə dartıf-dartıf ağzımdan çıxartdı, bədənim boşaldı elə bil, özümdən getdim. Ayılanda özümü əvdə gördüm. Qalxdım baxdım. Yox, bu əvimizdi, əmə qız-zad yoxuydu.

**25**

Bir çoban oğlan bilmiyif şər vaxtı, yanı gün batanda asdanada durufmuş. Asdana əyəsi onu vurur. Oğlan böyrü üsdə gəlir yerə. O görür kü, budu bir ağsakqal kişi özünü yetirdi ona. Onnan xeyli aralıda duruf əllərini uzatdı onun ağzına tərəf, dizdərini qoydu yerə. Bir dartdı, iki dartdı, üş dartdı, oğlanın bədəni boşaldı, bayılıf qaldı yerdə. Oğlan bir də gördü kü, budu düz qəbirsənniyə gedir. Həyə, gəlif o, qəbirsənniyə çatır. Görür anası, atası, cavan ölən qardaşı hamısı bir üsdolun başında oturuflar. Bunnara bir qarayöz, qaraqaş qız da qullux eliyir. Qız oğlanı görəndə deyir:

– Yox, bunun hələ vaxdı deyil. Bunu mən zamına götürəcəm.

Qız oğlanı ordan geri qaytarır. Oğlan özünə gələndə görür tüşdüyü yerdəcə qalıf. Birdən  tufan qopur. Bir heybətdi atdı çıxır, əlini qılıcına aparıf oğlanı vurmax isdiyəndə o qarasaş qız peydah olur.

– Sən Allah, maa bağışda bunu.

– Yaxşı.

Atdı yox olur. Hannan-hana oğlan özünə gəlir. Dörd yanındakı adamlar ona deyillər ki, “Sən bir günüydü kü, özünnən getmişdin“. Oğlan bu işə mat qalır.

**26**

Bir dəfə qolxozun pəyəsində qaroul sıramıydı. Tərs kimi bərk yatırdım. Bilmirəm, gecənin yarısıydı, ya onnan bir az keçmişdi... Onda gördüm bir gözəl gəlin gəlif qoynuma girdi. Qaldım belə... Ayə, bu kim ola, kim olmaya? Amma gəlinin elə bil gözlərinnən od çıxırdı. Bilmirəm, yorulmuşdum nədi, məni bir də yuxu apardı. Səhərə yaxın ayılanda nə görsəm yaxşıdı! Qu-

cağımda çalğu... Hirsimdən çalğuyu "andır" deyif yerə atınca çalğu bir qarğa oluf uşdu. Qupquru qurudum. Birtəhər "Bismillah" deyəndə gördüm ki, qarğa-zad yoxdu.

**27**

Köhnə qəviristannıxda enni, üstü yazılı bir daş varıydı. Çox xoşuma gəldi. Onu birtəhər gətirif qapıya qoydum ki, hərdənbir üstündə oturaram. Elə daşı gətirən günün gecəsi təzəcə yuxuya getmişdim ki, boylu-buxunlu bir oğlan içəri girdi. Əl atdı boğazıma, o biri əlinin iki barmağını düz dirədi gözlərimə:

– Köpəkoğlu, o daşı yerinə qoy, məni narahat eləmə, yoxsa gözlərini çıxararam.

Nə illah elədim, səsim çıxmadı. Bir də zalım oğlu boğazımnan elə yapışmışdı ki, xırtdanırdım. Dəngəsər yuxudan ayıldım. Səhərə qədər yata bilmədim.

Səhər yenə daş yadımdan çıxdı. Gecə həmən hesab oldu: yenə o oğlan gəlib girdi yuxuma, boğazımdan tutub boğdu. Allah, Allah... Yuxudan qan-tər içində ayıldım. Üçüncü gün həmin oğlan maa dedi: "Bu son dəfədi saa deyirəm. Əgər daşı yerinə qaytarmasan sənin gözünü çıxardannan sonra boğub öldürəcəm". Genə dəngəsər ayıldım. Səhər olan kimi daşı aparıf yerinə qoydum. Bir də o oğlan mənim yuxuma girmədi.

**28**

Hava təzəcə işıxlanırdı. Getdim mal damına, yabıyı götürdüm ki, bir az ot gətirim. Yabıyı bir belə vuruf qaldırdım. Bir apardım, ikinci dəfə aparmax istəyəndə gördüm, ayə, qonşumuzun arvadı otun içində yatır. Mat qaldım. Onu səsləyincəh qalxdı. Üstümə necə hoppandısa, özümdən asılı olmuyan bir səs çıxdı mənnən:

– Bismillah!

Bıy, gördüm qonşu arvadı nə gəzir. Otu ələh-vələh elədim. Sən vurmadın, mən yıxılmadım. Bu qonşu qadını necoldu? Birdən "ey dadı-bidad, -dedim, bu, qonşu donuna girən ciniymiş!".

**29**

Bir dəfə qış gecəsinin bir vədəsi çal-çağır eşidif yerimdən dik qalxdım. Gördüm evin qabağında adamlar yallı tutuf oynayır, bir

tərəfdə ocaq yanır, nəsə pişirirlər. Amma adamların bədənləri tüklə örtülü, özdəri də quyruxluydu. Vahimə məni götürdü. Təkrar yerimə girsəm də, yata bilmədim. Səhər açılar-açılmaz yerimdən qalxıb eşiyə çıxanda qarda ayaq izdərini gördüm, ocaq yeri də dururdu. Onnar ocaqda nə pişirif yeyirdilər, heç nə tapa bilmədim, amma ocaxdan aralı yerə at peyini tökülmüşdü.

**30**

Bir dəfə yatdığım yerdə məni ayıldıf, yerimdən götürdülər. Gətirdilər bir məclisə. Məəttəl qaldım ki, gecənin bir yarısı bu nə məclisdi belə. Stolun üstü yeməh-içməklə dolu idi. Əvvəl-əvvəl özümü itirdim, sonra özümü tez ələ aldım. Gördüm ki, ətrafımdakılar adama oxşasalar da, adam kimi deyillər elə bil. O dəqqə anladım ki, bura cin-şayətin yığınağıdı. Qabağımdakı ploy qalağından cibimə bir ovuş tökdüm. Nə isə, məni evə - geri, yerimə gətirdilər. Evə gələn kimi yerimə girif yatdım. Səhər oyananda bencəyimin civinə baxdım ki, ploy adı ilə civimə tökdüyüm nədi. Baxam, görəm ki, at peyinidi.

**31**

Bir gecə  qonşu kəntdən atnan gəlirdim. Qarannıxıydı. Birdən at tırılladı, dayandı. Bay, bu ata nə oldu, öldüsə, qabağa getmədi. Gördüm, budu, qabağıma bir qara tülkü dimdik duruf. Allah, Allah... Əvvəl bir şey qanmadım, sonra məni xof basdı, nə basdı. Birdən qara tülkü hoppanıb mindi tərkimə, möhkəm-möhkəm yapışdı mənnən. At yavaş-yavaş yeriməyə başdadı. Elə kəndə çatha-çatda qara tülkü tərkimnən yerə tullandı. Amma qorxudan tər məni aparmışdı.

**32**

Uşax vaxtdarım idi. 14-15 yaşım olardı. Qolxozun pəyəsində qaraol qalırdım. Öküzdər yatan yer tərəfdə özümə taxt düzəldif yatırdım. Gecənin bir vədəsi oyanıf gördüm öküzlər yoxdu. Ala, Sarıbuynuz, Morux yoxa çıxıf. Qaldım belə... Qapını açıf çıxdım eşiyə - heç kim yox. Buradan xeyli aralıda öküzləri gördüm. Yüyürdüm. Mən getdim, onlar getdi. Elə bil yatmışdım, ayıldım. Oradan tələsik geri qayıtdım. Gördüm ki, öküzdər pəyədə, özdəri də mışıl-mışıl yatıllar. Sən demə, gözümə cinnər görnüfmüş.

**33**

Bir arvad evdə təkmiş. Gecəymiş. Birdən qapı döyülür. Arvad duruf qapını açır ki, iki kişidi... “Nə istiyirsiniz?” -deyir ev sahabı. Deyillər, bəs deməzsənmi, ayıb olmasın, gəlinimiz uşağa yatır, həvəçi lazımdı. Arvad dinməzcə düşür onların qabağına. Arvad gəlib görür, doğrudan da bir gəlin yerdə yatır. Deyirlər: “Arvad, uşaq oğlan olsa, sənə pul verəciyih, qız olsa, özünnən küs“! Arvad belə anlayır ki, bunlar adam deyil, cindilər, özünü o yerə qoymur. Arvad deyir:

– Mən tutan uşağın hamısı oğlan olur. Xalanı buna görə hamı tanıyır.

Arvad uşağı tutur. Göbəyini kəsif bələyir, qız olduğunu bildirmiyif ev sahabına muştulux verir ki, oğlan oldu. Ona o ki, pul verillər.

Arvad deyir: “Yaxşı, indi məni evimə ötürün, gedim”.

Götürüf arvadı ötürüllər. Arvad evinə keçif qapını daldan bərk-bərk bağlayır. Gecənin bir vədəsi cinnər gəlif bacadan deyirlər:

Sözün quru sözmüş, ay xala,
Oğlan deyil, qız imiş, ay xala.

Elə arvad “Bismillah” deyən kimi görür səs-səmir bacadan kəsildi.

**34**

Bir arvad yol gedirmiş. Kəndə az qalmış qaranlıx düşür. Birdən o, hay-küy eşidir. Yaxın gələndə görür ki, bir dəstə adam çalıf - oynuyur. Amma zurnaçıların çaldığı hava hava deyil, qarma-qarışıq bir şeydi. Qayıdır ki:

– A bala, bu nə havadı elə.

Çalıb-oynayannardan biri arvada belə deyir:

Damba-dumbulu Yetər xala,
Qayda budur Yetər xala.

Arvad quruyub qalır ki, onun adını hardan bildilər. Birdən annayır ki, bunnar cindillər. Bir “Bismillah” deyir arvad. Bir də görür ki, yığnaq-zad nə gəzir.

## 35

Bir gün evdə tək idim. Gecəydi. Birdən baxdım peçin odu sönhasöndü. Tez eşiyə çıxıf qalaxdan bir qərəvənə təzəh gətirmək istədim. Onu da deyim ki, təzəh qalağının içindəki təzəyinin çoxunu yandırdığımıza görə qalağın içi oyulmuşdu, bomboşmuş. Eləcə yannarı qalmışdı. Elə eşiyə çıxanda gördüyümə məəttəl qaldım. Qonşumuzun təzə gəlini qalağın içində bir sındırırdı, bir sındırırdı ki, daha nə deyim. Ayın işığında onun üzünü yaxşı görürdüm. Odu ki, hirsimdən dedim: "Ay axmağın balası gəldiyin heç bir ay deyil... Utanmırsan, mənim kimi qoca arvadın qabağında gecənin bu vaxtı meymunlux eliyirsən?" O mənə heç əhəmiyyət vermədi. Hirs başıma vurdu. Geri qayıdıf yabıyı qapının dalından götürdüm, Gəlinin təpəsinə nə təhər vurdumsa, yabanın sapı qırıq-qırıq olub töküldü, özümü saxlaya bilməyib mən də yıxıldım. Birtəhər dirsəklənif ayağa qalxdım. Belə baxdım ki, gəlin nə gəzir? Sən demə, bu, ciniymiş.

Bu işə mətəl qaldım.

## III. İNAM VƏ ETİQADLAR, ALQIŞLAR (DUALAR)

Kimin üsdünə qurd dişi tikilsə ona bədnəzər dəyməz.

İlan qabığını özündə gəzdirən adam qara-qorxudan uzax olar.

Üstünə qurd yağı çəkilən adamın ağlı-huşu başında cəm olmaz.

Qapının üstünnən maral kəlləsi asılsa, ocax qada-baladan, kasaddıxdan uzax olar.

Asdanada duruf görüşməh adama xeyir verməz. Belə eliyən adamlar neçə illərnən bir-birinnən uzax düşəllər.

Damazdıx mal alan adam malın qıymatının üsdündə artıx pul verməlidi ki, qapısında həmişə mal-heyvan olsun.

Baş tükü ayağlananda baş ağrıyar.

Gecə ayaxlarını çatmax pisdi, onda əvdə ölü düşər.

Qarannıx basdımı, eşiyə tək çıxmazdar.

Heyvannardan pişiyi öldürməh çox günahdı. Onu öldürənin özü də, ayləsi də məhv olar. Yaxını, qohumu qırılıf qurtarar.

Malı söyüf-döyən mal-qoyun üzünə həsrət qalar.

Mal-heyvan kəsəndə pünhan yerdə kəsməh lazımdı.

Heyvanı heyvanın gözü qabağında kəsməh böyük günah sayılır. Heyvan kəsilənnən sonra onun qanı tökülən yeri yaxşı-yaxşı yuyub təmizləmək lazımdı.

Pişiyi vurmax, incitməh olmaz. Çünki pişiklərin çoxu cindi. Cinnən də xata əhsih dəyil.

Gecə qapı-baca möhkəm-möhkəm bağlanmalıdı, çünki gecənin yarısı pis ruhlar gəzməyə çıxıllar. Hansı qapı, hansı baca açıx olsa, ordan içəri girəllər. Əvdəkilərə zərər toxudallar.

Pis niyətdi adamın nəfəsinnən qurtarmax üçün onun paltarınnan bir qədər cırıf yandırmax lazımdı. Blə eləyəndə onun nəfəsi adama təsir eliyə bilmir.

Gecə başqasına pul verməh olmaz, çünki evin bar-bərəkəti azalar.

Gözündə olana, bədnəzərə nə istəsə verməh lazımdı ki, gözü dalda qalmasın. Əgər ona bir şey verilməsə, o, görən şeydən sahabına fayda yoxdu.

Çörəyi surfanın üstündə çox saxlayanda çörəh ev sahabına qarğış eliyər. Odu ku, yeməh yeyilən kimi çörəh yığışdırılıb yerinə qoylmalıdı. Yoxsa əvdə bar-bərəkət olmaz.

Qara pişih sahabına duva verər: “Onu görüm heç qara gün

görməsin“.
Ağ it sahabına qarğıyar: “Onu görüm heç ağ gün görməsin“.

* * *

**A**

Allah səni pənahında saxlasın
Allah köməyin olsun!
Allah qüvvət versin!
Atın büdrəməsin!
Ayağının altında ölüm!
Ağzın şirin olsun!
Allah səndən razı olsun!
Allah durar əliylə versin!
Allah səni diləyinə yetirsin!
Allah var eləsin!
Allah üstüncə getsin!
Allah səni şərdən uzaq eləsin!
Allah səni yarıyanlardan eləsin!
Arxan-köməyin kəsilməsin!
Al geyinib ə’lada gəzəsən!
Allah ruzini versin!
Allah pis gün qismət eləməsin!
Allah əskik gününü verməsin!
Allah səni cavanlığına bağışlasın!
Allah ümidində saxlasın!
Allah peşmançılıq verməsin!
Allah mərhəməti üstündən əskik olmasın!
Allah balalarını saxlasın!
Allah cavanlığına bağışlasın!
Adına qurban!
Ananın südü sənə halal olsun!
Atan cənnətik olsun!
Allah əməyini itirməsin!
Allah bərəkət versin!
Allah mübarək eləsin!
Allah oğul versin!
Ağzın dada gəlsin!
Allah dost deyən eləsin!

Ağzın şirin olsun!
Allah səni güldürsün!
Allah başacan versin!
Allah işini rast salsın!
Ayağına daş dəyməsin!
Allah sayasında saxlasın!
Allah xeyir versin!
Atın yüyrək olsun!
Allah dalını aydınlığa döndərsin!
Aradığını bulasan!
Allah səni heç darda qoymasın!
Allah əməyini itirməsin!
Ağ qoy, qızıl ovucla!
Axırından yarıyasan!
Allah sənə “ah“ çəkdirməsin!
Allah adını ansın!
Allah mənim ömrümdən kəssin, sənin ömrünə calasın!

**B**

Birin yüz olsun!
Başın uca olsun!
Baxtın yeyin olsun!
Bir yastıqda qocalasınız!
Başından bir tük əskik olmasın!
Balalarının dalınca gözü dolusu baxasan!
Böyrəkli böyüyəsən!
Başına dönüm!
Bircə balan sağ olsun!
Baxtın qılınc olsun!
Başın yığnaqlı olsun!
Baxtına gün doğsun!
Başın dövlətli, yanın övladlı olsun!
Baxtın yüyrək olsun!
Boyuna qurban!
Balaların sağ olsun!
Başında ağ tük bitsin!

**Q**

Qazanma, qarşı gəl!

Qadan mənə gəlsin!
Qadan canıma!
Qılıncın kəskin olsun!
Qabağında ölüm!
Qaba dirəyin kəsilməsin!
Qədəmin qayım olsun!
Qonaq-qara qapından əskik olmasın!
Qazandığını xeyir işə tökəsən!
Qardaşın sağ olsun!
Qədəmin xeyirli olsun!
Qazandığın özünə qismət olsun!
Qoşa qarıyasınız!

**D**

Duz dağı kimi durasan!
Düşmənə möhtac olmayasan!
Dünya durduqca yaşayasan!
Dizinin kiri kəsilməsin!
Dərdin ürəyimə!
Döşündə ağ tük bitsin!
Dalında qardaşların dursun!
Düşmənin zəlil olsun !
Dövlətin sana gəlməsin!
Dövlətin başından aşsın!

**Ə**

Əli qolundan tutsun!
Əli belindən qurşasın!
Əlinin dalı da kəssin, qabağı da!
Əzrailin yadından çıxasan!
Əlini atanda əllisi gəlsin, qolunu atanda qollusu!

**İ**

İlan yerisin, dalınca da balası!
İşin avand olsun!
İtlərin ulaşsın, tüstün tütsün!
İşin irəli olsun!
İmanın kamil olsun!
İtə-qurda möhtac olma!

**N**
Neynim, necə eyləyim deməyəsən!
Nəzirin qəbul olsun!
Nəvə-nəticələrin toyunu görəsən!

**S**
Sözün ötgəm olsun!
Süfrən açıq olsun!
Səni istəməyənin gözü çıxsın!
Səsin uca olsun!
Səni görüm heç “ax“ çəkməyəsən!
Sözün ötkəm olsun!
Sağ get, salamat gəl!
Saqqalın ağarsın!
Səni min yaşa!

**O**
Oxun başa çıxmasın!
Oğul ayağı qutlu olsun!
Oğullu-qızlı olasan!
Ocağın şən olsun!

**E**
Evin şen olsun!
Evinizə həmişə şadlığa gələk!

**X**
Xata-bala səndən uzaq olsun!
Xeyirri olsun!
Xeyir xəbər olasan!
Xalan sənə qurban!

**G**
Gözə görünməz qanadının altda saxlasın!
Gecən xeyrə qalsın!
Gəlin gətirə, qız köçürəsən!
Gözlərinə qurban!
Gözün işıq görsün!

Gül kimi açılasan!
Gün kimi yanasan!

**K**

Kefdə-damaqda olasan!

**P**

Payın artıq olsun!

**Ö**

Ömründən doyasan!
Ömrün uzun olsun!
Ömrüm-günüm sənə qurban!
Ölənlərinə rəhmət!

**Ü**

Üzünə xeyirli sabahlar açılsın!
Üstünə gün doğsun!
Üstünə xeyir xəbər gəlsin!
Üzüm ayağının altına!
Üstündən qara yel əsməsin!
Ürəyin yağda olsun, kürəyin dağda!
Ümidin-pənahın kəsilməsin!

**C**

Cibin dolu olsun!
Canım sənə sadağa olsun!
Canın azar görməsin!

**Y**

Yolun açıq olsun!
Yeddi oğulla bir süfrəyə əl uzat!
Yastığın yüngül olsun!
Yeyib-içdiyin halalın olsun!
Yetirib-bitirdiyinin bəhrini yeyəsən!
Yaman gözdən uzaq olsan!
Yarı yolda qalmayasan!
Yorulmayasan!
Yekə kişi olasan!

**T**

Toyunu görüm!

Təzə-təzə bayramlara çıxasan!

**U**

Uğurun açıq olsun!

**Q**

Qismətin əlli olsun, adın bəlli!
Qurbanın qoyun olsun!
Qada görmə!
Qul sahibi olasan!
Qəddin əyilməsin!
Qismətin özündən qabaq getsin!

**H**

Halal xoşun olsun!
Həzrət Abbas köməyin olsun!

**M**

Min budaq olasan!

## IV. ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## GƏLİN QAYA

Kafirlər Yayla dağının zirvəsindəki qalanı mühasirəyə aldılar. Qaladakı igidlər az olsalar da, qəhrəmanlıqla vuruşub həlak oldular. Hökmdarın qızı Gəlin qalada tək qaldı. O, əlində sıyırma qılınc, əynində zireh geyim, başında polad dəbilqə kafirlərə qarşı vuruşurdu. Qız onlarca kafiri qılıncdan keçirsə də, qoşunun bir ucu daldan gəlməkdə idi. O vuruşa-vuruşa gəlib atasını qan gölməçəsi içində görəndə elə bil dünya başına hərləndi. Gəlinin qılınc tutan qolu boşaldı. Birdən o qışqırdı, qaladan çıxıb qaçmağa başladı. Düşmən əsgərləri onu diri ələ keçirmək üçün onun arxasınca düşdülər. Gəlin özünü hündür bir qayanın başından yerə atdı. Düşmən əsgərləri dəhşətlə aşağıdakı uçuruma baxıb, əsə-əsə geri çəkildilər.

O vaxtdan Gəlinin özünü atdığı qaya Gəlin qaya adlanır. Ora yolu düşənlər ehtiramla Gəlin qayanı ziyarət edib, onun xatirəsini əziz tuturlar. Gəlin qayadan azca aralı aşağıda yonulmamış, dikili daş deyilənə görə Gəlinin qəbridir. Bir az ondan uzaqda isə bir dağ çeşməsi çağlayır. Bu çeşmənin adına Gəlin bulağı deyirlər.

## YANIQ, AHAR, BAHARNAN QARDAŞVAY

Qədim zamanlarda Ağbabada Yaruq və Ahar adlı ər-arvad yaşayırmış. Onların bir oğlu, bir qızı varmış. Oğlanın adı Qardaş, qızın adı Bahar imiş. Yaruq tanınmış ovçu, qoluzorlu pəhləvanmış. Ata ovçuluq, pəhləvanlıq sirlərini öz övladlarına da öyrədibmiş. Bir gün haradansa peyda olan kafirlər Yaruğun mal, qoyunla dolu ormanlarına hücum edirlər. Şiddətli döyüşdə Qardaş bir dağın başında ağır yaralanır, ancaq qılıncını daha da möhkəm tutub dəli bir nərə çəkərək döyüşə davam edir. Bahar nərə səsindən qardaşının yaxında olduğunu hiss edib onun yanına tələsir. Onu əhatəyə alan kafirləri qılıncdan keçirib özünü qardaşına çatdırsa da, görür ki, onun son nəfəsidir. Qız “qardaş, vay“ - deyə nalə çəkib yerə yıxılır. Xeyli keçəndən sonra Ahar düşmənlə vuruşa-vuruşa gəlib çıxır. O, övladlarının al-qan için-

də olduğunu görüb huşunu itirir.

Yaruq Aharla Baharı bir zirvədə, Qardaşı isə həlak olduğu dağda dəfn edir. O, bu hadisədən sonra ovçuluğu, pəhləvanlığı atır, qopuz çalıb oxumağa başlayır. Yaruq elə çalıb oxuyarmış ki, ormandakı vəhşi heyvanlar, o cümlədən marallar, cüyürlər onun başına toplaşarmış. Sonralar Yaruq Yanıq Dərviş kimi tanınır. Yanıqlı oxuduğuna, gözəl qopuz çaldığına görə ona Yanıq Dərviş deyirlərmiş. Elə o vaxtdan Yanıq Dərviş belə bir bayatı deyir:

Qaldı dağlar,
Sinəmdə qaldı dağlar.
Yaruq Yanığa döndü,
Səndə tək qaldı dağlar.

İllər keçir. Yanıq Dərviş qocalıb əldən düşür. Yanıq Dərviş bir gün dağların birində qopuz çaldığı yerdə vəfat edir.

Aharla Baharın dəfn olunduğu dağ Ahar-Bahar, Qardaşın qəbri olan zirvə - Qardaşvay, Yanıq Dərvişin vəfat etdiyi dağ isə Yanıq adlanır.

İndi Ağbabada bir-birinin yanında Ahar-Bahar, Yanıq və Qardaşvay adlı üç zirvə ucalır.

## SUDUR-BUDUR

Qədim dövrdə Ağbabada Aslannan Şirin adlı bacı-qardaş yaşayırmış. Bir gün düşmən onların yurdunu talan edir. Vuruşa-vuruşa özlərinə yol açan bu gənclər bir dağa pənah gətirirlər. Onlar iki-üç gün aramsız vuruşmadan sonra bərk yorulduqlarına görə dağın döşündə dincəlməyi qərara alırlar. Aclıqdan, susuzluqdan dil-dodaqları quruyur. Nə qədər axtarsalar da, içməli su tapa bilmirlər. Şirin susuzluqdan huşunu itirir. Aslan xeyli axtarandan sonra bir neçə göbələk tapıb bacısına gətirir, onu birtəhər özünə gətirəndə qız deyir:

– Sudur?

Qardaş qalır belə nə desin. Özünü itirdiyindən:

– Budur, deyir (yəni gətirdiyim göbələkdir, su deyil).

Birdən elə bir möcüzə baş verir. Oğlanın ayağı altından bulaq qaynamağa başlayır. Qız da, oğlan da doyunca sudan içirlər.

O vaxtdan bu dağın da, bulağın da adı Sudur-Budur qalır.

## TAZIUÇAN

Tazı xeyli vaxt idi ki, tülkünü qovurdu, amma ondan xeyli geridə qalmışdı. Ovçu lap yorulub əldən düşmüşdü. Birdən-birə yoxuşdan sonra böyük düzənlik başladı. Tazı bütün gücünü toplayıb irəli atıldı, artıq aradakı məsafə lap azaldı. Az keçməmiş tazı tülkünü haqlayıb tutdu. Ovçu tülkünün dərisini soyub çıxarandan sonra bir tərəfə oturdu, əlini tazının başına çəkib dedi:

– Mənim tazım qaçmırdı ey - geniş düzənliyi göstərdi - lap uçurdu. O vaxtdan bu düzənliyə Tazıuçan deyirlər.

## MUMUXAN

Ağbabanın gül-çiçəkli, mənzərəli bir yerində əski bir kənd vardı. Kənddə adlı-sanlı Mumuxan adlı bir xan yaşayırdı. Xanın çoxlu arı kötükləri, at ilxısı, mal-qara və davarı vardı. Xan varlı olduğu kimi, həm də səxavətli idi. Kənddə bir yoxsulu belə aclıq çəkməyə qoymaz, bütün kasıblara diqqət yetirərdi. Bir gün xan bu dünyadan köçdü. Kənd əhlisi bu itkidən çox pərişan oldu. Ağsaqqallar belə qərara gəldilər ki, bundan sonra kənd Mumu xanın adını daşımalıdı. Sonralar bu kəndin adı Mumuxan şəklinə düşür.

İndi Ağbabada Mumuxan adlı bir xarabalıq var.

## SINIQ

Qədim dövrlərdə İrandan Ağbabaya Sınıqçı Əhməd adlı bir kişi gəlir. O, yaxşı sınıqçı olmaqla bərabər çox sadə adammış. Sınıqçı mənzərəli bir yer seçib ev-eşik salır. Aradan bir neçə il keçir. Daha bir neçə ailə də buraya gəlir. Sınıqçı Əhməd gələnlərə kömək etməyi özünə borc bilir, hamının evinin bənnalığını üzərinə götürür. Böyük hörmət qazanır. Yanına gələnləri heç bir təmənna güdmədən yola salarmış. Az keçmir ki, Sınıqçı Əhməd tərəfindən salınan kənd onun şərəfinə Sınıqçı Əhməd deyə anılır. Sonralar bu kənd “Sınıqlı“, “Sınıq“ kimi gəlib dövrümüzə çatır. Ağbabada Sınıq adlı kəndin xarabalıqları indi də durur.

## YABIQIRILAN

Keçən əsrin əvvəlləri, bir qış gecəsi imiş. Rus qoşunları Ağbaba ərazisində bir dağın dalında daldalanıbmış. Səhər görürlər ki, yabıların heç biri gözə dəymir. Xeyli axtarandan sonra baxırlar ki, dağın aşağısında çoxlu at leşi var. Sən demə, yabıların hamısı uçurumdan düşüb qırılıbmış.

O vaxtdan bu dağın adı Yabıqırılan qalır.

## AĞBABA, AŞDIBABA, KALOĞLAN

Deyirlər qədim zamanlarda Çıldırın yaxınlığında, Arpa gölünə tərəf yerləşən sıra dağlarda üç qardaş yaşayırmış. Bunlardan böyüyünün adı Ağbaba, ortancılın adı Aşdıbaba, kiçiyinin adı Kaloğlan imiş. Qardaşlar bir-birini çox istəyirlərmiş. Onların hərəsi bir dağı məskən edibmiş. Ən hündür zirvə böyük qardaşın imiş. Bir gün yaşa dolan böyük qardaş o biri qardaşlarını yanına çağırıb deyir:

– Biz artıq yaşlandıq daha. Yaşımız yüzü çoxdan keçib. Mənim sizdən bir xahişim var. Ölüm haqdır, hamımız öləcəyik. Dünyada qalanlarımız, övladlarımız sağ olsunlar. Gərək hər ikiniz mənim sözümə əməl edəsiniz. Gəlin bərabər dua edib Allahdan ölüm diləyək. Elə ölüm ki, hər üçümüzün canını bərabər, eyni vaxtda alsın, bu dünyada yer - yurdumuzun bir olduğu kimi, qəbrimiz də bir olsun. Ortada mən, sağımda ortancıl, solumda kiçik qardaşım olmaqla hər üç qəbir mənim dağımda qazılsın. Ora hündürdür. Ruhlarımız həmişə ocaqlarımızın üstündə hərlənər, qada-baladan qoruyar övladlarımızı.

Qardaşlar Ağbabanın sözünü qəbul edib birgə Allaha dua etdilər. Tanrı qocaların arzusunu yerinə yetirdi. Hər üçü bir gündə vəfat etdi. Onların vəsiyyətləri yerinə yetirildi. Hündür zirvənin qar xəttindən azca aralıda, aşağıda üç qəbir qazıldı... İndi Ağbaba dağında yan-yana üç qəbir, üç başdaşı var, hasarla dairəyə alınıb. Yaxınlıqdakı zirvənin biri Aşdıbaba, digəri Kaloğlandı.

## AĞBABA, SARIBABA, HACIXƏLİLBABA, PİR SULTAN

Böyük Göy dağda üç qardaş, bir bacı yaşayırdı. Böyük qardaşın adı Ağbaba, ortancılının Sarıbaba, kiçiyinki Hacıxəlilbaba,

bacılarının adı Pir Sultan idi. Onlar çox mehriban yaşayırdılar. Bir gün onlar bir-birindən ayrılmalı oldular. Odur ki, qardaşlar bir yerə yığılıb məsləhətləşdilər. Böyük qardaş dedi:

– Mən ata yurdumda qalıram. Ata ocağını söndürmək olmaz, siz gedə bilərsiniz. Amma elə yerdə binə bərkitməlisiniz ki, ayda, ildə bir-birimizi görə bilək, bacımız nisbətən isti yerə getməlidir.

Kiçik qardaşlar Ağbabanın sözünü qəbul etdilər. Bacıları da buna razı oldu.

Sarıbaba Qaraxaça üz tutdu, Hacıxəlilbaba ondan bir qədər irəliyə gedib orada binə qurdu. Pir Sultan Gürcüstana üz çevirdi.

İndi Ağbabada Ağbaba adlı dağ zirvəsi, orada Ağbaba ziyarəti, Qaraxaçda, Qarovultəpə deyilən təpədə Sarıbaba, ondan bir qədər uzaqda Hacıxəlilbaba ziyarəti, Gürcüstanın Qasımlı kəndində Pir Sultan piri var. Bu pirlər üç qardaş bir bacının adını daşımaqdadır.

## QOYUN DAĞI

Yayın isti günlərindən birində dağda bir çoban qoyun otarırmış. Günorta yeməyini yeyəndən sonra çoban bərk susayır, amma yaxınlıqda bulaq yoxmuş. Bir tərəfdən isti, bir tərəfdən susuzluq çobanı əldən salır. O, əllərini göyə açıb deyir: "Tanrım, göstər qüdrətini. Bu qayalığın içindən bir bulaq qaynasın. And içirəm anamın südünə, yeddi qurban kəsəcəyəm". Çoban sözünü qurtarar-qurtarmaz, doğrudan da, qayaların ortasından bulaq qaynamağa başlayır, handan-hana özünə gələn çoban bulağın suyundan doyunca içir. Doyandan sonra Allaha verdiyi sözə peşman olur. Axtarır, canından yeddi bit tapıb öldürür: "Bu da sənin qurbanların". Çobanın nankorluğu Allahı qəzəbləndirir. O, çobanı da, sürünü də daşa döndərir. O vaxtdan dağın adı Qoyun dağı qalıb. Kənardan baxırsan, adama elə gəlir ki, dağın döşündə qoyun sürüsü var, yanında da çoban. Elə ki, yaxına gəlirsən, görürsən, daşdı, qayadı.

## QIŞ-BAHAR

İki ovçu varıymış. Bu ovçular o qədər qəddarıymışlar, ta nə deyim... Əllərinə keçənin başını üzürlərmiş. Bir gün ovçunun

birinin arvadı bərk xəstələnir, ərinə deyir:
– Ay kişi, ürəyim sərçə əti istəyir.
Ovçu deyir:
– Bundan asan nə var ki, bu saat gətirərəm.
Ovçu çölə çıxıb nə qədər axtarırsa, əlinə bir dənə sərçə keçmir. Haraya baxırsa, qarğa görür. Sərçələr yuvalarına çəkilib, heç biri görünmür. Ovçu öz-özünə deyir: "Bir soyuq düşəydi, bu sərçələr aclarından yerə döşənəydilər. Hamısının başını üzəydim".
Onun səsi hər yana yayılır. Bu qarğışdan sonra qar yağmağa başlayır. Ovçu dönüb qışa çevrilir. Bərk soyuq düşür, quşlar isti ölkələrə gedir. Mal-qara içəri dolur. Sərçələr civildəşə-civildəşə yerə döşənir.
İkinci ovçu dostunun qışa döndüyünü görüb qəzəblənir. Silahını götürüb çölə çıxır. Üç ay çölü, köfşəni gəzir, yorulur. Bir ağacın altında oturub dincini alır. Dərdli-dərdli oxuyur.

Qarğışa qışa dönmüş, ley-ley balam, ley-ley.
Ocağı vaxtsız sönmüş, ley-ley, balam ley-ley.

Ovçunun səsi ətrafa yayılır. O qəflətən dönüb yaza çevrilir. Qış yox olur. Elə o vaxtdan da yaz qışı axtaranda qış yox olur. Onlar bir-biri ilə görüşə bilmirlər.
*2-ci variant.* Deyilənə görə yazla qış iki qardaş imiş. Biri dövlətli, biri kasıb. Bir gün kasıb qardaşın uşaqları acından sızıldaşanda o, əlacsız qalıb dövlətlinin yanına gəlib deyir:
– Mənə əl tut, uşaqlarım acdı.
Dövlətli deyir:
– Qardaş, iki göz səndədi, ikisi də məndə. İki əl sənindi ikisi də mənim. Heç nə verən deyiləm, get özünə çörək qazan.
Kiçik qardaş kor-peşman çölə çıxır. Qardaşına qarğış eləyə-eləyə evinə gəlir. Uşaqların üzünə çıxa bilmir. Üzü qaralıqdan astanaya çöküb deyir:
– Allah, sən məni göydən-göyərtidən bir şeyə çevir. Uşaqlar ac qalmasın.
Söz ağcından çıxan kimi dönüb yaz olur. Hər tərəf göy otla örtülür. Taxıl, pencər boy atır. Kasıbın uşaqları quşəppəyindən, unlucadan yeyib birtəhər yola gedirlər. Kasıb yaza dönəndə

varlı qardaş da yoxa çıxır. Nə qədər axtarırlarsa tapa bilmirlər.

Bir vaxt keçəndən sonra bir soyuq düşür, bir boran qopur, daha nə deyim. Boran əsdikcə bu sözlər eşidilir:

Mən qardaşam, qarğışam,
İçəri dolun acmışam.

Qışın qəzəbli səsi getdikcə daha da güclənirdi:

Mən qardaşam, bacaları basmışam,
Qapılara qarı yığıb qaçmışam.
Bu gün-sabah gələr anam çillələr,
Gözlərindən kasıbların od ələr.

Beləliklə, varlı qardaş qış olub, camaatı soyuqdan dondurub qırmaq istəyir. Camaat tez təndiri, ocaqları qalayır, qırağında oturur. Hirs vurur qışın başına. Öz-özünə deyir:

– Yenə də kasıblar bir illac elədilər. Bir şey eləyim, qoy soyuqdan ölsünlər. Bu fikirlə anası Böyük Çilləni çağırır:

– Anası Çillə, bir bu kasıblara zülm elə. Elə soyuq sal ki, donub buza dönsünlər.

Böyük Çillə eşiyə çıxıb gəzir, dolanır, axırda da kasıb oğluna, nəvələrinə yazığı gəlib heç nə eləmir. Hamını isti təndirin başına yığır. Qış görür ki, anası bir şey eləmədi. Hirslənib analığınıköməyə çağırır:

– Kiçik Çillə, bu adamlara elə zülm elə ki, donub buza dönsünlər. Bunların üzündən mən bu günə düşmüşəm.

Kiçik Çillə eşiyə çıxır hirslənir. Görür ki, camaat eşikdə-bacada hərlənir, axşamlar da ocağın başına yığışıb qızınırlar. Kiçik Çillə öz-özünə deyir:

– Yaxşı indi görün sizin başınıza nə oyun açacam!?

Kiçik Çillə elə soyuq eləyir, elə tufan qoparır ki, hamı qaçıb təndirin başına yığışır. Yenə də canları qızmır ki, qızmır. Xəbər gedib yaza çatır. Yaz görür ki, balaları əziyyət çəkir, tez özünü yetirir onlara. Kiçik Çilləni qovub ilim-ilim itirir. Onun nəfəsilə hər şey dirçəlir, cana gəlir.

## BÖYÜK ÇİLLƏ, KİÇİK ÇİLLƏ

Bir kişinin bir gözəl qızı varıymış. Qız bir az böyüyəndə anası ölür. Qız qalır yetim. Kişi görür nə, yola gedə bilmir. Təzə bir arvad alır. Arvad bu ocağa gəlir-gəlmir, qızın günü göy əskiyə bükülür, ona göz verir, işıq vermir.

Bir gün qız bir bucağa qısılıb için-için ağlayıb deyir:

– Allah, bu nə zülümdü mən çəkirəm. Elə bir şey olaydı analığımın üzünü görməyəydim.

Qız bəxti qara olduğundan qaranquşa çevrilir. Qanad çalıb bu diyardan uçub gedir.

Gözü qabağında qızın uçub getməsi analığını daha da hiddətləndirir. Hirsindən, hikkəsindən şaxtaya çevrilir. İkinci arvad olduğuna görə buna Kiçik Çillə deyirlər. Kiçik Çillə camaata elə zülüm eləyir ki, soyuqdan hamı qaçıb içəri yığılır. Aradan bir il keçir. Bir gecə ölən arvad kişinin yuxusuna girir. Yuxuda ondan soruşur:

– Ay kişi, günün, güzəranın nə təhər keçir?

Kişi deyir:

– Arvad, üzüm yanında qaradı. Nə deyim! Təzə arvad aldım. Gəldi-gəlmədi bizə gün vermədi. Qızım onun üzündən başını alıb getdi. Özü də hikkəsindən, sərtliyindən dönüb Çillə oldu. Bizi soyuqdan burub-büküb yumağa döndərdi.

Bundan sonra arvadın ruhu da dönüb Böyük Çillə olur.

Böyük Çillə gəzir, dolanır, gəlib yol qırağında Kiçik Çillə ilə rastlaşır.

Kiçik Çillə deyir:

– Böyük Çillə hara belə, xeyir ola?

Böyük Çillə deyir:

– Gedirəm elimi-obamı görüm. Onlara baş çəkim gəlim.

Böyük Çillə Kiçik Çillədən ayrılıb gedir. Az gedir, çox gedir, gəlib obasına çatır. Görür nə: camaat orda-burda soyuqdan sozalır. Elə eləyir ki, hamı yığılır təndirin başına, hamını içəri, təndirin başına yığandan sonra çıxıb gedir. Böyük Çillə yolda yenə Kiçik Çilləyə rast olur.

Kiçik Çillə soruşur:

– Ay bacı, ay günü, getdin neynədin?

Böyük Çillə deyir:

– Getdim, hamını təndirin başına yığdım. Soyuqdan üşüyürdülər.

Kiçik Çillə deyir:

– Sən getdin hamını təndirin başına yığdın. Mən də gedib təndirdən soxub külfədən çıxardacam.

Kiçik Çillə yola düşür. Gəlib məkana çatır. Elə soyuq eləyir, elə soyuq eləyir ki, doğrudan da, camaat qaçıb özünü verir təndirin qırağına. Amma yenə də canları qızmır ki, qızmır. Elə bir şaxta olur ki, daha nə deyim. Qaranquş da bu soyuğa görə baş alıb bu yerlərdən gedir. Kiçik Çillə çıxandan sonra qaranquş gəlib evlərinin divarlarında yuva qurur. Sonra yenə də soyuqlar düşəndə oradan uçub isti yerlərə gedir.

## QIZILGÜLLƏ BÜLBÜL

Gözəl bir qız varıymış. Onun hüsnü-camalı, boy-buxunu, qəddi-qaməti, dünyaya səs salıbmış. Bir gün elin adlı-sanlı igidlərindən biri ürəyini ona açır.

Qız onun məhəbbətinə biganə qalmır. Bir-birinin eşqindən dəli-divanə olurlar.

Bir gün oğlan bir gözələ rast gəlir. Əvvəlki əhdi-peymanı unudub indi də bu qıza aşiq olur.

Birinci sevdiyi qız günlərlə onun yolunu gözləyir, ancaq oğlan gəlib çıxmır. Axır ki, qız əhvalatdan xəbər tutur. Dərd-qəm içində alışıb-yanır. Gecə-gündüz göz yaşları axıdır.

Bir gün oğlan öz işlərindən peşman olur. İstəyir ki, gedib sevgilisini görsün. Onun qəlbinə dəydiyi üçün üzr istəsin. Oğlanın gəldiyini görən qız dərindən nalə çəkir. Üzünü göyə tutub deyir:

– Ya rəbb, elə elə ki, bir də belə bir namərdin əli mənə toxunmasın.

Qız dönüb ağ gülə çevrilir. Budağının hər yanından tikanlar çıxır. Oğlan bunu gözləri ilə görür, dərddən yanıqlı-yanıqlı oxuyub gülün başına fırlanır. Gecə-gündüz gülün başına dolanan oğlan allaha yalvarır ki, onu quşa döndərsin, heç olmasa onun budağına qonub iyini ala bilsin. Allah səsini eşidib onu quşa çevirir. O sevinə-sevinə gülün üstünə qonur. Ağ gülün tikanları onun köksünə sancılır. Bülbül al qana boyanır. Qanı gülün ağ

ləçəklərinə tökülür. Ağ gül qırmızı rəngə boyanır. Qızılgülə çevrilir. Bülbülün vəfasızlığı hər yerə yayılır. Bülbül də öz günahını yumaq üçün həmişə bu gülə qonub, yanıqlı-yanıqlı oxuyur.

## GÜLXƏTMİ

Xətmi adında bir qızın nişanlısı bərk xəstələnir. Dərdinə dərman tapılmır. Xətmi hər gün dağdan, düzdən çiçəklər yığıb dərman düzəldir. Yenə də heç bir xeyri dəymir. Bir gün dağda çiçək yığanda Xətmi ağlayır. Göz yaşları dilə gəlib soruşur.

– Xətmi, niyə ağlayırsan?

Xətmi deyir:

– Bəs neynəyim? Elə gül olmadı ki, dərman eləməyim. Nişanlıma əlac tama bilmirəm.

Göz yaşı deyir:

– Elə bir gül bitər ki, o sənin nişanlına dərman olar, ağlama.

Xətmi deyir:

– Kaş elə mən özüm gül olaydım. Təki nişanlım sağalaydı.

Söz ağzından qurtarmamış Xətmi gülə çevrilir. Nişanlısı o güldən dərman kimi istifadə eliyib təmamilə sağalır. Həmin gülə bir zamanlar Xətmi gülü deyirlər. Sonra da el arasında adı dəyişib Gülxətmi olur.

## LALƏ (LALAXAŞ)

Əmi qızı, əmi oğlu bir-birini sevirlər. Bir günləri, bir dəqiqələri bir-birindən ayrı keçmir. Hər dəfə görəndə əmisi qardaşı oğluna deyirmiş:

– Necə də olsa, qızımı sənə verəcəm.

Qız yekəlib həddi-buluğa çatır. Əmisi yavaş-yavaş onun ayaqlarını qardaşıgildən kəsir. Hər iki cavanlar dərd-qəm içində alışıb-yanır. Heç kəsdən onlara imdad olmur.

Bir gün qız məktub yazıb çox çətinliklə əmisi oğluna çatdırır. Oğlan məktubu oxuyub görür ki, əmisi qızı onu dağın ətəyindəki görüş yerlərinə çağırır.

Qız günün günortaçağı gəlib çıxır vədə yerinə. Oğlan orada onu gözləyirdi. Onlar söhbət eldikləri yerdə qəfildən bir oğlan gəlir. Bu atasının onu nişanlamaq istədiyi oğlan idi. Qız görür

ki, araya qan düşəcək. Ona görə əmisi oğluna deyir:

– Əmioğlu, sən məni bu dərədən aşağı at, qoy mən ölüm, bununla da hər şey bitsin.

Oğlan razı olmur. Qız özünü atmaq istəyənlə oğlan əlini atıb onun saçlarından tutur. Amma onlar özlərini saxlaya bilmirlər. Hər ikisi uçurum dərəyə düşüb tələf olur. Araya girən oğlan tutduğu işdən peşman olub özünü onların dalınca atır. O da orada ölür. Bunların öldüyü yerdə qırmızı ləçəkləri olan bir çiçək bitir. Ləçəklərin ortasında qara saçaqlı tellər bir düyməcik olur.

Rəvayətə görə düyməcik və qırmızı ləçəklər qızla oğlanın, qara tellər isə onları bir-birinə qovuşmağa qoymayan oğlanın qanından yaranır. Bu gülün adına Lalaxaş deyirlər. Bu gül ən çox uca dağ ətəklərində, uçurumlu yerlərdə bitir.

## YASƏMƏN

Görəsən niyə yasəmən dağlarda, düzlərdə, çəmənlərdə bitməyib, ağacların başına çıxıb?

Belə deyirlər ki, iki qardaş olur. Onlar bir-birindən xəbərsiz bir qızı istəyirlər. Böyük qardaş ürəyini qıza açıb onunla evlənir. Bunlar mehriban yaşayırlar. Qızın dərdinə dözməyən kiçik qardaş bir gün böyük qardaşını vurub öldürür. Qız ərini qapıdakı bağçada dəfn eləyir.

Qardaşı basdırıldığı gün kiçik qardaş gəlinin yanına gəlib deyir:

– Sənin ərini, qardaşımı mən öldürmüşəm. Özü də bunu sənə görə eləmişəm. Mən səni sevirəm. Gərək sən bu gündən mənim arvadım olasan.

Qız dərindən bir ah çəkir və deyir:

– Sən mənim qaynımsan, gərək bu iş olmayaydı. İndi ki belə oldu, sabaha qədər mənə möhlət ver.

Qaynı onunla razılaşır. Qız bütün gecəni fikirləşir, nə qədər dağı arana, aranı dağa çəkirsə, çıxış yolu tapa bilmir. Sabah açılan kimi yerindən durub ərinin məzarı üstünə gəlir. Görür burda bir ağac bitib. Xeyli ağladıqdan sonra əlini göyə açıb imdad diləyir:

– Allahım, öz birliyin xatirinə, mənə bir yol göstər. Ya məni öldür, ya da bir gül elə, bu ağacda ərimin yasını saxlayım.

Diləyi qəbul olunan gəlin sübh donunda, sübh rəngində bir gül olub həmin ağacın budağına qonur. Sevinə-sevinə deyir:

– Əmin oldum. Onun adı da buradan əmələ gəlib. Yas və əmin sözündən.

## GİCİRTKAN

Dünyada tayı-bərabəri olmayan bir gözəl olur. Onu hər tərəfdən istəyirlər. Amma qız heç kimə getmir. Axır ki, bir kasıb oğlanı sevdiyini anasına xəbər verir. Anası da daş atıb başını tutur ki, oğlan kasıbdı, biz dövlətli, bizimlə onunku tutmaz.

Bunu eşidən oğlan başını götürüb pul qazanmaqdan ötrü uzaq yerlərə gedir. Qız da başlayır onun yolunu gözləməyə.

Bir gün dədəsi onu dövlətli bir oğlana nişanlayır. Vaxt o vaxt olur ki, gəlirlər gəlini aparmağa. Elə ki, karvan gəlir, qız eşiyə çıxır, qalağın dalında, zibilliyin içində oturub zülüm-zülüm ağlayır. Üzünü göyə tutub deyir:

– İstəmədiyimə qismət olunca zir-zibil olub ayaq altında qalaydım, ot olub heyvanlara yem olaydım.

Elə bu vaxt qızlar onun başına yığılırlar ki, gedək başını bəzəyək. Oğlan adamları səni gözləyir. Qız elə bir ah çəkir ki, yer-göy lərzəyə gəlir. Qızlar onun qolundan tutub çəkirlər. Bu vaxt qız durduğu yerdəcə tikanlı bir bitkiyə çevrilir. Qızların əlini dalayır. Qızlar əllərini ovuşdura-ovuşdura qaçıb onun anasına xəbər aparırlar ki, başımıza belə bir iş gəlib. Camaat tökülüb gəlir. Hamı bu işə məəttəl qalır.

Elə o vaxtdan da həmin tikanlı bitki zir-zibilli yerlərdə bitir. Adına da gicirtkan deyirlər.

## DANAQIRAN

Eh, fələk... fələk. Fələyin evi yıxılsın, bala!

Deyirlər ki, bir oğlan varıymış. On, on iki yaşında uşaqkən anasından, dədəsindən yetim qalan bu oğlanı əmisi saxlayırmış. Varı-yoxu bircə bu əmisiymiş ki, bunun da var-dövləti başından aşırmış. Var-dövlətinin çoxluğuna baxmayaraq qardaşı oğluna çox əziyyət verirmiş. Oğlan yaz-qış əmisinin danalarını otarırmış. Bu qədər əziyyətlə bir qarın çörək yeyirmiş.

Bir gün oğlanın başına bədbəxtlik gəlir. Naxırı çöldə otardığı yerdə iki qurd peyda olur. Danalardan ikisini-üçünü parçalayır. Oğlan ağlaya-ağlaya naxırı evə gətirir.

Göz yaşlarına baxmayaraq, əmisi onu o qədər döyür, o qədər döyür, daha nə deyim? Bundan da ürəyi soyumayıb oğlana deyir:

– Hardadı, danaları gətir yerinə qoy. Yoxsa günün qara olacaq.

Oğlan tezdən durub danaları örüşə aparır. Elə yerdə otarır ki, oradan oba görünür. Danalar otlayır, oğlan da ağzı üstə yıxılıb fikirləşir. Əmisindən o qədər çirgiyir ki, az qalır gedib bütün mülkünə od vursun.

Birdən onun beyninə gəlir ki, nolaydı bir zəhərli bitki olaydım, bütün danalar otlayıb öləydilər. Onda əmim lap ərş öynünə kimi yanardı. Belə fikirləşə-fikirləşə yuxuya gedir. Bir daha ayılmır. Mavi gözəl gülə çevrilib çöl boyu yayılır. Danalar onu yeyən kimi ölürlər.

Gecə düşür. Əmisi görür ki, oğlan gəlmədi. Naxır da çöldədi. Öz-özünə deyinir:

– Özü cəhənnəm, naxırı aparıb batırar. Var-yoxum əldən gedər. Gedim görüm hardadı!?

Beləcə öz-özünə deyinə-deyinə gəlir çölə. Çox axtarandan sonra bir təpəlikdə naxırı tapır. Ancaq danaların hamısı ölmüşdü. Nə qədər axtarırsa oğlanı tapa bilmir. Başına-gözünə döyə-döyə gəlir kəndə. Bir çoban deyir ki, o görübdü. Oğlan birdənbirə gözümün qabağında gülə çevrildi.

Bundan sonra həmin gül xalq arasında danaqıran adı ilə tanınır.

## ARPAYLA BUĞDA

Biri varıymış, biri yoxuymuş, bir kişiylə bir arvad varıymış. Bunların övladı olmurmuş. Bir gün kişi qapıda dərdli-dərdli qəlyan çəkdiyi yerdə bir dərviş peyda olur. Kişidən soruşur:

– Niyə fikir eliyirsən? Nə olub?

Kişi deyir:

– Mən də fikir eləməyim kim eləsin? Bir ayağım burda, o biri gordadı. Amma heç bir züryətim yoxdu.

Dərviş cibindən bir toxum çıxarıb deyir:

– Bunu qaynadıb suyunu için. Dərdinizin dərmanı bundadı.

Dərviş bu sözləri deyib qeybə çəkilir. Kişi çox sevinir. Dərvişin sözlərinə əməl eləyir. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə, doqquz saniyə keçir, onların bir uşağı olur. Adını qoyurlar Arpa.

Arpa böyüyüb on iki yaşına çatır. Bir gün Arpanın anası ölür. Uşaq yetim qalır. Kişi arvadın qırxını, ilini verəndən sonra təzədən evlənir. Bir uşaq da təzə arvaddan doğulur. Bu uşağı Buğda adlandırırlar.

Arpa ilə Buğda bir yerdə böyüyür. İki yaş Arpa Buğdadan böyük olsa da Buğda onu hey döyüb incidirdi.

Bir gün bulağın suyu kəsilibmiş. Kişi gedib dağdan bir qab su gətirir. Evə çatanda Arpa onun qabağına qaçıb suyu əlindən alıb içmək istəyir. Amma Buğda gəlib suyu onun əlindən alıb içir. O qədər içir ki, az qalır nəfəsi kəsilə. Sonra da Arpa içməsin deyə suyu yerə tökür. Kişinin ürəyi yanır. Arpanın çəkdiyi günü görüb sızıldayır. Amma arvadın qorxusundan bunu açıb-ağarda bilmir.

Kişi baxıb görür ki, bu uşaqlar bir yerdə yola getməyəcəklər. Əlini açıb yalvarır:

– Ya rəbbi, sən uşaqları bir yola qoy, hərəsini bir yana sal, qoy yazıq yetimin günü ağarsın!

Arpaynan Buğda dönüb taxıla çevrilir. Amma Buğdanın qarnının yarığı eləcə də qalır. "Buğdanın qarnı yarıxdı" atalar sözü də elə bu əhvalatdan yaranıb.

Bu əhvalatdan sonra iki dalaşan görəndə deyirlər:

"buğda dik-dik-dik".

## QARA ÇANTEY

Aclığa-susuzluğa baxmayaraq yaxşı zamanıydı. Bəzi evlərdən gələn çörək qoxusu, arpa qorğasının iyi ac adamı belə doyururdu. Birinin evində çörək bişəndə qoxusu kəndin o başına yayılırdı. Çörəyi olan adam dünyanın ən baxtavarıydı. Bir adamın ayağı altında çörək qalsaydı, əyilib yerdən götürüb, üç dəfə öpüb əlçatmaz bir yerə qoyurdu. Nə isə, qarınlar ac olsa da, ürəklər sağlamıydı. Böyüyün, kiçiyin yaxşı, yamanın qədrini bilənlər çoxuydu. Zalım-zülüm dünyası olsa da, hər şeyin qədir-

qiyməti varıydı.

Qarlı-çovğunlu bir qış günüydü. Belə havada çölə çıxmaq qorxuluydu. Uşaqdan böyüyə hamı daxmaya doluşub kimi nağıl danışır, kimi zümzümə eləyə-eləyə çarıqdan-zaddan yamayırdı. Bir gün axşamçağı kimsə Alı kişinin qapısını döydü. Qapını Alı kişi özü açdı. Naməlum adamı görüb təəccüb elədi, gözlərinə inanmadı.

– Axşamınız xeyir! -deyə qonaq dilləndi.

– Aqibətin xeyir, bala! Buyur içəri.

Qonağı içəri aparıb yuxarı başda yer görsətdilər.

– Bala, bu tərəflər adamına oxşamırsan. Hardan gəlib, hara gedirsən? -deyə Alı kişi soruşdu.

Oğlan soyuqdan donmuş əllərini ovuşdura-ovuşdura dedi:

– Əmi, mən çox uzaqlardanam. Bu tərəflərə nabələdəm. Bu kənd hansı kənddi?

– Bu kəndin adına Şörəyil deyirlər, bala. Kimsən nəçisən, belə ruzigarda nabələd adamın bu tərəflərdə nə işi?

– Əmi, ac-susuzam. Əgər mümkünsə mənə bir az çörəkdən, sudan verin, sora danışaq.

Qonağın acından lap taqətdən kəsildiyi açıq-aşkar görünürdü.

Pəri arvad tez olanından bir süfrə açdı. Bu günə saxladığı küt ilə bir qab suyu gətirib süfrəyə qoydu. Oğlan bir qismət çörək yeyəndən sonra gözlərinə işıq gəldi. Süfrəniz dolu olsun. Mən yedim əksiltdim, allah versin artırsın, -deyə razılığını bildirdi. Sonra bilmədi ki, sözünə necə başlasın. Alı kişi onu vəziyyətdən qurtardı.

– Hə, bala, danış görək, -deyərək ona baxdı.

– Mən Arazın o tayından gəlmişəm əmi, -deyə oğlan sözə başladı. Mən istəyirəm ki, bir yerdə məktəb açıb uşaqlara yazıb-oxumaq öyrədəm.

O, çantasından bir dəftər çıxarıb Alı kişiyə göstərdi. Ömründə birinci dəfə yazı-pozu eşidən, görən Alı kişi ona yaxın gəldi. Diqqətlə baxandan sonra dəftəri örtüb dedi:

– Mən sənə nə kömək eləyə bilərəm, bala?

Oğlan dedi:

– Məktəb üçün yer tapsan, bir az da uşaq yığa bilsən, mənə çox böyük kömək eləmiş olardın, əmi.

Oğlan sözünü qurtarandan sonra bir az fasilə verib dedi:
– Burada nə qədər uşaq olar?
– Bala, bu qonşu kənddən də gələn olsa, yüzə qədər uşaq olar, -deyə Alı kişi qaşlarını düyünlədi.
– Əmi, sən yer tapıb uşaqları yığarsan. Hərəsinə də bir qara çantey tikdirərsən. Mən Əli bayramı günü gələrəm.
Oğlan sözünü deyib ayağa durdu. Alı kişi ilə Pəri arvad nə qədər üz vurdularsa, oğlan qalmadı.
– Ay bala, bu gecə vaxtı, bu boranda haraya gedirsən? -deyə Alı kişi onun qolundan yapışdı.
Oğlan dediyindən dönmədi:
– Əli bayramında məni gözləyin! -deyərək evdən çıxdı. Alı kişi sabaha qədər yatmadı. Bu gözəl, ağıllı cavanın başına bir iş gəlməyindən qorxdu. Quşlar da belə havada dal-dalanacaq axtarır. O da ola cavan bir oğlan. Belə havada adam çətin sağ qalar fikri sübhə qədər onu rahat buraxmadı.
Bu minvalla Alı kişi sabahı dirigözlü açdı. Oğlanı soraqlaşmaqdan ötrü eşiyə çıxmaq istədi. Gördü ki, dünəndən başlayan boran hələ kəsməyib. Qapı qar bağlayıb. Alı kişi qonşuya belə gedə bilmədi. Kor-peşman evə qayıtdı.
-Yazıq harda qaldı, görən! Əgər bir yerdə qalmayıbsa, boran onun axırına çıxacaq - deyib Alı kişi dərindən ah çəkdi.
Nə isə, günlər keçdi. Havalar yaxşılaşdı. Alı kişi bir xeyli də uşaq siyahıya aldı. Hərəsinə də bir qara çantey tikdirdi. Uşaqlar Əli bayramını səbirsizliklə gözləyirdilər. Alı kişinin bütün günü gözü yolda, qulağı səsdə idi. Axır ki, Əli bayramı gəldi. Evlərdə camaat təmizlik işi görür, yumurta boyayır, nə bilim nələr... nələr... eləyirdi.
Uşaqlar da əllərində qara çantey yığıldılar Alı kişinin evinə. Çox gözlədilər, ancaq müəllim gəlib çıxmadı. Alı kişi kor-peşman uşaqları evlərinə qaytardı. Eləcə də müəllim gəlib çıxmadı. Qara çanteylilər isə onun yolunu gözləyirdilər.
Baharın qızmar günləri başladı. Qar əriyib çaylara tökülürdü. Qar axını başladı, quzular mələşə-mələşə dağlara çıxdılar.
Bir gün kəndə səs yayıldı ki, qarın altından bir oğlanın meyidi tapılıb. Qolunda da bir dənə çanteyi. Çanteyindən də yazı-pozu tapılıb.
Alı kişinin başından elə bil bir qazan qaynar su tökdülər. Əli

yanmış qaçdı oraya. Oğlanı görən kimi tanıdı. Bu onun gözünü yolda qoyan həmin cavanıydı. Elə ağladı, elə ağladı ki, naləsi yerə-göyə səs saldı...

Oğlanın cəsədini ədəb-ərkanla basdırdılar.

Qara çantey o vaxtdan dillərə düşdü. Hamı bu kəndi Qara çantey adı ilə tanıdı.

## KOR BULAQ

Turacla Həcər adlı bir bacı-qardaş vardı. Bunlar xoşbəxt yaşayırlarmış. Amma bu xoşbəxtlik uzun sürmür.

Bir varlı kişinin oğlu Həcəri zorla özünə arvad eləmək istəyir. Həcərin oğlanı görməyə gözü yoxuymuş. Gecənin birində qardaş-bacı xəlvətcə kənddən çıxırlar. Xeyli gedəndən sonra bir yerdə oturub dincəlirlər. Turacın susuzluqdan boğazı quruyur. Bir damcı sudan ötrü zar-zar, zarıyır. Bacısı görür bura elə yerdi ki, bir damcı su tapmaq mümkün deyil. Xəlvətcə gözünün birini ovub suyunu qardaşının boğazına sıxır. Qardaşı udqunub gözünü açır. Baxır ki, bu suyun dadı acıdır. Bacısının üzünə baxanda gözünün birini qan içində görür. Durub bacısının gözünü yaylığı ilə bağlamaq istəyir. Bu vaxt görür ki, varlı oğlu başının adamları ilə gəlir. Bunların qaçmağa imkanı olmur. Qız üzün göyə tutub yalvarır:

– Allah, bizi bu bəladan qurtar.

Qızla oğlan dönüb bulaq olur. Atlılar gəlib görürlər ki, bayaq gördükləri adamlar yoxa çıxıb. Onların yerindən bulaq axır. Əyilib su içmək, sonra geriyə qayıtmaq istəyirlər. Əllərini uzadanda su quruyur. Peşman-peşman geriyə dönürlər. Susuzluqdan yolda hamısı qırılır. Turacla Həcər də kor bulaq olub qalır orada. Sonralar Kor bulağın həndəvərində adamlar məskən salıb yaşayırlar.

## CANAVAR BULAĞI

Keşmiş vaxtlarda Börəel dağının yamacında bir kişi yaşıyırmış. Bir gün bu kişi gəzməyə çıxıfmış. O gəzə-gəzə daşdıx, əmə hündür bir yerə gəlif çıxır. Nolacax, yayın günü isdi də kişiyi yandırır, susuzduxdan dili-dodağı təpiyir. Ha bir

kölgəlih yer axdarır, əmə tapa bilmir. Elə daşdarın birinin üstündə oturur. Bir də belə baxır bir canavar ona tərəf gəlir. Əmə canavar ona çatmamış ağzını göyə tutuf uluyur. Sonra əyaxlarıynan yeri eşməyə başdıyır. Bir də kişi baxır ki, canavarın eşdiyi yerdən su poqqullamağa başdadı.. O sahat canavar sudan doyuncax içif gedir. O gedənnən sonra kişi də irəli gəlif bu göz yaşı kimi dumduru bulax suyunnan doyuncax içif özünə gəlir. Elə o vaxtdan bu bulağın adı Canavar bulağı qalır.

## QARANAMAZ, DANASULAĞI

Deyillər neçə-neçə yüz illər bunnan qabaxlar Çıldır tərəfdə Qara Namaz addı kişinin əlinnən xata çıxır. Odu ku, başını götürüf gəlir Ağbaba tərəfə. O gəzə-gəzə bir xaraba kəndə gəlif çıxır. Baxır xarabalıxda bircə ev salamat qalıf. Belə baxır bura çox münasib yerdi qalmağa. Atını çidarrıyıf buraxır çəmənniyə, özü də bir tərəfdə oturuf dincəlir. Aradan nə qədər keşdiyinnən xəbər tutmur. Bir də baxır artıx axşam düşüf. Tez yerinnən qalxıf özünə gecələməyə bir yer seçir. Görür ki, üç-dörd dana gəlib doldu evə. Əmə Qara Namaz  pusquda durub gözdüyür görsün danaların dalıncax gələn olacaxmı. Baxır, yox, gələn olmadı, arxeyinləşir.

Belə-belə iki-üş gün baxır elə həməşə danalar otduyur, bu evə gəlir. O, danaları izdiyir, görür heyvannar gedif otduyannan sonra həməşə bir çayın qırağına enif su içillər. O, bu çayın adını Danasulağı qoyur. Yavaş-yavaş Qara Namaz o xarabalıx yerə alışır, danalara da sahab olur. Özünə əv tikir, əvlənir. Ayilə, uşax sahabı olur. Ordan-burdan adamlar gəlir. Belə-belə xarabalıx abaddaşıf, kənd olur. Sonralar bu kənd Qara Namazın adıynan Qara Namaz addanır.

## XƏNCƏRLİ

Xəncərlidən bizə yalnız xarabalıqlar yadigar qalıb. Nə daşından, nə ağacından bir əsər, əlamət yoxdu.

Bəs bu Xəncərli adı hardan götürülüb?

Deyirlər ki, keçmiş zamanlarda hər tərəfdən dağlarla əhatə

olunmuş bir oba varıymış. Burda hardansa gəlmə bir tayfa məskən salıbmış. Onlar burda yavaş-yavaş ev-eşik düzəldib yaşamağa başlayırlar. İllərlə bunlar burda şad, xoşbəxt həyat keçirirlər.

Bu tayfanın bir ağsaqqalı varıymış. Bütün sürülərə, var-dövlətə o başçılıq edirmiş.

Bir gün sübh tezdən durub görürlər ki, sürülər yoxdur. Bir-birlərinə qarışırlar. Ora-bura çox axtarırlar. Amma sürüləri tapa bilmirlər ki, bilmirlər.

Aradan beş-on gün keçir. Bir gün yenə tezdən durub görürlər ki, indi də naxırı aparıblar. Yenə düşürlər oraya-buraya naxırı axtarmağa. Heç bir yerdə gördüm deyən olmur. Xülasə, belə-belə tayfanın bütün varı-yoxu əldən çıxır. Axırda yığılıb məsləhətləşirlər ki, gündə bir adam tayfaya keşik çəksin. Elə də eləyirlər. Hər gün bir adamın ölüsü yerdə qalır. Tezdən dururlar ki, gəlib obanı talayıb, həmin adamı da öldürüb gediblər. Axırda növbə gəlib çatır bir dul arvadın evinə. Bunun da iki uşağı varıymış. Arvadın uşaqlarına yazığı gəlir. Ona görə də özü keşik çəkməyi qərara alır. Gecənin yarısı bir də görür nə, uzaqdan bir qaraltı peyda oldu.

Üzünə qara çadra salmış bu qaraltı gəlib obanın yanına çatır. Çadrasını yuxarı atıb dörd yana baxır.

Arvadı görəndə ona tərəf yaxınlaşır.

Arvad qorxu içində bilmir neyləsin. Əlinə aldığı ağacı səmtləyir ki, əgər onu vurub eləsə, bu da həmin adamı bu ağacla vurub, özünü qorusun.

Həmin adam gəlib onun bərabərində dayanır. Arvadın ürəyi lap ayağının altına düşür. Əsə-əsə bir addım geriyə çəkilir. Həmin adam əlindəki yekə bir dəyənəyi qaldırır ki, onun başına endirsin. Bu da fürsəti əldən verməyib, ağacını havada bir neçə dəfə yelləyərək o adamın başına endirir. Vurduğu adamın başı iki yerə parçalanır. Arvad ağacı çəkib çıxaranda görür ki, bu ağacın ucu par-par parıldayır.

Bu gözünə döndüyüm arvad oğrunu lap rahatlamaq üçün onu bu dəfə də düşmənin ürəyinə sancır. Sonra da gəlib hay-havar salır ki, oğrunu tutmuşam. Camaat tökülüb gəlir. Ölünü töküb-töküşdürürlər. Məlum olur ki, bu oğru kişi paltarı geymiş arvadıymış. Tapdıqları qiymətli şeyrləri arvada verirlər.

Sabah açılan kimi bu arvadın ağacına baxıb hərə özünə birini düzəldir. Amma onlarınkı arıvadın silahı kimi iti olmur. Arvad da başına gələni olduğu kimi nağıllayır. Görürlər ki, bu ağacın ucu poladdandı. Başa düşürlər ki, allah-taala bunları darda qoymayıb, ağacı havada xəncər eləyib.

Elə o vaxtdan da o kəndi Xəncərli adlandırırlar. Sonralar oralar dağılıb. İndi bircə oranın adı qalıb. Bir də evlərin uçuq-dağınıq xarabalıqları.

## DƏLİ ÇAY

Züleyxanın gözəlliyi dünyaya səs salmışdı. Ağılda-kamalda misli-bərabəri yoxuydu. Bu gözəl qız həddi-bulağa çatmış bir mələk idi. Hüsnü, camalı aya, günə meydan oxuyurdu. Vəli kişi qızı Zleyxaya baxdıqca yerə-göyə sığmır, bu dünyada yalnız onunla nəfəs alırdı. Vəli qonşusu Alıynan uşaqlıqdan möhkəm dostuydu. Həmişə bir dərdləşər, bir oturub, bir durardılar. Alının da Əhməd adında bir oğlu varıydı. Əhmədlə Züleyxa bir-birini sevirdi. Özləri də elə fikirləşirdilər ki, ata-anaları onların evlənmələrinə can-başla raşı olarlar.

Bir gün Vəli kişi əhvalatdan duyuq düşdü. Həmin gündən də Alı kişidən uzaq gəzməyə başladı. Axır ki, Əhmədin anası məsələni Züleyxanın anasına eşitdirdi. Gördü ki, yox, bu hava o havadan deyil. Bunlar çox yuxarıdan gedirlər.

Bir gün Əhməd anasına dedi:

– Ana, mən Züleyxasız yaşaya bilmərəm. Gedin elçiliyə.

Anası dedi:

– Bəs Züleyxa səni istəyirmi?

Əhməd!

– O da məni istəyir. Yəqin ki, Vəli dayı da razı olar.

Anası içini yeyə-yeyə ərinin yanına gəldi. Məsələni açıb dedi. Alı kişi atılıb-düşdü. Sevindi ki, bunun da oğlu evlənəcək. Bunun da bu gün-sabah nəvələri olacaq, nə bilim, nələr, nələr...

Axşam Vəli kişinin qapısı döyüldü. Alı kişi adamları ilə içəri keçdi. Göstərilən yerdə əyləşdilər. Vəli kişi onları qəlyana dəvət elədi.

Alı kişi dedi:

– Vəli, əvvəlcə gör nəyə gəlmişik, sözümüzü deyək, sonra

qəlyan da çəkərik, çörək də yeyərik.

– Nə söz? -deyə, Vəli kişi heç nədən xəbərsiz kimi təəccüblə soruşdu.

Alı kişi dedi:

– Vəli indiyə kimi dostum idin, indi də səninlə qohum olmaq istəyirəm. Bir "hə" de Züleyxayla Əhmədin toyunu başlayaq.

Vəli kişi çox fikirləşdi, götür-qoy elədi, o yana atdı, bu yana atdı, axırda qəti fikrini bildirdi:

– Sən mənim yaxın dostumsan. Məndən ötrü həmişə əzizsən. Hər vaxt gəl də, get də, apar da, gətir də, ancaq bu sözü qoy bir daşın altına. İkinci dəfə bu adla qapımı döyüb məni də, özünü də narahat eləmə.

Alı kişi adamları ilə kor-peşman ayağa durdu, çarıqlarını bərkidib suyu süzülü-süzülə evə qayıtdı.

Əhməd səbirsizliklə bunların yolunu gözləyirdi. Çox keçmədi ki, elçilər içəri girdilər. Onların üzündəki kefsizlikdən başa düşdü ki, qızı verməyiblər. Anası Əhmədi bir bucağa çəkib dedi:

– Əhməd, oğlum, allah pis adamın evini küllü-küfan eləsin. Vəli yaman dəyişib. Bizi heç adam da saymadı. Sözümüzü yerə saldı. Biz ikimiz də kasıb adamlarıq. Verməyəndən sonra qılınc tutmayacağıq ki... Heç fikir-zad eləmə, bir yandan bağlayan fələk bir yandan da açar.

Əhməd dedi:

– Bəs, adını nə qoyub vermədilər?

– Dedilər ki, vermirik vəssalam. Başqa sözləri olmadı – deyərək gözlərindən bıldır-bıldır yaş tökdü.

Əhməd bu sözü eşidən gündən yatağa düşdü. Hamı Vəlini danlayırdı ki, Əhmədin cavanlığına yazığın gəlsin qızını ver. Azı o öz əlində böyüyüb, ağıllı-kamallı, boylu-buxunlu bir igiddi. Vəli bu sözləri elə bil bu qulağıdan alıb, o qulağından verir. Züleyxanın da günü qara keçir. Gözlərindən qan tökür, qan yalayır, heç kimin ona yazığı gəlmir. Əhməddən ötrü dəli-divanə olur.

Züleyxanı bu vəziyyətdə görən Vəli qardaşı Həsənə ismarıc yollayır ki, gəlib qızı aparsın. Bəlkə bundan sonra söz-söhbət kəsilə.

Xəbər Züleyxaya da gəlib çatır. Axşamın qaranlığı düşən ki-

mi xəlvətcə Alıgilin qapısını döyür.

Qapını açan Alı kişi gözlərinə inanmır.

– Xeyir ola, bala?! -deyə təəccüblə ondan soruşur.

– Əhməd evdədimi?

– Hə, odu, həsirin üstündə yatır.

Züleyxa qara cecimə bürünmüş Əhmədə yaxınlaşır. Üstündə cimi qaldıranda başından tüstü qalxır. Əhməd dərddən bükülüb yumağa dönmüşdü.

Əhməd sevgilisini görən kimi:

– Züleyxa, nə yaxşı məni yad elədin? -deyərək dikəlib yerində oturdu.

– Əhməd gecdi. Mənə yaxşı-yaxşı qulaq as. Dədəm ölmüş məni əmim oğluna vermək istəyir. Birdi, mən sənə qovuşmasam özümü öldürəcəm. Gəl bir tədbir tökək.

– Neyləyə bilərik, ay Züleyxa? Bu dünya belə qurulub. Bizim əlimizdən nə gələr?

– Əhməd, dur ayağa. Gedək çayın qırağına. Bir-izdən tutub duraq. Xəbər göndərək ki, bizi bir-birimizə çatdırmasaz özümüzü bu qayadan çaya atacağıq.

– Bundan bir kar aşmaz, deyəcək atırsınız, cəhənnəmə atın. Onun ürəyi bizə yansa, belə eləməzdi - deyə, Əhməd dərindən ah çəkdi.

Züleyxa dedi:

– Yox, mən dədəmi tanıyıram. Razı olar, qəlbi yumuşaqdı.

Əhməd onsuz da fikirdən dəli kimi olmuşdu. Züleyxa gücbəla Əhmədi də özü ilə çayın qırağına gətirir. Xəbərə gələn Vəli kişinin ürəyi nanə yarpağı kimi əsim-əsim əsir.

Varı-yoxu bir qız. O da ki, özünü çaya ata... Yox Vəli kişi buna razı ola bilməzdi. Tez-tələsik özünü onlara çatdırır. İlan dili çıxarıb yalvarır:

–Sizə qurban olum , ayaq saxlayın. Ayağınızın altında ölüm, amandı, məni yaman günə qoymayın. And olsun Əbil-Fəzil Abbasa, sizi evləndirəcəyəm.

Xeyli yalvar-yaxardan sonra hər ikisini dilə tutub evə gətirir. Vəli kişinin elə ki daha qorxusu qalmır. Başlayır yenə öz bildiyini eləməyə. Qızını danlaya-danlaya deyir:

– İndi ki, belə oldu, sənin ayağını qandalda saxlayacam. Gör mənim başıma nələr gətirdin?! İndi qardaşım gələndə verəcəm

aparsınlar, bəlkə mənim canım bu azardan bir dəfəlik qurtara. Onu bil ki, iki dünya bir araya gələ, səni Əhmədə vermiyəcəm, -deyərək haray qoparır.

Söz ağzından çıxar-çıxmaz Züleyxa geri götürülür.

Züleyxa var-gücnü toplayıb özünü çaya yetirir. Vəli hay-haray salır, camaatı köməyə çağırana kimi Züleyxa özünü çaya atır. Çay dayaz olduğuna görə su onu apara bilmir. Vəlinin adamları gəlib çatır. Züleyxa gözlərinin yaşını töküb ağlaya-ağlaya Allahdan imdad diləyir:

– Ya rəbb, yalvarıram sənə bu çayın suyunu çoxalt, qoy bir də geri qayıtmayım. Məni bir dəfəlik bu dərddən qurtar.

Vəli irəli yeriyüib qızı tutmaq istəyəndə, bir tufan qopur, bir sel gəlir, daha nə deyim...

Vəli kişi özünü döyə-döyə qalır. Tutduğu işdən peşman olur. Beş dəqiqə sonra çay səkitləşir, lal-dinməz olur.

Əhməd dəli olub həmin çayın qırağında illərlə məskən salır. Heç hara getməyib burda gecələyir. Buradan keçən tanış adamlar Əhməddən soruşanda ki, bu hansı çaydı? O:

– Dəli çay, Dəli... Dəli... - deyərək özündən çıxıb çay boyu qaçarmış.

Sonradan vəziyyəti lap xarablaşan Əhməd özünü çaya salıb boğur. O vaxtdan da bu sakit çay xalq arasında “Dəli çay“ deyə tanınır.

## SƏFƏRİN BATIĞI

Qara Namazda Abuzər adlı dövlətli bir kişi yaşayırmış. Onun olduqca gözəl bir qızı varıymış. Nə qədər elçi gəlsə də heç kimi bəyənmirmiş. Abuzər kişi axırda zara gəlib qızına deyir:

– İndi ki, belə oldu, daha kora, keçələ baxan deyiləm, kim rastıma gəlsə, qaldırıb verəcəm. Bəsdi, hərəyə bir ad qoyursan.

Qız heç nə deməyib ağlaya-ağlaya otağına gedir.

Kənddə dəllək Səfər adlı bir oğlanın gözü bu qızı tutubmuş. Bir gün qız bulaqdan su götrdüyü yerdə Səfər onu götürüb qaçır.

Abuzər qızı çox axtarır, ora-bura soraqlaşır, axırda yetikləşir ki, qızı dəllək Səfər qaçırıb. Kişini od götürür, tüstüsü təpəsindən çıxır. Adam yollayır ki, hardadısa qızı da, Səfəri də tapıb onun yanına gətirsinlər. Axtarıb Səfəri Ağbulaqdan tapırlar. Qız

deyir ki, özü qaçıb. O, dədəsinin yanına getmək istəmir. Onları zorla Abuzərin yanına gətirirlər. Abuzər kişi ikisini də bir-birinə bağladıb tapşırır ki, onları döyə-döyə kənddən çıxartsınlar.

Xeyli yol gedəndən sonra bir çöllükdə bərk suzuxurlar. Qız əlini göyə açıb yalvarır:

– Allah bizi nə imtahana çəkirsən çək, ancaq susuz öldürmə.

Bir-iki addım getməmiş rastlarına bir bulaq çıxır. Qız özünü verir bulağa. Doyunca su içir. O, qırağa çəkiləndə Səfər irəliyə gəlir ki, su içsin. Bulağa çatmamış ayaqlarının altı gedir. Səfər nə qədər çalışırsa, çıxa bilmir. Qız ona köməyə gələnə qədər batıb gözdən itir. Qız orda xeyli ağladıqdan sonra baş alıb diyarbadiyar gedir. Yola düşəndə bir bayatı deyir:

Aşıq ay günüm burda,
Gözlə, say günüm burda
Dərddən dərviş olaram,
Gələrəm, ölüm burda.

Elə o vaxtdan da oraya Səfərin batığı deyirlər.

## YEDDİ BÖLÜK

Deyirlər bir arvadın yeddi oğlu varıymış. Bir gün məmləkətin hökmdarı həmin yeddi oğulu bir dağın dalında öldürtdürür. Oğlanlarının nahaq qanı ananı od eləyib göyə qaldırır, şimşəyə çevirir. Hər hava qaralanda, yağış yağanda burda, yeddi bölükdə mütləq bir qan olur. Ordan kim keçsə, Şimşək onu vurub öldürür. Şimşək öz balalarının öldüyü yeri toxunmaz, müqəddəs bir yer kimi saxlayır. İndi də hava qaralanda heç kim oraya, Qalasa dağının arxasınla yerləşən yeddi bölüyə yaxın getmir.

## AĞ BULAQ

Qalaçada bir Nadir ağa olur. Onun çoxlu varı-dövləti, sürüynən malı, qoyunu, züryətdən də bir gözəl qızı varıymış.

Bir gün bir kasıb kişinin oğlu onun qızına elçi göndərir. Nadir ağa qızını vermək istəmədiyindən belə bir şərt kəsir.

– Bərədən bizim evə kimi süd arxı çəkərsən. Arx nə vaxt ha-

zır olsa qızı sənə verərəm.

Nadir kişinin bərədə sağdırdığı süd anbara tökülməli, oradan da arxla evə gəlib çıxmalı idi.

Oğlan elə günü sabahdan işə başlayır. Ağ daşdan südə anbar tikir, sonra da arxı çəkir. Tezliklə arx hazır olur. Nadir kişi gəlib baxır, məəttəl qalır. Amma namərdlik eliyib sözündən qaçır. Evə gələn kimi qızını varlı bir kişinin oğluna verir. Kasıb oğlan bu nakişiliyə dözməyib baş götrüb evdən gedir. Nadir ağa onun buralardan uzaqlaşmasına çox sevinir.

Sabahdan başlayırlar mal-qaranı sağıb südü anbara tökməyə. Nadir ağa baxır ki, evə süd əvəzinə su gəlir. Tez gəlir bərəyə. Görür ki, sağın qurtarıb.

Sabah yenə sağın başlayır. Nadir ağa gedib görür ki, südü sağıb anbara tökürlər. Amma süd dönüb su olur.

Nadir ağa bir daşın üstündə oturub fikrə gedir. Birdən görür ki, bir qurbağa anbarın üstünə çıxıb: "Allah işini rast gətirməsin. Sən ki sözə əməl eləmədin, qoy bu süd anbarın ağ bulağa, mənsilin də suya dönsün" - dedi və anbarın içinə düşdü. Nadir ağa əyilib anbara baxanda nə görsə yaxşıdır. Anbar suynan dolur, içində də qurbağaların sayı-hesabı yoxdur.

Nadir ğa tutduğu işdən peşman olur. O vaxtdan Qalaça dağılıb, amma Ağ bulaq yerində durur. Daşları bir az qırılıb tökülüb.

Bizim dərdimiz böyükdü. Keçmişimizi saxlaya bilmirik ay bala! Hər gedən ora bir qırmaş vurur. Orda daşmı qalar?

Belə şeylərin qədrini bilin, allahınızı tanıyın.

## BALDIRĞANLI

Gəzməyə, sərin su içməyə, təbiəti seyrə Baldırqanlıya gəlin!.. Gül-çiçəyinin ətrindən insanı məst edən Baldırğanlı neçə-neçə əsrlər yola salmış, ancaq öz təravətini itirməmişdir. Xalq bu füsunkar gözəlliyi əfsanələrə çevirmiş, öz yaddaşında qoruya-qoruya bizə gətirib çatdırmışdır.

Məryəmin uşağı olmurdu. Bala deyəndə burnunun ucu göynəyirdi.

Bir gün sübh tezdən Məryəm suyun başına gəlir. Saçlarını ağzına alıb, ayaqlarını suya qoyub allaha yalvarır:

– Ey pərvərdiyar, sən mənə bir züryət ver, kor olsun, keçəl

olsun, nəfəsi olsun.

Günlər keçir, aylar ötür. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə, doqquz saniyə keçir, Məryəm yükünü yerə qoyur. Bir cüt oğlu olur. Birinin adını Həzrət, o birinin adını Əli qoyurlar. Məryəm hər gün əlini açıb dua eləyir ki, onun da evindən uşaq səsi eşidilir, körpə nəfəsi gəlir.

Məryəmin uşaqları gündən-günə pərvazlanır. Bir gün Əli day tutub gəzəndə Məryəm görür ki, Əlinin ayağının biri əyridi. Tez Həzrətə də baxır. Hiss edir ki, onun da qolunun biri o birindən gödəkdi. Məryəm dərindən bir ah çəkib deyir:

–Allah sənə neyləmişdim ki, bu şikəst bəndələri mənə verdin?

Bir-neçə gün keçir. Məryəm bir gün uşaqları çıxarıb qapıda oturdur. Özü də içəri girib onlara nəsə gətirmək istəyir. Eşiyə çıxanda uşaqları böyük bir qartalın apardığını görür. Özünü döyə-döyə neçə dağlar, dərələr aşır. Axır ki, bir düzdə qartalın yerə qonduğunu görür. Məryəm sevinir ki, qartal daha uçmaz. Yüyürə-yüyürə gələndə qabağına tikanlı bir çöl çıxır. Məryəm uşaqlardan başqa heç nə görmürdü. O, tikanlığı nə təhər keçdiyini heç özü də bilmədi. Uşaqlara çatana yaxın qartal bir də yuxarı qalxdı. Bir qədərdən sonra uşaqları yuxarıdan yerə buraxdı. Onların hərəsi bir dağa çevrildi. Elə bir dağ ki, Məryəm nəinki onların təpəsinə, heç ayağına da çıxa bilmədi.

Onun dərdi yanıqlı misralara çevrilib dağlara səs saldı.

Niyə allah, verdin mənə bu dağı?
Bu qədər göz yaşı, bu qədər ağı?
Dünyada çəkibmi görən bir insan,
Mən çəkən əzabı, mən görən dağı.

Məryəmin daha irəliyə getməyə halı qalmamışdı. Sürünə-sürünə bir az da irəliləyir. Ciyəri yanır, boğazı quruyur, zarıyıb yerdə qalır.

– Allah, vermirdin, vermiyəydin, niyə məni pis günə qoydun. Ürəyimə bu dağı çəkdin - deyib gözündən bıldır-bıldır yaş tökür. Dili ilə gözünün suyunu çəkib boğazını yaşlayır. Allahın ona yazığı gəlir. Məryəm birdən su səsi eşidir. Başını qaldıranda görür nə, iki daşın arasından dupduru su axır.

Birtəhər özünü suya verir. Doyunca sudan içir. Əl-üzünü yuyub ayağa durur. Getmək istəyəndə qulağına səs gəlir: Baldırı qanlı, baldırı qanlı.

Məryəm əyilib ayağına baxır. Görür ki, tikanlığı keçəndə ayaqları cırıq-cırıq olub. Baldırları qan içindədi. Məryəm geriyə dönüb ayaqlarını yuyur, axırıncı dəfə o dağlara baxıb gedir.

O vaxtdan da həmin bulaq (Xəncərliyə yaxın yerdədi) Baldırqanlı adlanır.

## XALXALLI BULAQ

Deyirlər ki, iki qardaş varıymış. Bunlar çox mehriban yaşayırlarmış. Bir gün böyük qardaş evlənir. Dünya gözəli bir qız alır. Bunlar bir-birini çox istəyirlər. Günlərin birində böyük qardaş evə gələndə arvadını qardaşı ilə qol-boyun görür. Hirsini boğub özünü görməməzliyə qoyur.

Aradan bir-iki gün keçir. Böyük qardaş arvadına deyir:

– Arvad, dağın dalında, torpağın altında iki küpə qızıl tapmışam. Gedək gətirək.

Arvadın ağlı kəsir. Ərinin yanına düşüb gəlir dağın dalındakı bir çöllü-biyabana. Bir yerdə kişi dayanıb deyir:

– Bax, bu daşın altındadı. İndi bərabər çıxararıq.

Bunu deyib iti bir daşı götürüb arvadın boğazını didişdirə-didişdirə kəsir. Kəsəndə arvada günahını da deyir ki, nəyin üstündə öldürür. Arvadın qorxusundan qanı çox çıxmır. Bir-iki daşın üstünə xal-xal sıçrayır. Arvad öləndən kişi durub gəlmək istəyir. Görür əlinin üstündə də xal-xal qan var. Tüpürcəyi ilə yumaq istəyir. Boğazı quruduğundan tüpürcək gəlmir. Əl-üzün yuyur, dörd yana tökülmüş qanı yumaq istəyir. Nə qədər çalışırsa qan ləkələri getmir. Bulaqdan səs gəlir:

– Bala, sən yolunla get. Bu qanı suynan yumaq olmaz. Namusu qanla yuyarlar.

Həmin bulağı elə o vaxtdan “Xalxallı bulaq“ adlandırırlar.

## AYRANLI BULAQ

Qalaçada camaat dinc ömür sürürmüş. Bir gün xəncərlilər bunlara hücum eləyir. Bu vaxt qaçaqaç düşür. Xəncərlilər rastlarına çıxan uşaqları öldürür, böyükləri də əsir eləyirlər.

Səlbinaz adında bir gəlinin balaca bir uşağı olur. Düşmənlər Səlbinazın uşağını öldürür, özünü isə əsir eliyib aparırlar. Bir diki çıxanda Səlbinaz suzuxur. Xəlvətcə döşünün südünü əlinə sağıb içir. Süd barmaqlarının arasından süzülüb torpağa töklür. O dəqiqə həmin yerdən süd rəngində bir bulaq çıxır. Bu möcüzəni görən Səlbinaz deyir:

– İndi mən ölsəm də rahat ölərəm. Bilərəm ki, bu nahaq işi hamı biləcək. Bu torpağa anaların halal südü, körpələrinin qanı axıb.

Səlbinazın bu sözlərini eşidən düşmənlər elə oradaca onu öldürürlər. Amma bulağı nə qədər örtürlərsə, yenə də qaynayıb çıxır. Özü də süd rəngində olur. "Ayranlı bulaq" bax belə yaranıb.

## QOŞA BULAQ

Rəvayətə görə, iki qardaş varıymış. Onlar Qara namazda bir varlı kişiyə nökərçilik eləyirlərmiş. Bir gün ağanın qəzəbi tutub onları işdən qovur.

Hər iki qardaş baş alıb məmləkətdən çıxır. Dağ yoluyla bir xeyli gedirlər. Amma heç yerdə bulağa rast gəlmirlər. Susuzluqdan ciyərləri alışıb yanır. Başlayırlar danışmağa ki, bir-birini vurub qanlarını içsinlər. İkisi də əlini göyə qaldırıb vurmaq istəyəndə daş əllərindən düşür. Daş düşən yerdən su çıxır. Onlar sudan doyunca içib, bulağın dörd yanını düzəldib yollarına davam eləyirlər.

O vaxtdan bu bulaqlar yanaşı olduğundan Qoşa bulaq adlanır. Sonradan burda adamlar məskən salır. Kəndin adı da elə Qoşa bulaq qalır.

## ÜÇ BULAQ

Məhəmməd, Kazım, Vəli adlı üç qardaş çox kasıblıqnan birtəhər dolanırlarmış. Bir gün tezdən camaat bir-birinə qarışır ki, kəndin suyu gəlmir. Çaylar, bulaqlar quruyub. Bu qardaşların külfəti də bu susuzluqdan çox əziyyət çəkir. Buna dözməyən qardaşlar bulaq axtarmaq üçün kənddən çıxırlar.

Onlar bir xeyli yol gedirlər. Elə olur ki, heç yerdə bir damcı

su tapa bilmirlər. Susuzluqdan boğazları quruyub yıxılırlar. Üç qardaş bir-birindən aralı düşür. Hər üçü də yıxıldığı yerdə torpağı əlləri ilə eşir ki, bəlkə su çıxa.

Məhəmməd üzünü allaha tutub deyir:

– Ya allah, bir damcı su ola boğazımızı isladaq...

Qardaşların üçünün də əlini qoyduğu yerdən su çıxır. Son nəfəslərində doyunca su içib ölürlər. Sonralar qoyun otaranlar onların ölüsünü dağın dalında, bu suların yanından tapırlar. Suyun dörd tərəfini düzəldib bulaq eləyirlər.

O vaxtdan da camaat həmin suları Üç bulaq adlandırır.

## KİRPİ ƏFSANƏSİ

Biri varıymış, biri yoxuymuş, bir ana-bala varıymış. Bunlar çox mehriban dolanırlarmış. Oğul on altı yaşa çatana qədər heç vaxt onlarda bir söz-söhbət olmur.

Bu yaşından sonra bir-neçə dəfə oğlu anasını acılayır. Br gün yenə oğlan anasının qəlbinə dəyir. Ana küsülü-küsülü oturur bir güncdə. Oğlu eşiyə çıxır. Hərlənir, fırlanır, bir də qayıdıb evə gəlir. Görür ki, anası oturub onun şalvarını yamayır. Oğlu hirsli-hirsli anasına deyir:

– Dur, mənə çörək ver!

Anası deyir:

– Yavaş, qoy iynəmi dingəmə sancım, qalxıram.

Oğlu hövsələsizlik eləyib evdən çıxır. Çörək də yemir. Oğlunun getməyi arvada bir dərd olur. Günlərlə gözləyir, oğlu gəlmir. Yamağı əlində yarımçıq qalır, iynəsi də dingəsində. Arvad allaha yalvarır:

– Allah, məni bir heyvandan-zaddan elə, bu dərdi çəkməyim.
Arvad dönüb kirpi olur. Onun dingəsindəki iynə bütün dərisinə yayılır, hər yanı iynə ilə örtülür. Heç kim əlini ona ata bilmir.

Sonradan oğlu gəlib çıxır. Tutduğu işdən peşman olur. Amma nə xeyri. Keçənə güzəşt deyiblər, sonrakı peşmançılıq fayda verməz.

## GƏLİNBOĞAN

Bir evdə qoyun kəsirlər. Qaynənəsi gəlini çağırıb deyir:

– Ay gəlin, bu içalatı apar, bişir gətir yeyək.

Gəlin aparıb bişirir. Birdən tamahı güc gətirib tələsik bir tikə götürüb dişinə çəkir. Qaynənə gəlib görür ki, gəlin yoxdu. Ocağın üstündən bişmiş içalatı gətirib qablara qoyur. Birdən tavadan səs gəlir:

Gəlinboğan, gəlinboğan. Arvad ora-bura baxır. Birdən gözü yerdə yıxılmış gəlinə sataşır. Başlayır onun əl-ayağını boyun-boğazını sığallayır. Birdən boğazından düyün kimi bir şey aşağı düşür. Qaynənəsi görür ki, bunun boğazında nəsə qalıbmış. Gəlib tavadakı tikələrə baxır. Görür ki, mədədə olan qat-qat ət yoxdu. Başa düşür ki, gəlin onu yeyəndə boğulub.

O vaxtdan da mal-qaradakı həmən ətə "gəlinboğan" deyirlər.

## PƏRİ ENMİYƏN DAĞ

Qış vaxtı qar, qiyamət, aclıq, xəstəlik camaatı elə təntidirmiş ki, insan olan bəndə bilmirmiş ki, neyləsin. Belə günlərdən birində Hümmət kişi canını arvad-uşaqlarına tapşırıb dünyadan köçür. Yazıq Pəri iki uşağı ilə qalır damın altında. Oturub gözlərinin yaşını tökməyə başlayır.

Əli adında dövlətli bir qardaşı varıymış. O, qardaşı uşaqları yetim qalandan sonra el üzəri özünü elə göstərir ki, onlara yazığı gəlir. Bir müddət uşaqlara qırıqdan-quruxdan verib ac qoymur.

Deyirlər: qardaş yaxşısa bəs niyə allahın da qardaşı yoxdur?! Qərəz, bir iki, beş... Əlinin qardaşı arvadına gözü düşür. Fikirləşir ki, niyə boş yerə onlara çörək verir, başqaçı göz tikənə kimi, qardaşı arvadını hazır özü alıb saxlasın. Bir gün şər qarışanda Əli Pərigillə gəlir. Bu vaxt Pəri uşaqları ilə yarıac, yarıtox oturub nağıl danışır, balalarını ovundururdu. Birdən qapı taybatay açıldı, Əli içəri girdi. Pəri yamşağını ağzına çəkməyə macal tapmamış Əli yetirib onu tutdu. Pəri o qədər ora-bura çırpındı ki, axırda binamus qardaş lap yorulub əldən düşdü. Əli bir az nəfəsini dərdikdən sonra üzünü Pəriyə tutub dedi:

– Sabah axşam adam göndərəcəm, yığışıb gələrsən bizə. Hara getsən, quş olub göyə də uçsan, səni özümə siğə eliyəcəm.

Əli sözünü deyib hirsli-hirsli çıxıb getdi. Pərinin qarnına bir ağrı da buradan doldu.

Balalarını qucaqlayıb qan-yaş tökdü, ah-naləsindən yer-göy od tutub yandı.

Eləmi, tağ da yandı,
Şamamam tağda yandı.
Dalımı dağa verdim,
Od tutdu dağ da yandı.

Enişdən enənə bax,
Bu çarxı dönənə bax.
Cirası vaxtsız keçən,
Muradı yenənə bax.

Bulaq meşəli yerdə,
Gül bənbvşəli yerdə.
Sənə kimlər qarğadı?
Qaldın döşəli yerdə.

Gözlərinin qorasını tökən Pəri, çox fikirləşir, götür-qoy eliyir, axır ki, obadan çıxmağı qərara alır. Axı bu yazığın ayrı əlacı qalmamışdı. Biçarə Pəri axşam qaş qaralanda balalarının əlindən tutur, baş götürüö gedir. Az gedir, çox gedir, axır ki, gedib bir uca dağın ətəyinə çatır. Fikirləşir ki, haraya da getsə onu tutacaqlar. Bircə bu dağın başında onu tuta bilməzlər. Çox çalışır, əlləşir dağa çıxa bilmir. Allahdan kömək istəyir. Bu vaxt bir at peyda olur. Uşaqları ilə atın üstünə oturur. At bunları gətirir çıxarır bu dağın başına və yox olur. Pəri qalır burda.

Üzünüzə xeyirdi sabahlar açılsın, sabah açılır. Əli axşama tədarük görür. Bir-iki qolu zorlu dostunu çağırıb Pərini gətirməyə göndərir. Gəlib xəbər verirlər ki, lələ köçüb, yurdu qalıb, içində çaqqal ulayır. Komada nə Pəri var, nə ins-cins. Əli tez ata minir, özünün kişiliyinin göstərmək istəyir. Atı sürür dağa-daşa, ora-bura, bir qaraltı belə görmür. Geriyə, kəndə enəndə gözü çılpaq dağın başındakı qaraltını alır. Bir az da irəliyə gedib, Pərini tanıyır. Hirsli-hirsli atını irəliyə çapır. At yuxarı çıxa bilmir, geriyə hel[1] gedir. Əl-ayağı möhkəm əzilən Əli üzünü Pəri tərəfə tutub deyir:

– Pəri öz xoşluğunla buradan en, yoxsa sənə daha çətin olacaq. Göyə çıxsan da sən mənimsən.

Elə bil ki, Pərinin qulağına səda gəlir, burda öləcəm, amma sənin kimi alçaq adama getmiyəcəm - deyə haray çəkən Pərinin

fəryadı dağlarda əks-səda verir.

Söz Əliyə daha çox yer eliyir. Durub pay-piyada dağa çıxır. Yenə də yarıya çıxmamış üzü aşağı diyirlənir. Beləliklə dağa çıxa bilməyən. Əli kor-peşman evinə qayıdır. Sabahı gedib görürlər ki, Pəri balaları ilə dağın başında daşa dönüb.

Hə... Beləcə Pəri namusunu qoruyur, balalarını da bu yolda qurban verir.

İndi el arasında bu dağa Pəri enmiyən dağ deyirlər.

## YEMLİK

Deyilənə görə bir gəlin varıymış. Südəmər körpəsini yemləməyə vaxt tapmırmış. Hər gün o uşağı əmizdirənə kimi qaynanası anadan əmdiyini burnundan gətirirmiş. Gedib-gəlib deyirmiş:

– Bir uşaq əmizdirməyin neçə saat çəkəcək. Eşikdə aləf yanıb gedir. Gəl aləfi yığışdır.

Bir gün içəridə yenə uşaq ağlayır. Qaynənəsi qoymur ki, gəlib gedib uşağını əmizdirsin. O, ağlaya-ağlaya deyir:

– Bu nə gündü çəkirəm?! Bu otlar mənə uşağımdan qiymətlidirsə, bəs mən niyə yaşayıram?!

Gəlin dönüb göy ota çevrilir. Uşağı da dönüb olur civ-civ gülü. O gülə baxanda elə bilirsən ki, bələnmiş uşaqdı. Əl vuranda elə civildəyir, elə bil uşaq ağlayır.

Göy otun da harasından qırırsansa süd tökülür. Yemlik adı da ordan götürlüb. Elə bil ki, öz südü ilə kimisə yemləmək istəyir.

## QAZANÇI, ŞİŞTƏPƏ

Rəvayətə görə, Türkiyədən bir nəfər küsüb Ağbabaya gəlir. Kim onu qonaq eləmək istəyirsə o, heç kimdə qalmır, heç kimin təklifini qəbul eləmir. Baş alıb gedir. Bir düzəngahda özünə bir ev qaralayıb burda yaşamağa başlayır. Bu oğlan yaxşı sənətkarıymış. Kənddən onun yanına gəlib çarıq tikdirirlər, qazan qalaylatdırırlar. Bir az keçmir, bu oğlan qazançı deyə tanınır. Onun ətrafına adamlar yığışır. Həmin yerdə bir oba yaranır. Bir vaxt keçəndən sonra bura "gavır" deyilən bir yığın adam gəlir. Oğlan bunları görəndə ordan uzaqlaşır. Soruşurlar ki, niyə gedirsən?

Oğlan deyir:

– Bunlar çox paxıl adamlardı. Mən öz elimdən bunldarın üzündən qaçdım, gəldim burda da bunlara urcah oldum. Mən burdan getməliyəm.

O, baş alıb üzüaşağı gedir. Bunu bilən gavırlar onun dalına düşürlər. Oğlan görür ki, onu öldürəcəklər. Əlini göyə açıb deyir:

– Allah, sən məni gavır əli ilə öldürmə. Bir təpəyə döndər. Qoy bu təpə şahid olsun ki, mənim ayaqlarım bu yerə dəyib. Burda bir qazançı olub.

Gavırlar gəlib çatanda oğlan şiş bir təpəyə dönür. O vaxtdan da onun yaşadığı yerə Qazançı, qeyb olduğu yerə isə Şiştəpə deyirlər. İndi bu kəndlərdə ermənilər yaşayır.

## MARTLA QARI

Mart başa çatan kimi qarı oğlaqlarını düzə çıxardı. Oğlaqlar atılıb, düşə-düşə hərləndi, sonra otlamağa başladı. Qarı bunu görüncə əlini Martın arxasınca uzadıb dedi: "Mart gözünə barmağım, dingildəşir oğlağım". Bu sözü eşidən kimi Mart çox pərt oldu. Tez Aprelin yanına gəlib yalvar-yaxarla ondan üç gün borc aldı. Elə əsib-coşdu ki, qarının oğlaqları yol tapa bilməyib, elə düzdə qırılıb qaldı. Qarı güc-bəla ilə borandan yaxa qurtarıb evə, təndirin başına gəldi. Bikef halda ayaqlarını qucaqlayıb oturdu. Bu vaxt Mart damın bacasına çıxıb ordan qarıya belə dedi: "Qarı gözünə barmağım, dingildəşirmi oğlağın?"

Qarı dillənmədi.

## OD ALIF YANSIN

Bir yoxsul naxırçı varıymış, əmə çox qıyımsız adamıymış. Xəlvətcə bir küpə qızılı asdanıya, bir kötüyün altına basdırıfmış. Bir gün kişi ölür. Onun iki oğlu qalır. Böyük oğlu da atası kimi çox insafsızın biriymiş deyin, kiçik qardaşını nökər kimi işdədir, zulm eliyir. Nolacax, bir gün kiçik qardaş da cana gəlir, həm də elə əvlənməli yaşına çatır. Böyüh qardaş deyir ki, a qardaş, gəl səni əvləndirim, çıx get, elə dədəmin o köhnə evində yaşa. Daha yekə kişisən. Bəli, razılaşıllar. Kiçih qardaşa elə yün-

gülvarı toy olur. Kasıf toyu nə olacax? Həyə, kiçih qardaş öz arvadını gətirif gəlir öz dədəsinin əvinə. Geciyi günüzə qatıf işdiyir, əlləşir, bir əz pul tofluyuf əvi təzələməh isdiyir. Odu ku bir göz dam qaralıyır. Köhnə damın da əmələ yarıyan ağaşdarını söküf aparır. Sonra baxır ki, qapı da sallamatdı. Elə yanoyluzaddı çıxardanda baxır asdananın altında bir kötüh var. Xeyli əlləşif kötüyü birtəhər çıxardır, baxır altında bir küpə var. Görür ki, küpə dolu qızıl. O sahat sevinə-sevinə qızılı götürür. Əmə böyüh qardaş ölür, sonra onun arvadı da ölüm əyağında olanda kiçih qardaş yengəsinin yanına gəlif ona belə deyir:

– O dünyaya qardaşımın yanına gedəndə de ki, atanın qızıllarını qardaşın tapbışdı, əmə sana verməyə hayfı gəldiyinnən vermədi. Yengə, o mana bu dünyada çox zülum elədi, əziyət verdi. İndi qoy o da qızıl məsələsini eşidif o dünyada od alıf yansın.

## PULU YERİNƏ QOYUFSAN Kİ...

Bir nəfər kasıf gəlir oxçoğullu Məmməd ağanın yanına. Onnan bir əz əl borcu isdiyir. Ağa o sahat ona isdədiyi qədər pul verir. Həmin adam əlləşif-vuruşuf birtəhər pul əldə eliyif gətirir Məmməd ağıya. Ağa kasıf kişiyə yuxarı başda döşəyi görsədif deyir:

– Apar pulu orya, pulun içinə qoy.

Kasıf kişi irəli yeriyif döşəyi qaldıranda baxır burda bəs deyincəh pul var. Tamahı güj gətirir, gətirdiyi pulu orya qoymur. Öz özünə deyir: "Əşi, bu qədər pulun içində ağa nə biləcəh pulu buraya qoymuşam, yoxsa yox? Bu da bir fursatdı nə olar, olar".

Ağa deyir:

– Pulu yerinə qoydunmu?!

– Qoydum.

Aradan bir xeylax vaxt keçir. Genə kasıf kişinin əli aşağı olur. Gəlir Məmməd ağanın yanına:

– Ağa, mana bir az əl borcu ver.

– Get döşəyi qaldır, altındakı pulu götür apar.

Kasıf kişi genə baş tərəfdəki döşəyi belə qaldırır, görür altı boşdu.

– Ağa, burda heş nə yoxdu, axı?!

– Bə boş olacax da! Borcunu yerinə qoymuşdunmu ku, indi də götürüf aparasan.

## MAZMANIN EŞŞƏYİ

Mazmanov familli bir erməninin quldur dəsdələri Ağbabıya bir neçə dəfə hücum eləsə də, basılıf geri çəkilir. Bu vaxıt ermənilərin qoşunnarının içinnən yuhlu bir eşşəh ürküf türk qoşunnarına tərəf qaçır. Türk əsgərlərinnən biri onu tutuf Köhnə İbişdidən bir kətdiyə verir. Kəndçi bu eşşəyi görəndə çox sevinir. Ürəyində deyir: "Yaxşı oldu, bunnan qışda su, yayda ot daşıyaram, əmə buna bir haraba bağlamax lazımdı". Həyə, kişi eşşəyi aparıf pəyiyə salır. Bir də onda gəlir ki, eşşəh pəyədə bir gurultu salıf ki, gəl görəsən. Soxuluf inəyin axuruna, otdan yediyini yeyif, yemədiyini töküf əyaxlarının altına. Kişi isdiyir eşşəyi bir tərəfə bağlasın. Eşşəh kişinin əlini qarpır. Kişi hersdənif çombağı götürəndə eşşək ona dalını çəvirif qoşa tənih atır. Əv sahabı işi belə görəndə eşşəyi ağaşnan döyə-döyə eşiyə çıxarıf qovur. Sahabsız eşşəyə kətdə bir neçə kişi də növbəynən sahab çıxıllar. Əmə eşşəyin pis xəsyətini görüf onu ötürülər eşiyə. Bir gün eşşəh canavara rast gəlir, canavar onu parçalayır.

İndi Ağbabada mazmanın eşşəyi bir zərbi-məsələ çəvrilif. Qammaz, nataraz adamı görəndə "mazmanın eşşəyi" yada tüşür.

## KOKORUN BAĞRI ÇATDADI

Kavda bir Kokor addı heyvərə erməni musurmannara, arvad-uşağa divan tutannan sonra məclis quduruf kef eliyir. Birdən mökkəm bir gurultu qopur. Kokor yanındakı yaşdı ermənilərdən xəbər alır ki:

– Bu nəyin gurultusuydu belə?

– Bu türk topunun səsidi. Türklər gəlir, əvimiz yıxıldı.

Bu sözdəri eşidən kimi Kokor gurultuynan yerə yıxılır. O biri ermənilər onu qaldıranda görüllər ki, qorxudan Kokorun bağrı çatdıyıf.

O vaxıtdan qorxax adam görəndə belə deyillər: "Kokor kimi bağrı çatdıyacax". Bu zərbi məsəl o vaxıtdardan qalıf.

## QARNINI AĞRITMASA YAXŞIDI

Ağbaba camahatının köməyinə gələn (erməni-musəlman davasında) əsgərrərdən biri çox qatıxsevən adamıymış. Bir gün o Köhnə İbişə gəlif, rast gəldiyi bir qapıyı döyür:

– Ay əv sahabı.

Əv sahabı eşiyə çıxan kimi onu içəri aparır.

– Gəl, a qardaş, gəl. Nə isdiyirsən, de verim.

– Yuğurt.

– Vallah, yuğurt yoxdu.

Əsgər cınqırdakı turşumuş südü görüf deyir:

– Bunu içsəm olurmu?

Əv sahabı dillənmir. Əsgər cınqırdakı turşumuş südü bir nəfəsə başına çəkir:

– Of, canıma dəydi.

– Yaxşı görəh, qarnını ağrıtmasa yaxşıdı.

## ÜZÜ UNNAMAXNAN AĞARMAZ

Ağbabanın Xozu köyündə bir varrı oğlu əsgərrihdən yayınmaxdan ötrü köhnə paltar geyif üzünü unnuyur, gedir dəyirmana. Guya görsünnər bu kişinin oğlu dəyirmançıdı. Xalid paşa bunnan xəbər tutan kimi həmin oğlanı hüzuruna gətirdir. Oğlanın qorxudan dili tutulur. Xalid paşa onun üzünə bir şapalaq vurub deyir:

– Qorxudan bir-iki günün içində dəyirmançı oldun, sən ki bir zəngin adamın oğlusan. Üzü unnamaxnan ağarmaz. Gərəh el-oba yanında üzüağ olmax üçün tüfəh götürəsən, vuruşasan. Ölsən ölənə, qalsan qalanlara qarışarsan.

## QAZAN YE, ASAN YE

Bir kişi yolnan gedirmiş. Qəflətən qarşısına bir quldur çıxır. Quldur kişinin nəyi var, dartıf əlinnən alır. Sonra kişinin dolu dağarcığını açıf yeməh çıxardır. Başdıyır işdahnan yeməyə. Kişiyə heş bir quru təhlif də eləmir. Bu, kişiyə yaman tə’sir eliyir. Kişi bir quldura, bir yeməyə, bir də dolu dağarcığa baxıf başını buluyur:

– Quduruf yemə, a bala. Qazan ye, asan ye.

## SAKİT OLSAYDIN YAXŞI OLARDI

Bir dəfə ağbabalılar Çıldırdan gəlin aparıllarmış. Elə bu vaxt toyun qabağını bir pəhlivan kəsir:

– Ya mənə qənim, ya mənə nəmər.

Toy adamları ona nə qədər pul versələr də pəhlivan buna razı olmur ku, olmur. Bəy adamlarınnan yanı Balıxlıdan olan Bəkir kişi irəli yeriyir:

– A bala, yol ver gedəh.

– Mən bilmirəm, meydanıma adam verin.

Bəkir kişi sözü ikiləmiyif soyunur, girir meydana. Pəhlivan yaşı altmışı haxlayan bu orta boy kişinin meydana girdiyini görəndə möhkkəm hirsdənir. Elə başa tüşür kü onu elə ilk həmlədəcə yerə çalacax. Odu ku aj qurd kimi Bəkir kişiyə girişir. Amma onnan tutuşan kimi səf elədiyini başa tüşür. Baxır Bəkir kişi yaşdı olsa da, çox çəvihdi, quvatdıdı. Birdən Bəkir kişi bir dəli nə’rə çəkif pəhlivanı qaldırır başına, çaxır yerə, - deyir:

– Xar olmaxdansa, nəməri alıf getsəydin, sakit olsaydın yaxşıydı.

## QAÇAXDAN DA QORXAX, YOXSUL "QOÇAX"DAN DA?!

Bir dəfə Qaçax Usuf Qaranamazda İsmayıl ağanın tükanına gəlir. Parça, civ xəşdiyi, bir dolu xurcun ərzax alıf gedəndə, kəndin yoxsullarınnan biri də girir tükana. Əlinə keçənləri bir yerə yığıf aparmax istiyəndə İsmayıl ağa deyir:

– A kişi, deyəsən sənin axlın çaşıf nədi. Pulsuz bunnarı haraya aparırsan? Yoxsa yaxşıca pullanıfsan, mənim bunnan heş xəbərim yoxdu?

– Bə bəyax Qaçax Usufa niyə bir o qədər şey verdin? Ona da bir ləjim gələrdin da. Onnan pul almadın ki, mənnən də pul alasan.

– Ay axmax adam, mən də deyirəm bu niyə belə eliyir. Qaçax Usuf bu dağların qaçağıdı, ay axmax, hökumətin güjü çatır ki, mənim də güjüm çata. İndi nə deyirsən, qaçaxdan da çəkinim, yoxsul "qoçax"dan da?!

## ÖTƏN DİLİN OLUNCAX, VURAN ƏLİN OLSUN

Bir gün Hamasadan ləçənnih Göllü kəndinə gəlif camahatı yığır bir yerə. Hər üş nəfərdən birini döydürüf qanına qəltan eliyir. Heş kəs Qaçax Usuvun yerini demir. Belə-belə xeylax adamı döyüf incidillər. Axırda Qaçax Usuvun atası Məmməd kişi ləçənniyin yanına gəlif əliynən Qalaçıyı görsədif deyir:

– Usuf mənim oğlumdu. Bax, yerini bilməh isdiyirsən o, Qalaçadadı. Get orya hesaflaş. Daha bu camahatı incitmə. Boş-boş ötən dilin oluncax, vuran əlin olsun.

## SINAMAX İSDƏDİM, GÖRDÜM...

Bir dəfə Bozdardan Avdılla Qazançıdan Göllüyə gələndə yolda Qaçax Usuva irast olur. Usuf iri bir daşın dalında səngərriyifmiş. O, Avdıllanı görən kimi bir güllə atır. Güllə Avdıllanın əlinnən azca aralı ciloyu dəlif keçir. Avdılla özünü itirmiyif başını dih tutur.

– Qaçax Usuf birini də başıma at.

– Məksətim səni öldürməh dəyil. Eşitmişəm Bozdarın içində qorxmaz adamlardan biri də sənsən. Sınamaq istədim, gördüm...

## BAXMA YUXARI-AŞAĞI

Düzkətdi Əmiraslan ağa çox varrı-hallı olmasa da, özünə görə varı-dövləti varıydı. Kətdə-kəsəhdə sağavətiynən hörmət-izzətiynən tanınmışdı. Onun şöhrətinin sədası Sağamay bəylərinə də gəlif çatmışdı. Bir gün bu bəylər bir yerə yığışıf dedilər:

-Gəlin gedəh görəh ağa necə adamdı kı, hamı elə onnan, onun səxavətinnən danışıllar.

Bəylər yola tüşdülər, Gəlhagəl gəlif Ağbabıya, Düzkəndə, Əmiraslan kişinin əvinə çatdılar. Əv sahabı qonaxları hörmətnən qarşılayıf içəri apardı. Ağa adamlarına görsədiş verdi. Qoşdar kəsildi, qazannar asıldı. Bir kef məclisi quruldu, daha nə deyim. Bəylərdən biri gah yuxarı, gah aşağı baxıf, nəyisə bir şey deməh isdəsə də, əv sahabı ona aman vermədi.

– Baxma yuxarı-aşağı. Arama zəri-altunu, bərkit qurşağın altını. Dünyanın malı dünyada, əhli-halı yadda qalacax.

## ÖZÜ DALDA, BAŞI QALDA OLACAX

Bir dəfə bir kasıf oğlan Göllüyə, Qara Qısxanımın yanına gəlir. Xayış eliyir onu özünə nökər götürsün. O deyir:

– A xanım, yetim adamam. Məni özünə nökər götürsən mənim duvam bəsdi sana da, sənin oğullarına da, nəvələrinə də.

Qara Qızxanım ona baxıf başını buluyur.

– Səni nökər götürməyimə götürürəm, əmə sənin gözdərinnən cin yağır. Xata çıxartmasan yaxşıdı.

Nolacax təzə nökər işə başdıyır, bir xeylax keçənnən sonra həmin nökər gecələrin birində qızıl sandığının kıfılını qırıf ordan xeylax qızıl götürür. Qızılı bir dəsmala püküf qoynuna qoyur, düzəlir yola. İşdən xəbər tutan kimi Qara Qısxanımın adamları nökərin dalıncax tüşüllər. Nökər elə çaydan keçəndə yaxalanır. Əmə nökər eləmiyif tənbəllih qızılları suya tökür. Nökəri qolubağlı Qara Qısxanımın yanına gətirillər. Nökər onu görəndə başdıyır titrəməyə. Qara Qısxanımın adamlarınnan biri deyir:

– Xanım, bunu çaydan keçəndə tutdux, əmə qızılları çaya töhdü.

Qara Qızxanım nökərə baxıf gülümsüyür:

– Buraxın getsin, buna toxunmuyun. Bu xəsiyət ki, bunda var, həmməşə özü dalda, başı qalda olacax.

## QAYNANƏNİN PƏTŞAXLIĞININ AXIRI

Deyillər qədimlərdə Çıldırda dedihçəh insafsız, qıyımsız bir qaynənə varıymış. O, bircə gəlinə göz verif, işıx vermirmiş. Sözü yeri gəldi, gəlmədi deyirmiş:

– Əvin pətişaxı mənəm. Ağzında pətişax deyirsən. A gəlin, səni asmıram, kəsmirəm. Əlini əlinə vur, telinə vurma, iş gör. Boğazdan qırıx, bədənnən arıx ol ku, çəpih tərpənəsən. Gəlin gərəh gün hələ çıxmamış gejdənnən qalxa yerinnən, yır-yığış eliyə... Axşam hamı yatannan sonra gərəh gəlin yerinə girif yata.

Gəlin qaynənənin qorxusunnan dillənmir, onun pütün buyuruxlarına sözsüz əməl eliyir. Qaynata da o söz, qısılıfmış abırına. Gözdüyürmüş kü bəkə arvadı bir gün insafa gələcəh. Bəlkə qocaldıxcax axıllanacax. Yalansa beləsinin imanına ala tuluyu

bağlıyım. Əmə olmur ku, olmur. Zalım adam insafa gələrmi? Yox! Qaynənə daha da tüntdəşdirir xəsiyətini, yaman zalımlaşır. Nolacax, beləcə xeylax vaxt keçir. Di gəl ki, qaynənə pətişaxlığını yerə qoymur ku, qoymur. Gəlin qalır belə...

Bir gün gəlin təndiri qalıyır. Qaynənə də oturuf ona tamaşa eliyir. Göz qoyur ku, yağdan oğurruyuf gizdətməsin. Elə bu vədə qaynata gəlir. O, üzünü arvadına tutuf deyir:

– Gün gəlif günorta oluf, ay arvad, əmə mən hələ heş nə yeməmişəm. Acınnan öldüm axı.

Qaynənə ərinnən bu sözdəri eşidəndə ona bozarır.

–A kişi, sənin gödənin nədi?.. Görmürsənmi gəlin əli işdə, mən də qoca arvad. Görəmmirəm iş-zad. Səbrini bir bas, gözdə. Ona kimi gəlin də öz işini qutarsın. Uzun sözün kəsəsi, axşam tüşsün. Sən də yeyərsən, bığını burarsan, isdiyərsən yatarsan, isdiyirsən qapıda dimdih durarsan. İndi iş-gücün bu vaxtında qaçaqaşdı nədi?

Kişi arvadınnan bu sözdəri eşidəndə daha dillənmədi. Bir döşəhcə, bir mütəkkə gətirif uzandı təndirin başına. Təndirin isdisi kişiyi xumarrandırdı. Az geşmədi ki, kişi yuxuya getdi. Birdən o, yuxuda sayıxlamağa başdadı.

– Bax belə düyməc eliyəllər. A kişi qızı, ağzın dada gəlsin, düyməş ağzımı dada gətdi. İndi də bir təzə çörəhnən pendir gəti. Bir yaxşı dürməh püküm.

Bu sözdəri eşidəndə qaynənə hersdənif ərini silkələdi.

– A kişi, bəsdi yeyif-yatdığın. Birdən toxlux eliyərsən ha!

O saat kişi dihsinif ayıldı. Ayılan kim əl atdı çombağa:

– A köpəh qızı, yuxuda da yeməyi qıymırsan mana?!

Düşdü arvadın üstünə. Vur ku vurasan. Hannan-hana gəlin gəlif qaynənəsini qaynatasının əlinnən aldı. Kişi çombağı bir yana atıf dedi:

– A gəlin, o yağdan isti-isdi bir qava çəh, içinə də təzə çörəhdən xeylax dorğa, düyməş elə. Mən də yeyim, sən də. Get pendir də, çörəh də, çay da gəti gəl.

Gəlinə də elə bu lazımıydı. O sahat qaynatası bir demişdi, beş gətdi ki, qoy kişi doyuncax yesin. Bunu görəndə qaynənənin cini başına vurmadımı?! Az qaldı arvadın hikkəsinnən bağrı çatdasın. İsdədi gəlinə də, kişiyə də ağzınnan çıxanı desin. Əmə kişi ona aman vermədi.

– Daha sənin bu əvdəki pətişaxlığın getdi. Taxtın yana çevrildi. Nə əmir ver, nə acı söz de. Gəlin nə pişirif versə, oncuğazı ye. Tüstün çıxmaz yanmasan, dəynəhnən qandıraram, qanmasan.
Daşdan səs çıxdı, qaynənədən səs çıxmadı.

## BİZDƏ DƏ VARDI BELƏ BİR KİŞİ

Bir arvadın bir gəlini varıymış. Əmə gəlin düzəməlli yolun sahabı dəyilmiş. Yanı oynaşı varıymış. Bir gün gəlinin əri əvdə yoxuymuş deyin gəlin oynaşnan sözdəşir. Oynaş başına bir çadra örtüf bunnara gəlir. İki xurcun gətirir, birinə daş duz qoyur, birinə nar.
Qaynənə çadralıyı görüf gəlinnən xəbər alır:
– A bala, bu kimdi?
– Xalamdı, bizə qonax gəlif. Bu gecə bizdə qalacax.
Daha arvat dillənmir. Əmə qaynənə xurcunu əlləşdirir. Baxır içində nar var. Səvinir, öz özünə deyir ki, genə bir-ikisini yeyərəm. Qoca arvadam, ağzım dada gələr. Əmə oynaş fursatı fota vermiyif xurcunu dəyişir. Gedir gəlinin yanına. Gecənin bir vədəsi qaynənə oyanır. Öz-özünə deyir ki, qaxım o narrardan bir-ikisini yeyim. Belə də eliyir. Əlini xurcuna uzadır nə, daş duz çıxır. Arvat qalır mətəl. Sonra nə fikirrəşirsə deyir:
– Gedim baxım görüm, gəlinin xalası yaxşı yatıfmı? Birdən üsdü açıx qalar, söyüx dəyər, yaxşı olmaz, o da mənim kimi qoca arvatdı.
Ehmaca içəri girir ki, nə, gəlinin xalası bir bığıburmanın biri! Gəlinnən qucaxlaşıf yatıf. Qaynənə əlini dizinə vura-vura geri qayıdıf belə deyir:

Axşamnan baxdım nar idi,
Köbəkciyi var idi.
Gecə baxdım duz daşı,
Allahın hikmət işi,
Bizdə də vardı belə bir kişi...

## GÖR CANA QIYMAĞI

Yay vaxdıymış. Ağbaba ağalarınnan biri öz piçinçilərinin yanına gəlif hal-əhval tutur.
– Nə var, nə yox? Nökərrər sizə bir şey gətirifmi?

– Pendir-çörəh, bir də ayran aşı gətiriflər.
– Laf yaxşı. Yeməh-işməyiniz deməh pis dəyil.
Ağa əlini belinə qoyuf piçilən yerin içiynən gəzir, dərzdərə baxır. Birdən onun gözü qonşuluxdakı ağanın yerinə sataşır. O sahat kişi rəng verif, rəng alır. Yaşdı piçinçilərdən birini yanına çağırıf qonşuluxdakı ağanın piçilən sərnəsini görsədif deyir:
– Piçin belə olar. Siz də adınızı piçinçi qoyufsunuz. Gör necə divinnən qazıyıflar.
Piçinçi bir ağanın görsətdiyi yerə baxır, bir ağanın hersinnən pörtmüş suvatına, bir də əlindəki kərəntiyə.
– Ağa, acığın tutmasın, əmə...
– Nə əmə?!
– Ayran aşını içərəm,
Üzün-üzün piçərəm.
– Kişi, bu nə deməhdi,
– Piçin işi elə yüngül iş dəyil. Elə yüngülvarı xörəh yeyən piçinçi də belə iş görəcəh. Piçinçiyə xamır xörəyi lazımdı. Xaşıl, quymax, yağlı xörəhlər... Məsəl var, deyərlər: “Ver mana quymağı, gör cana qıymağı”.

## ƏZİM BİLƏR, XAŞ BİLƏR

Bir irəşbərin Xaş addı bir tərs öküzü, Əzim addı inadkar bir hodağı varıymış. Rəşbər öküzdəri qoşur, hodağı işə çağırır. Onnar iş başına gələndə rəşbər öz-özünə ürəyində deyir: “İndi görəsən neyliyəcəm? Öküz tərs, hodax inat. Bircə bu əkini vaxtında qutarsaydım”. Əzim elə bil kişinin ürəyinnən keçənnəri gözdərinnən oxuyur:
– Əşi, nə fikirrəşirsən. İşə başdamıyaxmı?
– Başdamağına başdıyacam. Əmə sənin də xəsiyətini bilirəm, Xaşın da.
Əzim əlinin içindəki yumurta böyühlüyündəki daşı ona görsədif qımışır.
– Kişi, sən işə başda. Zoxma bilər, daş bilər. Əzim bilər, Xaş bilər.

## DEDİYİMİ DƏ UNUTMA

Ağbabada bir ağanın dedihcə kobut, iş bilmiyən bir nökəri varıymış. Ağa insaflı olduğuna görə nökəri bir təhər yola verirmiş. Çünki nökərin yaxşı varı-dövləti olmasa da, bir çətən küfləti varıymış. Ağa da buna görə nökəri yola verirmiş.

Bir gün ağa mərəyə baxmağa gələndə baxır ki, nökər samanı başınnan, yanı yuxardan işdədif. Hər gün gedif-gəldihcəh xeylax samanı ayaxlıyıf yerə batırıf, üstəlih burda heş səliqə-sahman da yoxdu. Ağa acıxlansa da, birtəhər özünü ələ alıf nökərə deyir:

– A bala, samanı aşağıdan işdət, təmiz iş gör.

Əmə nökər genə işi tərs görür. Ağa işi belə görüf arvadına deyir:

– Ay arvad, bir ərişdə ployu pişir.

Ploy hazır olan kimi ağa nökəri də içəri çağırır. Ployu iri sinidə ortuya qoyullar. Nökər də bir tərəfdə əyləşir başdıyır yeməyə. O, sininin bir tərəfinnən ployu qaşıxlıyanda ağa nökərə deyir:

– A nökər, ployun başınnan yesənə.

– Yox, ağa, ployun aşağısı yağlıdı.

Elə ağıya da bu lazımmış. O sahat deyir:

– Samanın da yağlı yeri elə aşağıdan işdənməsidi, oğul. Yediyini unutmadığın kimi, dediyimi də unutma.

## CƏHƏNNƏM PULU

Öysüz kəndinnən bir kişi hər söhbət tüşəndə deyir:

-Əşi, mən hər il cəhənnəm pulu verirəm. Uzağa getmirəm, elə keçən il altmış manat cəhənnəm pulu verdim. Bu məni birtəhər eliyəcəh.

Heş kəs kişinin bu danışığınnan bir şey başa tüşmür. Bu söz-söhbət gedif Hacabbas oğlu Kalvayı Məhəmməd ağıya çatır. Ağa o sahat adam göndərif həmin kişiyi yanına çağırtdırır. Kişi gələn kimi ağa onu yaxşıca yedirdif-içizdirir. Sonra keçir mətləvə.

– Deyillər sən hər il cəhənnəm pulu verirsən, özü də filan qədər, bu düzdümü kişi?

Kişi görür yox, pis yerdə axşamlıyıf. Bir təhər özünü ələ alır.

– Ağa, bu bir əz uzun əhvalatdı. Baş ağrısı olmasa, danışaram.

– Danış, kişi, danış.

– Küflətim çox böyühdü, ağa. Əmə sağlığına xeyli mal-qoyun saxlıyıram. Özü də bazara yağ, pendir, şor aparıram. Özün bilirsən ki, Ağbaba yağ-pendir, ağartı yeridi. Bir əz ağartı satıf uşaxlara, arvada əyin-baş alıram.

– Kişi, duruf maa qaravəlli oxuma. Sən mətləfdən söz sal. Sən de görüm, niyə cəhənnəm pulu verirsən? Cəhənnəm pulu nədi?

– Ağa, başına dönüm, mən ürəyi yumuşax adamam. Hər bazara gələndə xeylax zərəl eliyirəm. Niyə? Çünkü çox ağır-ağır çəkirəm ki, müştəri nərazı qalmasın. Ürəyimdə öz-özümə: “Cəhənnəmə olsun”. Bir də baxıram ki, belə-belə hər bazara gələndə on-on beş manat zərəl eliyirəm. Bu il də zərəlim artıf, oluf yetmiş manat. Elə buna cəhənnəm pulu deyirəm.

Kişi sözünü kutaran kimi Kalvayı Məhəmməd ağa ona xeylax pul verif deyir:

– Kişi ürəyi yumşaxlıx yaxşıdı, əmə öz yerində. O ku qaldı cəhənnəm puluna, bu xəsiyyətini tərgid. Yoxsa arvad-uşağa sitəm eliyif axırda özün cəhənnəmlih olarsan ha!

## MANA BİR ARVAD AL

İsmayıl koxa Əzim addı birinə qonaxlara qullux eləməyi tafşırır:

– Filankəsin atını içəri apar, tərridi. Filankəsin atının qabağına ot-ələf qoy. Cümə axşamı səni əvləndirəcəm.

Əzim qabaxcax elə bilir koxa düz deyir. Odu ku cannan-başnan işə girişir. Əmə sonralar başa tüşür kü, koxa əvləndirməh sözünü elə belə deyir. Odu ku, Əzim də işin üstünü vurmur. Elə koxa bir də, “cümə axşamı səni əvləndirəcəm” deyəndə Əzim daha özünü saxlıya bilmir.

– Koxa olanda nə olar, adam nə qədər yalannan söz verər axı! Bir dəfə də sözünün ağası ol, mana bir arvad al.

## SƏNİ SOYALLAR

Qaranamazdı bir kasıf kişi harda gəldi özünün sərgüzəştlərinnən danışırmış. Bir gün kasıf kişi genə söhbətə başdıyır kı:

– Oy dərəsinnən keçif Gürcüstana, Borçalıya getmişdim. Nələr gördüm , nələr gördüm.

Kəndin koxası İsmayıl ağa bunu eşidəndə deyir:

– A kişi, sən kasıf bir adamsan. Nə oldu elə ordan vuruf, burdan çıxırsan?

Kasıf kişi qabaxcax koxuya cavaf vermir. Əmə nə tüşünürsə, başını buluyur:

– Koxa, acığın tutmasa bir söz deyərdim.

– De görüm, nə deyirsən?

– Vallah, koxa sən bir dəfə də Oy dərəsinnən gedif-gələ bilməzsən.

– Axı niyə? Altımda at, axlım da başımda...

– Elə dəyil, ağa. Oy dərəsi qaçax-quldurnan doludu.

– Bəs sana toxunan olmur orda?

– Elə məsələ də burasındadı kı, mənim heş nəyim yoxdu. Paltarım köhnə, çarıxlarım cırıx, civlərimdə də bir qara qəpih pul yox... Oğru-quldur mənim nəyimi soymalıdı?! Sən getsən, atını, paltarını alallar, özünü də ya öldürənlər, ya da lüt-üryan yola salallar.

## TORPAX BÖLGÜSÜ

Bir gün torpax bölünəndə daşkörpülü Əmrah ağa fikirrəşir ki, torpax bölən paşa ona daha artıx torpax verər. Odu ku, umut-du-umutdu gəlir türk paşasının yanına. Sən demə, hamasalı Paşa kişi işi başa tüşüfmüş. O, tənbəki qutusuna xeylax qızıl, onun üstünə də bir az Trabzon tütünü qoyuf verir türk paşasına.

– Paşam, bir tənbəki çəh.

– Olan, sənin ismin nasıldı?

– Paşadı, əfəndim

– Səndəmi paşasın?

– Yox əfəndim, kətçi babayam.

– Pək, iyi.

Paşa tütün çəkəndə baxır qutuda xeylax qızıl var, isdiyir onu

Paşıya geri qaytarsın.

Paşa deyir:

– Qoy qalsın Paşam, məndə genə tənbəki var.

Türk paşası tənbəki qutusunu civinə qoyur. Paşıya deyir:

– Qoçağım Paşa, sana toprağı nereden bölüf verim, söylə. Yalı yalnan, yolu yolnan?!

– Əfəndim, yolu yolnan.

Türk paşası o sahat bir böyüh yeri ayırıf Paşıya verir. Əmrah ağa hersinnən yanıf tökülsə də, heş nə deyə bilmir.

## XATA NÖKƏRDƏN DƏYDİ

Bir gün bir ağa məclisdə içif keflənir. Nökərrərdən birinə dənizi görsədif deyir:

– Bax isdəsəm pütün dənizin suyunu bircə dəfiyə içərəm ha.

– Ağa, sən nə danışırsan? Bu mümkün dəyil axı.

– Mümkündü. Dedim ki, içərəm.

– İçərsən?

– İçərəm.

– Yaxşı, onda dedihlərini yaz, qol çəkənnən sonra möhür basıf ver mana. Sabax dediyini eliyərsən.

– Bu sahat.

Ağa o sahat iki daşın arasında dedihlərini yazır, qol çəkif möhür vurannan sonra verir nökərə. Bəli, elə ki, sabax açılır, ağa ayılır, özünə gəlir. Dünənki əhvalatı yadına salanda çox narahat olur. O sahat tükü tühdən seçən nökəri yanına çağırır. Başına gələnnəri, ona danışıf onnan məslahat isdiyir. Nökər deyir:

-Bu çox hasand məsələdi. İndi həmin nökər gələndə deyərsən sözüm sözdü. Əmə bir şərtim var. Sən gərəh dənizə tökülən pütün çayların sularının qabağını əyliyəsən ki, mən də dənizin suyunu bir dəfiyə içif kutaram. Sən bunu eləsən, mən də dediyimi eliyərəm.

Az keçmir ki, dünənki nökər gəlir. Ağanın yazdığı möhürrü kağızı görsədif deyir:

– Ağa, buyur dediyinə əməl elə

– Sözüm sözdü, əmə bir şərtim var.

– Buyur, de görüm o necə şərtdi elə?

– Sən dənizə tökülən pütün çayların suyunun qabağını əylə,

mən də dənizin suyunu içim.

Nökər bu sözdəri eşidəndə ağanın çoxbilmiş nökərinə tərs-tərs baxıf deyir:

– Ağa, daha sana sözüm yoxdu, əmə xata bu nökərdən dəydi...

## ÖYSÜZLÜ MUSTAFANIN DANA ƏHVALATI

Qonşusu Mustafıya tez-tez sataşıf deyərmiş.

– Dünyada görən sənnən betər dam yarıf dana çıxardan olufmu? Yox, görməmişəm, eşitməmişəm. Əyri yolun ustasısan.

Əmə Mustafa deyilənnəri heş eyninə almır. Baxır əyə qonşusu heş onnan əl çəkənə oxşamır, yapışıf yaxasınnan. Hara gəldi-gəlmədi tikannı-tikannı danışır. Mustafa dəli olmurmu?!

Bir gün o həmən qonşusunun danasını oğurruyuf kəsir. Üsdəlih dananın ətinən xeylax pişitdirdi. Dananın başını bir qazana qoyuf üstünə qapağını örtür. Sonra qonşusunu çağırtdırır. O gələn kimi əv sahabı onu surfuya də'vət eliyir.

– Nə var, nə yox, a qonşu?

– Sağlığın, əmə...

– Əmə nə?

Qonşu qocunur, əmə danışa bilmir. Əv sahabı deyir.

– Əşi, bir tikə çörəh kəs. Yeyəh-içəh, sonra danışarsan nə oluf.

Onnar yeyif-içənnən sonra genə əv sahabı qəsdən qonşusunu sorğu-suala çəkir:

– Həyə, indi de görüm nə oluf, a qonşu?

– Bizim danıyı, bizim danıyı...

– Sonra?

– Oğurruyuflar, əmə...

Söz buraya çatanda Mustafa dananın başı olan qazana işara eliyif belə deyir:

And içif ağu yalaram,
Boynunda bağı dananın...
Çıxıfdı qapax altınnan
Dili-damağı dananın.

## QƏMƏR, QAÇ

30-cu illərdə Çivinnidə İsgəndərnən Qurbanı xalx tüşməni addandırıf Məşədi Hasanın əvinə salıf qapıyı bağlıyıllar kı, sabax açılan kimi onnarı aparsınnar Hamasıya. Gecənin bir vədəsi İsgərdərnən Qurban bacadan çıxıf qaşmax isdiyəndə bacanın üşşəsi qırılıf İsgəndərin əlini kəsir. O nə fikirləşirsə, bir kağıza arvadını nəzərdə tutuf belə yazır:

Qəmər qaç,
Qəmərbaxış, Qəmər qaç.
Sinədən oxlanmışam
Üstünə qan damar, qaç.

İsgəndərnən Qurban ordan çıxan kimi qaçıf Qarsa gedillər. İsgəndərin arvadı da ərinin yazdığı kağızdan nəticə çıxardır, o da aradan çıxır.

## TEZ GƏL, AĞAM...

Qarsda bir oğlan əvlənir, əmə o qədər keşmir ki, onu əsgər aparıllar. Onun arvadı uşağı qucağına alıf əsgər gedən ərinə belə deyir:

Tez gəl ağam, tez gəl paşam,
Qədifə, yeləh kirrənmədən,
Xırda bəbəh dillənmədən,
Tez gəl ağam, tez gəl paşam.

## BORCUNU UNUT, ƏMƏ MALINI MÖKKƏM TUT

Bir gün Ələşrəf addı bir kişi oxçuoğullu Məmməd ağanın qapısına gəlir. Ağa qonağı hörmətnən qarşılıyıf içəri aparır. Yeyif- içənnən sonra ağa Ələşrəfə deyir:

– Kişi, de görüm nə mətləvə gəlifsən?

– Gəlmişəm sənnən bir qandalax bağlıyam. Deyirəm mana bir əz mal-heyvan verəsən kasıvlığın daşını atam.

– De görüm, sana neçə baş mal-heyvan lazımdı.

– Ağa, mana bir on baş inəh, on boyun öküz, üş yüz baş da qoyun ver.

– Yaxşı, verdim. Günü bu günnən heyvanı seçif apara bilərsən.

Ələşrəf kişi Məmməd ağıyı duvalıya-duvanlıya ağanın verdiyi mal-heyvanı götürüf aparır. Aradan xeylax vaxt keçir. Ələşrəf kişinin sürüsünə canavar girir. Üş yüz baş qoyunnan beş-on baş qoyun salamat qalır, qalanını canavar qırır. Ələşrəf kişi işi belə görüf qalır mətəl ki, nə eləsin. Nolacax, bu əhvalat gəlif Məmməd ağıya da çatır. O, adam yolluyuf Ələşrəf kişiyi çağırtdırır yanına. Beçara kişi dizdəri əsə-əsə gəlir ağanın yanına. Əmə ağa onu çox mehribannıxnan qarşılayır. Yeyif-içənnən sonra ağa qandalağın kağızını çıxardır, cırır:

– Ələşrəf kişi, başına gələnnərdən xəbərim var. O qədər zərəldən sonra sənnən pul ummax mana yaraşmaz. Neçə baş mal-heyvan alıfsan mənnən hamısını sana bağışdıyıram. Borcunu unut, əmə malını mökkəm tut ki, bir də kasıflıx qapını döyməsin.

## MƏŞƏDİ HÜMBƏT

Bir dəfə oxçoğludan Məşədi Hümbət qonşusuynan Gümrüyə gedir. Baxır ki, Paşa körpüsünün yanında xeylax camahat toflaşıf. Qara zurnanın da səsi meydanı başına götürüf. Ortada yekəpər bir erməni o tərəfə, bu tərəfə var-gəl eliyir, sinəsinə döyür. Di gəl heş kəs cəsarət eliyif meydana girmir. Qara zurnanın səsi Məşədi Hümbəti meydana çəkir. İşi belə görəndə o, yol yoldaşına deyir:

– Bu heyvərə erməniynən bir tutuşmax isdiyirəm. Sən nə deyirsən, hay?

– Əşi, bəri gəl. Düzdü, sən də quvatdısan, əmə görmürsən bu kavırı, laf fil boydadı, əyə. Buna güjümü çatar?!

Nolacax, Məşədi Hümbətin kətdisi çox deyir, əmə o az eşidir. Qurşağa qədər soyunuf girir meydana. Bəli, pəhlivannar əl verif göürüşənnən sonra qızmış buğalar kimi tutuşullar. Məşədi Hümbət bir acıxlı nə’rə çəkif erməniyi vurur yerə.

## AT ÜRKDÜ, MİNAS DA KI DÜRƏHDİ

Şura hökumətinin "mənəm-mənəm" deyən vədələrində Ağbabada bir kasıf kişi yun vergisini verə bilmir. Vergiyığan Minas addı erməni kişiyi laf dəli eliyir. Kişi görür bu kafır elə öz dediyini deyir. Duruf atın üstündə, matrax da əlində. Kasıf kişi nə tüşünürsə, axırda bir gün Minasa deyir:

– Sən burda dur, yunu gətirif verim.

– Get, gəti, yoxsa sənin ciyarını çıxardaram. Matraxı görürsən da?!

Kişi əvə girif mitili götürüf gəlir. Atır atın başına. At ürkür, Minası vurur yerə.

Söz-söhbət gedif divan-dəriyə çatır. O sahat kasıf kişiyi çəkillər sorğu-suvala.

– Kişi, sən Şura hökumətinin vergiyığanını niyə bihörmət eliyifsən? Bu bir, üstəlih, vergiyi də bu vaxta kimi vermiyifsən.

Sən demə, kişinin də canında az yoxuymuş. Hazırcavavın, məzəkeşin biriymiş. Odu ku, canını tişinə tutuf deyir:

– Qulax assanız başıma gələni olduğu kimi danışaram. Günahım varsa, nə deyirəm, tutun, basın dama.

– De görəh nə oluf?

– Bu erməni Minas bizim qapıya gedif gəlməhdən yolu yağır eliyif. Elə "yun ver" deyif durur, qıcanır üstümə, qışqırılır bir vursun məni. Qoyunum olmuya-olmuya yunu hardan verim? Gördüm yox, Minas əl çəhmiyəcəh. Əvdə bir köhnə mitil varıydı, gətdim. Dedim ay Minas, bir qulax as. Göydə yoxdu asvas? Baxdım başını buladı. Mitili atdım üstünə. Mitil elə gündəydi ki, at da ürkdü, Minas da kı dürəhdi.

## XORUZUN QUYRUĞU GÖRÜNÜR

Bir molla yas yerinə gedirmiş. Onun yolu birinin qapısınnan tüşür. Molla baxır ki, bir gəlin toyux-cücüyə dən verir. Kişi diqqətnən baxanda ları xoruz onun çox xoşuna gəlir. Tamahı güj gətdiyinnən xoruzu tutuf ehmalca vurur əbasının altına. Düzəlir yola. Gəlin baxır kı, xoruz yoxdu. O sahat işi başa tüşüf davan-basma özünü molluya yetirir:

– Molla əmi, xoruzumu ver.

Molla gəlini inandırmaxdan ötürü əllərini göyə açır.
– And olsun Allaha, xoruzdan xəbərim yoxdu.
Gəlin diqqətnən baxanda görür xoruzun quyruğu mollanın yaxasınnan görünür. Əliynən xoruzun quyruğunu molluya görsədif deyir:
– Molla əmi, andına inanıram, əmə xoruzun quyruğu görünür.

## NƏ DİL BİLDİ, NƏ DODAQ

Bir gün balıxlı Hacı Yaquvun oğlu Nəsif Qızılqaya yaxınnığında bir atdıya rast olur. Atdının silahlı olması, üsdəlih zəhmi Nəsivi qorxutsa da, o onun üz-gözünnən ərrih, igitdih yağan atdıyı tanıyır. Bilir ki, bu atdı Qaçax Usufdu. Özünü itirmiyif deyir:
– Qaçax Usuf, sözdü adama oxşuyursan. De, nə deyirsən de.
– Hacı Yaquvun oğlu, nə baxırsan belə, sözdərimə diqqət elə, lal get, lal gəl. Hamıya lazım olannan, tükənənnən, qalannan gətir. Bir də dağ aşıran dağarcıx dolusu...
Nəsif daha ağ bir, qara iki demir. Davan alır əvə. Bir su içimində geri qayıdır. Dolu dağarcıxnan pul kisəsini Qaçax Usufa uzadır o, xətircəm olsun deyin belə deyir:
– Başına dönüm, a qaçaq, nə dil bildi, nə dodaq.

## TANRI DADINA YETDİ

Bolu tərəflərdə Maxsut ağa addı bir ağa varıymış. Çox insafsız, kəmfürsətin biriymiş. Camahat onun əlinnən zara gəlifmiş. Bu əhvalatı ağbabalı Qaçax İsgəndər də eşidir. Bir gün Qaçax İsgəndər də adamlarınnan bir neçə nəfər götürür, dərvişlibas oluf gəlir Bolu yörəsinə. Elə rast gəldiyi əvin qapısını takqıldadırlar. Qapıyı açıf onnarı içəri aparıllar. Əv sahabı kim olsa yaxşıdı, elə Maksut ağanın özü. Əmə Qaçax İsgəndər ağanın heş üzünü görməmişdi deyin, onu tanımadı. Ağa nə qədər insafsız, qansız adam olsa da, dünyagörmüş adamıydı. Qaçaxların hərəkətdərinnən, darvanışdarınnan hiss elədi ki, bunnar bura adamı dəyillər. Ağa görsədiş verdi. Erkəklər kəsildi. Qazannar asıldı. Yaxşı bir surfa hazırrandı. Yeyif-içənnən sonra Maksut ağa çə-

kinə-çəkinə üzünü Qaçax İsgəndərə tutuf dedi:

– Ağa, soruşmax yaxşı tüşmür. Bağışdıyın, nə mətləvə, nəyə gəlifsiniz?

– Bizi görürsən dərvişih. Sən de görüm kimsən, nəçisən?

– Mənim adım Maksut ağadı.

– Maksut ağa sənsən?!

Qaçax İsgəndər acıxlı qalxır əyağa, əmə özünü birtəhər ələ alıf deyir:

– Sən bilirsənmi mən kiməm?

– Kimsən?

– Ağbabalı Qaçax İsgəndər. Camahata elədiyin zulumun sədası mana da gəlif çatıf. Gəldim sana bir qulaxburması verəm.

Ağanın qorxusunnan irəngi ağarır. Qaçax İsgəndər əlini onun çiyninə qoyuf deyir:

– Bu dəfə sana toxunmuram. Çörəyini yeyif, suyunu işmişəm. Çörəyi əyaxlamax olmaz. Əmə bir də sənnən şikat-şəvkə eşitsəm günahı özündə gör. Adın Maxcutdu Tanrı dadına yetdi.

## SƏN VERDİN, MƏN DƏ YEDİM

Bir ağa öz piçinçisinə bir nökərnən yeməh-işməh yolluyur. Nökər yolda salam verir, onun yanında oturuf bir hovur dincini alır. Əmə görür biçinçinin qaş-qabağı yernən gedir. Nökər nə fikirrəşirsə piçinçiyə belə deyir:

– Qardaş, sana nə oluf, belə qaşdı-qabaxlısan? Olmuya gəmilərin dərgada qərq oluf, hay?!

– Günorta oluf, hələ acam. Ağa hələ ki, yeməh-işməh yollamıyıf. Deyəsən o məni elə yerri-divli unuduf.

– Əşi, bunnan ötrü qanını qaraltma. Xaşıldan, qalınnan, qatıxdan buyur ye.

– Kişi, sonra inciyərsən ha?

– Niyə ki?

Nökər piçinçinin uca boyuna, enni kürəhlərinə, uzun qara bığlarına baxır, onun danışığınnan heş nə başa tüşmür.

– A qardaş, mən səni bir əməlli başa tüşmədim axı!

– Dediyimin canı odu ku gətdiyin bütün şeyləri mənim ixdiyarıma ver.

– Kişi, sən zarafat eliyirsən. Bu qədəri təhcə yeyəcəhsən?

– A kişi, sən nə danışırsan? Bu sahat laf acıxmış asdan kimiyəm.

– Onda buyur görüm, bu qədər şeyləri nə təhər yeyirsən axı?!

– Sən zəhmət olmasa bir əz aralı otu. O iri çömçüyü də mana ver. Mən heş vaxt qaşıxla yemirəm.

Nökər çömçüyü piçinçiyə verif onnan xeylax aralı oturur. O sahat piçinçi qabaxcax xaşılı cınqırrı-zaddı çəkir qabağına, qatığı, yağı tökür, çömçüyü alır əlinə. Bir göz qırpımında xaşılı yeyif qutarır. Sonra qalınnan, yuxaynan pendiri dürməliyif işdahnan yeyir. Az keşmir ki, piçinçi yeməyi yeyif qutarır. Nökər bir piçinçiyə baxır, bir boş qav-qacağa, başını buluyur:

– Qardaş, mən belə deməmişdim axı! Bu heç olmadı. İndi mən neyniyəcəm? Piçinçilər aj qaldı. Vay mənim halıma!

Piçinçi yağlı bığlarını burur.

– Kişi, nə hay-küy salıfsan. Sən dedin, ye, mən də yedim.

## KOR BİLAL

Kor Bilalın qardaşını Tiflisdə silah almağa gedəndə ermənnər öldürmüşdülər. Kor Bilal çox igit adamıydı. Odu ku, Ağbabıya gələn türk qoşunnarının paşası Xəlit paşanın yanına gəldi.

– Paşam, məni də əsgər götür, ermənnərdən intiqam almax isdiyirəm.

– Yaxşı, yaxşı tüşünüf-daşınıfsanmı?! Namərtdih eləsən, qorxuf qaşsan bilirsən axrın nə olacax?!

– Paşam, mən el yolunda, millət yolunda savaşa gedirəm. Türk oğlu da qanından qorxarmı?! Mana bir at lazımdı, bir tüfəh, eliyəm cəng.

Xalit paşa bu sözdəri eşidən kimi əmr eliyir, Kor Bilala bir yaxşı at, bir də bir osmannı tüfəyi verillər.

## QEYRATI BƏLLİ, ÖZÜ DÜZƏMƏLLİ

Erməni-müsəlman davasında Ağbabalı Hacıabbas oğlu Kalvayı Məhəmməd ağa baxır ki, silah çatışmır, ermənnər də möhkəm silahlı... Arvad-uşax əyax altda qalacax. Pul da yoxdu. Əmə ağa özünü itirmir, Azərbaycan hökumətinə bir məhtuf ya-

zıf silah almaxdan ötrü pul isdiyir. Əmə təvgir töhməkdən də qalmır. Təzə İbişdi qlava ağsakqal Vəliyi yanına çağırtdırır deyir:

– Ağsakqal, indi nə eliyəh, axı xeylax əli silah tutan cavannarımızın tüfəyi yoxdu, pul da qalmıyıf pulnan silah alax. Azərbaycannan cavav gələnə qədər gərəh biz də özümüzü ermənnərdən qoruya biləh.

– Onda eybi yox, qız-gəlinnərin bəzəh şeylərini satıf pul eliyəh. Genə bir qədər pul eliyif, silah alarıx.

– Bu necə olar? Camahat buna pis baxmazmı?

– Qabaxcax biz öz arvaddarımızdan başdıyarıx. Onnarın qızıl-gümüş şeylərini tofluyanda o biri ağalar da bizə baxıf ibrət götürəllər. Qanmıyanı da qandırarıx.

– Yaxşı.

O sahat Kalvayı Məhəmməd ağa əmr eliyir, pütün ağalar məclisə toflaşır. Məclisin şirin yerində Kalvayı Məhəmməd ağa öz arvadını çağırır:

– Ay arvad, bəri gəl, düz ortuya keç. İndi pütün qızıl-gümüşdən olan şeylərini aş, tök ortuya.

Arvad o sahat pütün bahalı şeylərini açıf qoydu ortuya.

Ağalar bunu görəndə mətəl qaldılar. Kalvayı Məhəmməd ağa dedi:

– Ay ağalar, yaxşı bilin, çox çətin vaxt gəlif. Pul yoxdu silah almağa. Siz də gərəh öz əyalınızın qızıl-gümüşünü gətirəsiniz. Onnarı satıf pul eliyənnən sonra bir qədər silah almalıyıx. Qeyrat vaxtıdı. Ermənnər tişinə kimi silahlanıf. Silahsız o gavırrarın qabağında durmax olmaz. Gərəh elə eliyəh ki, tuşman bizi tafdamasın. Qız-gəlinnərimiz əsir-yesir olmasın, arvad-uşax ələ keşməsin. İndi arvadlarımıza, qızdarımıza, gəlinlərimizə qızıl-gümüş lazım dəyil. Özümüz öz namusumuzu, bir də torpağımızı qorumalıyıx. Türkün qeyratı bəlli, özü də düzəməllidi.

## OSMANNI XOFU

Ermənnərin qoşunnarı Zalqa tərəfdən hücuma hazırraşırdı. Elə bu vaxt Hacıabbas oğlu Mahmut ağanın dokuz nəfərrih kəşfiyat dəsdəsiynən başıpozuxlar gəlif çıxdılar. Başıpozuxlar olardı bir qırx-əlli nəfər. Mahmut ağa işi başa tüşüf dedi:

– Bizim dəsdəmiz çox balacadı. Burda ermənnərin minnər-nən əsgəri var. Əmə gərəh biz tüşmənin qabağın saxlıyax. Tez-dihnən qoşun köməyə gələcəh. Gəlin belə eliyəh, başıpozuxlar güllə atmasınnar, əmə bizim əsgərrər güllə atsınnar, yaylım elə-sinnər. Tez-tez də yerrərini dəyişsinnər. Ermənnər Osmannı tü-fənginin, topunun səsini o sahat tanıyıllar. Qorxuya tüşəcəhlər. Ona kimi bizə daldan köməh gələcəh. Əgər bu baş tutmasa son damla qapımıza kimi vuruşmalıyıx.

O sahat başıpozuxlar yaxşıca səngərrədilər. Mahmud ağanın dəsdəsi yaylıma başdadı. Osmannı tüfəyinin səsini eşidən kimi ermənnər qorxuya tüşdülər. Onnar xeylax özdərinə gələ bilmə-dilər. Elə ona kimi Xalit paşa qoşunnan özünü köməyə yetirdi. O, Mahmud ağıyı sağ görən kimi qucaxlıyıf bağrına basdı.

– Vaxtında gəldih, yoxsa Allah bilir nə olacaxdı...

– Heş nə olmazdı, paşam. Osmannı xofu ermənnəri çaş-baş salmışdı.

O sahat Xalit paşa hücum əmrini verdi. Ermənnərin qırılanı qırıldı, qalanı qaçıf dağıldı.

## ADAM VARRIXDAN YOX, DARRIXDAN AĞLIYAR

Bir gün Mağaracıxda-hacısalmannılarda Tanrıverdiyə deyil-lər ki, bə deməzsənmi əmin Kalvayı Səməd çox xəsisin, simicin biridi. Pul deyəndə kişinin laf ağlamağı gəlir. Söz Tanrıverdiyə ağır gəlir. Düz gəlir əmisinin yanına, deyir:

– Əmi, bilmirəm camahat niyə sana simiş, malınıyeməz de-yir? Bu doğurdanmı belədi?

Kalvayı Səməd Tanrıverdiyə baxıf altdan-altdan gülür.

– Mən nə deyirəm, qardaş oğlu. Gəl küpələrə bax, gör bir nə var?

Tanrıverdi küpələrdəki qavırmıya, yağa, beş-altı motala ba-xıf bir şey demir. Əmə genə başını tərpədir. Kalvayı Səməd ba-xır kı, qardaşı oğlu sözdü adama oxşuyur. Deyir:

– A bala, deyən səndə genə söz var.

– Deməh isdiyirəm, əmə...

– Əmə nə?

– Qorxuram xətrinə dəyə.

– De, çəkinmə, bala.

– Deyillər sən qoyunun qıçı qırılanda da uşax kimi ağlıyıfsızdıyırsan.

Bu sözdəri Kalvayı Səməd eşidəndə ucadan bir qəhqəhə çəkir:

– Adam varrıxdan yox, darrıxdan ağlıyar.

## DEKABR AYI DƏYİLMİ?!

Bir dəfə ot biçimi vaxtı bir çoban ağlına gələni danışır, heş kəsə ağzını açmağa aman vermir. Özünü elə görsədir ki, guya bunnan axıllısı nə dünyuya gəlif, nə gələcəh. Axırda yaşdı piçinçilərdən biri həmin çobana deyir:

– Sən çox dünyagörmüş adamsan. Buna hamımız inanırıx, əmə mənim sana bir suvalım var.

– De görüm, bu hansı aydı ot  piçirih?

Çoban qalır belə. Aydan-ildən başı çıxmıyan adamdı, nə desin, nə deməsin. Bir xeylax fikirrəşir deyir:

– Dekabr ayı deyilmi?!

## ARPA YEMƏYƏ GƏLİF, YOXSA TOXUM SƏPBƏYƏ?!

Aclıq vaxtı bir kənddiyi toxum səpbəyə yolluyullar. O, qabağına önnüh bağlıyıf başdıyır toxumlux arpıyı yerə səpbəyə. Əmə arada bir bir qoşam arpa da ağzına atır. Sən demə, buna kənardan qolxoz sədiri göz qoyurmuş. O, yanında durannardan birini çağırıf deyir:

– Əyə, bunu rədd eliyin burdan. Bu at köpəyoğlunu hardan tapıf gətirifsiniz. Bu arpa yeməyə gəlif, yoxsa toxum səpbəyə?!

## AŞ DA QANA DÖNDÜ

Bir kasıf kişi bir gün oğluynan çölə, yanı ot pişməyə gedir. Bir əz ot biçənnən sonra günorta gün tüşəndə kişi kərəntiyi bir tərəfə atıf, oğluna deyir:

– A bala, gə bir əz dincələh. O, surfuyu da da aş, hazır elə. Çörəyi, aşı ağız dadıynan yeyəh.

Oğlan o sahat surfuyu salır, aşı ortuya qoyur, çörəyi də də

onun yanına. Kişi, taxda qaşığın birini oğluna verif deyir:

– Bala, görürsən da, aş duru aşdı. Ye, barabar yeyəh. Əmə aşın divinə çatanda sən qaşığını qoy qırağa.

Oğlan dillənmir. Başdıyıllar ata-oğul yeməyə. Oğlan aşı qaşıxladıxca işdaha gəlir. Qavın divinə çatanda da qaşığı əlinnən yerə qoymur. Kişi bunu görəndə hirsdənir, taxda qaşıxnan oğlunun burnunun üsdünə vurur.

– Bəsdi da, adam balasısan!

O sahat oğlanın burnu qanıyır. Qan axıf qavın içinə tökülür. Kişi əlindəki taxda qaşığı yerə atıf deyir:

– Sən sözə baxmadın. Mən neynim indi, aş da qana döndü.

## ÖKÜZÜ QUYRUĞA DÜŞƏNİN ÖZÜ BOYUNDURAĞA KEÇƏR

Mağarcıq kəndində Namaz kişi güclü, qüvvətli adammış. Bir gün onun güzarı biçin sərnəsinə düşür. Baxır nökərlər arabanı otla yükləyiblər, amma arabanın təkərləri bataqlığa batıb. Kəllər nə qədər güc verir, amma heç nə hasil olmur. Dinməzcə gəlir nökərlərin yanına. Qurşağa qədər soyunub deyir:

– Kəlləri açın, arabaya mən özüm qoşulacam.

– Ay ağa, nə danışırsan?

– Söz güləşdirincə deyiləni yerinə yetirin.

O saat arabadan kəlləri açırlar. Namaz kişi boyunduruğu qaldırır, necə güc verirsə, arabanı dartıb xeyli irəli aparır. Nökərlər gördüklərinə mat qalırlar. Namaz kişi paltarını geyib deyir:

– İndi nə oldu, nə mat qalmısınız? Öküzü quyruğa düşənin özü boyunduruğa keçər.

## SƏN DEYƏN OLMAZ, A KİŞİ!

Bir yolçunun yolu bivaxt bir kəntdən düşür. Baxır qarannıx hər yanı basabasdı. Elə rasdına çıxan qapıyı döyüf əv sahabına qonax olur. Əv sahabı da malını yeməzin, tamahkarın biriymiş. Qərəz, qonağa heş say-çörəh verməh də yada tüşmür. Qonax görür yox, əvdə hər şey var, əmə əv sahabının heş tükü tərpənmir. Qonax əvdəki üst-üsdə yığılmış qavın-qarpıza baxıf dərinnən ah çəkir:

– A qardaş, yorulmuşam. Bir döşəhdən-zaddan verməzsiniz-mi üsdündə yatıf dincələm?

– Niyə, uzan, harda isdiyirsən.

Qonax taxtın üsdünə uzanır. Yalannan özünü yuxuluğa vuruf guya sayıxlıyır:

– Ha budu əv sahabı kəs qarpızı, pıçaxla qovunu ha, pıçax-la...

Əv sahabı, o sahat işi başa tüşüf deyir:

– Sən deyən olmaz, a kişi, sayıqla, ha sayıqla!

## DEDİYİNİ DEDİ, “YEDİYİNİ” YEDİ

Bir arvad çox qarınqulu və tamahkarmış. Üstəlik, çənədən boş olduğundan kişisinin baş-beynini apararmış:

– Eh, daş düşəydi o günə ki, sənə gəldim, arvad oldum. Nə qarnım doydu, nə əynim bitdi. Bu gün, sabah da qıçımı uzadıb öləcəyəm. Nədi, nədi ərim bivecin, axmağın biridi. Qazancı da yox. Arım var, arım var, o da eşşək arısı.

Yazıq kişi ha özünü oda-közə vurur, bəlkə arvad evdə sözü uzatmaya. Olmur ki, olmur. Məsəl var ki, deyərlər: “İt xasiyyəti ni tərgitməz”. Arvad da ucundan tutub ucuzluğa gedir. Bir gün belə, beş gün belə... Amma arvad yenə danışmağından qalmır. Müxtəsər, arvad hər gün dil boğaza qoymur, bir ucdan üyüdüb tökür.

Hə, bir gün yenə kişi işdən gələn kimi arvad süfrə açır. Kişi bismillah eləmək istəyəndə arvadın ağzı açılır:

– Eh, camaat yağ-bal içində, biz də tamarzı qalmışıq hər şe-yə. Acından üzülə-üzülə, suyu süzülə-süzülə dolanırıq. Cındırı-mızdan cinlər hürkür. Sən də adını kişi qoymusan. Sənə kişi de-yənin atasına lə’nət.

– Ay arvad, imkan ver, qoy çörəyimi yeyim!

– Utanmırsan, danışırsan da?! Guya çox qazanclar gətirmi-sən.

Bu sözləri eşidəndə cin vurur kişinin təpəsinə. Görür ev xəlvət, uşaqlar gözə dəymir.

Eləməyib tənbəllik, götürüb çomağı düşür arvadın üstünə:

– Köpək qızı, bir də zəhləmi tökməyəcəksən ki! Elə söz deməyin, belə çomaq yeməyi olar.

Kişi arvadını xub döyüb əyləşir, xörəyini yeyir. Az sonra uşaqlar içəri gəlir. Analarını lal-dinməz görüb təəccüblənirlər:

– Arvada bu gün nə olub, danışmır?

– Daha danışmağa lüzum yoxdu. Ananız dediyini dedi, "yediyini" dedi.

## NƏ ZƏRƏLİ

Biri təzəcə əvlənif səfərə çıxır. Bir də iki-üç ildən sonra geri qayıdır. Kişi əvə gələn kimi baxır əvdə bir yaşında bir uşax var. O, arvadına deyir:

– De görüm, bu uşax hardandı?

– A kişi, Nəzərəlidi...

– Sən nə danışırsan, mən bir şey qanmadım?

Arvad qorxa-qorxa özünü ələ alıf, belə deyir:

– Yanı deyirəm, a kişi, bunun nə xeyri, nə zərəli.

## ADAM DİLİNDƏ DANIŞIRSINIZ KI...

Bir gün Köhnə İbişdə seşki keçirilir. Bir qutuyu götürüf yaşdı adamlardan ötrü əvlərə gedillər. Nobat Şirin qarıgilə gələndə qarı gələnnərə çox qorxuynan baxır. Deyillər:

– Ay arvat, gə səsini sal.

Bu sözdəri eşidəndə arvat az qalır dəli olsun. Öz-özünə deyir: "Əvi yıxılmış sovet hökuməti, dört oğlumu tutuf apardı. Deməh genə mənnən əl çəhmiyif". Odu ku, Şirin qarı gələnnərə hirsdi-hirsdi deyir:

– Oğlannarımı Sovet hökümətı tutuf apardı, bəs deyilmi? İndi səsimi də almax isdiyir?

Gələnnər işi başa tüşüf deyirlər:

– Ay arvat, bax bu daşı bu qutuya salacaxsan.

– Həyə? Belə deyin da! Bir adam dilində danışırsınız kı, mən də başa tüşüm?!

## AĞPAPAQ OĞLAN

Bir qızla bir oğlan sevişirmiş. Amma oğlan çox utancaq imiş. Qız onun fikrini bilmək, ondan söz eşitmək üçün belə deyir:

Ağpapaq, oğlan, bəndə gəl, bəndə gəl,
Mən suya endim, sən də gəl, sən də gəl.

Bir tərəfdən oğlanın utancaqlığı, bir tərəfdən qızın qənirsiz gözəliyi oğlanın dilini bağlayır. Onun nitqi tutulur, ha çalışır bircə kəlmə kəsə bilmir. Qız bir-iki gün gözləyir, görür yox, oğlandan səs çıxmır. O, eləməyib tənbəllik, bir şeyi bəhanə eləyib gəlir oğlanın atası evinə, fikirləşir ki, ara xəlvət olsa, sözünü oğlana deyər, yox, olmasa, qaş-gözlə anladar ki, dinməsən iş işdən keçəcək. Qərəz, qız fikirli olduğundan ha axtarır evin qapısını tapa bilmir, çəpəri dolana-dolana qalır. Sən demə, oğlan kənardan qıza göz qoyurmuş, xoşbəxtlikdən ara xəlvət imiş. Qızın bu hərəkəti utancaq oğlanı dilə gətir. O belə deyir:

Çəpər basma, çəpər basma, dolan yar, gəl içəri,
Bizə mehman, bizə mehman olan yar, gəl içəri.

Qız oğlandan bu sözləri eşidən kimi deyir:

Düşmə gəl dağa-düzə,
Üzünü döndər bizə.
İş içindən iş çıxar,
Atanı göndər bizə.

# V. NAĞILLAR

## KASIVIN NƏFSİ

Varıydı, yoxuydu. Qədər addı bir kişi varıydı, əmə bu kişi elə kirnazıydı daha nə deyim. Dünyuya beləsi gəlməmişdi. Düzdü, Qədər kişi çox varrı - hallıydı, əmə qəpiyi çıxanda elə bil onun canı çıxırdı. Bir gün bunun qapısına bir kasıf kişi gəldi. Bu vaxıt Qədər surfa başında oturuf yeməh yeyirdi. Gördü kasıf gəlif, qaş - qabağını töhdü. Yanı nəyə gəlifsən qoymazsanmı çörəyimizi yeyəh. Əmə kasıf çox acıydı deyin duruxub qaldı. Neyləsin, yazıq acınan oğunurdu. Beçaranın gözü surfada, çörəhdə qalmışdı, kişinin yeməyə tamahı tüşmüşdü. Əmə Qədər buna heş fikir vermədi, kasıva acıxlandı:

– A kişi, niyə qapıda quruyuf qaldın. Qoymazsan bir əz əvimizdə irahat oturuf çörəyimizi yeyəh. Sən tənbəlsən, mən neynim. Sən də kişi deyilsənmi. Çalış, vuruş... Pul-para qazan, daha nə tüşüfsən qapı-qapı.

Qədər belə deyəndə kasıf kişi dərinnən köysünü ötürüf kirimişcə ordan uzaxlaşdı. Qədər yeyif dayanannan sonra görsədiş verdi surfuyu yığdılar. Kişi nə fikirrəşdisə dedi:

– Gərəh yola tədarüh görüm, gecəynən yola çıxacam. Günüz o, bu görüf əsniyir üstümə, nazar yetirir, var-dövlətin bərəkəti qaçar.

Qədərin arvadı nə qədər dedi gəl gecədi getmə, sabax səfərə çıxarsan. Di gəl Qədər razı olmadı. Bəli, Qədər dəvələrini, qatırrarını, atdarını yühlətdi, öz adamlarını götürüf gecəynən yola tüşdü. Gəlhagəl gecənin bir və’dəsi gəlif bir bulağın başına çatdılar. Qədər adamlarına dedi:

– Gəlin burda bir əz dincələh. Heyvannarın yükünü açın, bir əz də Allah verənnən yeyəh, bir çimir də yuxu alax. Sonra yolumuza davam eliyərih.

O sahat karvan dayandı. Qədərin adamları dəvələrin, qatırraрın, atdarın yükünü aşdılar. Sonra surfa salıf bulağın başında oturdular. Ortuya xörəh gələn kimi bir qara ilan bunnarın yanında peydah oldu. Qədər adamlarına kışqırdı:

– Əyə, bunu vuruf öldürün, bizə xata-zad yetirər.

O sahat hərə əlinə nə gəldi tulladı ilanın üstünə. Əmə ilana

heş nə olmadı. İlan elə bil bir əz də yekəldi. O, başını yuxarı qaldırıf dedi:

– Qədərsən, nə zəhrimarsan. Bu surfa mənim olacax, sana burdan bir tikə də verməərəm.

Qədər ilannan adını eşidəndə quruyuf qaldı bu işə ki, əyə Allahın ilanı mənim adımı hardan bilir. Əmə sizə deyim ilannan. Həyə, ilan sözünü qurtaran kimi surfuyu elə bircə dəfiyə uddu. Qədər işi belə görəndə bərk qorxuya tüşdü. İlan Qədərə dedi:

– A kişi, acınnan ölürəm, laf ürəyim gedir. İndi gərəh mana sən bir yaxşı dəvə, bir yaxşı at, bir də qatır verəsən yeyəm, yoxsa səni diri-diri udaram.

Qədər istədi bir ilanın dedihlərini verməsin. Əmə gördü ilan ağzını ayırıf, özü də necə. İlanın ağzının içi işıx saçır. Baxdı əyə bunun ağzı ucu-bucağı görünmüyən kaha kimidi. Qorxusunnan tir-tir əsdi kişi. İlan irəli gəlib qabaxcax bir dəvəyi, sonra bir atı, sonra bir tütün heyvannarın hamısını bir dəfiyə uddu. Əmə deyəsən doymadı deyin heyvannarın yühlərini də uddu. İndi xəbər verim Qədərdən. Qədər tamahkar adam qalmışdı belə... İlan hər dəfə bir şey udduxcah o da elə bil ölüf dirilirdi, o dünyuya gedif gəlirdi. Bəli, ilan hər şeyi uduf kutarannan sonra Qədərin adamlarına dedi:

– Siz çıxıf əvinizə gedin. Mənim siznən işim yoxdu, əmə Qədər qalsın, mənimki onnandı.

O sahat Qədərin adamları çəkilif getdilər. Qaldı Qədər dizdəri əsə-əsə. İlan irəli gəlif onun üzünə bir lomba tüpürdü. Elə bil Qədərin üzərinə neçə yerdən iynə, biz batırdılar, suvatı elə ağrıdı kı, kişi özünü itirif yıxıldı. Özünnən getdi. Ayıldı nə... çılçılpax, lüt-üryan qalıf, paltarı yoxdu. Genə həmin ilan duruf yanında. İlan Qədərə dedi:

– Gərəh sənin ağ gövdəni qara tulux eliyəm, yoxsa səni buraxmaram.

İlan başdadı quyruğuynan Qədəri döyməyə. Qafqara tulux eliyif yıxdı yerə. Kişi özünnən gedəndə ilan onun üstünə su töküf ayıltdı Qədəri.

– A kirnaz kişi, kirnazdıx yaxşıdımı. Get, səni öldürərdim, əmə səni beş yaşındakı uşağına bağışdıyıram. Bir də sən olasan gecə yola çıxasan, özün yeyəsən, başqası baxa vermiyəsən.

Qədər quruyuf qaldı. İlana heş nə deyə bilmədi.

– Bə sən birmirsənmi mən kiməm.

İlan belə deyəndə kişi qorxa-qorxa ona baxdı.

– Mən nə bilim.

– Mən sən qapınnan qavaladığın kasıvın nəfsiyəm. Bir də tobalatma elə, belə iş tutma.

– Yaxşı.

– Onda gözdərini yum.

Qədər gözünü yuman kimi özünü itirdi, huşu getdi. Bir də özünə gəldi ki, öz əvindədi, əmə arvadı üstündə ağı deyif ağlıyır. Bu özünə gələndə arvadı sevindi:

– A kişi, bə mən dedim ölüfsən. Bə karvan necoldu, adamlar hanı.

– Heş nə demə. Daha karvan-zad yoxdu.

– Bə cümü gövdən qafqaradı. Sana nə oluf.

– Onu da xəbər alma. Əmə dünən bizə bir kasıf gəlmişdi ha...

– Həyə, sözünü kəsmə, de a kişi, de görüm nə isdiyirsən.

– Onun əvinə çoxlu pul-para, yeməh-işməh yolla. Daha mən gördüyümü görmüşəm, bildiyimi bilmişəm. Bir də qələt eliyərəm tamah eliyəm.

Arvad o sahat kişisinin dediyini yerinə yetirdi. O günnən Qədər kirnazdığını yerə qoydu. Hamıya əl tutdu, köməh elədi. Ona görə də ömrü uzun, işi yaxşı, özü hörmətdi oldu. Xata-bala, azar-bezar onnan uzax oldu. O yeyif-içif ömür sürüf yerə keşdi. Siz də yeyif-içif dövrə keçin, mənim əzizdərim.

## DAŞ-AĞAC

Biri varıydı, biri yoxuydu. Dədə Aral addı bir kişi varıydı. Bu kişi eldə-obada ağsaqqal, başbilən adam sayılırdı. Di gəl belə bir kişinin əvladı yoxuydu. Bir gün genə Dədə Aral öz əyalıynan əvdə oturuf söhbət eliyirdi. Birdən nə təhər oldusa arvad kövrəlif başdadı ağlamağa. Dədə Aral dedi:

– Ay arvad, niyə ağlıyırsan. Şükür heş nədən korruğun yoxdu. Sana genə nə oluf gözünün yaşı əlindədi.

– A kişi, yaşımız ötüf keçir. Bə bizim axırımız nə olacax. Bir zürüyyətimiz yoxdu ku, biz ölənnən sonra ocağımızı yandıra.

Arvad belə deyəndə kişi də dərin fikrə getdi. Xeylax keşdi

aradan, əmə heç biri danışmadı. Əmə Dədə  Aral nə fikirrəşdisə arvadına dedi:

– Ay arvad, mən Göy dağa gedirəm. Ora müqəddəs yerdi. Gedim tanrıya duvamı eliyim, bəlkə tanrı bizə bir zürüyyət ver-di.

Arvad dillənmədi. Dədə Aral gəldi Göy dağa. Qara Qayay-nan Ceyran qayasının arasındakı bir yerdə əlini göyə açıf tanrıya duva elədi:

– Tanrı özün bilirsən ki, mən sənin  altında heş vaxıt bir pis iş tutmamışam... Həməşə adamlara yol görsədif məsləhət elə-mişəm. Dünya varı gözümü tutmuyuf. Haqqın yoluynan getmi-şəm. İndi mənim duvamı qəbul elə, bax bu boz qayanın içinnən mana, bir əvlət yetir, əmə sonsuz, məğmun eləmə məni.

Kişi duva eliyif kutaran kimi baxdı boz qayadan qəribə bir səs gəldi:

– Ay Allah, ölürəm, vay, vay... Sancı öldürür məni.

Kişi o sahat işi başa tüşdü, gözdədi. Daşa arxasını çəvirdi. Azmı keşdi, çoxmu keşdi, bir uşax səsi eşidif Dədə Aral geri döndü. Baxdı boz qayanın ortasınnan qan tökülüf, bir də əl boy-da bir ağaş parçası tüşüf. Səs də ağaşdan gəlir. Dədə gedif bir avış torpax gətirif daşın üstünə tökən kimi qan qurudu. Əmə ağaş parçasının səsi kəsilmədi, o, balaca uşax kimi ağlıyırdı. Birdən boz qayanın yuxarısınnan süd rəhli bir su axmağa başda-dı. Dədə Aral o sahat ağaş parçasını götürüf qoydu suyun altına. Bir də baxdı ki, ağaş parçasının səsi kəsildi. Tez onu ətəynə pü-küf üzünü tutdu göyə.

– Tanrı, verdiyinə çox şükür.

Nolacax, Dədə Aral gəldi əvə. Arvad baxdı kişi ətəyi dolu gəlif, səvindi. Dədə Aral arvadına dedi:

– Ay arvad, beşiyi bəri qoy. Tanrı bizə bir əvlət verif. Onu bələ, qoy oruya bir əz yatsın.

Arvad irəli gəlif gördü nə... bir parça ağaş... Daha heş nə de-mədi. Ağacı bəliyif qoydu beşiyə. Kişi o sahat Göy dağa gedif boz qayanın yuxarısınnan axan süd rəhli sudan dolduruf gətirdi. Beşihdə uşax səsi gələn kimi sudan bir qavda qoydu bələyin böyrünə. Ağaş parçası o suyu içif kiridi. Belə-belə ağaş parçası böyüyüf yekəldi. Dədə Aral onun adını Daş-ağaş qoydu. Daş-ağaş elə ki, on-on iki yaşına çatdı döyüşmədiyi, tutaşmadığı oğ-

lan uşağı qalmadı. Hamının gözünün odunu aldı, onnar daha Daş-ağaşdan qorxmağa başdadılar.

Bir gün Dədə Aral otumuşdu qapıda, özünü günə verirdi. Bir də baxdı dağ boyda bir kişi gəlir. Dədə gələni o sahat tanıdı. Bu gələn Kələmyeyən Adamyarımdı. Bu adam bir oturuma yirmi-otuz kələm yeyif ləzzət alardı. Həlbət ki yeyəndə yirmi-otuz qalın çörəh, bir qırx-əlli yuxa, isdi xörəh də öz yerində. Bəli, Dədə Aral Kələmyeyəni tanımağına tanıdı, əmə onun yühlü qatırrarı, dəvələri, atdarı, həm də adamları varıydı. Bə onnar necolmuşdu. Dədə Aral Kələmyeyəni təh görüf çox təəcüf elədi. Kələmyeyən Adamyarım gəlif Dədə Aralın barabarına çatanda ona salam verif dedi:

– Nə var, nə yox, ay dədə?

– A Kələmyeyən, sən de görüm şeylərin, adamların, dəvələrin-zadın hanı?

– Dədə, xəbər alma, dədə, alan aldı.

– Sənnən də şey alan olar?! Bu necə oluf. Kim aldı, harda aldı, danış.

– Dədə, məni ki, yaxşı tanıyırsan. Gözdən iti, əldən iti, elə işdahdan da itiyəm. Di gəl Sarıqamış tərəfdə bir Dəli Əmən addı biri peydah oluf, kəsif yolun ağzını. Ona rast olan kimi mənnən çox yekə-yekə danışdı. İstədim cavavını verim, başıma elə bir əmud vurdu ki, axlımı itirif atdan yerə yıxıldım. Dəli Əmən var-yoxumu aldı, adamlarımı da özünə qulluxcu-nökər elədi. Mən də beləcə yəyax tuşdum yola, gəlif burya çıxdım.

Dədə Aral daha heş nə demədi. Kələmyeyənə yavannıx, pul-para verif onu yola saldı. Əmə bu əhvalat Daş-ağaca çox təsir elədi deyin Dədə Arala dedi:

– Ata, izin ver gedim mən də bir Dəli Əmənnən gücümü sınıyım.

– Hələ sana tezdi. Sən gəl belə elə. Get meşəyə, orda çox yekə bir palıt ağacı var, onu taf. Yanında duruf ucadan səsdən.

– Ay Sarıqız, ay qohum, ay bibi, mana bir az ağaş qabığı ver.

O sahat Sarıqız əlində qızıl ilan düz üstünə gələcək. Yerindəcə dur, irəli, nə geri getmə. Onda Sarıqız sana bir parça ağaş qabığı verəcəh. Onu alan kimi yanıma gəti, o ağaş qabığı sehirridi. Bunu heş kəsə demə ha.

– Yaxşı.

Daş-ağaş o sahat meşəyə getdi. Gəzif Dədə Aral deyən palıt ağacını tafdı. Sarıqızı çağıran kimi baxdı bir ucaboylu, sarıbəniz bir arvad əlində qızıl ilan peydah oldu. Əmə bu vaxıt palıt ağacı dilləndi:

– A qız, bu bizim qohumlardandı, isdədiyini ver, peşman eləmə.

Sarıqız irəli gəlif Daş-ağaca bir parça ağaş qabığı verdi. O, ağaş qabığını götürüf gəldi Dədə Aralın yanına. Dədə Aral qabığı götürüf bir qazanın içinə saldı, üsdünə xeylax su töhdü, sonra Daş-ağaca dedi:

– Bala, indi bunu sənin üstünə tökən kimi mən üzümü o yana çevirəcəm. O sahat sənin üstündəki ağaş qabığı çıxacax. Paltar qoymuşam, dəyişihdi, geyin. Qabığı da götürüf torpağa basır. Eşitdinmi?

– Yaxşı.

Dədə Aral Daş ağacın başına suyu tökən kimi doğurdan da onun bədəninin üstündəki ağaş qabığı qopuf aşağı tüşdü. Oğlan lüt-üryan oldu. O o sahat Dədə Aralın onun yanına qoyduğu paltarı geyindi. Qabığı da götürüf torpağa basdırdı. Dədə Aral baxdı Daş-ağaş tüşdü adam qılığına, tanrıya çox şükür elədi. Dedi:

– İndi get içəri, oğul. Mənim yirmi batmannıx gürzümü, qırx batmannıx şeşbərimi götür get... Get Dəli Əmənin qabağına, əmə ona fursat vermə, yoxsa o səni cinnəndirər, əlinnən xata çıxar. Elə ona çatan kimi birinci sən vur onu. O yıxılan kimi onun dəmir papağını götür o, sehirridi. Onu başına qoyan kimi gücün birə beş artajax. Bunnan sonra Dəli Əmən sana tabe olacax. Onu öldürmə ha, o çox güjdü, quvatdı adamdı. Bu qoy ona dərs olsun, bir də yol kəsif quldurrux eləməz.

– Yaxşı, ata.

Daş-ağaş gəldi əvə. Dədəsinin dediyi gürzü də, şeşbəri də götürdü. Onnarı götürüf gəldi Kələmyeyənin dediyi yerə. Baxdı əyə yolu azman bir adam kəsif. Vallah, vallah bunun qaraltısı, xofu adamı basır. Gözdərinnən qan daşan bu adamın çox heybətdi suvatı var, üsdəlih bədəni lay tufar, boyu minara kimi. Əmə Daş-ağaş heş qorxuf pəsinmədi. İrəli yeridi. Salamsız-kəlamsız əlindəki gürzü onun başına elə çaldı kı, Dəli Əmən gurultuynan yerə sərildi. O sahat Daş-ağaş onun başının üsdünü aldı. Dəmir dəbilqiyi götürüf başına qoydu. Dəli Əmən işi belə

götürüf dizi üsdə qaxdı, əmə Daş-ağaş ona toxunmadı:

– Qalx ayağa, əmə bir də yol kəsif adam soyma. Bu səni kimi mərdə, igidə yaraşmır. Gəl dost olax, arxa arxıya verif dolanax.

Dəli Əmən Daş-ağacın dediyinə razı oldu. Əlini irəli uzatdı, əhdi-peyman bağladılar, dost oldular. Daş-ağaş Dəli Əmənin dəbilqəsini geri qaytardı. Gəldilər Dədə Aralın yanına. Dədə Aral Dəli Əmənə dedi:

– Oğul, bir də yol kəsif, adam soyma. Dəlininki pəhlivannıxdı, kişilihdi.

Dəli Əmən dillənmədi. Suçluydu axı. O vaxıtdan Dəli Əmənnən Daş-ağaş qardaş oldular. Beləcə ömür sürüf dövran keçirdilər. Allah sizdəri də xoşbəxt eləsin.

## CANAVAR OĞLU

Biri varıymış, biri yoxuymuş, keçmiş zamanlarda bir kasıf kişi varıymış. Bir gün bu kişi dəyirmana dən aparır. Dəni üyüdüb geri qayıdanda yolda qabağını bir dişi canavar kəsir. Kişi çox yalvarır ki, onu buraxsın, amma canavar razı olmur, bunu zornan qabağına salıb gətirir öz mağarasına. Kişiyə deyir:

– Ey bəni-insan, bunnan belə daha mənnən yaşıyarsan.

Kişi yazıx daha neyniyə bilərdi. Çar naçar razı oldu. Canavar günüzdər ov ovlamağa gedərdi. Gedəndə mağaranın ağzını bir yekə dəyirman daşıynan xapıyardı. Gecələri də qadın cilidinə düşüb kişiynən bir yastığa baş qoyardı. Beləcə bir müddət yaşadılar. Bu kişinin canavardan bir oğlu oldu. Daha kişi mağarada tək darıxmırdı. Elə oğluynan gününü keçirdirdi. Amma uşax başqa cür uşağıydı. Elə doğrudan da qurd oğlu qurduydu. Əlini nəyə atırdısa ufam-ufam olurdu. Oğlan ilbəil yox, günbəgün, saatbasat böyüyürdü.

Bir gün canavar genə ova getmişdi. Kişi mağaranın bir küncündə uzanıb yatırdı. Gün günortaya qaxanda mağaranın ağzındakı deşikdən içəri bir şüa düşdü. Şüa düz kişinin kürəyinə düşmüşdü. Birdən canavar oğlunun gözü kişinin kürəyinə sataşdı. Elə bildi ki, bu bir vəhşi heyvandı-nədisə dədəsini yemək istiyir. Kişinin kürəyinə alaha bir yumruğ ilişdirdi. Kişi yuxudan dik atıldı. Özünə gəlib soruşdu:

– Oğul, sən məni niyə vurdun?

Canavar oğlu dedi:
– Nədisə bir şey səni yemək istiyirdi. Odu, bax, vurdum yerə düşdü.
Kişi məsəliyi bildi. Axı canavar oğlu dünya görməmişdi. Nə bilirdi gün nədi, ay nədi? Gözünü açannan gördüyü bir bu mağaraydı, bir də anasıynan dədəsi. Kişi dedi ki, ay oğul, anan ləçər bizi bu mağarada dustaq eliyib. Eşikdə dünya var, gün var, şəhərrər, kənddər var.
Canavar oğlu soruşdu:
– Bə onda niyə biz o dünyaya çıxmırıq?
Kişi dedi:
– A bala, anan mağaranın ağzına dəyirman daşı qoyur. Ona kimin gücü çatar ki, biz də burdan çıxa bilək.
Elə ki canavar oğlu bu sözü eşitdi, gəldi mağaranın ağzına. İkicə barmağıynan daşı itələdi anarı. Eşiyə çıxıb dəyirman daşını bir əliynən elə tulladı ki, allah bilir hayana düşdü. Dedi:
– Dədə, bax indi harya istiyirsən, orya gedək.
Kişi dedi:
– Oğul, bizim burdan çıxmağımız indi anana agah oldu. Gəlsə ona neyniyə biləcik, genə qaytaracax geri.
Canavar oğlu dedi:
– Onnan qorxma, mən özüm onun cavabını verərəm.
Doğrudan da onnarın mağaradan çıxmağı canavara agah olmuşdu. Tez özünü yetirib qabaxlarını kəsdi ki:
– Kimdi sizi buraxan, tez dönün geri.
Canavar oğlu dedi:
– Ana, sən bizi qaytara bilmiyəcən, yaxşısı budu qoy xoşduxnan gedək. Yoxsa zora qalsa sənnən ötrü pis olar.
Canavar, oğlundakı gücü-qüvvüyü yaxşı bilirdi. Odu ki, bir söz deyə bilmədi. Bircə onu elədi ki, belinə bağladığı qayışı açıb oğluna verdi, dedi
– İndi ki, gedirsən, ala bu qayışı bağla belinə, onda gücün yeddi qat artacax. İşdi, əyər bir çətinniyə düşsən qayışı üç dəfə yerə vur, harda olsam köməyinə çataram.
Bunu deyənnən sonra bir-biriynən halal-hümmət elədilər. Kişi canavar oğlunu da götürüb gəldi bəhərin qırağındakı köhnə daxmasına. Uçuq-çöküyünü düzəldib oğluynan barabar burda yaşamağa başladı.

Elə sabağısı gün kişi künc-bucağı töküşdürüb köhnə baltasını tapdı. Qəzildən də bir örkən toxudu. Oğlunu yanına alıb getdi meşiyə odun qırmağa. Ancax kişinin əzəlki gücü yoxuydu, qocalıb əldən düşmüşdü. Bir odunnux üçün bir saat əlləşirdi. Canavar oğlu da öz-özünə oynuyurdu, orya-burya qaçırdı. Axırı bezdi, atasına yaxınnaşıb dedi:

– Dədə, gəl gedək evimizə.

Kişi dedi:

– Yox, oğul, axı mən gərək axşama heç olmasa bir şələ odun qıram.

Canavar oğlu soruşdu:

– Odun qırmax nəyə lazımdı ki?

Kişi dedi:

– Lazımdı, bala. Biz odunu aparıb bazarda satmalıyıx. Pul qazanıb çörəyə verməliyih ki, ac qalmıyax.

Canavar oğlu dedi:

– Dədə, əyər odun qırmax belədisə, onda bir geri dur görüm.

Bunu deyib düşdü meşənin canına. Əlini hansı ağaca atdısa köklü-köməşdi çıxartdı. Bir su içim saatda dağ boyda ağac qalaxladı. Belindən anasının qayışını açıb yığdı arasına, şələləyib atdı dalına. Bunu görən kişinin gözünə işıx gəldi. Odunnarı bazara gətirib yaxşı pula satdılar. Yemək-içmək alıb evlərinə döndülər. Beləliknən gün-güzərannarı düzəlməyə başladı.

Bir dəfə də meşədə odun qırarkən qəribə bir ağaca rast gəldilər. Bunun üzü ağacıydı, özəyi dəmir. Özü də adi dəmir döyüldü, ildırımnan törənmişdi. Kişi dəmiri çuxasına büküb əvvəlcə getdi bir ustanın yanına. Ucunnan kəsdirib bir biz düzəltdirib qoydu cebinə. Sonra başqa bir ustanın yanına getdi. Dəmiri verib onnan yaxşı bir qılınc düzəltməyini istədi, qabağına da bir xışma qızıl tökdü. Usta dedi:

– Bu cür poladdan şahlara layıx qılınc çıxar. Üç günnən sonra gələrsən.

Kişi ustanın dediyi vaxt gəldi qılıncın dalıcax. Amma ustanın qılınca gözü düşmüşdü. Əvəzinə başqa bir qılınc gətirdi. Kişi cebindən bizi çıxardıb qılınca tutdu. Biz poladın bu yanınnan girib, o yanınnan çıxdı. Kişi dedi:

– Usta, sənə dedim qılınc gətir, demədim xəçirkət ver.

Usta gördü ki, kişiyi allada bilmiyəcək, əsil qılıncı çıxardıb

verdi. Kişi bizi qılınca hər nə qədər sıxdısa, heç iz də salmadı. Qılıncı götürüb gəldi, büküb bir yanda gizlətdi.

Amma onu da deyim ki, canavar oğlu bir yerdə duran döyüldü. Küçədə-bazarda elə uşaq qalmamışdı ki, ya başını yarmasın, ya qol-qıçını sındırmasın, ya da bir xətər yetirməsin. Odu ki, bunnardan padşaha gündə neçə şikat gedirdi. Neçə dəfə kişiyi divana çağırtdırıb, hədə-qorxu gəlmişdilər. Di gəl canavar oğlu xəsiyətini əldən qoymurdu ki, qoymurdu. Yaxşı deyiblər, qurd xisləti dəyişməz. Axırı iş o yerə çatdı ki, padşah fərman verib bunnarı öz torpaxlarınnan çıxartdı. Artıx canavar oğlu böyüyüb həddi-buluğa çatmışdı. Elə bir pəhlivan olmuşdu ki, dağa yapışsa yerinnən oynadardı. Bunnar dədə-baba yola rəvan oldular. Az getdilər, üz getdilər, gəlib geniş bir çəmənniyə çıxdılar. Çəmənniyin ortasında bir bulax varıydı. Kişi dedi:

– Oğul, yan-yerdən çır-çırpı yığ ocax qalayax, burda bir az dincimizi alax.

Canavar oğlu çırpı yığanda baxıb gördü ki, yarıya qədər torpağa batmış bir dəyirman daşı var. Yaxına gələndə neçə il bunnan irəli mağaranın ağzınnan götürüb tulladığı daşı tanıdı. Sevincək torpaxdan çıxardıb qoluna saldı, gəldi atasının yanına:

– Ay dədə, bax gör nə tapmışam. Qılıncım varıydı, gürzüm yoxuydu, bu da mənim gürzüm.

İndi bunnar burada dincəlməkdə olsunnar, sizə deyim Qız pəhləvannan. Bütün bu həndəvər Qız pəhlivanın hökmü altındaydı. Onun qorxusunnan quş-quşduğuynan bu tərəflərə qanat sala bilməzdi. İndiyə kimi neçə pəhlivannar basmış, boyunnarını vurub kəllələrdən uca bir minarə tikdirmişdi. Tək bir baş çatmırdı ki, minarə tamam olsun. Elə əyləşmişdi küləfrəngidə, bir də qoruxçular xəbər gətirdilər ki:

– Xanım, muştulux! Minarə tamamlandı. Bulağın başında bir kəlpeysər böyrünü verib yerə.

Qız pəhlivan o saat əmr etdi ki, kimdisə gedib çağırsınnar. Bir nəfər itiayax daban aldı bulağın başına. Canavar oğlu böyrünü yerə verib uzanmışdı. Üzünü ona tutub hikkəynən dedi:

– Dur düş qabağıma, Qız pəhləvan sənə böyük iltifat görsədəcək, başını minarənin lap yuxarısına qoyacax.

Canavar oğlu dedi:

– Qulaxlarım yaxşı eşitmir, bir az yaxın gəl görüm, nə deyir-

sən?

Qoruxçu irəli yaxınnaşdı. Canavar oğlu əlini atıb onun qulaxlarını, burnunu qopardıb qoydu ovcuna, dedi:

– Apar bunnarı ver dediyin pəhlivana.

Qoruxçu üz-gözü qan içində döndü geri. Qız pəhlivan əhvalatı örgənib bərk qeyzləndi. Dava libasını geyinib özünü yetirdi bulağın başına, Canavar oğluna yaxınnaşıb dedi:

– Ey anası vayına oturmuş! Qoruğuma iznsiz girdiyin bəs döyül, hələ qoruxçuma da əl qaldırırsan? Çıx meydanıma, zərbidəstimi sənə görsədim.

Canavar oğlu ayağa durub gürzünü keçirtdi qoluna, qılıncını sıyırıb dedi:

– Mən hazır, de görüm, nə sayax vuruşacıx?

Qız baxdı ki, bunun bir qılıncı var, nəyə vursa iki şaqqa eliyər, qolundakı daşı da heç yeddi pəhlivan yerdən götürə bilməz. Amma özü natarazın biridi, elə bir heç törpü görmüyüb. Fikirləşdi ki, qurşax tutsun, bəlkə fənd işlədif yıxa.

Xülasə, əsləhəni bir tərəfə atıb yapışdılar bir-birindən. Qız pəhləvanlıx elminin bütün fəndlərini işlətdi. Canavar oğlunu yerinnən tərpədə bilmədi. Axırda Canavar oğlu bir nərə çəkib qızı vurdu yerə, qılıncı sıyırdı ki, başını kəssin. Qız bir ah çəkdi. Canavar oğlu dedi:

– Ey pəhlivan, bir qaşıx qanınnanmı qorxdun?

Qız dedi,

– Yox, onnan qorxmuram. Bir əhd eləmişdim, ona çata bilmədim, odu ki, ah çəkdim.

Canavar oğlu dedi:

– Nə diləyin var, de, söz verirəm yerinə yetirəm.

Qız dedi:

– Nə əhd elədiyimi sənə deyərəm, ancax əvvəlcək gərək başımnan tuğulğanlı, sinəmnən də zirehi çıxardasan.

Canavar oğlu onun başınnan tuğulğanı çıxartdı. Qırx qulac hörük töküldü qızın çiyinnərinə. Sinəsinnən zirehi açdı: şux məmələr boy verdi. Canavar oğlu arvad-kişi nə olduğunu bilməzdi. Elə-belə duruxan kimi oldu. Bayaxdan bir tərəfdə gözləyən atası işi belə görüb soruşdu:

– Niyə duruxdun, oğul?

Canavar oğlu dedi:

– Dədə, axı bu heç bizdərə oxşamır.

Kişi dedi:

– Bu qızdı, bala, İndi soruş gör, əhdi nə imiş?

Qız dedi:

– Mən əhd eləmişdim ki, hər kəs məni yıxsa, ona arvad olam.

Kişi dedi:

– Qılıncı sal aşağı, bala. İndi ki, söz veribsən, sözünün üstündə dur.

Canavar oğlu qızın əlinnən tutub qaldırdı. Qız onun əlinin altınnan keçib, sədaqət andı içdi. Burdan yığışıb gəldilər Qız pəhlivanın imarətinə. Qız pəhlivan Canavar oğluna ərə getdi, qızın sarayında yaşamağa bina qoydular. Bunnar bir-biriynən çox mehriban dolanırdılar. Beləcə bir müddət yaşadılar. Bunnarın bir qızı bir oğlannarı da oldu. Canavar oğlu gündüzləri ova gedər, axşamları qayıdardı. Qızın şəklini də, çəkdirib qoymuşdu cibinə. Darıxanda tez-tez çıxardıb baxardı. Necə oldusa bir dəfə şəklə baxanda boğanax bunu əlinnən götürdü, bir su içim saatda gözdən itirdi. Canavar oğlu çox pərişan oldu. Kor-peşman qayıtdı, əhvalatı qıza danışdı. Qız dedi:

– Bir şəkildən ötrü kefini pozma. Bir ayrısını genə çəkdirərik.

Ancax indi gör şəkil nə oldu. Boğanax şəkli hərlifib-fırlıyıb gətirdi bir şəhərə. Padşah bağçada gəzirdi, gördü ağaca bir kağız ilişib. Götürüb baxdı. Gördü bu bir qızın şəklidi. Amma bu elə bir qızdı ki, dünyada tayı-bərabəri yoxdu. İxtiyarı əldən verdi. Şəkli vəzirə verib dedi:

– Vəzir, sənə qırx gün möhlət. Axtarıb bu şəklin sahabını tapmalısan. Tapmasan, qırx birinci gün boynun fərmandı.

Vəzir padşahdan buyruq alan kimi dörd bir yana çaparrar göndərdi. Qırx günün tamamında hər şeyi yerri-yataxlı örgəndi. Padşahın hüzuruna gəlib dedi:

– Qibleyi-aləm sağ olsun, şəkil Qız pəhlivanın şəklidi, əmrinə müntəzirəm.

Padşah dedi:

– Əmrim budu ki, qoşunu hazırra, belə bir qız padşahın hərəmxanasında olmalıdı.

Vəzir dedi:

– Padşah sağ olsun, o qız bir pəhlivanın hərəmidir, adına Canavar oğlu deyirlər. İldırım qılıncnan yetmiş putdux gürz onun silahıdı. Zora qaldısa ona bata bilmiyəcik. İzn ver tədbir işlədək.

Padşah dedi:

– İzndi, tədbirini gör, ancax genə qırx gün vaxtın var.

Vəzir o saat buyrux verdi, şəhərdə nə qədər küpəgirən qarı varıydı, hamısını hüzuruna yığdı. Məsəliyi olannara danışdı. Qız pəhlivanın beynini yeyib yoldan çıxardana dünyalar xələt vəd elədi. Ancax Canavar oğlu adını eşidən qarılardan heç biri bu işi boynuna götürmədi. Axırda iprəmiş bir qarı dedi:

– Mənə iki ağırım qədəri qızıl ver, bu işi düzəldim. Bir ağrını bəri başdan istiyirəm.

Vəzir xəzinədara əmr elədi, qarıya bir ağırıcax qızıl verdilər. Qarı dedi:

– Vəzir, otuz doqquz gün keçər, qırxıncı gün məni gözdə.

Qarı elə ordanca küpünə minib puçunu burdu, düz Canavar oğlu ilə qızın imarətinin yanında yerə endi. Küpü bir tərəfdə gizlədib taytıya-taytıya qəsrə yaxınnaşdı. Canavar oğlu ovdaydı. Qız isə darıxdığınnan qapıda-bacada hərrənirdi. Bir də baxdı ki, bir qarı buna sarı gəlir. Qabağına yeriyib dedi:

– Qarı nənə, sən hara, bura hara? Hardan gəlib, harya gedirsən?

Qarı özünü tülkü ölülüyünə vurub dedi:

– Bıy, səni ağ gün görəsən, allah yığbalını versin! Kimsəsiz qarıyam, orda-burda sadağa yığıb başımı dolandırıram.

Qız dedi:

– Qarı nənə, allah səni mənə yaxşıca yetirib. Mən də təkcə darıxıram. Gəl bizdə qal, mənə qulax həyanı olarsan.

Elə qarının hərrədiyi də buydu. Tezcə dedi:

– Belə qadan düşsün qarı nənənin ürəyinə! Bıy, a qız, səni kimi gözəli tək qoymax özü böyüh günahdı. Sənin darıxmağına razı olan gərək qanmaz heyvan ola. Nişannın da varmı?

Qız dedi:

– Var, qarı nənə, nişannım Canavar oğludu.

Qarı dedi:

– Deyirəm axı, elə mən deyəndi. Yaxşı, nənə sənə qurban, qallam yanında, gəldən-getdən danışaram, qulağının pası açılar.

Qız qarını aldı içəri. Axşam Canavar oğlu ovdan qayıtdı, gör-

dü evdə bir qarı var. Soruşdu ki, bu kimdi, Qız dedi:

– A Canavar oğlu, bu bir kimsəsiz qarıdı. Razı ol, yanımda qalsın, darıxanda qulax həyanım olsun.

Canavar oğlunun qarıdan gözü su içmədi, ancax qızın könlünü sındırmamax üçün dedi:

– Nə deyirəm, ürəyin istiyirsə qoy qalsın.

O günnən qarı qaldı onnarda. Hər allahın günü başdadı qızın beynini yeməyə ki, bəs, sənin kimi gözəl şahların xörəyidi, Canavar oğlu nədi axı, adam kimi qılığı yox, padşah kimi şıqqı yox, sənin qədrini hardan biləcək. Arvadın axlı topuğunda olar deyiflər. Belə-belə bu qarı qızın saqqızını oğurradı. Qarının yağlı dilinə aldanan qız bir gün onnan soruşdu:

– Qarı nənə, hamısını düz deyirsən, amma neynim ki, qismətim daha belə gəlib. İnnən belə məni nə şahlar-şahzadələr istiyər, nə də mən canımı Canavar oğlunun əlinnən qurtara bilərəm.

Qarı sevindiyinnən mamanı oynadı, dedi:

– Bunu çoxdan de da. Belə səni elə bir padşah istiyir ki, hökmü məğribən məşriqə keçir. Razı ol, səni eliyim məlikə, dünyaya hökm elə.

Qız dedi:

– Yaxşı, tutax ki, buna mən razı, oldum bə Canavar oğluynan neyniyəcik?

Qarı dedi:

– İndi qulaq as mənə. Axşam Canavar oğlu gələndə əzilib-büzülərsən, deyirsən ki, məni çox istəmirsən. Sonra darıxdığını mahna tut, elə et ki, sənnən aşıq-aşıq oynasın. Şərti də belə qoy ki, kim udsa, uduzanın əl-ayağını bağlasın, görək aça biləcəkmi. Beləliknən, örgən gör, onun əllərini nəynən bağlamax olar ki, qıra bilməsin. Elə ki, bunu örgəndin, əllərini bağlayarsan. Mən də o vaxta kimi padşahı qoşunuynan çağırıram, pusquda durarlar. Onnan sonrası hasandır.

Bunu deyib, qarı küpünə mindi, getdi xəbərə.

Hə, axşam oldu, Canavar oğlu ovdan qayıtdı. Əl-üzünü yudu, çörəkdən-zaddan yedi. Bir əz də uşaxlarını oynatdı. Amma altdan-altdan fikir verib, gördü ki, arvadının halı hal deyil. Gecə uşaxlar yatmağa gedənnən sonra Canavar oğlu soruşdu:

– Olmasın azar, xanım, niyə belə fikirrisən?

Qız dedi:
– Fikirri olmuyum neyniyim? Sənə nə var, hər gün çıxıb gedirsən, mən təkcə qalıram. Daha darıxmaxdan vərəmləmişəm. Yaqın sən məni çox istəmirsən.
Canavar oğlu dedi:
– Bilirəm, bu sözdəri ürəkdən demirsən, elə-belə acığını tökürsən. Yaxşı-yaxşı, de görüm, neyniyim ki, eynin açılsın?
Qız dedi:
– Həyə, ay Canavar oğlu, düz deyirsən, sözüydü, ağzıma gəldi, dedim. Gəlsənə bir aşıq-aşıq oynuyax, udan uduzanın əl-ayağını bağlasın, görək kim necə açır.
Bunnar başdadılar aşıq atmağa. Gah o udurdu, gah bu udurdu. Amma qız Canavar oğlunun əllərini ha bağladı, xeyri olmadı. Axırda yeddi qat zincirnən bağladı. Canavar oğlu balaca güc verən kimi zincir parça-parça oldu. Qız hiyləyə əl atıb dedi:
– Yox, sən deyəsən elə doğrudan məni istəmirsən, yoxsa nəyə gücün çatmadığını deyərdin.
Canavar oğlu baxdı ki, qız inciyəcək, dedi:
– Onda nə var ki, sənə demiyim. Bax, başımın bircə tükü ilə əlimi bağlasan, onu heç vaxt qıra bilmərəm. Həm də onu bircə mənim öz qılıncımnan kəsmək olar.
Qız dedi:
– Yaqın mənnən zarafat eliyirsən. Yox, mən buna inana bilmərəm.
Canavar oğlu başınnan iki tel çəkib qıza verdi, dedi:
– Əyər inanmırsan, al bağla iki baş barmağımı ayaxlarımnan, ikisini də əlimnən.
Qıza da elə bu lazımıydı. Canavar oğlu dediyi kimi elədi. Canavar oğlu ha güc verdi, olmadı, saç əli kəsib sümüyə dayandı, ancax qırılmadı. Dedi:
– İndi inandın mən dediyimə? Gördün ki, səni çox istiyirəm? Di indi gəl qılıncı divardan endir, əllərimi aç.
Qız dedi:
– Səbr elə, bir eşiyə çıxım, gəlim açım.
Qız eşiyə çıxdı. Sən demə, padşah artıx çoxdan qəsri halqamərəkə eliyibmiş. Qarı da yanında güdükdə durublarmış.
Canavar oğlu gözdüyürdü ki, arvadı gəlib bunun əl-qolunu açacax. Bir də gördü nə... arvadı, qarı, bir də padşah girdilər içə-

ri. Mat-mətəl gözünü dikdi qızın üzünə. Qızın əvəzində padşah diləndi:

– Canavar oğlu, gözünü döymə, daha sənin zamanan qurtardı. Dünyaya qanmaz gəldin, qanmaz da gedəcən. Sabax səni dara çəkdirəcəm, qılıncın da, arvadın da olacax mənim.

Canavar oğlu hər şeyi başa düşdü. Ancax daha nəyin yerinə keçəciydi, özü-özünü tələyə salmışdı. Kirimişcə dayandı. Padşah dedi:

– Yaxşı, hələ sən allaha şükür elə ki, sabağa kimi sağ qalacaxsan.

Padşah bir kətil qoyub, Canavar oğlunu divarın dibində əyləşdirdi. Çırağı yandırıb qoydu başına. Özü də arvadnan girdi o biri otağa, soyunub girdilər yerə.

Canavar oğlu pərişan halda oturmuşdu. Dünyanın işdəklərini düşünürdü. Birdən yan otağın qapısı açıldı. Bu, qızıydı, ayaxyoluna çıxırdı. Qız onu belə görüb soruşdu:

– Ata, niyə burda belə oturubsan?

Canavar oğlu dedi:

– Qızım, anan ləçər başıma belə-belə işlər gətirdi. Gəl bu çırağı götür, qoy yerə, çıx çiynimə, taxçadan qılıncımı endir, qollarımdakı saçı kəs.

Qız dedi:

– Baa, əllərini açım ki, anamı öldürəsən!

Canavar oğlu gördü ki, qızı südünə çəkib, dedi:

– Yaxşı-yaxşı, a qızım, yalannan deyirdim, get yat.

Qız getdi yatmağa. Aradan bir müddət keçdi. Bu dəfə oğlu çıxdı, atasını belə görüb soruşdu:

– Ata can, niyə burda belə durubsan?

Canavar oğlu dedi:

– Anan ləçər padşahnan dilbir olub, başıma bu işi gətiriblər. Gəl, çiynimə çıx, qılıncımı endir, əllərimi aç.

Oğlu o saat çıxdı onun çiyinnərinə, qılıncı endirib, atasının əllərini açdı. Canavar oğlu dedi:

– Oğlum, bacın südünə çəkib, ancax sən özümə oxşuyubsan. İndi sən kirimişcə get yat, dalısı mənim öz işimdi.

Canavar oğlu gürzünü də götürüb sıyırma qılınc çıxdı eşiyə. Baxdı ki, qəsrin dörd bir yanı qoşunnan çitənib. Belindən anasının qayışını açıb üç dəfə yerə vurdu. O andaca boz qurd peydah

oldu, dedi:

– Qorxma, gəldim oğul! De görüm, nə çətinniyin var?

Canavar oğlu başına gələnnəri anasına danışdı. Boz qurd bütün canavar qoşununu çağırdı. Bir tərəfdən onnar, bir tərəfdən Canavar oğlu özdərini vurdular qoşuna. Bir su içim saatda bütün qoşunu qırıb qurtardılar. Bir nəfər də salamat qurtara bilmədi. Onnan elə Canavar oğlu qayıtdı geri, çırağı başına qoyub gözdəməyə başdadı. Səhər açıldı, allah hamının üzünə xeyirri sabaxlar açsın, padşah yerinnən durdu, Canavar oğluna yaxınnaşıb dedi:

– Hə, Canavar oğlu, geciyi necə keçirdin?

Canavar oğlu dedi:

– Niyə, pis keçirtmədim, hələ gözümün açsını da aldım. Yuxumda gördüm ki, sənin qoşunun dönüb sərçə sürüsünə, mənsə qırğıya, ucdantutma hamısını qırıb qurtarmışam.

Padşah əlini əlinə vurub güldü, dedi:

– Nə olar, nə olar, həlbəttə, ac toyux yuxusunda darı görər.

Onda Canavar oğlu çırağı yerə qoydu, qılıncını sıyırıb dedi:

– Yox, padşah, yuxuyu düzgün yoza bilmədin, indi sənnən ac qurd kimi danışacam.

Canavar oğlu padşahı, küpəgirən qarıyı, xain arvadıynan qızını burdan saldı qabağına, oğlunu da mindirdi boynuna, bunnarı gətirdi düz şəhərə, padşahın sarayının qabağına. Car çəkdirib camaatı meydana topladı. Padşahın etdiklərini bəyan elədi. Xalqın iradəsiynən xainlərin hərəsini bir xam qatırın quyruğuna bağlatdırdı, onnarın heç tikələri də tapılmadı. Camaat o cür zülmkar padşahdan canlarını qurtardığı üçün Canavar oğluna duva etdilər. Yığışıb özdərinə təzə padşah seçdilər.

Canavar oğlu isə oğluynan barabar qəsrə döndü. Ömürlərinin sonuna kimi şad-firavan yaşadılar.

## YOXSULNAN İLAN

Biri varıydı, biri yoxuydu. Bir dünyagörmüş pətşah varıydı. Bir gün pətşah bir qəribə yuxu gördü. Nə fikirrəşdi, nə fikirrəşmədisə əmr elədi:

– Bütün ölküyə xəbər verin. Hər kəs mənim yuxuda nə gördüyümü deyə bilsə ona çoxlu ənam verəcəm. Söz verif səf de-

yənin vay halına. Cəllat bilər, o bilər.

Carcılar hər yana car çəhdilər, camahat məsələdən halı oldu. Dünya malına tamah salanlar, özünə güvənənnər bir-bir saraya axışdı. Əmə gələnnərdən biri də geri qayıtmadı. Bəli, neçə-neçə adamın boynu vuruldu, əmə heş kəs pətşağın yuxuda nə gördüyünü tapa bilmədi. Pətşax çox nərahat oldu, əmə səbrini basdı, bir əz də gözdəməyi qərələ aldı.

Kətdərin birində dedihcə fağır, olduxcax kasıf bir kişi varıydı. Bu kişi nə tüşündü, nə tüşünmədisə arvadıynan halallaşıf dedi:

– Ay arvad, deyirəm mən də gedim baxdımı sınıyım bir. Pətşağın nə gördüyünü tafsam canımız kasıfçılıxdan kutarar. Yox, tapbasam da boynumu vurallar.

Arvad çox yalvardı, kişi öz qəralınan dönmədi, düzəldi yola. Gəlhagəl gəlif bir çölə yetişdi. Yolda ona bir ilan rasd gəldi. İlan dedi:

– A kişi, harya gedirsən.

– Pətişağın yuxusunu tapbağa.

– Kişi, qorxmursanmı boynunu vurallar.

– Əşi, Allah onsuz da bu kasıflıxnan canımı üzür. Bir dəfəlih qoy başım üzülsün, rahat torpağa gedim.

– Kişi, gəl sənnən şərt kəsəh. Sana bir söz deyəcəm.

– Buyur.

– Mən sana pətişağın yuxuda nə gördüyünü deyəcəm. Sən də onnan aldığın ənamı burya gəlif mənnən qardaş malı kimi böləcəhsən. Bu şərtə razısanmı?

– Razıyam.

– Onda qulax as. Pətşax yuxusunda canavar görüf.

Yoxsul ilannan ayrılıf yoluna davam elədi. Gəlhagəl gəlif pətşağın sarayının qabağına çıxdı. Kişini görən kimi içəri, pətşağın yanına apardılar. Pətşax soruşdu:

– Kişi, nəyə, nə işə gəlifsən.

– Yuxunu tapbışam, qibleyi-aləm.

– Necə? Şərtimi bilirsənmi?

– Bəli?

– Onda buyur.

– Pətşax sağ olsun, sən yuxuda canavar görüfsən.

Yoxsula o qədər qızıl-gümüş verdilər ki, daha nə deyim. O

sevinə-sevinə bir dolu xurcunu dalına atıf ilan olan yerə çatdı. Gördü ilan yolda onu gözdüyür. Kişi ürəyində dedi: "Əşi mən niyə ilana qızıl-gümüş verim ki. Bir də qızıl onun nəyinə lazımdı. Üsdəlih, bu qədər sərvətin yarısını ona verim? Yox, ürəyim partdıyar. Vermiyəcəm!" Yoxsul ora-bura boylandı, birdən yaxınnıxdakı iri daşı başına qaldırıf ilana tərəf atdı. İlan çəpih sıçrıyıf xeylax uzağa tüşdü, sürətnən sürünüf yox oldu. Kasıf kişi yoluna davam elədi. Gəlhagəl gəlif əvinə çatdı. Arvad ərini salamat görəndə sevindi. Yoxsul gətdiyi qızıl-gümüşnən yoxsulluğun daşını atdı. İndi sizə kimnən deyim pətişaxdan. Pətişax genə yuxu gördü. Əmr elədi ki, şərtim şərtdi. Kim mənim yuxuda nə gördüyümü tafsa ona çoxlu ənam verəcəm. Tapbıyanın boynu vurulacax.

Genə canını tişinə tutuf dünya malına göz tikənnər axışdı saraya. Əmə genə onnardan heş kəs geri qayıtmadı. Bu xəbər kasıflığın daşını atan yoxsula da çatdı. Kişi yola hazırrıx gördü. Bir gün daban aldı pətişağın sarayına tərəf. Yolda genə ilana ürcah oldu. Əmə utandığınnan başını saldı aşağı. Axı çox pis iş tutmuşdu, vədinə əməl eləməmişdi. İlan dedi:

– A kişi, Allah sənin üzünü qara eləsin. Dünya malına göz tikən adamsan. Bə bilmirdinmi bir gün mənnən beləcə qarşılaşacan?

Kişi dillənmədi.

– Kişi, indi dedihlərimə yaxşı qulax as. Pətşağa deyərsən yuxuda tülkü görüfsən. Əmə genə şərtim var, pətşağın verdiyi ənamı mənnən qardaş malı kimi yarı böləcəhsən.

Kişi razılıxnan başını tərpətdi.

– Bu dəfə nə alsam, mütləx sənnən yarı böləcəm.

Kişi ilannan ayrılan kimi az qala qaça-qaça getməyə başdadı. Gethaget gəlif pətşağın sarayına çıxdı. Pətşağın adamları onu içəri apardılar. Kişi içəri girən kimi pətşağa nədən ötrü gəldiyini deyən kimi pətşax görsədiş elədi ki, desin yuxuda nə görüf. Kişi pətşağa baş əyif dedi:

– Pətşax sağ olsun, sən yuxuda tülkü görüfsən.

Pətşax bunu eşidəndə çox şad oldu. Əmr elədi kişiyə çoxlu qızıl verdilər. Kişi sevinə-sevinə qızılları götürüf yola tüşdü. Yolda öz-özünə dedi:

– Nə axmax adamam, mən niyə bu yolnan gedirəm. İndi ya-

qın ilan məni gözdüyür. Ona qızıl verməsəm məni vuruf öldürər. O dəfədən də əlimnən yanıxlıdı. Qızıl ilanın nəyinə lazımdı axı. Yox, başqa  yolnan gedəcəm. İnşallah, ilana rast gəlmərəm.

Kişi o sahat yolunu dəyişdi, başqa yolnan getməyə başdadı. Zarafat dəyil, kişinin pulunun üstdünə pul, varının üsdünə var gəldi. Əməllicə dövlətdəndi kişi. İndi genə xəbər verim pətşaxdan. Pətşax genə bir yuxu gördü. Genə hər yana car çəkildi ki, hər kəs pətşağın yuxuda nə gördüyünü tafsa ənam alacax, tapa bilmiyənin boynu vurulacax. Genə tamahlar itiləndi, gözdər pul-para eşqiynən işıxlandı. Adamlar axışdılar saraya. Əmə genə heş kəs geri qayıtmadı. Baxdı gətirən kişi genə geyinif keçindi, tüşdü yola. Azmı getdi, çoxmu getdi – bilmədi. Bir də başını belə qaldırdı kı, ilan yolunu kəsif.

– A kişi, genə harya gedirsən.

– Pətşağın yuxusunu tapbağa.

– Genə verdiyin sözü əməl eləmədin. Namərtdihnən başqa yolnan getdin. Əmə sana yazığım gəlir, bu dəfə də köməh eliyəcəm. Pətşax yuxuda qoyun görüf. Əmə genə şərtimiz şərtdi ha.

– Yaxşı, nə deyirəm.

Kişi ilannan ayrılan kimi addımlarını yeyinnətdi. Ayağını bərk basdı, yerin damarını kəsdi. Daban aldı pətşağın sarayına. Onu genə patşağın hüzuruna apardılar. Kişi dedi:

– Pətşağım, sən yuxuda qoyun görüfsən.

Pətşax bu sözdəri eşidəndə  sevindiyinnən güldü.

Əmr elədi kişiyə çoxlu qızıl verdilər, onu hörmətnən yola saldılar. Kişi yola tüşən kimi öz-özünə dedi: “İndiyə qədər çox səf eləmişəm. Pütün bu var-dövləti mən ilanın köməyiynən qazanmamışammı. İki dəfə ona xəyanət eləmişəm. Yox, bu dəfə aldığım qızılları onnan yarı böləcəm.

Kişi gəlhagəl gəlif ilana rasd oldu. O, xurcunu ilanın qabağına qoydu.

– Şərtimiz şərtdi. Buyur  qızılını götür.

– Yox, kişi, mana heş nə lazım deyil. Qızılları sana bağışdıyıram. Əmə bilmirsənmi pətşağın yuxularının yozumu nədi.

– Yox.

– Onda qulax as. Canavar o deməhdi ki, camaahat bir-biriynən yol getmiyəcəh. Adamlar canavar kimi bir-birini yırtıf dağı-

dacax. Sən isdiyirdin məni öldürəsən. Çünki  günah səndə dəyildi zamanın gəlişindəydi. Həyə, tülkü hiyləgərrik, tülləbazdarın artmağına işaraydı. Sən də mana hillə işdətdin, başqa yolnan getdin ki, mənə çatan qızılı vermiyəsən. O ku qaldı qoyun... Qoyun sakitdih, əmin-amannıx deməhdi. Bu bir, ikincisi qoyun bollux, bərəkət deməhdi. Camahat bir-biriynən çox yaxşı yola gedəcəhlər. Çünki  zamana qoyun zamanasıdı, heş kəs bir-birinə toxunmuyacax. Belə olmasaydı sən öz sözünə əmələ eliyərdinmi. Əməl eləməzdin. Bu da zamananın, günün hökmünnəndi, kişi. Bir də deyirəm, o qızılları sana bağışdıyıram. Get ye, yaşa. Əmə tamahına qul, pul yanığı olma.

Kişi ordan əvinə gəldi. Şad-xürrəm yaşamağa başdadı. Ömür verən Allahdı. Həyə, kişi də, arvadı da qocalıf əldən tüşdülər. Onnar ölüf yerə keşdilər, siz də yeyif-içif dörə keçin. Yüzü haxlıyıf yaxşı nə varsa saxlıyıf mətləbinizə, arzunuza yetəsiniz.

## BAXT

Varıydı, yoxuydu. Bir çirkin gəlin varıydı. Onun dedihcə gözəl, boylu-puxunlu, üstəlih axıllı əri varıydı. Gəlin həmmişə öz çirkinliyinnən xəcalət çəkirdi. Hər dəfə ərinin gözəl suvatını görəndə özünə, öz çirkinliyinə acığı tuturdu:

– Doğrudan da, gözəldən gözəllih, çirkinnən dərd əhsih olmaz. İndi mən neyniyim.

Gəlin çox tüşündü-daşındı. Axırda belə qərara gəldi. Bir gün ara xəlvət olanda özünü öldürsün. Qərəz, belə vaxt yetişən kimi fursatı qənimət bilif yola tüşdü. Gəlhagəl gəlif bir dərəlih yerə çıxdı. Dərəliyin bir tərəfi qayalıxıydı, qayalığın altı divi görünməyən uçurumuydu. Həyə, gəlin elə axtardığını tapbışdı. Odu ku vaxt itirmiyif qayalığa tərəf addımladı. Birdən əyax səsdəri eşidif geri döndü. Gələn boylu-puxunnu, gözəl-göyçəh, gülərüz bir gəliniydi. Uzun hörühləri, ala gözdəri çirkin gəlinin axlını başından aldı. Gümüş kəməri, qırmızı donu, başında dingəsi... Belə də gözəl gəlin olardımı, Allah? Çirkin gəlin özünü itirdi. Bir xeylax gəlinlər bir-birrərinə baxdılar. Çirkin gəlin ürəyində öz-özünə dedi: Ay dadı-bidad, ərim mənsiz necə yaşıyacax? Elə bu gəlinə deyim, ərimə getsin. Görən buna razı olarmı? Razı olsaydı mən özümü rahatca bu uçurumnan atıf ölərdim. İsdədiyi-

mi gəlinə deyimmi, demiyimmi? Çirkin gəlin birtəhər özünü ələ alıf dedi:

– Ay göycəh bacı, sənnən bir şey soruşsam cavab verərsənmi?

– Birini yox, laf ikisini xəbər al.

– Sənin ərin var?

– Yox.

– Gəl sana bir söz deyim. Bilmirəm xoşuna gələrmi?

– De, de görüm.

– Mənim ərim səni kimi boylu-puxunnu, göycəh adamdı. Elə sana layıxdı. İndi deyirəm sən gəl belə elə...

– Nə eliyim, nə deyirsən?

– Mən özümü öldürəcəm. Sən mənim ərimə arvad ol, bir-birinizə çox yaraşırsınız. Mənim kimi çirkin elə kişiyə yaraşmır, bacı.

Bu sözdəri eşidəndə göyçək gəlin əllərini bir-birinə vuruf elə qəhqəhə çəkdi ki, çirkin gəlinin qulaxları cingillədi.

– A gəlin, gözdərini aş, üz-gözümə yaxşı bax. Gör məni tanıyırsanmı?

– Vallah, billah, a bacı, səni tanımıram. Bir də neynirsən tanımağımı? Sən gəl tanrıyı göydə gör, mən deyənə əməl elə, mən də...

– A gəlin, bir mana yaxşı bax, bəlkə tanıdın.

– Vallah tanımıram.

– Tanıyırsan?

– Necə?

Göyçəh gəlin laf yaxına gəlidi. Çirkin gəlinnən üz-üzə göz-gözə dayandı. Əlini mehribannıxnan onun çiyninə qoydu:

– Eşitginən, bilginən. Mən sənin baxtınam. Sən çirkinniyinnən bir də şikayət eləmə. Get evinə. Nə qədər mən varam sən xoşbəxt olacaxsan. Məni kimi baxdı olana göyçəhlik lazım dəyil. Həmməşə sənin əvəzinə mən ərinin gözünə görünürəm.

Çirkin gəlin isdədi göyçəh gəlinin əllərinnən öpsün. Gördü gəlin nə gəzir? Necə getmişdi, eləcə də əvə qayıtdı gəlin. Bir də nə çirkinniyinnən şikayət elədi, nə də qəlbini qaraladı. Əriynən deyə-gülə ömür keçirdi. Allah sizdəri xoşbaxt, baxtdı eləsin.

## YETİM MADARIN NAĞILI

Varıydı, yoxuydu. Bir Yetim Madar varıydı. Ata-anası çoxdan ölmüşdü. Odu ku,onun-bunun qapısında nökərçilih eliyirdi. Əmə yazıx yetimin baxtınnan il başa çatanda onu haxsız-muzdsuz qapıdan qovurdular. Çünkü yetim adamıydı, arxası yoxuydu. Yetim Madar gördü yox, iş belə getsə laf acınnan öləcəh. Çox tüşünüf daşındı. Kətdən, kəsəhdən başını götürüf çıxdı. Bir xəlvət yerdə koma qurdu. Başdadı meşədən odun qırıf satmağa. Yavaş-yavaş işi yoluna tüşdü, bir əz canı dincəldi. Genə əli bir parça çörəyə yetişdi.

Günnərin bir günü elə şər təzəcə qavışanda Yetim Madarın qapısı döyüldü. Yetim Madar öz-özünə fikirrəşdi ki, əyə, bu xəlvət yerdə, adam yaşamıyan bucaxda onun qapısını döyən kim olar? Bəlkə elə quldur, oğrudur. Bəlkə... əmə gördü yox, qapı gürüm-gürüm döyülür. Daha nə eləsin, məjbur qalıb qapıyı aşdı. Gördü yaşdı bir kişidi. Kişi onu görən kimi belə dedi:

– Ay oğul, yol adamıyam, məni qonax eliyərsənmi? Qarannıx tüşüf, yol-iz də görünmür. Özüm də təh, gözüm də yaxşı görmür.

– Gəl, gəl içəri, baba.

Yetim Madar kişiyi içəri apardı. O sahat həsirin üstünə döşəhçə atdı, dedi:

– Baba, sən burda əyləş. Mən ona kimi bir çay qoyum. Yoldan gəlifsən, bir isdi çay iş, canın qızsın. Ona kimi mən də Allah verənnən bir şey hazırrıyım.

– Yox, a bala, əziyət çəhmə, çay olsa bəsdi.

Əmə Yetim Madar iki daşın arasında çay qaynatdı. Ortuya surfa saldı. Çörəh, pendir qoydu.

– Buyur baba, kasıvın olanınnan... Allah verənnən bir tikə kəs.

Nolacax, əv sahabıynan yolçu şirin-şirin çörəh yedilər, çay işdilər. Yetim Madar surfuyu yığışdırdı. Bir əz ordan-burdan danışannan sonra Yetim Madar duruf qonağa yer saldı. Yıxılıf yatdılar. Sabax açılan kimi Yetim Madar tez qalxdı. Qapıyı-bacıyı silif-süpürdü. Sonra gəlif baxdı görsün qonaxı qaxıfmı? Baxdı əyə, qonağın yeri boşdu. Bu işə çox təccüf elədi. Bir-iki ağız səsdəndi, səs gəlmədi. Tüşündü kü, bəlkə kişi eşiyə-zada çıxıf

bir əzdən gələr. Gördü yox, qoca bir yağlı əppəyə dönüf, elə bir göyə çəkilif. Yetim Madar qaldı mətəl. Oryu-buryu çox gedif dolandı, əmə qoca gözə dəymirdi. Geri qayıtdı əvə. Baxdı əyə, qocanın əl ağacı, xurcunu elə qoyduğu yerdəcə duruf. Nə fikirrəşdi, nə fikirrəşmədisə xurcununun ağzını açdı. Gördü onun içində bir alma, bir də bir qatma var. Yetim Madar almıyı tişdiyif yedi. O, almıyı yeyən kimi gördü qoluna quvat, gözünə işıx gəldi. Elə bu vaxt qulağına bir səs gəldi:

– A bala, mən baxtınıydım. Əgər məni qonax saxlamasaydın axırın pis olacaxdı. İndi dedihlərimə qulax as. Qatmıyı sağ biləyinə bağla, əl ağacını da əlinə al. Daha sana zaval yoxdu, qabağına hes kəs çıxa bilməz. Nə qədər ki, o qatma qolundadı sənin axlına axıl çatmaz, nə qədər ki, o ağaş əlindədi, güjünə güj çatmaz. Əmə olmuya-olmuya qatmaynan əl ağacını itirəsən, əgər itirsən olacan ajın, gijin biri.

Bu səs qocanın səsiydi. Yetim Madar ha o yan, bu yana boylandı, əmə genə qocuyu görə bilmədi. Əmə qocanın dedihlərini yaxşı-yaxşı yadında saxladı. Qatmıyı qoluna bağladı. Əl ağacını əlinə aldı. O sahat elə bil var-dövlət də öz əyağıynan qapıdan içəri doldu. Əmə Yetim Madar özü pis gün görmüşdü deyin, kasıva-kusuva əl tutdu, köməy elədi. Nolacax, bunun yaxşılığı, xeyirxaxlığı dildən-dilə tüşə-tüşə gəlif pətşaxa da çatdı. Pətşax çox insafsız, qansız bir pətişaxdı. Odu ku dedi:

– Əyə,bu köpəkoğlu kimdi belə dilənçiyə, saqıra əl tutur, kişi oluf? Tez buna bir təvgir tökün, onun var-dövlətini əlinnən alax. Belə iş olmaz.

O sahat təvgir töhdülər. Bir cələkəsənin biri bu işə can-başnan razı oldu, Əmə dedi:

– Mana on kisə qızıl verin bu işi görüm.

Pətşaxın əmriynən o sahat cələkəsənə on kisə qızıl verdilər. Pətşax cələkəsənə dedi:

– Əmə dediyini eləməsən sənin boynunu vurduracam. Di durma get, o yetimi dilənçi eliyif gəl.

Cələkəsən çox bic adamıydı. O sahat bir dilənçi paltarı geydi, əlinə də bir ağaş alıf çiyninə bir torba saldı. Üzünə də bir əz his çəkdi ki, sufatı tanınmasın. Başına da bir köhnə sarıx sarıdı. Gəlif Yetim Madarın əvinin yanına çatan kimi başdadı yalannan ağlamağa. Səsə Yetim Madar eşiyə çıxdı. Gördü bir dilənçidi.

Tez onu içəri çağırdı. Pul-paradan verdi, qabağına yeməh-işməh qoydu. Əmə genə dilənçi ağlamağına ara vermədi. Yetim Madar məjbur qalıf onnan xəbər aldı.

– Bə niyə ağlıyırsan, a kişi, dərdin de?!

– Mənim dərdim böyühdü, başıma çox işdəhlər gəlif. Mənim sənnən bir xayışım var. Bilmirəm qəbul eliyərsənmi?

– De görüm, nə deyirsən?

– Sən gəl məni özünə nökər götür.

– Yox, a kişi mana nökər-zad lazım deyil.

– Onda mən də bu surfada çörəh kəsmiyəcəm, bu bir. İkincisi, sənin verdihlərinin heş birini götürmüyəcəm. Özünə də bədduva eliyəcəm. Çünki sana pənah gətirən ürəyi qırıx adamın ürəyini qırırsan... Sən demə, mən səf olmuşam, demə camahatın dedihləri yalanıymış... Əgər doğru olsaydı, mana ürəyin yanardı. Əgər yaxşı adam olsaydın mənim kimi bir dilənçinin könlünü alardın, sözünü eşidif ona dayax durardın. Daha neynim, qaxım gedim. Yolçu yolda gərəh.

Bu belə deyəndə Yetim Madar çox pis oldu, dediyi sözə peşmannadı. Birtəhər dilənçinin könlünü aldı.

– Qal burda, bir şey demirəm. Əmə qardaş kimi yaşıyarıx.

Dilənçi razı oldu. O burda qalıf Yetim Madarın yanında yaşamağa başdadı. Dilənçi, yanı cələkəsən altdan-altdan hər şeyə göz qoyurdu. Üzdə iş-güj görsə də, çox ora-bura tüyündü axırda örgəndi ki, iş nə yerdədir. Biri gün xörəhə bihuşdar qatıf verdi Yetim Madara. Madar xörəyi yeyən kimi onu yuxu tutdu, nə tutdu. Cələkəsən o sahat qatmıyı da, əl ağacını da götürüf aradan çıxdı. Yetim Madar bir də özünə gəldi ki, iş işdən keçif. Var-yox göyə çəkilif. Genə bir yoxsul daxmadadı, altında da köhnə həsir. Əmə yediyi almanın təsiri getməmişdi canınnan. Hələ çox güjdü, quvatdıydı. O sahat başa tüşdü ki, onun yanına dilənçi sufatında gələn kələhbazın biriymiş. Əmə allanıf, daha nə eləməh olar? İndi gərəh axtarıf onu tapa. Tapsa, onnan intiqamını da alar, o sehirri qatmaynan əl ağacını da. Axlı da, quvatı da birə beş artar. Üstəlih, var-dövləti də geri gələr. Əmə dilənçi, yanı cələkəsən harya getmişdi onun yerini Allahdan başqa bir kimsə bilmirdi.

İndi xəbər verim Cələkəsənnən. Ağzında Cələkəsən deyirsən. Ağılsız ha döyüldü sehirri qatmaynan əl ağacını gətirif pət-

şağa verə. Onnarı götürüf öz əvinə gəldi.

Nəyi var idi satıf pul elədi, ordan şələ-şüləsini yığıf başqa bir şəhərə getdi. Adını dəyişdi, üzünə də his sürtüf qafqara elədi. Adını qoydu Təmiz ağa. Var-dövlət başınnan töküldü. Cələkəsən kefnən yaşamağa başdadı.

Xəbər verim beçara Yetim Madardan. Madar çox yerrərə getdi, çox şəhərrər gəzdi, əmə cələkəsəni tapammadı. Əmə onu da deyim ki, daha kimsəyə nökər olmurdu. Elə toyda-zadda pəhlivannıx eliyir, eneycə pul alırdı, dolanırdı. Onu indi hamı pəhlivan adıynan çağırırdı. Bir gün genə toyuydu. Yetim Madar baxdı ki, boylu-puxunnu bir kişi ona yaman diqqətnən baxır. Gördü kişinin olar bir 60-65 yaşı, əmə sur-sufatınnan yaxşı adama bənziyir, əmə nə indisə çox qaş-qabaxlı oturuf. Nolacax, genə güləşəndə Yetim Madar qalib çıxdı.

Xeylax pul aldı, nəmər verdilər. Getməh isdiyəndə baxdı həmin yaşdı kişi onu işaraynan yanına çağırdı. Yetim Madar onun yanına getdi. Kişi ona mehribannıxnan dedi:

– A pəhlivan, mənim sana bir işim tüşüf. Əmə gərəh sən mənnən bizə gedəsən, sana orda deyəcəm... Mən bilirəm bu işi ancax sən görə bilərsən.

Yetim Madar öz özünə çox götür-qoy elədi, əmə heş başa tüşə bilmədi bu kişi onu nəyə aparır, nə iş görəcəh. Əmə kişi onnan əl çəhmədi deyin tüşdü kişinin yanına. Ürəyində dedi: “Daha nə olar, olar”. Onnar az getdilər, üz getdilər, dərə-təpə düz getdilər. Gəlif bir şəhərə çatdılar. Bir sarayın qabağına çatanda kişi dayandı.

O, Yetim Madara dedi:

– A pəhlivan, bu saray mənim sarayımdı. Mana Asdan Xoca deyillər. Keş içəri.

Bəli, onnar keşdilər içəri. Yetim Madar baxdı ki, bura laf pətşax sarayına oxşuyur. O qədər otaxlar, o qədər qulluxçu, nökər var ki, daha nə deyim. Oturdular. O sahat surfa açıldı. Ortuya cürbəcür xörəhlər gəldi. Ağız dadıynan yedilər-işdilər. Surfa yığılannan sonra əv sahabı işara eliyən kimi bütün nökər-qulluxçu, əv adamları otaxdan çıxdılar. Həyə, Asdan Xoca elə ki, gördü əv xəmişdih oldu, ara xəlvətdi. Üzünü Yetim Madara tutuf dedi:

– Allahdan gizdin dəyil, sənnən nə gizdədim. Mənim bir oğ-

lum varıydı. Bir il bunnan qabax bir qurtnan qabax qabağa gəldi, məf oldu. İndi bircə nəvəm qalıf. Adı Asdandı, öz adımı qoymuşam, üş yaşı var. İndi səni çağırmışam ki, ona göz-qulax olasan qurt aparmıya. Çünkü bu canavar çox betər heyvandı. Daha şəhərdə uşax qoymuyuf, hamısını oğurruyuf yeyir. Özü də elə quvatdıdı, elə quvatdıdı ki, ona heş kəsin güjü çatmır. Umudum bir sana gəlir, bəlkə ona sənin güjün çata.

Asdan Xoca sözünü kutaran kimi Yetim Madar ona dedi:

– Sən heş qorxma. Mən onu qoymaram ki, nəvəni aparsın.

– Ay sağ olmuş, o canavar gecə yarı, yuxunun şirin vaxtı gəlir. Gərəh çox ayıx olasan. İndi sən mənnən nə işdiyirsən, isdə. Sana qılış deyirsən, qılış verim, gürz deyirsən, gürz verim. Bircə o canavarı öldür, yoxsa o pütün şəhərin axırına çıxacaq.

– Mana heş nə lazım dəyil, əmə bir qılış olsa pis olmaz.

– Onda gəl silah olan otaxdan bəyəndiyin qılıcı götür.

Yetim Madar duruf silah otağına keşdi. Baxdı burda elə qılışdar, cidalar, gürzdər var ki, daha nə deyim. Əmə hansı qılıca əlini atdısa, tiyəsini basan kimi tiyə qırıldı. Belə-belə xeylax qılış puça çıxdı. Axırda bir qılış xoşuna gəldi, pasını silib bağladı belinə. Sonra keçif durdu Asdan Xocanın nəvəsinin yatdığı qapının ağzında. Bir də gecənin bir vədəsi baxdı əyə, bir yekə canavar budu gəldi. Canavar ona aman vermədi, tullandı üstünə. Qılış yerə tüşdü. Yetim Madar da çox güjdüydü deyin davam gətdi. Əmə xeylax əlləşdilər. Axırda pəhlivan canavarın boğazını əlinə keçirdi. Başdadı onu boğmağa. Əyə, bir də baxdı canavarın başı əlindədi, əmə dərisi xeylax uzanıf, elə bir ucdan da uzanır. Yetim Madar qabağa çəkirdi canavarı, canavar da özünü dala çəkirdi. Birdən canavarın dərisi Yetim Madarın əlində qaldı. Dərinin içinnən çılçılpax, bir göyçəh qız çıxdı. Yetim Madar o sahat arxasını ona çevirdi. Bir dəs paltar tapıf verdi, kişi paltarı. Qız paltarı geyinən kimi Yetim Madara dedi:

– Ağzındakını bərk saxla. Burdan gedəh, sora sirrimi danışacam.

Bəli, sabax oldu. Asdan Xoca gəlif işdən xəbər tutdu. Canavarın başıynan dərisini görüf çox şad oldu. Yetim Madar yanındakı kişi paltarrı qızı görsədif dedi:

– Bax, bu da mənim pəhlivan yoldaşımdı. Gecə köməyə gəldi. Yoxsa canavarı öldürə bilməzdim.

– Pəhlivan, Allah səni də, yoldaşını da saxlasın. İndi siz mana deyin görüm nə istəyirsiniz? Nə istəsəniz verəcəm.
– Sənin sağlığını.
Yetim Madar belə deyəndə əv sahabı irəli yeriyif onun qabağına bir sandıx qoydu.
– Bunu götür, içi ləl-cəvahiratnan doludu.
Yetim Madar götürməsə də, əv sahabı zornan verdi, əmə onun yanındakı yoldaşına da, yanı qıza üş kisə qızıl verdi. Bəli, onlar əv sahabıynan halallaşıf yola tüşdülər. Gəlif bir bulağın başına çatanda Yetim Madar qıza dedi:
– Gəl elə burda oturuf dincələh.
Bunnar bulağın başında oturuf dincəldilər, surfa salıf Allah verənnən yedilər, işdilər. Qız surfuyu yığışdırannan sonra dedi: -İndi qulax as, gör mən kiməm, nəçiyəm. Mən addı-sannı Sövdəgər Hasanın qızıyam. Bir gün gecə vaxtıydı. Dedim gedim hamamda bir çimim, təmizdənim. Həyə, elə təzəcə soyunuf, çiməh isdəyirdim ki, birdən göydən bir canavar dərisi tüşdü başıma. O vaxtdan oldum canavar. Əmə bir dəfə meşədə mana bir qoca kişi rast gəldi. O dedi: -A qız, sən get filan şəhərdə başda uşaxları oğurramağa. Qorxma səni baladan bir oğlan kutaracax. Oğlanın bir sehrri qatmasıynan, bi əl ağacı varıydı. Onnarı hiləynən götürüf aparıflar. Onu aparan cələkəsənin biridi. İndi adını Təmiz ağa qoyuf filan şəhərdə yaşayır. Bu sahat pətşax da hersinnən yer cırır kı, Cələkəsən necə oluf? Nə də həmin oğlan tapılır.
Qız belə deyəndə Yetim Madar başa tüşdü söhbət onnan gedir. Təmiz ağanın yerinin örgənməsinə çox şay oldu, dedi:
– A qız, indi sən öz fikirini açıx mana desən nə isdiyirsən?
– İsdiyirəm sən məni alasan. Çünkü əlin mana dəyif. Bir də dar günündə sana qardaşam. Güləşməhdə, at minməhdə, ox atıf, qılış oynatmaxda ad çıxartmışam.
– O ku belə deyirsən, onda gedəh Təmiz ağanın yanına. Onnan hesaflaşım. Sonra pətşaxnan işim var.
– Gedəh deyirsən, gedəh.
Bəli, onnar gəldilər düz Təmiz ağa yaşıyan şəhərə. Soraxlaşıf onun əvini tafdılar. Təmiz ağa Yetim Madarı görən kimi işi başa tüşdü, əmə özünə gümanı gəlirdi deyin, onu heş vecinə almadı. O bilirdi ki, hələ ki, əl ağacı ondadı, ona güj yetirən ol-

maz. Bunu Sövdəgər Hasanın qızı da başa tüşmüşdü. Birdən qız pələh kimi Təmiz ağanın üstünə atılıf əl ağacını onnan aldı. Yetim Madar gördü yaxşı fursatdı. Təmiz ağanın kəlləsinə elə bir qılış vurdu ki, kəllə tof kimi dığırranıf yerə tüşdü. Camahat yığılana kimi ikisi də, yanı Yetim Madar da, qız da atdarına minif gözdən itdilər. Yetim Madarnan Sövdəgər Hasanın qızı gəldilər düz pətişaxın sarayının qabağına. Onnar atdan tüşən kimi atdarı cidarrıyıf buraxdılar. Özdəri keşdilər içəri. Qabaxlarına çıxannarı qılışdıyıf gəldilər düz pətşaxın taxtının qabağına. Pətşax baxdı əyə, iki nəfər əliqılışdı ona doğru gəlir. Pətşax isdədi bir cəllad çağıra. Gördü cəllat-zad nə gəzir? Yetim Madar pətşaxın barabarına yetişən kimi, ona bir qılış vuruf öldürdü. Camahat yığışıf Yetim Madarı pətşax seşdilər. Yetim Madar Sövdəgər Hasanın qızını alıf özünə yeddi gün, yeddi gecə toy elədi. Allah sizi də muradınıza çatdırsın.

## YEDDİ QARDAŞ, YEDDİ BACI

Varıydı, yoxuydu Qaragüneytəpə addı təpənin yanında Qaragünə addı qoldan quvatdı, dildən yüyrəh bir igit varıydı. Bunun da Dəmril addı bir dosdu varıydı. Çox dəli-doluydu deyin buna el içində Dəli Dəmril deyirdilər. Dəli Dəmrilin bir dəli ayğırı varıydı, heş minilməmişdi. Ayğırın acığı tutanda ilxıyı qabağına qatıf hara gəldi aparırdı. Bir gün belə, iki gün belə. Bir gün dəli ayğır genə Dəli Dəmrilin atdarını qabağına qatıf apardı. Gəlhagəl gəlif atdar Çıldır gölünə yetişdilər. Elə bu vaxıt göldən bir cüt qız çıxdı. Qızdardan biri dəli ayğırın belinə, biri də başqa bir ayğırın belinə mindi. Nolacax, atdar ürküşdü, hara gəldi dağılışdılar. İndi xəbər verim bu qızdardan. Bu qızdar su pərisinin qızdarıydılar. Eşitmişdilər ki, Dəli Dəmril kimi, Qaragünə kimi igitdər var. Odu ku bir onnarı sınamax isdiyirdilər. Qızdar qılış-qalxan, cida, kürz də götürdülər. Əmə onu da deyim ki, hər ikisinin üzü də niqaflıydı. Bəli, qızdarın ikisi də gəlif atdı-matdı durdular. Qaragüneytəpənin döşündə haray salıf ün təpdilər:

– Hanı buranın mərtdəri, igitdəri?.. Meydanımıza gəlsinnər.

Bəyax Qaragünə Qaraboz atını minif irəli sürdü, dalıncax boz ayğırrı Dəli Dəmril də yetişdi. Qaragünə belə baxdı əyə, Dəli Dəmrilin dəli ayğırına biri, o biri də başqa bir ayğıra minif.

Laf cin vurdu başına. Qılıncını çəhdi, atını oyatdı, girdi meydana. Dəli Dəmril də qılıncını çəkif o biri atdıya hücum elədi. Onnar qırx gün, qırx gecə dava elədilər, əmə heş biri heş birini yenə bilmədi. Onda hərə bir tərəfdə bir çadır quruf dincini aldı. Qaragünə Dəli Dəmrilə dedi:

– A qardaş, bu nə işdi tüşdüh? Əyər bu pəhlivannara güj eliyə bilməsəh onda işimiz pisdi. Ölümnən qorxmuram. Əmə əlimizdən namərtdih də gəlmir. Bə sən bu işə nə deyirsən?

– Elə mən də bu işi tüşünürəm, nağayırax? Əmə beynimə bir fikir gəlif.

– O elə nə fikirdi?

– Gecəynən Çıldır gölünə gedif çiməcəm, bir əz də su gətirəcəm. Nə olar, olar. Sabax o pəhlivanı güləşə çağıracam. Basılaram da basılaram. Bir qaşıq qanımnan ha qorxmuyacam ki? Yox, yenərəm, daha yaxşı.

– Düz deyirsən, gəl elə barabar gedəh. Çiməh, geri qayıdax.

Bəli, bunnar gecəynən gəlif Çıldır gölündə çimdilər, çıxdılar, atdarına minif, geri dönəndə baxdılar ki, hərəsinin atının yəhərinin qaşına bir xurcun bağlanıf. Bu işə çox təccüf elədilər. Atdarı sürüf mənzilə yetdilər. Xurcunnarı aldılar, hərəsinin içinnən bir qara daş çıxdı. Birdən daşdarın hər biri bir pəhlivan oldu. Cumdular bir-birinin üstünə: “Ey o qız mənimkidi, mənimkinə dəymə, özünkünü götür get”. O biri dedi: “Yox, elə şey olmaz. Bu mənimdi, o sənin”. Nolacax, bunnar bir-birinin üstünə qılış çəhdilər. Bir dava oldu ki, gəl görəsən. Axırda pəhlivannar bir-birinə dəyif kəsəh kimi afılıf töküldü yerə. Baxanda gördülər onun içinnən bir kağız çıxdı. Baxdılar kağızda yazılıf: “Alacınız qızdarı, əmə aranız sayuyacax“, mətəl qaldılar. Bəli, əzizdərim, gecənin ömrü üzüldü sabax oldu. Qaragünə bir yannan, o biri yannan Dəli Dəmril meydana girdi. Yeddi gün yeddi gecə kuşt tutdular. Nə qədər yeri şum elədilər. Axırda Qaragünəynən Dəli Dəmril pəhlivannarı yerə vurdular. O sahat pəhlivannarın başdarınnan dəmir papaxlar tüşdü, qulaş kimi saşdarı aşağı tüşdü. Baxdılar bunnar qızıymışdar. Onnarı öldürmədilər. Hərəsi birini aldı, özünə arvad elədi. Əmə o günnən dosdarın arası dəydi. Dəli Dəmril dedi ki, bu qızdarın ikisi də mənim atdarımı minmişdilər. Bu belə deyəndə Qaragünə elə bildi ki, dostu onun baxtına çıxan qızı da onun əlinnən almax isdiyir. Kü-

süf getdi Dəli Dəmril, çünkü Qaragünə ona çox acıxlı baxdı. Bir də Dəli Dəmril Qaragünənin yanına gəlmədi.

Ay dolanıf il keşdi. Qaragünənin yeddi oğlu, Dəli Dəmrilin yeddi qızı oldu. Əmə onnarın ürəhlərində bir-birinə nərazılıx qalmışdı deyin hərə öz tərəfində alınmaz bir qala tihdirdi. Dəli Dəmril qızdarına çox diqqət görsədirdi.

Bu gün Dəli Dəmrilin qızdarınnan biri atasına belə dedi:

– Ay baba, bizə niyə cəng eləməyi, at minif ox atmağı, qılış oynatmağı örgətmirsən. Birdən üstümüzə yağı gəlsə neyniyərih.

Dəli Dəmril baxdı bu qız düz deyir. Dedi:

– Bu günnən mənnən anan sizə döyüş sirrərini örgədəcih. Təki siz örgənin, yerimizi, yurdumuzu yağılardan qoruyun.

Bəli, beləcə Dəli Dəmril qızdarına tə’lim verdi, döyüş, dava sirrərini örgətdi. Qızdar addı-sannı pəhlivannar kimi ad alıf san saldılar. Hər yanda onnara yeddi pəhlivan bacı deməyə başdadılar. Nolacax, bu əhvalat gəlif Qaragünənin oğlannarına da çatdı. Oğlannar isdədilər bir gedif o qızdarnanan güjdərini sınasınnar. Əmə Qaragünə buna razı olmadı.

– Olmaz, siz oğlansınız. Oğlanın qıznan nə işi?

Oğlannar buna narazı olsalar da, atalarının sözünü çevirmədilər.

Bir gün yağılar Dəli Dəmrilin qalasına hücum elədilər. Dava oldu, əmə yağı basıldı, geri döndü. Bu xəbər o biri yağıları bərk acıxlandırdı. Dardarı adında bir heyvərə, neyvət xan varıydı. Çox insafsız, qansız bir yağıydı. Bu xəbər ona çatanda dedi:

– Yox, mən buna dözmərəm. Gərəh o Dəli Dəmrilin qalasını yıxax, yemirəh. Üstündə xarabalıx qurax. Gərəh onun yeddi qızını yesir eliyəh, özünün də başını kəsif cidıya taxax. Bunu eləməsəh, mən hersimnən yeddi yerə dağılacam.

Doğrudan da, bu Dardarı xan çox cinni, hersdi bir xanıydı. Bəyax cini vurdu başına. Əmr elədi, döyüş paltarımı gətirin, atımı gətirin. O sahat onun əmrini yerinə yetirdilər. Paltarını geyindi, atını mindi. Bir elə nə’rə çəhdi ki, dağ-daşa səs tüşdü. Sonra əmr elədi nə ki qoşunu var hazırransın. Ya Dəli Dəmrilin qalası alınmalıdı, ya da pütün qoşun da, Dardarı ölməlidi.

Bəli, yağının qoşunu qarğa-quzğun kimi töküldü.

Bu tərəfdən də Dəli Dəmril qırx igidi yanına çağırıf dedi:

– Döyüşə hazırraşın. Əmə qızdar qalada qalsın. Mən başımda qoşun meydana gedirəm. Qalıyı göz bəbəyi kimi qoruyun.

Bəli, Dəli Dəmril qoşunun qabağına tüşüf bir təpənin döşündə yağı qoşununu gözdədi. Bir də baxdı yağı budu gəldi. Göydə ulduzun sayı varsa, yağının da sayı var.  Qoşunnar üz-üzə gəldi. Bir betər döyüş oldu ki, daha nə deyim? Qan su yerinə axdı, meyit meyidə çitəndi. Hər iki tərəfdən ölən çox oldu. Dəli Dəmril atını düz Dardarı xanın qabağına sürüf dedi:

– Ay namərt adam, xan olanda nə olar. Bir bu qədər adamın qanını töhdürdün. Gəl üz-üzə vuruşax. Kim məğlub olsa, onun qoşunu basılmış hesav olunsun.

Dardarı xan bu sözdəri eşidəndə ac asdan kimi elə kükrədi ki, daha nə deyim?

– Sənin başını kəsif cidıya taxmıyıncax, qalanı yıxmıyıncax mən rahat olmuyacam.

Bəli, pəhlivannar yanı Dardarı xannan Dəli Dəmril üz-üzə, göz-gözə gəldilər. Qılış-qalxannan, ox-nizədən, kürzdən kar aşmadı. Atdan tüşdülər, qollarını çirmələdilər. Meydana girif qurşax tutdular. O bunu  çəhdi, bu onu çəhdi. Xeylax yeri şum elədilər. Axırda  Dəli Dəmril bir dəli nə’rə çəkif Dadarı xanı yerə vurdu. Üstünə qonuf başını kəsdi. Elə bu vaxt bir ox vıyıltıynan uçuf Dəli Dəmrilin sağ qoluna sancıldı. O, dönüf geri baxanda arxasında dağ boyda bir yağı gördü. Bu, Dardarı xanın oğlu Dəlicəydi. Dəli Dəmril tez yüyürüf atına mindi, Dəliciyə hücum elədi. Əmudunu sol əlinə alıf Dəlicənin kəlləsinə elə vurdu ki, o dığırranıf atdan tüşdü. O sahat Dəli Dəmril ona aman vermiyif başını kəsdi. Əmə yağının sayı-hesabı yoxuydu. Elə qonşunu dalı bir uşdan gəlirdi. Dəli Dəmrilin igitdəri xeylax seyrəlmişdi, özü də yaralıydı. Elə bu vaxt baxdılar bir dəli nə’rə qopdu. Baxdılar budu Qaragünənin oğlannarı hər birinin başında qırx igit budu gəldi. Dava daha da qızışdı. Bir tərəfdən Dəli Dəmrilin igitdəri, bir tərəfdən Qaragünənin oğlannarının dəsdələri yağıyı arıya alıf qırdılar. Döyüş kutaran kimi Qaragünənin oğlannarı Dəli Dəmrili arıya alıf apardılar. Həkim tafdılar, yarasını sarıtdılar, ölənnəri haqqına qoyuf geri qayıtdılar.

Dəli Dəmril öz qalasına gəldi. Qızdarını sağ-salamat, qırx igidini gümrah görüf çox sevindi. Əmə ürəyində Qaragünənin oğlannarına qarşı bir möhübbət baş qaldırmışdı, di gəl bunu üzə

vurmadı.

İndi gənə xəbər verim yağılardan. Dardarı xanın hələ beş oğlu qalmışdı, hamısı da ac asdan. Bunnardan biri, yanı Qaraqorxu Dəli Dəmrilə adam göndərdi, xəbər yolladı: ya gərəh yeddi qızını mana verəsən, ya da yurdunu-yuvanı xaraba qoyacam.

Dəli Dəmrilin dəli beyni qızsa da, elçiyə zaval yoxdu deyin hersini boğuf elçiyə belə dedi:

– Get Qaraqorxudu nədi, ona de ki, kişi meydanda tanınar. Mənim ona veriləsi qızım yoxdur.

Elçi o sahat geri qayıtdı, eşitdiyini Qaraqorxunun avcına qoydu. Qaraqorxu özünün yeddi pəhlivanını Dəli Dəmrilin meydanına göndərdi. Bunu eşidəndə Dəli Dəmrilin dəli beyni yerinnən oynadı. Dəmir donunu geyif atını mindi. Pəhlivannarın yeddisi də birdən ona hücum elədi. Az çəhdi, əmə amansız bir döyüş oldu. Pəhlivannarın kəllələri paralandı, yağıya xəbər getdi ki, belə-belə. Qaraqorxu bu dəfə meydana qırx pəlivan yolladı. Dəli Dəmril yaralı olsa da, kişiliyinə sığışdırmadığı üçün onun üstünə gələn pəhlivannarın üstünə başqa adam göndərsin. Özünə nə olmuşdu ku?.. Tez geyinif atını minif meydana girdi, əmə arvadı da onun dalıncax gəldi. Bu döyüşdə genə yağı yenildi, əmə Dəli Dəmril də, arvadı da yaralandılar. Bunu eşidəndə Dəli Dəmrilin qızdarı tişi asdan kim qızdılar.

– Bunnan sonra yağıya özümüz cavav verəciyih.

Əmə Dəli Dəmril buna razı olmadı.

Deyillər su yatar, tuşman yatmaz. Yağı genə qoşun çəkif Dəli Dəmrilin üstünə gəldi. Dəli Dəmrilin qızdarı zireh geyif, at mindilər. Girdilər tüşmənin qoşununa. Bu başdan vuruf o başdan çıxdılar. Tüşməni qatım-qatım qatdılar. Yağı basılıf geri döndü. Qızdar genə qalıya çəkildilər. Bu xəbəri eşidəndə Qaraqorxu bərk acıxlandı:

– Əyə, mən yeddi qıznan da bacarmıram. Yox, buna bir təvgir töhməh lazımdı. Tez, filan yerdə yaxşı pusqu qurun. Dalda yerərdə qoşun dursun. Bir kağız yazıf qızları meydana çağıracam. Bilirəm, onnar gələcəhlər, ataları Dəli Dəmril kimi mərtdilər. Hər tərəfdən kəmənd atıf tutarsınız. Əvvəl yesir eliyərih, sonra onnardan intiqamımı alaram. Bəli, yağı pusqu qurdu. Sonra xəbər yolladı Dəli Dəmrilin qızdarına. Onnarı meydana çağırdı. Qızdar o sahat həmən yerə gəldilər. Əmə böyük qız çox

axıllıydı, dedi:

– Bacılar, burda bir kələh var. Diqqət eliyin, başımıza bir iş gəlməsin.

Baxdılar Qaraqorxu meydanın düz ortasında durub. Qızdar atdarını düz ona tərəf sürəndə onnara hər tərəfdən bir kəmənd atıldı. Əmə böyüh qız çox çəpih, igit olduğu üçün pütün kəməntləri qılışnan vuruf kəsdi. Əmə tüşmənnər çox, onnar yeddi nəfərdi. Əmə qızdar heş bir yağıyı yaxın qoymadılar. Yerinnən tərpənəni vuruf atdan saldılar. Əmə tuşman onnarı yaman qomarmışdı. Get-gedə mühasirə çənbəri daralırdı. Elə bu vaxt bir dəli nə’rə qofdu. Bu, Qaragünənin böyüh oğlu Qaracanın nə’rəsiydi. Qaraca qardaşdarıynan qızdarın köməyinə gəlmişdi. Bəyax, tüşmən gerilədi, Dəli Dəmrilin qızdarı mühasirədən kurtuldular. Qaraca Qaraqorxuyu öldürüf başını cidıya taxdı. Bəli, onnar, yanı Dəli Dəmrilin qızdarıynan Qaragünənin oğlannarı geri döndülər. Əmə bu günnən onnar bir-biriynən əhd-peyman bağladılar. Sözü bir yerə qoydular ki, bu siri heş kəsə deyib-eləməsinlər. Çünkü ataları bir-birrərinnən narazıdılar. Onnarın qavışmasına izin verməzdər. Böyük qız çox axıllıydı deyin, dedi:

– Gəlin belə iş eliyəh. Yanı bizim qaladan sizin qalanın altına yeraltı yol salax. Bunnan sonrası düzələr.

Buna hamısı razı oldu. Xəlvətcə Qaragünə qalasınnan Dəmrilin qalaçasına yeraltı yol salındı. Nolacax, cavannar bir-birinə könül verdilər, murada çatdılar. Sonra bu işi böyühlərə deyəndə onnar razı olmax isdəməsələr də, iş işdən keşmişdi deyin daha razı oldular. Yeddi qardaş yeddi bacıynan əvlənif əv-eşih, oğul-uşax yiyəsi oldular. Allah sizi də xoşbaxt eləsin.

## ŞAHZADƏ İLƏ QURBAĞA

Biri varıymış, biri yoxuymuş, keçmiş zamanlarda bir padşah varıymış. Onun gözünün ağı-qarası, yüz nəzir-niyazdan sonra tapdığı bir oğlundan başqa züryəti yoxuymuş. İllər keçdi, bu oğlan həddi-bulağa çatmış bir iyid oldu.

Günlərin bir günündə şahzadə evdə darıxır. Atasının yanına gəlib deyir:

– Ata can, rüsxət ver gedim ova. Lap darıxıram. Bəlkə bir az

eynim açıla.

Atası görür ki, oğlu əl çəkən deyil, üz-gözündən öpüb yola salır.

Şahzadə az gedir, çox gedir, gəlib qalın bir meşəyə çıxır. Xeyli ov elədikdən sonra istəyir ki, bir az dincəlsin. Birdən arxa tərəfdən bir fısıltı gəlir. Geri gönəndə görür nə? Bir yekə qara ilan bir qurbağaya hücum eliyib. Az qalır ki, onu udsun. Şahzadə fürsəti fövtə vermir. İlanı vurub öldürür. Qurbağa öz xilaskarının ayaqları altında döşənir, ayaqlarını yalam-yalam yalayır. Oğlan geri dönüb getmək istəyəndə qurbağa dilə gəlib deyir:

– Oğlan, kimsən, nəkarəsən, məni də özünlə apar. Burda qurda, quşa yem olmayım.

Oğlan deyir:

– Qurbağa da danışarmı? Sən qurbağasan, yoxsa insan?

Qurbağa deyir:

– Mən gözəl bir qızıydım. Məni analığım belə eləyib. O qədər əziyyət çəkirdim ki, axırda Allaha asi düşdüm, o da məni qurbağa elədi.

Oğlanın buna yazığı gəlir. Qurbağanı cibinə qoyub evə gətirir. Heç kimə bir şey demir. Kirimişcə onu gətirib öz otağına qoyur. Şahzadə bütün gününü qurbağa ilə keçirir. Anasının işdən xəbəri olmur. Amma oğlunun dərdi onu saraldır. Beləliklə, bir müddət keçir, şahzadə də qurbağanın dərdindən sapsarı saralır. Neçə təbib gəlir, loğman gəlir, onun dərdinə bir əlac eləyə bilmir.

Bir gün şahzadə yatdığı yerdə yuxuda görür ki, bir quş ona deyir, "Şahzadə, bil və agah ol. O, qurbağanın tilsimi gölün altında, qurbağalar padşahının yanındadı. Mən onun qızıyam. Əgər gəlib məni ağ divin əlindən qurtarsan, mən sənə kömək eliyəcəm. Əgər tez gəlməsən məndən əlini üz".

Şahzadə yuxudan sərsəm oyanır. Anasının yanına gəlib başına gələnləri açıb anasına söyləyir. Anası çox fikirləşir, götür-qoy eləyir. Axırda deyir:

– Bala, gedirsən get, allah amanatındı. Özündən muğayat ol.

Anası şahzadənin dalınca su atıb, xeyir-dua verir.

Şahzadə baş alıb gedir. Az gedir, üz gedir, dərə-təpə, düz gedir, gəlib bir məkana çıxır. Oturub bir yolun qırağında dincəlir. Bir də görür ki, başının üstünü bir qoca kişi kəsibdi. Şahzadə bir

az ürəklənir. Qoca salam verib deyir:
– Ay bala, hardan gəlib, hara gedirsən?
Şahzadə deyir:
– Əgər mənə ürəyin yanıb kömək eləyə biləcəksənsə dərdimi deyim.
Qoca deyir:
– Hər halda köməyim dəyər, de görüm dərdin nədi?
Oğlan bildiyini, gördüyünü açıb qocaya danışır.
Qoca deyir:
– Oğlum, sən qorxulu bir yol gedirsən. Mən sənə bu yolda kömək eləyəcəm. Bu yolnan düz gedirsən. Qabağına iri bir mağara çıxacaq. O mağaranın içində ağ divin bacısı tilsimdədi. Saçından ağaca bağlanıb. Əgər sən onu azad eləyə bilsən, ağ div sənə istədiyin hörməti eləyəcək.
– Mən onu necə azad eləyə bilərəm?
Qoca cibindən bir bıçaq çıxarıb deyir
– Bu bıçağı nəyə vursan tilsimdən çıxır. Eşit, mağaraya girəndə hardan səs gəlsə, cavab vermə, başını sallayıb içəri gir. Arxadan səs gəlsə, dala dönmə. Əgər dönsən, tilsimə düşərsən.
Qoca sözünü deyib qeybə çəkilir. Oğlan qoca deyən yolla gəlib düz mağaraya çıxır. Görür bura bir dərin mağaradı. Hər tərəfində əcayib, eybəcər daşlar var. Adam baxanda bağrı yarılır. Şahzadə heç nəyə fikir vermir. Mağaraya girir. Qabağına bir ağac qapı çıxır. Əlini atır ki, qapını açsın, qapı açılmır. Şahzadə zərblə vurur, qapı taybatay açılır. O içəri girir. Arxadan səsdər gəlir: "Onu tutun, qoymayın" şahzadə heç nəyə fikir vermir. Düz gedir mağaranın axırına. Görür burda bir əcayib, eybəcər arvad ağaca bağlanıb.
Şahzadəni görən kimi arvad deyir:
– Sən qorxmursan, buraya gəlibsən? İndicə div gəlib səni də daşa döndərər.
Şahzadə deyir:
– Mən səni burdan xilas eləsəm, mənə nə yaxşılıq eləyərsən?
Arvad deyir:
– And olsun anamın südünə, nə istəsən eləyərəm.
Şahzadə bıçağı çıxarıb arvadın saçını kəsir. Tilsim sınır. Arvad şahzadəni belinə alıb göyə qalxır. Bunlar göylə gəlib ağ di-

vin mağarasına çıxırlar. Arvad şahzadəni yerə qoyur. Elə bu vaxt bir gurultu, nərilti qopur ki, Allah göstərməsin. Bir div gəlib bunların qabağında dayanır.

Arvad deyir:

– Aha, qara div bizim axırımıza çıxacaq.

Şahzadə qara divlə tutaşır. Çox əlləşəndən sonra bıçağı səmtləyib qara divin düz ürəyinə soxur. Qara div nəriltilə yıxılıb ölür.

Arvad şahzadəni içəri aparır. Ağ div yeddillik yuxuda imiş. Başının üstündəki şüşənin içində bir ağ quş dustaq edilmişdi. Şahzadə bunları görən kimi işi başa düşür. Arvad divin ayaqlarını qıdıqlayıb ayıldır. Div bacısını görəndə gözlərinə inanmır. Bacısı başına gələnləri qardaşına nağıl eləyir. Div oğlana deyir:

– Mənə görə nə qulluq?

Şahzadə deyir:

– Mən səndən heç nə istəmirəm, bircə bu quşu mənə ver.

Div bir az fikrə gedir. Sonra deyir:

– Olmaz başqa şey verim?

Şahzadə deyir:

– Yox, mən bu quşu istəyirəm.

Div naçar qalıb quşu şüşədən çıxarıb şahzadəyə verir.

Şahzadə halallaşıb, quşu da götürüb geriyə dönür. Divin bacısı şahzadəyə saçından bir tük ayırıb verir. Şahzadə tükü quşun üstünə çəkəndə quş tilsimdən çıxır, qurbağa cildinə düşür. Hər ikisi yoldaş olub gəlirlər qurbağalar padşahının yanına. Qurbağa oğlanı gölün qırağında qoyub suya cumur. Bir xeyli keçəndən sonra qurbağa öz atası ilə qırağa çıxır. Qurbağalar padşahı şahzadəyə deyir.

– Məndən bu yaxşılığına görə nə istəyirsən?

Şahzadə deyir:

– Mənim bir nişanlım var. Qurbağa tilsiminə düşüb. Onu bu tilsimdən qurtar.

Qurbağalar padşahı deyir:

– Məni özünlə apar nişanlının yanına, sonra geri gətirərsən.

Şahzadə qurbağalar padşahını gətirib gəlir evə. Anası oğlunu görüb sevinir, boynunu qucaqlayıb öpür. Qurbağalar padşahı qurbağa olan otağa girir və qurbağanın ağzına tüpürür, üzünə üfürür, ofsunlayır. Qurbağa qıza dönür. Şahzadə razılıq eləyib

qurbağalar padşahını yola salır.

Padşah yeddi gün, yeddi gecə toy eləyib qızı şahzadəyə alır. Onlar murazlarına çatırlar. Siz də yeyin, için, murazınıza çatın. Göydən üç alma düşdü: biri mənim, biri özümün, biri də nağılı yadında saxlayanın.

## GÜLXANIM

Biri varıymış, biri yoxuymuş, bir cüt bacı varıymış. Bunların biri varlıymış, biri kasıb. Bu bacıların hərəsinin bir qızı varıymış. Bu qızlar günlə-ayla böyüyür, axır ki, on-on bel yaşına çatırlar. Varlı qızının adı Xanzadə, kasıbınkı isə Gülxanım imiş. Xanzadə o qədər çirkiniymiş ki, adam istəmirmiş üzünə baxa. Gülxanımın gözəlliyi isə dünyaya səs salmışdı. Güləndə ağzından güllər tökülür, yeriyəndə hər tərəfə güllər açırdı. Bunu görənlər, eşidib bilənlər Gülxanıma elçi düşürdülər. Qız heç kəsə getmirdi. Bir gün uzaq bir yerdən bir şah oğlu qıza elçi gəlir. Qızı şahzadəyə nişanlayırlar. Elə olur ki, toy günü yaxınlaşır. Böyük bacı gəlib deyir:

– Bacı, Allaha şükür ki, toy eliyirsən. Allah xoşbəxt eləsin. Gülxanımın yengəsi özüm olacam.

Böyük bacı şirin dilini işə salıb məqsədinə çatır. Özünü zorxoş Gülxanıma yengə elətdirir.

İndi görək bu paxıl bacının yengə getməkdə azarı nəymiş. Qıza yaxşı pal-paltar, qızıl-gümüş gətirirlər.

Sabahı gün qızı göçürürlər. Paxıl bacı xəlvətdən yola duzlu balıq bişirir, qızını da geyindirib keçindirib öz yanınnan aparır.

Yol çox uzağıymış. Xeyli gedəndən sonra əyləşirlər ki, bir az dincəlsinlər, çörəkdən-zaddan yesinlər. Gəlin oturan gecavədə yengə, qızı ilə gəlinnən başqa heç kim yoxuymuş. Arvad bişirdiyi duzlu balığı qıza güclə yedirdir ki, adətdir, gərək gəlin gedəndə duzlu balıq yeyə. Qız balığı yeyir, yaman susuzlayır. Xalasından su istəyir:

– Xala, ciyərim yanır, bir az su.

– Xalan ölsün, burda su nə gəzir deyərək özünü yalandan ora-bura vurur.

Qız su deyib alışıb-yanır. Xalasına ilan dili çıxarır. Axırda xalası deyir:

– Bala, bir damcı su verərəm, amma əvəzində gərək bir gözünü mənə verəsən.

Qız çar-naçar razı olur. Gözünün birini verib bir içim su alır.

Karvan bir az da irəliləyir. Qızın yenə ciyəri yanır. Xalasına yalvarır ki, yenə su versin. Xalası deyir:

– Bir gözə bir damcı su! İstəyirsən verim.

Qız razı olur. Xalası qızın o biri gözünü də çıxarıb bir damcı su verir. Sonra da kor olmuş qızı itələyib karvandan salır.

Çılpaq soyundurulmuş qız titim-titim titrəyir, gözlərinin ağrısına dözə bilmir. Zar-zar zarıyır.

Bir çoban qoyun otarırmış. Axşam olur, qoyunu kəndə tərəf endirir. Birdən dərədən zırıltı eşidir. Qorxa-qorxa yaxınlaşır. Nə görsə yaxşıdır?! Çılpaq bir qız uşağı, gözləri də kor. Kişinin qıza yazığı gəlir. Ondan soruşur:

– Ay qızım, kimsən, nəçisən, buraya niyə atıblar səni?

Qız zarıya-zarıya deyir:

– Ey bənni-insan, mənə rəhmin gəlsin, ciyərim yanır, bir içim su ver.

Çoban tez ona su tapıb gətirir. Qız doyunca su içəndən sonra özünə gəlib deyir:

– Əmi, çevir məni balalarının başına burda qoyma.

Kişi bir dərin ah çəkib deyir,

– Qızım, mən səni evimə necə aparım? Evdə yeddi qızım var, bir donu sıra ilə geyirlər. Səni aparım neyləyim? Yeməyə çörəyim də yoxdur.

Qız deyir,

– Əmi: qorxma məni apar evinizə, məndən çox xeyir görəcəksən.

Kişi çox fikirdən sonra qorxa-qorxa qızı evlərinə gətirir. Qızları hərəsi bir tərəfdən kişinin üstünə düşürlər ki, bu koru niyə gətiribsən? Bizi elə yaman saxlayırdın, bunu da bir yandan bizə boğazortağı elədin. Kişi gördüyünü danışır. Balaca qız gəlib onun əlindən tutub içəri aparır, bacılarına deyir:

– Bunnan heç kəsin işi olmasın. Mən öz payımı onnan böləcəm.

Bir gün Gülxanım qızlara yalvarır ki, onu da çimizdirsinlər. Qızlar çəmkirib deyirlər: ölmüsən ki, biz səni çimdirək. Canın çıxsın, özün çim. Kiçik qız evdə yoxuymuş. Evə gələn kimi əh-

valatdan xəbər tutur. Tez su qoyub Gülxanımı yaxşı-yaxşı çimizdirir.

Çimib qurtarandan sonra Gülxanım kiçik qıza deyir:

– Bacı, mənim çimdiyim suyu atma, ağzını ört, özü də qaranlıq yerə qoy. Tezdən açıb bax. Nə görsən, gəlib mənə deyərsən.

Qız elə də eləyir. Tezdən gedib suyun ağzını açanda görür ki, ləyən ağzına qədər sarı qızılla doludur. Gəlib gördüyünü Gülxanıma danışır. Gülxanım çobanı yanına çağırıb deyir:

– Əmi, sən məni ölümdən qurtarıb evinə gətirdin. Yaxşılığının əvəzində bu qızılların hamısını sənə verirəm. Özün üçün yaxşı bir imarət tikdir. Bu gündən çobanlığın daşını da atarsan.

Kişi gedib bir yaxşı usta çağırtdırır, özünə padşaha layiq bir imarət tikdirir. Qızlarına, arvadına yaxşı pal-paltar alır. Şad-firavan dolanmağa başlayırlar.

Bunlar burada qalsın, görək paxıl xala neyləyir. O, Gülxanımı yerə salandan sonra onun toy paltarını qızına geyindirib alnını da möhkəm-möhkəm bağlayır. Çünki Xanzadanın alnında çox eybəcər bir ximirçək çıxmışdı.

Karvan gəlib şahın sarayına çatır. Yaxşı toy eləyirlər. Gəlini gətirirlər bəyin yanına. Şahzadə görür ki, gəlin nə danışır, nə gülür, nə də ağzınnan gül tökülür. Oğlanı dərd aparır. Yengəni çağırırlar. Qızın anası gəlib deyir:

– O, bir ay elə olacaq. Yolda soyuq dəyib, bərk naxoşlayıb. Ona soyuq dəyəndə həmişə belə olur. Gərək onu danışdırmayasan.

Oğlan çox pis vəziyyətə düşür. Bir ay gözləyir.

Bu yandan da Gülxanım qızlara deyir ki, elə gülməli əhvalatlar danışsınlar ki, onu güldürə bilsinlər. Qızlar başlayırlar qaravəllidən, lətifədən söküb-tökməyə. Onlar danışdıqca Gülxanım başlayır gülməyə. Güləndə ağzından dəstə-dəstə güllər tökülür. Hamı mat-məəttəl qalır ki, bu nə sirdi.

Gülxanım çobanı çağırıb deyir:

– Ata, bu gülləri apararsan filan şahın sarayının yanından ötəndə deyərsən:

– Ay gül alan, ay gül alan. Əgər bir arvad gəlib almaq istəsə, bu idimdə, bu şəkildə, deyərsən ki, bir gözədir. Özü də sağ gözə.

Kişi gülləri aparıb gedir. Gəlib sarayın qabağından ötəndə görür ki, qız dediyi arvad külafirəngidə durur. Kişi səsləyir:

– Ay gül alan, ay gül alan...

Arvad tez cumur onun qabağına. Kişiyə deyir:

– Səs salma, de görək gül neçəyədir.

Kişi deyir:

– Bir gözə, özü də sağ gözə.

Arvad tez nəalac qalıb gözü verir, gülü alıb gətirir verir qızına. Kişiyə tapşırır ki, sabah da bu güldən gətirərsən.

Oğlan gələndə qız deyir ki, bir dəfə gülmüşəm, bax ağzımnan bir dəstə gül tökülüb. Oğlan bərk sevinir. Qız gecələr alnının ximirçəyini xırtaxırt gəmirirmiş. Oğlan soruşanda bu nədir yeyirsən. Qız deyirmiş ki, anam daşlı qovurğa verib ki, xəstələnsəm, gecələr onu yeyim, xəstəliyim tez qurtarsın.

Kişi gözü gətirib qıza verir. Qız gözünü salır yerinə. Bu vaxt göydən ağ bir göyərçin uça-uça gəlib qanadını qızın gözünə çəkib uçur. Qızın gözünə işıq gəlir. Sevinir. Kişi deyir ki, arvad sabah yenə gül istəyir.

Tezdən Gülxanım yenə gülüb-danışır. Ağzından dəstə-dəstə güllər tökülür, hər tərəf gül-çiçəyə qərq olur.

Qız deyir:

– Bu dəfə də deyərsən gülü sol gözə verirəm. Alan kimi qayıdıb gələrsən.

Kişi daban alır şahın sarayına tərəf. Görür ki, arvad onu gözləyir. Tez aşağı enir. Gülün qiymətini soruşanda kişi deyir:

– Sol gözə hamısını verirəm.

Kişi gözü alıb gətirir evə. Tez, sevincək o gözü də qoyurlar yerinə. Yenə həmənki kimi göyərçin gəlib qanadını qızın gözünə çəkir. Qızın sol gözünə də işıq gəlir.

Gülxanım kişiyə deyir:

– Ata, gedərsən saraya. Şaha deyərsən ki, niyyətim var, bir arıq at ver, aparım evdə baxım.

Kişi:

– "Baş üstə" -deyib gedir. Çoban elə dövlət sahibi olmuşdu ki heç bir şahda, sultanda belə dəm-dəsgah, var-dövlət olmazdı.

Kişi saraya gələndə görür ki, gülləri alan arvad qəmgin-qəmgin durub yollara baxır. Arvad bunu görən kimi sevinə-sevinə irəli gəlib soruşdu:

– A kişi yenə gülün varmı?
Kişi dedi:
– Yox, daha gül yoxdur, qurtardı. Mənə padşah lazımdır. Arvadın canına vəlvələ düşür. Bilmir ki, neyləsin. Başa düşür ki, qız ölməyib, haradasa sağdır.
Eşit kişidən. Kişi şahın yanına gəlir. Salam-kalamdan sonra şah soruşur.
– Kimsən, nə mətləbə gəlmisən?
Kişi deyir:
– Şah sağ olsun, bir qızım varıydı gözləri tutulmuşdu. Niyyət elədi ki, gözlərim açılsın, şahın bir ölüvay qatırına baxacam. İndi qızımın gözləri açılıb. Mən də gəlmişəm ki, bir ölüvay qatır verəsiniz, qızım baxa, niyyətini başa çatdıra.
Şah bir az fikirdən sonra deyir:
– Oğlumun bir atı var, yaman arıq düşüb. Apar, ona baxsın.
Kişi birtəhər atı gətirib gəlir. Bu ata bir ay yaxşı baxırlar. At elə olur ki, dərisinə sığmır.
Qız kişiyə deyir:
– Ata, sən mənə çox yaxşılıqlar elədin. İndi bu yaxşılığı da eləsən, mən başıma gələnlərin hamısını sənə danışacağam.
Kişi deyir:
– O nə sözdü qızım, sən də mənim balam, ürəyində nə istəyin varsa, de.
Qız deyir:
– İndi gedərsən şahın yanına. Deyərsən: gəlsin atı aparsın. Başqa adam göndərsə, razı olma. De: atı yalnız oğlun gəlib aparmalıdır. Qalan işlərə işin olmasın.
Kişi yenə gəlir saraya. İcazə alıb şahın yanına keçir. Deyir:
– Şah sağ olsun, adam göndər, gəlsin atı aparsın.
– Niyə özün gətirmirsən, yoxsa bizi öz ayağına aparmaq istəyirsən? -deyə şah qəzəblənir.
Kişi deyir:
– Şahım, nə qədər elədiksə, at yerindən tərpənmədi.
Şahın oğlu irəli yeriyib deyir:
– Ata, icazə ver gedim atı mən gətirim. Əgər yalan danışsa, bu kişinin boynu vurulmalıdı.
Şahın oğlu kişinin yanına düşüb onlara gəlir. Gəlib nə görsə yaxşıdır? At, nə at! Güllü bağçanın içində. Hər yanda gül-gülü

çağırır, bülbül-bülbülü. Gördüyünə mətəl qalır. Kişiyə deyir ki, qapını aç, atı aparım.

Kişi deyir:

– Qapının açarı məndə yoxdur, qızımdadı. İndi gəlib açar. Kişi gedib qızı çağırır. Qız bir naz-qəmzəynən gəlir ki, gəl görəsən. O gəldikcə yolun sağı-solu güllərlə bəzənir, güldükcə hər tərəfə dəstə-dəstə gül səpələnir.

Oğlan qızı görən kimi tanıyır və tappıltıynan yerə yıxılır. Camaat bu işə lap sirrillah qalır. Su səpib oğlanı ayıldırlar. Oğlan bir söz deməyib çıxıb gedir. Evə çatan kimi xəstələnib yorğan-döşəyə düşür. Şaha xəbər gedir ki, niyə durubsan, oğlun yaman haldadır. Bərk qızdırması var. Od kimi alışıb-yanır. Atı da gətirib.

Şah gedib ata baxanda tanıya bilmir. Sonra oğluna baş çəkir. Görür ki, oğlu bir haldadır ki, Səmərqənd kağızı kimi ağarıb, qızdırmadan yanır.

Soruşur:

– Bala, sənə nə oldu? Sağ getdin,  xəstə qayıtdın?

Oğlan deyir:

– Ata, get ata baxan kişinin baxçasına bax, nə görsən heç kimə bir söz demə, kirimişcə mənim yanıma gəl.

Şah hazırlaşıb bura gəlməkdə olsun, eşit qızdan.

Bunlar uzaqlaşıb gedəndən sonra kişi Gülxanıma deyir:

– Qızım, bu nə işiydi? Oğlan niyə özündən getdi?

Qız başına gələnləri, mən sizə nağıl elədiyim kimi bir-bir kişiyə danışır. Sonra deyir:

– O, şahzadə mənim nişanlımdır. Mən ona çatmalıyam.

Bu məqamda şah gəlib çıxır. Kişi şahı qarşılayır. Evə dəvət eləyir. Şah evə getmir. Deyir ki, güllü bağın sorağına gəlmişəm. Görüm o bağ necə bağdır ki, dildən-dilə düşüb, sorağı dünyanı başına götürüb.

Kişi Gülxanımı çağırıb deyir:

– Qızım, gəl, şah baban sənin bağçana qonaq gəlib.

Gülxanım yenə də həmin şivəynən, gül-çiçək saça-saça gəlir, bağçanı açır. Şahı aparıb yaxşı-yaxşı gəzdirir. Şah gördüklərinə lap mətəl qalır. Kirimişcə evə dönüb gördüklərini oğluna nəql eliyir. Oğlu deyir:

– Ata, gördüyün o qız mənim nişanlımdır. Nə olubsa, o, ora-

ya düşüb. Evdəki də onun adıynan xəstə yatır. Mən hələ onun üzünü görməmişəm. Şah təəccüblənir. Gəlinin anasını yanına çağırtdırır. Arvaddan soruşur.

– Sən bu qızın nəyisən, indiyə kimi burada nə edirsən?

Arvad qorxa-qorxa dillənir:

– Mən yengə gəlmişəm. Bu mənim bacım qızıdır. Nasazlayıb deyə onun yanında qalıram.

Şah soruşur:

– Düzmü deyirsən?

Arvad deyir:

– Bəli!

Şah əmr eləyir ki, qızın üzü açılsın. Qızın üzünü açırlar. Onun iyrənc sifətini görən şah əmr edir ki, ana-bala hər ikisini qatırın quyruğuna bağlayıb çölə buraxsınlar. Qatır baş alıb gedir. Onların hər tikəsi bir qayada qalır.

Şah əhvalatı öyrənəndən sonra təzədən Gülxanıma nişan qoyur. Toy başlayır. Qırx gün, qırx gecə toy olur. Onlar murazlarına çatırlar. Şah kişini də özünə vəzir seçir. Siz də öz murazınıza çatın. Yeyin-için dövrə keçin.

Göydən üç alma düşdü: biri mənim, biri nağıl söyləyənin, biri nağıla qulaq asanın.

## QARPIZIN NAĞILI

Biri varıydı, biri yoxuydu, bir tacir varıydı. Bu tacirin varıdövləti başından aşırdı. Ancaq bircə dərdi vardı. O da övlad dərdiydi. Gecə-gündüz fikirləşirdi ki, var-dövləti kimə qalacaq? Ər-arvad bir gün qapıda oturub fikirli-fikirli dayanmışdılar. Bu vaxt bir dərviş onların qarşısında peyda oldu.

Dərviş dedi:

– Bilirəm, sizin övladdan qismətiniz yoxdu. Alın bu almanın yarısını biriniz, yarısını da o biriniz yeyin. Sizin züryətiniz olacaq.

Günlər, aylar keçdi. Hay-havar düşdü ki, bəs deməzsənmi tacirin arvadı uşağa yatır. Hamı mətəl qaldı ki, neçə ildir uşağı olmayıb, indi bu nə olan işdir? Kimi sevinir, kimi təəccüb edirdi.

Bəli, arvad yükünü yerə qoydu. Gəlhagəl-bir yekə qarpız. Tacirin barmağını kəssən qanı çıxmazdı. İstədi qarpızı daşa vu-

rub dağıtsın, amma arvadı qoymadı. Dedi, gözləyək görək axırı nə olur?

Günlər, aylar keçdikcə bu qarpız da böyüyürdü.

On il keçdi. Bu qarpız tacirin arvadı evdə olanda hellənə-hellənə gəlib onların yanında durur, adam kimi az-az danışırdı. Bir gün arvad paltar yuya-yuya dərdini qonşulara danşdı:

– Allah bir züryət vermədi ki, heç olmasa, qolumdan tuta.

Bunu qarpız eşitdi. Bir neçə gündən sonra arvad yenə pal-paltarı yığışdırdı ki, yusun. Qarpız hellənə-hellənə irəli gəlib dedi:

– Anacan, pal-paltarı ver mənə, aparıb çayda yuyacağam.

Arvad nəalac qalıb paltarı ləyənə yığıb qarpızın üstünə qoydu. Qarpız hellənə-helləenə düz endi dərəyə. Elə yerdə dayandı ki, iynə axtaran kimi axtarsan da onu tapa bilməzdin. Qarpız ləyəni yerə qoyub qabığından çıxdı. Paltarları təmiz-təmiz yudu, sonra yenə qabığına girdi. Ləyəni üstünə götürüb evə gəldi. Anasına dedi:

– Anacan, götür paltarları sər.

Arvad mat-mat qarpıza baxdı. Onun yanında heç kim yoxuydu. Amma çox sevindi ki, nə yaxşı iş görür, danışır, bəlkə bir gün insan şəklinə düşə.

Axşam kişi evə gəldi. Arvad kişinin qabağına çıxıb dedi:

– Kişi, təzə bir xəbər eşitsən neyləyərsən?

Kişi qaşqabaqla:

– Eh, nə deyəcəksən?

Arvad dedi:

– Ay kişi, nə danışarsan, şükür allaha, bu gün qarpız pal-paltarı yığıb çaya aparıb. Elə yuyub ki, elə bil yüz ilin əkə-bükə arvadıdır.

Kişi inanmadı.

– İnanmırsan qonşumuz Xansənəmdən soruş - deyərək arvad ərini inandırdı.

Ancaq tacirin eyni heç açılmadı. İçəridən dərd onu yeyirdi.

Bir gün  bir tacir oğlu dərə boyu gəzirdi. Bir də gördü ki, bir qarpız gəlir. Amma üstündə də bir ləyəndə paltar. Oğlan bir daşın dalında gizləndi. Baxdı ki qarpız ləyəni yerə qoyub, qabığından çıxdı. Qız nə qız! Aya deyir sən çıxma, mən çıxacam, günə deyir sən çıxma, mən çıxacam, suya deyir sən axma, mən axa-

cam. Oğlan özündən gedib yıxıldı yerə.

Qız işini görəndən sonra yenə də qabığına girib evə gəldi. Tacir oğlu özünə gələndə gördü lələ köçüb, yurdu qalıb. Evə qayıdan kimi, yüz ilin naxoşu kimi ağzı üstə yerə düşdü. Təbiblər gəldi, bir şey baş aça bilmədilər. Həmin gündən tacir oğlu hər gün gəlib qarpızı burada gözləyirdi. Qarpız da evdən qab-qacaq, pal-paltar gətirib yuyurdu. Tacir oğlu qızı görən kimi ağlı gedib yıxılırdı. Bu hər gün təkrar olunurdu. Bir gün tacirə xəbər çatdı ki, oğlu yaman dərdə düşüb, dəli kimi çöllərdə gəzir, nə yuxusu var, nə də yeyib-içməyi. Tacir gəlib oğlunun dərdini soruşdu. Gördü yenə oğlunun halı heç hal deyil. De dava-dərman, amma heç nə kömək eləmədi.

Bir gün oğlan anasını yanına çağırıb dedi:

– Anacan, o kimin qızıdır ki, qarpızdadır?

Anası barmağını dişlədi:

– Ay bala, yoxsa sən sehrə düşmüsən? Dediyin heç kimdə yoxdur. Bircə atanın tacir dostu Əhmədin evində bir qarpız var. O da ki, qız deyil. Anadan qarpız olub, elə qarpızdı ki, qarpızdı.

Oğlan dedi,

– Mən heç nə bilmirəm. Gedib o qarpızı toyla, el adəti ilə mənə alın.

Arvad gördü yox, bu avaz başqa avazdı. Gözlədi axşamı. Axşam əri gəldi. Çay-çörəkdən sonra arvad kirimişcə onun yanında oturdu.

Kişi dedi:

– Arvad, sözlü adama oxşayırsan.

Arvad eşidib bildiyi nə varsa hıqqana-hıqqana ərinə danışdı.

Əri dedi:

– İstəyir, biz də gedib alarıq. Burda nə var ki, dərdə düşürsən. Sabah gedib istəyərik. Əhməd də ki, mənim sözümdən çıxmaz.

Arvadı od götürdü:

– Bir o qalmışdı! Xalq gedib nazlı, qəmzəli qız alır, mən də qarpız alım? Bu nə işdi, başıma gəldi!

Çox dedi-qodudan sonra sabahı qarpıza elçi getdilər. Qapını döydülər. Əhməd tacir qapını açdı.

– Baho, xoş gəlibsiniz. Həmişə siz gələsiniz. Siz hara, bura hara? -deyərək qonaqları qarşıladı. Xoş-beşdən sonra tacir Əh-

məd qonaqların fikrini bilmək istədi.

Tacir Məmməd sözə başladı:

– Qardaş, Allahdan gizli deyil, bəndədən nə gizlədim? Mənim oğlum sənin qızına aşiq olub. Onun dərdindən yatağa düşüb, əlac qalıb sənə. Verməsən uşağım əldən gedir.

Tacir Əhməd təəccüblə dedi:

– Qardaş mənim ki, qızım yoxdur!? Varım, yoxum bir qarpızım var. O da ki, qurbandır sənə.

Tacir Əhməd taxtın altından qarpızı helləyə-helləyə qonaqlara tərəf itələdi.

Tacir Məmməd dedi

– Yox, qardaş, mən də xalq kimi gəlinimi toyla aparacam.

Əhməd dedi:

– Ay qardaş, bizi biabır etmək istəyirsən?

Məmməd dedi:

– Yox, oğlumun murazıdır, toyla aparacam.

Bunlar sağollaşıb evə gəldilər. Oğlana muştuluq verdilər ki, qarpızı aldıq. O saat oğlan ayağa durdu. Yedi, içdi, güldü.

Toya tədarük görüldü. Bir neçə gündən sonra toy oldu. El adətinnən qarpızı evə gətirdilər. Arvad bir başına vurdu, bir dizinə, ki, bu nəydi oğlum aldı?

Axşam oldu. Hamı yatdı. Qarpız kirimişcə qabığından çıxıb oğlanın yanına gəldi. Oğlan sevincindən bilmədi neyləsin. Oğlan qıza dedi:

– Ey gözəl mələk, yalvarıram daha qabığa girmə.

Qız razı olmayıb dedi:

– O da mənim paltarımdır. O olmasa mən ölərəm. Beləliklə, qız gecələr qabıqdan çıxır, camaat durmamış, yenə qabığa girirdi.

Bir gün qonşuda toy idi. Hamı toya getdi. Qarpız gördü ki, evdə heç kim yoxdur. Tez çölə çıxdı. Bir qaranlıq yerdə qabıqdan çıxdı və qabığını qaranlıqda gizlətdi. Tez getdi toya. Toy çalınanda ortaya çıxıb bir-iki qol oynayıb tez aradan çıxdı. Xəlvətcə evə gəldi. Tez gedib qabığına girib içəri keçdi. Evin adamları bundan sonra gəldi. Qaynanası başladı deyinməyə:

– Xalxın gəlinləri var, geyinir, kecinir, çölə çıxanda sular durur. Mənimki də qarpızdır. Bir dünya gözəli çıxdı, ceyran kimi süzüb aradan yox oldu. Bilmədik kimin gəliniydi.

Arvad bir xeyli oğlunun qarasınca söyləndi:

Bir gün yenə qonşuda toy idi. Hamı toya getdi, qarpız evdə tək qaldı. Fikirləşdi ki, o da getsin. Tez-tələsik qabığından çıxıb toya yollandı. Yenə də oynadı, tez evə gəlib qabığına girdi. Qaynənəsi gəldi. Yenə də tə'riflədi ki, kimdirsə, gəlib toyda oynayıb gedir. Yaman gözəldir. Bəxtəvər ərinin başına.

Bu minvalla bir müddət keçdi. Bir gün qohumlardan birinin toyu olurdu. Arvad baxdı ki, oğlu qarpıza deyir:

– Gəl bu dəfə qabığını çıxar, bərabər toya gedək.

Qaynənəsi bildi ki, burda bir sirr var. Başladı onu güdməyə, hamı toya gedəndən sonra qarpız evi xəlvət bilib qabığından çıxdı, onu gizlədərək toya getdi. Arvad gördü nə, həmən gözəl mələk dediyi elə öz gəliniymiş. Sevincindən bilmədi neynəsin.

Qarpız toya gəldi. Tez bir-iki dəfə oynayıb evə döndü. Evə yaxınlaşanda onu çox pis qoxu vurdu. İrəlilədi. Gördü nə? Qoxu onlardan gəlir. Səndələyə-səndələyə qabığını qoyduğu yerə gəldi. Gördü ki, qabığı yanır, qaynanası da yanında. Bunu görən qarpız birdən yerə yıxıldı. Qarpız qabığından bir çınqı od qopub onun saçına düşdü. Qarpız od tutub yandı. Qaynanası nə qədər havar çəkdi, əl-ayaq elədi, od sönmədi ki, sönmədi. Arvad bir başına, bir dizinə vurdu ki, niyə qabığı yandırıb.

Bir azdan oğlu gəldi. İşi belə görəndə dəli olub çöllərə düşdü. Çox çəkmədi ki, o da öldü.

Arvad tutduğu işdən peşman oldu, amma "sonrakı peşmançılıq fayda verməz" -deyiblər.

Nağıl da burda bitdi. Göydən üç alma düşdü, biri mənim, biri nağıl söyləyənin, biri də özümün.

# VI. QARAVƏLLİLƏR

## AXMAQ GƏLİN

Çıldırlı bir kişinin ağıldan seyrək bir gəlini var imiş. Bu gəlin gündə bir axmaq iş görüb qaynatasını əsəbləşdirər, evə qanqaralıq salarmış.

Bir gün qışın oğlan çağında gəlin dilini qapının rizəsinə basır. Dili yapışıb qalır orda. Bu vaxt qaynata həyətdən gəlirmiş. Görür gəlin qapıdan aralanmır.

– A gəlin, aralan qapıdan,-deyir.

Görür, yox. Ay aralandı ha! Kişi gəlinə bir şapalaq çəkir. Gəlin tirtap yerə yıxılır. Bu vaxt hər şey mə'lum olur. Qaynata deyinir:

– Ay buna tərbiyə verən, belin sınsın!

Gəlin bəladan qurtulub keçir öz otağına. Amma aclıq onu rahat qoymur. Cızdağ dolu qazançanı qoyur qabağına, 4-5 təndir çörəyini də bir yanına. Yeyib doyandan sonra fikrə gedir:

– Bu ləzətli piyi niyə başqası yesin, qoyacam qaynatamın yastığının içinə, sonra yeyərəm.

Belə də edir. Axşam yatanda qaynana baxır ki, yastıqdan nə isə başına axır. "Bəlkə tərləmişəm?",-deyə ayağa durub diqqət edəndə görür ki, yastığı bütün yağa bulaşıb, hirslə yastığın üzünü cırır, cızdağı görəndə bağırır.

– Cızdaq yeyən eşşək qızı, sənin cızdağın çıxsın.

Gəlin qorxudan özünü tövləyə salır. Ala dananı kəndirləyir, belinə palan qoyur. Eşiyə çıxarıb minir. Dana hürküb özünü tövlənin açıq qapısından içəri vurur.

Səsə ev sahibi eşiyə çıxır:

– Qonaq gəldi? Amma atlı-zadlı tövləyə keçdi ha.

Qaynata tövləyə gedəndə qəribə mənzərənin şahidi olur. Görür çıraq yanır, gəlin mağzala düşüb, özündən gedib. Ala danadı boynunda kəndir, belində palan bir tərəfdə durub.

– Qalx, a köpək qızı, -deyə kişi gəlini yerdən qaldırır.

Gəlin özünə gəlincə başlayır qaçmağa. Bu minvalla gəlib evlərinə çatır. Ata-anası üst-başını mal peyninə bulaşmış, əli-ayağı sıyrılmış qızlarını görəndə özlərini itirirlər.

– A bala, bu nə işdi?

Qız onlara cavab vermir, paltarlarını soyunub yatağa girir. Anası ağlaya-ağlaya deyir:

– A bala, de dərdin nədir?

Qız hirslənib yerindən dikəlir:

– Məni ərə yox,gora verdiniz. Qışda dilimi qapının rizəsinə vurdum-bir şapalaq. Cızdağı tıxdım, pıxdım, qalanını yastığa tikdim-iki şapalaq. Ala dananı yedəyimə alıb damdan çıxdım, sıçrayıb özümü dananın belinə yıxdım. Dana hürkdü, tövləyə keçdi, yerə vurdu. Qaynatam gəldi, od gəldi, alov gəldi. Qaçıb qurtuldum, bura gəldim. Qoysanız öldüyü yerdə ölə, mən bəxtiqaranı!

## QARINQULU PƏHLİVAN

Keçən əsrdə Xozuda qarınqulu, amma boy-buxunlu, pəhlivan cüssəli bir cavan yaşıyırmış. Qoluzorlu olsa da, amma çox sadəlövh imiş. Bir dəfə qarnı doymadığına görə çöldə çobanlarla özlərinin öküzlərindən birini kəsib kabab edir. Ağlı başına gələndə atasının qəzəbinə düçar olacağı qorxusu ilə o, Çıldır tərəfə yol alır. Ziyarət dağını aşanda artıq qaranlıq basıbmış. O, özünü yaxınlıqdakı kəndə salmaq istəyəndə kəndin itləri üstünə tökülür. Bərk qorxmuş cavan ağırlığı 10-15 put olan ot şələsinə girir. Bir azdan itlər oradan uzaqlaşır, səs-səmir kəsilir. Cavan elə yorulubmuş ki, elə oradaca yuxuya gedir.

Səhər açılır. Ot şələsini aparmağa gələn çoban şələnin kəndirini əllərinə dolayıb nə qədər güc versə də, şələni qaldıra bilmir.

– Qəribədir,-deyir-şələ ağırlaşıb?!

Sonuncu dəfə Allahı çağırıb güc verir. Şələni dalına qaldıranda yuxulu cavan tappıltı ilə yerə düşür. Ayıldığı ilə qaçmağı bir olur. Çoban onu görəndə şələni yerə buraxıb, kəndə götürülür:

– Ay haray, cin!

Xozulu cavan xeyli qaçandan sonra görür ki, bərk acıb. O, özünü yaxınlıqdakı bir evə yetirir. Görür ki, ev sahibi qoca bir arvaddır. Salam verəndən sonra deyir:

– Acından ölürəm, nənə, bir şey ver yeyim.

– Elə buna görə təngnəfəs olubsan?

– Aclıq qovurdu məni, neynim, ay nənə?

Arvad xeyli pendir-çörək, şor gətirir, süfrə açır. Cavan doyunca yeyib kəmərin altını bərkidəndən sonra qarı deyir:

– Gəl mənə oğul ol. Amma əvvəlcə səni imtahandan keçirəcəyəm.

– Nə imtahan, -deyə oğlan vahimələnir.

– Bir xəstə inəyim var, bir də atım. Bu gecə pəyədə yatacaqsan. Bir kürk verəcəm. Bürünüb axura uzan, başının altına da bir daş qoy. Pəyədə çıraq da var, yandırarsan gecə. Birdən inək ölər, onda kəsərsən. Çıxmayan cana ümid çoxdur, bəlkə inək heç ölmədi! Bu da bıçaq,-deyə qarı ona iti bir qəməlti verdi.

Cavan pəyəyə keçən kimi inəyə ani nəzər salıb girir axura. Kürkü başına çəkir. Gecənin bir vədəsi xırıltıya oyanır. Tez qalxıb qəməltini götürür. Ərindiyindən çırağı yandırmır. İnəyin yanına yüyürür, qəməltini heyvanın boğazına çəkir.Sonra təzədən yerinə uzanır. Səhər açılanda oğlan gözlərinə inanmır. Qaranlıqda inəyin əvəzinə atın başını kəsibmiş.

-İşim yaşdı,-deyə Xozulu cavan pəyədən ildırım kimi çıxır. Xeyli qaçandan sonra yolda rast gəldiyi mərəyə gəlir, ordakı iri səbətlərdən birinin altına girir. Bu zaman bir oğlan bir qızla bərabər mərəyə girir. Oğlan təzə paltar geyib, belinə xəncər bağlayıbmış. Qız oğlana deyir:

– Maşallah, paltar sənə nə yaraşır, amma xəncərin daha gözəldir.

– Bilirsən, nə itidir-oğlan xəncəri qınından sıyırar, -bu səbəti bir zərbə ilə iki böləcəm, bax.

Oğlanın xəncəri çəkməyi ilə, Xozulu cavanın başında səbət qalxmağı eyni vaxtda olur. Oğlan bayılır, qız özünü bayıra atır:

– Kömək edin, cin!

Xozulu cavan bütün gücü gəldikcə qaçır. Bir də görür ki, ziyarətin yaxınlığındadır. Bir tərəfdən də aclıq lap taqətini alıb. Özünü bir təhər Xozuya çatdırır. Evə girib görür ki, evdə heç kəs yoxdur. Əlinə keçəndən yeyib toqqanın altını bərkidəndən sonra  taxta uzanır. Birdən atası içəri girir, onun başına iki əlli bir qapaz salır:

– Boyunu yerə soxum, öküzü yedin getdi. İndi sən öləsən əlimdən qurtula bilməzsən. Bir iş var... Görməsən bu işi, gözlərimə görünmə.

– Nə iş, dədə?
– Bir pəhlivan gəlib, Böyükkişi adında. Gürcüstandandı. Bütün cavanlarımızı qatlayıb qoydu dizinin altına. Meydanda hərlənib pəhləvan axtarır. Əgər onu yıxsan...
– Ay dədə...
– Zəhrimar dədə, dur, düş qabağıma, -deyə atası onu qabağına salıb, meydana gətirir.
Baxır nə? Bir tərəfdə adlı-sanlı bəylər, xanlar əyləşiblər, bir tərəfdə də həya edən qız-gəlinlər dayanıblar. Meydanda qurşağa qədər çılpaq, şalvarının balaqları dizlərinə qədər çırmalanmış bir nəhəng fırlanır. Qolları şalban yoğunluğunda, sifəti qorxunc, gözldəri mə’şəl kimi. Xozlunun canına vahimə düşür, zorla meydana çıxır. Zurnaçılar “güləşəngi” çalırlar. “Allahın adına” deyib Xozulu cavan pəhləvanı başına qaldırıb yerə çırpır. Pəhləvan yıxılıb özündən gedir. Pəhləvanın adamları Xozuluya hücum eləyirlər. O, özünü itirməyib deyir:
– Nə istəyirsiniz məndən? Acıydım, öküzü kabab elədim... İtlər qovdu Çıldıra qaçdım... Axurda yatdım, inək əvəzinə atın başını kəsdim. Səbətə girdim... Üstümə xəncərlə gəldilər, səbətdən çıxdım, evə çatdım. İstədim yatam, dədəm gəldi, nə gəldi! Meydana çıxdım, iyidi qapıb yerə çaxdım. Acqarına nə edəsiyəm mən bədbəxt?!

## HADI, HUDU, GODU, DODU

Varıydı, yoxuydu, bir adsız kişinin, əvsiz arvadın bir cüt oğlu, bir cüt qızı varıydı. Hadı, Hudu, Godu, Dodu. Hadı kor, Hudu kar, Godu lal, Dodu topalıydı. Adsız kişi öldü, əvsiz arvadı yer aldı, uşaxlar qaldı: Hadı, Hudu, Godu, Dudu. Dedilər əvdə yeməyə heş nə yox, əmə işdahımız çox... Gəlin gedəh, qardaş-bacılı av eliyəh, quş quşduyax, yoxsa ölərih acınnan. Aj qalmıyax axıl ucunnan. Birimiz tor götürəh, birimiz tüfəh, birimiz pıçax, birimiz qəmə, acınnan boğazımız keşməsin kemə. Qoşuldular bir-birinə, ava çıxdılar. Hadı badronsuz tüfəyi götürdü, Hudu pıçağı, Godu qəmiyi, Dodu toru. Gəlif bir düzənniyə çıxdılar. Hudu dedi:
– Dayanın, səs gəlir, mən pıçağımı hazırrıyım.
Hadı dedi:

– Qabaxda bir ceyran var, səs salmıyın vurum.
Hodu dedi:
– Onda mən də qəmiyi hazırrıyım.
Dodu dedi:
– Mən də toru atım, ceyran qalxa bilməsin, tutax.
Deyişdilər, döyüşdülər, barışdılar. Hadı badronsuz tüfəyi üzünə qaldırıf tətiyi çəhdi. Güllə ceyranı tutdu, ceyran yıxıldı. Hudu pıçağı çıxartdı, Godu qəmiyi, Dodu da toru irəli atdı. Hoduynan Godu ceyranı kəsif doğradılar. Əti dörd yerə bölüf altı yox xurcunnara qoyuf atdılar dallarına , davam elədilər yollarına. Gəlif evə çatdılar. Yeddi ocağın odununu yığdılar. Odun, nə odun?! Hamısı çır-çırpı, tikan-mikan. Qərəz, oduna od vurdular, üstündən qazan asdılar, şaqqıyı qazana basdılar... Qayna, ha qayna... Di gəl nə ət pişdi, nə də ocax keşdi. Hadı, Hudu, Godu, Dodu dedilər:
– Görək bu nə işdi? Əməlli-başdı av elə, əmə yeməyini yemə?
Elə bunu demişdilər ki, qazan çəvrildi, ocax söndü. Hadı, Hudu, Godu, Dodu duruf külü eşdilər, eşdilər...
Külün altınnan bir tüfəh, bir tor, bir pıçax, bir də qəmə tafdılar. Baxdılar tüfəyin qundağı yoxdu, pıçağın ağzı, qəmənin dəsdəyi, torun ipi. Genə küllüyü eşdilər. Ordan bir məhtuf çıxdı. O sahat Hadı, Hudu, Godu, Dodu bir-birinə baxdılar. Məhtuvu aşdılar, içinnən bir ceyran şəkili çıxdı.

## MƏN, ARVADIM, OĞLUM, BİR DƏ DƏVƏ

And içim, arpa biçim, quru-quru qurbanın olum, quru-quru çaylar keçim. Yanmamış təndirə düşüm, qırmızı pişim, yalannan yoxdu işim. Danışdığım düzdü, doğru sözdü.
Bir məniydim,bir arvadım, bir də oğlum. Mən biqəm, arvadım sərsəm, oğlum hərdəm. Dolanırdıx ağa kimi, çanaxlı tısbağa kimi. Dövlətimiz çoxdu, amma evdə yeməyə heç nəyimiz yoxdu. Arvad dedi: “A kişi, gəl bir gəzməyə çıxaq“. Razı oldum. Oğlum da düşdü yanımıza. Gəldih bir düzənnih yerə. Belə baxdıx bir boz şey. Arvadım dedi:
– Dağdı.
Oğlum dedi:

– Yox, təpədi, amma bunun əyri boynu da var.
Arvadım dedi:
– Deyəsən bunun başı da, gözü də, belində yəhəri də, hələ deyəsən sallaq dodağı da var.
Bir də gördüh “dağ“ tərpəndi, qalxdı.
Oğlum çığırdı:
– Gəlin qaçaq zəlzələdi.
Arvadım haray saldı:
– Ay aman, vəlvələdi.
Mən baxdım ki, bu nə zəlzələ deyil, nə vəlvələ deyil. Dağ da deyil, təpə də deyil. Amma yekə bir heyvandı. Boynu əyri, qıçları uzun, quyruqlu. Atdı, at deyil. İtdi, it deyil. Öküzdü? Bə bunun buynuzu hanı? Qatırdı? Qatır bu boyda olmaz. Eşşəkdi, bə niyə anqırmır?
Oğlum dedi:
– Ana, tafdım. Bu keçidi.
Arvadım dedi:
– Yox, qoyundu. Gözün kor ha döyül, görmürsən yununu.
Oğlumla arvadım dalaşdı, başıma iş aşdı.
Ara qarışdı. Birdən o heyvan gəldi irəli. Lombaynan tüpürdü arvadımın üzünə. Baxam nə? Bu heyvan dəvəymiş, dəvə! Dedim, yaxşı oldu, bunu aparax əvə. Dəviyi gətirdih əvə. Bir də nə gördüh... Dəvə qənətdəndi, uşdu. Yalan demirəm, qaşdı. O bizdən qutardı, biz onnan.

## AV

Bir tüfəyim varıydı-lüləsi yox, çaxmaxlı, eşşəyim varıydı-quyruğu yox, əmə təpih atandı. Bir itim varıydı-hürüməzdi, ancax aj qalanda baldırımnan yapışardı. Qərəz, başınızı ağrıtdım. Bir gün mən də dedim ava çıxım, kefə baxım. Lüləsiz, çaxmaxlı tüfəyi götürdüm, quyruxsuz eşşəyi mindim, hürməyən it də tüşdü yanıma. Gəlif çıxdım bir hündür dağa. Başdadım o yana, bu yana baxmağa. Gördüm bir tısbağa. İt hürmədi, eşşəh təpih atmadı. Dedim fursatdı. Tüfəyi tikəltdim, nişan aldım. Güllə açılan kimi tısbağa qucağıma tüşdü. Mat qaldım bu nə işdi?! Əmə tısbağa necə zərbnən üsdümə tüşdüsə, eşşəyin gönünü deşdi. Eşşəyin belinnən dığırranıf yerə tüşdüm.

Tez ayağa qalxdım. Ayağa qalxdım nə... Tısbağa da yoxdu, lüləsiz çaxmaxlı tüfəh də, quyruxsuz eşşəh də. Dedim, Allah, Allah! Eləmədim bir eyvallah. Bu nə işdi tüşdüm?! Dağ aşdım, dərə keşdim, öz başıma iş aşdım, güjüm çatdıxcax qaşdım. Axırda tapdım... Quyruxsuz eşşəyin palanını, lüləsiz, çaxmaxlı tüfəngin qayışını. Baxam nə... qayış həmən qayış, palan həmin palan, dedihlərim də həmin yalan.

## VII. ATALAR SÖZLƏRİ

Ağzı elə yanıf, suyu da üfləyib içir.
Ağlamıyana məmə yoxdu.
Ağlamaxnan ölü dirilməz.
Adına layıx, adıma layıx.
Arsızın üzünə tupurdulər, elə bildi yağış yağır.
Aşıq üz görən yerə gedər.
Azacıx aşım, ağrımaz başım.
Ağıl ağıldan üskəkdi.
Ayın on beşi qarannıxdısa, on beşi aydınnıxdı.
Arığa dərisi də yükdür.
Artıx tikə göz çıxartmaz.
Ac eşiyə qaçar, çılpax içəri.
Axar su mundarrıx götürməz.
Atannan atamı deyincək, özümnən özünü de.
Acıyan gedər, giciyən gələr.
At qaçarda, quş uçarda.
Axır-axır, çıxar paxır.
Allah dağına baxar, qar verər.
Allahın da yanında bir adamın olsun.
At qaçar, üstündəki öyünər.
Arvad evinə girənin qapısı alçax olar.

Başarana baş qurban.
Balalı qarğaya pay çatmaz.
Bal yemədik, balıya düşdük.
Beş barmağın beşi də bir döyül.
Bəy dediyin hara, bəyənmədiyin hara.
Bir ağacın kölgəsində yüz qoyun yatar.
Biri bilmiyən mini bilməz.
Bir ölümə çara yoxdu.
Buyurannan sayıran yorulmaz.
Böyüyünü ayaxlıyan Allahını ayaxlıyar.
Buğdanın qarnı yarıxdı.
Bar vermiyən ağacı kəsəllər.
Baş nə çəksə dilin ucunnandı.
Boğaz boydan aşağıdı.

Bazara girdin gözü qıpıx, sən də ol gözü qıpıx.
Bulax gözünnən durular.
Büyünkü bağır-öfkə sabaxkı quyruxdan yaxşıdı.
Borcun qapısı açıxdı.
Bağçı bağa qıyır, bağmançı bir giləyə qıymır.
Bəy mənim arxam, mən kimnən qorxam?

Can candan çıxarıdı.
Can deməknən can əksilməz.
Camala baxma, kamala bax.

Çiy süd əmənnən eylik gözdəmə.
Çeynənən saqqız çürüyər.
Çağrılan yerə ərinmə, çağrılamayan yerdə görünmə.
Çıxan ay doğuşunnan bəllidi.
Çölmək yuvalanar, qapağını tapar.

Döymə qapımı, döymüyüm qapını.
Duz-çörək, düz çörək.
Dəm dəmi gətirər, qəm qəmi.
Dəvə irağa baxar, qatır dırnağa.
Düz danışanın papağının ortası deşik olar.
Danaçı qızınnan gəlin olmaz.
Dəlinin başında palıd ağacı bitmir ha.
Dilin zəkatı xeyir söyləməkdi.
Dəmiri döydükcək uzanar.
Dana tovla mıxını qopartsa bir yerə vurar, bir özünə.
Dilənçinin üzü qara olar, torbası dolu.
Dil qarıxar düzünü deyər.
Dəliyə beli ver, altınnan yeli.
Dəli dəliyi görməsə özünə yörənməz.
Doğrulux dost qapısıdı.
Divarı nəm çürüdər, insanı qəm.
Danalı darıxmaz.

El köçər, ədət köçməz.
Eyliyi başa çaxmazdar.
Eşşəyə min, ata çatıncax.

Eşşəyə minmək bir ayıf, düşmək iki ayıf.
Elə döyüş, barışmağa üzün olsun.
El içində, öl içində.
Eşşək anqırar, tayını tapar.
Ev oğrusu tutulmaz.
Erdən yola düşən bürküyə düşməz.
Ehtiyac adamı oğru eliyər.
El ağzı, çuval ağzı.
Evin kiçiyi oluncax, qapının iti ol.
Ev danasınnan öküz çıxmaz.

Əl tutmax Əlidən qalıf.
Ət yeyən quşun dimdiyi əyri olar.
Əzəl meçidin içi, sonra eşiyi.
Ətnən dırnağın arasına girmək olmaz.
Ətin çiyi ət gətirər, xamırın çiyi dərd gətirər.
Əzəlin gəlincək axırın gəlsin.
Əslini danan haramzadadı.
Əslində olan nəslində olar.
Ərnən arvadın torpağı bir yerdəndi.

Fikir min yerə gedər, güman bir yerə.
Fələyin gözü kordu.
Fələk yıxmıyanı kələk yıxar.

Gəzərsən xırda-xırda, bir gün uğrarsan qurda.
Gədədən bəy olmaz.
Göydən nə yağıf, yer qəbul eləmiyif?
Gec olar, güc olar.
Gəlin gəlin olmaz, gəlin gələn ev gəlin olar.
Görməmişdən al, dadamala ver.
Gündə-gündə, bir gün səndə, bir gün məndə.

Haynan gələn, vaynan gedər.
Həyə ilə niyənin üstündə yekə dava düşər.
Hənək-hənək, dalı dəynək.
Hər kəs öz evinin nökəridi.
Hörməti pulnan ölçməzdər.

Hırdan gələn zıra gedər.

Xata  mənnən boz qulana.
Xamır yeyənə eytibar yoxdu.
Xəsiyətini bilmədiyin atın dalına keçmə.

İki yana baxan çaş olar.
İt itnən boğuşar, yolçunun işi rast gələr.
İstiyənin bir üzü qara, vermiyənin iki üzü.
İtdən olan küçük olar.
İt itin ayağını basmaz.
İki su bir çörəyin yerindədi.
İş ki qaldı səbirə, tut yönünü qəbirə.
İsmarışnan  hac qəbul olmaz.
İsdanmışın yağışdan nə pəki?
İlan vuran ala çatıdan qorxar.
İyid hünərdə, at minərdə.
İti öldürənə sürütdədəllər.
İşdənən dəmir pasdanmaz.

Kələknən gələn, küləknən gedər.
Kor kimdi?-nabələd.
Kasıbın cadını almış, canını almış.
Koyxuyu gör, kəndi yıx.
Kəsik baş söyləməz olar.
Keçəl baxar güzgüyə, adını qoyar özgüyə.
Kar eliyən ar eləməz.

Qarğışdı baş çox yaşıyar.
Qılınc da öz qınını kəsməz.
Qoy məni tanış qurd yesin.
Qarın qardaşdan irəlidi.
Qurd xisləti dəyişməz.
Qarğışın iki başı var.
Qonşunun kileyini qırma: ya qapıdadı, ya bacada.
Qonşu paxıl olmasa, kor qız ərə gedər.
Qıç öpməknən ağız mundar olmaz.
Qazancın azı-çoxu yoxdu.

Qaradan artıx rəng olmaz.
Qızın var, qızılın var.
Qızını döymüyən dizini döyər.
Qonşuyu bir inəkli istə ki, özün iki inəkli olasan.
Qardaş oğlu qardaş olmaz, yola çıxsan yoldaş olmaz.
Qızıl taxtın oluncax, qızıl baxtın olsun.
Qul qismətini yeyəcək.
Qız qapısı, şah qapısı.
Qoça buynuzu ağırrıx eləməz.
Qurd nə bilir qatır bahadı.
Qaçan da Allahı çağırır, qovan da.
Qoyun ürkdü, axsax qabağa düşdü.
Qorxu cana kafaradı.
Qərib  itin quyruğu aşağı olar.
Quş var əti yeyilər, quş var ət yeyər.
Qardaş qardaşın bir ölümün istəməz.
Qılıxlı olan qulluxlu olar.
Qalmağallı yerdə ot bitməz.
Qırığa sevinməzdər.
Qohum getməyə-getməyə yad olar.

Lalın dilini yiyəsi bilər.
Layıq olsa başa çəkəllər, sən ayaxda otur.
Lütün dərdi olmaz.
Lütdən kəsən harda yeyəcək?

Mərd özünnən görər, namərd özgədən.
Milçəyin oluşu bir şey döyül, di gəl könül bulandırır.
Mal sahabına oxşuyar.
Mərdiməzarı axtarmaxnan döyül.
Minə bir-bir çatallar.

Nağdı olsun, soğan olsun.
Namusu it də yemir.
Nisyə-girməz kisəyə.
Nə şeytan görüm, nə də qulfallah oxuyum.

Oddan, sudan qar amannıdı.

Oğulun əfəli qohumnan qız alar.
Oğul dayıya, qız bibiyə çəkər.
Oddan od da törüyər, kül də.

Ölüm var ölüm kimi, ölüm var zulum kimi.
Ölənnən ölməzdər.
Ölü dərdi dərd olmaz, haray dirinin dərdidi.
Ölünün böyüyü-kiçiyi olmaz.
Özgə atına minən tez düşər.
Örgənmişə nə toba?
Örtülü bazar, dostluğu pozar.

Pay bölən ya payınnandı, ya imanınnan.

Söz vaxtına çəkər.
Siçanın zili də dənizə xeyirdi.
Suyun lal axanı, insanın yerə baxanı.
Sağ gözün sol gözə xeyri yoxdu.
Saman sənin döyül, samannıx ki sənindi.
Söymə nökər atama, söymüyüm bəy atana.
Su bulanmasa durulmaz.
Söz sözü çəkər.
Sən məni atının tərkinə almırsan, mən səni itimin tərkinə almaram.
Sən qaşoyunu cınqıllat, qoturu olan qocunacaq.
Susuz yerin Allahı birdi, sulu yerin Allahı iki.

Şəhərin böyüyü, kəndin kiçiyi.
Şöyürlü uşaq üç günnükdən mənşirdi.
Şaddığına şiddik eləmə.

Toyux da su içəndə Allaha baxar.
Toxun acdan xəbəri olmaz.
Tox deyər acmaram, ac deyər doymaram.
Tamarzıdan al, dadmala ver.
Toxa toxluxdan olar, üz-göz yoxluxdan olar.
Toxun imanı olmaz, acın gümanı.

Uman yerdən küsəllər.
Utan utanmazdan, qorx qorxmazdan.
Uşağı buyur, dalıncax yüyür.
Utananın oğlu olmaz.
Uzun saçlının ahı yerdə qalmaz.
Ucuz ətin şorbası olmaz.
Üz üzdən utanar.
Üzə gülənnən dost çıxmaz.

Var günün dostu çox olar.
Varını verən utanmaz.
Verən qazanmaz, alan qazanar.

Yemək adamı iki eləməz, yekə eliyər.
Yetimə ay da qarannıxdı, gün də.
Yüz fikir bir borcu ödəməz.
Yeməknən doymuyan, yalamaxnan doymaz.
Yeməmiş gəyirmə.
Yetim yekələr, azreyilin pisdiyi özünə qalar.
Yeməkdənsə umuddu olmax yaxşıdı.
Yaman yeyənin olsun, yaman deyənin olmasın.
Yanlış da bir naxışdı.
Yoldan qal, yoldaşdan qalma.
Yox olsun yoxsulluğu.

Ziyanın yarısınnan qayıtmax da xeyirdi.
Zarafat yorğan altda olar.
Zor zəyrəkdən bəzir çıxardar.
Zənən tayfasının dal ətəyi qabax ətəyinə duşmandı.

# VIII. LƏTİFƏLƏR

## MƏN SƏNƏ CAMIŞ VERDİM, GÖLƏNİN YAYLASINI DA VERMƏDİM

Bir nəfər güllücəli göləli birisindən cins camış almaq istəyir. Sövdələşirlər, belə şərt kəsirlər ki, camışın südünə baxandan sonra güllücəli pulunu verib camışı aparsın. Üç gün alıcı camışın südünə fikir verir. Görür ki, heyvan hər sağımda bir vedrə sud verir.

Çox sevinir, camışı alıb kəndə gətirir. Bir neçə gündən sonra görür ki, camışın südü get-gedə azalır. Şübhələnməyə başlayır, "yəqin camış sahibi məni aldatdı". Eləməyib tənbəllik, düz gəlir Göləyə. Camışın sahibin tapıb deyir:

– Bəs deyirdin camışın cins camışdı, amma südü get-gedə azalır.

– Mən sənə camış verdim, -deyə camışın sahibi əllərini Göləyə tərəf açır, -daha bu Gölənin yaylasını da vermədim.

## İSTƏYİRSƏN AĞLA, İSTƏYİRSƏN SAXLA...

1918-ci ildə türk qoşunları tərkibində vuruşan könüllülərdən balıqlılı, yetmiş yaşlı İsmayıl kişi günorta namazı qılırmış. Namazı qurtaran kimi çavuş başının üstünü kəsdirir:

– Haydı, get bərbərin yanına. Saqqalını qırxdır.

İsmayıl kişi nə qədər yalvarsa da, çavuş dediyindən dönmür:

-Biz əmri yerinə yetirən əsgərlərik, sən də əmri yerinə yetir.

İsmayıl kişi saqqalını qırxdırandan sonra tüklərini bir dəsmala büküb qoynuna qoyur. Bir tərəfə çəkilib ağlamağa başlayanda çavuş peyda olur:

– Kişi, öz işindir, istəyirsən ağla, əmri yerinə yetirdin,-əli ilə onun qoynundakı dəsmala işarə edir,-istəyirsən saxla...

## BİLETİ KİMDƏN ALACAĞIQ?!

Altı nəfər ağbabalı Gümrüdən qatara minib Tiflisə gəlir. Buradan da işləməyə Batuma getmək istəyirlər. Di gəl ki, nə rusca, nə də gürcücə bilmədiklərinə görə qalırlar belə... Axırda onlar-

dan biri deyir:

– Əşi, gedirəm qassanın qabağına. O urus qızına bir təər başa salaram bilet verər.

O, “Allaha pənah“ deyib keçir bilet satılan kassanın qabağına. Görür ki, bir rus qadını oturub içəridə. Deyir:

– Ağbabalı şest çelovek Batuma gedər, nə qədər pul versəm, bilet verərsən.

– Çto?!

– Adə bu zalım qızı öz dilini də bilmirmiş,-deyə bilet almaq istəyən ağbabalı dönür yoldaşlarına tərəf, -hə, indi bileti necə alacağıq?!

## SAYIQLA, HA SAYIQLA

Bir ağbabalı həmişə çıldırlı qaynanasını yoluxmağa gedər, xurcunda ona çay-qənd apararmış. Bir dəfə tərslikdən ağbabalı xurcunu boş aparır. Qaynana xurcunu boş görəndə o qədər hirslənir ki, kürəkəninə hətta çay da vermir. Kürəkən görür ki, qaynanası ona yemək-içmək verməyəcək. Deyir:

– Yerimi sal, yatım.

Yatağa girsə də kürəkənin acından gözünə yuxu getmir. Özünü yatan kimi göstərib yalandan sayıqlayır:

– İndi qaynanam qalxacaq, 4-5 yumurta qıracaq, qayğanaq bişirəcək. Mən də... qaşıqla, ha qaşıqla...

Qaynana gülümsünür:

– Xurcunu boş gəlmisən, sayıqla, ha sayıqla.

## YERƏ BASDIRMAQ LAZIMMIŞ

Bir xozulu paltarını soyunub çimirmiş. Birdən qapı döyülür:

– Tez ol, Çıldıra qonaqlığa gedirik. Geciksən özündən küs, gözləyəsi deyilik.

Xozulu tələsidiyindən alt paltarlarını tapa bilmir.

Tələsik bir neçə arşınlıq ağı bədəninə alt paltarı əvəzinə dolayır. Üstündən paltarlarını geyinib eşiyə çıxır. O, həmkəndliləri ilə bərabər Çıldıra gəlir. Qonaqlıqda yeyib-içəndən sonra onları çıldırlılar buraxmayıb gecə də qonaq saxlayırlar. Əyninə bez sarıyan xozulu bir nəfər həmkəndlisi ilə bərabər bir çıldırlı

bəyə qonaq olurlar. Yatmaq vaxtı gələndə o çox narahat olur.

– Siz yatın, mənim hələ yuxum gəlmir.

Ev sahibi ona təəccüb edəndə xozulunun həmkəndlisi ona deyir:

– Bəy, bu yuxusuzdur. Evində də belədir, yatmır, elə paltarlı bir çimir eləyir, vəssalam.

Ev sahibi bir şey deməyib  o biri otağa keçəndə həmkəndlisi xozuluya deyir:

– Adə, bu nə hoqqadır çıxarırsan ki, yatmıram, yuxum gəlmir. Düzünü de.

– Vallah, çimirdim. Xəbər elədiniz, vaxt tapıb alt paltarı geyinə bilmədim. Əlimə bir neçə arşınlıq bez keçdi. Canıma doladım, indi...

Müsahibi bərk qəhqəhə çəkir. Gülüş səsinə ev sahibi gəlir.

– Nə olub?

– Demə, qardaş, buna yer açmaq yox, bunu torpağa basdırmaq lazımmış!

## ACGÖZÜ BELƏ DOYURARLAR!

Bir çavuş iki-üç əsgərlə Ağbaba kəndlərindən birinə, bir evə gəlib ev sahibinə 4-5 toyuq verir:

– Əfəndim, bunu bişir, bərk yorğunuq. Əvvəl yer sal yataq, qalxanda yeyərik.

– Baş üstə.

Çavuşla əsgərlər yatandan sonra kişi toyuqları bişirir, amma nəfsini saxlaya bilməyib bişirdiyi ətdən bir-iki tikə dişinə çəkir. Görür yox, bu dad tam ayrı daddı ağzında. “Eh, nə olacaq, olacaq“-deyə qazançanı qoyur qabağına. Bir də onda ağlı başına gəlir ki, görür ətin hamısını yeyib qurtarıb. Onu vahimə götürür. Dönüb əsgərlərə, çavuşa baxır. Görür möhkəm yuxuya gediblər. Qazanın dibində qalan yağı götürüb onların sifətlərinə çəkir. Bir  azdan sonra çovuşla əsgərlər oyanırlar. Çovuş ev sahibinə deyir:

– Gətir, əti yeyək.

– Hansı əti?

– Toyuq ətini.

– Yeyib yatmadınız?

– Kişi, sən dəlisən?!
– Vay, nə tez yadınızdan çıxdı.
– Belə.
– Belə.
– Əsgərlər, haydı. Bu hərifə 10 zopa vurun. Toyuq ətini daddı, qoyun zopa da dadsın,-deyə çavuş hirslənir.
Əsgərlər ev sahibini cəzalandırandan sonra çavuş deyir:
– Acgözü belə doyurarlar, əfəndim. İndi arxayın oldum ki, yaxşı yeyib doydun. Qalx öz toyuqlarından bizə bişir.
Ev sahibi dinməzcə deyiləni yerinə yetirir.

## DÜZ SÖZÜN DUZU

Xozulu bir neçə bəy öz adamları ilə Çıldıra toya gedir. Bunlardan birisi çox qarınqulu imiş. Məclisdə oturan kimi o, beş-on qab ət yeyəndən sonra şirin çaya girişir. Sən demə, kənardan xozulu bəylərdən biri ona diqqət yetirirmiş. Qarınqulu on beş fincan şirin çay içib, on altıncı fincanı sifariş edəndə bayaqdan təəccüblə baxan bəyin hövsələsi daralır. İşarə ilə qulluqçunu yanına çağırır. Bəy ona bir qızıl verib deyir:
– Onun, -qarınqulunu göstərir,-qabağına apardığın çaya bir-iki ovuc duz at, qarışdır. Qoy, içsin.
Qulluqçu etiraz etmək istəsə də, bəy əl çəkmir.
Qulluqçu bəyin arzusunu yerinə yetirir; fincanı gətirib qarınqulunun qabağına qoyur. Qarınqulu çörəkdən yekə bir parça qoparıb ağzına qoyur, fincanı əlinə götürür. Onun hərəkətlərini diqqətlə izləyən bəy ucadan deyir:
– İç, iç. Şənlikdə, xeyir işdə qisməti yarımçıq qoymazlar.
Qarınqulu canını dişinə tutub fincanı başına çəkir, amma duz öz təsirini göstərir.
– Ciyərim yandı!
– Belə yaxşıdır, -bəy gülür,-hələ bir bu qədər də çay içəcəkdin yenə. Düz sözün duzu çox olar.

## AXILDAN YÜNÜL DƏYİLƏM

Bir gün Təzə İbişdi Rusdam Hamasıya getməh isdiyir, əmə avtobus gəlmir ki, gəlmir. Kişi gedif irayona zəng eliyir. Deyil-

lər darıxmıyın, avtobus gələcəh. Əmə genə gəlif çıxmır. Genə Rusdam irayona zəng eliyir ki, belə-belə, niyə avtobuz gəlmir. Axırda kişinin laf hövsələsi daralır. Elə bu vaxıt qonşularınnan biri Rusdamı daha da acıxlandırmaxdan ötürü deyir:

– Səndən yünül adam yoxdu, ay Rusdam, get bir də zəng elə irayona, bəlkə avtobusu yollayalar.

Rusdam o sahat qonşusunun məxsətini başa tüşüf deyir:

– Əyə, burya bax, yünül olmağıma yünüləm, əmə səni kimi axıldan yünül deyiləm.

## XALÇANI DA PULUN ÜSDƏ VERİM?!

Bir kasıf kişinin əvində arzax olmur. Odu ku, xalçıyı büküf vurur qoltuğuna, çıxır bazara. Fikirləşir ki, onu satıf bir qədər əl xərşdiyi eliyər. Kişinin baxdınnan heş xalçıya müştəri tüşən olmur. Kişi kor-peşman genə xalçıyı büküf vurur qoltuğuna, düzəlir yola. Bir də başını belə qaldırır ki, gün batıf. O, yolunu yaxınnıxdakı kəndə salır. Bir qapıyı döyür.

Əv sahabı qapıyı açıf deyir:

– Kimsən, nəçisən, a qardaş?

– Allah qonağıyam.

– Allaha da qurban olum, onun qonağına da. Buyur içəri keş.

Əv sahabı kişiyi çox mehribannıxnan içəri aparır, ona yuxarı başda yer görsədir. Qonax görsədilən yerdə oturannan sonra o sahat surfa açılır. Yaxşıca yeyif-içillər. Kasıf kişinin kefi kökəlir. Əv sahabı sözü hərriyif-hərriyif gətirir xalçanın üstünə.

– Qonax qardaş, baxıram səndəki xalça çox qədimidi. Bəlkə bunu mana satasan, hay.

Qonax əv sahabınnan bu sözdəri eşidəndə az qalır sevindiyinnən axlını itirsin.

– Həyə, qardaş, xalçıyı satıram.

– Onda gəl razılaşax.

– Nə deyirəm.

– Sənin bu xalçana səhsən manat versəm necədi?

– Mən razıyam.

– Əmə gərəh bu səhsən manatın on manatını mana bağışlayasan.

– Yaxşı.

Elə bu vaxıt əv sahabının arvadı da söhbətə qarışır.

– Qonax qardaş, görürəm çox ədəfli adamsan, maşallah. Fikirləşirəm ki, sən həmi də səxavətdi olarsan, eləmi?

– Sözünü de, bacı.

– Deyirəm xalçanın pulunnan bir yirmi manatını da mana bağışda.

– Yaxşı, nə deyirəm.

Bunu eşidən kimi əv sahabının qızı da dillənir.

– Qonax əmi, deyirəm xalçanın otuz manatını da mana bağışdıyasan. Çünki atam bunu mana cehizdih alır.

– Yaxşı, sən deyən olsun.

Burda əv sahabının oğlu da özünü saxlıya bilmir, deyir.

– Qonax əmi, deyirəm xalçanın yirmi manatını da mana bağışdıyasan. Nə deyirsən?

– Yaxşı, yaxşı... bağışdadım.

Bir də baxıllar başdarı danışığa qarışıf, gecə keçif. O sahat əv sahabı görsədiş verir. Yatax açılır, yer salınır. Qonax o sahat başını atır yerə. Sabax açılan kimi tez duruf geyinir, xalçıyı püküf vurur qoltuğuna. Getməh isdiyəndə əv sahabı ona deyir:

– Qonax qardaş, xalçıyı haraya aparırsan? Axşam mən onu sənnən sövdələşif almadımmı?!

– Düzdü, sövdələşdih, əmə üst-üstə mən sizə səhsəh manat pul bağışdamadımmı?! Bağışdadım. Bu da mənim alverim, xalçanı da pulun üstündə üstəlik verim?!

## SƏN DEDİN, MƏN DƏ ELƏDİM

Bir arvadın səfeh bir qızı varıymış. Bir gün qızın baxdı açılır, ona elçi gəlir. Tərəflər razılaşıllar. Tezdihnən toy başdanır. Qızın anası qızını bəy əvinə yola salanda onun qulağına yavaşcadan deyir:

– Bax, qızım, mənnən sana nəsiyət. Ağır otu, batman gəl. Getdiyin yerdə üz ağart, baş çıxart.

Qız dillənmir. Bəli, gəlini bəy əvinə gətirillər. Aradan xeylax keçir. Əmə gəlin bir işin qulpunnan yapışmır kı, yapışmır. Əvdə hara gəldi oturur. Bir gün belə, iki gün belə, üş gün belə... Axırda qaynənə gəlinin əlinnən dilə gəlir:

– A bala, bir yerinnən yehkinif qaxsana! Əlini əlinə vuruf

ətəyini belinə keçirtsənə! Daş kimi elə tüşdüyün yerdə qalırsan. Sana nə oluf?

Gəlin bu sözdəri eşidən kimi yerinnən qalxıf un çuvalının yanına gəlir. Üzünü unnuyuf çıxır əvin bacasına. Başını bacadan eşiyə çıxardır. Qaynənə heş nə başa tüşmür. Öz özünə deyir "Dəlinin dilini yiyəsi bilər". Gəlinin anasını çağıtdırır. Gəlinin anası məsələdən halı olan kimi qızına acıxlanır:

– A qız, bu nə axmax işdi tutufsan?

– Ana, sən özün mana nəsiyət eliyif demədinmi üz ağart, baş çıxart. Gördüyün kimi, üzümü ağartdım, başımı çıxartdım. Sən dedin, mən elədim, daha nədi qələtim?!

## DÜŞ DƏ, DÜŞÜRT DƏ

Bir kişinin o qədər də dünya görmüyən bir qızı varmış. Bir gün onu ərə verillər. Anası qızının cevinə bir balaca daş qoyuf deyir:

– Bax, qızım, mən sana deyirəm. Ər əvində özünü sakit apar. Bu civindən daş dillənəndə sən də dillən. İşini-güjünü bil.

Bəli, gəlini gətirillər bəy əvinə. Gəlin yaxşı iş görən olsa da, dinif danışmır. Əv sahabı, yanı qaynata öz-özünə hayıfsanıf deyir:

– Gəlin yaxşı gəlindi, di gəl ki, laldı. Yox, belə olmaz. Gərəh oğluma təzə arvad alam.

Odu ku, əv sahabı oğlunu genə əvləndirir. Əvə ikinci gəlin gətirir. Bu vaxt köhnə gəlin ocağın üsdünə tavada süd qoyufmuş. Təzə gəlin köhnə gəlinə belə deyir:

– Lal gəlin, lalıx gəlin, südün daşır, düşürt gəlin.

Köhnə gəlin təzə gəlinnən bu sözdəri eşidəndə oddanmırmı:

Özü yəhər qaşında,
Gözü ocax başında,
Tüş də, düşürt də.

## DƏDƏNİN ADINDAN

Xozudan hesafdar Məsim Qoncalıya hesafdar təyin olunur. Hesafdarlardan biri həmməşə ona yaxınnaşıf qabaxcax onun adını xəbər alır:

– Sənin adın nədi,  a qardaş?
– Məsim.
– Mana bir papırıs ver çəkim.
Beləcə həmin hesafdar Məsimin adını yadında saxlıya bilmir ki, bilmir. Axırda hesafdar Məsim bir də korafəhim hesafdar yoldaşı onnan adını xəbər alanda ucadan hamı eşitsin deyə deyir:
– Dədənin adından, dədənin adından.
Sən demə, həmin hesafdarın da atasının adı Məsim imiş.

## ANAMA DEYƏRƏM SİZƏ DƏ İKİ ARVAD ALAR

Bir yaşdı qadının gözünün ağı-qarası bir oğlu varıymış. Oğul da nə oğul, səfehin biri. Arvad baxır ki, oğlunun yaşı keçir. Odu ku, oğlunu dilə tutur:
– A bala, yar-yoldaşların əvləndilər. Bir sən də tərpənsənə!
– Ana, mən də əvlənəcəm, əmə...
– Əmə, nə?
– Əmə gərəh mana iki arvad alasan.
– Səfeh-səfeh danışma. İki arvadı neynirsən?
– Biri yır-yığış eliyər, o biri də bir işdə işdiyər, yanı eşihdən içəri bir şey gətirər da.
– A bala, axlını başına yığ. Sən deyən baş tutmaz.
– Onda mən də əvlənmirəm.
Yazıx arvad çox tüşünüf-daşınır. Axırda çarasız qalıf oğlunu əvləndirir, ona iki arvad alır.Əmə arvaddar bir-biriynən saş yolduya çıxır, heş yola getmillər. Hər gün əvdə dava olur. Oğlan işi belə görüf hər gün sabağın gözü açılmamış əvdən çıxır, bir də axşam gəlir.
O, bir gün qapıda oturuf özünü günə verirmiş. Bir neçə milçək onun üz-başına qonur. O acıxlanıf deyir:
– And olsun Allaha, məni cana gətirmiyin ha. Yoxsa anama deyərəm sizə də iki arvad alar, mənim kimi əvdən qaçax tüşərsiniz.

## DƏDƏM ÖLÜR, ƏT YEYƏCİH

Kəntdərin birində bir kasıvı öküz vurur. Kişi laf ölümcül olur. Kişinin axıldan qıvrax böyüh oğlu anasınnan soruşur:

– Ana, atam daha sağalmıyacax?
– Yox.
– Onda ona ehsən verəcih?
_Həlbəttə, nə oluf ku?
– Heş nə, elə xəbər aldım.
Oğlan bu sözdəri eşidən kimi tez yüyürür eşiyə. O biri qardaş-bacılarını başına tofluyuf sevinə-sevinə belə deyir:
– Uf, can ey, dədəm ölür, ət yeyəcih.

## BƏ MƏN ACINNAN ÖLÜM?!

Ajdıx vaxtdarıymış. Ağbabada yeməyə bir şey tapılmırmış. Bir kətdi oğlunu qardaşının əvinə yolluyuf deyir:
– Get əminin saqqızını mana gəti.
Oğlan o sahat gəlir əmisinin əvinə, içəri girən kimi əmisinə belə deyir:
– Əmi, dədəm deyir ki, saqqızını bir-iki sahada mana versin.
Uşax bu sözdəri deyən kimi əv sahabı hirsdənmirmi:
– Əyə, a bala, nə təhər deyirsən? Dədən saqqızı çeyniyif tox olsun, bə mən acınnan ölüm?!

## SÖVDƏLƏŞMƏ

Bir xozulu verdiyi sözü tez inkar edər, dediyi ilə əməli düz gəlməzmiş. Bir gün o, qonşusuna bir kəl satır. Bir az keçəndən sonra peşiman olur, gəlir qonşusunun yanına:
– Kəli geri ver, al pulunu.
Qonşusu razılaşır. Höcət xozulu nə fikirləşirsə deyir:
– Qoy hələ qalsın, bir yaxşı fikirləşim.
Aradan bir neçə gün keçəndən sonra kəlin sahibi qonşusunun qapısını kəsdirir:
– Kəli satmıram.
– Sən burda gözlə, mən gəlirəm,-deyə ev sahibi pəyəyə keçir. Xeyli keçəndən sonra geri qayıdıb deyir:
– Gəl, a qonşu, kəli apar.
Kəlin sahibi içəri girəndə baxır kəlin başını kəsiblər.
– Bu nədi, a qonşu?
– Daha nə eləyim, gah peşiman olursan, gah razılaşırsan.

Apara bilirsən apar-olma mat, apara bilmirsən-sat,-deyə ev sahibi kəlin cəmdəyini göstərir.

## ZALIM QAYINANANIN AXIRI

Axılkələk tərəfdə Dadlı adlı arvadın üç gəlini var idi. Dadlı da Dadlı idi ha! Evdə hakimi-mütləq idi. Oğlanları da, gəlinləri də qabağında qul idi. Heç kəsin qorxudan danışmağa həddi çatmırdı. Qaynana gəlinlərə şişin ucunda çörək verirdi. Biçarə gəlinlər yarıac, yarıtox dolanırdılar. Bir gün kiçik gəlin dözməyib eltilərini yığdı başına. Bir tədbir tökmək qərarına gəldi. Eltilər kiçik gəlinin mətləbini biləndə razı oldular, münasib vaxt aramağa başladılar. Bəli, bir gün qayınana toya gedəndə qayıtdı ki:

– Qayınananınkı toydu, gedim bir az oynayım. Hə, gəlininki də evdə yır-yığış eləmək, iş görməkdi.

Qayınana nə fikirləşdisə barmağını gəlinlərə silkələyib xəbərdarlıq elədi:

– Baxın ha, hər şeyi manşırlamışam! Bir şey oğurlasanız, oğurluğunuz faş olacaq. Onda mən bilərəm sizə neylərəm.

Qərəz, qayınana gedən kimi kiçik gəlinin əlinə fürsət düşdü. O, tez yüyürüb anbardan un, küpədən yağ götürdü, eltilərinə göstəriş verdi ki, təndiri qalasınlar. Hərə öz işini gördü. Kökə, kətə bişirdilər. Gəlinlər kökəni, kətəni ağız dadı ilə yeyib qurtarmışdılar ki, baxdılar budu Dadlı gəlir. Kiçik gəlin dedi:

– Böyük gəlin, sən Dadlının belindən, ortancıl sən də əllərindən bərk-bərk yapışarsınız. Mən də boğazından tutaram. Hə, mən işarə eliyən kimi onu əhatəyə alın, işə başlayaq, yoxsa Dadlıdan yaxa qurtarmaq olmaz.

Qərəz, qayınana evə gəldi, nə gəldi. Gördü, dədə vay, yerə un tökülüb, küpədən xeyli yağ götürüblər. Təndir də od kimi. Dadlı istədi hay-küy salsın, amma kiçik gəlin ona imkan vermədi. O, işarə edən kimi böyük gəlin qayınananın əllərindən bərk-bərk yapışdı. Kiçik gəlin də Dadlının boğazından tutdu. Vur ki, vurasan...

Bir də onda gördülər ki, qayınana huşunu itirib yerdə qaldı. Tez yer saldılar. Dadlını soyundurub yorğan-döşəyə qoydular.

Hə, axşam oldu. Dadlının oğulları işdən evə gəldilər. Onlar

analarını yorğan-döşəkdə görəndə mat qaldılar. Kiçik gəlin özünü itirməyib dedi:

– Dadlı xəstələnib. Toya getmişdi. Elə gələndən girib yatağa.

Elə bu vaxt hirsli-hikkəli qayınana dikəldi, cana gəldi. Hirsindən, hikkəsindən dili tutulmuşdu. Əlini o yan, bu yana yelləyib özünü oynayan kimi göstərdi, sonra əlini belinə, biləklərinə, boğazına apardı, gəlinləri göstərdi. Oğlanları analarının hərəkətlərindən heç nə anlamadıqlarından, böyük oğul kiçik gəlinə dedi:

– Gəlin, deyəsən sən anamın işlərindən baş açırsan. De görüm, anam nə deyir?

– Dadlı deyir ki, qoy gəlinlər oynasınlar, onsuz da axır gümümdü. Gəlinlər oynaya-oynaya oxusunlar. Kim nə istəsə, ona öz istədiyini verəcəyəm.

– Onda başlayın görək. Təki anamın arzusu gözündə qalmasın.

Əvvəlcə böyük gəlin oynamağa başladı. O, oynaya-oynaya belə dedi:

Qənimdi,
Dadlı bizə qənimdi.
Özü peşkəş eləyib,
Gümüş kəmər mənimdi.

Elə bu vaxt oyuna ortancıl gəlin çıxdı. Oynaya-oynaya belə oxudu:

Dadlım istər yatmağı,
Əl-qolunu atmağı.
Mənim olur bu gündən,
Dadlının cüt qolbağı.

Hə, kiçik gəlin də meydana girdi. Ortada bir dövrə vurub oxudu:

Dadlım istər bez-ağı,
Yeyilməz balı-yağı.
Mənə çatan şey budur,
Dadlının boyunbağı.

Dadlı məcbur olub kəmərini böyük gəlinə, qolbaqlarını ortancıl gəlinə, boyunbağını kiçik gəlinə verdi.

## MACALIM OLMAYIB

Bir kişi həmişə evə əli dolu gələrmiş. Arvad onu canhacanla qarşılayar, kişiyə həvəslə qulluq edərmiş. Bir gün kişi evə əliboş gəlir. Arvad kişini əliboş görüb qayıdır ki:

– A kişi, burnun nə uzundu!

Bunu eşidəndə cin vurur kişinin başına:

– A köpək qızı, otuz ildi sənin ərinəm, guya mənim burnumu indi görürsən!

– Yoox, a kişi, atamın göru haqqı. Həmişə bu vaxta qədər əllərinə baxmışam. Vallah, üzünə baxmağa macalım olmayıb.

## MƏNƏ YUXU DANIŞIRSAN?!

Bir çobanın tənbəl, naqqal bir arvadı varmış. Hə, bir gün evdə çörək qurtarıbmış. Arvad deyinə-deyinə qollarını çırmalayıb xəmir yoğurur. Əlləri xəmirli-xəmirli tirlənir taxtın üstünə:

– Barı bir gözümün acısını alım.

Arvad bir də onda ayılır ki, xəmir acıyıb. O, təndiri qalayır, poşğunu çəkir irəli. Xəmiri kündələyib düzür poşuğunun üstünə. Sonra rəfətəni götürüb kündələri bir-bir yapır təndirin badına.

Amma yenə arvadı yuxu tutduğundan təndirin başında yuxulayır. Bir də o vaxt ayılır ki, təndirdə çörəklər yanıb. Deyinir:

– Allah kəssin belə işi. Canın çıxsın, çörək bişir. Onu da birlə ikini qanmayanın biri, çölləri dolananın biri yesin, şirin-şirin gərnəşsin. Baxt andır, yanasan səni, bu çörək kimi. Məni də bir xanım eləsəydin dünya dağılmazdı ki!

Arvad deyinə-deyinə qalan kündələri də təndirin badına yapıb təndirin başına uzandı, çünki yenə onu yuxu tutmuşdu. Bir də gözünü onda açdı ki, çörək yanıb əldən çıxıb. Heç eyninə almadı:

– Çoban adamdı, yorğun gələcək. Çörəyin yanığı onu maraqlandırmaz. Ac olan gic olar, cumar yeməyə. Daşdan yumşaq nə var, qoy qabağına yesin. Mən niyə qorxuram ki!

Qərəz, axşam olan kimi evin kişisi işdən evə gəldi. Arvad ölə-ölə birtəhər kişinin qabağında süfrə açdı. Hıqqıldaya-hıqqıldaya dedi:

– Eh, bu xörək bişirmək, qazan asmaq məni lap xəstə eləyib.

Çoban dinmədi. Yeməyə girişdi. Amma gördü şorba yanıq dadır, içində ət yanıb, üstəlik çörək də yanıq... Qayıtdı ki:

– Ay arvad, deyəsən bu dəfə lap ağ eləmisən.

– A kişi, sən Allah, xörəyini soyutma, ye. Sonra danışarsan, iştahın küsər.

– Arvad bu işdən məni agah elə görüm, bu gün xörəyin-çörəyin niyə belə olub?

– Vallah, a kişi, yuxuda gördüm ki, cənnətə düşmüşəm. Məni xanım kimi başdan əyləşdiriblər. Qulluqçularım, nökərlərim... Allah, necə baxtavaram. Ayıldım ki, çörək yanıb.

Bu sözləri eşidəndə kişi hirslə ayağa qalxdı. Çomağı götürüb düşdü arvadın üstünə. Vur ki, vurasan.

– Sən iş görmək əvəzinə mənə yuxu danışırsan? Yatmısan, yoxsa çörək-xörək bişirmisən?!

## QOY BİZ DƏ BİR ŞEY YEYƏK

Bir nəfər yol gedirmiş. O, yolda bir kora urcah olur. Kor ayaq səsi eşidib deyir:

– Ey Allah bəndəsi, mənə də kömək elə, yedəyimə gir, yol yoldaşı olaq.

Yolçunun kora yazığı gəlir, onun qoluna girir. Sən demə kor acıdillinin birisi imiş. Odur ki, başlayır köntöy-köntöy danışmağa:

– A qardaş, ağırılığını üstümə salma. Şikəst adamam, lap nəfəsim kəsildi. Bir əməlli hərəkət eləsənə.

Yolçu bunu eşidəndə bərk acıqlanır. Tez aralanır kordan. Amma kor danışmağından qalmır:

- A qardaş, Allaha xoş getməz ki, məni yolda qoyub gedəsən, Tanrı cəzanı verər.

Yolçu insaflı olduğundan yenə korun qoluna girir. Hə, onlar birtəhər gəlib bir kəndə çatır, bir qapını döyürlər. Ev sahibi onları içəri dəvət edir. Qonaqlar keçib bir tərəfdə əyləşirlər. Ev sahibi dərhal bir xoruz kəsir. Ev qadını qazan asır. Amma arvad

ortalığa noxud dolu bir kasa qoyub deyir:

– Bir az bundan dadın. İnşallah, ona qədər xörək də hazır olar.

Hə, kor başlayır noxuddan yeməyə. O, əvvəlcə bir-bir, sonra cüt-cüt noxudu ağzına atır. Amma o biri yoldaşından səs-səda çıxmadığını görüb kor elə xəyal eləyir ki, yol yoldaşı noxudu ovuclayıb yeyir. Odur ki, kor noxudu ovuclayır... Baxır yenə səs-səmir yoxdu. Kor dolu kasanı qabağına çəkib yol yoldaşına acıqla deyir:

– Əşi, insafın olsun. Bayaqdan ovuclayıb yediyin bəs deyil, yenə yeyirsən?! Qoy biz də bir şey yeyək.

## HEŞ GÖRMÜR KÜ!

Göygöz bir adam avam bir arvada rasd gəlir. Arvat onun gözdərinə baxıf deyir:

– Sən yaxşı görürsənmi, nə irəhdə görürsən?

Kişi işin nə yerdə olduğunu başa tüşüf deyir:

– Bir əz görürəm, özü də göy irəhdə.

Arvat əliynən xeylax uzaxdakı ot piçənnəri görsədir:

– O tərəfdə nə var?

– Göy otdar yenif qalxır.

– Bə mənim qaloşdarım nə irəhdədi?

– Göy irəhdə.

– Bıy başıma xeyir! Sən yazıx kor imişsən ki...

Heş görmürsən ki!

## UTANMIYIF HƏLƏ DANIŞIRSAN DA?!

Bir kişiyi kasıflıx laf cana yığmışdı. Bir gün kişi xeylax baş sındırannan sonra arvadına dedi:

– Ay arvat, işin çəmini axır kı, tafdım. Yox, daha ajdıx çəkmiyəcih.

– Laf yaxşı olar belə olsa... İndi de görüm, a kişi nə tüşünüfsən-daşınıfsan.

– Elə günü sabaxdan qapımıza qaratikan kolu əkəcəm. Denən niyə. Çünki qoyun sürüsü həməşə bizim qapımızdan keçir.

– A kişi, qaratikanın işə nə dəxli var.
– Ay arvad, qoyunnarın yunu qaratikan kollarına ilişəcəh.
– Tutax  kı ilişdi.
– Atan oldu rəhmətdih. Sən də o yunnarı yavaş-yavaş bir yerə yığıf yuyar darıyar, sonra əyirif yığıf bir boğaz at alaram.
– Çox yaxşı fikirdi, amma...
– Nə amma?
– Amma mən də onu minif tez-tez dədəmin əvinə gedif-gələrəm.
Söz burya çatanda kişinin cini tutdu. Çomağı götürüf tüşdü arvadın üsdünə. Vur ku vurasan. Axırda yoruluf bir tərəfdə otdu, çomağı da bir yana tulladı. Arvat ufulduya-ufulduya dedi:
– A kişi, günahım nədi, məni döyüf niyə qol-kıçımı qırdın.
– Səs salma, laf sənin canını da alaram. Boğaz atı minif bala saldırmax isdiyirsən? Satıf onun balasının puluynan dolanarıx. Sən də mənim əməyimi heç eliyirsən. Hələ bir utanmıyıf danışırsan da?!

## BELƏ ZARAFAT OLMAZ, A QADAN ALIM

Qoluzorlunun biri yol ilə gedirmiş. Yolda bir çobana urcah olur. Çoban bir daşın üstə oturubmuş, arxası yolçuya tərəf. Yolçunun birdən məzə damarı tutur: "Gəl bir bu çobanla öcəş, görək nə olur?" Deyir:
– Ay yastı-yapalaq, tökməbədən qoyun güdənin birisi, qabağında qoyun sürüsü... Nə fikirləşirsən, ayə, gəmilərinmi dəryada qərq olub?!
Çobandan səs-səmir çıxmır. Yolçu bir az da onun üstünə ayaq alır: "Yəqin qorxusundan dinmədi".
– Kişi, boşaltsana ağzının kirişini.
Görür, yox, çoban heç dinmir. Öz-özünə belə qərara gəlir: "Bəlkə laldı? Yox, hələ bir ucadan qışqırım". Yolçu bir az yaxına gəlib səsi gəldikcə bağırır:
– A mən deyən, qarın-qarta yeyən, çöllərdə ayaq döyən, səs versənə, tərpənsənə.
Çoban yenə dillənmir. Yolçunu tamahı azdırır. İstəyir sürünü çobanın əlindən alıb aparsın. Hə, elə bu vaxt çoban geri çevrilir. Çobanın sallaq bığları, qan damar gözləri, zəhmi yolçunu basır.

Görür, çoban azmanın biridi. Evin yıxılsın, adam yiyəsi, bu lap adam yarımdı. Yolçu ürəyində "nə pis yerdə axşamladım" - deyir.

Çoban ona işarə eləyir ki, əyləşsin. Yolçu xeyli aralıda əyləşən kimi çoban dərhal əlini onun çiyninə qoyub dikəlir:

– Mənim sənin kimi uzun-gödək eləməyə nə vaxtım var, nə də həvəsim. De görüm, sənə kərədən, kürədən, kəlindən nə kəsim.

Yolçunun çobanın əlinin ağırlığından nəfəsi gedib qayıdır, az qalır beli sınsın. Qayıdır ki:

– Hörmətin artıq olsun, bircə çiynimdən əlini qaldır, nəfəs alım. Belə zarafat olmaz, a qadan alım.

## TAMAH BAHASI

Deyirlər, bir aqil dünyagörüşlü kişinin avam bir gəlini varmış. Gəlin həmişə üzü örtülü gəzərmiş, bir gün o, heyvana yem verəndə üzü açılır. Gəlin bir dizinə, bir başına vurur:

– Vay, vay ... Biabır oldum, ala öküz üzümü gördü.

Gəlin tələsik özünü qayınanasına çatdırıb başına gələni ona danışır. Qayınana da o qədər ağıllı arvad olmadığından deyir:

– Sən heç kəsə söz demə, mən gedim bir mollaya genəşim bu işi. Hələ ki, qayınatan evdə yoxdu bu işə əncam çəkək, yoxsa kişi bizi öldürər.

Qərəz, qayınana gəlir mollanın yanına. Molla əhvalatdan hali olan kimi kefi durulur. Tamahı güc gəlir, arvadın avamlığından yana deyir:

– Bu çox qəliz məsələdi. Ala öküzü kəsin, sirri faş olmasın. Bir budunu da mənə göndərin ki, xətircəm olum ki, iş yerinə yetirilib.

– Molla, Allah səni bizə çox görməsin.

Arvad sevinə-sevinə evinə qayıdır. Tez ala öküzü kəsdirir, ona-buna göndərir, amma mollanı da unutmur. Bu işdən az keçməmiş evin sahibi evə dönür. Əhvalatdan hali olub düz mollanın yanına gəlir. Molla kişini görəndə qorxusundan dili tutulur. Birtəhər özünü ələ alır:

– Ay ağsaqqal, nə yaxşı bizi yad ... yad eləmisən?

– Öküzün bahasını almağa gəlmişəm, amma iki öküzün qiy-

mətini ödəyəcəksən, yoxsa...

Molla bir istəyir etiraz eləsin, amma ağsaqqalın iti baxışlarından qorxub başını aşağı salır, pulları sayıb verir ağsaqqala. Ağsaqqal pulları cibinə qoyub qayıdır ki:

– Deyəsən başa düşmədin, a molla. Biri kəsilən ala öküzün bahası, o biri sənin tamahının bahasıdı. Hə, məsəl var deyərlər: "İti öldürənə sürütdürərlər". "Gəlinin üzünü ala öküz görüb, bu axmaq işi də sən..."

## İŞ GÖRƏNƏ BİR ŞAHI, "BƏH-BƏH" DEYƏNƏ BİR ABBASI

Deyirlər, bir ağanın çox tənbəl nökəri varmış. Elə adına Tənbəl deyərlərmiş. Nədən ki, şahın tənbəli imiş. Qərəz, bir əməlli iş yarıtmaz, üz ağartmazmış. Gördüyü iş iş olmazmış. Amma nökər çox sumbatlı, qollu-budaqlı bir adam imiş. Ağa olduqca insaflı, xeyirxah olduğundan nökərə yazığı gələrmiş. Adamlarına tapşırarmış ki, onu yola versinlər.

Bir gün qəflətən qonaq gəlir. Əlüstü bir erkək kəsilir. Ocaqlar qalanır, qazanlar asılır. Tənbələ də iri bir kötüyü göstərib deyirlər:

– Bunu yar, xırdala, kabab üçün odun lazımdı.

Tənbəl bir ora baxır, bir bura baxır, bəlkə ağanı görsün, bəlkə bu işi ona tapşırmayalar, amma mümkün olmur. Tənbəl bir baltanın iri ağzına baxır, bir kötüyə baxır, gözləri böyüyür, "Hə, öz aramızdı, əcəb işə düşdük. İndi bu kötüyü kim yaracaq, məndə də taqət yox..." Elə bu vaxt bir dilənçi gəlir. Payını alandan sonra bir tərəfdə əyləşib Tənbələ tamaşa eləyir.

– Ay maşallah, adamda gərək sumbat ola, and olsun Allaha, beləsində şir gücü var.

Bu sözlər Tənbəli ürəkləndirir. O, birtəhər baltanı götürür.

– Ay bərəkallah, bir nərə təpib çək o baltanı kötüyə, qoy paralansın.

Tənbəl daha da qeyrətə gəlib baltanı qaldırıb, gücü gəldikcə kötüyə ilişdirir.

– Belə ha, ay qoçağım. Bir də, bir də...

Tənbəl baltanı kötükdən dartıb çıxarır, bir də zərbə endirir. Belə-belə kötük parça-parça olur. Tənbəl yarmaçaları

xırdalayır. Dilənçi yenə tərifindən qalmır:

– Əşi, belə aslanbilək oğul ələ düşməz, göz dəyməsin, bu ağa nə xoşbəxtdi ki, beləsi bəxtinə düşüb, işinə yarayır.

Sən demə, bayaqdan bu işə ağanın adamlarından biri tamaşa eləyirmiş. Kötük doğranandan sonra o, əlini cibinə atır. Tənbələ bir şahı, dilənçiyə bir abbası verir. Tənbəl işi belə görüb yanıb yaxılır:

– İşi görən mən, qazanan dilənçi? İş görənə bir şahı, "bəh-bəh" deyənə bir abbası?

## GƏLİNƏN QAYINATA

Aqil bir kişinin Dönə adlı avam, sadəlövh bir gəlini varmış. Ailə kasıb olduğuna baxmayaraq, gəlin həmişə yaxşı geyinmək arzusunda imiş. Bir gün bunu başa düşən qayınata ailənin boğazından kəsib yığdığı pula gəlin üçün yaxşı bir donluq alır. Donluğu görən kimi gəlin sevindiyindən bilmir neyləsin. Donluğu alıb o biri otağa keçir, mücrüyə qoyur. Sonra təndiri qalayıb, çörək bişirməyə başlayır. Ancaq gözəl donluq xəyalından çıxmır ki, çıxmır. Birdən ona elə gəlir ki, donluğu oğurlayırlar. Tez aşxanadan otağa yüyürür, mücrünü açıb donluğu götürür. Bir xeyli baxandan sonra otağı xəlvət görüb oynamağa başlayır. Elə bu vaxt evə qonaq gəlir. Ailənin başçısı qonağı hörmətlə qarşılayır. Az keçməmiş burnuna yanıq iyi dəyən qonaq narahatlıqla ev sahibinə deyir: "Havadan yanıq iyi gəlir". Ev sahibi, yəni qayınata qonağa narahat olmamağı tapşırıb eşiyə çıxır. Səsə o biri otağa keçir. Nə görsə yaxşıdır, gəlin bir sındırır, bir sındırır, gəl ki, görəsən. Çörək də təndirdə yanır. Qayınata bir istəyir desin: "Ay qız, çörək yanır: yeri təndirdən çıxar". Bir də nə fikirləşirsə, bədahətən deyir:

Gəlinim Dönə oynasın,
Dönə-dönə oynasın
Təndirdən çörəyi çıxarsın,
Sonra yenə oynasın.

Bunu eşidən gəlin barmağını dişləyib eşiyə qaçır: "Lap unutmuşam a, çörək yandı?"

Qonaq qayınatanın bu məharətinə əhsən deyir.

## ALLAHIN KÖNLÜNDƏ OLSA

Bir gün Köhnə İbişdə yaşlılar oturub söhbət eləyirlərmiş. Yazbaşı imiş. Köyün adlı-sanlı ağsaqqalı Hacı Abbas da oradaymış. Kəndlilər olan-keçəndən danışırlar.

– Eh, bu il nə qədər çalışdım qoyunlardan çox quzu alam, olmadı. Əməyim özümə qaldı.

– Demə, demə... Mən yazıq nə qədər çalışdım danalar irəliləsin, çoxu qırıldı, azı qaldı.

Birdən Hacı Abbas ucadan qəhqəhə çəkir. Hamı təəccüblə ona baxır. O, yaşarmış gözlərini siləndən sonra deyir:

– Nə sizin deməyinizdə bir şey var, nə əməyinizdə. Allahın könlündə olsa, adama varı-dövləti peyinli çalğu ilə döyə-döyə verər.

## QARIN-QARTA DARTAN BABA

Ağbabalı bir qızı qarslı qoca bir kişiyə ərə verirlər. Di gəl ki, qızın bundan xəbəri olmur. Elə bilir ki, ərə getdiyi cavan adamdı. Nə isə, gəlini köçürürlər bəy evinə. Qərəz, çalan kim, oynayan kim. Bir şənlik başlanır ki, gəl görəsən. Gəlini təmtəraqla gətirib bəy otağında əyləşdirirlər. Hərə çəkilib bir işə gedir. Gəlin tək qalır. Baxır ki, həyətdə qart qoca qarın-qarta yeyir. Yemək deyəndə də Allah kəssin, diş yox, gəl ye görüm, necə yeyirsən. Qız qocaya belə deyir:

– Qarın-qarta dartan baba. Sən də bu köylüsənmi?

Qoca tez qarın-qartanı bir tərəfə qoyub qıza belə cavab verir:

– Qarın-qarta dartan baba sənə qurban. Gəl bir bu baban qoynuna, baban səni quc eləməsə, babalı babasının boynuna.

Sən demə, təzə bəy elə bu qart qocaymış.

## BƏRƏKƏTLİ EV

Bir dəfə iki nəfər çıldırlı Güllücəyə gecə yarısı gəlib çatırlar. Bir qapını döyürlər. Ev sahibi vaxtsız gələn qonaqları qarşılayıb içəri aparır. Sən demə, qonaqlardan biri çox zarafatcıl imiş. Elə zarafatcıl qonaq deyir ki, a qardaş, bizə yemək-içmək verməyəcəksiniz?

– Baş üstə,-deyib ev sahibi arvadına göstəriş verir ki, bir xəngəl bişirsin.
– A kişi, xəngəl əngəldi.
– Hər nədi, bişir, vəssalam-kişi arvadın sözünü kəsir.
Qərəz, xəngəl hazır olur. Arvad xörəyi ortaya gətirəndə kişi ona qaş-gözlə başa salır ki, qaşıq-çəngəl gətirməsin.
Hə, keçirlər süfrə başına. Ev sahibi deyir:
– Buyurun, bismillah eləyək.
– Yox, əvvəlcə sən buyur.
Ev sahibinə də elə bu lazım imiş. O, əllərini arxasına qoyub siniyə əyilir. Ağzına bir-iki yarpaq xəngəl alıb dikəlir. Bütün bığ-saqqalı qatıq-yağa batır. Yağ saqqalı boyu aşağı süzülür. Qonaqlar da məcbur olurlar elə bu cür "yeməyə" girişsinlər. Bir-iki dəfə enib-qalxandan sonra qonaqlar belə "yeməyin" çətinliyini görüb, süfrədən uzaqlaşırlar. Zarafatcıl qonaq ev sahibinə razılıq edir:
– Sağ ol, a qardaş, nə bərəkətli evin var. Elə ikicə loxmadan sonra doyduq.

## AXMAQ ADƏTİ

Bir çıldırlı Ağbabanın kəndlərindən birinə qonaq gəlir. Söhbət əsnasında qonaq deyir:
– Bütün adətlərimiz eynidir, elə bir adətiniz yoxdur ki, onu bilməyim.
Qonaqla ev sahibinin sözü çəpləşir.
– Heç olmasa, bizim bir adətimizi bilməyəcəksən.
– Buna inanmıram.
– İnan. Yaxşı, yedik-içdik, amma bizdə bir adət var, onu da qonağa demək...
– Hansı adətdir o elə?
– Yeyib-içəndən sonra qonaq ev sahibi ilə bərabər tövləyə baş çəkməli, toyuq-cücəyə dən-su verməli, malların altını təmizləməlidir.
Qonaq ürəyində ev sahibinə söyə-söyə deyiləni yerinə yetirir. Səhər qonağı yola salanda ev sahibi onun atını yəhərləyib gətirir. Cilovu qonağa verib üzəngini basır:
– Min, qonaq qardaş.

Elə ki, qonaq atın belinə qalxır, ev sahibi onun qamçısını da əlinə verib gülə-gülə deyir:

– Hə, qonaq qardaş, bizim o bilmədiyin axşamkı adət xoşuna gəldimi?

Qonaq ev sahibinin keçəl başına, gülümsər, zarafacıl sifətinə ani nəzər salıb, hirsindən əlindəki qamçı ilə onun başına vurur.

– Bu qamçı sənin xoşuna gəldisə, o axşamkı axmaq adəti də mənim xoşuma gəldi.

## CİNNİ SÖYÜNÜN LƏTİFƏLƏRİ

### HAQQIMI VER, KÖPƏKOĞLU

Təzə İbiş kəndində xəsis bir ağa varmış. Bir gün Cinli Söyün ona nökər olur. Ağa onu adı ilə çağırmır. Elə-belə “get, köpəkoğlu“, “gəl, köpəkoğlu“ deyirmiş. Amma Cinni Söyün canını dişinə tutub dözürmüş. Elə ki, ayı başa vurur, tez ağasının yanına gəlib deyir:

– İndi də mənim haqqımı ver, köpəkoğlu.

### İSTƏYİRSƏN PARTLA, İSTƏYİRSƏN ÇATLA...

Novruz bayramı yaxınlaşmışdı. Di gəl ki, Cinni Söyünün evdə yeməyə heç nəyi yox idi. Uşaqlar acından ağlayırdılar. Cinni Söyün varlı qardaşının yanına gəlib bir az əl borcu istəsə də, varlı qardaş onu evindən qovur. Cinni Söyün evə qayıdanda baxır ki, qardaşının tayasına iri bir qoç bağlanıb. Tez qoçun ipini açıb aparır əvinə. Qayıdır arvadına ki:

– Tez ol, təndiri qala, ət yeyəcəyik.

Arvad dinməzcə deyiləni yerinə yetirir.

Cinni Söyün qoçu bir neçə dəqiqəyə kəsib soyur, doğrayıb qazana doldurur. Asır təndirin üstünə. Bir tərəfdən də şişlərə ət taxıb, kabab tutur. Amma qapını içəridən möhkəm-möhkəm bağlamağı unutmur.

Varlı qardaş nə qədər axtarsa da, qoçu tapa bilmir. Birdən onun ağlına kasıb qardaşı düşür: “Mən ona əl borcu vermədim. Olmaya bunun heyfini məndən çıxmaq üçün qoçu aparıb?!“ O,

Cinni Söyüngilə gəlir. Görür aşxananın yuxarı bacasından tüstü çıxır. O, qapını nə qədər döysə də, Cinni Söyün qapını açmır, o üzünü qapıya tərəf tutub deyir:

– Bayramda varlıya ət yemək olar, kasıb köpəkoğlu adam deyil?! Əti yeyib qurtarmayınca qapını açan deyiləm. İstəyirsən partla, istəyirsən çatla.

## MAHMUDUN LƏTİFƏLƏRİ

### ÜÇ KARIN BİR QIY VERƏNİ OLMASIN?!

Biçin vaxtı Mahmud kişi də biçinə gedibmiş. Birdən Çoban Calal qabaqda gedən biçinçiyə bağırır:

– Ə, bir əz dayansana bir soluxlanax. Elə gün bu gündü?

Yaşlı biçinçilərdən biri Çoban Calala tərs-tərs baxıb deyir:

– A Calal, bir əz yavaş danışsana.

Söz bura çatanda Mahmud kişi gülümsünür.

– Calalda işin olmasın. Əyə, üş karın bir qıyverəni olmasın?!

Sən demə, biçinçilərin içində üç nəfər kar varmış.

### ÖZÜNÜNKÜLƏRİ SEÇ

Bir dəfə Mahmud kişi qazları çölə aparanda qaz oğrusuna rast gəlir. Özünü o yerə qoymayıb deyir:

– Ə, başına dönüm. Bir bu qazdara yaxşı bax, hansı xoşuna gəlir indidən manşırra, payız işini biləsən.

– Başa tüşmədim, dayı. Sən nə deyirsən.

– A bala, deyirəm indidən özününküləri seç. Bilim bu qazdarın neçəsi sənindi, neçəsi mənim, sənsən qazdara qənim.

### YALANÇININ ATASINA NƏHLƏT

Birisi ağlına gələni danışır. Mahmud kişi birtəhər hövsələsini basır. Görür kişi bülbül kimi ötür, dillənmir. Axırda kişi Mahmuda baxıb deyir:

– Müharibə vaxtı Sumqayıtda traxtor buraxırdılar, eşidifsənmi ay Mahmıt?

– Səf danışma, a kişi, o vaxt Sumqayıtda tank buraxmırdılar, əmə şəhər özü yoxuydu.

– A kişi, bu laf ağ yalan oldu.

– Ağ yox, laf qırmızı...

– Necə, necə?

– Sözdən söz törüyər həlbət, yalançının atasına nəhlət.

## XIRMAN SƏYİ

Bir gün Qoncalıda Mahmud kişini taxıla qaravul qoyurlar. Camaatın dediyi kimi, kişi xırman bəyi olur. Qohumlarından biri qoltuğunda bir neçə boş kisə gəlir Mahmud kişinin yanına, əvvəlcə kişi ilə salamlaşıb sonra hal-əhval tutandan sonra deyir:

– Ay Mahmıt, eşitdim xırman bəyi olufsan, elə sevindim, elə sevindim daha demə. Bə nə. Deyirəm mana bir-iki meşoy taxıl verəsən.

Mahmud bu sözləri eşidəndə acıqlansa da özünü ələ alır, əllərini göyə açıb deyir:

– Şükür sənin kəramətinə ilahi. Xırman bəyini eşitmişdim, əmə bu xırman səyini hardan göndərdin?!

## CAMAATIN XƏTRİNƏ DƏYƏR

Mahmud kişi nərd oynamağı çox sevirmiş. Bir gün necə olursa əli gətirmir. Bir neçə dəfə dalbadal uduzur. Kişinin qanı qaralır, üstəlik həmkəndlisi onu cinləndirir:

– Ay dayı, axı niyə mənnən oynadın. Bilmirdinmi uduzacaxsan. Mən bu nərdiyi düzəldəni axtarıram. A kişi, ətəyini niyə camışın buynuzuna keçirtdin axı.

Bu sözləri eşidən kimi Mahmud sakitcə əlini qaldırıb deyir:

– Dayan, bala, səf eləmə.

– Səfim nədi, dayı.

– Camahat sana həmməşə öküz deyir. İndi mən sana camış desəm, camahat mənnən inciyər axı.

## AT ÜLKMƏSİN NEYLƏSİN

Mahmud kişinin bir xizəyi varmış. Di gəl atı yox imiş. Qonşunun atını alıb qoşur xizəyə. Qoncalıya getməy istəyəndə iki

həmkəndlisi-ər-arvad ona yaxınlaşırlar:

– Ay dayı, bizi də Qoncalıya apar. Kışın günün yayax getmiyəh.

– Mən apararam, görəh aparan aparacaxmı?

– A kişi, bu nə sözdü?

– Mən dedim, isdiyirsiniz minin, isdiyirsiniz minmiyin.

Qərəz, ər-arvad xizəyə minir. Mahmud kişi atı tərpədir. Sən demə, at dəli imiş. İldırım kimi götürülür. Yolda əri bir tərəfə, arvadı o biri tərəfə atır, amma Mahmud kişi özünü itirməyib cilovu möhkəm tutur, axırda atı ram eliyir, mənzil başına yetişir.

Az keçmir ki, işdən xəbər tutan at sahibi özünü Mahmud kişiyə yetirib deyir:

– A kişi, at ziyannıx-zad eləmədi ki, bir əz dəliliyi var. Qonşulara bir şey olmadı kı?

– At yaxşı atdı, əmə...

– Əmə nə?

– Əmə axıldan qıvrax sənsən ki, belə atı verdin qoşmağa. Bu bir. İkincisi,qonşularının ikisi də axıldan qıtdı. İki axılsızı mindirdim zankıya, at ülkməsin neynəsin. Eşşəh dəyil ki, yavaş gedə, atdı, qaşdı; iki axılsızın ikisini də zankadan qara atdı.

## SƏN ADDA OĞLUM ÖLÜF

Bir dəfə Mahmud bir neçə nəfər həmkəndlisi ilə yeməkxanaya gedir. Ortaya yemək gələn kimi Mahmud baxır xörəyin duzu azdı, qalxıb duz gətirməyə gedir. Dərhal həmkəndlilərindən biri onun xörəyinə bir ovuc istot, bir ovuc bibər qatır. Mahmud geri qayıdan kimi qaşığı götürür, başlıyır yeməyə. Amma kişinin gözləri yaşarır. Yoldaşlarından biri deyir:

– Mahmud, deyəsən ağlıyırsan.

– Ağlamayım, neyləyim, sən adda oğlum ölüf.

## ÇOBAN CALALIN LƏTİFƏLƏRİ

## ÖKÜZ DEYƏRİK

Bir gün çoban Calal dostunu cinlətmək üçün onun evinin yaxınlığına gəlib başlayır onu haraylamağa:

– Ay ağa, ay ağa, eşiyə çıx.

Səsə ev sahibi eşiyə çıxır. Çoban Calala əyri-əyri baxıb deyir:

– Əyə, mən ha vaxtdan saa ağa olmuşam. Bu nə sözdü sən deyirsən?

– Yaxşı, ay çoban, desəm necə.

– Məni niyə cinnədirsən. Özün də çoban döyülsənmi.

– Yaxşı, daha neyniyim. Nə ağasan, nə çoban. İnənən belə sana öküz deyərik.

## MAKQULU QUKQULUYA DÖNDÜ

Çoban Calalın çoban yoldaşı bir küçük tapıb gətirir, başlayır onu bəsləməyə. Küçüyə qəribə bir ad da verir - Makqulu.

Bir dəfə itbaz birisi küçüyü görüb bəyənir. Çoban Calala deyir:

– Calal, bu küçüyü mənə verərsənmi?

– Niyə vermirəm. Bir xoruz ver, bir də bir araq gəti.

O saat həmin adam küçüyü aparır. Az keçmir ki, çoban Calala xoruzla arağı göndərirlər. Calal xoruzu kəsir, ütəndən sonra doğrayıb tökür qazana. Qazanı asır ocağın üstünə. Elə bu vaxt çoban Calalın çoban yoldaşı gəlir. Başlıyır küçüyü çağırmağa:

– Makqulu, Makqulu... Əyə, bu küçük necoluf.

Çoban Calal qımışıb əli ilə qazanı göstərir:

– Makkulu quqquluya döndü.

## DƏMİRRƏRİ DƏ ADAMA SALAM VERİR

Bir dəfə çoban Calal Bakıya qatarla gələndə yoldaşını təəccüfləndirməhdən ötrü Bakıya yaxınnaşanda vaqonun pəncərəsinnən baxıf deyir:

– Əleyküməsalam, belə əleyküməsalam.

Yol yoldaşı Calala baxıf bir şey başa tüşmür:

– A kişi, başa tüşmürəm, sən kimə salam verirsən.

– Bə görmürsən bunnarı.

Calal əliynən yenif-qalxan neft buruxlarını görsədir:

– Əyə, a qardaş. Bakıya qurban olum, dəmirrəri də adama salam verir.

## ÜÇCƏ LOM VURACAM

Bir gün çoban Calal sərxoş imiş. Necə olursa lomu əlinə alıf tüşür arvadının dalıncax. Arvat qaçıf qonşunun əvinə girif qapıyı daldan möhkəm-möhkəm bağlıyır. Calal neynirsə qapıyı aça bilmir, başdıyır arvadını qılıxlamağa:

– A qız, qapıyı aş, vallah, sana toxunmuyacam, qorxma.

– Yox, qorxuram.

– Aş, aş dəymiyəcəm.

– Bə neyniyəcən.

– Üçcə lom vuracam.

## LAX KARTOF

Bahalığın təzə-təzə ayax aşdığı vaxtdarda çoban Calal bazara kartof almağa gedir. Hansı kartof satana yaxınlaşırsa baxır kartofun kilosu on bir manatdı. Kişi baxır cevinə pul azdı, həm də başqa şeylər də almalıdı. Nə tüşünürsə qabağında kartof qalanmış yekəpər kişinin qabağında duruf bir iri kartofu götürüf qulağına tutuf silkələyir. Kartof satan Calala tərs-tərs baxıf deyir:

– Neynirsən, a kişi.

– Silkəliyirəm görüm, içi tüşmüyüf ki, lax dəyil ki...

– A kişi, dəlisən, nəsən. Kartof yumurtadı laxı ola?

Elə Calala bu lazımmış. Qayıdır ki:

– Nə təhər olur yumurtanın laxı olur, adamın laxı olur, kartofun laxı olmur?!

## YOXSA SALAM VERƏRDİN

Səhərin gözü açılan kimi Calal qonşusuna rast gəlir. Baxır kişi narahatdı, elə ora, bura baxır. Deyir:

– Genə nə oluf. Camahat işə-gücə gedir. Qorxuram bu it, yanı Mandili bir xata eliyə, axı bağ itidi.

– Deyirəm axı. Mandili yoxa çıxıf deyin dilin mal dili kimi eşiyə çıxıf, yoxsa salam verərdin.

## AXMAĞIN TƏRİFİ

Bir gün Calalın çoban yoldaşı müəllimlərdən birini görüf başdıyır onu tərifləməyə:

– Boy səndə, puxun səndə, gözəlsən, göyçəhsən.

Müəllimin sevindiyindən başı bulutdara dəyir.

Çoban Calal arada macal tapıf deyir:

– Dalını gözdə, a məllim.

Genə Calalın çoban yoldaşı başdıyır tutuquşu kimi ötməyə.

– İş başaransan, uşaxlara yaxşı dərs verirsən, savatdısan, yaxşısan, əmə...

Buraya çatanda müəllim şüfələnir:

– Əmə nə?

– Əmə hayıf kı, axlın yoxdu.

Bu sözdəri eşidəndə müəllimi od götürür:

– Bu nə sözdü, a kişi?

Çoban Calal gülə-gülə müəllimə tərəf dönüf deyir:

– Bayax mən demədimmi dalını gözdə. Bə sən nə bilmişdin, axmağın tərifi belə olar.

## TOYÇU XƏLİLİN LƏTİFƏLƏRİ

### QAZI YEYƏNDƏ UTANMIRSAN, ƏMƏ OYNUYANDA UTANIRSAN?!

Bir dəfə Toyçu Xəlil qonşu kəntdərin birinnən gələndə baxır bir neçə ərgən qız iki-üş qazın başını üzüf. Arada bir oxuyullar:

Qonşu kəndin qızdarı,
Gərəh yeyə qazdarı.

Kişi dillənmir. Özünü görməməzdiyə vuruf gedir. Bir gün həmin kəntdə toy olur. Toyçu Xəlil baxır həmin qaz yeyən qızdardan biri burdadı. Ona: “A qız, gəl sən də bir oyna“ desələr də qız dartınır bir küncə.

– Yox, utanıram.

Bu sözdəri eşidəndə Toyçu Xəlil özünü saxlıya bilmiyif toyçubuğuynan qızın başına vurur:

– Qazı yeyəndə utanmırsan, oynuyanda utanırsan?!

## YIXILMAĞINA HƏLƏ VAR

Bir gün Toyçu Xəlil gəlini bəy evinə gətirəndə yolda gəlinin mindiyi haraba çəvrilir, gəlin tüşür harabanın altına. Əmə gəlinə heş nə olmur. Toyçu Xəlil işi belə görüf gəlinə deyir:

– A bala, nə tez yıxıldın, axı yıxılmağına hələ var.

## APAR ONU DA YE

Bir gün bir dələduz adam Toyçu Xəlilin iki quzusunu oğurlayıb yeyir. Toyçu Xəlil onu yaxşı tanıdığınnan tutur yaxasınnan.

– De görüm quzuları neyniyifsən.

– Əşi, sən nə danışırsan. Quzu nədi, zad nədi. Mən nə quzu görmüşəm, nə də bir şey yemişəm.

Toyçu Xəlil baxır oğru lap ağını çıxartdı, deyir:

– Əyə, bəlkə az oluf?

– Nə, nəyi deyirsən sən?

– Deməyinnən belə qandım ki, bu quzu məsələsinnən narazısan da.

– Bə nə.

– Onda gəl sən belə elə.

– Necə?

– Görürəm sənin işdahın yekədi. İki quzu səni bir əməlli doydurmuyuf. Bizim bir inəyimiz var, adı Bəzəhdi. Əlinə bir parça çörəh al, gir bir daşın divinə. “Bəzəh, Bəzəh“ deyif inəyi çağır. İnəh qaça-qaça yanına gələcəh. Apar onu da ye.

## GƏRƏH MƏNİM QATIX PAYIMI SATAYDINIZ?!

Bir gün Toyçu Xəlilin yolu Oxçoğluya tüşür. Onu məclisə aparıllar. Ortuya yeməh-işməh gəlir. Həriyə qafda qatıx da qoyullar, əmə qəsdən Toyçu Xəlilə qatıx qoymullar. Onun hazırcavablığını sınamax isdiyillər. Toyçu Xəlil o sahat işi başa tüşüf əv sahabına belə deyir:

– A qardaş, qatıx satanda nə olar. Gərəh mənim qatıx payımı büyün sataydınız?!

## ƏYAXLARIN BİR-BİRİNNƏN KÜSÜF?

Toyçu Xəlil bir günü toydaymış. Baxır əyə, gəlin qanmazın, korafəhimin biridi, əyaxqabılarını da tərs geyif. Heş kim də buna fikir vermir, gəlin də yaxşı yeriyə bilmir. Tərs ayaxqavı geyəndə əməlli yeriməh olar kı! Axırda Toyçu Xəlil dözmüyüf deyir:

– A qızım, a bala, əyaxların niyə bir-birinnən küsüf?

## MƏN YEYƏRƏM

Bir gün zurnaçıynan, zuy tutan sözü bir yerə qoyullar kı, Toyçu Xəlilə bir kələh gəlsinnər, onu aj qoysunnar toyda. Bəli, onnarı genə toya çağırıllar. Surfuya yaxşı yeməh-işməh gəlir. O sahat zurnaçı deyir:

– Mən ölüm, işdahım yoxdu, mən yemirəm.

Zuy tutan da, zurnaçının sözünü tasdıxlıyır. O sahat Toyçu Xəlil zurnaçının da, zuy tutanın da qablarını öz qabağına çəkir.

– Nə sən öl, nə də zuy tutan. Mən yeyərəm.

## BÜTÜN GÜNÜ BURDA OTURUM?

Bir nəfər Toyçu Xəlili əvinə qonax çağırır. Toyçu Xəlil baxır əv sahabının arvadı ət pişirir. Əmə ət pişər-pişməz əvin uşaxları hərə özünə çömçəynən qoyuf aparır. Kişi özünü saxlıya bilmiyif deyir:

– A bala, bəs deyilmi. Qoyun bir əz də bizə qalsın.

Əv sahabının arvadı deyir:

– Əşi, qoy yesinnər, genə pişirərəm.

– İndi nə deyirsən. Pütün günü burda oturum ku ət yeyəcəm?!

# IX. BAYATILAR

Kimə yazım
Kimim var, kimə yazım.
Dərdbilməzin əlindən,
Dərmanı kimə yazım.

Xalxala,
Qoyun dolar xalxala.
Öldüyümnən deyiləm,
Sevdiyimi xalx alar.

Haraba mazılıdı,
Ağ qoyun quzuludu.
İstər gəl, istər gəlmə,
Alnına yazılıdı.

Yar deyilsən yalansan,
Canıma od salansan.
Nə gəlib aparırsan,
Nə bir səda salansan.

Bu dərənin söyüdü,
Mən gələndə göy idi.
Oğlanda nə günah var,
Qıza verin öyüdü.

Göydə uçan qazdımı,
Qanadları sazdımı.
Dərdim üstə dərd qoydun,
Mənim dərdim azdımı.

Dağlara dolu düşdü,
Qar yağdı, dolu düşdü.
Fələk bir balta vurdu,
Qəribin qolu düşdü.

Qoy gedim yurda məni,
Tapşırma qurda məni.
Yuvasız bir bəndəyəm,
Öldürmə burda məni.

Qapımızda var çinar,
Yarpağı dinar-dinar.
Balam qürbət eldədi,
Saxlasın pərvərdigar.

Gedirdim bu dağ ilən,
Əlimdə çıraq ilən.
Bizi eldən sürdülər,
Əllərdə yaraq ilən.

Əlimdə səkkiz para,
Dördü ağ, dördü qara.
Açın baxın köksümə,
Altı qan, üstü yara.

Bu dağlar nə dağlarsan,
Qardan kəmər bağlarsan.
Gül səndə, çiçək səndə,
Nə dərdin var ağlarsan.

Yaralı bir qoçam mən,
Yaram qoymur qaçam mən.
Tapmıram bir dalda yer,
Yaralarım açam mən.

Mələrəm ha mələrəm,
Dağı-daşı dələrəm.
Gəzib səni tapmasam,
Başıma kül ələrəm.

Oyan, gül,
Oyan bülbül, oyan gül.
Tez açıldın, tez soldun,
Məni məğmun qoyan gül.

Pərişanam, pərişan,
Halım yoxdu soruşan.
Mən kimisi olmasın,
Dərdi dərdə qarışan.

Lala dərdim,
Gül dərdim, lala dərdim.
Yoxdu canı yananım,
Ağzımnan ala dərdim.

Ağbaba elim oldu,
Danışan dilim oldu.
Gedə bilmərəm daha,
Gör necə zülüm oldu.

Ağbabada dan atdı,
Gecə keşdi dan atdı.
Tənəli söz dedilər,
Ürəyimi qanatdı.

Ərənnər, ha ərənnər,
Bostanı göy dərənnər.
Balasınnan ayrılan,
Ölməsə də vərəmlər.

Bu dağda dəli qoyun,
Yamacda dəli qoyun.
Mən bu dərdə dözmürəm,
Adımı dəli qoyun.

Dəyirmanın ard unu,
Yel apardı kərdini.
Heç kafirim görməsin,
Həsrətliyin dərdini.

Qara baxdım,
Oxudum, qara baxdım.
Ya sənin taleyindi,
Ya mənim qara baxtım.

Məni bir yağı vurdu,
Dolandı dağı vurdu.
Nə axşamdı, nə sabax,
Günorta çağı vurdu.

Qaya başında təndir,
Odun gətir, gəl yandır.
Dadanmamış kəkliyəm,
Al qoynuna, dadandır.

Əlindəki nardımı,
Cibin ağzı dardımı.
Ömrüm sona çatıbdı,
Heç xəbərin vardımı.

Düşən ağlar,
Atdanıb düşən ağlar.
Kasıbın nə vecinə,
Dövlətdən düşən ağlar.

O dağın o üzündə,
Ceyran otlar düzündə.
Mən yarımı bilirəm,
Qoşa xal var üzündə.

Balaca cib qarmağı,
Xınalı yar barmağı.
Yarım uşaq, mən uşaq,
Neynirik yalvarmağı...

Gərgədan, ha gərgadan,
Kimdi səni örgədən.
Ovçu bir maral vurdu,
Genə bizim cərgədən.

Dəvə damı,
Tikdirdim dəvə damı.
Nə mən öldüm qurtardım,
Nə oldum əv adamı.

Kəhər atın kəkili,
Yerə düşüb şəkili.
Oğlan sevib, qız sevib,
Kimdi onun vəkili.

Evləri məhşətdədi,
Köçübdü, Məhşətdədi.
Mənə minnət qoymayın,
Əllərim daş altdadı.

Arxalığın abıdı,
Bu kənddə nə davıdı.
Mən onu çox sevirəm,
Gözümün ilk ovudu.

Arxalıq biçən olsun,
Qəddimi bükən olsun.
Mən sənə  göz dikmişdim,
Sənə göz dikən olsun.

Ağ quzu,
Ala quzu, ağ quzu.
Adamın evin yıxar,
İnsanın alağuzu.

Eləmi burda məni,
Qoydun çuxurda məni.
Özün getdin qurtardın,
Yetirdin qurda məni.

Məzə dursun,
Doldur ver məzə dursun.
Dərdim çoxdu  deməyə,
Ağzını gözə, dursun.

Xalis olmaz,
Xalçanın xalı solmaz.
Mən bəlalı səyyadam,
Dərd məndən xalis olmaz.

Bağa gün düşdü, neynim,
Bülbül su içdi, neynim.
Ellərə pay düşəndə,
Mənə bu düşdü, neynim.

Yağış yağdı, çilədi,
Gün vurdu mürgülədi.
Əzrayıl canın aldı,
Ürəyin kimi dilədi?

Qala qapılı qardaş,
Aslan yapılı qardaş.
Dünyanı gəşt eyləsən,
Harda tapılı qardaş.

Əlin xına tutmasın,
Çevir günə, tutmasın.
Məndən ayrı yar sevsən,
Ömrün binə tutmasın.

İrəvan düzən yerdi,
Yar gəlib gəzən yerdi.
Əlini ver əlimə,
Əl əldən üzən yerdi.

Tutacağı buruldu,
Dibində su duruldu.
Hamının yarı gəldi,
Mənim boynum buruldu.

# X. TAPMACALAR

Bir quşum var hanı-hanı,
Gəzər cümlə cahanı.
Gətirrəm öldürməyə,
Nə əti var, nə qanı.
***(Kəpənək)***

Küm-kümbətin içində,
Gümbülləsə, kim bilər?
Yeddi köynək içində,
Qulunlasa kim bilər.
***(Hörümçək)***

Bir gümüş qazanım var,
Qaynayar-qızmaz.
Bir qaynar tasım var,
Soyumaz ki, soyumaz.
***(Bulaq, günəş)***

Vur böyrünə  şapalaq,
Qar yağsın qalaq-qalaq.
***(Ələk, un)***

Gidi dünyanın işidi:
İkisi görməz,
İkisi qanmaz,
Biri doymaz,
İkisi ha yellənər, yellənər.
***(Gözlər, qulaqlar,
ağız, burun deşikləri)***

O yanı taya,
Bu yanı taya,
Atılıb mindim,
Boz daya.
***(boyunduruq)***

Axşam gedər,
Sabah gələr.
***(Günəş)***

Axır desən, axmır,
Batır desən, batmır.
***(Köpük)***

Alma versən almaz,
Özü arxamdan qalmaz.
***(Kölgə)***

Qara öküzün, özü yox,
Qaralamasan, izi yox.
***(Qaranlıq gecə)***

Bir topum var,
Ələ sığmaz.
Bir yanı qara,
Bir yanı bəyaz.
***(Yer kürəsi)***

Dağ içində anası,
Çıxıb qaçır balası.
***(Çay)***

Mavi atlas,
İynə batmaz.
Qayçı kəsməz,
Dərzi biçməz.
***(Göy, səma)***

Aşa qatılmaz,
Bazarda satılmaz,
Ondan şirin pay olmaz.
***(Yuxu)***

Başı daraq,
Quyruğu oraq.
***(Xoruz)***

Sümüyü var, əti yox,
Dərisi var, tükü yox.
***(Ağac)***

Qapısı yox, pəncərəsi yox,
İçində qonağı çox.
***(Xiyar)***

Paltarı çox,
Düyməsi yox.
***(Kələm)***

Belini sıxıb bağlayır,
Şeytan havasına oynayır.
***(Süpürgə)***

Əlsiz, ayaqsız,
Çıxar nərdivansız.
***(Tüstü)***

Uzaq-uzaq yollardan,
Bir gözəl quş gəlir.
Xurma, badam dili var,
Söylədikcə xoş gəlir.
***(Məktub)***

Gəlir xan kimi,
Oturur sultan kimi.
Yayılır həsir kimi,
Sürülür yesir kimi.
***(Qar)***

Üç öküzüm var:
Biri yeyər, doymaz,
Biri gedər, gəlməz,
Biri yatar, durmaz.
***(Alov, tüstü, kül)***

Get bəri, gəl bəri,
Ayaq üstündə qal.
***(Qapı)***

Qabırğası var, qanı yox,
Dörd ayağı var, canı yox.
***(Çarpayı)***

Hirmandı, ha hirmandı,
Gün divara dırmandı.
Hirmançı gəlməsə,
Gün divardan enməz ha.
***(Açar, qıfıl)***

# XI. NANAYLAR

## NADAN YAR, ƏYLƏN, ƏYLƏN

Dam üstə duran oğlan,
Gedən yar, əylən, əylən.
Boynunu buran oğlan,
Nadan yar, əylən, əylən.
Quran qənimin olsun,
Gedən yar, əylən, əylən.
Əhdindən dönən oğlan,
Nadan yar, əylən, əylən.

İstəkanın sarısı,
Gedən yar, əylən, əylən.
İçdim qaldı yarısı,
Nadan yar, əylən, əylən.
Dedilər yarın gəlir,
Gedən yar, əylən, əylən.
Getdi canın ağrısı,
Nadan yar, əylən, əylən.

Qapımızdan su axır,
Gedən yar, əylən, əylən.
Üzü qibləyə baxır,
Nadan yar, əylən, əylən.
Oğlan az, gəl-getginən,
Gedən yar, əylən, əylən.
Anam başıma qaxır,
Nadan yar, əylən, əylən.

## GÜMÜŞ KƏMƏR, ZƏRBİN TƏNƏ

Bu yolun adı nədi,
Gümüş kəmər, zərbin tənə
Kəsdi belim yar, yar;
Şəkərin dadı nədi,
Yar yara bab gəlməsə,

Oldu zülüm yar, yar.
Könülsüz gedən qızın,
Gümüş kəmər, zərbin tənə,
Kəsdi belim yar, yar.
Ağzının dadı nədi,
Yar yara bab gəlməsə,
Oldu zülüm yar, yar.

Arxalığın qaradan;
Gümüş kəmər, zərbin tənə,
Kəsdi belim yar, yar.
Dağlar qalxsın aradan;
Yar yara bab gəlməsə
Oldu zülüm yar, yar.
Səni mənə yetirsin;
Gümüş kəmər, zərbin tənə,
Kəsdi belim yar, yar.
Yeri-göyü yaradan;
Yar yara bab gəlməsə,
Oldu zülüm yara, yar.

Kəklik gördüm boz ala;
Gümüş kəmər, zərbin tənə
Kəsdi belim yar, yar.
Qaşı qara, gözü ala;
Yar ki yara bab gəlməsə
Oldu zülüm yar, yar.
İgid ona demişəm;
Gümüş kəmər zərbin tənə
Kəsdi belim yar, yar.
Sevdiyini tez ala;
Yar yara bab gəlməsə,
Oldu zülüm yar, yar.

## GÖYƏR YAYLALAR, GÖYƏR

Çıxdım dağa səs gəlir,
Göyər yaylalar, göyər.
Qoyun basabas gəlir,

Əzəl qar sizi döyər;
Çəkərəm yar qəhrini,
Göyər yaylalar, göyər.
Neçə ki nəfəs gəlir,
Əzəl qar sizi döyər.

Məhamə otlar qoyun,
Göyər yaylalar, göyər.
Qantəpər otlar qoyun,
Əzəl qar sizi döyər.
Çobanı xəstə salıb,
Göyər yaylalar, göyər.
Zəhrimar otlar qoyun.
Əzəl qar sizi döyər.

Qoyunun quzusu var,
Göyər yaylalar, göyər.
Nə yaman sızısı var,
Əzəl qar sizi döyər.
Gəlin  alnıma baxın,
Göyər yaylalar, göyər.
Nə qara yazısı var,
Əzəl qar sizi döyər.

## SƏNDƏ DƏRD HAVASI VAR

Bir əğyara yar oldun,
Yeri, yeri, yeri, yar,
Səndə dərd havası var,
Sinəmdə köz yeri, yar.
Yandırdın məni oda,
Diri, diri, diri, yar;
Səndə dərd havası var,
Sinəmdə köz yeri, yar.

Neylədin əhdi-andı,
Ürəyimdə talandı;
Səndə dərd havası var,

Sinəmdə köz yeri, yar.
Üst-üstə dərd qalandı,
Kürü, kürü, kürü, yar;
Səndə dərd havası var,
Sinəmdə köz yeri, yar.

Tüccar düşübdü haldan,
Xəyallara az dolan;
Səndə dərd havası var,
Sinəmdə köz yeri, yar.
Gedirsən qalma yoldan,
Yürü, yürü, yürü, yar;
Səndə dərd havası var,
Sinəmdə köz yeri, yar.

Səndə dərd havası var,
Sinəmdə köz yeri, yar.

## ALA GÜLBƏNGİ

Ələyəz ələmlidi,
Ala gülbəngi, ala gülbəngi.
Dörd yanı qələmlidi,
Ala başına, dola gülbəngi.
Ələyəzdən qız sevən
Ala gülbəngi, ala gülbəngi,
Ürəyi vərəmlidi,
Ala başına, dola gülbəngi,

Ələyəz başı haça,
Ala gülbəngi, ala gülbəngi.
Əlim dolaşdı saça,
Ala başına, dola gülbəngi.
Elə igid istərəm, ala gülbəngi.
Götürə məni qaça,
Ala başına, dola gülbəngi.

## NANAY, AY NANAY

Çıxdım aya baxmağa,
Nanay, ay nanay, nanay, ay nanay;
Qapıya kilit taxmağa,
Qaraqaş oğlan, bağrı daş oğlan.
Oğlan xına göndərib,
Nanay, ay nanay, nanay, ay nanay;
Qız əlinə yaxmağa,
Qaraqaş oğlan, bağrı daş oğlan.

Arxalığın oymadı,
Nanay, ay nanay, nanay, ay nanay;
Gözüm səndən doymadı,
Qaraqaş, bağrı daş oğlan,
İstədim dalınca gələm,
Nanay, ay nanay, nanay, ay nanay;
Ölmüş yengəm qoymadı,
Qaraqaş, bağrı daş oğlan.

## NAR QOYDUM LƏNGƏRİYƏ, LƏNGƏRİYƏ

Təndirə yapdım lavaş,
Nar qoydum ləngəriyə, ləngəriyə.
Oğlan gəl yavaş-yavaş,
Dolan gəl pəncəriyə, pəncəriyə.
Şahdan əmir gəlibdi,
Nar qoydum ləngəriyə, ləngəriyə,
Oğlan qıza qaravaş,
Dolan gəl pəncəriyə-pəncəriyə.

Qaya başında təndir,
Nar qoydum ləngəriyə, ləngəriyə,
Odun gətir, gəl yandır,
Dolan gəl pəncəriyə-pəncəriyə.
Dadanmamış kəkliyəm,
Nar qoydum ləngəriyə, ləngəriyə,
Al qoynuna, dadandır,
Dolan gəl pəncəriyə, pəncəriyə.

## AY QƏMƏRİM, QƏMƏRİM

Balaca cib bıçağı,
Ay Qəmərim, Qəmərim.
Oldum yarın naçağı,
Açıldı beldən kəmərim,
Bir axşam gəl, bir sabax,
Ay Qəmərim, Qəmərim.
Bir də günorta çağı,
Açıldı beldən kəmərim.

Balaca cib bıçağım,
Ay Qəmərim, Qəmərim.
Xınalı yar barmağı,
Açıldı beldən kəmərim.
Yarım uşaq, mən uşaq,
Ay Qəmərim, Qəmərim.
Nə bilək yalvarmağı,
Açıldı beldən kəmərim.

## QADAN CANIMA, A KƏKLİK

Arxalığı  gödək yar,
Qadan canıma, a Kəklik.
Geymə  gələr gödək, yar,
Dur gəl yanıma, a Kəklik.
Get atını cilovla,
Qadan canıma, a Kəklik.
Gəl qoşulaq gedək, yar,
Dur gəl yanıma, a Kəklik,
Qadan canıma, a Kəklik.
Dur gəl yanıma, a Kəklik,
Xınalı barmaqların
Batır qanıma, a Kəklik.

Təndirə  aş qoymuşam,
Qadan canıma, a Kəklik.
Neçə lavaş qoymuşam,

Dur gəl yanıma, a Kəklik.
Gözlədim yar gəlmədin,
Qadan canıma, a Kəklik.
Yanımı boş qoymuşam,
Dur gəl yanıma, a Kəklik.
Qadan canıma, a Kəklik.
Dur gəl yanıma, a Kəklik,
Xınalı barmaqların,
Batır qanıma, a Kəklik.

## ALMA SƏNƏ, HEYVA SƏNƏ, NAR SƏNƏ

Bu dərə uzun dərə,
Alma sənə, heyva sənə, nar sənə.
Getdikcə uzun dərə,
Qəlyanı doldur bacadan ver mənə.
Burada bağ salmışam,
Alma sənə, heyva sənə, nar sənə.
Yar mənə üzüm dərə,
Qəlyanı doldur bacadan ver mənə.

Əmim oğlu xan oğlu,
Alma sənə, heyva sənə, nar sənə.
Evinə dolsun oğru,
Qəlyanı doldur bacadan ver mənə.
O ki mənim olmadın,
Alma sənə, heyva sənə, nar sənə.
Qoy aparsın el oğlu,
Qəlyanı doldur bacadan ver mənə.

## VALAM YANA, VALAM YANA, YANA.

Daş körpünün daşdarı,
Valam yana, valam yana, yana.
Açılıb xaşxaşdarı,
Yandı bağrım döndü qana, qana.
Məni yardan edənin
Valam yana, valam yana, yana.

Qırılsın qardaşdarı,
Yandı bağrım, döndü qana, qana.

Corabın ağına bax,
Valam yana, valam yana, yana.
Dəstələ bağına bax,
Yandı bağrım, döndü qana, qana.
Yar yadına düşəndə,
Valam yana, valam yana, yana.
Ağbaba dağına bax,
Yandı bağrım, döndü qana, qana.

## AY NİYƏ DOĞMUR ŞAVAĞIN İLDIZI?

Qaşının qarasına,
Ay niyə doğmur şavağın ildızı?
Xal döyüm arasına,
Gözlərəm çıxmaz yanağı qırmızı.
Sənin kimi gözəlin,
Ay niyə doğmur şavağın ildızı?
Yalvarım anasına,
Gözlərəm çıxmaz yanağı qırmızı.

Yaxın dursan yanıma,
Ay niyə doğmur şavağın ildızı?
Donun dəysin donuma,
Gözlərəm çıxmaz yanağı qırmızı.
Aç qoynunu yer elə,
Ay niyə doğmur şavağın ildızı?
Mən də gəlim yanına,
Gözlərəm çıxmaz yanağı qırmızı.

## BU DAĞDAN QOVUN MARALI, MARALI

O dağların üzündə,
Bu dağdan qovun maralı, maralı.
Ceyran otlar düzündə,
Qız dərdli, oğlan yaralı, yaralı.

Mən yarımı bilirəm,
Bu dağdan qovun maralı, maralı.
Qoşa xal  var üzündə,
Qız dərdli, oğlan yaralı, yaralı.

Bağçaların  barıdı,
Bu dağdan qovun maralı, maralı.
Heyvaların narıdı,
Bu dərdli, oğlan yaralı, yaralı.
Əyil üzündən öpüm,
Bu dağdan qovun maralı, maralı.
Əllərin xınalıdı,
Qız dərdli, oğlan yaralı, yaralı.

Gərgədən ha gərgədən,
Bu dağdan qovun maralı, maralı.
Kim oldu səni örgədən,
Qız dərdli, oğlan yaralı, yaralı.
Ovçu bir maral vurdu,
Bu dağdan qovun maralı, maralı.
Genə bizim cərgədən,
Qız dərdli, oğlan yaralı, yaralı.

# XII. TIRINQILAR

## 1*

İrəvan yoluynan gələn bəzirgan,
Halımı gözümdən bilən bəzirgan,
Axan göz yaşımı silən bəzirgan,
O eldən-obadan varmı bir xəbər?

İrəvan yolunu aşıb gəlmisən,
Sən də dərd içində bişib gəlmisən?!
Yolunmu bu yana düşüb gəlmisən?!
O eldən-obadan varmı bir xəbər?

İrəvan yolundan mən də gəlmişəm,
Tufanda, dumanda, çəndə gəlmişəm.
Qəfildən düşmüşəm bəndə gəlmişəm,
O eldən-obadan varmı bir xəbər?

## 2

Bir quşa dönəydim, uçaydım geri,
Bir də dolanaydım o doğma yeri.
İrəvan deyilən, bəridi, bəri,
Tanrı, özün yetir o yurda məni!

Bir quşa dönəydim qonaydım ora,
Bəlkə bitişəydi sinəmdə yara.
Burda, qəriblikdə düşmüşəm tora,
Tanrı özün yetir o yurda məni!

Bir quşa dönəydim ötəydim orda,
Belə qalmayaydım çətində darda.
O cənnət məkanı mən tapım harda?
Tanrı özün yetir o yurda məni!

-------------

*Bu tırınqıların müəllifi Yetim Tapdıqdır. O əslən irəvanlıdır, erməni-müsəlman davasında (1905-1907) erməni vəhşətindən dolayı Ağbabanın Xozu köyünə pənah gətirmişdi.

**3**

Könül, o yerlərə düşməz güzarım,
Dərbədər olmuşam haraya varım?
Necə əldən çıxdı gözəl diyarım,
Başıma iş gəldi qaçaqaçıynan.

Könül o yerlərə həsrətəm necə,
Fəğan eylərəm hey gündüz-gecə,
Mahudum bez oldu, məxmərim keçə,
Başıma iş gəldi qaçaqaçıynan.

Könül o yerləri arama bəsdi,
Duz basma, insaf et, yarama bəsdi,
Yetimsən, səs salıb zarıma bəsdi,
Başıma iş gəldi qaçaqaçıynan.

**4**

İrəvan deyilən bir düzən yerdi,
Tanrı yuvamızı yağıya verdi.
Müqəddəs ziyarət, ocaqdı, pirdi,
Ölüncə başıma döyər, ağlaram.

İrəvan deyilən cənnət məkandı,
Ürəyimə təpər, canımda candı.
“İrəvan“ deyəndə dilim də yandı,
Ölüncə başıma döyər, ağlaram.

İrəvan deyilən qayım bir eldi,
Ona ayna tutan o Toxmaq göldü.
Dağıldı el-obam, mərdlərim öldü,
Ölüncə başıma döyər, ağlaram.

**5**

Dərbədər olanın gülərmi üzü?!
“Vətən“, “Vətən“ deyər, hey dolar gözü.
Qırılar qaməti, sıyrılar dizi,
Qürbətin odunda yanar ha yanar.

Dərbədər olanın od tutar içi,
Gədalar da saymaz, baxar qıyğacı.
İtirər taqəti, olmaz ilacı,
Qürbətin odunda yanar ha yanar.

Dərbədər olanın olar uzağı,
Fələk ona qurar toru, tuzağı.
Min bayatı söylər, deyər yüz ağı,
Qürbətin odunda yanar, ha yanar.

**6**

Sarvan baba, əyləginən karvanı,
Sınıx könlüm gözlərinin qurvanı.
Bir yarım var, əhli-dərviş urfanı
Bu kağızı Dərbədərə verginən.

Sarvan baba, ayax saxla, bir dayan,
Ah çəkərəm dərd əlindən, bir oyan!
İnsaf edib, mürvət edib bircə an,
Bu kağızı Dərbədərə verginən.

Sarvan baba, qərib eldə qalan var,
Ürəyinə qada-bala salan var.
Ayrılıqdı, saralan var, solan var,
Bu kağızı Dərbədərə verginən.

**7**

Tale vurdu üz çevirdim arana,
Bir ümidim vardı göydə durana.
And verirəm sizi, əziz "Qur'ana",
Mən qəribəm, mənə qərib deməyin.

Tale vurdu Ağbabadan köç etdim,
Köçkünlüyü öz başıma tac etdim,
Dərd götürüb cavanlığı puç etdim,
Mən qəribəm, mənə qərib deməyin.

Tale vurdu, tez qondurdu yollara,
Qovaladı, uzaq-uzaq ellərə.

Yetim kimi adım düşdü dillərə,
Mən qəribəm, mənə qərib deməyin.

**8**

Dərd əlindən dəlik-dəlik dəlindim,
Adım itdi, dəftərlərdən silindim.
Qərib düşdüm, eldə yetim bilindim,
Yeri-göyü, ərşi-kürşü yaradan.

Dərd əlindən yurd-yuvamı itirdim,
Köydən çıxdım, qəribliyi götürdüm.
Vaxt var idi, bülbül kimi ötürdüm,
Yeri-göyü, ərşi-kürşü yaradan.

Dərd əlindən dağdan-dağa yol aldım,
Fələk verdi, cəfaları bol aldım.
Yazıq idim, mən də ahdım, babaldım,
Yeri-göyü, ərşi-kürşü yaradan.

**9**

Dəli könlüm, "Vətən" deyib ağlama,
Qərib yerdə gəl, sinəmi dağlama.
Bəxtim yatıb ona ümid bağlama,
Başa gələn yaradana bəllidi.

Dəli könül, qanadını qırdı qəm,
Kədər sənin, qədər sənin, yoxdu dəm,
Uşaq yetim, özün yetim, yox həmdəm,
Başa gələn yaradana bəllidi.

Dəli könül, Ağbabaya yön çevir,
Pərvaz elə, o dağlara bir hovur.
Ürəyimi gizlin-gizlin dərd ovur,
Başa gələn yaradana bəllidi.

**10**

Səni orda qoydum, gəldim tək özüm,
Qəddim tez əyildi, dərdə tək dözüm.

Elə qan ələyir, qurumur gözüm,
Yurdda bir məzarı qoydum da, gəldim.

Səni orda qoydum, qoşuldum köçə,
Kimim var anlaya, qaramı seçə.
Fələyin zərbəsi gör tutdu necə?!
Yurdda bir məzarı qoydum da, gəldim.

Səni orda qoydum, özümü darda,
İndi ömrüm keçir boranda-qarda:
Bulunmaz dünyada vəfalı yar da,
Yurdda bir məzarı qoydum da, gəldim.

**11**

Seçkin oldum qohum-qardaş içindən,
Yola düşdüm, gəldim oba köçünnən.
Yurd həsrəti od tək keçdi içimnən,
O dağlardan, bu dağlara gəlmişəm.

Seçkin oldum vətənimdən, elimdən,
Qonum-qonşu, köyüm çıxdı əlimdən.
Danışanda nalə qopur dilimdən,
O dağlardan bu dağlara gəlmişəm.

Seçkin oldum  yarımadım, gülmədim,
Qəza məni qaraladı, bilmədim.
Üzüm bərkdi, bu qürbətdə ölmədim,
O dağlardan bu dağlara gəlmişəm.

**12**

Yeridim, yüyürdüm qürbətə sarı,
Geriyə boylanıb baxmadım, barı.
Bənizim soluxub, irəngim sarı,
Ağbaba deyəndə yanar, ağlaram.

Yeridim, yüyürdüm, dərd qovdu məni,
Başımda yurdumun çəni-dumanı.
Qəribin qürbətdə olmaz gumanı,
Ağbaba deyəndə yanar, ağlaram.

Yeridim, yüyürdüm qürbətə düşdüm,
Tə’nəyə tuş oldum, möhnətə düşdüm.
Əzəllər elə bil, bir azad quşdum,
Ağbaba deyəndə yanar, ağlaram.

**13**

Mən bir yar sevmişdim adı Qaraca,
Dalımca gəzərdi hardan, haraca.
Hardadı yar özü bir söhbət aça?!
O ötən günləri, bir də görəydim.

Mən bir yar sevmişdim gül kimi tərdi,
Gül-çiçək içində gəzib itərdi.
Saz kimi dinərdi, ney tək ötərdi,
O ötən günləri, bir də görəydim.

Mən bir yar sevmişdim, gözləri xumar,
Üstünə-başına edərdi tumar.
İndi dəli könlüm, xəyala cumar,
O ötən günləri bir də görəydim.

**14**

Sən neynirsən şalı-malı tirmiyi,
Təzək qayır, daşı dama kərmiyi.
Yaxşı öyrən qalax-malax hörməyi,
Kasıb qızı-kasıbların malıdı.

Sən neynirsən, bombarxatı geyəsən,
Qızıl-gümüş qollarına taxasan,
Zalım qızı, sən özün bir aynasan,
Kasıb qızı-kasıbların malıdı.

Sən neynirsən gündə plov yeməyi,
Gəl tərgitmə, hərdən nanay deməyi.
Ağıllı ol, itirməynən əməyi,
Kasıb qızı-kasıbların malıdı.

**15**

Gör necə bələnib ala-qızıla,
Sanki qönçə güldü, belə qız olar?!
Bir azca dərdi var, desəm söz olar,
Naxırçı əppəyi yadına düşüb.

Gör necə açılıb ayna qabağı,
Əynində nimtənə, qolda qolbağı.
Dolanır kəklik tək dərəni-dağı,
Naxırçı əppəyi yadına düşüb.

Gör necə dəyişib bəy evində bu,
Bəxti tez gətirən kimsənə budu.
Eldə bir tanınmış bəyin yarıdı,
Naxırçı əppəyi yadına düşüb.

**16**

Qalaxdan yıxıldım, qarnım ac idi,
Məni dərdə salan ehtiyac idi.
Bu ac-gic deyilən bir vaxt qoç idi,
İnsafı, mürvəti bir yada salın.

Qalaxdan yıxıldım halım qalmayıb,
Kasıbam, evimdə malım qalmayıb.
Vəzifə almamış zalım qalmayıb,
İnsafı, mürvəti bir yada salın.

Qalaxdan yıxıldım, güldü tox olan,
Haqq görən gözlərə neştər, ox olan.
Mənim tək yetimdi artan, çoxalan,
İnsafı, mürvəti bir yada salın.

**17**

Qaladan qalaya yollar uzanar,
Kimi var itirər, kimi qazanar.
Bəlaya tuş olar yolun azan ər,
Yolçu bəzirgandı, ya da xocadı.

Qaladan qalaya karvan da gedər,
Karvanın üstündə sarvan da gedər.
Quldur, çapovula qurban da gedər,
Yolçu bəzirgandı, ya da xocadı.

Qaladan qalaya mən də getmirəm,
Dağlarda düşmüşəm bəndə getmirəm.
Daha öyrəşmişəm, kəndə getmirəm,
Yolçu bəzirgandı, ya da xocadı.

**18**

İrəvan elindən yeridik biz də,
Vətən həsrətini gətirdik gözdə.
O yer yada düşür söhbətdə-sözdə,
Bilməyən neyləsin, bilən neyləsin?

İrəvan elindən gedən birdimi?!
Necə açım deyim yada dərdimi.
Kafir arxalıydı, qırdı mərdimi,
Bilməyən neyləsin, bilən neyləsin?

İrəvan elindən ölən də oldu,
Köçlərə qarışıb gələn də oldu.
Yıxılıb yollarda qalan da oldu,
Bilməyən neyləsin, bilən neyləsin?

**19**

Ay başı dingəli, beli kəmərli,
El-obası varlı, pullu-nəmərli,
Dodaqları ballı, teli tumarlı,
Mən sənin dərdindən ölürəm axı!

Ay başı dingəli, kefin saz olsun,
Qış vaxtı yediyin yağlı qaz olsun,
Demirəm ki, səndə insaf az olsun,
Mən sənin dərdindən ölürəm axı!

Ay başı dingəli, bəri bax bəri,
Dərdindən olmuşam bir sümük-dəri.

Əlinlə ver, içim ağu zəhəri,
Mən sənin dərdindən ölürəm axı!

**20**

Danaçı qızısan, gəl az naz elə,
Kasıbam, yetiməm, gəl  az söz elə.
İşi düzəldirsən, onda tez elə,
Barı bir komada verək baş-başa.

Danaçı qızısan bircə anan var,
Səni istəyən var, sənə yanan var.
Adın Sayalıdı, öz adım Ənvər,
Barı bir komada verək baş-başa.

Danaçı qızısan, çobanam mən də,
Əzəldən gözünə qurbanam mən də.
Gəl götürüb qaçım, cavanam mən də,
Barı bir komada verək baş-başa.

**21**

Yeridim, yetirdim bu yerə çatdım,
Dərd ilə, qəm ilə başımı qatdım.
Boşa çıxdı, niyə hara əl atdım,
Bir də onda gördüm, gəlib qocalıq.

Yeridim yetirdim qəlbimi bada,
Bəlalı, başıma gəldi çox qada.
Ömür hədər keçdi, düşmədi yada,
Bir də onda gördüm, gəlib qocalıq.

Yeridim, yetirdim mən də əcələ,
Bütün işlərimi etdim əcəla.
Axı kim istəyər tezcə qocala,
Bir də onda gördüm, gəlib qocalıq.

**22**

Bir qara dərvişəm, Gülverənnənəm,
Haqqı tanıyana gül verənnənəm.

Hər elə-obaya əl verənnənəm,
Gəzdiyim yollardı, getdiyim eldi.

Bir qara dərvişəm, mətahım sözdü,
Müştərim bilmirəm, əllidi, yüzdü.
Papağım qaradı, xırxam da bozdu,
Gəzdiyim yollardı, getdiyim eldi.

Bir qara dərvişəm, uca məqamım,
Haqdan nur içərəm əlimdə camım.
Göylər məkanımdı, nurdandı canım,
Gəzdiyim yollardı, getdiyim eldi.

**23**

Köy-köy dolanıram, məclis qururam,
Təmiz kimsələrə dayaq dururam
Yoldan azanlara çubuq vururam,
Abdalam, dərvişəm, sofuyam, buyam.

Köy-köy dolanıram, pay yığmıram mən,
Pullu adamlardan pul yığmıram mən.
Qanmaza, nadana bir yağmuram mən,
Abdalam, dərvişəm, sofuyam, buyam.

Köy-köy dolanıram, gəzirəm düzü,
Eldə seçiləni, bədir ay üzü.
Əlimdə bərəkət, bolluq, ruzu,
Abdalam, dərvişəm, sofuyam, buyam.

**24**

Ağbaba deyilən, bir gözəl eldi,
Hər yanı çəməndi, çiçəkdi, güldü.
Böyüyü, kiçiyi çox şirin dildi,
İndi Ağbabanın adı qalıbdı.

Ağbaba deyilən, uzaqda qaldı,
Tanrı verdiyini geriyə aldı.
Fələk başımıza qarama saldı?
İndi Ağbabanın adı qalıbdı.

Ağbaba deyilən Çıldıra yaxın,
Eli pərən oldu, bir yaxşı baxın.
Xeyri nə fəryadın, nalənin, ahın,
İndi Ağbabanın adı qalıbdı.

**25**

Ay telli-toqqalı, tez-tez gəl bizə,
Al-yaşıldan geyib bir yaxşı bəzən.
Gözəlsən, göyçəksən gəlməzsən gözə,
Barı dərddən-qəmdən qurtar sən məni.

Ay telli-toqqalı, sənsən gümanım,
Ümidim, pənahım, dinim-imanım.
Gəl mənə meyl elə, a şirin canım,
Barı dərddən-qəmdən qurtar, sən məni.

Ay telli-toqqalı, sənsən gümanım,
Geyimi tər-təmiz, teli sığallı.
Əsildən-əsilsən, dərya kamallı,
Barı dərddən-qəmdən qurtar, sən məni.

**26**

Asta get, asta get, ay mina gərdan,
Dolan bizlərə də, sən hərdən-hərdən.
Təzə boşanıfsan, bilirəm ərdən,
Mən də yaralıyam, düz sənin kimi.

Asta get, asta get qoy mən də gəlim,
Sənin də meylini, qəlbini bilim.
Barı, qoy əlinə dəysin bir əlim,
Mən də yaralıyam, düz sənin kimi.

Asta get, asta get könül yapışdı,
Məni oda yaxdın, bu nə baxışdı?
Yoruluf qalarsan, yolun yoxuşdu,
Məndə yaralıyam, düz sənin kimi.

**27**

Hamıya toy oldu, mən qaldım evdə,
Bu qara baxtımla etmişəm sövdə.
Məni kim bəyəndi, kim seçdi, sevdi?!
Səni də mənim tək yanasan, fələk!

Hamıya toy oldu, düşmədim yada,
Gərək ki, qarıyam belə dünyada.
Niyə cavanlığım verirsən bada?
Səni də mənim tək yanasan fələk!

Hamıya toy oldu, tutulmur adım,
Qalıb ürəyimdə mətləb-muradım.
Ağ gün atlı olub mən necə çatım?
Səni də mənim tək yanasan fələk!

**28**

Həsrətin odundan tutuşmuşam mən,
Qatar-qatar qəmə yetişmişəm mən.
Bir köhnə yarayam, bitişmişəm mən?!
O köhnə İbişə bir xəbər olsun!

Həsrətin odundan qəm üstə dindim,
Əridim, əridim şam kimi söndüm.
Sinoru hərləndim, başına döndüm,
O köhnə İbişə bir xəbər olsun!

Həsrətin odundan saqqal ağardı,
Dərdim mətah olub, qəm də nübardı?
Qabaxlar o yanda Cəlil də vardı,
O köhnə İbişə bir xəbər olsun!

# XIII. DEYİMLƏR

A yoldan gedən it, gəl yanımı yırt;
Ehtiyac olmadığı halda yan-yörədən keçənləri dindirib öz başına əngəl açanlar barəsində deyilir.

Ala bayrax olmax;
El-obada rusvay olmaq, dildə-ağızda söylənmək.

Ağzıynan quş tutmaq;
Yaxşı imkana malik olmaq, ürəyi istədiyini etmək.

Ağzını Allah yoluna qoymaq;
Ağzına nə gəldi danışmaq.

Ala itdən manşırdi;
Hər yanda məşhur olan, hamının tanıdığı adamlar barəsində deyilir.

Atını-itini nallamaq;
İş-peşəsini boşlayıb kiminsə arxasınca düşmək, ziyan vurmağa çalışmaq.

Ağzına çullu dovşan sığmır;
Məqamına, mənsəbinə, var-dövlətinə arxalanıb istədiyini danışmaq.

Alımını vermək;
Dişinin dibindən çıxanı demək.

Ağ otdan balta sapı;
Bir işə başdan sovdu yanaşanda, nəyi isə tez bazar, ala yarımçıq görəndə deyilir.

Allah-Allahnan doydurmaq;
Bu ifadə həm olduqca yoxsul, imkansız adamlar, həm də xəstə, zəif adamlar haqqındadır.

Ala qarğa bala çıxartmaz;
Qalmaqallı, dedi-qodulu ailə, el adətinə dönük çıxmış oba, kənd və s. haqqındadır.

Av(ov) quşuna dönmək;
Axtarmaqla tapa bilməmək.

Al qulu;
Almağa öyrəşən, verməklə arası olmayan.

Ana məməsi kəsən;
Olduqca qəddar, rəhmsiz adam haqqında deyilir.

Ağzıynan od götürmək;
Hər cür əzaba qatlaşan, özünü oda-közə vuran adam üçün deyilir.

* * *

Boyun əti olmaq;
Başqasına yük olmaq.

Boynum qıldan incədi;
Kiminsə yanında gözü kölgəli, suçlu olduqda, müraciət etməyə üzü gəlmədikdə deyilir.

Beşdə alacağı yox, üçdə verəcəyi;
Heç bir dərd-səri olmayan, oğul-uşaq qəhrinə qatlanmayan, arsız, yüngül həyat keçirən adamlar barəsindədir.

Baxtım özümnən qabax gedir;
Ailə qurmaqda bəxti gətirməyən, ər evində yarımayan qadınlar özləri haqda belə deyərlər.

Başını bəzəmək;
Kiminsə adını hallandırmaq, haqsız böhtanlar demək.

Bol əlli, bostan könüllü;
Adamların yersiz səxavət göstərmələrinə eyhamdır.

Bıyıx verməmək;
Hər deyilənə qulaq asmamaq, hər təkliflə razılaşmamaq.

Başına sancmaq;
Hər hansı möhtərəm, hörmətli şəxsin xahiş və minnətindən çıxa bilməyib kiminsə günahından keçmək: "Get, səni filankəsin başına sancıram".

Bıldır ölüf boz eşşək,
Gəlin bir il ağlaşax;
Çoxdan olub keçmiş bir şeyi təzədən yada salıb heyfslənəndə deyilir.

* * *

Darağına salmax;
Yaranmış fürsətdən əlüstü istifadə edərək hər hansı bir işi yoluna qoymaq, səmtinə salıb kimdənsə əvəz çıxmaq.

Daş daşdan ayrıldı;
Xəsis, simic adamlardan bir şey qopara bildikdə, tərs, inadkar adamları nəyə isə güc-bəla razı saldıqda bu ifadəni işlədirlər.

Dalağı sancmaq;
Xoşagəlməz bir hadisə baş verəcəyini əvvəlcədən hiss etmək.

Dəvəni xəlbirnən suvarmaq;
Cüssəli, yeyimcil şəxslərə yeməyi az verdikdə işlədilir.

Dilim qıla döndü;
Çox yalvardım, sözüm yerdə qaldı.

Doqquzu dörd eliyəcək;
Əhəmiyyətsiz bir iş görməyə qərar verib bunun üstündə israr edən şəxslərə xitabən deyilir.

Dəfə-darağını çəkmək;
Uzaqlaşmaq, rədd olub getmək.

Dəvə dəlləyi;
Uzundraz adam.

*      *      *

Evdən-eşikdən çıxmaq;
Çətin vəziyyətə düşərək, olub-qalanı satmaq.

En gedib-uzun gəlmək;
Boş-boşuna ora-bura hərlənmək.

*      *      *

Əlinə çöp qırıb vermək;
Kiminsə öhdəsindən asanlıqla gəlmək,
hər-hansı sahədə başqasından yetərincə üstün olmaq.

Əliuzantılıq eləmək;
Tamahını cilovlaya bilməmək.

Əldən-ağıza qalmaq;
İmkansızlıq üzündən başqalarına möhtac olmaq.

Ətin tökülsün;
Zarafata salıb biabırçı, nalayiq söz deyənlərə aiddir.

Əlinə-ayağına döşənmək;
Yalvarıb yaxarmaq.

Ələyi ələnmək;
Xəstəlikdən, qocalıqdan, pis vəziyyətdən dolayı işi bitmək.

Əli ağzına çatmır.
Tənbəl, aciz adamları belə deyərək yamanlayarlar.

Əngə vermək;
Qulaq ardına vurmaq, bu gün-sabaha saxlayıb hər hansı işi yerinə yetirməmək.

*          *          *

Gözdən qıl qarpır;
Yəni gözüaçıqdır, hər gördüyünü mənimsəməyə çalışır.

Gorun çatdasın!
Rəhmətə getmiş bir kəsin qoyduğu sahman pozularaq, əməllərinin ziddinə gedilərsə, deyərlər: “Ax, ay filankəs, gorun çatdasın!“

Gördüyünnən göz kirəsi istiyir;
Hər şeyə tamah salıb ələ keçirmək istəyir.

Gözü darı dəlir;
Hər şeyə fikir verir, nəzərindən heç nə yayınmır.

*          *          *

Xurduna girmək;
Kiminsə qılığına girmək, e’tibarını qazanmaq.

Xon açmaq;
Geniş süfrə açmaq, qonaqlamaq.

Abrını ətəyinə bükmək;
Kimə isə dişinin dibindən çıxanı deyib, biabır etmək.

Ayıbına kor olmaq;
Günahını başa düşüb, susmaq.

Ağırınnan almaq;
Arxayın, tələsmədən, məqsəddən yayındırmaq.

Ağlına soğan doğramaq;
Yalnış məsləhət vermək, məqsəddən yayındırmaq.

Ağzıma qalax, arxama salax;
Nə imkan verir bir söz deyəsən, nə də ətəyimi əldən buraxır.

* * *

İt sümüyünə calanmaq;
Pis adamla qohum olmaq.

İynəynən gor eşmək;
Əzab-əziyyətli, başa gəlməsi mümkün olmayan iş görmək.

İtdən alıb itə vermək;
Danlayıb abrını tökmək.

İtdən peşman olmaq;
Həddindən artıq peşman olmaq, xəcalət çəkmək.

İtdən çörək istəmək;
Dilənçi vəziyyətinə düşmək, dosta-düşmənə əl açmaq.

İfliyi üzülmək;
Arıqlayıb çöpə dönmək.

İlan dili çıxartmaq;
Yalvarıb-yaxarmaq.

* * *

Kabada yal içmək;
Tam arxayınçılıq əldə etmək.

Keçi qurdun nəyini yeyif?
Yə'ni kimə nə pisliyin keçib?

Körpüdən keçəndə yan-yana dəymək;
Uzaqdan-uzağa qohum olmaq.
Kar iti qurd aparıf;
Deyilənlərə əhəmiyyət vermir, dünya od alıb yansa da bir xorum otu yanmır.

Kor iti xeyir görməz;
Həmişə özünü düşünən, başqalarına faydası dəyməyən adamlar barəsində deyilir.

Kürəyi çatdamaq;
Ailəsini dolandırmaq xatirinə hər bir ağır işlərdə çalışmaq.

Kor kor, gör gör;
Hər hansı bir şeyin sübuta, isbata ehtiyacı olmadığını nəzərə çatdırmaq üçün işlədilir.

Köhnə palan içi tökmək;
Köhnə incikliklən yada salmaq, keçmiş işləri qurdalamaq.

Köntöy-köntöy danışmaq;
Dəyintili sözlər demək, əyri-əyri danışmaq.

Kirpiyinnən od götürmək;
Ağır əzab-əziyyətə, çətinliklərə qatlanmaq.

Kəllə-daban danışmaq;
Dava gəzmək, tərs danışmaq.

Kütünü kəsmək;
Gözdən-nəzərdən salmaq.

Köhlən kəsilmək;
Kiminsə gözündən aldırmaq, göz verib işıq verməmək.

Qalmax:
Əlacsız qalaraq bir qərara gələ bilməmək, istəyinin xilafına məcburi olaraq nə iləsə razılaşmaq.

* * *

Qaraçı çalır, kürd oynuyur,
Acığı tutan bir də oynuyur;
Qalmaqallı, böyük-kiçik yeri bilinməyən ailə haqqında işlədilır.

Qaşıq-qaşıq yığıb, çömçə-çömçə dağıtmaq;
Gəlir-çıxarını bilməyən bədxərc adamlara aiddir.

“Qur’an“dan don geymək;
Suçlu bir adam min cür and-amanla özünü təmizə çıxarmağa cəhd edərsə, deyərlər; “Qurannan don geysən də inanmaram“.

Qaragöz oyununa düşmək;
Arzuedilməz hadisələrə düçar olmaq, dalbadal, gözlənilməz mərhumiyyətlərlə üzləşmək.

Qılı qıldan seçmək;
Tədbirli, dünyagörmüş adamlar barəsində deyərlər: “Qılı qıldan seçən adamdır“.

Qarğa, məndə qoz var;
Dili yüyrəklik edərək başqalarının bilməyinin caiz olmadığının özünə aid hər hansı bir mə’lumatı aşkarlayanlar barəsində işlədilir.

Qıncıx-qıncıx olmaq;
İşlədiyi bir eyibin başqaları tərəfindən duyulduğunu hiss edən, namüsünasib yerdən tutmuş ağrını içində boğmağa məcbur olanlar haqqındadır.

Qaşıq çömçədən böyük oluf;
Yəni böyük sözünə baxan yoxdu, oğul-uşaq özbaşına olub, zamana dəyişib.

Qara qızın dərdi varıymış;
Ürəyinin altında sözü varmış, başqa niyyəti, umacağı varmış.
Qanının arasına girmək;
Kimi isə bədbəxt bir hadisədən xilas etmək, ölümdən qurtarmaq.

Qarnımnan qara qannar axır;
Dərd-qəm içindəyəm, fikir çəkirəm.

* * *

Lavaş qulağı genəltmək;
Həll olunmuş bir mübahisəni yenidən qaldırmaq üçün qəsdən müzakirə açmaq.

*          *          *

Mən gəlmişəm gəlin görməyə,
Gəlin gedif çimən dərməyə;

Kimi isə yoluxmağa gəlib evdə tapmayanda belə deyərlər.

Mamanı oynamaq;

Kəsərli sözdən, acığından yanıb-tökülmək, başına-dizinə döymək.

*          *          *

Sarı yağdan qıl çəkmək;

Tədbirlə, ağılla hərəkət etmək.

Saman altdan su yeritmək;

Üzdən sakit görsənib, gizlində təsəvvürə gəlməz işlərlə məşğul olmaq.

Səbət dalınnan gilas tökülür?

Qeyz ilə danışan bir şəxsin sözlərinə gülərlərsə, qulaq asmırlarsa bu ifadə işlədilir.

*          *          *

Taxtasız-taxtasız işdər görmək;

Qadına layiq olmayan hərəkət etmək.

Tikəsinə qızıl olmaq;

Olduqca xəsis, simic olmaq.

*          *          *

Yeddi göbək saymaq;

Qohumbaz adamlara məxsus olan xüsusiyyət.

Yağ yeyib yaxada gəzmək;

Gününü kef-damaqla keçirmək, qayğısız həyat sürmək.

Yarı mənsil eləmək;

Məhsulu itkiyə vermək.

Yan çəkmək;
Tərəf saxlamaq, təəssüb çəkmək.

Yandığınnan yarma çəkir;
Hirsindən yanıb tökülür, acığını soyuda bilmir.

Yandımhaya düşmək;
Hər hansı xəbəri eşidib bərk əl-ayağa düşmək.

Yel əsib, qoz tökülüb;
Asan qazanca, müftə yeməyə qaçanlar barəsində deyilir.

* * *

Zəncir kimi düzülmək;
Hamının bir-birinə qohum, arxa olması.

Zarıncı olmaq;
Ömürlük xəstə olub yatağa düşmək, əldən-ağıza qalıb başqalarına möhtac olmaq;

Zing yerinə qoymaq;
Bir məqsədə çatmaq üçün durmadan çalışıb-çabalamaq.

# XIV. AŞIQ RƏVAYƏTLƏRİ

## QARA ƏYYARNAN UZ HASANIN GÖRÜŞMƏYİ

Deyillər Gümrü ətrafı kətdərin birində qoldan quvvatdı, dildən pərgar, sinədəftər bir cavan varıydı. Adına Qara Əyyar deyirdilər. Qara Əyyar elə güləş fəndi yoxuydu ku bilməsin, üsdəlih çox quvvatdıydı. Gün o gün oldu ki, onun qavağına heş kəs çıxa bilmədi. Bu vaxıt Qara Əyyarın olardı bir on səkkiz-on doqquz yaşı. Noolcax, saldı cavannığına, başdadı döşünə döyməyə. Bir gün belə, iki gün belə, üş gün belə... Bir gün Nuru ağa addı bir əhli-hal Qara Əyyarı yanına çağırıf dedi:

– Oğul, nahax yerə sinənə döyürsən.

– Ağa, niyə belə deyirsən.

– A bala, sənnən də güjdüləri var axı.

– Kimdi onnar.

– Ay oğul, sən gəl cavannığına salma, sonra pisikərsən ha.

Söz burya çatanda Qara Əyyar dayanammadı, gözü çıxdı kəlləsinə... Nuru ağa gördü bu dəlisoy gədə onnan heş əl çəkənə oxşamır. Əlacı kəsildi:

– Gümrüdə Uz Hasan addı bir usda var. Kişi daş usdasıdı. Çox quvatdı adamdı, bala, çalış bu heyvərə danışığını o eşitməsin.

– O necə adamdı, cavandı, qocadı.

– Olar bir altmış yaşında.

– Yanı mən qoca kişidənmi qorxacam.

– Onda özün bil, mənnən sana deməh...

Qara Əyyarın dəli beyni nə təhər qızdısa düz ordan üz çevirdi Gümrüyə. O, şəhərə girən kimi gördü xeylax aralıxda zurna səsi, toy daşbıltısı gəlir. Gəlif gördü ki, toydu. Əmə ortada nər kimi bir pəhlivan o tərəfə, bu tərəfə var-gəl eliyir. Məsəl var, pəhlivan olasan, qara zurnanın səsini eşidəsən, daha səni kim saxlıya bilər ki. Bəyax, Qara Əyyar soyunuf girdi meydana. Qara Əyyar gördü əyə bu pəhlivan da çox quvatdıdı, acıxlanmadımı. Bir acıxlı nərə çəkif həmin pəhlivanı vurdu yerə. Nolacax, toy sahabı Qara Əyyara nəmər verdi. O, toydan çıxıf gəzə-gəzə, xəbər ala-ala gəlif Uz Hasanın əvini tafdı. Usdufca qapıyı taqıldatdı. O sahat içəridən boyu minara kimi uzun bir kişi çıxdı.

– Gəl, gəl.

Qara Əyyar əv sahabına salam verif içəri keşdi. Kişi ona yer görsətdi. Qonax oturannan sonra ortuya surfa saldılar. Yeyif işdilər. Əv sahabı qonağın boy-buxununa baxıf dedi:

– Soruşmax ayıf olmasın, a bala, kimin, nəyin nəsisən.

– Gödəh Mustafanın nəvəsiyəm.

– Tanıdım, rəhmətdih yaxşı şayırıydı.

Əv sahabı belə deyəndə Qara Əyyar ona çox maraxnan baxdı. Əv sahabının lay tufar bədəni, qulaxlarının divinə qədər çatan bığları, məşəl kimi yanan gözdəri, enni çiyinnəri onu xeyli tüşündürdü. Öz özünə ürəyində dedi: "Bu kişi yaman güjdü adama oxşuyur. Yaxşı olar ki, elə mətləvi aşmıyım. Bir daş altda, bir daş üstdə. Mana dəymiyən qurdu min yaşasın." Əmə əv sahabı qonağın üz-gözünnən, hərəkətinnən nəyə gəldiyini başa tüşmüşdü. Odu ki, ağır-ağır dilləndi:

– A bala, bilirəm nəyə gəlifsən, əmə nahax... Bir də gəlifsən, gəlifsən, daha keçif. Qoca adamam, sümüyüm köyrəlif, daha güləşə bilmərəm. Əmə gərəh bir yaxşı deyişəh. Razısanmı?

Qonax başını tərpətdi.

– Onda əlini ver bura.

Qara Əyyar əlini Uz Hasana verən kimi Uz Hasan onun əlini elə sıxdı ki, az qaldı ağrıdan diz çöhsün. Birtəhər özünü ələ aldı.

Uz Hasan o sahat adam yolluyuf iki ağsaqqal, bir mirzə çağırtdırdı. Qara Əyyar buna çox təəccüfləndi.

– Bunnarı nəyə çağırtdırdın, ay usda.

– A bala, bu ağsaqqallar, saz-söz adamlarıdılar. Birinin adı Ağ Dərviş, o birinin adı Qara Dərvişdi. Qaldı mirzə. Onu da çağırtdırmışam kı, deyişməyimizi yazsın.

Bu sözdəri eşidəndə Qara Əyyar dillənmədi, amma ürəyində burya gəldiyinə çox peşman oldu. Əmə iş işdən keçmişdi. Özü öz əliynən özünü tora salmışdı. Bəli, qavağındankı bir qoca asdandı bunun qavağında dur görüm. Görəsən tav gətirə biləcəhmi. O özünü ələ aldı. Genə öz özünə ürəyində dedi: "Əyə, mən niyə qorxuram. Dədəm Gödəh Musdafa kı yaxşı söz deyən kişiydi. Mən də onun nəvəsi döyüləmmi. Nədən qorxmalıyam. Bir də nə olar, olar..."

Elə bu vaxıt Qara Dərviş ayağa qalxdı, irəli gəldi. Bir əliynən əlinnən tutuf onnarı ortuya çəhdi.

– Allah hər ikinizin işinə faraş versin. Məclisimizi gülləndirin, könlümüzü dilləndirin. Qoyun gözümüz, könlümüz açılsın, dərtdən, qərəmətdən silkinəh bir əz.

O sahat Uz Hasan irəli yeridi, döndü Qara Əyyara tərəf.

– Qavaxcax sən başdıyırsan, yoxsa mən?

– Usda sən başda. Mən də dalıncax gəlim.

– Yaxşı.

İndi görəh burda Uz Hasan üzünü Qara Əyyara tutuf nə dedi.

Kısırəmən kimi tüşdün ortuya,
Demədimmi kələ, buğa, kal da var.
Dizə gələr, dana-boyun olarsan,
Unutmuşdun hər ustalıx çalda var?!

**Aldı Qara Əyyar:**

Yaxşı danış, şirin elə sözünü,
Ağsaqqalsan, salma gözdən özünü,
Haqqa qulam, mən deyirəm düzünü,
Piran da var, hələ başı kal da var.

**Aldı Uz Hasan:**

Cöngə kimi gözün qızdı boş yerə,
Yekə getməh səni saldı bu girə.
Oxşasa da dəyirmana kirkirə,
El içində ol da olsa, ol da var.

**Aldı Qara Əyyar:**

Başa tüşdüm, hər qəbahət məndədi,
Suçun çoxu, usda, yaşda-sindədi,
Mən bilməzdim şeytan mənnən öndədi,
İrəlidə fitnə-fəsat, al da var.

**Uzun Hasan:**

Yadda saxla piran olan mərd olar,
Hasan deyər qurtdan olan qurd olar.
Qürrələnən bir gün gələr pərt olar,
El içində belə qeylü-qal da var.

**Aldı Qara Əyyar:**

Əyyar deyər məni elə bağışda,
İki piran əhli-dilə bağışda.
Noxsanımı bilə-bilə bağışda,
Hər obada qammaz, nadan, mal da var.

Söz tamama yetən kimi Qara Əyyar əllərini döşünə qoyuf Uz Hasana baş əydi. İrəli gəlif onun əllərinnən öfdü:

– Məni bağışda, usda, böyüh səf eləmişəm.

– Yox, hələ genə bir-iki ağız deyişəcih.

– Deyişmədihmi?

Belə deyəndə Ağ Dərviş dedi:

– Ağdan da deyin.

Qara Dərviş bu sözdəri eşidəndə dedi:

– Qaradan da deyin. Ağnan qara bir-birinnən qardaşdı.

Qara Əyyar başa tüşdü kü, bu dərvişdər dünya görmüş adamlardı, gərəh bu məclisdə çox isbatdı sözdər deyə, yoxsa yaxşı tüşməz. Bəli, Qara Əyyar meydanda fikir eliyəndə Qara Dərviş ayağa qalxdı keşdi irəli. Əliynən Qara Əyyara işarə elədi:

– A bala, keş yerinə, bir az dincəl. Sinəmə bir-iki xana söz gəlif, deyim qulax as.

Qara Dərviş belə deyəndə Uz Hasan da, Qara Əyyar da öz yerrərində keçif oturdular. Qara Dərviş əliynən saqqalını tumarrıyıf ortada bardaş qurdu. Birdən silkələnə-silkələnə sözə başdadı, nə başdadı:

Malı-dövlət, qızıl-gümüş, dünya varı isdəməm,
Haram tikə, müfdə gəlir, zəhrimarı isdəməm.
Mərdlər ilə çörəh kəsməh mənim köhnə peşəmdi,
Müxənnətdən gələn xeyri, nə də karı isdəməm.

Tanrı mana ağıl verif, məqamım var, adım var,
Nur almışam o göylərdən, ayrı cürə odum var.
Nur işdihcəh güjüm artır, çünkü əsli zatım var,
Dürlü sözün odu bəsdi, ayrı narı isdəməm.

Qara Dərviş sözün dedi, sıralardan seçilməz,
Ölüm haxdı, əcəl gəlsə dağdan-düzdən keçilməz.
Dünya geniş, tanrı böyüh, gizdin sirrər açılmaz.
Mənimki bafalı həmdəm, özgə yarı isdəməm.

Söz tamama yetən kimi Ağ Dərviş ayağa qalxdı, irəli gəldi:

– Qara Dərviş, indi də nabat mana gəldi, sən keş yerinə. Bir iki şey deyə biləcəmmi.

Bəli Qara Dərviş keşdi öz yerinə, Ağ Dərviş gəldi düz ortuya, bağdaş qurdu. Sağ əlini sinəsinin üstünə qoyub sol əlini yuxarı tutdu, sakı özünü unutdu. Birdən gözdərini yumdu. Azmı keşdi, çoxmu keşdi-bilmədilər. Birdən Ağ Dərviş sözə başdadı:

Ağ qaranı verən verif, gələn gedər puç olar,
Yaxşıları kama çəkər fələk gözü ac olar.
Bu dünyanın qaydasıdı mərdi məğmun eliyər,
Qanan başda ağıl-bilih, qanmaz başda tac olar.

Haqqı görən, eli sevən mərd kişilər hardadı,
Kimi köçüf, kimi şəndi, kimi bərkdə-dardadı.
Əzrayelin nə vecinə, çəngəlli bazardadı,
Yoxsulun kəsər üstünü, bir ömür də puç olar.

Ağ Dərvişəm yerim məlum, haqqı sayım bəllidi,
Sinnim ötüf, yaşım keçif, yüzün yarsı əllidi.
Qara Dərviş bir az cavan, bir az mənnən hallıdı,
Qocaya hörmət eləyən axır özü hac olar.

Bəli, söz tamama yetdi. Əmə Ağ Dərviş  işarə elədi ki, Uz Hasan deyişməyinizi davam eliyin. Genə Uz Hasan üzünü Qara Əyyara tutdu. Aldı Uz Hasan:

Əhli-Hünər sakit olar, gurultudan iş olmaz,
Gədə-güdə yerin bilməz, tərs öküzə “hiş“ olmaz.
Mərd olanlar düzü sevər tutar eldə yerini,
Müxənnətə fursat verif, nanəcibə tuş olmaz.

**Aldı Qara Əyyar:**

Haray  təpdim cavanlıqdan, bu baş mənə baş olmaz,
Dürlü sözün mədəniyəm, sinəm altı boş olmaz.
Bir xatadı, çıxdı dildən, aqil olan annıyar,
Dünyagörmüş adamlarda axıl ilə huş olmaz?!

**Aldı Uz Hasan:**

Öz yerini yaxşı bəllə, başqa yerə əl atma,
Yaxşı tüşün, yaxşı daşın,öz özünü allatma.
Başın salıf peşman olma, suvatını allatma,
Yolu seçən, ərkan bilən hər nə görsə çaş olmaz.

**Aldı Qara Əyyar:**

Səf elədim, çaşdım yolu, bələtçimsən sən indi,
Qabaxdasan, mən arxada, əzəl söz də sənindi;
Eldə yerim məlum elə, məni göydən sən endir,
Belə getsə üzüm gülər,bircə dərdim beş olmaz.

**Aldı Uz Hasan:**

Uz Hasanam bağışdadım, bir də döymə döşünə,
Qəlbi təmiz, sözü bütöv gərəh eli tüşünə.
Dəliliyin xeyir verməz tüşmə şeytan peşinə,
Gözütoxun, safniyətin işi heş vaxt yaş olmaz.

**Aldı Qara Əyyar:**

Qara Əyyar ol dediyin suvatlara mayıldı,
El yolunda cafalara, həmi dərdə qayıldı.
Fursat tüşdü, məqam gəldi pir içində sayıldım,
Bu gördüyüm həqiqətdi, röya, ya da duş olmaz.

Söz tamama yetdi, əmə Uz Hasanın sinəsi dəmirçi körüyü kimi qızmışdı, genə durmadı, dedi:

– Qara Əyyar, deyirəm bir-iki xana genə deyim, qulax asın.

Dərvişdər başdarını tərpətdilər, yanı sən sözü deməyində ol, qulax asan olar.

İndi gənə burda Uz Hasan sözə başdadı:

Üzüm gülür, eynim açıx hər vədə,
Bizim elə bir bozxırxa gələndə.
Ələ keçir, ya məf olur balıxlar,
Çaydan çıxıf suynan harxa gələndə.

Haqqı sevən, haqq yolunda yolçuyam,
El gözündə bir mizanam, ölçüyəm.

Bir usdayam, həmi eldə elçiyəm,
Ayaxdayam, sözlər çarxa gələndə.

Uz Hasanam dərviş dədə, piranam,
Yaxşılarnan yığnax-məclis quranam.
Nur içməhdən ataş aldım, nuranam,
Nə yaxşıymış mərdə arxa gələndə.

Söz tamama yetdi. Ağ Dərvişnən Qara Dərviş Qara Əyyara xeyir-duva verdilər. Uz Hasan onun başına əl çəhdi, dedi:

– Oğul, sana daha zaval yoxdu.

O vaxıtdan Qara Əyyar da el-obada tanındı, sinədəftər kimi dillərə tüşdü. Ona Gümrülü Qara deməyə başdadılar. Bizə də bunu böyühlər danışdılar. İndi biz də bunu sizdərə dedih. Saxlıya bilən saxlasın huşunda. Əmə hər kəs bu söhbəti huşunda saxlasa mən bilən ziyanı olmaz.

## NOVRUZ

Şörəyelin Qaraçanta kəndində Məhəmmət adlı bir kişi varıydı. Onun da iki oğlu varıydı. Məhəmmət kişi Şirəhli Hasanın qohumu olduğuna görə yaxşı sinədən deyirdi. Həyə, kişinin böyüh oğlunun adı Hasanəli, kiçiyinki Novruzuydu. Əmə Məhəmmət kişi böyüh oğlunu yanı Hasanəliyi Dəstəgül addı bir qıznan əvləndirmişdi. Əmə iş elə gətirdi ki, Hasanəli qəflətən öldü. Dəstəgül dul qaldı. Bir tərəfdən kasıflıx, bir tərəfdən oğlunun ölümü Məhəmmət kişinin laf belini qırdı. Əmə kişi bu qərara gəldi ki, Novruz bir az yekələnsin, gəlini ona alsın, əvdən çıxmağa qoymasın. Həyə, buna kişinin arvadı Lələzər də razı oldu. İndi xavar verəh Novruzdan. Novruz boylu-buxunnu, göyçəh bir oğlandı. Olardı bir on yeddi-on səkkiz yaşı. Bir gün Göy bulağa getmişdi. Necoldusa bir yana uzandı. Bu uzanmaxnan onu yuxu tutdu, nə tutdu. Həyə, onu da deyəh ki, kasıfçılığın üzü qara olsun. Novruz bulağın başına elə-belə getməmişdi, qoyun otarırdı. Həyə, qoyunnarı bulağın ayağına tökmüşdü, suvarmışdı. Özü də bir yana uzanmışdı. Həyə, Novruz yuxuda gördü ki, başı üstündə bir piranə durub. Ağsaqqal kişi ona dedi:

– “Oğul, al bu badəni başına çək“.

Novruz badəni ondan alıb başına çəkdi, əmə ciyəri yandı. Onda həmin qoca iki barmağını aralı tutuf dedi:

– Burdan bax, gör nə görürsən.

– Bir bulaqbaşı görürəm. Orda bir göyçək telli-toqqalı qız var.

– Bax, o qız sənin butandı. Onun adı Səlbinazdı, Çırdırrı Kərim ağanın qızıdı.

Əmə onu deyək ki, Novruz yuxudan ayılmadı. Məhəmmət kişi, qoyun sahabı adamlar çox axtardılar. Novruzu bulağın başında bihuş halda tapdılar. Novruzun ağzı köpüklənmişdi, yuxudaydı. Eləcə evə gətdilər. Oğlanın anası Ləlezər oğlunu belə görəndə ağlamağa başdadı. Bəziləri dedilər, yox, buna nəsə azar dəyif. Əmə aqil bir qoca oğlanın nəbzinə baxıf Məhəmmət kişiyə dedi: "Bu eşq sövdasıdı. Dəyməyin, iki gündən sonra ayılacax, əmə o vaxta bir saz tapın. O, dərdini saznan deyəcək". Doğrudan da, Novruz iki gündən sonra gözdərini açdı, dedi:

– Maa bir saz verin.

Tez ona bir saz verdilər. Oğlanın anası Ləlezər dedi:

– A bala, saa nə olmuşdu?

– Qulax as, ana deyim.

Həyə, görəh burada Novruz anasına nə dedi, biz deyəh, sizdərin də canı sağ olsun.

Badə işdim, ana pirlər əlindən,
Gözlərimə Çıldır qızı göründü,
Yel əsəndə tüşdü başdan örpəyi,
Al yanağı, əsmər üzü göründü.

Bəy qızıdı, Çıldır yurdu-məskəni,
Uca bilir, o, ağılı, zəkanı,
Çox gözəldi onun ədəb-ərkanı,
Gözlərimə ala gözü göründü.

Mən Novruzam Qaraçanta köyünnən,
Haqq aşığı oldum, ana, öyünnən,
Səlbinazı arayacam büyünnən,
Əyan oldu, yolu-izi göründü.

Söz tamama yetdi, əmə, Lələzər başa tüşdü iş qəlizdi. Odu kü, üzünü oğluna tutuf görəh burada oğluna nə dedi, tərəfimnən ərz eliyəh qulluğunuza, sizə də can sağlığı.

Atan kasıf, gör bəy hara, biz hara,
Aman oğul, bu sovdadan dön geri.
Dəstəgülü alax saa xoşbəxt ol,
Üz tutufsan o Çıldıra, çön geri.

**Aldı Novruz:**

Haqdan badə içən geri dönməz heç,
Mən gedirəm, halal elə... ay ana.
Dəstəgülün gözüm üstə yeri var,
O yengəmdi, demə belə, ay ana.

**Aldı Lələzər:**

Atan qoca, ana qoca, sən də tək,
Bu sovdadan heş nə çıxmaz, gəl əl çək.
İrəşbər ol, cütdən yapış, yerin ək,
Çox qalxıfsan, o ucadan en geri.

**Aldı Novruz:**

Saa dedim gedərgiyəm qalmaram,
İşə-gücə, cütə meyil salmaram.
Nə desən də boş xəyala dalmaram,
Sözlərimi vermə yelə, ay ana.

**Aldı Lələzər:**

Lələzərəm sənə qurban, getmə gəl,
Oğul, bizi belə qəmgin etmə gəl.
Dərviş kimi yolda-izdə itmə gəl,
Çox yanırsan, bəsti daha, sön geri.

**Aldı Novruz:**

Novruz deyər Sərbinazsız yaşamam,
Kişi adın, ər adını daşımam.
İnsaf eylə, qoy-gəlmiyim haşa mən,
Göz yaşlarım dönər selə, ay ana.

Söz tamama yetdi, əmə Lələzər Novruzu getməyə qoymadı. Xavar qohumlara da çatdı. Çoxu Novruza göz oldu ki, Çıldıra getməsin. Nolacax, bir gün Novruzun güzarı düşdü  Sınıx tərəfə. Bir çoban rast oldu. Çoban gördü, əyə, bu bir boylu-buxunlu cavandı. Əmə, çox dərddi adama oxşayır, özünün də çiynində saz var. Çoban öz-özünə dedi: "Gəl elə bunu şirin dilnən dindir. Saza doyunca qulaq as. Belə fursat hər vaxt əlinə tüşməz". Odu ku çoban dedi:

– Ay aşıx, bu dağlarda nə axtarırsan? Niyə belə qəmginsən. O sazını çıxarıf çalsana.

Çoban belə deyəndə Novruz sazı çiyninnən endirdi, köynəhdən çıxardı. Zilini-zil, bəmini bəm eliyif sinəsinə basdı. İndi görəh nə dedi, nə söylədi. Biz deyəh, sizdərin də canı sağ olsun.

Çoban qardaş, mən tuşmuşəm dağlara,
Gül içində qönçə gülü istərəm,
Ürəh tutuf, könül tutuf, göz tutuf,
Bəstəboylu, qara teli istərəm.

O Çıldırda gözləyənim var mənim,
Gözüm yaşı daha oldu car mənim,
Al xançalı, götür sinəm yar mənim,
Əsmər üzdü, incəbeli istərəm.

Mən Novruzam, aralıyam yarımnan,
Barışmıram mən də belə durumnan,
Durammıram, çölə tüştüm arımnan,
Yetişəydi əlim ələ, istərəm.

Söz tamama yetdi, əmə Novruzun yanıxlı oxumağı çobanın cızdığını çıxartdı. Çoban dedi:

– Bir əməlli de görüm saa nə olub. Mən də bilim.

Həyə, burada Novruz təzədən sazı sinəsinə basdı. Görəh çobana nə dedi. Biz deyəh siz də sağ olun.

Pirlər piri badə verdi yuxuda,
Üç gün yatdım, sonra gəldim özümə.
Sinəm yandı, tez həmdəmim aradım,
Telli sazı yoldaş bildim özümə.

Atam-anam aman vermir gəzməyə,
Sözü seçif misralara düzməyə,
Qorxuram ki, qəlbim buna dözmüyə,
Kədər aldım, dərdi buldum özümə.

Yazıx Novruz yar-yar deyər, ağlıyar,
Nalə çəkər, sinə başın dağılıyar,
Qohumlarım yolu-izi bağlıyar,
Özüm həyən, sirdaş oldum özümə.

Söz tamama yetən kimi Novruz gördü kü, budu 4-5 adam onnara tərəf gəlir. Diqqətnən baxanda öz qohumlarını tanıdı. Nolacax, çobannan hallaşıf ayrıldı, qohumlarıynan əvə gəldi. İndi sizə xavar verim Novruzun anası Lələzərdən. Arvad oğlunun çıxıf getməyinnən çox qorxurdu. Odu ku, dərdini çox bilən qarılara dedi. Qarıların içində bir nəpəh qarı var idi. O dedi: "Sən əgər istəyirsən oğlun yanında qalsın, onu mundarla". Söz Lələzərin axlına batdı, əmə bilmədi ki, bu işin axırı yaxşı olmuyacax. Lələzər oğlunu mundarradı. Əmə, Novruzun o sahat gözdəri bozardı, dünya başına hərrəndi. İşıxlı dünya gözündə qaraldı. Naçar Novruz burda sazını bağrına basıf görəh nə dedi. Biz deyəh, sizdərin də canı sağ olsun.

Bozardı gözdərim, belim qırıldı,
Yanıram odumnan Səlbinaz, deyin.
Beləcə, öləcəm mən bu dünyada,
Yarın həsrətində bahar-yaz, deyin.

Maa tüşmən oldu öz atam-anam,
İşığım tez keşdi, boş qaldı xanam.
Ağlıya-ağlıya qalıfdı sonam,
Dərdə çara olar telli saz, deyin.

Novruzam kor oldum, dünyam qaraldı,
Seçmirəm yol-izi, nə bir qaraltı.
Gəlir ürəyimnən nalə, zarıltı,
Götür qələmini dərdin yaz deyin.

Söz tamama yetdi, əmə tezdihnən beçara Novruz axlını da itirdi, dəli-dəlgəsər oldu, çöllərə tüşdü. Əmə hərdən bir axlı başına gələndə yanıxlı-yanıxlı oxuyurdu. Bir gün genə belə vaxtdarında sazını sinəsinə basıb, görəh nə dedi, nə söylədi. Biz deyəh, sizdərə də can sağlığı:

Dəli-dəngəsərəm yarım yolunda,
Tanrım tez aradan götürə məni,
Göndərə ölümü, ala canımı,
Yox edə dünyadan, itirə məni.

Nə murazım aldım, nə kama çatdım,
Daha yaşamağın daşını atdım.
Qəmim dərya oldu, dəryada batdım,
Kimim var özümə gətirə məni.

Novruzam, sığınnam haqqın pirinə,
Axır günüm gələ, sonum görünə.
Anam yas saxlaya, qara bürünə,
Xanadan məzərə ötürə məni.

Söz tamama yetdi, əmə Novruzun sinəsi doluydu. Bu dəfə üzünü dağlara tutuf sazını bir də bağrına basdı. Görəh burda nə dedi, biz deyəh, sizdərin də canı sağ olsun.

Tutuluf gözlərim, qırılıf qəddim,
Necə ayax basım, gəlim, a dağlar.
Dərdimin dərmanı daha tapılmaz,
Üzülüf hər yerdər əlim, a dağlar.

Yayda zirvəndəki qara həsrətəm,
Yetmədi əllərim yara, həsrətəm.
Almışam sinəmnən  yara, həsrətəm,
Xançal yox qəlbimi dəlim, a dağlar.

Novruzam, ah-naləm yandırır məni,
Olmuşam hicrannan, kədərdən qəni,
Nolaydı, doyuncax gəzəydim səni,
İndi yanmayayadı dilim, a dağlar.

Söz tamama yetdi, əmə bu vaxt dağlar tərəfdən yel əsdi, Novruzun qoynuna, qoltuğuna doldu. Bu beçara Novruzu yaman kövrəltdi. Odu ku sazı bir də sinəsinə basdı. Həyə, burada nə dedi, nə söylədi. Biz deyəh, sizlər də sağ olun, var olun.

Yellər xavarımı apar yarıma,
Dəlidi, dağları hey gəzər, söylə.
Səni arayırdı, gəlirdi ancaq,
İşin qəfil burdu bədnəzər söylə.

Yolunda yüz kərə öldüm, dirildim,
Bulandım, bulandım, sonra duruldum,
Cəfadan nə bezdim, nə də yoruldum,
Salmadım özümə bir nəzər söylə.

Novruz həsrətinlə alışdı, yandı,
Qədərin əliylə beləcə sındı.
Yenə son nəfəsdə bir səni andı,
Gözləyir yolumu bir məzər söylə.

Söz tamama yetdi. Haqq aşığının sözü yerini aldı. Yanı elə ordaca Novruz cavan yaşında, dünyasını dəyişdi. El-oba yığışdı. Qohum-qonşu onu götürüf haqqına qoydular. Bu qəmli Əhvalat da o vaxtdan qaldı. Biz danışdıx, siz də halı oldunuz.

## ELLƏRKƏTDİ BİLALIN ERMƏNİLƏRNƏN QABAXLAŞMASI

Payız vədələriydi. Ağbavanın Ellərkət kəndinnən Bilal kişi başda olmaxnan beş nəfər beş öküz haravasıynan Axılkələyə şey-şüy aparmışdılar. Yanı, küpə-küpə bal, sarı yağ, motal aparmışdılar. Bunnarı merə-meyvəyə dəyişif, qartofa dəyişif harabalar dolu geri qayıtdılar. Əmbə geri qayıdanda Bilal kişi dedi:

"Yaman ürəyim qaralanır, başımıza betər iş gələcəh, əmbə birimizdə bir silah yoxdu.

Bunu eşidəndə yoldaşdarı ona dedilər: "A Bilal kişi, sən nədən bilirsən ki, belə deyirsən?"

– Bizdə, Güllüoğlularında qavaxcax hər şeyi bilmək məsələsi var. Əmbə başımızda qəzə var. Allah özü kömək olsun.

Onnar elə təzəcə dəriyi üzü yuxarı çıxanda qavaxdan səsdəndilər:

– Dayanın.

Bilalnan yoldaşdarı belə baxdılar ki, qarşıdakı əli silahlı ermənilərdi. Elə onnar da beş nəfərdi. Əmbə çiyinnərində badrondaş, bellərində xəncəl var. Bilalgilin də əli yalın. Ermənilərdən bir yekəpər iki erməniyə görsədiş verdi:

– Öküzdəri açın.

Sonra döndü Bilalgilə:

– Siz də tüşün qavağımıza, gedəh.

Bilal kişi qaldı yana-yana. Nə desin, necə desin. Ürəyində özünü söyüf söyləndi ki, niyə silah götürmüyüf, niyə ehtiyatsızdıx eliyif. Əmbə Bilal kişi də yoldaşdarı da yaxşı geyinmişdilər. Odu ku, erməniləri bu tamaha saldı. Onların çuxalarını əllərinnən aldılar. Əmbə quldurrara başçılıq eliyən heyvərə erməni Bilal kişinin çarığına, güllü corabına baxıb tamah elədi:

– A kişi, o çarığı, coravı çıxar, buraya ver. Bir əzdən təpənə bir güllə vuracam, leşin qarğa-quzğuna qalacax.

Əyə, erməni belə deyəndə Bilal kişi yanıf-yaxıldı. Üzünü göyə, tanrıya tutuf görəh burda nə dedi. Biz deyəy, sizdərin də canı sağ olsun.

Əliyalın, düşmən çıxdı qarşıma,
Kömək elə özün bizə, ilahi.
Gədə-güdə tüfəh alıf əlinə,
Gətirərmiş mərdi dizə, ilahi!

Ər soyulur, haq də çökür arada?
Sahaf olar gavır olar vara da.
Düz, həqiqət tapılacax harada?
Dərdi olan çatar yüzə, ilahi?

Qolda qüvvət, gözdə nifrət yox dəyil,
Düşmən olan elə bizdən çox dəyil.
Qaxdağannar hələ ajdı, tox dəyil,
Qımışıllar indi üzə, ilahi.

Kimə deyim sənnən ayrı sözümü,
Pənahımsan, zilləmişəm gözümü.

Sən bilirsən məndə olan dözümü,
Yaralarım bağla, gözə, ilahi.

Dərə-təpə, kimsəsizdih sağ-solum,
Nə olsun ku, bağlanmıyıf əl-qolum.
Ermənінin gülləsinə tuş olum?!
Bilal buna çətin dözə, ilahi.

Söz tamama yetdi, əmbə yekəpər qarnı atıla-atıla güldü:

– Axmax türk, Allahını çağırdın, qoy köməh eləsin, əmbə çarığı çıxartdın, coravı da çıxart. O dünyada coraf lazım olmayacax.

Əmbə Bilal kişi genə oddandı.. Görəh burda erməniyə nə dedi. Biz deyəh, sizin də canınız sağ olsun.

Adamsoyan çapovulsan, görürəm,
Yaxşı olmaz sonra halın dığa, bax,
Şahid olur dilsiz daşdar, qayalar,
Dərələrə, göy çəmənə, dağa bax.

Qəfil güllə gələr dəyər başına,
Qan tökülər xörəyinə-aşına,
Birdən-birə ölüm çıxar tuşuna,
Əlin çatmaz südə, bala, yağa, bax.

“Qu“ deyincə qulaxların tutular,
Qulac qolun dal gərdəndə çatılar.
Bu dünyadan daha daşın atılar,
Bilal kimi ha çarağa, bağa bax.

Söz tamama yetdi. Əmbə Bilal kişinin sözləri ermənінin xoşuna gəldi:

– Elə hə. Birini də de. Bir əzdən kəllənə güllüyü vuracıx.

Bilal kişi acıxlanmadımı. Belə yoldaşlarına baxdı. Gördü əyə, hamısı elə ayax üsdə ölüf. Odu yandı. Görəh burda nə dedi.

Biz deyəh, sizdərin canı sağ olsun.

Kişinin şöhrəti xəncəl, tüfəhdi,
Əliyalın kişi nəyə gərəhdi.

At ola, lap yaxşı-arxa, dirəhdi,
Ehtiyatsız olan gələr zavala.

Birində tüfəh yox bu beş kişinin,
Leşi bu yerrərdə qalar beşinin.
Musurman  tüşünməz əvvəl işini,
Çətin bu  baladan Bilal sağ qala.

Söz tamama yetdi. Yekəpər erməni Bilala dedi:

– Musurman, səə neçə  güllə vurum, irahat olasan.

Bunu eşidəndə Bilal kişi birdən  asdan kimi sıçradı, bir yumruğa heyvərə erməniyi aşırdı. Dartıf əlinnən tüfəyi aldı, təpəsinə bir güllə vurdu. Qalan iki erməni elə qarıxdı ki, bilmədilər tüfəyi harya tutalar, əmbə iki sıçrayışnan Bilal kişi bir daşın dalına keçəndə erməninin birinin də ortasınnan bir güllə keçirdi, o biri erməni qorxusunnan tüfəyini atıf qaşdı, qaçanda papax da başınnan tüşdü. Bayax Bilal kişi tüfəhləri bir yerə yığdı. Badrondaşı çiyninə saldı, xançalı belinə bağladı. Tüfəngin ikisini yoldaşlarına verif dedi:

– Gedin, görün o biri ermənilər necoldu.

Aradan az keşdi, çox keşdi, Bilal kişi gördü budu, yoldaşdarı harabaları dolu gəlirlər, əmbə biri də atın üstündədi, yedəyində də bir at var. O adam dedi:

– Bilal, erməniləri tapa bilmədih, sən demə, onnarın atdarı varıymış, qaşdılar, əmbə əlimizə bu iki at keşdi.

– Götürün o tüfəhləri də, xançalı da, atı da sizə halal eliyirəm.

– Yox, o atın biri saa çatır, o birini də kimə verirsən ver.

– Elə qoy minənin olsun.

Bilal kişi çox şad oldu. Vurduğu iki erməninin leşini bir yerə gətirdi. Heyvərə erməninin leşinə baxıf görəh burda nə dedi. Biz deyəh, sizdərin də canı sağ olsun.

Asan can vermərəm, saa a düşmən,
Demədim leşini salar musurman.
Meydana girəndə qırar belini,
Sinəndə tonqalı qalar musurman.

Gördünmü tanrımı nə yetdi dada,
Ömrünü gör necə tez verdin bada.
Bizlərdən dəf oldu bu qəfil qada,
Bildinmi zəfəri çalar musurman.

Deyən tanımırsan hələ Bilalı,
Qanın əlvan etdi yamacı-yalı.
Yoxsa törətməzdin bu qiylü-qalı,
Bilmirdin tüfəngin alar musurman?

Söz tamama yetdi, əmbə Bilal kişi hər iki əlini göyə açdı, Allaha duva edif görəh burda nə dedi, nə söylədi yetirəh qulluğunuza.

Dərddən azad etdin qara qulları,
Sənin kərəminə şükür, ilahi.
Adilsən, hər şeyi tez eşidənsən,
Qudurğanlar bir gün çökər, ilahi.

Sənə qurban olsun bu şirin canım,
Olmadın irazı od tutuf yanım.
Yaman darıxmışdım daha nə danım,
Dedim imtahana çəkir ilahi.

Allahı çağıran olsa çox halal,
Düşməz ürəyinə zərrə qədər xal.
Baxma asdan kimi ərdi bu Bilal,
Qarşında boynunu pükür, ilahi.

Söz tamama yetdi. Nolacax, öküz aravaları yola tüşdü. Əmbə bu əhvalat da eldən-elə yayıldı.

## AŞIX ŞENNİYİN NƏSİFNƏN GÖRÜŞMƏSİ, NƏSİVİN ONA ŞƏYİRD OLMASI

Bir gün Güllübulaxda toyuydu. Toya Aşıx Şenniyi də dəvət eləmişdilər, əmbə Nəsif də buradaydı. Göləli İbraham ölənnən sonra yazıx yarımçıx qalmışdı, oduku, hələlih aşıx adını almamışdı. Əmbə gələn qonaxlar çoxuydu. Xırtızdan, Sağamoydan,

Qarzaxdan, Çıldırdan,Qarsdan bəylər, ağalar gəlmişdilər. Məmiş Çaldan gəlmişdi. Bunu qoyuf ona gedim, bular, yanı Pirəliynən Məmiş yolda gələndə Nəsivin haqqında danışmışdılar. Pirəli demişdi ki, Nəsivin haqq aşığı olduğuna inanmır, əmbə Məmiş dediyinin üstündə durmuşdu. Sözdəşif burya gəlmişdilər. Oydu ku, bir fursat gəzirdilər buna imkan olsun, ürəhlərində arzuları qalmasın, əmbə Aşıx Şennih ortada döyran eləyirdi. Beləcə, bir xeylax vaxt keşdi, əmbə Mamoş Aşıx Şennih çay işməyə əyləşəndə aşığa tərəf gəlif dedi:

– Usta Şennih, sənnən mənim bir xayışım var, əmbə gərəh yerə salmıyasan.

– Buyur, buyur.

– Sənnən gizdin işim yoxdu. Yolda gələndə sınıxlı Pirəliynən sözüm oldu, o elə dedi, mən belə.

– Kişi, sözünü açıx de.

– Bilmirəm, Nəsivi eşidifsənmi. Mən dedim o, haqq aşığıdı. O dedi: Yox. İndi deyirəm icazə verəsən Nəsif çıxa meydana. Qavaxcax bu Pirəlinin necə adam olmağını ərz eliyə, həmi də onun Malaş addı atına bir tərif deyə. Əgər bu işə icazə verilməsə, mənim bağrım çatdıyacax. Gərəh hax öz yerini tapa, həmi də mərcimi bu tərs Pirəlidən alam.

– Çox yaxşı. Nəsif kimdi, burdadımı. Qavağa gəlsin.

Nəsiv camahatın içinnən çıxıf Usda Şenniyin qavağına gəldi. Aşıx Şennih onu görəndə yaman qanı qaynadı, əmbə özünü o yerə qoymadı, işin axırını gözdədi. Həyə, Nəsif sazı sinəsinə basıf üzünü tutdu Pirəliyə. Görəh burda nə dedi. Biz deyəh, sizdərin də canı sağ olsun.

Dad eliyir şir arvadın əlinnən
Baş yarılıf, üz cırılıf, nə deyim.
Əyal olan təpih atır ərinə,
Qədd əyilif, bel qırılıf, nə deyim.

Əzəl günnən bu ər olan küt oluf,
Arvat zalım, kişi ölü pit oluf.
Qocaldıxcah arvat dönüf it oluf,
Hey kürlənif, kef "duruluf", nə deyim.

Mən Nəsifəm, yalan gəlməz dilimə,
Düz söylərəm laf getsəm də ölümə.
Yazıx kişi dözür dərdə, zuluma,
Yoldan gəlif, bərk yoruluf, nə deyim.

Söz tamama yetdi, əmbə camahatın içinə bir gülüşmə tüşdü, taha nə deyim, əmbə beçarə Pirəli başını sallamışdı aşağı, deyəsən məş gəldiyinə peşman olmuşdu, əmbə Mamoş dedi:

– Sağ ol, ay Nəsif, sənin qadanı alım, əmbə söhbəti yarımçıx kəsmə. Bizim Pirəlinin atının, Malaşın da tərifini de qutar.

– Bu sahat.

Nəsif sazını yenidən sinəsinə basdı, görəh burda nə dedi. Biz deyəh, sizin canınız sağ olsun.

Yerişdə eşşəhdi, yoxdu sürəti,
İşdahası yaman çoxdu Malaşın.
Yazıx sahabını yollarda qoyar,
At kimi hünəri yoxdu Malaşın.

Yoxuşda tərpənməz, getməz irəli,
Sel-suyu görəndə gözü pərəlir,
Arpa verən kimi sanki dirilir,
İnanma ki, qarnı toxdu Malaşın.

Domuşa-domuşa gəzir, dolanır,
Ha yesə-işsə də elə bulanır,
Nəsif təh Pirəli oda qalanır,
Dedim tərifini, baxdı Malaşın.

Söz tamama yetdi, əmbə Pirəli gəlif Nəsivin üzünnən öfdü:

– Səni Allaha ant verirəm, məni bağışla, əmbə mən özüm də söz deyənəm. Bir işdi, oldu da, keşdi də.

– Mən nə deyirəm ki.

Həyə, Aşıx Şennih Nəsivi bir az da örgənməhdən ötrü dedi:

– Nəsif, bir özün haqqında da bir şey de, bir örgənim, görüm kimsən, nəçisən.

– Baş üstə, usda.

Nəsif sazını bir də sinəsinə basdı, əmbə Nəsivin çalıf çağır-

mağı Aşıx Şenniyin çox xoşuna gəlmişdi. Həyə, görəh Nəsif aldı görəh burada nə dedi, vərinnən biz deyəh, sizdərə də can sağlığı.

Usdam öldü, genə qaldım ortada,
Yarımçıxdan aşığ olmaz, neynəyim.
Şəyirtdiyə kimə  gedim, bilmirəm.
Hər yetişən sözüm almaz, neynəyim.

Sinəm dolu, nəbələdəm yollara,
Mən naşıyam dərdə, qeyli-qallara,
Tanrı özü köməh olar qullara,
Kimsə məni yada salmaz neynəyim.

Qəza vurdu yetim qaldım atadan,
Könül evim kurtararmı xatadan.
Xəbərim var Ərginədən, Otadan,
Yazıx Nəsif belə qalmaz, neynəyim.

Söz tamama yetən kimi Şennih üzünü Nəsivə tutuf dedi:

– A bala, mənim  çox xoşuma gəldin... Gəlsənə bir elə burada yüngülvari deyişəh:

– Mən irazı.

– Onda qabaxcax mən başdıyıram.

– Buyur, usda.

– Həyə, indi görəh burda Aşıx Şennih nə dedi. Deməyi bizdən, eşitməyi sizdən.

**Aldı Aşıx Şennih:**

–Dərdin nədi, oğul, bala.
Eşqin ataşı səndədi.
Aparıflar üzüyünü,
Üzüyün qaşı səndədi.

**Aldı Nəsif:**

Qədərim pis, özüm xəsdə,
Təbibim bulunmur mənim.
Yar-yarımçıx qalmışam mən,
Qaydıma qalınmır mənim.

**Aldı Aşıx Şennih:**

Allahın tutuf bəlası,
Kimin var qeydə qalası
Bir gözəlin ah-nalası,
Gözünün yaşı səndədi?!

**Aldı Nəsif:**

Ürəyim yaralı qalıf,
Allahım verdiyin alıf.
Qönçə gülü əğyar çalıf,[1]
Qisasım alınmır mənim.

**Aldı Aşıq Şennih:**

Şennih səni çox bəyəndi,
Yerindədi misra-bəndin,
Bir dünya görənsən kəndin,
Sözlərin başı səndədi.

**Aldı Nəsif:**

Usdam Göləli İbraham,
Fəryadam, naləyəm, aham.
Nəsivəm əlimdə yaxam,
Düyünüm çalınmır mənim.

Söz tamama yetişdi, əmbə Aşıx Şennih üzünü Nəsivə tutuf dedi:

– Sən əyləş, oğul, əmbə mənim saa bir iki sözüm var.

Həyə, burda Aşıx Şennih götürüf görəh Nəsivə nə dedi, biz deyəh, sizin canınız sağ olsun.

Dərd eləmə, cavan oğlan,
Hər gələn haqdan gələr,
Günlər ötər bircə-bircə
Qaradan-ağdan gələr.
Qovun-qarpız bostandadı,
Meyvələr bağdan gələr.
İsti-xəfə aran yerdən,
Sərinlik dağdan gələr.

------------------

1. Oğurlamaq

Yetimliyin ayıf dəyil,
Qəlbin olsun çox geniş.
Ərin yolu yoxuş olar,
Orda çox olmaz eniş;
Yüz kərə qəmə batarsan
Şad olarsan bir dönüş.
Sözün safı, ən lətifi
Ürəyi sağdan gələr.

Qul Şenniyim düz söylüyər,
Həqiqəti düz deyər.
Haqqı sevər, aqilləri
Tərif edər, yüz deyər;
Yaxşı olar axrın sənin,
Tanrı: “bəndəm, döz“-deyər;
Yol açılar, sədan sənin
Soldan, həm sağdan gələr.

Bəli, söz tamama yetdi. Aşıx Şennih elə o günnən Nəsivi şəyirtdiyə götürdü. Məclis başa çatannan sonra Aşıx Şennih Nəsivi götürüf Çıldıra yola tüşdü.

## AŞIX NƏSİVİN TACİR SÖYÜNNƏN GÖRÜŞMƏYİ

Bir gün genə Aşıx Nəsiv Axılkələyə getmişdi. Genə məclis qurmuşdular. Colpa da düz Aşıx Nəsivin yanında oturmuşdu. Məclisdə uzax yerdən, yanı Təbrizdən gələn də varıydı. Bu adam bahalı paltar geymişdi. Çuxasının gümüş vəznələri par-par yanırdı. Sağ əlinin şəhadət barmağında iri bir üzüh varıydı. Əmə çox dilavar adama oxşuyurdu. Birdən Aşıx Nəsif colpuya yavaşca bir dürtmə vurdu. Colpa təəccüfnən Aşıx Nəsivə baxdı, Aşıx Nəsif yavaşca colpanın qulağına dedi: “Colpa, bu danışan adamın burnu əyridimi, boynunun dalı yasdıdımı“. Colpa bu sözdəri eşidəndə mat qaldı, elə bircə başıynan tasdıxladı, bir də bir “ıhı“ yanı həyə, sən deyəndi dedi. Sonra colpa Aşıx Nəsivin qulağına pıçılladı ki, Nəsif əmi, nə deyirsən yanı. Nəsif ona cavaf verdi ki, bu sən qanan iş dəyil. Əmə onu da deyim ki, Aşıx Nəsiv də sazını qonaxçısı İrbahamın əvində qoymuşdu. Məclis olan əv Alı bəyin əviydi. Əmə Aşıx Nəsif də yaxşı geyinmişdi.

Qara çuxa geymiş, belinə xançal bağlamışdı. Əv sahabınnan, bir də bir-iki adamnan başqa burda Aşıx Nəsivi tanıyan yoxuydu. Buradakıların çoxu alış-veriş eliyən adamlardı, tacir-tüccarrardı. Əmə Tacir Söyün dil boğaza qoymurdu. Axırda Aşıx Nəsivin hövsələsi laf bir tikə oldu. Üzünü bu çox danışan, sinəsinə döyən tacirə tutuf dedi:

– A qardaş, sən ki belə danışırsan, görürəm elimli adamsan ha.

– Bə nə. A kişi, mən gəzən yerləri, mən görən işdəri hər adam görə bilməz ki. Qaldı təhsilimə... Epeycə oxumuşam. Necə ki?

– Soruşmax ayıf olmasın, bə adın nədi.

– Tacir Söyün.

– Adın qondarma döyül kü.

– Kişi, sən nə danışırsan. Deyən sən heş mənim adımı eşitmiyifsən ha. Mənim şayırlığım da var, mənim babam da şayır oluf.

– Doğurdan?! Onda belədisə laf yaxşı.

– Kişi, bə sənin sənətin nədi. Nə alış-veriş adamına oxşuyursan, nə molluya, nə xocuya.

– Mən usdayam, kişi.

– Nə usdasısan kişi?

– Söz usdası.

– Yox, əşi... Onda gərəh mən sənnən deyişəm. Çünki hər yetən özünə usda deyəndə dəli oluram. Əyə, məni kimi söz usdası dura-dura sən kimsən ki, sinənə döyürsən.

Söz buraya çatanda əv sahabı bir isdədi Tacir Söyünü başa salsın kı iş nə yerdədi, əmə Aşıx Nəsif qoymadı:

– Yaxşı, indi nə deyirsən. Deyişəhmi.

– Bu sahat.

Tacir Söyün yanındakılardan birini (göndərdiyi öz adamıydı) harasa yolladı. Azmı keşdi, çoxmu keşdi Tacir Söyünün adamı əlində saz keşdi içəri. Tacir Söyün sazını köynəhdən çıxardıf zilini-zil, bəmini bəm elədi:

– Həyə indi dur qabağımda görüm. A saz-söz usdası. Heş xəbər almadım adın nədi.

– Qorağan. Usda Qorağan.

– A kişi, bu nə addı.

– Nəyinə lazımdı. Addı da.

Aşıx Nəsif tez colpasını qonaxçısıgilə yolladı. Çolpa sazı gətirən kimi Aşıx Nəsif sazı köynəhdən çıxardı, köhlədi:

– İndi nə deyirsən, a Tacir Söyün. Alış-verişdənmi söz deyəcən, ya görüf-götürdüyünnən?! Qabağa sən tüşürsən, yoxsa mən.

– Usda Qorağan, mən olan yerdə heş kəs qabağa tüşə bilməz.

– Onda sən başda, görüm mən də sözünə bab, özünə bab bir söz tapırammı.

Aşıx Nəsif belə deyəndə Tacir Söyün sazı götürüf girdi meydana. İndi görəh Tacir Söyün Aşıx Nəsivə nə dedi, Nəsiv ona nə cavaf verdi. Aldı Tacir Söyün.

Canfidələr sərvəriyəm, dürr, mətahım var mənim,
Qabağıma çıxan olmaz; sərvət mənim, zor mənim.
Min felim var, min fəndim var, fitnə mənim, tor mənim,
Hünərin var səsin çıxar, adım olub car mənim.

**Aldı Aşıq Nəsif:**

Tülkü kimi daldalarda tor qurmağa de nə var,
Yağlı yeyif, harın gəzif qudurmağa de nə var.
Yaxşıları dərd içində qovurmağa de nə var,
Müftə pulu saman kimi sovurmağa de nə var.

**Aldı Tacir Söyün:**

Təbriz, Tiflis, Hələb, Dərbənd, həmi Muşdan yolum var.
Hər tərəfə atım oynar, arxam-uzun qolum var,
Hara getsəm dağlarım var, həmi dəştim, çölüm var.
İşim pünhan, kefim yaxşı, bir sinəsi qar mənim.

**Aldı Aşıx Nəsif:**

Gədə oğlu, lütün biri tühlənifsən, yağlısan,
Türk önündə durammazsan, gəl itirmə ağlı sən,
İt-qurduna yeri söylə uydurduğun nağlı sən,
Düzgün işə müxənnət tək pəl vurmağa de nə var.

**Aldı Tacir Söyün:**

Tacir Söyün sevda eylər, hər sövdada usdadı,
Neçə-neçə el dolanan xocalardan xocadı,

Neçələri var itirif əməlimnən yasdadı,
Hökmüm işlər, bir zənginəm, baxtım olub yar mənim.

**Aldı Aşıx Nəsif:**

Bir iblissən, zatın məlum, sövdan dəysin başına,
Xınzırlardan qurd olmaz ki, bəsdi döymə döşünə,
Aşıx Nəsif ac asdandı, baxmaz gözün yaşına,
Hünərin var dur meydanda, dəm qurmağa de nə var.

Bəli, söz tamama yetdi. Tacir Söyün gördü əyə yaman yerdə axşamlıyıf. Adını Qorağan qoyuf, özünü nişan verən Aşıx Nəsiviymiş. Quruyuf qaldı, çünki onun özünü görməsə də adını eşitmişdi. Aşıx Nəsif meydanı dolanıb sazı bir də bağrına basdı. Üzünü Tacir Söyünə tutuf görəh nə dedi:

Namərd oğlu meydanıma niyə girdin söylə sən,
Özün gədə, utanmırsan taylaşırsan bəylə sən.
İtil burdan, çıx aradan, sözüm qəbul eylə sən.
Ay başı küllü kafır,
Ay yağlı dilli kafır,
Ay ağzı yelli kafır,
Ay mundar elli kafır,
Tut köçünü,
Çək içini,
Qır qıçını,
Durma get,
Sorma get,
Qaraçı tək gəz hər yeri doğru-düzü teylə sən.

Sözünü burda kəsdi ki, Tacir Söyün ona cafav versin, əmə Tacir Söyünün dili tutulmuşdu elə bil. Onnan səs gəlmədi. Aşıx Nəsif aldı sözün o biri xanasını.

Tüpürcəkdən bozarıbdı o boz üzün a kafır,
Sürünməhdən yorulmadın dizin-dizin a kafır,
Sümsüh it təh qapılarda qalıf gözün, a kafır,
Bu dünyada yaşayırsan böylə günlə, böylə sən.
Törüyüfsən şeytannan,

Uzax dolan meydannan,
Xərsən yerini qannan,
Bir gün olarsan cannan,
Utanmağın yox,
Müxənnətsən çox,
Olmaz gözün tox
Al ağzına...
Murdar yerdə yığnaq elə, al zurnanı piylə sən.

Genə Tacir Söyün cavaf verə bilmədi deyin Aşıx Nəsif sözünə davam elədi.

Türkə tüşmən atan-anan, nə gəzirsən burda sən,
Demirsənmi rast olarsan asdana sən, qurda sən.
Yaxınnaşma qəlbi xayın saf ürəhli mərdə sən,
Səninki fitnə-fasaddı, bir havanı iylə sən...

Gökün-soyun, yerin yox,
Təmiz qızın, ərin yox,
Qanadın yox, pərin yox,
Özünnən xəbərin yox?!
Pis nəfisdi,
Xınzır əsli,
Bayquş səsdi,
Haydı itil,
Yerini bil!
Bəllisən ki, hər bir yerdə yersiz hayla-küylə sən.

Hər nə desəm sana azdı, adamlıxdan uzaxsan,
Məqam olsa qan içərsən, müsəlmana duzaxsan,
Təh olanda yalmanırsan, deyillər ki, yazıxsan,
Ürəyini doldurmazsan saflıx ilə yeylə sən.

Tülkü-çaqqal balası,
Sarı urus tulası,
Köpəhlərin alası,
Qırx qazana çalası,
Aşıx Nəsif,

Əhdin kəsif,
Ay binəsif,
Hürü durma,
Daban qırma.
İt-pişiyin yığ başına gördühlərin söylə sən.

Söz tamama yetəndən sonra Tacir Söyün dinməzcə sazını Aşıx Nəsivin qabağına qoyuf məclisdən çıxdı, adamları da onnan getdilər. Alı bəy işi belə görüf dedi:

– Aşıx Nəsif, sən hardan bildin bu tacir erməniđi.

– Oturuşunnan, duruşunnan, mən, mən deməyinnən.

– Halal olsun sana, aşıx, beləsinin harda olsa nəfəsini kəsməh lazımdı.

– Alı bəy, yadında saxla. Erməni heş vaxıt türknən başarmıyıf. Bununku hiylədi, tülkülühdü. Kişilih, mərtdih türkün alnına yazılıf. Bunu yadınnan çıxartma.

Məclisdəkilər Aşıx Nəsivə yaxşı döyran pulu yığıf verdilər. Əmə bu əhvalat da elə o vaxıtdan dillərə tüşdü.

## HAXVERDİ QARAMMƏDOĞLUNUN ƏHVALATI

Hamasada eldə-obada daha çox tanınan Qarəmməd kişiydi. Onun oğlu Haxverdi də axlıynan, kamalıynan, varıynan, həmi də gücüynən tanınmışdı. Toylarda güləşəndə, meydanı dolananda onu tanıyan da, tanımıyan da bu ortaboylu, boylu-buxunnu adama maraxnan baxar, onaca kuşu qonardı. Neçə-neçə addı pəhlivanın küreyini yerə qoymuşdu, neçə-neçə kasıf-kusuva əl tutmuşdu. Əmə nə fayda kı, Sovet hökuməti gəlif çıxdı. Heş sovetin gələn günü olmuyaydı. Bəli, Sovetin gəlişiynən erməniurus Ağbabıya doldu, nə doldu. Küçədə itnən yatanı, dilənçiyi camahata böyüh qoydular. Addı kişiləri bir-bir dənniyif apardılar. Əmə Haxverdi Qarammədoğlu uzağı yaxşı görürdü deyin öz var-dövlətini öz xoşuynan hökumətə verdi. Onun mal-qoyunnan Təzə İbişdi Hamza ağanın mal-qoyununu bir-birinə qatıf Hamasada qolxoz elədilər. Əmə Hamza ağanın mal-qoyununun bir əzini də Göllüyə aparıf orda qolxoz qurdular. Əmə genə namərd adamlar Haxverdiyi bir işə salmax isdiyirdilər. Haxverdi baxdı olmur, özünün neçə boyun öküzünü də, üş-dörd cütünü, kotanını

da genə qolxoza verdi. Əmə nə fayda. Dedilər görəh özünün Bozatını da verəsən. Bozat da Bozatıydı ha. Bu atı keçən at yoxuydu. Əyə, Haxverdi yazıx qaldı belə neynəsin, neceləsin.

Əmə arvad-uşax gəlif durdu gözdərinin qabağında. Qabaxca atı verməh isdəmədi, əmə əl çəhmədilər, zornan aldılar atı. Nolacax, yer qulaxlıdı, bu xəbər gedif Güllübulaxda Aşıx Nəsivə də çatdı. Nəsif bunu eşidəndə əlini dizinə vuruf dedi:

– Dağılasan, a belə dünya! Əyə, bu bij hökuməti gərəh elə mənim dosdarıma toy tuta. A bu sovetin heş gəlişi olmuyaydı!

Bu sözdəri eşidəndə colpa Aşıx Nəsivə yalvardı:

– Ay Nəsiv əmi, yavaş danış. Eşidəllər səni də, məni də tutallar axı.

– A gədə, səndə nə işdəri var. Tutsalar məni tutallar, sən özünnən qorxma. Get Alaşıyı yəhərrə, gəti. Hamasıya gedəcih.

Bəli, colpa Alaşıyı yəhərriyif irəli çəhdi, Nəsif mindi. Əmə dənçiyi doluydu deyin dedi:

– A Nəsif əmi, bu sovet hökuməti niyə bir tərəfə pul, bir tərəfə kül səpir, yetim-yütümə, bijə-gijə irəhim eliyir... əmə varınnın, yaxşının gözdərini tökür. Mən bunnan heş nə qammıram.

Colpa belə deyəndə Aşıx Nəsif sazını köynəhdən çıxardıf bağrına basdı. İndi görəh Aşıx Nəsif colpuya nə dedi:

Qanıf-qandırmırsan, zamana pisdi,
Sənin başın hələ kaldı, a colpa.
Tanrı bəlaları göndərdi bizə,
Axlımızı başdan aldı, a colpa.

İndi bizim yerdə bahar da kışdı,
O qədər dərd çəhdih bağrımız şişdi,
Kimilər dəlləkdi, dövran dəyişdi,
Gədələr meydanda qaldı, a colpa.

Nəsif yerin bilir, dinmə as qulax,
Mal-qoyun dağıldı, yoxdu at-ulax,
Bir parça cad hanı, birtəhər olax,
Kafirin yediyi baldı, a colpa.

Söz tamam yetdi. Bəli, onnar yola tüşdülər.

Gəlhagəl gəlif Hamasıya çatdılar. Haxverdi Qarammədoğlu qonaqlarını hörmətnən içəri apardı, atı da pəyiyə saldılar. Əmə Haxverdinin halı hal döyüldü, o sahat bunu başa tüşdü. Axı Haxverdi Qarammədoğlu heş belə olmamışdı. Odu ku, Aşıx Nəsif dinməzcə sazını köynəhdən çıxartdı, basdı bağrına. Üzünü Haxverdi Qarammədoğluna tutuf görəh burda nə dedi:

Nədən pərişansan, qanın qaralıb,
Üzündə-gözündə dumannar gəzir.
Kişilər seyrəlif kənddə-kəsəhdə,
Gədələr fırranır, yamannar gəzir.

Eldə tanınıfsan, pükülməz qolun,
Sən haqqın qulusan, haqqadı yolun.
Gədə dünyasınnan dəyişif halın,
Qəlbində şüfələr, gümannar gəzir.

Nəsif yaxşı bilir sənin dərdini,
Qəza tafdı bu ellərin mərdini.
Bilən hanı kişiliyin qədrini,
Dodaxlarda ahlar, amannar gəzir.

Söz tamama yetdi, əmə Haxverdi dərinnən bir ah çəkif dedi:

– Aşıx, başına dönüm, əyər izin versən bir söz də mən deyərəm. Bu gədə höküməti məni laf cana gətdi.

– Buyur, buyur.

İndi görəh burda Haxverdi Qarammədoğlu nə dedi, Aşıx Nəsif ona nə cavaf verdi. Aldı Haxverdi Qarammədoğlu:

Qoymadı mərt kimi gəzim, dolanım,
Məni də atımnan yendirdi fələh.
Getdi əllərimnən dinim-imanım,
Neynədim çor ilə dindirdi fələh.

**Aldı Aşıx Nəsif:**

Darıxma, daralma, a yaxşı kişi,
Bu gələn bəd zaman, bəd ildi belə.

Çirkava bulanmış, kirə bulanmış,
Mərtdəri aparan bir seldi belə.

**Aldı Haxverdi Qarammədoğlu**

Necə darıxmayım,  tayım qalmayıf,
Hələ ki, mən kimi yanan olmuyuf.
El içində barı saya salmıyıf,
Dərdi düz belimə mindirdi fələh.

**Aldı Aşıx Nəsif:**

Gədənin dövrüdü, gicin zamanı,
Sən deyən kişilər yox oldu, hanı.
Yaxşı aş gözünü, tuşmanı tanı,
Şura qəfil əsən bir yeldi belə.

**Aldı Haxverdi Qarammədoğlu:**

Haxverdi mat qalıf, dünya dəyişdi?
Gijdər bu zamana necə uyuşdu,
Buz baltası canım azara tüşdü,
Mərdi əydi necə, sındırdı fələh.

**Aldı Aşıx Nəsif:**

Nəsif yaxşı bilir nə gəlir başa,
Yolumuz pis yerdə dirəndi daşa.
Var-yox əldən getdi, həsrətik aşa,
Şura kök qazıyan bir beldi belə.

Söz tamama yetdi. Əmə Haxverdi Qarammədoğlunun sinəsi doluydu, dedi:

– A Aşıx Nəsif, yanır sinəm, bir söz də deyəcəm, laf çatdıyaram demə. A kişi, bu gədələrdə mudarrığa bax kı, atımı da əlimnən aldılar, məni piyada yanı, yəyax qoydular.

İndi görəh Haxverdi Qarammədoğlu burda nə dedi, nə söylədi. Biz deyəh, sizdərə də, can sağlığı, uzun ömür.

Taleyə bax, el içində xar oldum,
Əldən çıxıf o Bozatım gedifdi.
Pis zamana qəfil əydi qəddimi,
El dilinnən yaxşı adım gedifdi.

Sail kimi başaşağı gəzirəm,
Belə dərtdən mən ölmədim-dözürəm.
Sinəm başın qəm yüküylə əzirəm,
Ocağımnan aloy-odum gedifdi.

Haxverdiyəm dağılıfdı doğma el,
Ocax sönüf, yurd yerində qalıf kül.
Təh qalmışam ortalıxda elə bil,
Tərk eliyif qohum-yadım, gedifdi.

Söz tamama yetdi. Nolacax, Allah verənnən, qoldan qapannan yedilər, işdilər. Sonra Aşıx Nəsif atdanıf Güllübulağa yola tüşdü. Bəli, bu işdən azmı getdi, çoxmu getdi. Genə gəldilər ki, bu çox varrı-karrı oluf, gərəh bunu tutuf Sibirə sürələr, qol qoydular. Elə onu aparmax isdiyəndə Haxverdi Qarməmmədoğlu bir kağız yazıf verdi nökərərinnən birinə, dedi:

– Bunu aparıf Aşıx Nəsivə verərsən.

Həyə, Haxverdiyi sürdülər Sibirə. Nökər də həmin kağızı Güllübulağa gətdi, düz Nəsivin avcına qoydu. Aşıx Nəsif dedi:

– A bala, bu nədi?

– Haxverdi Qaraməddoğlu verdi, dedi bunu Aşıx Nəsivə ver.

– Özü niyə gəlmədi.

– Sibirə sürdülər...

Nökər hönkürüf ağladı. Nəsif dillənmədi, əmə kağızı açıf oxutdu. Baxdı bu bir neçə xana sözdü. İndi o kağızda nə yazılmışdı yetirəh qulluğunuza.

Müxənnətin Tanrı töhsün gözünü,
Hax saydılar çuğulların sözünü,
Ayrılıxdı görəmmədim üzünü,
Aşıx Nəsif, yana-yana gedirəm.

Gədə-güdə at üstündə bəy kimi,
Kafır olub el-obanın hakimi,
Biqeyratdar yaxşı qıldı tərgimi,
Bilmirəm ki, mən hayana gedirəm?

Haxverdiyəm, tale belə gətirdi,
Mənim bu yerrərdən izim itirdi,

Sözüm çoxdu, əmə burda pitirdim,
Əlim yetməz daha sana gedirəm.

Bəli, kağızı oxuyuf kutardılar. Allah verənnən, qoldan qopannan yeyif-işdilər. Aşıx Nəsif qonağını yaxşı ağırradı, əmə yaman dolmuşdu. Odu ku sazı götürüf bu puş dünyuya görəh nə dedi:

Namərt dünya gör neylədi, mərdi çəhdi dara bax,
İnsan olan, qəlbi olan günü oldu qara bax.
Şahinnəri oxladılar, cövlan edən sara bax,
Tanrı özün köməh elə, amma qəlbdə yara bax.

Tutatutnan harya gedir axı bizim yolumuz,
Dilimizə dağ basılıf bağlanıbdı qolumuz.
Sağımız sarı urusdu, ermənidi solumuz,
Fələh bizə qan ağlatdı, yoxdu bircə çarə bax.

Aşıx Nəsif belə dövran, belə zaman xar olsun,
El-obanı kor qoydular gədələrə ar olsun.
Nə arxa var, nə də köməh, tanrı bizə yar olsun,
Qeylü-qaldan aman yoxdu düzəlmir ki, ara bax.

Söz tamama yetdi. Əmə bu əhvalat da elə o vaxtdan dilə-tişə tüşdü. Mən bunu Çorru Məhəmmədin nəvəsi Hesafdar İslamnan eşitdim, eşitdiyimi də sizə danışdım. Allah sizdərə heş vaxt o bərələri verməsin, gözdəriniz yamannıx görməsin.

## ÇORRU MƏHƏMMƏDİN SUXARA SƏFƏRİ

Çorru Məhəmmədin yaşı yüzü çoxdan keşmişdi. Xeyli vaxt olardı ki, gözləri tutulmuşdu. O necə deyərlər işıqlı dünyaya həsrət qalmışdı. Onun ürəyinə dammışdı ki, ölümünə az qalıf. Odur ki, bir gün nəvələrindən birini çağırıf dedi: “Oğul, mənə bir yaxşı at tap, səfərə gedəciyih“.

– Hara, ay baba?

– Sən atı tap, sonra bilərsən.

Hə, nəvə atı tapıb gətirəndən sonra Çorru Məhəmməd ata mindi, atın cilovunu nəvəsinə verif dedi:

– Sən bunu qoluna keçirib qabaqda gedəcəhsən, mən də atla sənin arxancax.
– Hara gedirik, baba?
– Suxaraya.
– Mən ki, oranı tanımıram.
– Darıxma, sən keçdiyimiz yerləri deyərsən, mən fəhmlə yolu göstərərəm.
– Nə deyirəm.
Onlar beləcə Sultanabaddan çıxıb yola düşdülər. Arpa gölünün ətrafından keçif hündür bir dağa yaxınlaşanda Çorlu Məhəmməd arxadan nəvəsinə səsləndi: "Dayan, bu dağ Ağbaba dağı olmalıdır".
– Uca dağdı, baba.
– Elə özüdür ki, var. Atı çək yamacına. Burda bir Qızılməzər adlı ziyarətgah var, onu ziyarət eliyəh, sonra lap zirvədə olanı ziyarət eliyərih, oğul.
Nəvə deyiləni yerinə yetirdi. Onlar Qızılməzəri ziyarat eliyənnən sonra Ağbaba ziyarətinə gəldilər. Alçax hasarla əhatəyə alınmış üş başdaşınnan ibarət bu müqəddəs yeri bir neçə dəfə dolaşannan sonra başdaşlarınnan öfdülər. Yaxınlıxdakı bolsulu Ziyarat bulağından doyuncax su işdilər. Çorru Məhəmməd üzünü Ağbaba ziyarətinə tutuf görəh nə dedi:

Son gəlişdi gəldim sənə, dolandım öpdüm daşını,
Ellərimin ümid yeri, şöhrəti-şanı, Ziyarat.
Saf suyundan içən bilər bu dünyanın səfasını,
Ağbabanın, həm Çıldırın varlığı-canı, Ziyarat.

Kaloğlanla Aşdıbaba sağında-solunda durur,
Sarp qaya tək zirvədəsən, üzündə-gözündə qurur.
Əski türkün tarixisən, ürəyim sevinclə vurur.
Gül-çiçəyi dəniz kimi, yaşıl dörd yanın, Ziyarat.

Məhəmmədəm, özüm kimi Tanrı qulu görməmişəm.
Sənin kimi cah-calallı, qoynu dolu görməmişəm.
Bu yerlərdə səndən uca, səndən ulu görməmişəm.
Bizim bu qəlbi dağların sultanı-xanı, Ziyarat.

Söz tamama yetdi, yenidən yollarına davam elədilər. Birdən gözəl mənzərəli bir dağ nəvənin diqqətini özünə cəlb etdi:

– Baba, bu allı-güllü gözəl dağ nə dağıdı?

– Qarşısında - xeyli aralıda, bir-birindən azca aralı iki balaca dağ varmı?

– Həyə, baba.

– Bu Göy dağdı... Gəl, bala, bir buraya da baş çəkəh. Çox müqəddəs dağdı bu dağ. Buna qardaşlar dağı da deyirlər. O qabaqda duran dağlar da olmaqla bunlar qədimdə üç qardaş oluflar.

Göy dağ doğrudan da çox mənzərəli idi. Gül-çiçəh meh əsdikcəh dəniz kimi dalğalanırdı. Nəvə atı çidarlayıf otduğa buraxdı. Onnar qadın bədəninə bənzər bir daşın döşündən fəvvarə vuran bulağın başında əyləşdilər. Bulağın suyu nəvəni bərk təəccüfləndirdi:

– Bu su niyə süd rəngindədi, baba?

– Bu çox qədimdə oluf. Guya bu qaya daşa dönmüş gəlindi. Döşünnən gələn su süddü. Odu ki, su, süd rəngindədi. Yuxarı bax, burada bir nəhəng qaya olmalıdı.

– Həyə, var.

– Bax, bu Qara qayadı, bundan bir əz ucada bir gözəl qaya da var. Ceyran qayası. Bu ayrı bir tamaşadı, bala.

– Bə baba, bu iki yan-yana uzun daşlar nədi belə?

– Köhnə qəbirrərdi, bala, eh, bu çoxdan oluf. İrəli bax, orada daş yığınlarının içində balaca bir Sərdaba var.

– Qəribədi, baba.

– Demək, bu yer başdan-başa tarixdi, bala. Qulaq as, gör bu qəbirlər kimindi, kimlər oluf bu yerlərdə.

Aldı Çorru Məhəmməd görək nə dedi:

Bu bir ulu dədə, bir böyük ana,
Əbədi uyquda yatır yan-yana.
Tarixi qədimdi mən deyim sana,
Əfsanə, nağıla dönüb, ay bala.

Bu haman Göydağdı-dağın göyçəyi,
Ətəyində boldu gülü, çiçəyi.
Ötərdi bu yerdə çoban tütəyi,
Sonra dillənərdi saz bala-bala.

Bu da qalaçadır, daşdan beşiyi,
Gəlir türk nəfəsi, gəlir türk iyi,
Burda daş yaddaşın, qanın-iliyin,
Məhəmməd deyir ki, yadında qala.

Söz tamama yetdi. Amma Göy dağın ürək açan gözəl mənzərəsi nəvəni elə məst eləmişdi ki, bu yerdən tərpənməh istəmirdi. Baba başa düşdü, dərinnən ah çəhdi.

– Ay baba, niyə ah çəhdin,-deyə nəvəsi maraxlananda Çorru Məhəmməd belə dedi:

– Ustaddı günlərim yadıma düşdü. Qulağın məndə olsun.

Çorlu Məhəmməd aldı görəh nə dedi:

Ustadlı günlərim düşüb yadıma,
Həsrət ciyərimi yaxıf, ağlaram.
Keçdi ötən günlər toylu-düyünlü,
Qanrılıf geriyə baxıf, ağlaram.

Məclisdə ortada dövran edərdim,
“Dəli hicranı“da zildən ötərdim,
Canbaza, Göləyə necə gedərdim?!
Cavanlıq sel idi, axıf, ağlaram.

Məhəmməd, ələnib daha ələyin,
Qalıb gözlərimdə neçə diləyim,
Çökübdü sinəmə ölüm mələyi,
Sinəmə pəncəsin taxıf, ağlaram.

Söz tamama yetincəh nəvə babasına dedi:

– Ay baba, niyə belə kövrəldin?

– A bala, dərdim böyühdü. Sən hələ cavansan, nə bilirsən dərt nədir, qəm nədi? Yaxşısı budu ki, qulaq asasan, yenə sinəmə bir neçə xana söz gəlif.

– Buyur, baba.

Çorru Məhəmməd aldı dübarə görəh nə dedi:

Tapmıram dərdimi verəm ağzına,
Qurd yırtıb dağıda, paralıya bir.

Mənim tək ürəyi şan ola qəmin,
Onu da sitəmlər yaralıya bir.

Kədərin əlləri yaxamda durur,
Gah yıxıf-sürüyür, gah pəncə vurur,
Gah basıf sinəmdən, qolumu burur,
Kimsə yox ki, məni aralıya bir.

Məhəmməd qocalıx əlində qalıf,
Yoxdur hövsələsi, səbri daralıf.
Varlıq dəftərinə bir qələm çalıf,
Adımı İlahi qaralaya bir.

Söz tamama yetəndən sonra baba-nəvə surfa aşdılar. Bir əz Allah verəndən yeyif qalxdılar. Nəvə atın çidarını aşdı, yəhəri belinə vurdu. Babası ata minənnən sonra nəvə ciloyu qolunda qabaxda, baba arxada at üstündə. Beləcə yollarını davam elədilər. Yol nəhəng qayanın yanından keçif gedirdi. Nəvə qayıya baxıf təəccübləndi:

– Bu nə qayasıdı, baba?

– Taya qayadı, oğul. Dayan, bir bu müqəddəs yeri də ziyarət eliyəh.

Nəvə atı çıdarlayıf otduğa buraxdı. Baba, nəvə diz çöküf Taya qayanın torpağınnan, daşınnan öfdülər. Çorru Məhəmmədin şair təbi yenə coşdu. Görəh Çorru Məhəmməd Taya qayıya nə dedi:

Üstündə qartallar yenə qıy vurur,
Bilinməzdi yaşın, ay Taya qaya.
Sən də ziyaratsan yol kənarında,
Müqəddəsdi yaşın, ay Taya qaya.

Bir elə qayasan dillər əzbəri,
Sevinər hər səni görən türk əri.
Birə-on qat artar qeyrət-hünəri,
Göylərdədi başın, ay Taya qaya.

Məhəmməd üzünü sürtdü üzünə,
Sanki qüvvət gəldi gücsüz dizinə,

Ötən cavanlığın düşdü izinə,
Axıtdı göz yaşın, ay Taya qaya.

Hə, yolçular yenə yollarına davam elədilər.

Az getdilər, çox getdilər. Qarşıdan bir kənd göründü. Çorru Məhəmməd nəvəsinə dedi:

– Bala, bu Suxara köyü olmalıdı. Çoxdandı gəlmirəm, Allah qocalığı kəssin. Bu doğma yeri bir də görüncəh ürəyim atdandı. Qoy bir-iki kəlmə söz deyim.

– De, baba, de.

Aldı görəh Çorru Məhəmməd nə dedi:

Nə vaxtdır gözündən uzaq düşmüşəm,
Dərdimi-sərimi bilən Suxara.
Şənlikli, söhbətli-sözlü türk köyü,
Bahar tək açılan, gülən Suxara.

Mənə ki, bəllidi hər bir cığırın,
Bəyin, ərin, qızın, kasıb-fağırın,
Hanı toy büsatın, ya çal-çağırın,
Bələn saza-sözə, bələn, Suxara.

Məhəmməd deyilən bir bağrı daşdı,
Əhli-hallar ilə düz başa-başdı.
Neçə dərə aşdım, neçə dağ aşdım,
Yap güldən-çiçəkdən şö'lən, Suxara.

Söz tamama yetənnən sonra Çorru Məhəmməd nəvəsinə dedi:

– Atın başını döndər təpənin döşündə yerləşən qəbristannığa. Harda dayan desəm dayanarsan. Ustadın qəbrini ziyarət etməh isdiyirəm.

Onlar xeyli gedəndən sonra birdən Çorru Məhəmməd dedi:

– Dayan, atı qəbristannığın yanındakı otduğa burax, əlimnən tut, qəbristannığa bir baş çəkəh.

Onlar atı otduğa buraxıb qəbristannığa gəldilər. Kol-kosnan əhatə olunmuş bir qəbrə yaxınnaşanda Çorru Məhəmməd dedi:

– Bu, ustadın qəbridir. Gəl ziyarət eləyəh.

Çorru Məhəmməd soyux başdaşını öpüf bəs deyincəh ağlıyannan sonra görəh üzünü başdaşına tutuf nə dedi:

Şükür yenə də görüşdük,
Salam sənə, salam, ustad,
Bir gecəlik qəbrin üstə,
Könül istər qalam, ustad.

Ustam, pirim, qibləgahım,
Kəsilərmi naləm-ahım?!
Sən bir qəlbi uca dağım,
Mən də yamac-yalam, ustad.

Ağarıf qaş, pükülüf bel,
Göz yaşlarım olubdu sel.
Kövrəkləşif qəlbim tel-tel,
Qoca-qoltux, çalam, ustad.

Gecələr qalıram oyax,
Arxam uçuf, yoxdu dayax.
Göz görmür, yerimir ayax,
Gəldim qəmə dalam, ustad.

Məhəmməd, köç üstündəyəm,
Şirin canın qəsdindəyəm,
Əzrayılın dəstindəyəm,
Uçur bürcüm, qalam, ustad.

Söz tamama yetdi. Nəvə-baba xeyli sükuta daldılar. Çorru Məhəmməd qəbrin üstünnən bir avış torpax götürdü:

– Öləndə bunu gözümə tökərsiniz, bala,-deyə torpağı parçıya püküf döş cevinə qoydu.

– İndi gedək Suxaraya, ustadın oğul-uşağı ilə görüşək.

Onlar qəbristannıxdan çıxdılar. Nəvə atı gətirdi, baba atı minənnən sonra yola tüşdülər. Çorru Məhəmməd fəhmlə nəvəsini ustadın evinə gətirdi. Şenliyin oğul-uşağı gələnləri gülərüznən, açıx ürəklə qarşıladılar. Yeyif-içənnən sonra bəs deyincə dərtdəşdilər. Sonra halal-hümbət eləyif ayrıldılar. Onnar gəldihləri yolla da geri qayıtdılar. Bu əhvalatdan iki-üç ay keçəndən sonra Çorru Məhəmməd vəfat etdi.

## AŞIQ NƏSİVİN İRİŞDİ SƏFƏRİ

Aşıq Nəsivi İrişdiyə toya çağırmışdılar. Nolacax, colpa Alaşıyı yəhərlədi. Aşıx atı mindi, colpa atın ciloyunu qoluna keçirdi, tüşdü qabağa. Gəlhagəl gəlif Sərhəd dərəsinə yetişdilər. Aşıx Nəsif dedi:

– Colpa, Alaşanın xasiyyətinə bələdəm, çətin suyu keçə, suyun ortasında yatmasa yaxşıdı.

Colpa dillənmədi, çarıqlarını çıxardı, şalvarının balaxlarını çırmaladı, girdi suya.

Suyun ortasına çatanda Alaşa qəfil suya yatdı. Colpa böyrü üstə suya düşdü, əmə Aşıx Nəsif quş cəldliyiynən atın belinnən suya, ordan sahilə çıxdı. Əmə yenə də islandı. Aşıq dinməzcə sazını köynəhdən çıxardı. Bir Alaşaya baxdı, bir paltarı isdanmış colpaya baxdı, astaca güldü. Sazını basdı bağrına. Görəh burda nə dedi, tərəfindən ərz eliyəh, sizin də canınız sağ olsun.

Yatdın suda, ay maşallah,
Nə xoşdu halın, Alaşa.
Toz-torpağa, quma-gilə,
Batıfdı yalın, Alaşa.

Yazıq colpa mat qalıfdı,
Çarığına su dolufdu,
Deyən ağlı azalıfdı,
Çox qeylü-qalın, Alaşa.

Sənlə nahaxdan öyündüm,
Nəsivəm, ucadan endim,
İsdanıf cücəyə döndüm,
Varmış zavalın, Alaşa.

Söz tamama yetdi. Aşıx Nəsif sazını köynəyinə saldı. Arxalığının ətəhlərini kəmərinə sancdı. Qollarını, şalvarının balaqlarını çırmaladı. Colpa da ürəyində Alaşıya söylənə-söylənə irəli gəldi, köməhləşdilər. Biri atın yalından, o biri quyruğundan yapışdı. Birtəhər yabını sahilə çıxardılar. Paltarlarının suyunu sıxıf bir xeyli dincəldilər. Sonra yola düşdülər. Hə, gəlif İrişdiyə, toy

sahabının əvinə yetişdilər. Toy sahabı qonaxları hörmətnən qarşıladı, məclisin baş tərəfində əyləşdirdi. Əmə qonaxların üst-başının su içində olduğunu görüf təəccüfləndi:

– Aşıx Nəsif, bu üst-başınız nədi? Yoxsa yolda yağışa düşüfsünüz?

– Yox, yağışa-zada düşməmişih. Əmə yolda Alaşa colpanın acığına yağış yağdırdı.

Bu sözləri eşidəndə Colpa yavaşca güldü. Əmə Aşıx Nəsif telli sazını sinəsinə basdı. Görəh burda aşıx nə dedi? Biz deyəh, sizin də canınız sağ olsun:

Yolda yağışa tüşmüşüh,
Paltardan su damır, baxın.
Baisdi buna Alaşa,
Tez tövləyə cumur, baxın.

Colpa yazıq düşüb haldan,
Qurtarammır qeylü-qaldan,
İşə düşür hərdən yolda,
Üst-başımız çamur, baxın.

Söz tamama yetdi. Toy sahabı göstəriş verdi. Dərhal aşıxnan Colpuyu başqa otağa, pünhan bir yerə apardılar, paltarlarını dəyişdilər. Əmə Aşıx Nəsif gözdən görməsə də, çox fəhmli adamdı. Hiss elədi ki, Ərginədən dövlətli Hacı da məclisdədi. Dedi:

– Ay Hacı, sən mənə düz iki ildi pul vermirsən. Nə oldu sənin nəmərin, kişi sözünə-əhdinə etivarın?!

Aşıx Nəsif bu sözləri Hacıya qəsdən deyirdi, çünki o malını yeməzin, xəsisin, sağırın, bitini yeyənin biriydi. Özü də şeytan şapalağı kimiydi. Tamah elə bil Hacını qınında yandırmışdı. Qəsdən Aşıx Hacının yaralı yerinə toxunurdu. Yoxsa Aşıx Nəsivin dünya malında gözü yoxuydu. Elə buna görə də onu hər yanda sevir, hörmət eləyirdilər. Sözümüz onda yox, Aşıx Nəsif də Aşıx Nəsif idi ha! Hacı özünü yığışdırdı. Ürəyində: “Mənə deyən ay axmaq, nə işin var burda ki, bu Aşıx Nəsivə tuş olasan! Pulu çölə töküflər ki, verəm sənə, ay Aşıx Nəsif? Nə olsun söz vermişəm, pul verməli deyiləm ki!“ Əmə birtəhər əlini cevinə saldı. Əlinə bir qızıl onlux gəldi. Kişinin rəngi ağardı, tez

pulu geri, yerinə qoydu. Cevini qurdalayıf-qurdalayıf bir xırda pul tafdı. Aşıx Nəsivin avcına qoydu. Aşıx Nəsif pulu yerə atıf ayağa qalxdı. Sazını basdı sinəsinə. Bir-iki dəfə o tərəf, bu tərəfə var-gəl elədi. Üzünü tutdu Hacıya. Görək burda nə dedi, nə söylədi? Biz deyəh, sizin də könlünüz xoş, hamınız sağ olun:

Ərginədən gələn ağa,
Qonaq-qaran olubdumu?!
Kəsibsənmi qoç-toğludan?
Sizə varan olubdumu?

Tamah yandırıb imanın,
Sahaba yoxdu gümanın.
Nəyə gərək adın-sanın?
Ellə aran olubdumu?

Aşıx Nəsif , xalis bəydi,
Qurcalanma, dərdmi dəydi?
Dediklərim belin əydi,
Ürəyində yaylan varmı?

Söz tamama yetdi. Camahatın içinə gülüşmə tüşdü. Hacı utanıf başını aşağı saldı. Əmə hələ aşığın sinəsi doluydu. Genə Aşıx Nəsif sazı basdı sinəsinə. Görəh nə dedi:

Tamahı qılıncdan iti,
Mətini duruf söyləyim.
Varı var, yeyilməz amma,
Olubdu hərif söyləyim.

Hacı verdi qara pulu,
Kasıfdı, cırıxdı çulu?
Seldi-sudu sağı-solu,
Buna bir “tə’rif “ söyləyim.

Pul deyəndə yanır içi,
Özü nədi- dəli keçi!
Düşüf girdən qolu-qıçı,
Qızılın sərif, söyləyim.

Nəsivə qıymaz altunu,
Bunun çəkəcək altını.
Hacı sevir zarıltını,
Olufdu “zərif“ söyləyim.

Söz tamama yetdi. Hacı aşığa çox yalvardı, əmə Aşıx Nəsif qəbul eləmədi bu yalvarışdarı. Çünkü çox acıxlanmışdı. Genə sazını sinəsinə basdı. Görəh daha nə dedi:

Dünyada dördəlli tutma sən pulu,
Dünyada dünyanın malı qalacax,
Yığıf-yığdırdığın deyil səninki,
Od oluf ürəhdə xalı qalacax.

Özünü ha öldür, “pul-para“ -deyə,
Simicin malına yad olar yiyə,
Yığdığın yeyilməz, yesə, it yeyər,
Gəbərən yabının nalı qalacax.

Demə bəyzadəyəm, mənəm dünyada...
Halına acıyar qohum da, yad da.
Dediyim bu sözlər çıxarmı yaddan?
İt ölsə yalağı, yalı qalacax.

Gözlərin çökəlib, burnun sallanır,
Qocalıx peşinlə gəzif-dolanır.
Yaş yaş üstə gəlir, ürəh bulanır.
Sanma Nəsivin də halı qalacax.

Söz tamama yetdi. Aşıx Nəsiv sazını qoltuğuna vurdu. Ortada dövran eləməyə başladı. Nolacax, beləcə bir məclis də başa yetdi. Başa yetənlərdən olasınız, əzizlərim. Allah sizi də muradınıza çatdırsın.

## PƏHLİVAN AĞAYNAN ÇƏLƏBİ PƏHLİVANIN GÖRÜŞÜ

Ağbabanın Balıxlı kəndinnən bir oğlan Qarsın Qaraqaş köyündə bir qıza vurulmuşdu. Oğlan əvi də, qız əvi də varrı-hal-

lıydı. Di gəl qız tərəfi, yanı qız atası bir əz işi uzadırdı, çəmxəm eliyirdi. Nolacax , qıza bir-iki dəfə elçi getdilər. Qızın atası gah dedi: "qız uşaxdı", gah dedi: "hələ qoyun bir əz fikirrəşəh görəh". Bir söznən hacı-bucu atdı. İşi belə görən oğlan atası "xeyir işi" gecihdirməzlər - deyif Çorru Məhəmmədin yanına getdi. Hal-hekatı ona danışdı ki, belə, belə. Qızın atası mənim ağzımı daşdığa salır. Mana comərlih elə. Çorru Məhəmməd gülümsündü:

– Burda çətin şey yoxdu. Qaraqaşda məni tanımıyan ağa, bəy yoxdu, hörmətimi saxlıyıllar. Gəl elə bu dəfə mənnən gedəh qız atasının qıpısına elçiliyə.

– Laf yaxşı olar.

– Di onda gecihmə, tez elə. Elə günü bu gün yola tüşəh.

– Nə deyirəm, belə fursat ələ tüşməz bir də.

Kişi, yanı oğlan atası bayax ha əl-ayax elədi. O sahat fayton gətirtdi. Çorru Məhəmmədnən bir-iki adam götürüf getdi Qaraqaşa. Bəli onnar gəlif qız əvinin qabağına çatdılar. Çorru Məhəmməd qapıda duruf səsdəndi:

– Ay əv sahabı!

– Buyurun, buyurun.

Çorru Məhəmməd belə baxdı ki, əyə ona qarşı gələn dosdu Möhsün ağadı. Sevindi.

– Ay Möhsün ağa, necəsən, a kişi?

O sahat görüşüf-öpüşdülər, keşdilər içəri. Az keşmədi ki, ortuya surfa gəldi. Yedilər, işdilər. Çorru Məhəmməd Möhsün ağıya dedi:

– Biz qardaşdıx dəyilihmi, ağa?

– Həlvət ki... Nə oluf ku axı?!

– Bə sən qızı niyə mənim dosdumun oğluna vermirsən?

– Sən ha vaxt mənim qapıma gəldin ki, mən də vermədim... Qız qurbandı sana.

– Bu, başqa məsələ.

Beləcə qızın atasının razılığını aldılar. Bir neçə günnən sonra toya başdamax qərarına gəldilər. Əmə Möhsün ağa dedi:

– Hər şey yaxşı olacax, burda bir Çələbi pəhlivan addı pəhlivan var. Bax bircə sizə əziyyət versə, o verəcəh.

– Sən arxeyin ol, ona da bir çara taparıx, Çorru Məhəmməd belə deyəndə Möhsün ağa bir əz toxtaxlıx tafdı. Çünki qızı bu

Çələbi pəhlivan da isdiyirdi, əmə çox yekədanışıx, mənəm-mənəm deyəniydi deyin, Möhsün ağanın onnan zəhləsi gedirdi.

Bəli, toy vədəsi gəlif yetişdi. Çorru Məhəmməd balıxlı Ağa pəhlivanı da özüynən yol yoldaşı elədi. Həlvət ki, Aşıx Haxverdi qaraçənteyli Hacı Əmrah da burdaydı. Çünki bu kişilər də Aşıx Nəsif qədər Çorru Məhəmmədə yaxın adamlarıydılar. Əmə Aşıx Nəsivi başqa yerə çağırdıxlarınan o burda yoxuydu. Nolacax, gəlini atdandırdılar. Geri, Ağbabıya qayıdanda toyun qabağını Çələbi pəhlivan kəsdi:

– Meydanıma ya  adam verin, ya da nəmərimi verin.

Gətdilər ona bir onnux qızıl verdilər, heş aldırmadı, bir onnux qızıl da verdilər, genə razı olmadı, bir beşdih qızıl da verdilər. Cəmisi elədi yirmi beş manat. Genə pəhlivan razı olmadı. İş belə olanda Çorru Məhəmməd Çələbi pəhlivana dedi:

– Bunnan artıx pul olmaz, nəmər olmaz. Daha nə isdiyirsən sən?

– Bu azdı, onda qabağıma adam çıxardın.

Bu belə deyəndə Ağa pəhlivan irəli yeridi. Onu da deyim ki, Ağa pəhlivan olardı bir qırx-qırx beş yaşında, Çələbi pəhlivan da olardı bir yirmi-yirmi beş yaşında. Əmə Çələbi pəhlivan çox sərt danışdı:

– A kişi, sən kimsən? Pul verəcəhsən ver... Yoxsa niyə irəli keçirsən? Qoy qabağıma güləşməyə adam çıxsın!

Çələbi pəhlivan belə deyəndə Ağa pəhlivanın hirsinnən gözdəri qan çanağına döndü. Çorru Məhəmməd onun xəsyətini bilirdi. Pəhlivan hirsdənəndə gərəh onun başına iki cınqır bulax suyu tökəydilər ki, onun hersi yataydı. Tərs kimi burda da bulax yoxuydu. Buna görə Çorru Məhəmməd narahat olsa da, özünü ələ aldı:

– Əyə, nə qədər kəndir, qayış, ip var gətirin burya!

Görsədiş verdi. O sahat ortuya xeylax kəndir, qayış, ip yığıldı.

– İndi tez olun Ağanın qollarını sarıyın., bəlkə hirsi yata. O daha kirimişcə duruf. Tez olun.

Doğurdan da, Ağa pəhlivan kirimişcə dururdu. Bunun əl-qolunu möhkəm-möhkəm bağladılar. Çələbi pəhlivan da bu işə mat qalmışdı. Bir də onda gördü Ağa pəhlivan necə zor verdisə, kəndir-qayış parça-parça oluf töküldü. Çorru Məhəmməd işin

nə yerdə olduğunu görüf Ağa pəhlivana ehmalcasına dedi:

– Meydana çıx, əmə bir əz ehtiyatdı ol.

O sahat Ağa pəhlivan qurşağa kimi soyunuf meydana girdi. Çələbi pəhlivana əl verif dedi:

– Bizdə qaydadı güləşməmişdən qabax pəhlivannar deyişillər. Buyur indi sən qavağa tüş.

Çələbi pəhlivan meydanı bir o başa, bir bu başa gərdiş eliyif, üzünü tutdu Ağa pəhlivana, görəh ona nə dedi, Ağa pəhlivan ona nə cavaf verdi:

Çox danışma kişi, döymə döşünə,
Əvvəl-əvvəl sözüm, gücüm varmı de.
Pul isdəməm, meydanıma ər gərəh,
Əl uşağın, ya da qoçun, varmı de.

**Aldı Ağa pəhlivan:**

Sən cavansan, mən də sənnən yaşdıyam,
İnsaf elə, al pulunu, çəkil get.
Boy-buxunnan bəllidi ki, güjdüsən,
Bağlamaynan el yolunu, çəkil get.

**Aldı Çələbi pəhlivan:**

Qabax kəsən güvənir ki, özünə,
Nər qüvvəsi verən verif dizinə.
Gədələrin çöf tüşəcəh gözünə,
Veriləsi ağır bacın, varmı de.

**Aldı Ağa pəhlivan:**

Gəl qızdırma mənim dəli beynimi,
Qan-yaşıynan dolduraram eynimi.
Burax getsin bu cavannıx oynunu,
Silkələmə əl qolunu, çəkil get.

**Aldı Çələbi pəhlivan:**

Çələbiyəm, dizim yerə gəlmiyif,
Bu yerrərin hələ mərdi ölmüyüf.
Nə də əri pul-parasız qalmıyıf,
Vuran qolun, möhkəm qıçın, varmı de.

**Aldı Ağa pəhlivan:**

Mən Ağayam tanınıram hər eldə,
İsdəmirəm qan qaralsın bu yolda.
Baş ağrıyar, axıl gedər bu qalda,
Gəl incitmə haq qulunu, çəkil get.

Söz tamama yetdi. Pəhlivannar möhkəm tutuşdular. Çələbi pəhlivan Ağa pəhlivana yaman girişmişdi, elə bilirdi ki, Ağa pəhlivan hirsinnən yer cırır. Həyə, Ağa pəhlivan bir dəli nə’rə çəkif Çələbi pəhlivanı bir əlli götürüf havaya atdı, çırfdı yerə. Çələbi pəhlivanın o sahat ürəyi getdi. Hannan-hana pəhlivan özünə gəldi. Ağa pəhlivan iyirmi beş manatı ona verif dedi:

– Bunu götürüf vaxtında çıxıf getsəydin, belə olmazdı axır?! Mənim sənnən işim yoxuydu, əmə...

Çələbi pəhlivan Ağa pəhlivanın əlinnən öpüf onu özünə usdad qəbul elədi. Çorru Məhəmməd burda görəh götürüf nə dedi:

Ər kişiyə halal olsun,
Öz sözünün ağasıdı.
Gözü qızan neynəsə də,
Öz əli, öz yaxasıdı.

Böyüyün sözün tutmuyan,
Heç ipə-sapa yatmıyan,
Uca məqama yetməyən,
Suya tüşüf axasıdı.

Məhəmmədin sözü haqdı,
Namərdin dəvrilər taxdı.
Mərtdih elə mərddih vaxdı,
Fələh bir gün yıxasıdı.

Bəli, söz tamama yetdi, karvan da yola tüşdü. Onnar yavaş-yavaş gəlif Balıxlıya yetişdilər. Məclis quruldu, keflər duruldu. Toy vuruldu, zurna çalındı. Nolacax, şaddıx başa yetdi. Allah sizdərə də belə şaddıxlar versin.

## AŞIX ŞENNİYİN MUMUXAN SƏFƏRİ

Mumuxanda Gülnaz addı bir dul arvad varıydı. Gözünün ağı -qarası bircə oğlu Nəsifiydi. Nəsif də şükür Allaha, böyümüşdü, yaxşı bir oğlan olmuşdu. Tağı addı varrı bir kişinin qızına bənd olmuşdu. Di gəl ki, Tağı varrı olsa da, tamahkarın, insafsızın biriydi. Elə ki, eşitdi qızı Eminə Nəsivə söz verif, könül bağlıyıf, daş atıf başını tutdu. Yazıx Nəsif qaldı belə, Tağı kişi insafa gəlmədi. Gülnaz arvad baxdı ki, oğlu günbəgün geriliyir. Yazıx arvad mətəl qaldı ki neyləsin? Əmə arvad axıllı adamıydı. Öz özünə xeyli tüşünüf-daşındı. Bir əzcə savadı da varıydı, hərdən bir sinədən deməyi də. Odu ku, nə fikirləşdisə, götürüf Aşıx Şenniyə bir məhtuf yazdı. Kağızı oğluna verif dedi:

– Oğul, baxma qış vaxtıdı, əmə gərəh bu kağızı aparıf öz əlinnən Suxarıya, Aşıx Şenniyə verif gələsən.

Nəsif çox qoçax oğlandı, o sahat qonşularının kəhər atını aldı, üz tutdu Çıldır tərəfə. Bunu burda qoyum, xəbər verim Aşıx Şenniyin oğlu Namazdan. Namaz qapının qarını atırdı. Bir də belə baxdı bir atdı özünü ona yetirdi. O təcüf elədi: "Qışın bu vaxdı görən bu gələn kim olar?" Atdı ona yaxınnaşıf salam verdi, xavar aldı:

– A qardaş, bu əv Aşıx Şenniyindimi?

– Elə düz gəlifsən. Buyur atdan tüş, qonağımız ol.

– Yox, sağ ol, Aşıx Şenniyə bir məhtuf gətmişəm. Sən onun nəyisən?

– Oğlu.

– Bu məhtuvu ona ver.

Namaz məhtuvu aldı. O sahat atdı atının başını geri çevirdi. At ildırım kimi irəli şuğudu. Namaz bir əlindəki məhtuva, bir də atdınının dalınca baxıf içəri keşdi.

Gördü babası, yəni Aşıx Şennih sazını köklüyür. Qasım da xeylax aralı oturuf. Dedi:

– Ay baba, sana bir məhtuf gəlif.

– Məhtuf? Kimnəndi?

– Bilmirəm.

– Aç, oxu görüm.

Namaz məhtuvu aşdı; o, bu üzünə baxıf çiyinnərini çəhdi:

– Baba, məhtuf bir Gülnaz addı arvaddan gəlif. Deyəsən bu

Mumuxannı arvad səni deyişmyə çağırır. Əmə bir əməlli yazmıyıf. Belə çox üsdüörtülü yazıf, qanmax olmur.

– Oxu, görüm nə yazıf?

– Şeyir yazıf, ay baba.

– Onda bu sənnih dəyil, a bala. Məhtuvu Qasıma ver. Səninki irəşbərrih, ovçuluxdu, iş-güjdü, əmə Qasımınkı saz-söz.

Aşıx Şennih belə deyəndə Namaz məhtuvu Qasıma verdi:

– A Qasım, sən oxu, de görəh bu arvad nə isdiyir babamnan?

Qasım məhtuvu oxumağa başdadı, əmə ürəyində oxuyurdu. Kutaran kimi dedi:

– Baba, şeyirni oxuyummu bu arvadın?

– Oxu.

Həyə, indi görəh arvad, yanı Gülnaz məhtuvda nə yazmışdı:

Birim gedif, birim qalıf yerində,
İkiliyim, madarımı deyirəm.
Bir danadı, bir inəkdi, üç keçi,
Olan-qalan öz varımı deyirəm.

Biri alıf məni ağzı yoxuşa,
İnanmıram, məcrasına sığışa.
Alıf məni boran-qara, yağışa,
Yox eliyər ilk barımı deyirəm.

Mən Gülnazam, kimsənəm yox, kimim yox,
Boğuluram qəm gölündə, gəmim yox.
Aşıx Şennih, məsdahata yaxşı bax,
Tez gələrsən qərarımı deyərəm.

Bəli, söz tamama yetən kimi Aşıx Şennih Namaza baxıf güldu, döndü Qasıma tərəf:

– A Qasım, indi de görəh bu arvad nə isdiyir, qoy bu Namaz da bilsin, başa tüşsün.

– Baba, Gülnazın bir oğlu var, o da bir varrının qızını isdiyir, əmə kişi vermir. Yazıx arvad bu işi yoluna qoymaxdan ötrü səni çağırır.

– Düzdü, oğul. Onda get Alaşıyı yəhərrə. Mən gərəh o arvadın dadına yetişəm. Əl tutmax Əlidən qalıf.

– Ay baba, gejdi axı, genə bir əz er olsaydı. Bəlkə sabax gedəsən?

– Yox, a Namaz, yolçu yolda gərəh. Bir də qorxma, Allah üsdümdədi, a bala.

Bəli, Aşıx Şennih Alaşıyı mindi, sazını çiyninə keçirdi, üz çəvirdi Ağbabıya. Gəlhagəl, gəlif Mumuxana yetişdi. Əmə kənddə yamanca qar varıydı. Aşıx Şennih bir uşaxdan Gülnazın əvini xavar aldı. Uşax o sahat xeylax aralıxdakı əvi ona nişan verdi. Aşıx Şennih qapıda atdan tüşdü, ciloyu qoluna keçirif qapıyı taqqıllatdı:

– Ay əv sahabı!

O sahat əv sahabı, yanı Gülnaz arvad eşiyə çıxdı. O, Aşıx Şenniyi görən kimi səvindi.

– Həmməşə sən gələsən, ay aşıx. Atı mana ver, pəyiyə aparım. Sən keş içəri, indi gəlirəm.

Gülnaz atı pəyiyə aparıf bir yana bağladı, qabağına ot qoyuf tez içəri qayıtdı. Aşıx Şenniyi surfanın başına dəvət elədi. Aşıx Şenniy bir tərəfdə oturdu. Əmə ha oyan, bu yana baxdısa, əv sahabının oğlunu görmüyüf dedi:

– A Gülnaz, bə sənin oğlun hanı?

– Xəsdələnif, o biri otaxda yatır.

– Get səsdən, qoy geyinif gəlsin. Bir görüm necə oğlandı bu.

– Bu sahat.

Gülnaz bir su içimində oğlunun yanına dəyif qayıtdı. Əmə oğlu az keşmədi ki, geyinif, keçinif gəldi Aşıx Şenniyin yanına. Ona salam verif, aşığın əlinnən öfdü. Aşıx Şennih baxdı oğlan çox ağıllı oğlandı, dedi:

– Günnaz bacı, qorxma. Elə günü bu gün elçiliyə gedirih.Verməz, mən bilərəm ona neyniyərəm!

– Bu gün dincəl, sabaha nə gəlif, ay Şennih.

– Yox, sən gəl bu işi uzatma. İndi bir-iki yaşdı qonşuna da xavar ver. Yığışıf gedəh qızın babasının əvinə. Görəh bu kişi niyə belə tərsdih eliyir?

Aşıx Şennih belə deyəndə Nəsif çox səvindi. Anası Allah verənnən surfuya düzdü. Yedilər, işdilər. Gülnaz arvad dedi:

– Onda siz bir əz oturun danışın, mən gedim qonşulardan biriki adam çağırım, gedəh elçiliyə.

Bəli, Gülnaz arvad iki daşın arasında iki-üş yaşdı adam tapıf

gətdi əvə.

Gələnnər Aşıx Şenniyi görüf çox səvindilər, onnan görüşüf hal-əhval tutdular. Axşam olan kimi onnar qızın babasının əvinə gəldilər. Qızın atası, yanı Tağı kişi işi başa tüşdü, əmə qaldı içinnən qırıla-qırıla. Çar-naçar qalıf gələnnəri gülərüznən qarşıladı. Elçilər hərə bir tərəfdə otdular. Əmə Şennih üzünü əv sahabına tutuf dedi:

– Kişi, sən bilirsən ki, qapına nəyə gəlmişih. Gərəh bizə yox demiyəsən. Nəsif yaxşı oğlandı, qızın da könlü var.

– Aşıx Şennih, sana mənim canım da qurvandı. Əmə varrıhallı dosdarım var. Deməzdərmi bu, qızını bir lütə verdi!

Tağı kişi belə deyəndə Şennih acıxlandı. Bəyax sazını köynəhdən çıxartdı. Zilini zil eliyif üzünü Tağı kişiyə tutuf görəh nə dedi:

Xeyir işdi, xeyirli iş gəl danış,
Dövlət-vardan, pul-paradan, danışma.
Səvən səvif, seçən seçif bilirsən,
Xəbərin yox, ağ-qaradan, danışma.

İşin  pisdi, salsan yerə sözümü,
Qız atası, gülüş etmə özünü.
Axır kişi pul tökəcəh gözünü,
Seldən-sudan, qarqaradan danışma.

Qul Şenniyəm, el içində adım var,
Həmdəmim var, qohumum var, yadım var.
Yandıraram, alovum var, odum var,
Divan qurar ol Yaradan, danışma.

Söz tamama yetdi, əmə Tağı kişi dedi:

– Aşıx Şennih, özün demiş qabağı yazadı, mal-qoyun da arıx tüşüf. Sonra da sel-su oynuyacax, qarqara olacax. Sonra da yaz gələcəh. Nəsif yazıx pulu-zadı hardan tapıf alacax? Genə bir başqa vaxıt gəlsəniz bir əməlli danışarıx görəh neynirih.

– Tağı kişi, qabağıma kötüh dığırrama.

Aşıx Şennih belə deyəndə Tağı kişi gördü aşıx onnan qızın həyəsini almamış gedənə oxşamır. Əgər qızı verməsə, el içində biabır olacax. Deyəcəhlər ki, qapısına Aşıx Şennih kimi kişi

gəldi, onu saymadı. Di gəl bunnan sonra Ağbabada yaşa. Öz-özünə ürəyində bir neçə dəfə Gülnazın dədəsinə söydü:

"Köpəh qızı. Bütün işdəri bu qaynatdı. Bu onun əməlidi. Daha keçif... Əmə, genə bir fənd işdətməh olsaydı"...

– Tağı kişi, indi sözün nədi?

– Aşıx Şennih, başına dönüm, sən ki qapıma gəlifsən, sana pütün uşaxlarım, əvim-eşiyim qurvandı, əmə...

– Əmə, nə?

– Mənim də sözüm var.

– Buyur de.

– Görəh mən də isdədiyimi söznən deyəcəm. Bir az mənim də söz deməyim var axı.

– Buyur, Tağı kişi.

İndi görəh Tağı nə dedi:

Ətdih üçün yeddi cöngə, yeddi qoç,
Gətirərsən, gətiməzsən, toydan keç.
Ucuz şeydən, kasıflıxdan uzax qaç,
Boyunbağı, kəmər, qolbaq istərəm.

Bəzək-düzək, qızıl-gümüş olmalı,
Qohumlara yaxşı xələt almalı.
Şirin olar, həm isbaha bəy malı,
Doqquz batman inək yağı isdərəm.

Altun olsun, dingəsində pərəhlər,
Pirçəhlihdən keçirilsin hörühlər.
Demirəm ki, qızıl olsun dirəhlər,
Dedihlərim olsun nağdı, isdərəm.

Söz tamama yetən kimi Aşıx Şennih bir də sazı bağrına basdı.

– A Tağı kişi, nə pul-dövlətdən yapışıfsan?! Bu sahat xavar yolluyaram Ağbaba ağalarına, bəylərinə. İbişdən Hamza ağa, Qaranamazdan Cabbar ağa, Oxçoğludan Məmməd ağa, Sağamoydan Dursun bəy gələr. O qədər var-dövlət tökəllər ki, gözün kəllənə çıxar. Əmə buna ehtiyac varmı? Hələ Hacabbas oğullarını demirəm.

Tağı kişi bu sözdəri Aşıx Şennihdən eşidəndə böyüh səf elə-

diyini başa tüşdü, əmə özünü o yerə qoymadı, pişih kimi arxasını yerə verməh isdəmədi:

– Ay aşıx, xeyir iş xarc isdiyir. Mən başqa şey demədim ki.

– Qulax as, gör mən nə deyirəm.

Aşıx Şennih genə burda görəh Tağı kişiyə nə dedi:

Tağı kişi, cöngə, qoçu neynirsən?
Öz sürünə, naxırına nə gəlif!
İnsaf elə qan qaraltma arada,
Axarına, baxarına nə gəlif!

Qızıl-gümüş, malı-dövlət, pul səndə,
Tamah səndə, işdah səndə, hal səndə.
Buğa səndə, cöngə səndə, kal səndə,
Gəlirinə, çıxarına nə gəlif!

Şennih deyər, salma öznü nəzərdən,
Bəla tutar qutarmazsan azardan.
Xeyir işdi, mal alırsan bazardan?
İsbahana, ağırına nə gəlif!

Söz tamama yetdi. Tağı kişi ölmədi ki, ölə, əmə Aşıx Şennih hersdənmişdi deyin, sazını bir də bağrına basdı. Görəh burda nə dedi.

Mənəm demə, bu dünyada əvinə talan gələr,
Şöhrət tutuf gözdərini, dilinə yalan gələr.
Nə var-dövlət, qızıl-gümüş, nə mal versən, xeyri yox,
Diz çöhdürər, bağrın yarar, canını alan gələr.

Can quşunu alan olmaz qara atın əlinnən,
Yanar cismin külə dönər aloy-odun əlinnən.
Qəm yesə də əslizatlar, əsli qıtın əlinnən,
Boz atın da, boz donunda hər qeydə qalan gələr.

Qul Şenniyəm-haqqın qulu, eşitməsən sözümü,
Soxarsan yerə başını, heç eylərsən özünü.
Nıkqızlıxla tamahkarrıx kor eliyif gözünü,
Dediyimi annamasan, belinə palan gələr.

Söz tamama yetdi. Tağı kişi qəvəhətini annadı. Tez ayağa qalxdı, Aşıx Şenniyin əlllərinən öfdü.

– Mən qızımı Nəsivə verməyə irazıyam. Əmə sən Allah, bu sözdəri başqa yerrərdə oxuma, biavır olaram. Toyu da özüm eliyəcəm. Pul-zad, heş nə lazım dəyil, əmə məni dillərə salma.

– Günah özündə oldu.

Bəli, beləcə irazılığa gəldilər. Payız olan kimi toya başdadılar. Nəsifnən Eminənin toyunu Aşıx Şennih keçirtdi. Allah hamınızın murazınızı versin.

## YETİM TAFDIĞIN PENDİR-YAĞ ƏHVALATI

O vaxdarı Xozuda sədir Qurbanın vaxtdarıydı. İnsafnan desəh camahata bu kişi yaxşı baxırdı. Bir gün genə sədir baxdı gördü kü, əyə, bu camahat heş yaxşı dolanmır. Odu ku kimin daha çox imkanı yoxuydu, onnara bir xeylax pendir-yağ verdi. Həlbət ki, ordelnən. Dedi yanı aparıf veriləni şəhərdə satsınnar, genə əllərinə bir əz pul gəlsin. Bəli, bu adamların içində Yetim Tafdıx da varıydı. Nolacax, bir haraba qoşuf yola tüşdülər. Gəlhagəl, gəlif axşama çatdılar Hamasıya. Axşamı orda qaldılar. Hava işıxlanan kimi tezdən yola tüşdülər. Axır ki, birtəhər çatdılar Gümrüyə. Özü də gecə vaxdı. Arada necoldusa, erməni dığaları Yetim Tafdığın pendirini, yağını oğurruyuf apardılar. Kişi qaldı belə, yanı əliboş əvə, arvad-uşağın yanına hancarı getsin?! Yoldaşdarı da işi belə görüf çox pərt oldular. Burda Yetim Tafdıx özünü saxlıya bilmiyif görəh nə dedi:

Üzün qara olsun, bir gün sən də qalx,
Qolumnan bir yapış, ay qara baxdım.
Mənə canın yanmır, uşağı tüşün
Arvadı da üsdə say, qara baxdım.

Bu belə deyəndə yoldaşdarınnan biri ah çəkdi:

– Əyə, a Yetim Tafdıx, bu andıra qalmış qara baxt təhcə səndədimi?! Biz də elə sən günnüyüh da!

Yetim Tafdıx onun dediyini tasdıxlasa da, genə başını buladı:

– Əyə, heş kəsin baxdı qaralıxda mənim baxdıma çatmaz. Sözün gerisinə qulax asın.

Genə davam elədi.

Əlinə keçəni yox eliyirsən,
Dığıyı-mığıyı tox eliyirsən.
Güjün mana çatıf, "xox" eliyirsən,
Vermirsən bir kismət pay, qara baxdım.

Tafdığın canını yığdın boğaza,
Arvad-uşax necə çıxacax yaza?
Başıma gətirdin olmazın qəza,
Heş mana verməzsən hay, qara baxdım.

Söz tamama yetəndə yoldaşdarı Yetim Tafdığa dedilər ki, gəl hərəmiz sana bir qədər pul verəh, genə hər nədi, əvə əliboş getmə. Əmə Yetim Tafdıx buna razı olmadı.

– Əyə, Sədir Qurbanın canı sağ olsun, mana bir köməhdarrıx eliyər yaqın.

Nolacax, qayıdıf geri, kəndə gəldilər. Əhvalat, yanı Yetim Tafdığın başına gələnnər gəlif sədir Qurbana da çatdı. O, o sahat adam yolluyuf Yetim Tafdığı çağıtdırdı, dedi:

– Tafdıx, düzünü de görüm, şəhərdə başına nə gəldi?

– Deyirsən deyim, əmə a sədir, söznən deyəcəm ha.

– Bu laf yaxşı.

İndi görəh burda Yetim Tafdıx üzünü sədir Qurbana tutuf nə dedi:

Taladı dığalar pendiri-yağı,
Əliboş geriyə döndüm də gəldim.
Həlbət belə imiş qismətim mənim,
Qəm-kədər üstündə dindim də gəldim.

İndi arvad-uşax baxır yollara,
Nə bir şey almışam, nə də pul-para.
Neyniyim, bilmirəm mən baxdı qara.
Alçaxdan alçağa yendim də gəldim.

Tafdığın işi də düzələrmi heç?!
Könül, sevinməhdən, şad olmaxdan keç.
Kasıblıq əl çəhməz, gəl ayrı yol seç,
Qədərin atını mindim də gəldim.

Söz tamama yetən kimi Sədir Qurban anbardarı yanına çağırdı:

– Get Tafdığa pendir-yağ ver, qoy aparıf şəhərdə satsın. Genə uşaxlarını bir əz idara eliyər.

Bəli, o sahat Yetim Tafdığa xeylax pendir-yağ verildi. O sədiri duvalıya-duvalıya getdi şəhərə. Orda yağ-pendiri satıf pul elədi. Epeycə şey-şüy alıf əlidolu əvə qayıtdı. Bunnan bir iki-üş gün keşməmiş Yetim Tafdığı Sədir Qurban çağırtdırdı. O gələn kimi sədir xəbər aldı:

– Nə təhər oldu bu dəfə?

– Yaxşı oldu.

– Yanı bir əz aynoyun, qırıx-söküh ala bildinmi barı? Ordelin hanı, ver baxım.

Yetim Tafdığ ordeli ona verən kimi Sədir onu alıf cırdı:

– Sana halaldı, a kişi, pul-zad tutulmuyacax.

İşi belə görəndə Yetim Tafdıx genə götürüf burda görəh sədir Qurbana nə dedi:

Sədirlər içində insaf səndə var,
Tanrı köməyində dursun, a Qurban.
Kasıvın-kusuvun tutdun əlindən,
Verən qismətini versin, a Qurban.

El-oba içində kişisən, mərdsən,
Bizi sevindirdin, heş alma dərd sən.
Sən bizə fəxrsən, həmi fərəhsən,
Allah müxənnəti vursun, a Qurban.

Həmməşə olmuşdum, qəmin tafdağı,
Olmuyur yolumnan hələ sapdığım,
Genə üzü güldü Yetim Tafdığın,
Üzün ağ, harıya varsan, a Qurban.

Söz tamama yetdi. Yetim Tafdıx da səvinə-səvinə əvinə getdi. Allah sizi də beləcə səvindirsin.

## ALAŞANIN OTUNUN QUTARMASI

Sovet hökuməti gələnnən Ağbabanın bütün kətdərindəki yaxşı, addı kişiləri dənniyif götürdülər. Kimiyi güllələdilər, kimi sürgün elədilər. Həyə, Güllübulaxda addı kişiləri yox elədilər. Həyə, fevral ayının axırrarıydı, əmbə Nəsifgilin tədarük elədiyi ot-ələf qutarmışdı. Nəsivin atı Alaşa acınnan qancalmışdı. Bir gün Nəsivin arvadı dedi:

– A kişi, Alaşa laf haldan tüşüf. Deyirəm qolxoz sədirinə deyəsən, bir əz ot-ələf verə, görəh dalı nə olur.

Aşıx Nəsif bunu eşidəndə istədi bir arvada hirsdənsin, əmbə bu fikirdən əl çəhdi, çünki aşıx Alaşayı çox isdiyirdi. Odu ku, elə dimməzcə qaxıb sazını götürdü, eşiyə çıxmaq isdiyəndə arvadı dedi:

– A kişi, sən ot-ələf almağa gedirsən, yoxsa məclis keçirməyə?

– Ay arvad, bəlkə lazım oldu.

Arvad heş nə demədi, əmbə Aşıx Nəsif sazı qoltuğunda düz qolxozun idarasına gəldi, sədiri xəbər aldı. Dedilər: bax, o başda oturandı, get onun yanına. Nəsif deyilən otağa gəldi.

Onu görən kimi başda oturan arvad, yanı sədir dedi:

– A kişi, nəyə gəlifsən, ərzə yaz baxarıx.

Əmbə Aşıx Nəsif ona heş bir söz demədi, dimməzcə sazını köynəhdən çıxardıf bağrına basdı, görəh qolxoz sədrinə nə dedi. Biz deyəh, sizin də canınız sağ olsun:

Arvat başa keçif, kişilər ölüf.
Bağrına daş bağla, döz Aşıx Nəsif.
Tərsinə dolanır dünya elə bil,
Daha nəyə gərəh söz, Aşıx Nəsif.

Hökumət işində əyal baş olur,
Dərd ürəhdə qalsa, gözə yaş olur,
İndi xanım-xatın qarabaş olur,
Ötənnərdən əlin üz, Aşıx Nəsif.

Fağır, kasıf-kusuf sanki bir tühdü,
Küçədə yatannar bizə böyühdü.

Edilən qələtlər xalqa bir yükdü,
Nə yaxşı ki, görmür göz, Aşıx Nəsif.

Bəli, mənim əzizdərim, söz tamama yetdi, Aşıx Nəsif ordan çıxıf düz əvlərinə gəldi. Əmbə arvadı Alaşıyı eşiyə çıxartmışdı kı, heyvan bir əz havasını dəyişsin. Alaşa Nəsivi görən kimi onun üsdünə gəldi, əlini-ayağını iylədi. Beçara Aşıx Nəsif burda görəh götürüf nə dedi:

Əlimi, üstümü gəl az imsilə,
Qəhətdi ot-ələf, saman, Alaşa.
Şura qurudufdu nə ki, ne'mət var,
Olufdu halımız yaman, Alaşa.

Deyillər samana ərzə yaz görəh...
Belə zülümlərə dözər daşürəh.
Damın uçuf gedir, yox orta dirəh,
Gəlmir heş bir kəsə güman, Alaşa.

Vaxt vardı, kefdəydin, yeyərdin kişmiş,
Yavan ələ tüşmür, tapılmır pişmiş.
Yaxşı yaşamağın axırı heçmiş,
Nəsif dərtdən tapmır aman, Alaşa.

Söz tamama yetdı, əmbə arvat isdədi Nəsivi bir az sakitləşdirsin. Odu ku dedi:

-A kişi, darıxma, Alaşıya ot-ələf verən tapılar. Öz-özünə bunu dərd eləmə, sən Allah...

Əmbə Aşıx Nəsif də Aşıx Nəsiviydi ha. Dedi:

– Ay arvat, sən qanan şeylər dəyil bu dedihlərim. Yaxşı olar ki, dinməzcə, qulax asasan.

Həyə, Aşıx Nəsif sazını yenə döşünə basdı görəh nə dedi:

Kəsildi yol-cığır, lal oldu dillər,
Çaqqal şirə dönüf, dağıl, a dünya.
Necoldu ötənnər, o gözəl dövran,
Allah saa versin ağıl, a dünya.

Musurman olana turşuyuf üzün,
Oyursan gözünü həqiqət-düzün.

Taha cəhənnəmə dönüfsən özün,
Ər yaşıya bilmir mağıl, a dünya.

Tökülən qannardan sel-su qan oldu,
Erməni urusnan gəldi xan oldu,
Aşıx Nəsif sındı, yarımcan oldu,
Gördühlərim dəyil nağıl, a dünya.

Söz tamama yetdi, əmbə qonum-qonşu bu işdən xavar tutdu. Tez Alaşıya kimi bir bardan saman, kimi bir şələ ot-ələf, saman verdi, əmbə bu əhvalat da dillərə tüşdü.

## CANBAZ QIZI

Aşıq Şenlik təzə evlənmişdi. Yayın yaxşı vədələriydi. Öz-özünə dedi: "Ayə, gəl bir Canbaz yaylağına get. İndi yaylaq gözəl olur. Həm gəzim, həm məclis keçirim." Qərəz, aşıq sazı götürdü, düşdü yola. Gəlhagəl gəlib çıxdı Canbaza. Əyə, baxdı nə, vallah-vallah alaçıqlar qurulub, mal-qoyun sürüləri yayılıb döşlərə, yamaclara. Hər tərəf gül-çiçək dənizi... Bir nazik cığırı tutub dikəldi bir qəlbi yerə. Gördü alaçıqdan bir qız çıxdı. Baxdı qız, nə qız! Elə bil zalımın balasının üstündən heç yel də ötməyib. Müxtəsəri, görəni hayıl-mayıl eləyir. Gözləri elə qaynayır, elə qaynayır, daha demə, elə "öldürrəm-öldürrəm" deyir. Aşıq Şenlik qaldı belə... Əyə, bu qız kim ola, kim olmaya – Canbazın adlı-sanlı ağalarından birinin qızı. Qızın başında araqçın, əynində qırmızı don, belində gümüş kəmər vardı. Kəmərindən balaca, gümüş qınlı xəncər asılmışdı. Aşıq Şenlik ürcahına çıxan gözəllikdən çaşıb qaldı. Nə irəli gedə, nə də geri dönə bildi. Qız şirin-şirin gülümsədi:

– Aşıq, nə duruxdun? Görmüşük aşıq gözəl-göyçək qızlara söz deyər, tə'rif söyləyər. Bəs sənin tərifin hanı? Səhv eləmirəmsə Aşıq Şenlik sənsən.

Aşıq Şenlik çox arif adam idi. Qızın danışığından anladı ki, iş başqa cürdü, ölməmiş betər vurulub... Gəl indi belə gözəlin əlindən qurtar görüm necə qurtarırsan? Özün təbli aşıq olasan, söz deməyəsən? Yox, bu olarmı?! Amma qızın gözəlliyi Aşıq Şenliyi yaman tutmuşdu. Nə qədər elədi özünü ələ ala bilmədi.

Qız işi belə görəndə üzünü Aşıq Şenliyə tutub görək nə dedi. Biz deyək, Allah sizləri də xoşbəxt eləsin:

Nədi, nə baxırsan mənə kənardan,
Olmazmı söhbəti-sözü aşığın?!
Görüb gözəlliyi, almır hesaba,
Yoxsa kor olubdu gözü aşığın?!

Niyə dolanırsan bu dağı-daşı,
Gəl sən mənimlə dərd yükü daşı.
Sinəmi yandırdı eşqin ataşı,
Yaşı haqlayıbmı yüzü aşığın?!

Xanımam, könlümə dəyə bilməzsən,
Sən məni sındıra, əyə bilməzsən,
Sözünü üzümə deyə bilməzsən?
Gülməzmi sifəti, üzü aşığın?!

Söz tamama yetdi. Aşıq Şenlik gördü qızın gözləri dolub. Ürəyi tab eləmədi. Sazı köynəkdən çıxarıb basdı sinəsinə. İndi görək burda nə dedi, nə söylədi. Tərəfindən ərz eyləyək, sizin də canınız sağ olsun:

Xırdaca gözəlsən, yaşın çox azdı,
Baxdıqca canımı alma, amandı.
Təzə evlənmişəm, xəbərin olsun,
Başını bəlaya salma, amandı.

Aşıq gəzəridi, yolu dağ-dərə,
Nə çox yoxuş-eniş, gədik, bənd-bərə,
Söz ilə arxamı vurma gəl yerə,
Bulud tək tutulub dolma, amandı.

Şenliyəm, könlünə dəymərəm sənin,
Başını aşağı əymərəm sənin,
Dərdi-qəm içində qoymaram səni,
Gül kimi saralıb solma, amandı.

Söz tamama yetdi. Qız qara saçlarından üç tel ayırıb basdı şamama döşünün üstünə, görək burda nə dedi:

Axır sözün nədi, desən mərdana,
Sinəmin başını yandırdın getdin.
Bildim evliyini, qaraldı gözüm,
Gör necə könlümü sındırdın, getdin.

Gözüm görən kimi tutdu tez səni,
Niyə yumşaltmadı görən söz səni?
Məftun eləmədi əsmər üz səni,
Məni ucalardan endirdin, getdin.

Xanımam, bu canım qurbandı sana,
İnsaf et, könlümü çalxama qana,
Sən bir el aşığı, mən də bir sona,
Yanan çırağımı söndürdün, getdin.

Söz tamama yetdi. Aşıq Şenlik sazını dimməzcə bağrına basdı. Qızın könlünü almaq üçün bu yerdə görək nə dedi:

Çağırarsan əlbət məni,
Xəbərin bilərəm bir gün.
Məclisi quraram sizdə,
Danışıb gülərəm bir gün.

Könül verərsən bir mərdə,
Öz-özünü salma dərdə,
Demə qəzavü-qədərdi,
Göz yaşın silərəm bir gün.

Səfil Şenlik sənə qurban,
Şəndi burda elin-oban,
Həm gözəlsən, həm mehriban,
Toyuna gələrəm bir gün.

Söz tamama yetdi. Qız peşiman-peşiman alaçığa qayıtdı. Aşıq Şenlik məst olmuş adamlar kimi bir xeyli vaxt özünü itirdi.

Yolunu çaşdı, gəzə-gəzə gedib bir yerə çıxdı. Ağlı başına gələndə gördü, əyə, gedəcəyi yolu sapıb, başqa səmtə gedib. Qərəz, yolu aldı əlinə, amma gördü əhvalat onu rahat buraxmayır. Odur ki, yenə sazını sinəsinə basdı. Üzünü dağlara tutub aldı görək nə dedi. Deməyi bizdən, eşitməyi sizdən.

Canbaz yaylağında ataşa düşdüm,
Bir alagözünü gördüm, ayrıldım.
Danışdı, söylədi huş getdi başdan,
Könlümü əlimdən verdim, ayrıldım.

Başından dərdini qova bilmədim,
O küskün qəlbini ova bilmədim,
Ovçu tək çıxmışdım ova, bilmədim,
Ceyranı bərədə vurdum, ayrıldım.

Şenliyəm, kədərdən könlüm qaralı,
Ceyran sinəsindən qaldı yaralı,
Ah çəkdi, inlədi dağlar maralı,
Sevən ürəyini qırdım, ayrıldım.

Söz tamama yetdi, Aşıq Şenlik gedib Suxara köyünə çatdı. Amma o vaxtdan bu əhvalat da dillərə düşdü, kəndə-kəsəyə yayıldı.

## XƏSTƏ HASANIN XOSBİYA BƏYLƏRİNƏ ŞİKATI

Xəstə Hasan öz sevgilisini alammamışdı. Əmbə sevgilisi yadına tüşəndə çox fikir çəkərdi. Atalar yaxşı deyiflər ki: “Yüz fikir bir borcu ödəməz“. Əmbə Levis kəndində bir gəlin varıydı. Fədi adında. Xəstə Hasan bunu sevgilisinə oxşadırdı. Fədinin əri, qaynatası da insafən desəh bir şey deməzdilər, əmbə Xəstə Hasan da Fədiyə elə söz deməzdi ki, xətrinə dəyə, həm də Xəstə Hasan artıq bir 55-60 yaşına gəlif çatmışdı. Bir gün ot piçiniydi, kətdə pütün cavannar işə getmişdi. Xəstə Hasan öz tay-tuşlarıynan oturuf söhbət eliyirdi. Ərihsatannan da bir xeyli ərih alıf dəsmalın üstünə töhmüşdülər. Yeyə-yeyə danışırdılar. Bir

də gördülər budu Fədi gəlir. Xəstə Hasan Fədiyi görəndə ürəyi qübar elədi. Görəh burda üzünü Fədiyə tutuf nə dedi. Biz deyəh, sizin də canınız sağ olsun. Aldı Xəstə Hasan:

Könül, səni müjdələyim sabaxdan,
Budu üzü xallı yarım gələyir.
Yanaxlar qırmızı, Xırtız alması,
Dodaxları ballı yarım gələyir.

Uzun zülflərini gərdənnən aşır,
Bad əsəndə incə belə dolaşır,
Alları xalına nə xoş yaraşır!
Boynu çinar, dallı yarım gələyir.

Söz tamama yetdi, əmbə Fədi hersdəndi ki, niyə belə dedin. Xəstə Hasan ona heş fikir vermədi, onu acıxlandırmaxdan ötrü bir ərih çiyidini ona atdı. Onda Fədi ona barmağını silkəliyif onu yanadı: “Bir də bizim tərəfə xəlvət gələrsən həlbət“. Əmbə Xəstə Hasanın yenə söz damarı tutdu. Üzünü Fədiyə tutuf görəh bu səfər nə dedi. Biz deyəh, sizin də canınız sağ olsun:

Ərih çiyidini atdım bu yara,
Acıxlanıf mənə “dəlisən“dedi.
Dedim: bir busə ver o gül yanaxdan,
Dirsəyin göstərif “alısan“dedi.

Dedim: qurban olum sənin eyninə,
Üzüm sürtüm buxağına, əyninə.
Rusğat ver, əl aparım qoynuna,
“Əcəlin yetməmiş ölüsən“-dedi.

Xəstə deyər: bu qız dağ ceyranıdı,
Əlini köhsünə çəkif yanıdı,
Doqqazdan gələndə məni tanıdı,
“Bir bizim məhləyə gələsən“-dedi.

Fədi hersnən dönüf getdi. Onda Xəstə Hasan belə dedi:

Şükür, ayax qoydu yar bizim yerə,
Kirpihləri oxdu, qanımda getdi.
Camalın şöləsi yaxıf aləmi,
Sanasan məleykə donunda getdi.

Eldə belə gözəl olmaz həmişə,
Hüsnün işığınnan gözlər qamaşa.
Küllü Alosmana saldı tamaşa,
Üşgüllü vəzirin yanında getdi.

Xəsdənin yarısan, ay gözəl Fədi,
Öldürməhdi məni, xəyalın nədi,
Artırdın dərdimi dəli eylədin,
Sən getdin, cəsətdən canım da getdi.

Söz tamama yetdi. İndi xəbər verəh Fədidən. Fədi gəldi əvlərinə. Yaxşı-yaman ərinə-qaynatasına qandırdı. Onnar hersdəndilər, istədilər qavaxcax Xəstə Hasanı öldürsünnər, əmbə bu fikirdən daşınıf dedilər ki, yaxşı olar elə onun qardaşı oğlu Dəli Bayramı şərriyif dama saldırax. Bir qədər pul versəh düzələr. Onnar belə də elədilər, pul verdilər, şərnən Dəli Bayramı tutduruf dama saldırdılar. Xosbiya bəyləri ona 8 il iş verdi, əmbə bu işi Üşgüllü vəzir eləmişdi. Oğlan tərəfin adamları minnətə getdilər. Xəstə Hasan da Oruşdux bayramınnan bir günü qabax Xosbiyaya gəldi, əmbə düz bəylərin içinə, məclisə keşdi. Gördü burda başda Dədə bəy oturuf. Əmbə məclisdə 40-50 bəy var. Qulağı çaldı ki, Türkiyədən də bir aşıx gətiriflər, əmbə onu da başa tüşdü ki, bəylər Dəli Bayramı da çalıf-oxutmax istiyillər, əmbə indi o, damdadı. Nolacax, Xəstə Hasan bir yanda otudu. Onnan soruşdular ki, nə yaxşı gəlif, niyə gəlif? Xəstə Hasan belə deyəndə üzünü Dədə bəyə tutuf görən nə dedi. Biz deyəh, sizin canınız sağ olsun:

Aləm bilir, eşq ataşı məndədi,
Bilməyənlər xələf sanar, əfəndim.
Bir yar ki, yarınnan ilqar elədi,
İlqarınnan necə dönər, əfəndim?

Qanmıyan adamlar Xəstə Hasan belə deyəndə dedilər ki, yağın kişinin sevgisi var, əmbə Xəstə Hasan aldı sözün o biri bəndini:

Aləm bilir, sənin adın Dədə bəy,
Əslin oluf əvvəldən də zadə bəy.
Öldür məni, verməginən yada bəy,
Hər görənnər ehsan sanar, əfəndim.

Adamdar qaldılar mətəl. Dədə bəy də maraxlandı: "Əyə, bu kişi nə deyir", qulaq asdı, Xəstə Hasan aldı sözün möhür bəndini.

Mən Xəsdəyəm, bağda bostan əkərəm,
Qırqanada[1] bir gözələ nökərəm.
İndi canı dildən nara çəkərəm,
Tamam çarşı-bazar yanar, əfəndim.

Söz tamama yetdi. Elə bu vaxt Üşgüllü vəzir içəri keşdi. Bu ona görə gəlmişdi ki, Fədinin qaynatası buna pul verif Dəli Bayramı tutdurmuşdu. Xəstə Hasan gördü Üşgüllü vəzir onu görəndə heş kimə salam vermiyif başa keçdi. Buna da bəylər acıxlandılar. İşi belə görəndə Xəstə Hasan görəh burda nə dedi. Aldı Xəstə Hasan:

Bəyzadalar məclisinə gələndə,
Axlı kamil olan əyağı gözdər...
Usdadınan xəsyət alan kimsələr,
Bilir nə söyləyir oyağı gözdər.

Dəli könül, öz yerində paşasan,
Qanlı fələh kimi qoydu yaşasın?
Ay annamaz, niyə sürdün başa sən,
Səf saldı dər ilə ayağı gözdər?

Xəstə Hasan dəryalara dalanda,
Şirin canı eşq oduna salanda,
Vədə gəlif, ömür tamam olanda,
Bu biçarə canım, o ağı gözdər.

---------------------

1.Qırqına-Cavaxetiyada kənd.

Söz tamama yetdi, bəylər Xəstə Hasana əhsən dedilər. Dədə bəy ona belə dedi: "De görüm, sən mənnən nə isdiyirsən? Nə desən verəcəm". O belə deyəndə Xəstə Hasan görəh nə dedi, nə söylədi:

Əzəl bahar, yaz ayları gələndə,
Bülbül sitəminnən gül azad olar.
Nəşəsinnən ayrı tüşən kimsələr,
Şana dəyməmişdən tel azad olar.

Al-yaşıl geyinif gəlinlər-qızlar,
Sürmələnif qaş-kirpihlər, o gözdər,
Gəlməsə durnalar, ötməsə qazdar,
Üzməsə sonalar göl azad olar.

Xəstə Hasan xonçaların xonçası,
Könül evi övliyalar baxçası,
Bu gün əziz gündü, bayram gecəsi,
Bəylər sitəminnən qul azad olar.

Söz tamama yetdi. Dədə bəy Xəstə Hasannan soruşdu: "Xəsdə, sən açıx de görüm, kimi azad etdirməh isdiyirsən?"

– Bə bilmirsənmi, mənim qardaşım oğlu Dəli Bayramı günahsız yerə tutuflar, onu deyirəm.

Dədə bəy bunu eşidəndə razı olsa da, o biri bəylər irazı olmadılar. Dedilər şərtimiz var. Gərəh bu kişi Türkiyədən gələn aşıxla deyişə. Bağlasa, sözümüz yoxdu. Xəstə Hasan razı oldu. İş belə olanda Dədə bəy dedi: "Onda sabax gəl, o gələn aşıxla deyişəcəhsən". Xəstə Hasan "yaxşı" deyif qonaxçısı varıydı, onun əvinə getdi. Qonaxçısının özünnən başqa bir qardaşı da varıydı. Həyə, at qulağı kimi iki qardaşıydılar. Bu qonaxçısı olan kişinin uşağı yoxuydu. O biri qardaşı odu ki, öz qızının birini qardaşına əvlətdiyə vermişdi. Həyə, Xəstə Hasan gecəni o qonaxçının əvində qaldı. Sabax açılanda, üzünüzə xeyirri sabaxlar açılsın, ortuya çay-çörəh gətdilər. Əv sahabının sulu qəlyanı varıydı. O, qızını çağırıf dedi: "Ay bala, bir o qəlyanın suyunu təzələ, təzə su içəh". Qız qəlyanı əlinə alıf baxanda birdən qəlyan qızın əlinnən tüşüf qırıldı. Kişi yaman hersdəndi, az qaldı qızı döysün, əmbə Xəstə Hasan qoymadı. Burda Xəstə

Hasan görəh əv sahabına nə dedi. Biz deyəh, sizdərin də canı sağ olsun:

Səhərdən uğradım mən bir gözələ,
Saraldı irəngi, döndü xəzələ.
Özün dedin: "Götür suyun təzələ",
Əldən tüşdü, qəlyan sındı, neyləsin.

Xəsdə deyər nə istərsən bu qızdan?
Tər tökülür al yanaxdan, o üzdən.
Kəs qıymatın pulun alıynan bizdən,
Əldən tüşdü, qəlyan sındı, neyləsin?

Söz tamam yetdi. Xəstə Hasan ordan gəldi bəylərin yanına. Salam verif bir yanda əyləşdi. Dədə bəy dedi: "A Xəstə Hasan, sən Aşıx Ruhaniyi heç eşidifsənmmi?"

– Bəli, eşitmişəm, əmbə hələ üzünü görməmişəm. Deyillər çox kamil aşıxdı.

– İndi, o məclisə gələcəh. Ona yaxşı cavaf versən Dəli Bayramı azad eliyəcəm.

– Mənim bu gözdərim üstə.

Xəstə Hasan sözünü kutaran kimi gördü içəri bir aşıx girdi. O sahat başa düşdü ki, həyə, elə bu Aşıx Ruhanidi. Nolacax, məclis quruldu. Bu vaxt Dədə üzünü Aşıx Ruhaniyə tutuf dedi:

– Aşıx Ruhani, gərəh Xəstə Hasana elə sözdər deyəsən ki, daha nə deyim? Üzdən demə ha!

– Baş üstə,-deyif Aşıx Ruhanı sazını köynəhdən çıxartdı. Zilini zil, bəmini bəm eliyif basdı sinəsinə görəh Xəstə Hasana nə dedi. Deməyi bizdən, eşitməyi sizdən:

Aradım, yoxladım könül şəhrini,
Gördüm bu könlümdə yenə dörd qaldı.
O dərddən birini qaldırıf atdım,
Baxdım güşəsində genə dörd qaldı.

**Aldı Xəstə Hasan:**

Yaradan yaradıf cümlə cahanı,
Nişangahı dörd qıvladı, dörtdü, dörd.
Salamat çəkilif qurdu dünyanı,
Abu-ataş xaki-bad da dörtdü, dörd.

**Aldı Aşıx Ruhani:**

Oxudum, oxudum mətləbə yetdim,
Bir bəzirgan tafdım yarısın satdım.
İndi də o dördün ikisin atdım,
Baxdım gerisində genə dörd qaldı.

**Aldı Xəstə Hasan:**

Yox bir yerdən xəlq elədi insanı,
Məleykələr endi, çəhdi qələmi.
Məhəmmədə gəldi haqqın səlamı,
İncil, Tövrat Zabur, Quran dörtdü, dörd.

**Aldı Aşıx Ruhani:**

Ruhani der, bu sözdəri alana,
Eyvallah var bu işdəri bilənə.
Üçün atdım, birin aldım qələmə,
Baxdım guşəsində genə dörd qaldı.

**Aldı Xəstə Hasan:**

Dövr edib bu dünya dönər, ha dönər,
Bir gün olar çıra[1] bəndindən sönər.
Ay Xəsdə sinəsinə əzrayıl çökər,
Dörd kimsə aparar yenə dörtdü, dörd.

Söz tamama yetdi. Hamı Xəstə Hasana əhsən dedi. Dədə bəy əmr elədi ki, o sahat Dəli Bayramı azad elədilər, gəldilər Xəstə Hasanın yanına. Xəstə Hasan qardaşı oğluynan görüşdü, əmbə ürəyi doluydu. Görəh burda nə dedi, nə söylədi. Biz deyəh, sizdərə də can sağlığı, uzun ömür:

Abı çeşmin çaylarında
Ördəh birdi, qaz da birdi
Süsən-sünbül, tər bənövşə,
Bülbül ötər, yaz da birdi.
Vaqif hər dərtdən qanandı,
O gövhərin qıymatı yox,
Qul Qaranı qərəz eylər.
Aşıx Ömər sözdə birdi.

---------------------

1.Çıra-çıraq.

Qurbanı haqq aşığıdı,
Daima o haqdan sökər.
Çöllü Fəldan qələm alıf,
O xətdinə bir xaz çəkər.
Qul İsmayıl baş tacıdı,
O cananı candan əkər.
Aşıx Polat kamil usda,
Dəli Tamı sazda birdi.

Molla Xəlil həvəs ilə,
İşdi eşqin badasını.
Gövdadı da bir dəryadı,
Keşməh olmaz adasını.
Ruhanıya haqq verifdi,
Onnardan ziyadasını,
Kərəm yandı eşq oduna;
Od da birdi, köz də birdi.

İşdim eşqin badasını,
Həm oxuyan, həmi yazan.
Belə getməz bu zamana,
Vallah düzələcəh əyyam.
Min iki yüz on dört sənə,
Tarixim yoxdu ku, sayam.
Yüz min aşıx gəldi getdi,
Xəstə Hasan yüzdə birdi.

Söz tamama yetdi. Dədə bəy Xəstə Hasana yaxşı xaşdıx verif yola saldı.

## XƏSDƏ HASANIN DAŞDIQULLAR SƏFƏRİ

Aşıx Poladın Gürcüsdanın Daşdıqullar kəndində bir toy işi varıydı. Həmin toyun sabahı Aşıx Polada bir az da qohum adamıydı, həmi də aşığın maması qızı Salatın oğlan yengəsiydi. Qız yengəsi də Hürüydü. Həyə, indi sizə hardan xavar verim Xəsdə Hasannan. O ilisi əkin yerrərini dolu döydüyünnən Axılkələhdə taxıl yaxşı olmamışdı. Oydu ku, hərə özünə taxıl təda-

rükü görməh üçün bir iş görməliydi. Həyə, Axılkələyin Levis kəndində Pıçan adında bir kişinin iki boyun öküzü, bir dəmir mazılı öküz haravası varıydı. O, özünə beş nəfər adam yoldaş götürdü. Belə qərala gəldilər ki, Gorarxınnan qarğıdalı almağa getsinnər, əmbə atası Xəsdə Hasanı Pıçanın yanına qoşdu, beşiydilər, oldular altı. Hərəsi bir çuval götürmüşdü ki, bu yalan olmasın, 10 put arpa tutardı. Nolacax, yol tədarükü götürüf yola düşdülər. Dörd-beş gün yol gəlif çatdılar Daşdıqullar kəndinə. Elə sabax vədələriydi, tezdəniydi. Gördülər, əyə, kətdə toydu, səs gəlir. Kəndin qırağında harabıyı əylədilər. Beş kişi getdi kəndə yetih olmağa, bəlkə istədihləri elə Daşdıqullarda var, bir də Gorarxına getmiyələr. Əmbə Xəsdə Hasan harabanın yanında qaldı. Xəsdə Hasan gecə heç yatmamışdı deyin yornux tüşmüşdü. Yuxusu gəldi. Gün xeyli qalxanda çuvallardan bir-ikisini harabanın içinə sərif uzandı, üstünə də çuvallardan bir-ikisini örtdü, yuxu Xəsdə Hasanı apardı, əmbə öküzlər eləcə boyunduruxda yatışırdı. Elə ki, bir az isti düşdü, öküzdər ayağa qalxdılar, eləcə harabalı-zadlı gəlif bir kişinin əkin yerinə girdilər. Bu yerdə yaxşı taxıl gəlmişdi. Öküzdər taxıla girişdi, nə girişdi. Beçara Xəsdə Hasan da yuxuda, nə bilsin ki, nə oldu? Həyə, əmbə əv sahabının bir qızı varıydı. Oydu ki, atası yerə baxmağı ona tafşırmışdı, əmbə qız günüqara da qızdara qoşuluf toya getmişdi. Əmbə öküzdərin yerə tüşdüyünü, taxılı xaraf elədiyini görən olmuşdu. Onnardan biri bunu toyda yerin sahabının qızına xavar verdi. Qız üş-dörd qıznan ordan düz əkin yerinə gəldi. Gördü nə, öküzdər yerdə yerrih qoymuyuflar, yedihlərini yeyif, yemədihlərini ayaxlıyıflar. Əmbə belə baxdılar, əyə, haravanın içində bir adam yatıf, hay-küy saldılar. Xəsdə Hasan oyandı. O yan, bu yana baxdı, qızdarı gördü. Qızdar onu daşa tutdular. Sonra onnardan biri qızdara işarat elədi, durdular, o dedi:

– Ay oğlan, sünnüsən, şiyə?

– Musurmanam, a qızdar, sinəmə bir-iki xana söz gəlif, qulax asın, deyim.

İndi görəh burda Xəsdə Hasan qızdara nə dedi, tərəfinnən ərz eliyim, sizlərin də canı sağ olsun:

Üş-dörd gözəl irast gəldi aranda,
Qadir Allah, saxla, necə cannıdı?

Canı yanmış bir-birinə oxşuyur,
Bilmirəm şiyədi, yoxsa sünnüdü?

Xəsdə Hasan belə deyəndə qızların bir-ikisi qaş-gözünə tumar çəhdi, əmbə yer sahabının qızı genə Xəsdəyi daşa tutdu. Onda beçara Xəsdə Hasan görəh sözünün o biri xanasında nə dedi:

Birisi bəzənif ala-uqumaşa,
Biri vəsmə yaxır o qələm qaşa,
Birisi əyilir kəsəyə-daşa,
Birisinin səri çox dumannıdı.

Qızdar belə olanda dedilər; gəlin soruşax, görəh bu, özü haralıdı? Biri dedi: Mən bunu tanıyıram, İmirhasannıdı, bunnarın peşəsi odu onun-bunun yerini otaralar. Həyə, genə Xəsdə Hasana bir-iki daş atdılar. Xəsdə Hasan görəh genə nə dedi:

Biri çalmasını əyri calayır,
Biri yavaş-yavaş yaxın gələyir.
Biri o birinnən xavar alayır,
O da xavar verir, İmirhasannıdı.

Biri deyir:-bu Xəsdiyi vurayım,
Biri deyir:-qol-qənədin qırayım,
Biri deyir: gəl nəslini sorayım,
Biri o birinnən yek kamallıdı.

Söz tamama yetdi, əmbə qızdar Xəsdə Hasanı genə daşa basdılar, əmbə bu vaxt həmin yerin sahabına xavar getdi ki, belə-belə: a Məhəmmət kişi, sənin o qızın 15 yaşındadı, bə ayıf dəyilmi yoldan gəlif-keçəni daşa tutur? Məhəmmət bunu eşidəndə yaman acıxlandı: "Gərəh o qızı öldürəm, məni el içində biyavır elədi". Kişi hersdi-hersdi düz gəldi orya. Qız atasını görəndə dedi: "Ata, bax gör, bu adam yeri nə günə salıf. Yerdə idara qalıfmı? Məhəmmət istədi Xəsdə Hasanı döysün, əmbə belə baxdı, ona çox qanı qaynadı, odu ku əli gəlmədi. Əmbə Məhəmmət onu əvinə apardı. Yolda gördü əyə, Xəsdə Hasan qorxur. Dedi: "A bala, heş qorxma. Dünya dağılmıyıf ha, öküz-

dər yerə tüşmüşdü, tüşmüşdü. Oluf keçif. Əmbə mən səni əvə aparıram bir istikan çay iş, bir tikə çörəh ye, yoldan gəlirsən, yol adamısan. Ona kimi yoldaşların da gələr“. Xəsdə Hasan dillənmədi. Həyə, indi sizə xavar verim Pıçangildən. Əyə, bunnar qarğıdalıyı da alıf qoymuşdular bir yerə. Gəldilər ki, harabıyı aparıf getsinnər. Gördülər, nə... Nə Xəsdə Hasan var, nə harava. Harava tapılmadı, nə də Xəsdə Hasanı görmədilər. Nolacax, axırda bir nəfər onnarı Məhəmmətgilə gətirdi. Gəlif gördülər ki, Xəsdə Hasannın qavağında çay-çörəh. Pıçanın ona acığı tutmadımı:

– Sənin belə dostun varıydı, bizə niyə demirdin, hay?!

Əmbə Xəsdə Hasan başına gələnnəri yoldaşlarına danışdı. Onnar istədilər yerə dəyən ziyanı pulnan ödəsinnər, əmbə əv sahabı razı olmadı. Əv sahabı Xəsdə Hasannın adını eşidən kimi xavar aldı kı, bu, o adamdı? Dedilər: bəli, Xəsdə Hasan budu. Məhəmmət çox şad oldu, dedi: isdiyirəm bunu məclisə aparam. Aşıx Poladdan icaza alaram, bir-iki söz də bu deyər. Razısınızmı? Onnar buna razı oldular, əmbə Pıçan qaş-göznən Xəsdə Hasana qandırdı ki, bax, əməlli dur ha, alt olsan yolda öldürəcəm, yox, dov gəlsən, bir boyun öküz sənin. Nolacax. Pıçangil Məhəmmətnən baravar toy məclisinə gəldilər. Məhəmmət məksətini dedi. Aşıx Polad irazılıx verdi. Bir tərəfdə Aşıx Polat, bir tərəfdə Xəsdə Hasan oturdu. Bu vaxt yengələr oyuna çıxdılar. Bəri başdan dediyimiz kimi, onnarın biri Hürü, biri Pəriydi. Görəh burda Aşıx Polat sazı bağrına basıf nə dedi, biz deyəh sizin canınız sağ olsun:

Bir mələh paltarın geyən yengələr,
Gətirin ayağa gəzən oynasın.
Kərəm kimi saldı məni odlara,
Dərdimə bir dərman yazan oynasın.

**Aldı Xəsdə Hasan:**

Bir mələh donunu geyən yengələr,
Gətirin, daldadan baxan oynasın.
Yanağı gülüstan, özü beçasdan,
Qoynu müşkü ənbər qoxan oynasın.

**Aldı Aşıx Polat:**

Əyninə geyifdi zər nimtənəni,
Daha bəyənmillər heş kimsənəni,
Döşdüyüf dəstinə altun tənəni,
Ağ puxax altınnan düzən oynasın.

**Aldı Xəsdə Hasan:**

Pəri tək geyinif, Hürü tək gəzər,
Aşnasın görəndə gözdərin süzər.
Tərlan tək ötüşər, sona tək süzər,
Ağ əllərə xına yaxan oynasın.

**Aldı Aşıx Polad:**

Könül quşu heş yenməzdi havadan,
Mən Poladı unutmuyan duvadan.
Şux məmələr baş verifdi yaxadan,
Ömrümün binasın pozan oynasın.

Söz tamama yetdi, əmbə Aşıx Polat çox hirsdəndi. Pəriyə acığı tutdu ku: "Sən yağın Xəsdiyə işaraynan addarınızı qandırdın". Pəri heş nə demədi. Aşıx Polat ayağa qalxıf, Pəriyi o biri otağa aparıf belə tafşırıx verdi:

– Get, kətdə Salatın addı yetim bir qız var. Onu bəzə-düzə, gəti məclisə. Görüm bu tapa biləcəhmi? Deyillər haqq aşığıdı. Tafsın görüm, necə tapır.

Pəri iki daşın arasından deyiləni elədi. Salatını bəziyif, düzüyüf məclisə gətirdi. Aşıx Polat işarə elədi, Salatın çıxıf oynamağa başdadı. Burda görəh Xəsdə Hasan ona nə dedi, ərz eliyəh qulluğunuza:

Təzədən bir gözəl çıxdı aləmə,
Al yanağa, gül buxağa maşallah.
Onun gözəlliyin aldım qələmə,
Bədir sufat, ay camala maşallah.

İsmin mələkmidi, yoxsa Salatın?
Xətəmin zərnişan, sarması altın.
Qaldır niqabını, aç güləbatın,
Dal gərdəndə sarı telə maşallah.

Xəsdə pir əlinnən içifdi badə,
Gözəllər əlinən gedərəm bada,
Daha tə'rif olmaz bunan ziyada,
İndi baxdın gülə-gülə, maşallah.

Söz tamam oldu, əmbə Aşıx Polat necə ki, hersdənmişdi, bir o qədər də hersdəndi. Odu ku dedi:

– İndi, a Xəsdə Hasan, saa üş kəlmə kıfılbət deyəcəm.

– Buyur.

Burda görəh Aşıx Polat götürüf nə dedi. Biz deyəh, sizin canınız sağ olsun:

Eşit sözdərimi, ay kamil usda,
Bu meydana gələn başı-can verər.
İltifa eləyif sən versən cavav,
Məclis əhli saa xoş nişan verər.

**Aldı Xəsdə Hasan:**

Al cavavın deyim, ay kamil usda,
Maa dərsi ol Şahi-Mərdan verər.
Bir zərbə göstərrəm ürüzgahına,
Gözdərinnən yaş yerinə qan verər.

**Aldı Aşıx Polat:**

O nədi ki, gedər-gələr, izi yox?
O nədi ki, söhbəti var, özü yox?
O nədi ki, cəsəti var, gözü yox?
Nəyi gələr ölkəmizə san verər?

**Aldı Xəsdə Hasan:**

O balıxdı gedər-gələr, izi yox,
O yalandı söhbəti var, özü yox.
Oruş-namaz cəsəti var, gözü yox,
Adı gələr ölkəmizdə san verər.

**Aldı Aşıx Polad:**

O kimdi ki, ilqarında durmadı?
O kimdi ki, zövqü-səfa görmədi?
O kimdi ki, 3 ay ömür sürmədi?
Öz kəfənin özgələrə don verər?

**Aldı Xəsdə Hasan:**

Harın, Qarın ilqarında durmadı,
O qatırdı zövqü-səfa görmədi,
İpəkqurdu 3 ay ömür sürmədi,
Öz kəfənin özgələrə don verər.

**Aldı Aşıx Polad:**

Aşıx Polat bu sözdərə usdadı,
Həm usdadı, zarıncıdı, xəsdədi.
Yerin altda, sular nəyin üstədi?
Nəyin üsdə durar, nəyə san verər?

**Aldı Xəsdə Hasan:**

Xəsdə Hasan bu sözdərə ustadı,
Həm ustadı, zarıncıdı, xəsdədi.
Yerin altda su da hava üsdədi,
Hava üsdə duruf haqqa san verər.

Söz tamama yetdi, nobat Xəsdə Hasana keşdi, indi də o sözə başdadı:

Başına mən dönüm, ay kamil usda,
Canım usda, sözdərimə cavav ver.
Niyə qəmlənifsən, qalıfsan yasda?
Canım usda, sözdərimə cavav ver.

Bu sözdəri eşidəndə Aşıx Polat güldü, dedi bu heş nə.

**Aldı Aşıx Polat:**

Al cavabın deyim, ay kamil usda,
Ver suvalı, al cavavı deyirəm.
Nə bir kədərdəyəm, nə də yasdayam,
Ver sualı, al cavavı deyirəm.

**Aldı Xəsdə Hasan:**

Kimin hümmətisən, kimin qulusan?
Xeyrini-şərini kimnən bilisən?
Kimin məssəvində namaz qılısan?
Canım usda, sözdərimə cavav ver.

**Aldı Aşıx Polat:**

Məhəmmət hümməti, haqqın quluyam,
Xeyrimi-şərimi ondan bilirəm,
İslam məssəbində namaz qılıram,
Ver sualı, al cavavı deyirəm.

**Aldı Xəsdə Hasan:**

Bu ilin namazı neçə ürkətdi?
Neçəsi fərzdəndi, neçə sünnətdi,
Neçə iddahədi, neçə qəmətdi,
Canım usda, sözdərimə cavav ver.

Həyə, söz buraya çatanda Aşıq Poladın boğazı qurudu, cavav verə bilmədi, əmbə gözü gəzdi görsün bir fursat tüşmürmü qaşmağa?! Əmbə bunnar Xəsdə Hasana əyan oldu. Görəh Xəsdə Hasan sözünə necə davam elədi:

Xəsdə deyər bu sözdəri açasan,
Axıllısan, ya dəlisən, necəsən?
Yol gəzirsən bu məclisdən qaçasan,
Canım usda, bu sözdərə cavav ver.

Söz tamama yetdi, əmbə Aşıx Polat cavav verə bilmədi. Odu ku, sazını Xəsdə Hasanın qavağına qoydu, əmbə Xəsdə Hasan bunu qəbul eləmiyif deyir:

– Aşıx Polat, bu dediyim dayazıydı, deyirəm birini də deyim, bəlkə aşdın, yaxşı olar.

Görəh burda Xəsdə Hasan götürüf nə dedi:

Sənnən xəbər alım, ay kamil usda,
Cənnətin çırası nə içindədi?
Kim fitə salıfdı, kim çəhdi yağı,
Kim aldı dəsdinə, nə içindədi?[1]

Xəsdə bu sözdəri bilməsə, deməz,
Eşqin dəryasına dalmasa, deməz.
Pirlərdən dərsini almasa, deməz,
Dünyanın ətrafı nə içindədi?

---------------------

1.Burada bağlamanın bir bəndi düşüb.

Genə Aşıx Polad açа bilmədi. Sazı Xəsdə Hasanın qavağına qoydu. Xəsdə Hasan Aşıx Polada dedi: "Sazını götür, sən də yaxşı aşıxsan, hələ neçə belə toylar keçirəcəhsən, əmbə sazını əlinnən almax insafsızdıx olar. Nə oldu, oldu. Səninki səndə, mənimki məndə". Xəsdə Hasanın bu hərəkəti camahatı sevindirdi. Ona bir erkəh bağşdadılar. Dedilər genə bir söz desin. O, burada götürüf belə dedi:

Ay ağalar, fani dünya,
Dövr edib dolana gələr.
Dolanarkən ay ilə gün
O, axır zamana gələr.

Axır zaman kim üçündü?
O zaman sorallar suçun,
Həzrəti İsmayıl üçün
Qoç quzu qurbana gələr.

Dörd kitava qələm çalax,
Bu sözlərdən nəsyət alax.
Axırda imana gələh,
Ər olan imana gələr.

Dünyamız boşalar, dolar,
Gələn gedər, çətin qalar.
Əzrayıl üstünü alar,
Xəsdə sıra sana gələr.

Söz tamama yetdi. Xəsdə Hasannan Aşıx Polat dost kimi, yaxın kimi halallaşıf ayrıldılar. Allah sizdərə də neçə-neçə belə toylar, şənnihlər qısmat eləsin.

## AŞIX QƏRİF HASANIN GÜMRÜ SƏFƏRİ

Gümrüdə Hasanəli addı bir yaxşı usda varıydı. Bu usta məst, çəhmə-filan tikərdi, əmbə Usda Hasanəli yaxşı sinədən deyəniydi. Onun da Əli addı bir dostu varıydı, əmbə usdanın da, dostunun da bir arzusu varıydı: Aşıx Qərif Hasanı görməh, sözdəri-

ni eşitməh. Əmbə dostdar sözdəşif onu da örgənmişdilər ki, aşıx tezdihnən Gümrüyə gələcəh. Gümrüyə yaxın köylərin birində xeyir iş var. Odu ki, usda əlaltdan aşığın dostu Heydarı da arıyıf tapmışdı, hələ ona bir cüt pulsuz-pənəsiz məst, çəhmə də tihmişdi ki, aşıx gələndə ona peşkaş eləsin. Nolacax, bir gün Əli xavar eşitdi ki, həyə, aşıx bir-iki günə Gümrüyə gəlir. Buna Usda Hasanəli çox sevindi, dedi:

– Mən belə fikirrəşirəm ki, qavaxcax özümü qanmaz yerinə qoyum, əlbət ki, ona məst-çəhmə lazım olacax. Həyə, dediyim kimi eləsəm, o elə buradaca söz deyəcəh, bu yaxşı olar. Əmbə sən göz-qulax ol, gələn kimi onu dilə tutuf yanıma gəti. Bunnan sonra işimizi bilərih.

Əli heş nə demiyif dostunnan ayrılanda birdən yolda boylubuxunnu, əmbə yaşdı bir kişiynən rasdaşdı. Əyə, belə baxdı, gördü kişinin çiynində saz da var. O sahat bildi ki, bu elə Aşıx Qərif Hasandı. Ona salam verif dedi:

– Aşıx, sən bizim şəhərə xoş gəlifsən. Bəlkə məst-zada ehtiyacın ola, de.

– Sən usdasan?

– Yox, bu yaxında yaxşı bir usda var.

– Elə mən də usda axtarıram da. Əlimdə bir xeyir iş var. Gərəh sabax tezdən maa bir dəst məst, bir də çəhmə hazır ola.

– Gəl gedəh, usda hazır eləsin, gedəh.

Onlar baravar içəri girəndə Usda Hasanəli çox sevindi, əmbə, bunu üzdə görsətmədi.

Aşıx Qərif Hasan ona dedi:

– Ay usda, maa sabağa bir cüt məst, bir də bir cüt çəhmə lazımdı.

– Əmi, bir dayan görəh, qaçhaqaç dəyil ha. Bir-iki günə tikərəm. İndi heş halım yoxdu.

– Usda, sonra peşman olarsan.

– İşə tüşmədih, a kişi, xata-zad dəyilsən ki...

– Deyəsən, məni tanımırsan axı.

– Əşi, qoca kişisən, mən nə bilim, dərvişsən, qələndərsən, nəsən. Sənin nəyini tanımalıyam.

– Ay usda, axlın yoxdu, başa tüşdüm. Bə gözdərin də kordu? Yanı bu boyda sazı görmürsən? Görmürsən mən aşığam?

– A kişi, bu yaşında eşqəmi tüşüfsən?

Əyə, Qərif Hasan gördü, balam bu usda çox qabırğası qalının biridi. Odu ki, dinməzcə sazını çıxardıf basdı bağrına, bir beşdih qızıl da qoydu usdanın qavağına:

– Usda, bu sənin haqqın. Əmbə sinəmə üş-dörd xana söz gəlif, gərəh onu deyəm.

– Əmi, qoy işimi görüm.

– Qulax as, işini sonra görərsən.

Həyə, indi görəh Aşıx Qərif Hasan usduya nə dedi:

Məstimin altı yox, yannan yanı yox,
Bir cüt məst hazırra, bir az tez, usda.
El-el dolanıram, köy-köy gəzirəm,
Keçirəm dağ-dərə, neçə düz, usda.

Üstümə qonufdu yolların tozu,
Haqqımı tafdama, olmam irazı.
Salaram dillərə, sən yaramazı,
Dərdini artırram, olar yüz, usda.

Söz buraya çatanda usda aşığa dedi:

– A kişi, sən kimsən, maa qaraqorxu gəlirsən, yaramaz deyirsən. Deyirsən, adam çağırıf səni eşiyə çıxartdırım?

Aşıx Qərif gördü əyə, bu usda onu laf təhqirə keşdi. Odu ki, dedi:

Neynirsən mən kiməm, gəl al pulunu,
Boş-boş danışınca işlət əlini.
Elə söz deyərəm qırar belini,
Tutma əyriliyi, gəl ol, düz, usda.

Belə deyəndə usda güldü.

– A kişi, sənin işin-gücün yoxdu, maa axıl verirsən. Sən Allahı sevirsən, çıx get, iş adamıyam, qoysana kasıfçılığımı eləyəm.

– Qulax as, gör nə deyirəm.

Utanmaz-utanmaz gülərsən necə,
Özün öz bəlanı dilərsən necə.
Qoyuna dönərsən, mələrsən necə,
Saa lazım gələr, kəsəm küz, usda.

Deyəsən atıfsan dini-imanı,
Yaxşı aş gözünü, Hasanı tanı.
Maa hörmət qoyar vilayət xanı,
Çəvirirsən yana niyə üz, usda.

Söz tamama yetən kimi Usda Hasanəlı dedi:

– A kişi, mənim də adım Hasanəlidi, əmbə mənnən adaş olduğuna görə saa axşama qədər bir cüt məst tikərəm, yaxşı pul versən.

– Necə? Bə bayaq verdiyim nəydi?

– A kişi, şərrəmə görüm. Nə pul, hansı pul?

Əmbə usda gördü, əyə, aşıx çox hersdəndi, tez sözünün başını çəvirdi:

– Bağışda, sən Allah,  a kişi, pul verifsən. Yadıma tüşdü, civimə qoymuşam, əmbə sən Allah qoy bir çörəh yeyim, acınnan ölürəm. Əlbət ki, isdəsən sən də ye.

Usda belə deyif təzə aldığı mizi o biri otaxdan ortuya gətdi, əmbə xeylax adam yığılmışdı. Aşıx Qərif Hasan sazını sinəsinə basdı, görəh usduya nə dedi:

Köhnələr, şaxşıyar, gedər irəngi,
Təzəcə aldığın miz belə qalmaz.
Nə qolun-qamətin, nə ipin-sapın,
Nə də əlindəki biz belə qalmaz.

Mənim tək tökülər əyinin-başın,
Axar gizdin-gizdin qəlbə göz yaşın.
Yetmişə, səhsənə çatıncax yaşın,
Titriyər, əlbət ki, diz belə qalmaz.

Vaxt gələr, dərd çəkər, ahnan dinərsən,
Qərif Hasan deyər göydən yenərsən.
Fələyin əliynən heçə dönərsən,
Özünnən-sözünnən iz belə qalmaz.

Söz tamama yetdi, əmbə usda özünü elə görsətdi ki, guya söz buna əsər eləmədi. Oturuf əməllicə, ağzını marçıllada-marçıllada yeməyə başdadı:

– A kişi, gəl, sən də ye, doyum sonra...

Aşıx bu sözdərdən çox acıxlandı. Gördü, əyə bunun gözləri məşəl kimi yanır. Bığları kal buynuzu kimi dih duran bu usda heş qanıf-qandırmır axı. Odu ku, görəh burda aşıx nə dedi:

Necə girişifsən çörəyə-çaya,
Surfa, hörmət-izzət görməmiş oğlu.
İllərin acısan, yalavacısan,
Çəkirsən nə ləzzət görməmiş oğlu.

Yeyirsən-içirsən qaramal kimi,
Sonra hallanırsan tüşüf çul kimi.
Çökərsən qarşımda qara qul kimi,
Görərsən əziyyət görməmiş oğlu.

Aşıx Qərif Hasan həssas, duyuxdu,
Baxışın buz kimi, qəlbin soyuxdu,
Bığın kəl buynuzu, gözün qıyıxdı,
Sənsən qaraniyət, görməmiş oğlu.

Söz tamama yetdi, Usda Hasanəli ayağa qalxıf gəldi aşığın qavağına, əlinnən öfdü:

– Deməh sən Aşıx Qərif Hasansan?

– Hələ də qanmadın?

– Yox, aşıx, bəyən istədihlərini götü.

Usda üş-dörd cüt məst, çəkmə onun qavağına qoydu, əmbə aşıx heş nə götürməh istəmirdi, usda çox minnət elədi. Aşıx bir cüt məst, bir cüt də çəhmə seşdi. Onnarı ayağına çəhdi, gördü, əyə, bunnar elə onun ayağı üstündə tikilif. Bunnarı çıxardıf xurcuna qoydu, əmbə usda aşığın pulunu da geri qaytardı, əmbə bu əhvalat da unudulmadı. Dildən-dilə keçif bizə də çatdı.

## DİZAYNALI MƏHƏMMƏDİN USDA ALLAHYARNAN GÖRÜŞÜ

Ağbavıya bir gün hay tüşdü. Bə deməzsənmi Axılkələhli bir pəlivan Ağbavıya güləşməyə gəlir. Bu pəhlivan da kim ola, kim olmuya, addı-sannı Dizaynalı Məhəmməd pəlivan... Nolacax,

xavar tüşdü Ağbavanın addı ağaları yığışdılar Çivinniyə. Çünkü pəlivan orya gələcəhdi. Burda kimlər yoxuydu, a başınıza dönüm. Mən deyim, siz sayın. Bax, Təzə İbişdən Hamza ağa, Ağsakkal Vəli, Məşədi Qurvan, Göllüdən Murtuz ağa, Mustafa, canım saa desin, Daşkörpüdən Cəfər bəy, Sağamoydan, yanı Axılkələh tərəfdən Asdan ağa, Qöncalıdan Əhməd ağa, Xozudan Əsgər ağa. Vallah, billah, saymaxnan kutaran deyil. Civinnidə də Məşədi Rustam, Məşədi Hasan, Cıvreyil ağa bir yaxşı yerdə əyləşmişdilər. Elə bu məclisi düzəldən də onnarıydı. Həyə, toyçular da gəlmişdi. Həyə, elə günorta vaxtdarıydı, gördülər budu bir fayton, dalıncax da 2-3 gəlgəl harabası budu gəlir. Nolacax, yox olsun yoxsulluğu, tez Məşədi Rustam görsədiş verdi, istəhli qonağın ayaxları altında bir qurban kəsdilər. Əmə Dizaynalı Məhəmməd çox boylu-buxunnu, göyçəh adamıydı. Bığları kal buynuzu kimi dih dururdu. Pəlivan pütün ağa-bəylərnən, yanı məclis əhliynən görüşdü. Onu da deyim ki, meydan çoxdan silif-süpürülmüşdü. Pəlivan paltarını çıxartdı, yanı qurşağa qədər soyundu. Nolacaxdı, yayın günü, hava xoş... Həyə, Dizaynalı Məhəmməd bir o yana, bir bu yana getdi, qollarını yellədi. O yan, bu yana gedif-gəldihcəh elə bil bədəni şişir, yekəlirdi. O, beləcə xeyli var-gəl elədi. Birdən üzünü zurnaçılara tutdu:

– Bir "Güləşhəngi" çalın görüm.

Qara zurnanın səsi dağa-daşa tüşdü. Pəlivan meydanı dolanmağına davam elədi, meydanına adam istədi:

– Kim gücünü sınamaq istiyir gəlsin meydana.

Qabaxcax cavannardan biri qalxıb meydana çıxmax istədi, əmə Məşədi Hasan qoymadı:

– Saa olmaz, a bala. Sən hələ çox cavansan, ağrın alım. Kəl qavağına kəl çıxar.

Məşədi Hasan sonra Məşədi Rustama dedi:

– Nə deyirsən, kim çıxsın meydana.

– Kim olur-olsun, əmə bizim kəntdən olsun. Axı məclis, yığnağ burda quruluf.

– Onda Usta Allahyar öz gücünü sınıyar bu meydanda. Nə deyirsən buna Usta Allahyar?

Usta Allahyar Məşədi Hasanın suvalına "həyə" deyif irəli çıxdı. O da qurşağa qədər soyundu. Sonra meydana girdi. Pəlivannar əl verif görüşdülər. Görəh burda Dizaynalı Məhəmməd

Usta Allahyara nə dedi. Biz deyəh, sizin də gözünüz xata-bala görməsin, canınız sağ olsun.

**Aldı Dizaynalı Məhəmməd:**

Ər iyiddər diyarıdı Ağbava,
Asdan kimi bu meydana gəlmişəm.
Ya yıxaram, ya yıxıllam, nə olar,
Mən qıymışam şirin cana, gəlmişəm.

**Aldı Usta Allahyar:**

A pəlivan, sən bu elə xoş gəldin,
Ər-ər ilə döşə gəlsə, əl verər,
İyid olan ucalıxdı yurduna,
Qədirini-qıymatını el verər.

**Aldı Dizaynalı Məhəmməd:**

Əlli yaşı haxlamışam bu sənə,
Tay olmayuf neçə-neçə ər maa,
Ulu tanrı verif uca yer maa,
O səbəfdən ətə-qana gəlmişəm.

**Aldı Usta Allahyar:**

Dəli-dolu, meydan açan qara nər,
Mən cavanam, sən ixtiyar, qoca ər.
Kimsədə yox səndə olan bu hünər,
Saa cavav məni kimi kal verər.

**Aldı Dizyanlı Məhəmməd:**

Məhəmmədəm dizim yerə gəlmiyif,
Tüşməmişəm, kimsə maa gülmüyüf,
Güləşməyə heş həvəsim olmuyuf,
Nərə təpif yana-yana gəlmişəm.

**Aldı Usta Allahyar:**

Allahyaram dizin yerə gətirrəm,
Bu güləşi kişi kimi bitirrəm.
Pəlivan yox, usta adın götürrəm,
Bir bulağam - suyum çağlar, sel verər.

Həyə, mənim əzizdərim, söz tamama yetdi. Pəlivannar tutuşdular, nə tutuşdular. O bunu çəhdi, bu onu çəhdi, birdən Usta Allahyar bir dəli nərə çəkif Dizaynalı Məhəmmədi yerə çaxdı. Hamının gözü qabağına Dizaynalı Məhəmmədin dizi yerə gəldi. Əmə qoca pəlivan asdan kimi sıçrayıf qalxdı, əmə olan olmuşdu. Qoca pəhlivan bir də meydanı dolansa da, Usta Allahyar meydannan çıxdı, dedi:

– Güləşə bilmirəm, daha bəsdi.

Bunnan heş kəs bir şey annamadı. Məclis dağılannan sonra Dizaynalı Məhəmməd soraxlaşıb Usta Allahyarın əvini tafdı, onnara gəldi. Nolacax, Usta Allahyar qonağı çox yaxşı qarşıladı, bir erkəh kəsdi. Əmə qonax Usta Allahyara mat qalmışdı. Ona bir xeyli baxdı, baxdı dedi:

– Ayə, belə cavan olasan, əmə belə ədəfli olasan. Sinəmə bir-iki xana söz gəlif, deyim, əmə meydannan çıxmağın hələ də məni mat qoyuf, hər nəysə.

İndi görəh Dizaynalı Məhəmməd Usta Allahyara nə dedi: yetirəh quluğunuza, sizin də canınız sağ olsun.

**Aldı Dizaynalı Məhəmməd:**

Fursat səndə, annamadım bu işi,
Məni bunan agah elə, Allahyar.
Kürəyimi yerə vura bilərdin,
Aydın danış, aydın söylə, Allahyar.

**Aldı Usta Allahyar:**

Güləşməyə daha halım qalmıyıf,
Tutuşmuşdux, aralaşdıx, bəs olsun.
Əl verərəh yaxşı-yaxşı görüşdüh,
Nəyə lazım haray tüşsün, səs olsun.

**Aldı Dizyanlı Məhəmməd:**

Tərk elədin niyə elə meydanı,
Demədinmi güldürərsən şeytanı.
Özünə bax, bir özünü öy, tanı,
Ayağını bir az əylə, Allahyar.

**Aldı Usta Allahyar:**

Sən ki, ərsən dinlə ərin sözünü,
Addı kişi itirməynən özünü.
İşin bildin əyrisini-düzünü,
Kim istəyir aralıxda pis olsun.

**Aldı Dizyanlı Məhəmməd:**

Məhəmmədəm hax dalıncax gedərəm,
Mən bu yolda düz qılınca gedərəm.
Bədən üstə baş qalınca gedərəm,
Oturaram xanla-bəylə, Allahyar.

**Aldı Usta Allahyar:**

Allahyaram mən cavanam, sən qoca,
Mən alçağam, sən ulusan, çox uca.
Dağ əyilməz aşağıya-yamaca,
İstər başı duman olsun, sis olsun.

Söz tamama yetdi. Usta Allahyar Dizyanlı Məhəmmədə belə dedi:

– Burda heş bir sirr yoxdu. Sən adlı bir pələvansan, mən usda. Yaşının bu vədəsində güləşirsən. İndi addı-sannı bir kişiyi yerə vuruf xəcil eləmək kişilihdən döyüldü heç. Sən böyühsən, mən kiçih. Böyüyə həməşə hörmət eliyəllər.

Bu sözlər Dizaynalı Məhəmmədə çox xoş gəldi. O, ayağa qalxdı çəkif Allahyarın alnınnan öfdü, Allahyar da onun əllərinən öfdü. O günnən sığa qardaş oldular, sizdərin də günü xoş keşsin, əzizdərim.

## QAÇAX İSGƏNDƏRİN ÇAMÇAVUŞ SƏFƏRİ

Mürsəl ağa adında Qarsın Çamçavuş köyündə varlı-hallı bir ağa varıydı. Ağanın da gözünün ağı-qarası bir evladı Güllü idi. Güllü gözəlliyinə görə cəmi Qarsda, Çıldırda tanınmışdı. Güllü kimi səvsə yaxşıdı. Yanı, qapı nökəri Mustafanı. Mustafa da Mustafaydı ha. Kasıf olsa da, boylu-buxunlu, qeyratdı bir igiddi. Di gəl ki, Mürsəl ağa qızını ona vermək fikrində deyildi. Yazbaşıydı. Güllü genə Mansırrı bulağın başına lap erkən gəlmişdi.

Qızın bu gəlişinə səbəb Mustafaynan görüşməh, işi yoluna qoymaqdı. Qərəz, səvgililər bulaq başında görüşdülər. Əmə Güllü yaman fikirli görünürdü.

– Nə oluf, a  Güllü, -Mustafa ondan soruşanda Güllü doluxsundu:

– Daha nə olacax. Atam məni saa verməh istəmir. Deyir nökər olan ağa qızı ala bilməz, o getsin tayını tafsın. Bax, məni tüşündürən budu. Gərəh bu işə bir əncam çəkəh.

– Bəs sən nə deyirsən?

– Bircə çara var. Bu günlərdə ağbabalı Qaçax İsgəndər Mansırlı bulağının başına gələcəh. Gərək dərdimizi ona deyəsən. Deyirlər çox mərd adamdı. Bu işi yoluna qoysa, o qoyacax.

– Nə bilim, vallah.

– Ağbabalı Qaçax İsgəndəri bu günnər burada, Mansırlı bulağının başında gözdə. Deyirlər o, bu vədələrdə buraya baş çəkir.

Sevgililər halallaşıb ayrıldılar. Yazıq Mustafa bir neçə gün Mansırlı bulağın başında dursa da istədiyi adam gəlib çıxmadı ki, çıxmadı. Axırda Mustafa "Allaha pənah" deyif növbəti gün bulaq başına gələndə gördü ki, budur xeyli atlı ona tərəf gəlir. Səvindi. Atlılar bulağın başına çatmamış dayandılar, atdan tüşüf atları çıdarıyannan sonra otluğa buraxdılar. Gələnlər yavaş-yavaş Mustafıya yaxınlaşdılar. Qabaqda gələn uca boylu, enni kürəh, bığları kəl buynuzu kimi olan, ağbənizli, üzündən nur yağan kişi Mustafıya salam verdi. Mustafa salamı alannan sonra ürəyində fikirləşdi ki, bu silahlı adamların içində Qaçax İsgəndər deyilən elə bu adam olmalıdı. Odur ki, dedi:

– Başına dönüm, Qaçax İsgəndər, mənim saa bir işim tüşüb.

– Nə işin?

Mustafa diqqətnən baxanda onun çiynində tüfənglə sazı qoşa görüf daha da ürəhləndi.

– Olarmı sözlə deyim?

– Buyur, buyur. Mustafa üzünü Qaçax İsgəndərə tutuf görəh nə dedi:

Başına döndüyüm Qaçax İsgəndər,
Bir dərdə tüşmüşəm, çarası yoxdu.
Fələh kasıflığı yük edif mənə,
Sanıram qəlbimin parası yoxdu.

Dərd-ələm boyuma biçilif belə,
Könlümü vermişəm bir əhli-dilə.
Bir simsar görünmür göz yaşım silə,
Könlümün dəm ilə arası yoxdu.

Mustafa bir an sözünə ara verdi. Gördü ki, hamı ona diqqətnən qulax asır. Öz-özünə dedi ki, gəl yoxsul, pulsuz olduğunu da söylə, bəlkə işıx ucu oldu. Odu ki, aldı sözün axır bəndini.

Yoxsula bəy qızı sevmək yaramaz?
Dilim gödəh oluf, var-dövlətim az.
Sənin yardımınnan alaram muraz,
Yazıx Mustafanın parası yoxdu.

Qaçax İsgəndər ona nə "həyə", nə də "yox" dedi. O, dinməzcə sazını köynəhdən çıxardı. Zilini zil, bəmini bəm eliyənnən sonra basdı sinəsinə, Mustafıyı sınamaq üçün görəh nə dedi:

Nökər olan neynər sevə bəy qızın,
Kasıb kəsə çoban qızı yar olar.
Varrı-hallı yoxsulluğu bəyənməz,
Bu sevdaya düşən eldə xar olar.

Mustafa bu sözləri eşidəndə az qaldı huşunu itirsin. Özünü toxdadıf Qaçax İsgəndərə dedi:

– İcazə versəydin, cavaf verərdim.

– Buyur.

**Aldı Mustafa:**

Elə demə, ürəyimə od vurub,
Bu sevdadan dönsəm mənə ar olar.
Alagözlü, incəbelli Güllünün
Ah-naləsi eldən-elə car olar.

**Aldı Qaçax İsgəndər:**

Sən darıxma, o da gedər birinə,
Dərdi salma ürəyinə, sərinə.
Eşq dəryadı, çox gedərsən dərinə
Can üzülər, axır yerin dar olar.

**Aldı Mustafa:**

Mən razıyam can üzülsün bu yolda,
Baş əzilsin, göz əzilsin bu yolda,
Sinəm üstə dağ düzülsün bu yolda,
Dağ başında duman olar, qar olar.

**Aldı Qaçax İsgəndər:**

İsgəndərəm yaxşı tanı, bil məni,
Çox istəyir buralarda el məni,
Başqa qızla əvləndirim gəl səni,
Yoxsula da yoxsul qızı var olar.

**Aldı Mustafa:**

Sən bilirsən məni bura dərd qovur,
Of deməynən, ah çəkməynən bir hovur.
Mustafayam ürəyimə güllə vur,
Sonra doğra, xəncərinnən yar - olar?!

Söz tamama yetincəh Qaçax İsgəndər Mustafanın alnınnan öfdü.

– Əhsən sənə, igid. Ər belə olar. Özüm sınıyırdım səni. Darıxma, səni məqsədinə yetirərəm. Əmə sinəmə üç xana söz gəlib. Deyim sonra...

Öz yolundan dönmədin sən,
Yetirrəm murada səni.
Ucalıxdan enmədin sən,
Yetirrəm murada səni.

İndi bildim saf ürəhsən,
Elə, obaya gərəhsən.
Sən bizə sevinc-fərəhsən,
Yetirrəm murada səni.

İsgəndərəm, nərəm özüm,
Ər kişiyəm, birdi sözüm.
Ay Mustafa, canım-gözüm,
Yetirrəm murada səni.

Qaçax Kərim də bir daşın üstə oturmuşdu. Qaçax İsgəndərin sazı-sözü onu yaman tutmuşdu. Kövrəlmişdi, özü də necə.

Qaçax İsgəndər bunu o sahat seşdi.

– Kərim, niyə belə bikefsən?

– Heç, elə-belə. Ağbava yadıma tüşüb. Deyirəm görən Ağbavada nə var, nə yox. Ürəyimi bayaxkı oxumaların yaman tərpətdi. Bir o sazı maa ver, deyim indi Ağbava necədir.

– Al.

Qaçax Kərim sazını bağrına basıb görəh nə dedi:

Yaz gəlifdi, qar əriyir,
Axır sellər Ağbavada.
Gül-çiçəh tutuf hər yanı,
Əsər yellər Ağbavada.

Ər igidlər oylağıdı,
Mərdlər yurdu, yaylağıdı.
Məclis qurur, dərd dağıdır,
Ağır ellər Ağbavada.

Bu Kərimin huşundadı,
Dağlar hər gün duşundadı,
İndi bulaq başındadı
Qaratellər Ağbavada.

Söz tamama yetən kimi qaçaxlar atdarı çəhdilər ortuya, atdandılar. Qaçax İsgəndər Mustafıyı tərkinə aldı. Gəldilər Mürsəl ağanın kapısına. Sizə xəbər verim Mürsəl ağadan. Mürsəl ağa əvdən bayıra çıxmışdı. Bir də gördü ki, paho, bir qırxa qədər atdı ona tərəf gəlir. Ağa əvvəl-əvvəl qorxdu, sonra "Allah özü köməh olsun" deyif özünü şax tutuf, irəli yeridi. Atlılar onun yaxınlığında dayandılar. Qaçax İsgəndər əv sahabına salam verif dedi:

– Mürsəl ağa, gərəh ki, məni tanımamış deyilsən. Mən ağbavalı Qaçax İsgəndərəm.

– Niyə tanımıram. Atdan tüşün, içəri buyurun, canım-varım sizə qurbandı.

– Sağ ol, ağa. İçəri gəlməyə vaxtımız yoxdu. Səndən bir is-

təyimiz var.

– Nə istəyirsiniz?

– Qulax as.

Qaçax İsgəndər sazını köynəhdən çıxarıf bağrına basandan sonra görəh Mürsəl ağıya nə dedi:

Elçi gəlmişəm kapına,
Mürsəl ağa, Mürsəl ağa.
Səndən qönçə gül istərəm,
Mürsəl ağa, Mürsəl ağa.

Bülbülü güldən ayırma,
Şananı teldən ayırma.
Özünü eldən ayırma,
Mürsəl ağa, Mürsəl ağa.

Sənə söz deyir İsgəndər,
"Bəli" deyib bizi döndər,
Bir əfəyəm,[1] güclü, öndər
Mürsəl ağa, Mürsəl ağa.

Söz tamama yetdi. Mürsəl ağa başını saldı aşağı. Handan-hana başını qaldırdı.

– Qaçax İsgəndər, qızı Mustafıya verərdim, əmə görənlər maa nə deyəllər. Deməzdərmi bə ağa qızı nökərinmi tayıdı? Deyəllər, bir də qızın Mustafıya heç könlü yoxdu, bu da pis.

– Kasıflıx ayıf deyil ağa, Mustafa boy- buxunda, qeyrətdə ağa oğlanlarınnan əksih deyil. O ki qaldı Güllünün bunu səvib-səvmədiniyə. Onu da bu saat bilərih. Ağa, qızı çağır eşiyə.

– Utanır sizdən.

– Cəld ol, işimiz var.

– Mürsəl ağa çarasız qalıf qızını çağırdı.

– A qız, Güllü, bəri gəlsənə.

Az keşməmiş içəridən bəstəboy, qulaşsaşdı, əsmərüzlü bir gözəl qız çıxdı. Atdıları görüf utandı, başını aşağı saldı. Qaçax İsgəndər sazını döşünə mindirdi. Aldı görəh Mustafayı göstərif Güllüyə nə dedi:

-------------------

1. Əfə - qaçaq

Bir bəri gəl anam, bacım,
Gedirsənmi bu oğlana?
Əlindədir ümid ucu,
Gedirsənmi bu oğlana?

Mənə and işdi bu igid,
Sənsiz bir heşdi bu igid,
Canından keşdi bu igid,
Gedirsənmi bu oğlana?

Qız utandığından qıfqırmızı oldu, bilmədi Qaçax İsgəndərə nə cavab versin.

Qaçax İsgəndər sazla dediyi kimi sözlə də dedi:

– Utanma, onda elə əlinlə sevgilini görsədif başını tərpətsən də kifayətdi.

Güllü bunu eşidəndə bir təhər özünü tofladı. Atasının acıxlı baxışlarını görsə də o, əlinən Mustafıyı görsədif başıynan "hə-yə" dedi.

– Allah mübarəh eləsin, ağa. Bu günnən qızını verirsən Mustafaya, toyunu da özün eləyirsən.

– Baş üstə. Əmə yaxşı olmadı, qonax olsaydın pis olmazdı.

– İnşallah, toyda gələrəm. Mürsəl ağa, salamat qal.

Atlılar atdarını çapıf gözdən itincəh Mürsəl ağa Mustafanın alnından öpüf dedi:

– Görünür tale belə yazılıfmış. Bu günnən əvimin sahabı sənsən. Toya hazırlıx görəh. Qaçax İsgəndərə bələdəm, onun sözü sözdü. Mutlax gələcəh. Gecikərih, kişinin yanında biavır olarıx.

Bu əhvalatdan üş gün keşməmiş toy oldu. Qara zurnanın səsi dağları başına götürəndə birdən-birə 10-15 atdı peyda oldu. Gələnlər Qaçax İsgəndərnən onun qaçax yoldaşlarıydı. Qaçax İsgəndər atdan tüşən kimi Mürsəl ağa ilə qucaxlaşıf öpüşdü:

– Ağa, var ol səni. Kişi sözündə belə kişi olar.

Qaçaxlar yeyif-içənnən sonra gün batmağa az qalmış toy sahabıynan halallaşıf, atdanarax Çıldır dağlarına getdilər.

## AŞIQ NƏSİVİN TƏPƏKÖY SƏFƏRİ

Aşıx Nəsifin yolu bir gün gənə Ağbava kətdərinə tüşmüşdü, məclis quruf, yığnax aparırdı. Bir gün axşam vaxtı, yanı beyvaxt colpasıynan gəldi çatdı Təpəköyə. Colpası ona dedi: "Ay aşıx, gəl o biri kətdərin birinə gedif qonax olax. Onsuz da bu kət elə yolun üstündədi, gələndə dəyərih". Aşıx colpasının acığına dedi: "Yox, mən elə burda qonax qalacam. Özü də xəsiyətimdi, elə kimin əvi irast gəldi, ona qonax olaram. Həyə, bax o yaxın əvdə qonax qalacıx".

– Ay aşıx, o deyillər çox kirnaz adamdı. Burda nə çoxdu yaxşı kişilər. Gedəh birinin əvinə.

Əmə Aşıx Nəsif colpasına acıxlandı:

– Olmaz.

Daha colpa sözü çəvirmədi. Ağ bir, qara iki demədi. Nolacax, gəlif həmin əvin, yanı Aşıx Nəsif deyən əvin qapısını takıllatdılar. Eşiyə bir domuşux kişi çıxdı:

– Nə istəyirsiniz?

– Qonağıx, a qardaş.

Əv sahabı Aşıx Nəsivi tanıdı. Əmə elə can dərdi "gəlin içəri keçin" dedi. Çünkü bu adam kirnazın biriydi. Di gəl ki, Aşıx Nəsifdən qorxurdu. Qorxurdu ki, dilə-tişə tüşüf biyavır ola. Həyə, qonaxlar bir yerdə əyləşdilər. Ancax yemək-işməh heş yada tüşmədi. Üsdəlih əvin arvadı bir dəfə qonaxlara acıxlı baxıf, ərinə gözünü ağartdı, dodağının altında zıtdıyıf, o biri otağa keşdi. Nolacax, yer aşdılar. Ancax insafnan deməh lazımdı, qonaxlara ipək yorğan-döşəh saldılar. Aşıx Nəsif heş bir kəlmə də danışmadı. Beçara colpa yaxşı yeyif-içən adamıydı. Yazıx laf acınnan keçinirdi. Həyə, ajqarına girdilər yatağa. Beçara colpa savağa qədər yatammadı, ajdıx içini yandırırdı. Savağın gözü açılan kimi, Allah həməşə üzünüzə xeyirli savaxlar aşsın, əzizdərim, Aşıx Nəsif duruf geyindi. Sonra sazı çıxarıf basdı bağrına, əv sahabına dedi:

– A kişi, bu hörməti ki, bizə elədin mən də gərəh saa bir söz deyəm, ya yox, qulax as.

Həyə, aldı görəh Aşıx Nəsif nə dedi. Biz deyəh, sizin də canınız sağ olsun.

Yer verdin bir küşdə palaz üstündə,
Bir gün oruc oldum sizdə, ay kişi.
Çox yaxşı olardı burda qalıncax,
Qalaydım kimsəsiz düzdə, ay kişi.

Arvadın it kimi acıxlı idi,
Yanında üzünə lateyir dedi.
Güldürdün üstünə qohumu-yadı,
Tərifin çıxacax gözdə, ay kişi.

Qonağa qıymadın pendir-çörəyi,
Qabırğan qalındı, daşdı ürəyin.
Doludu həm tövlən, həmi mərəyin,
Məni ha qılıxla, üzdə ay kişi.

Sayı yox toyuğun, qazın, cücənin,
Yuxusuz keçirdim bu bir gecəni.
Olmayıf qonağın, gəlif-gedənin,
Sən kişi imişsən üzdə, ay kişi.

Mən Aşıx Nəsifəm, arif bir qoca,
Necə irast oldum sənin təh aca.
Öldün ayax üstə, döndün qaxaca,
Hörmətin varıymış sözdə, ay kişi.

Söz tamama yetdi, əmə əv sahabı ölüf kutardı, başdadı yalvarmağa:

– Bir qələtdi eləmişəm, məni biavır eləmə.

Aşıx Nəsif ona qulax asmadı, əmə arada colpaya bir yüngül dürtmə vuruf güldü:

– Colpa, deyən sənin tərifin qalıf ha, birdən inciyərsən, qulax as.

Colpa istədi yalvarsın, əmə dillənmədi. Aşıx Nəsif sazını bir də döşünə basdı. Üzünü əv sahabıynan colpuya tutdu.

– Əv sahabı elə bu söz saa da çatır.

Görəh aşıx nə dedi. Biz deyəh, siz sağ olun.

Kişi sənin kirnaz əvin yıxılsın,
Düzələrmi bir də halı colpanın.

Diz kəndiri kəsilifdi elə bil,
Çıxıfdı üzünə alı colpanın.

Yeriməyə giri yoxdu neynəsin,
Bunun bir qav doğramaşdı öynəsi.
Bu gördüyün getsin eldə söyləsin,
Tərpəşir üzündə xalı colpanın.

Hersdənifdi, hersi qalıf içində,
Yazıx kişi laf acınnan keçindi,
Var-dövlətin elə şöhrət üçündü?
Nəsif çoxdu, qeyri-qalı colpanın.

Söz tamama yetdi. Aşıx Nəsifgil Xozu köyünə yola tüşdülər.

## AŞIX NƏSİVİN İRƏVAN SƏFƏRİ

Sovet hökuməti qurulannan elə bil Aşıx Nəsivin beli qırılmışdı. Çünki kəntdə-kəsəhdə başıpapaxlı qalmamışdı, birbəbir dənnəmişdilər. Ermənilər quduruf at oynadır, urusdara arxalanırdılar, kişilərə divan tutulurdu, əmə Aşıx Nəsifə heş kəs toxuna bilmirdi. Çünki o haqq aşığıydı. Onun qarğışına gələnə kurtuluş yoxuydu. Elə buna görə də ermənilər də ona toxunmurdular. Əmə bir para adamlar gəlif Aşıx Nəsifə dedilər:

"Ay aşıx, gəl sən bu sovet hökumətini təriflə, söz de. Saa yaxşı baxsınlar. İsdiyirsən gəl bir İrəvana da get. Orda saa yaxşı baxallar". Bu deyilənnər Aşıx Nəsifin axlına batmadı, əmə öz-özünə dedi:

"Dünya ölüm-itim dünyasıdı. Bir dəfə də İrəvana indi getsəm nə olar. Gedim görüm kim ölüf, kim qalıf". Beləcə Aşıx Nəsif yola tadarüh gördü, colpasını da bu işə razı saldı. Bir gün yay vaxtı yola başdadılar. Nolacax, gəzə-gəzə, dincələ-dincələ, məclis keçirə-keçirə gəldilər çıxdılar İrəvan ətrafı kətdərə. Həyə, onnar yolda bir kimsəsiz arvada rast oldular. Arvadın yanında bir balaca 4-5 yaşında oğlan uşağı varıydı, əmə beçara arvad dizdərini qucaxlıyıf yolun kənarında oturmuşdu. Dərdi nəydi görən. Aşıx Nəsif ona dedi:

– A bacı, dərdin nədi.

– Eh, ay aşıx, dərdim böyühdü, deme. Nə deyim, varrı-hallı bir kişinin arvadı indi dilənçi kökünə tüşüf.

Nəsif arvadı səsinnən tanıdı. Bu, addı-sannı, bir bəyin arvadıydı. Oydu ki, sazı köynəhdən çıxartdı, görəh burda arvada nə dedi. Biz deyəh, sizin də canınız sağ olsun.

Hanı gözəlliyin, toyun-büsatın,
Bu nə güzarandı belə, bəy qızı.
Hanı addı-sannı, ərin, qaynatan,
Söz aç, bir az söhbət elə, bəy qızı.

Kəndin kişiləri görünmür niyə,
Dolanır müsəlman qəm yeyə-yeyə.
Çoxu "urra" çəkir, tüşüfdü küyə,
Olufdu urusa kölə, bəy qızı.

Əzəlki surfalar açılmaz, yoxdu,
İndilər acınnan ölənnər çoxdu.
Qaxdağan[1] deyilən kökəlif, toxdu,
Dönüf göz yaşdarı selə, bəy qızı.

Şuranın gəlişi dərtdi-bəladı,
Dağ-daşı əl-əlvan qana bələdi.
Gijdərin, səylərin kefi əladı,
Getdi var-dövlətin yelə, bəy qızı.

Yar-yoldaş qalmıyıf, bu Nəsif təhdi,
Dilinə dəm verdi, dərdini töhdü.
Dərtdi-dərtdi güldün, bir ah da çəhdin,
Mizraf toxunanda telə, bəy qızı.

Söz tamama yetdi, əmə bəy qızı da Aşıx Nəsivi tanıdı:

– Bə, nə yaxşı bu yannara gəlifsən. Bu yerlərdə nə itiyin var, ay aşıx.

Aşıx Nəsif xəyala getdi, yadına ustadı Aşıx Şennih tüşdü, çünkü ona İrəvanda toyda zəhər vermişdilər. Oydu ki, sazı bir də sinəsinə basıf görəh nə dedi. Biz deyəh, sizdərin də könlü şad olsun.

---------------

1. Qaxdağan - gəlmə erməni

Bir vaxt bu yerlərdən keçif gedifdi,
Gəzir ağızdarda sözü Şenniyin.
Təbli adamların sinəsindədi,
Çeşməsi, bulağı, sözü Şenniyin.

Burda xan toyuda olub çal-çağır,
Bağlanan aşıxlar olufdu fağır.
Dərt-bəla gətirif ona bu uğur,
Zəhəri içifdi özü Şenniyin.

Günnən-güzarannan sınır ürəyim,
Ay Nəsif, ustadı anır ürəyim.
Həsrətdən od tutub yanır ürəyim,
Yaloyu, ataşı közü Şenniyin.

Söz tamama yetdi. Aşıx Nəsif dağarçıxdan çörəh-pendir, yuxa çıxardıf arvada, yanı bəy qızına verdi. Arvat almax istəmirdi, bir təhər zornan verdi, bir balaca düyüncədə də pul verdi. Sonra arvada belə dedi:

– Mən yad ha döyüləm. El aşığının sözünü yerə salmax olarmı?

Həyə, onnar gəlif İrəvana çıxdılar. Əmə bir ağaya, bəyə rast gəlmədilər. Çünki kişilərin hamısını tutuf aparmışdılar. Aşıx Nəsif buna yanıf töküldü, burda çox qala bilmədi. Sazını sinəsinə basdı, görəh nə dedi. Deməyi bizdən, eşitməyi sizdən.

Yolum tüşdü İrəvanın elinə,
Bəy-ağası, mərdi hanı görəsən.
Necolufdu xanım-xatın qızdarı,
Harda qalıf Mehtixanı görəsən.

Qaxdağannar yolda-izdə qaynaşır,
Ər yerində gədə-güdə oynaşır.
Yiyə oluf yurda murdar, zay, naşı,
Kor olasan belə anı görəsən.

Dədələrin yeri bəlli burada,
Mərt yıxılıf, namərt yetif murada,

Aşıx Nəsif yas içində, qarada,
Naləm tutuf dördbir yanı, görəsən.

Söz tamama yetdi. Elə bu vaxt onnara qoca bir kişi irast oldu. Bu kişinin adı Məhəmmədiydi. Kişi onnara, yanı colpaynan Nəsifə yaxınlaşıf salam verdi, dedi:

– Ay aşıx, bizim ellərdə nə gördün, necədi dolanışıx. Nə xoşuna gəldi? Təzə hökumət burda kişi qoymadı, hamısını tutdular apardılar.

– A qardaş, qulax as, gördüyümü dilnən desəm dilim yanar.

Nəsif sazını sinəsinə basıf görəh burda nə dedi. Biz deyəh, sizin də canınız sağ olsun.

Şura gəlif, dərt yetişif bizdərə,
Kor taleyə, qarabaxda nə deyim.
Musurmanın pəjmurdədi əhvalı
Qan kusurux laxta-laxta nə deyim.

Köhnə yoxdu, heç təzəni görmürəm,
Məclis hanı, mey-məzəni görmürəm.
Gözçıxardan, baş əzəni görmürəm?
Tərif edim, yalan-saxta nə deyim.

Mən Nəsifəm qorxu nədi bilmirəm,
El-obasız danışmaram, gülmərəm.
İnnən belə göz yaşımı silmərəm,
Şeytan gəlif, çıxıf taxda, nə deyim.

Söz tamama yetdi. Məhəmməd kişi aşığa bir beşdih qızıl verif dedi:

– Əmə nə dedin, düz dedin.

Nolacax, Məhəmməd kişiynən halallaşıf ayrıldılar. Həyə, Aşıx Nəsif yolda bir neçə məclis keçirdi. Yanı yolunun üsdə çıxan kəntdərdə çaldı çağırdı epeycə. Yavaş-yavaş gəlif Ağbavıya yetişdilər. Əmə hələ Güllübulağa xeylax yol qalmışdı. Aşıx Nəsif colpuya dedi:

– Gəl bir az dincələh, Alaşıyı da çidarra, bir az otdasın. Özümüz də bir az çörəhdən-zaddan yeyəh. Əmə gördühlərim məni

yandırır. Hersimnən bağrım çatdıyır.

Colpa deyiləni elədi. Onnar bir bulağın başında oturuf çörəh yedilər. Aşıx Nəsif bunnan sonra sazını köynəhdən çıxardı basdı sinəsinə. Görəh burda nə dedi, biz deyəh, sizdərin də canı sağ osun.

Nə pis zamanadı, baş oluf ayax,
İtirdih imanı-dini, a dağlar.
Doluf içimizə urus-erməni,
Allah kəsin belə günü, a dağlar.

Sümsünür donuzdar, gəzişir itdər,
Necə tühlənifdi dünənki lütdər,
Qol-qola bağlanıf getdi iyitdər,
Artıf gədələrin kini, a dağlar.

Şura meydan verir daha səy-gicə,
Yaşamax, dolanmaq dönüfdü heçə,
Röyada Çıldıra gedirəm gecə,
Yoxmu yuxuların çini, a dağlar.

Kafırlar kef çəkir, türklər töhməti,
Gör necə tapmırıx qədir-qiyməti,
Gəzər ağızdarda sözü-söhbəti,
Kəsilməz Nəsibin ünü, a dağlar.

Söz tamama yetənnən sonra yola tüşüf gəldilər Güllübulax kəndinə.

## AŞIX NƏSİVİN ÖYSÜZ SƏFƏRİ

Bir gün Aşıx Nəsif Öysüzə, Mamoş ağanın yanına getməh qərarına gəldi. Çünkü aşıx Mamoş ağayla dostlux eləyirdi. Aşıx Nəsif colpuyu çağırdı, göstəriş verdi. Nolacax, colpa Alaşıyı yəhərlədi, yola hazırlıx gördü. Bəli, Aşıx Nəsif Alaşıyı mindi, genə colpa düşdü Alaşının qabağına. Gəlhagəl gəlif bir yoxuş yerə çatdılar. Əmə burda Alaşanın dəliliyi tutdu, nə tutdu. Yabının gözdəri kəlləsinə çıxdı, ağzınnan köpük daşdandı, qabax qıçları qatlandı. Aşıx Nəsif "əstəfurullah" deyif atdan düşdü. Colpa bu

işə çox təəccüf elədi. Əmə Aşıx Nəsif nə hersdəndi, nə də Alaşıya acıxlandı. Sazını köynəhdən çıxarıf zilini zil, bəmini bəm eləyif bağrına basdı. Görəh üzünü Alaşıya tutuf burda nə dedi, nə söylədi. Biz deyəh, Allah sizin də canınızı sağ eləsin.

Addımı atırsan tısbağa kimi,
Başına tökülsün kül, ay Alaşa.
Qatır inadın var, çıxmırsan diki,
Yoxdu çovğun, boran, yel, ay Alaşa.

Mən sənə xərclədim pulu bir ətəh,
Sən bu ölülükdən barı bir əl çəh.
Su görsən yatırsan qara camış tək,
Qoy aparsın səni sel,  ay Alaşa.

Nəsivəm, qoymusan sən məni yolda,
Bir saatdıx yolun beş sahat oldu.
Halını əlindən Allahmı aldı,
Axı, dolanıram el, ay Alaşa.

Söz tamama yetdi. Əmə Alaşanın diki dırmanmaması Aşıx Nəsivə yaman əsər eləmişdi. Odu ki, sazını genə sinəsinə basdı. Görəh nə dedi:

Ağzı köpüklənif, bu çıxmaz diki,
Deyəsən Alaşa zora düşüfdü.
On put duz vurulub sanki belinə,
Bax, bax ölü yabı tora düşüfdü.

Qorxudan yoxuşda bərəlir gözü,
Bu atın tərsdiyi təntitdi bizi.
Əsir ayaxları, qatdanır dizi,
Elə bil borandı, qara düşüfdü.

Məni yolda qoydu, düşür qaranlıx,
Nəsib, de neyləyək, söylə bir anlıx,
Bir qəssab lazımdı gözləri qannı,
Alaşa annıya dara düşüfdü.

Söz tamama yetdi. Alaşa diki birtəhər dırmaşdı. At elə yavaş yeriyirdi ki, daha nə deyim. Aşıx Nəsivnən colpa Alaşanın tərsliyindən qaranlığa düşdülər. Onlar Öysüzə çatanda artıx gecəydi. Aşıx Nəsif Mamoş ağanın əvinə çatan kimi qapını döydü. Mamoş ağa qapını açdı. O saat nökər Alaşıyı tövləyə apardı.

Nəsivnən colpanı əvə gətirdilər. Dərhal Mamoş ağa göstəriş verdi. Ortaya yeməh-içməh gəldi. Yaxşıca yeyib-işdilər. Yox olsun yoxsulluğu, ağanın bəs deyincə varı-dövləti varıydı. Özü də səxavətli, insaflı bir adamıydı. Həyə, yeyif-içəndən sonra Mamoş ağa Aşıx Nəsivə dedi:

– Aşıx, mən sənnən dostam, bu öz yerində. Əmə bir şeyə mat qalmışam ki, niyə bizə belə gec gəldin.

– Kefim belə istəmiyif, ay Mamoş ağa. Yolda Alaşaynan davamız düşdü. Bilirsən nə var, bu yabıyla yola getməh olmur. Həyə, onu deyim ki, Alaşıyı satıram, müştəri lazımdı. Lap su qiymətinə verirəm.

– Aşıx zarafat eləyirsən?

– Yox, ağa. İndi qulaq as, Alaşanın necə at olduğunu deyim, bil, qiymətləndir. Belə at hər kişidə olmaz.

Bəli, Aşıx Nəsif sazı sinəsinə basdı. Görəh burda nə dedi. Biz deyəh, sizin də canınız sağ olsun.

Yaxşı qaçmağı var, lap ceyran kimi,
Qızıldan qiymatdı bir at satıram.
Yüz qatır, min eşşək tay olmaz buna,
Yel qanad misallı "Qırat" satıram.

Söz bura çatanda Mamoş ağa dedi:

– Aşıx Nəsif, atın yaxşı atdı ki... Belə atı da satallarmı?!

– Ağa, sən dalına qulaq as.

Hə, aşıx oxumağına davam elədi.

Tərslikdə hər heyvan çatarmı buna,
Arpa görən kimi tez gəlir cana.
Qabağa getməz ki, bu gedər yana,
Kükrəyən, astagəl qarat satıram.

Nəsib peşman olmaz bu atı alan,
Buna nə yoxuş var, nə döngə, dalan,

Yəhəri saxlamaz, götürər palan,
Yol damarın qıran zor at satıram.

Söz tamama yetdi. Mamoş ağa çox arif adamıydı. Aşığın ürəyindən keçəni tez başa düşdü, dedi:

– Aşıx, atı satırsan, öz işindi, sat. Mal yiyəsi sənsən, əmə mən sənə yaxşı bir at bağışdıyıram, səhər apararsan.

– Ağa, sən nə danışırsan.

– Mən sənə atı peşkəş verirəm.

Qərəz, yıxılıf yatdılar. Səhər açılan kimi, üzünüzə xeyirli səhərlər açılsın. Aşıx Nəsif Mamoş ağanın verdiyi atı mindi, Alaşıyı da verdi Colpuya. Gəlhagəl gəlif Güllübulağa yetişdilər.

# XV. UŞAQ FOLKLORU

## SANAMALAR

Bir birə,
İki cürə,
Üç cirə,
Dörd fərə
Beş kərə,
Altı kürə
Yeddi qara
Səkkiz xara
Doqquz yarpaq,
On daraq.

Biri qaşdı,
İkisi çaşdı.
Üçü keçdi.
Dördü heçdi.
Beşi keçi
Altısı qoçu.
Yeddisi hacı,
Səkkizi bacı.

Dağa get,
Bağa get,
Qızlara
Baxmağa get,
Qonşuya çaxmağa get,
Gətir təndiri qalayaq.

Pəri, Hüri,
Yeri, yürü;
Qarı kürü,
Görməsən iş,
Təndirə düş,
Qırmızı biş.

Həsi, Hüsü, Məsi,
Dəlixayın nəvəsi.
İş görməyə, a balası,
Yox bunların həvəsi,
Yeyib-içib gəzəllər,
Dana kimi təzələr.

Nə bacadan baxa bilir,
Nə yerindən qalxa bilir.

Yeyib-içib hey yatır,
Günü-günə bu satır.
Qalxa bilmir yerindən,
Tanrı vurub belindən.

– Yeməyə necəsən?
– Odun, qurdun parası.
– İşləməyə necəsən?
– Elə demə xalası.

Atarı qalmıyıf,
Tutarı qalmıyıf.
O qədər  şallaq yeyib,
Tatarı qalmıyıf.

Qarnın niyə cırılmadı?
– Təzəcə doydum.
Bağırsağın qırılmadı?
– Qaşığı qoydum...

## DÜZGÜLƏR

### DƏYİRMANÇI

Dəyirmançı bic olar
İmkan düşsə, bac alar.
Pul gəldikcə güc alar.
Qışda nobat uzanar,
Dəyirmançı qazanar.
Pulu pul üstə yığar,
Yaza kefi kök çıxar.
Yayda işi azalar,
Haldan düşər sozalar.
Payızda gələr cana,
Sanki dolar ət-qana.
Tay-tay taxıl hey gələr,
Dəyirmançı dincələr.
Qışı yaxşı qışlayar,

Dəyirmanı işləyər.
Qozlu kömbədən yeyər,
Sinəsinə hey döyər:
“El işi məndən aşar,
Dəyirmansız el yaşar?!“
İnsafı bir gilədi,
Dəyirmançı belədi.

## AĞBABANIN BORANI

Külək sovurar qarı,
Köyə, evlərə sarı.
Yolu-izi basırar,
Çölü-düzü basırar.
Nəyə lazım bel-külək,
Atlar düşər qabağa.
Bir iz salır bulağa.

## QARA DƏRVİŞ

Gəlişin Çıldır elindən
Gözəl dualar dilində.
Əyləş bir yerdə, bucaqda,
Qoy şənlənsin od-ocaq da.
Sən ayrısan haqqı-saya,
Dürr sözləri tök ortaya,
Müşkül işlər sənə asan.
Gözündə yox, dünya varı,
Məhd edirsən düz ilqarı.
Ürəyin saf, sözün dərin,
El-obadı balü-pərin.
Sən hamının dədəsisən,
Görən gözü, didəsisən.
Bolluq-bərəkət əlində,
Haqq bəllənər əməlində.
Sən gəlməsən köylər batar,
Dərd-qəm artar qatar-qatar.
Dədə, bizi, bizə qaytar.

Ötənləri, keçənləri.
Söhbət elə, gətir bəri.
Ömür-gün də gəldi-keçdi,
Keçmişsiz yaşamaq heçdi.
Qədimlərdən sözünü sal,
Haqqa, qula gəlməz zaval.
İyliyini qanırıq biz,
Yolumuz bir həqiqət, düz...
Sənə düşər həmişə iş,
Dədəmizsən qara dərviş.

## QARA-AĞIN AĞASI

Dağlar  dumandı, baba,
Halım yamandı, baba.
Ürəyimə işıq ver,
Əlimə bir qaşıq ver.
Sənsiz günüm olmasın,
Sədan, ünüm olmasın.
Gen düşəndən yanmışam,
Hikmətini qanmışam,
Dizi üstə sürünüm,
Yaşıl- ala bürünüm.
Qəbul elə, baş əyim,
Dərdimi sənə deyim.
Bərəkət-bar səndədi,
Əhdi-ilqar səndədi,
Qara-ağın ağası,
Olmaram sənə asi.
Qara qulun bağışla,
Dərdi sinəmə tuşla.
Təki səni görüm bir,
Qulluğunda durum bir,
Yaxşılaşsın durum bir,
Həyatımın  bahası,
Qara-ağın ağası.

## BOZ OĞLAN

Ay kəkili boz oğlan,
Gəldi daha yaz oğlan.
Boz atını min, görüm,
Bulaq üstə din, görüm.
Qurdoğlu de, sənmisən?!
Göydən yerə enmisən?!
Yurdu gəzirsən yenə,
Dağ-daşı dönə-dönə,
Nə çoxdu qız, birin al,
Sən də bu yerlərdə qal.
Sevdiyin yoxmu sənin?
Baxışın oxmu sənin?!
Dağda-daşda de nə var?
Ürəyində yox qubar.
Ələnməzsən, qalmazsan,
Eldən bir qız almazsan.
Baş açmıram işindən,
Bolluq gələr peşindən.
Ay boz atlı, boz oğlan,
Ay sözünə düz oğlan.
Hirs-hikkəni soyut gəl;
Barı, bir də qayıt gəl.

## BOZ AY

Bozara-bozara gələn,
Ay səni yağışa bələn.
Gah tipisən, gah da boran,
A yaz  deyəndə bozaran.
Boz üzünə salma, boz ay,
Qışa simsar olma, boz ay.
Soyuğun, küləyin çoxdu!
Sənin heş insafın yoxdu.
Qardaşmısan qarlı qışa?!
Qar tökürsən dağa-daşa.
Çək gözünü, burdan yığış,

Arxandan gəlir ağ yağış.
Al qışı da dalına get.
Qar getsin ki, göyərsin ot,
Sənin bozluğun hədərdi,
Ömrün qar suyu qədərdi.

## ƏRZİ-HAL

Camaat gedir dağa,
Halım yoxdu qalmağa.
Köçü gedir dağların,
Xoş halına sağların.
Alaçıqlar qurular,
Yenə keflər durular.
Çoban çalar tütəyi,
Şəndi dağın ətəyi.
Sürü, naxır hərlənər,
Dana, cöngə kürlənər.
Gül-çiçəyin sayı yox,
Yayda dağın tayı yox.
Məni gətirib dilə,
Qocalığa bax hələ.
Hünərim yox, at minəm,
Sözlə doludu sinəm.
Nə taqət var dağ aşım,
Çölü gəzib-dolaşım.
Tək-tük adam ilə mən,
Axır gəldim dilə mən.
Evdə, küncdə qalmışam,
Yaman kövrək olmuşam,
Ötənlərim xəyalı,
Bu da bir ərzi-haldı.

## PALIDA YALVARMA

Qoca palıd insaf et,
Məni dərddən uzaq et.
Əlibaltalı gəldim,

Kölgən altda dincəldim.
Tamahım çoxdu mənim,
Bu payız vaxtı mənim.
Sarıqızdan qorxum var,
Burda mənə qurar dar.
Gəlməyəydim baltalı,
Artırdım qeylü-qalı.
Yeddi qurban kəsəcəm,
Daha huşum olar cəm,
Qoca palıd, bağışla.
Məni dinlə huş-guşla,
Bir də qələt elərəm,
Balta ilə gələrəm.
Canına qurban canım,
Qoyma od tutub yanım.

## SƏN DƏ QOCALACAXSAN

Mənə baxmayan oğul,
Sinə yaxmayan oğul.
Çox da döymə döşünə,
Bax fələyin işinə;
Səni alar dişinə.
O boy-buxun, o qüvvət,
Həmi vardı, həmi sərvət.
İtirərsən bunları,
İnsaf elə gəl barı.
Özünə bax bir özün,
Tanrıyı görsün gözün.
Hər işə baxma asan,
Sən də qocalacaxsan.

## AĞAC KƏSƏN OĞLANIN ƏHVALATI

Məni vurdu sarıqız,
Meşədə idim yalqız.
Denən, a başı batmış,
Xeyir verməz belə iş.

Ağaş kəsirdim, ağaş,
Mən Tanrısız, gözü ac.
Yıxıldım yerdə qaldım.
Lap əcəb günə qaldım.
Huşum getdi başımdan,
Nələr gördüm duşumda?!
Qəbristana gedirəm,
Dərddi-dərddi ötürəm.
Baxdım qəribə yerdi,
Başım, dizim əsirdi.
Gördüm atam-anamı,
Sürfədə zəhər camı...
Məni dindirmədilər...
Bu vaxt endirmədilər...
Bu vaxt sarıqız gəldi,
Əlindəki çəngəldi.
Çaldı qoluma birdən,
Diksinib qalxdım yerdən.
Baxdım qolum kəsilib,
Bir budaqdan asılıb.
Yenə bayılıb-düşdüm,
Dərdin içində bitdim.
Gözlərimi açanda,
Qızıl ilan bir yanda,
Sarıqız da yanında...
Canım yandı qınımda.
Aman Allah, nə edim?
Ağzımnan gəldi ödüm.
Yalvardım sarıqıza:
Yetməmişəm muraza.
Yazığı gəldi mənə,
Dedi: get, dəyməm sənə,
Kəssən bir də ağacı,
Həyatın olar acı.

## DƏRVİŞ TORBASI

Baxmayın oğrun-oğrun,
Nə dağarcıx, nə xurcun,
Çatmaz mənim torbama,
Torbam ev, bənzər dama.
Nə istəsən burda var,
Qızıl-gümüş, ləl-gövhər.
Kim təmizsə, pakdısa,
Sözü eləsin qısa.
Əl uzatsın torbama,
Barı, tez yetsin kama.
Nə götürsə götürsün,
Ürəyinə ötürsün.
Ciblik deyil burdakı,
Dardan çıxar dardakı.
Torbama boş deməyin,
Müftə çörək yeməyin.
Torbama əl uzadan,
Olar uzaq qadadan!
Olar evi abadan?
Soruş eldən-obadan,
Bu torba sehirlidi,
İşi dürlü-dürlüdü.
Əl uzadan şad olar,
Sevinc qəlbinə dolar.
Gəl olmayın vasvası,
Sirdi dərviş torbası.

## QOCANIN SÖZÜ

Qocanın dişi yoxdu,
Cavanla işi oxdu.
Ona dünya xoş gələr,
Sözünü eşitsələr.
Gücdən, taqətdən qalar,
Keçmişlərdən söz salar.
Əyalı da bəyənməz,

Arvadını döyəmməz.
Hamı anaya tərəf,
Qocada tapılar səf.
Qapılar öz içinə,
Dərdnən necə keçinə?!
Qaş-qabağı tutular,
Bir gün daşı atılar.
Öləndə əziz olar,
Elin yadında qalar.
Anar oğul, qız onu,
Kədərin olmaz sonu.
Kim qoyub bu qanunu,
Sözümün vardır canı.
Elə qız, oğul hanı?
Ataya baş endirə,
Xoş danışıb dindirə.
Öləndən sonra "hörmət",
Vallah, töhmətdi, töhmət,
Mən bilmirəm nə edim?
Qocayam bir söz dedim.

## QIŞ

Gəlibdi qış gecəsi,
Yoxdu işin necəsi.
Qışın soyuğu boldu,
Mallar pəyəyə doldu.
Qayğı aşıbdı başdan,
Mallı qalxar o başdan.
Alaflıyar malları,
Təmizləyər yolları.
Atar kürəklə qarı,
Qoy görünsün yol, barı;
Suvara bilsin malı,
Yaxşılaşsın əhvalı.
Təzək peçi qalanar,
İsti evə calanar.
Pişik yük üstə yatar,

Arvad işlə baş qatar.
Güllü corab toxuyar,
Asta-asta oxuyar.
Vecə almaz boranı,
Sözlə keçər hər anı.
Yemək-içmək bol olar,
Qışda ayrı hal olar.
Ac qarınlar aşlanar,
Nağıl-dastan başlanar.
Deyə-gülə gün keçər.
Ömür keçər, sin keçər.
Yorğun könül dincələr,
Qış dolanar yaz gələr.

## QIRMIZIDON

Qırmızıdon, bəri gəl,
Dilimin əzbəri, gəl.
Gəl mənimlə yaşayaq,
Dərdi-qəmi daşıyaq.
Oğul-qızımız olsun,
Bahar-yazımız olsun.
Bir ev quraq, bir ocaq,
Dolu olsun hər bucaq.
Yaşa dolaq, qocalaq,
El gözündə ucalaq.
Sən qarı ol, mən qoca,
Bərabər gedək haca.
İman-dinimiz olsun,
Yaxşı günümüz olsun.

## TƏNBƏL

Tənbəl yatar xorhaxor,
İş görəndə olar kor.
Yeməkdə çox ustadı,
İş görməyə xəstədi.
Qalxar yerdən günorta,

Özünü darta-darta.
Yemək yeyər doyunca,
Üçə qədər sayınca.
Nə qanar, nə qandırar,
Əyalını yandırar.
Evdə kişiyəm deyər,
Sinəsinə hey döyər.
Kişi yuxulu olar?!
Yatar süfrədə qalar?!
Arvad örtər üstünü?!
Tez çıxarar məstini,
Baş altda yastıq qoyar,
Kişi yatmaqdan doyar?!
Yatar qalar axşama,
Oyanıb gələr şama.
Yeyər haldan düşüncə,
Olmaz onda düşüncə.
Yata-yata ömr edər,
Belə dünyadan gedər.
Tənbəllikdən uzaq dur,
İnsanlıqdan uzaqdır!
İşlə-dişlə hər zaman,
Tənbəldə olmaz iman.
İşdən yapış həmişə,
Kişi iş ilə bişər.

## DƏRVİŞ

Kəşgülün hanı, dərviş?
Ellərin xanı dərviş.
Sənsiz ellər darıxar,
Fağır kəslər qarıxar.
Özün bizə tez yetir,
Gözəl nəğmələr gətir.
Duaların qəbuldu,
Qanan qarşında quldu.
Mübarək üzün sənin,
Şirindi sözün sənin.

Xəstə görsə sağalar,
Saf ürəyin sağ olar.
Pay verənsən bizə sən,
Yetişibsən yüzə sən.
Gəlişinlə nur gətir,
Sədan göyə yüksəlir.
Əlin çox şəfalıdı,
Ellər səndən halıdı.
Soydan, kökdən bir danış,
Haqq ilə eylə tanış.
Özümüzü tanıyaq,
Sözümüzü tanıyaq.
Danışıb gülək barı,
Türkün nəyi var imiş?
Başda qədim dastanı,
Elin qoca asdanı.
Ürəklərə təpər ver,
Çəpərsizə çəpər ver.
Çiçəkdən başında tac,
Gözümüzü yaxşı aç.
Həqiqətdən qaçmayaq,
Yalan ilə uçmayaq.
Doymaq olarmı haqdan?!
Gen dolanaq nahaqdan!

## DANAÇIYA NƏSİHƏT

Ay danaçı gəl bəri,
Billəm çox dərdi-sərin.
Nə atan var, nə anan,
Nə də oduna yanan,
Ocağın yox, evin yox,
Çaxmağın yox, qovun yox.
Deyirlər ki, fağırdı,
Bir özünə fikir ver,
Böyüyüb olubsan ər.
Birin gözaltı elə,
Könlünü gətir ələ,

Sonra bir dam qarala,
Ömür sür, bala-bala.
Məndən deməkdi, oğul,
Söz də köməkdi, oğul.
Hikməti var sözümün,
Qədrini bil özünün.

**KOSA**

Ay boyu gödək kosa,
Ay yekə ətək kosa.
Arada nə gəzirsən?
Yalanları düzürsən.
İşin fitnə-feldi ki,
Yığdığın pay boldu ki...
Gözün doymur de nədən?
Nədi səni göynədən?
Guya bilməzsən nədi,
Gəzməyin bəhanədi.
Əməlli saqqalın yox,
Söz deməyə halın yox.
Cin oynaşır gözündə,
Zəhər yağır sözündən.
Haqqı tanımağın yox,
Bağça, ya da bağın yox.
İtil, gözdən uzaqlaş,
Qarayola get, bağlaş.
Sənin yerin oradı,
Qaratikansan, nəsən,
Sən nə murdar nəsnəsən!

**ALA DANA**

Mənim danam aladı,
Vallah, başa bəladı.
Buynuz atır buğuya,
Oxşar harın ağaya.
Gah əlimi yalayır,

Gah da durub mələyir.
Qaçır, gah da hərlənir.
Bir yerdəmi durandı?
Onu-bunu vurandı.
Oyur-oyur oynayır,
Nadinclikdən qaynayır,
Gör necə şitəngidi,
Bu gün, sabah cöngədi.

## DÜZGÜ-GÜZGÜ

Düzgü, düzgü, düzgüdü,
Düzgü olan güzgüdü.
Kimi əyri görünər,
Kimi elə bürünər.
Üz var, nurlu, gözəldi,
Üz var, sanki xəzəldi.
Buna güzgü neyləsin?
Buna düzgü neyləsin?!
Düzün öz gərdişi var,
Hərənin bir işi var.
Qara şərin amalı,
Qaranlıqda camalı...
Şər çevrilən kürsüdü,
Çünki ağın tərsidi.
Pis işlərə uymadım,
Qaraya tutma məni,
Dərd ilə çatma məni.
Möhlətini bol elə,
Qabağında qul elə.
Hey tər töküm, işləyim.
Günlərimi yaz etsin,
Can quşum pərvaz etsin.
Uçmasa gəlməz geri,
İtirər, bilməz yeri.
Qara ilan gələndə,
Hələ ki, dövran etsin.
Bir bədəni can etsin.

Bir ufaq səhvi unut,
Eylərəm sənə umud.
Baba, mənə mədəd et,
Demə qarayola get.

## QARALI-AĞLI BABA

Baba bu necə işdi?
O nədi üçdü, beşdi?!
Qara ağın əlində,
Kilit-bağın əlində.
Üç aləmin xanısan,
Könüllər sultanısan.
Müşkülün yoxdu sənin,
Nurun nə çoxdu sənin?!
Sirrin-sehirin haqdan,
Yolun dərədən-dağdan.
Yoxdu işin  bulaşıq,
Var-dövlətin nur-işıq.
Məkanın göylər sənin,
Çəmənlər, göylər sənin.
Səndən qorxar şeytan, cin,
Yaxşılıqdı qazancın.
Qurd, aslan, nər olarsan,
Canı dərddən olarsan,
Şər olana xatasan,
Baba, dədə, atasan.
Sənə qurban el-oba,
Ağlı-qaralı baba.

## YANILTMACLAR

Dəli Dadaş dəyənəklə danaları döyə-döyə Dərin dərədəki daşlığa doldurdu.

Danbat Dönə dönə-dönə donunu dartışdıra-dartışdıra, dişi-dişinə dəyə-dəyə "dönəlgəsi dönmüş" - desə də, dolu düşdü, nə düşdü!

Danaçı danaları dərədən-dərəyə dəhmərlədi, dəhmərləmədi?

Dəvə dəlləyi, dəlləyin dəvəsi.

Qanan qanmazın qadasını qarnına qoyunca, qansız qananın qadasını qarnına qoysun.

Qansızın qafasına qapazı vuran qola, qəni-qəni qüvvət.

Qonum-qonşu, qohum Qədimi qomardılar, qapıdan-qapıya qondurdular. Qeylü-qalı qandırdılar.

## O Y U N L A R

### TFU, NƏ PİSDİ...

Uşaxlar bir yığın yığılıllar. Bir adamı aşbaz seçillər. Qalannarı da düzümünnən düzülüllər. Aşbaz yeməy pişirir. Uşaxlar düzümünnən gəlif soruşullar:

– Dəvə zın..., dəvə zın...

– A xala, nə pişirifsən?

– Toyux əti.

Uşaxlar bir ağızdan:

– Yeyim, yeyim divini yalıyım.

Birəz qıraxdan fırranıf genə gəlib deyillər:

– A xala nə pişirifsən?

– Quzu əti.

Uşaxlar genə deyillər: "Yeyim, yeyim divini yalıyım". Bir neçə yaxşı yeməylərdən deyənnən sora, bir də uşaxlar gəlif soruşur:

– A xala, nə pişirifsən?

– Qurbağa əti.

Uşaxlar bir ağızdan deyillər:

– Tfu, nə pisdi... Tfu, nə pisdi... Aşbazın saçını yoluşdurullar.

### VERMƏRƏM, AY VERMƏRƏM

Uşaxlar sıraynan düzülüllər. İki dəstə iştirak eliyir. Birinciylə ikinci dəstə deyir:

– Qatran qazan doldumu?

– Doldu da boşaldı da.

– Çömçə yarım oldumu?

– Oldu da boşaldı da.
– Toynan gələy, zurnaynan?
– Toynan.
Yaxud; zurnaynan.
Toynan deyənnən sora uşaxlar “dambambılı“ deyə-deyə, oynuya-oynuya deyillər:
– O qara qıza gözüm tüşüf.
– Verrmənəm, ay vermənəm.
– Belə-belə qayalar verəcəm.
– Belə-belə sürülər verəcəm.
– Vermənəm, ay vermənəm.
– Belə-belə qızıllar gətirəcəm.
– Vermənəm, ay vermənəm.
Qız almağa gələnnər hirsnən “Almarıx, ay almarıx“ – deyərək, genə də “dambambılı“ eliyə-eliyə gedilllər.

***

Uşaxlar bir şey itirəndə deyillər;
Tapıl-tapıl pul verim,
Tapılmasan kül verim.
Yaxud sayıllar:
Handa, hunda,
Keçə kullah
Bunda.
Bunda sözü kimə çatsa oğru o olur. Yaxud: -Bunda sözü kimə çatdırsa işi o adam başdıyır.

## LİBƏ-LİBƏ OYUNU

Oyunda beşdən artıx uşax iştirak edir. Uşaxların sayı qədər libə qazılır. Yəni bir-birinin ardınca yeni qaydada yuvacıqlar qazılır. Hərə öz yuvasını tanıyır. Topu birinci kim libələrə tərəf itəliyirsə, onu seçməy lazım olur. Sıraynan düzülüf sayıllar:

Molla, molla moduna,
Molla getdi oduna.
Molla döyül qamışmış,
On barmağı gümüşmüş.

Gümühcüyü itifmiş,
İrəvanda bitifmiş,
İrəvanın atdarı,
Kişnəşir arpa dayı,
Yolu yola qatdırax,
Ata arpa çatdırax.
Arpa məndə, kim gedər?

Son söz kimdə qurtarsa topu o adam əlinə alıf libələrə tərəf heyilliyir. Bu vaxt hamı öz libəsinin yanında durur ki, topu tez tutsun. Top kimin libəsinə tüşürsə, o adam tez, vaxt itirmədən topu götürüf kimi sət eliyirsə ona vurur. Top kimə dəysə onun libəsinə bir balaca daş qoyullar. Yox, əgər top heş kimə dəymirsə, onda topu atan adamın libəsinə bir daş qoyullar. Bu oyunda çalışıllar ki, topa vurulmasınnar. Oyunun sonuna kimi kim vurulmursa o qalib çıxır. Oyunun sonunda libələrdəki daşdarı sayıllar ki, görsünnər kim nə qədər vuruluf. Hər vurulanda o adamın libəsinə bir balaca daş atılır kı, daşın sayınnan uduzannarın sayı bilinir ki, kim neçə xal götürür. Az daş olan libənin sahabı çoxa nisbətən yer tutur. Oyun bu cür davam edir. Vurulan adam topu götürüf libələrə tərəf atır.

## GÖZÜBAĞLICA OYUNU

Oyunda bir neçə adam iştirak edir. Sırıya düzülüf sayıllar:

Oturuf tikiş tikirdim,
Üç iynəmi itirdim.
Kor oldum axtarmaxdan,
Yaylıq alıf ağladım.
Səs gəldi qarannıxdan:
– Cin bacın saa yoldaş,
Qarannıx yolda yoldaş.
Gəzif tapar iynəni,
Yerinə tikər düyməni.
Yıxıl rahat yatginən,
Yuxuna şəkər qatginən.

Söz kimdə qurtarırsa həmin adamın gözünü bağlıyıllar. Elə bağlıyıllar kı, heş kimi görə bilməsin. Oyunçular gəlif onu vuruf qaçıllar. Gözübağlıca adamlardan birini tutur. Əyər adını düz deyirsə, onda gözünü açıllar, tutulan adamın gözünü bağlıyıllar. Yox, əyər tutduğu adamın adını səf deyirsə, onda genə öz qaydasıynan adamlardan kimisə tutuf düzgün tapmax istiyir.

## BEŞ BARMAQ OYUNU

Oyunda iki uşax iştirak eliyir. Uşaxlar bir-bir öz əllərinin üstündə barmaxlarının adını sayıllar. Axırıncı barmaxda gərəy ehtiyatda olasan kı, barmağını tutmasınnar.

Baş barmax,
Başala barmax.
Uzun hacı,
Qıl toracı,
Vay gədə, vay...

Vay gədə, vay... -deyən kimi çəçələ barmağı tutmaq istiyillər. Tutsa oyunu aparır.

## DÜYMƏ–DÜYMƏ OYUNU

Oyunda bir neçə adam iştirak edir. Düymüyü kim gizdədəcəysə o adamı seçillər. Ona görə bir nəfər iştirak eliyənnəri sıraynan yığıf sayır:

– A pişiy, kimin pişiyisən?
– Molla Əhmədin pişiyiyəm.
– Molla Əhmədin nəyi var?
– Bir oğlu var, bir qızı.
Çaqqır, çuqqur çayı var.
Göy muncuxlu iti var.
Əlli batman yağı var.
Onca arşın bağı var.
Əvində bir xanım var,
Oturuf kilim toxuyur.
Onnan kiçiy qardaşı,

Allahın kəlamın oxur.

Son kəlmə kimdə qurtarsa həmin adam əlindəki düymüyü papaxların, ya da yaylıxların altında gizdədir. Kim düymənin yerini düz tapsa o bir xal qazanır. Yox, kim səf desə, o bir daha düymüyü tapmalı olur. Səf tapan həmişə düymüyü gizdədir.

## GİZLƏNPAÇ

Uşaxlar bir yerə yığılıllar. Sayıllar:

Əl, əl əpənəy,
Əldən çıxdı kəpənəy,
Kəpənəyin sarısı,
Yumurtanın yarısı.
– Əmi, hara gedirsən?
Ala dağa gedirəm.
– Ala dağda nəyin var?
– Bir oğlum var, bir qızım.
Qızımın adı Fatma!
– A Fatma, Fatma, Fatma,
Yatanda rahat yatma!
Yeddi xoruz, bir fərə,
Fatmıyı verdiy ərə!

Yaxud:

Tamara, Tamara tat qızı,
Apar, dedim sat qızı.
Doluşdular faytona
Sürdü Bağdnofkuya
Tamara getdi beş günə,
Gəlmədi on beş günə.

Son söz kimdə qurtarırsa o adam gözünü yumur. Bir dəqqə uşaxların gizdənməyi üçün vaxt gözdüyür. Gözlərini açmaq istiyəndə deyir:

Gizdənpaç.
Gəldim qaç.

Gözünü açıf gizdənən uşaxları tapır. Hər uşağı tapdıxca gözünü yumduğu yerə tüpürüf deyir:

Tfu, bajar...

Əyər kimsə göz yumannan xəlvət gəlif “bajar“ eliyif tüpürsə, onda həmin adam genə təkrar yummalı olur. Yox, əyər hamıyı özü tapırsa, onda kim birinci tapılıfsa o adam gözünü yumuf oyunu aparmalı olur?

Oyunun sonunda bir nəfər deyir:

Nağıl:
Hər kəs evinə dağıl!

## ÇİLİY-AĞAC OYUNU

Oyunda iki, dörd, bəzən altı nəfər iştirak edir. Birinci dəstəy kimdə olmalıdısa, onun üçün sayıf düzgün oyunu aparıllar.

Ülüm, ülüm üyüldüy,
Torbalara düzüldüy,
Oldux biz yeddi qardaş,
Mən “Xıdırın çörəyi“,
Mən də “Novruz əppəyi“,
Mən “Qurbannıx parası“,
Mən də “Ölü halvası“,
Mən “Oruşdux umacı“,
Mən də “Gəlin payı“yam,
Ortada da mən qaldım,
Qurda, kuşa yem oldum.

Paravoz gəlir yana-yana,
Çınqı tüşür bizim bağa.
Əmim oğlu Sultan ağa,
Gəlin gedəy oynamağa,
Oynamağın vaxtı döyül,
Qızılgülün taxtı döyül,
Las, lus, inqila, ivan fıs.

Son söz kimdə qurtarırsa ağac o adama çatır. Həmin adam əlinə ağacnan çiliyi götürüf yerdən bir balaca mərkəz oyur. Çi-

liyi zərbnən uzağa vurur. O biri oyunçular çalışır ki, çiliyi havada tutsunnar. Kim havada tutursa, oynu o adam götürür. Mərkəzdən çiliy tutulan yerə kimi ağacın uzununda sayıllar. Neçə ağac olsa, həmin adam o qədər xal götürür, çiliyi  atanda mərkəzə yaxın tüşürsə, yəni dəstəyi, ağacı mərkəzdən uzadanda çiliyin üstünə tüşürsə, onda mərkəzdəki çiliy vuran adam uduzur. Həmişə uzaxdan çiliy atan adamlar çalışıllar ki, çiliyi elə atsınnar kı, mərkəz deyilən oyuğa, yaxud dəstəyin dəyəcəyi məsafəyə tüşsün, oyunu onnar öz əllərinə alsınnar.

Oyun beləcə davam eliyir.

## FİL CIZI

Çiliy-ağac oynundakı qədər uşax iştirak eliyir. Böyüy bir dairə cızıllar. Dairənin tam ortasında balaca oyux açıf mərkəz qoyullar. Bir nəfər çiliy-ağacnan oyunu idarə eləməli olur. Ona görə birinci kim atası olacaxsa, o adamı seçillər, sayıllar

Bacadan baxan bərələn göz,
Biri ala, biri boz.
Mindim bozun boynuna,
Sürdüm Gümrü yoluna.
Gümrü yolu dərbədər,
İçində meymin gəzər.
Meyminciyi ülkütdüm:
Qulaxcığın qırpıtdım.
Dağda gəzən xocalar,
Vurdu qolumu qırdı.
Qolum qazanda qaynar,
Oğlax yanımda oynar.
Oğlağı vurdum yerə,
Yer maa yemliy verdi.
Yemliyi verdim kuşa
Kuş maa qənaət verdi,
Qənətdəndim uşmağa,
Xalx qapısın aşmağa.

Son söz kimdə qurtarırsa çiliy ağacını həmin adam götürüf atır. Mərkəzdə duran adam gərəy elə vəziyyətdə dura ki,

həmişə dairənin hər tərəfini qoruya. Əyər cızın üstündə çiliy tüşürsə mərkəzdəki adam uduzur. Yox, əyər mərkəzdəki adam bir neçə dəfə oyunu udursa, yəni mərkəzdə qalırsa, o adam uduzan adama “zulatma“ verir. Çiliyi lap uzağa vurur. Uduzan adam nəfəsini dərmədən birbaşa zuluyarax çiliyi gətirif elə səmtnən atmalıdı kı, ya mərkəzi, ya da dairənin xəttini vursun. Əgər vursa, onda oyunu udur. Zulatma verəndə “zulayan“ adam belə deyir:

Sarımsağım, sarı yağım,
Zaqquluma, zuqquluma,
Ağam dedi,
Bir dilimə zuuuu...

Oyun axıra kimi beləcə davam eliyir. Kimin neçə xal qazanması çiliyağac oynunda olduğu kimi ağacın boy uzunu ilə ölçülür.

## ARI ZINQ...

Oyunda çox uşax iştirak edir. Bir nəfər arxası uşaxlara tərəf əllərinin biri qulağının yanında durur. O uşaxları görmür. Həmən adamın kim olması üçün seçillər. Hamı sıraynan düzülür, bir nəfər sayır:

Əkil, bəkil kuş idi,
Tufara qonmuş idi.
Getdim onu tutmağa,
O məni tutmuş idi,
Tufara salmış idi.
Çəpər çəydim, yol aşdım,
Qızılgülə dolaşdım.
Bir dəstə gül dərməmiş
Nənəsi gəldi mən qaşdım.
Dəsmalım yolda saldım, Əkil.
Uzağ ellərə qaşdı.
Əkili tapax gərəy,
Gözdərin oyax gərəy.

Sonu kimdə qurtarırsa, arxası uşaxlara həmin adam durur. Əllərini çarpazdıyıf birini qulaxının dalına tərəf tutur. Oyunçulardan bir nəfər onun əlinə vuran kimi, hamı bir səsnən deyir:

“arı zınq...“ Arxası tərəfə duran adam üzünü uşaxlara çəvirif onu kim vurufsa tapır. Əyər səf deyirsə genə durmalı olur. Yox, düzünü tapsa, tapdığı adam onun yerində duruf əlini arxaya qoyur, vurullar. Oyun bu qaydaynan davam eliyir.

## KİM QOÇAXDI?

Oyunda on nəfərə kimi adam iştirak eliyir. Bir nəfər əlləri yerdə beli üstə durur. O biri adamlar da bir-bir aşağıdakı misraları deyərəy onun üstünnən hoppanır. Kim hoppana bilmiyif yıxılırsa, beli üstə duran əyağa qalxır, yıxılan adam onun yerində durur. Kim beli üstə birinci oyun başdananda durmalıdısa, onun üçün uşaxları seçif sayıllar.

Köynəyçiyim söküldü,
Düyməciyim töküldü.
İynə, iynə...
Ucu düymə.
Şam ağacı
Şatır keçi.
Qoz ağacı,
Qotur keçir.
Nar ağacı,
Qarnı pozux.
Gözü oyux.
Hambal, humbal,
Yırıl-yırtıl,
Qaş, qurtar...

Son söz kimdə qurtarırsa, o adam beli üstə durur, o biri uşaxlar onun üstünnən deyərəy hoppanır:

Əvvəlim heç,
Birim də heç.
İkidə birəz dadallar,
Üşdə namaz qılallar.
Dörddə qılış qırallar,
Beşdə bazara gedəllər.
Altıda gilas yeyəllər.

Yeddidə duruf yatallar.
Səkkizdə yuxu görəllər,
Doqquzda duruf qaçallar.

Çalışmalısan kı, adamın üstünnən hoppananda yıxılmayasan. Oyun bu vəziyyətnən davam eliyir.

## AY XALA, BİR ÇÖRƏK VER!

Oyunda iki qız iştirak eliyir. Qızlardan biri iki əlinin barmaxlarını bir-birinə birrəşdirif, barmaxlarını darta vəziyyətdə saxlayır.

Qızlardan biri əlini, aşağı barmaxlardan başdıyarax, barmaxların üstünə qoyuf deyir:

– Ay xala, bir çörəy ver!

Əlini tutan qız deyir:

– Çıx yuxarı bacıya!

Qız əlini o biri barmaxların üstünə qoyuf deyir:

– Ay xala, bir çörəy ver!

Xala deyir!

– Çıx yuxarı bacıya.

Beləliynən, qızın biri baş barmağın yanına qaxır. Genə də həmin qaydaynan deyir:

– Ay xala, bir çörəy ver!

Xala deyir:

– Çörəyim yoxdu. Təndirə yapmışam. İstiyirsən əyil çıxart.

Qız deyir:

– İtin, pişiyin hardadı?

Xala deyir:

– İtim çöldədi. Pişiyim də yumax yumaxlıyır.

Qız əlini uzadıf çörəy çıxartmax istiyəndə xala onun əlini tutuf cırmaxlayır. Çörəy çıxardan gərəy oyunda elə ehtiyatdı, cəld olsun ku, heş vaxt tutulmasın. Sora oyunun yerini dəyişirlər. Bu dəfə xala ilə qız yerrərini dəyişir.

## PİŞİYİM MİYO-MİYO...

Oyunda dörd-beş nəfər iştirak eliyir. Hamı bir-birinin əlinin üstünnən tutub deyillər:

– Pişiyim miyo... –miyo... -miyo...

Kimin əli çimdiyə dözmür, çəkirsə, o oyunda uduzmuş olur, pişiy kimi beş dəqqə miyoldayır.

## DALA YAYLIQ SALMA

On, on beş, yaxud da çox uşax bir-birinin əllərinnən tutaraq geniş bir dairə şəkilində genişdənir,sora oturullar. Bir nəfər əlinə yaylıx alıf oturan adamların birinin arxasına yaylığı salır. Həmin adam gəlif öz yerində oturur. Kim dügün bilsə ki, yaylıx onun dalındadı, tez duruf həmin qaydaynan o da yaylığı salır. Yox, xəbəri olmursa, onda həmin adam oyunnan çıxır, oynamır.

## SİÇANLA PİŞİK

Uşaxlar yığılıf dairə şəklində bir-birinin əllərinnən tutuf geniş qollarını açıllar. Bir pişiy, bir çisan seçillər. Siçan bir-bir uşaxların qollarının arasınnan elə keçir ki, onu pişiy tutmasın. Pişiy onu tutanda oyunnan çıxır. Üç nəfər qalana kimi oyun belə davam eliyir.

## ƏL ÜSTƏ KİMİN ƏLİ?

Oyunda dörd-beş nəfər iştirak eliyir. Bir nəfər gözünü yumub əlini uzadır. O biri oyunçulardan növbəynən əllərini gətirib gözünü yuman adamın əlinin üstünnən çimdik götürmüş kimi tutur. O biri yoldaşları hamı bir ağızdan deyir:

– Əl üstə kimin əli?

Gözünü yuman adam düz desə ki, kimin əlidi, onda oyunnan qurtarır. Tapdığı adam gözünü yummalı olur.

Yox, əyər səf desə, onda genə yummalı olur. Deyillər:

– Əl üstə kimin əli?

Deyillər:

– Filankəsin (yəni bir adam adı deyillər, oyunçulardan birinin adını).

Səf deyəndə deyillər:

– Qaldırın vurun, yalandı,
Kor eşşəyə palandı!

## AŞIQ OYUNU

Aşıq oyunu ən maraqlı oyunnardandı. Bu oyunda daha artıq adam iştirak edir. Bu oyunun növləri müxtəlifdir: cız, qala, sultan və s. Oyun iştirakçılarının qoyun aşığından ibarət xəzinəsi olur. Yəni şərtə görə nə qədər aşıq ortaya qoyulmalı olsa, onda o sayda aşığı olmalıdı. Oyunnar aşağıdakı kimi olur.

## AŞIQ-AŞIQ OYUNU

Bu oyunu oynamaxdan ötrü qoyun, yaxud inəy aşıxları lazım olur. İki dəstə iştirak eliyir. Bir-birinnən bir neçə metr aralıda hər dəsdə öz aşıxlarını düzür. Saqqa deyilən daşnan bir nəfər hər dəsdədən növbəynən aşıxları vurur, öz cızınnan çıxarır. Hansı aşıxı vuruf çıxarırsansa, o aşıxı udmuş olursan. Oyun müəyyən olunmuş vaxta kimi davam eliyir. Hər dəfə bir dəsdənin adamı vurur.

## SULTAN OYUNU

Bir-iki metrlik uzun xətt çəkilir. Oyunda neçə nəfər iştirak edirsə məlum olur. Şərtə görə hərə bir, iki və s. aşıxı həmin xəttin üstünə alçı-toxan düzür. Xətt üstündəki aşıxlardan birini ortuya diş qoyur, adına “Sultan“ deyillər. Əsas məqsəd oyunda Sultanı vurmaxdı. Hər bir oyunçunun da əlində aşıxdan bir saqqası olur. Bu aşıxla o biri aşıxları vururlar. Sora kim neçənci adam olaraq saqqa ilə aşığı vurası olacağını müəyyən etməy üçün bütün oyunçuların saqqalarını bir yerə yığıf, qarışdırıf birini yerə salıllar. Əgər alçı düşsə, kimin aşığıdırsa o birinci olur. Sora yerdə qalan aşıxları bir-bir qarışdırıf yerə salıllar. Alçı düşən hər aşıx sahibi bir-birinin dalıca sırasını bilir. Oyuna başlamazdan əvvəl şərt qoyullar ki, Sultanı vuranda onunla aşıxların, aşıxlarla aşıxların arasında olan məsafə neçə sm. olmalıdır. Həmişə aşıxlarla aşıxlar arasında olan məsafə sultana nisbətən az götürülür. Şərt qoyulur, oyunçunun atdığı saqqa alçı dursa, onda xəttən bir aşıx alır. Yox, əgər toxan dursa, onda öz xəzinəsinnən bir aşıx xəttə əlavə olaraq qoyur.

Oyun başdanır. Birinci oyunçu saqqa ilə aşıxları vurur. Əgər nişan alıb Sultanı vurarsa, onda bütün aşıxları udur. Sultanı vur-

max deyəndə, əgər şərtə görə hansı məsafədə vurursa. Yox, əgər şərt daxilində aşığı vurursa, onda vurduğu aşığı götürür, bir daha saqqası duran yerdən aşıxlara, Sultana nişan alıf vurur. Genə də vursa aşıxını götürür, yox, vurmasa, saqqası boş keçsə onda sıra ilə o biri oyunçular oyunu olduğu kimi davam edir. Hər dəfə bir oyunçuda əgər aşıxa, ya Sultana nişan götürüf vura bilməsələr, onda saqqa alçı tüşsə, belə olduqda da bir aşıx götürə bilər. Yox, alçı tüşməsə, toxan dursa, onda xəzinəsinnən oyunçu bir aşıx cərgəyə gətirif qoyur. Sultanı kim götürsə oyunda olan bütün aşıxları udur, yenidən hərə şərt daxilində yerə aşıx düzüf oynuyullar.

## CIZ

Yumru bir dairə, dairənin ortasından bir düz xətt çəkilir. Hər kəs xəzinəsinnən şərtə görə bir, iki, üç və s. sayda aşıx düzür. Aşıxları sıra ilə xəttin üstünə düzüllər. Dairənin bir neçə yerinnən iki, üç metr dairədən aralı başlanğıc yeri qoyulur. Kimin neçənci olmasını müəyyən edillər. "Sultan" oyununda olduğu kimi sıranı müəyyənləşdirirlər. Hər kəsin neçənci olması müəyyən olannan sora oyun başdanır.

Birinci olan başdıyır atmağa. Saqqasıynan vuruf dairədən hansı aşığı çıxarsa, o aşığı udur, yenidən təkrar vurur. Nə vaxt saqqası boşa çıxsa, onda o biri oyunçu sırası olan şəxs atır. Təkrar aşıxları vuranda saqqa harda olursa (istər dairənin içi olsun) ordan götürüb vurur. Bu daha sərfəli olur. Ona görə ki, saqqa aşıxa yaxın olur.

Oyuna başlamamış bir şərt də qoyullar kı, dairə ilə aşıxın arası nə qədər məsafə olanda aşıxı götürüllər. Buna "qırtım" deyillər. Məsələn, belə götürəy ki, dairə ilə aşıx arasında olan məsafə bir qəriş olmalıdı. Dairə ilə aşıxı vuranda aşıx dairənin içində bir yerdə saqqaya yaxın dayanır. Qərişlə ölçülür. Əgər deyilən şərt kimi bir qəriş oldusa, yəni əli açanda hər ikisinə dəyirsə, onda həmin aşıxı udur. Çox vaxt bu oyunda saqqanı büküb atıllar ki, "qırtım" olsun. Onda daha çox daş udmax olur. Həmişə atılan saqqa cıza yaxın atılır kı, arxla olan məsafə yaxın olsun, "qırtım" olsun. Elə olanda, aşıxa dəyməsə də, saqqanı yenidən ata bilir, yaxın olan aşıxı da götürə bilir.

Oyun beləcə sıra ilə davam edir.

## XVI. XALQ TƏBABƏTİ

**Doğuşun aparılması**. Sancı çəkən qadın iki dizdəri üstə çöyməlidi. Həvəçi (doğuşu aparan həkim) bilməlidi ki, doğuş varmı? Doğuş varsa uşaqlığın ağzını genişləndirməlidir. Uşax rahat olur. Sancı səkən çoxlu gəzməlidir. Arxası üstdə uzandırmaq olmaz. Doğuş çətin gedirsə, arvadı bir palaza qoyuf iki tərəfdən götürüf möhkəm-möhkəm çalxalamalıdır. Sora rahat doğum olur. Əyər uşax əyridirsə, onda azca kərə yağı götürüf qarını yaxçı-yaxçı yağlıyıf uşağı üstdən döndərməy lazımdı. Yox, əyər üstdən dönməzsə, onda doğum vaxtı əl salıf rahatca döndərməy olar. Heş vaxıt dəmir salmax olmaz. Əl uşağı zədələmir, öz istiqamətində rahat döndərir. Doğuşdan sora arvadın altına təndirdə təzə yanmış külü soyuduf töyməy lazımdı. Bu arvadın belini yaxçı bərkidir, qanaxmanın qabağını alır.

**Uşağın qidalanması.** Təzə doğulmuş uşağın göbəyini tez, möhkəm-möhkəm bağlamax lazımdır. 4-5 sahatdan sora sarı yağa şəkər tozunu qarışdırıf tənzifin arasına bir çay qaşığı qoyuf uşağın ağzına verməy lazımdı. Uşax özü az-az o yağı əmif qidalanacaq. 8 sahatda bir dəfə belə qida verməy lazımdı. Arada bir iki damcı qaynadılmış su da verməy olar. Başqa ananın, yaxud heyvanın südünü verməy düzgün döyül. Bu uşağa ziyan eliyir.

Uşağın göbəyinə əl vuruf qoparmax düz döyül. Göbəy özü tüşməlidi.

İkincisi, beli boş arvaddara heş vaxt dərman verməmişəm. Yumurtdanın sarısını, bir də sabını, unu bir yerdə yaxçı-yaxçı çalırdım. Yaxçı köpüy verənnən sora bir əməlkanın üstünə töküf belə döyüşüyürdüm. Ta özü qopana kimi yaxı beldə qalırdı. Yaxıyı salmamışdan əvvəl həmin arvadın belini çəkirdim, sora yaxı salırdım. Belini çəkəndə belə eliyirdim, iki əyaxlarına bərk bir çit salırdım. Bel tərəfdən oxleynən çiti çəkif möhkəm-möhkəm pükürdüm. Bunna sora tez yaxıya salırdım. Bir də heç vaxt eşitmirdim ki, o adamda bel ağrısı, ya da uşaxsalma ola. Bu üsul çox vaxt uşaxsalmanın qabağını alırdı. Üçüncüsü, uşağı olmuyan arvaddara da özüm dərman düzəldirdim. O dərmannarı çox vaxt yayda eliyirdim. Çünki, təzə-təzə çiçəyləri yığıf hazırlayanda xeyri taha çox olur. Nəinki, quruduf saxlanan çiçəylərin. Ona görə də həmişə yaz-yay olan kimi müalicəyə başdıyırdım. Bu dərmannarı belə hazırrıyır-

dım, hamısı da uşaxlığa tampun olurdu.

1. Qızılla balığı duzsuz, təzə-təzə qəbul etməy; taa sümüyünə kimi içəridə ərimәlidi. Balıx diri, bütöv qəbul olunur.

2. Qızılla balıxnan erkəy, tişi yel civiziynən yaxçı-yaxçı qarışdırıf tampun eliyirsən.

3. Ağ soğan azca pörtdədif bəzir yağına vuruf qəbul eləməy.

4. Möhkəm soyutma, pişmiş yumurtdanın sarısını bəzir yağına vuruf qəbul eləməy.

5. Gicirtkan, dəndəni (əmənköməci) azca pörtdədif, bəzir yağına vuruf qəbul eləməy, vannalarını da qəbul eləməy.

6. Erkəy heyvanın quyruğunu erkəy, tişi yel cəviziynən qarışdırıf tapmun eləməy.

7. Qızardılmış kərpici çiy ayranın içinə salıf 20-25 dəqiqə üstə oturmax bütün soyuxlamıyı alır.

8. Qara sabınnan yuyunmax soyuxlamıyı alır.

9. Qara qoyunun kirri yununu bəzir yağınnan tapmun eləməy.

**Qarın ağrısı** – 1. Qarın ağrısının məlhəmi quymax çiçəyidi. Quymax çiçəyini çay kimi dəmləyif içirsən, onda ağrıyı kəsir.

2. Körpə uşaxda tez-tez sancılar olarsa, onda toyuq nəcisini qarnın üstünə döşüyürsən. Hər iksi sancını kəsir.

3. Çobanyastığı otuyla narın qabığını qaynadıb içəndə qarın ağrıları kəsir.

4. Yelcəviziynən ağ kökü qarışdırıf körpə uşaxlara verəndə sancıları kəsir.

**Mədə ağrısı** – 1. Balın üstünə yaxılmış qaymağı ac qarnına yeməy mədə xəstəliyinin dərmanıdır. Mədədə tikə qalan hündür yerə qalxıf ağzına su alırsan. Ordan yerə hoppananda suyu da içirsən, tikə keçir.

2. Qoxağın süpürgəni qaynadıf suyunu içməy mədə-bağırsağın birdəfəliy ağrısını kəsir.

3. Cəvizin içindəki nazik pərdələri yığıf qaynadırsan. Soyuyannan sora içinə birəz spirt qarışdırıf bir ay fasiləsiz içirsən; mədiyi sap-sağlam eliyir. 5 aloyun yarpağı 1 qaşıx qanyax, 2 qaşıx balı yaxçı qarışdırıf yeyəndə mədiyə xeyri çox olur.

**Yel xəstəliyi** – 1. Yeli olan adamın yelini çəyməy üçün gicirtkanı təzə-təzə yığıf yel olan tərəfə, ya da pütün hər tərəfə möhkəm-möhkəm vurursan. Adamın əti qıp-qırmızı köpüf qalxır. Bir neçə dəfə eliyəndə yel xəstəlifi qurtarıf gedir. Gicirtkan

vannasının da xeyri var.

2. İçi qara olan cəviznən bitki yağını qarışdırıf içəndə yel xəstəliyinə xeyri var.

**Baş ağrısı** – 1. Çiy qartofu dililiyif başa qoyanda ağrıyı kəsir.

2. Çiy kələmi yeməy, ya da pörtdədif başa qoymax, o da ağrıyı alır.

**Ürək ağrısı**. Ürəyi ağrıyan adama gülxətmi çayı yaxçıdı. Gülxətmiyi qaynadıf suyunu bir müddət içirsən xəstəliy keçir. Siviquyruğu, qantəvər, gülxətmi, yarpız, kəklikotu qarışığı da çox xeyirdi. Qızılgülün çiy-çiy yeməy də ürəyə xeyirdi.

**Qan təzyiqini endirmək**. Qan təzyiqi olan adam həmişə gərək qaynatdığı çayın içinə gümüş şey sala; onun xeyri var. Qoluna ya da boğazına gmüş taxa; bu da təzyiqi endirir. Təzyiq möhkəm qalxanda çiy kələmi, qartofu suda bişirif duzsuz, yağsız yeməy də xeyirdi, təzyiqi endirir.

**Qulaq ağrısı** – 1. Körpə uşağın qulağı ağrıyanda popiros tüstüsü verməy ağrıyı alır.

2. Bir-iki damcı bəzir yağı damızdırmax da xeyirdi, ağrıyı kəsir.

3. Yel cəvizini bir şeyə azca sürtüf, üstünə də ana südü qarışdırıf qulağa tökəndə ağrıyı kəsir (körpə uşağı).

**Diş ağrısı** – Qəzeti yumru püküf ağzıüstə tabağa qoyursan. Yuxarıdan od vuruf yandırırsan. Qəzetin yağı tabağa tökülür. O yağı tişə qoyanda ağrısı kəsir.

2. Sarımsağı ağrıyan tişə sürtəndə ağrısını kəsir.

3. Qara qoyunun sidiyi də tiş ağrısını kəsir.

4. Yumurta sarısı (yaxçı pişmiş yumurtada) ağrıyı kəsir.

**Çiban yarası** – 1. Bağa yarpağını əzif, suyunnan xamır düzəldif çibanın üstünə qoyanda deşir.

2. Soğanı, kələmi də pörtdədif qoyanda yarıyı deşir.

3. Əl xamırı qayırıf, üstünə də bal sürtürsən. Bal olan tərəfi yarıya qoyanda yarıyı deşir.

4. Qoyun quyruğunu yarıya qoyanda deşif yaxşılaşdırır.

5. Ağ göyərçin nəcisini südnən qaynadıf birəz qatılana yaxın çivanın üstünə tökürsən, o da deşir. Bunnarın birinnən işdətməy düz olur. Hərəsinnən bir dəfə qoyanda çivan azır. Gərəy birinən bir neçə dəfə qoyasan.

**Dəridə qaşınma**. Dərinin qaşınan yerinə tüpürcəy vuranda acışığı kəsir. Əgər qaşınan yer dərinnəşifsə, onda oruya düyü

yandırıf yağını sürtməy lazımdır.

**Qanaxmanın dayandırılması** – Hər hansı kəsilən yerdən möhkəm qan axır, dayanmırsa, çapıdı yandırıf, həmin yanığın üstünə şəkər tozu töküf qan axan yerə qoyursan. O dəqqə qanı kəsir.

**Öskürmə** – 1. Qırmızı inəyin südünü çiy-çiy öysürən (asması olan) adama verəndə xəstəliyi kurtarır. Gərəy südü inəyin altında, ordan sağıf, ordan içirdəsən.

2. Yumurtanın sarısını, şəkər tozunu, azca da qəhvə götürüf yaxçı-yaxçı qarışdırıf içəndə xəstəliy kurtarır.

3. Ağ soğanı kabab eliyif yeyəndə xəstəliy keçir.

4. Çişəy südü, (göy öskürəyə) keçi südü də öskürəyə xeyirdi.

5. Ağ göyərçinin qanını da içəndə göy öskürəyə çox xeyirdi; yanı öskürəyi kəsir.

6. Əvəliyi pişirif  yedirtməy də xeyirdi.

7. Turpnan balı, soğannan balı bir həftə qarannıx yerdə yatırdannan sora xəstiyə yedirdəndə öskürəyi kəsir.

**Göz ağrısı** – 1. Kərti çayın dənələrini ağrıyan gözün üstünə qoyuf, tünt dəminnən də silirsən o sahat yaxçılaşdırır. Qaynaxdan xarab olmuş, şişmiş gözü bircə dəfə uşax sidiyinnən silirsən, sidiyli dəsmalı sabaha kimi gözün üstünə qoyursan. Tezdən durursan kı, kurtarıfdı.

2.  Qız anasının döş südünnən gözün içinə tökəndə ağrıyı kəsir.

3. Gözə çıxan itdirsəyinə sidiy vuranda tez sağalır.

**Dil yarası, xarici zədə** – Təmiz bal dil yarasını kurtarır.

– Adamı it qapanda, təzə kəsilmiş əti yaranın üstünə qoyanda qana zəhərlənmə keşmir, şişmir, yaxcılanır.

2. Şişin üstünə quyrux piyi qoyanda şiş çəkilir.

**Böyrək xəstəliyi** – İtburnunu dəmləyif içəndə, cəfərinin götüyünü qaynadıf içəndə, qarpızın özü də böyrəy xəstəliyinə xeyirdi.

**Qrip xəstəliyi** – Kəklikotunu qaynadıf, tez-tez qrip olan adamların başını, burnunu buğuna verəndə xəstəliyi sağaldır.

**Yanığ** – Oddan, sudan yanan yerə o sahat tez-tez günəbaxan yağı sürtməy lazımdı. Biriki saat yağ sürtənnən sora (gərəy tez-tez sürtəsən), yumurtdanın ağını sürtürsən. Bunu da da tez-tez bir sahata kimi eliyirsən. Sora da qartofu tez-tez dilimləyif üstünə qoyursan. Qoyduğunu qaldırıf yerinə təzəsini qoyursan. Balıx yağı da yanığa kömək edir. Əvvəlcə yağ sürtülməyindən sora yağın lə-

kəsi qalır. Yanan yerə tex uşax sidiyi də vuranda yeri qalmır.

**Sidiy kisəsində tutulma** – Sidiy kisəsində tutulmalar olsa, bir-birinin dalıca gicirtkan, əvəliy, kuşəppəyi, dəndən ləyəni etməy və onnardan həm də yeməy tamamilə xəstəliyi yaxçılaşdırır. Ləyəni qəbul eliyəndə qurşağa kimi ləyənin içində oturmax lazımdır.

**Ayaqaltı ağrı** – Əyağın altı ağrıyırsa, genə də gicitkan, dəndən:, əvəliy ləyəni qəbul etməy, bir də günəşdən qızmış, qaynar torpağın üstündə yeriməy xəstəliyi kurtarır.

**Qurda qarşı müalicə** – Bir stəkan qabax çiyidi, bir qaşıq bal götürüf qarışdırırsan. Mədiyi yuyannan sora o qarışığı yeyirsən. Yastı qurtdarı tərtəmiz tökür.

2. Sarımsaxlı suynan mədiyi yuyanda balaca-balaca ağ qurtdar tökülür.

3. Ac qarına soyutma qartopu duzsuz-duzsuz yeyəndə soğulcan qurdunu tökür. Bunu da gərəy tezdən ac qarnına yeyəsən.

**Saç uzatmıya** – Saçı uzatmaxdan ötrü bir neçə əməllər var:

1. Müxtəlif meyvələrdən tutulmuş sirkəynən yuyanda saçı uzadır.

2. Saçı qatıxnan yuyanda uzadır, yumşax saxlıyır.

3. Saçı yuyannan sora axır suyuna bir-iki damcı nəfit tökəndə də, saçı uzadır.

Bu, bir-iki dəfə yox, uzun vaxt işdənməlidir.

## SINIQÇI ƏZİZİN MÜALİCƏLƏRİ

**Əzik.** Əziyi olanda da sığallıyıf yerini düzəldif, üstündən qırıxdakı olduğu kimi yaxılır salınır. Qırıx, əziy olan xəsdə gərəy bir neçə gun, yara yaxçılanana kimi mal-qoüun baş-əyağı yeyə.

**İncik.** Sümüy inciyəndə ağrı verir. Bu vaxt sümüydə çat olur, inciy yerdə qan yığılır. Onnan bilirsən ki, bu qırıx döyül, inciydi. Həmin yerə yaxı salınıf bağlanır.

Əyri tutmuş sümüyü qırıf yenidən bağlamaxdan ötrü nızılalı balığı ət maşınından keçirdif əyri qoyuf, bağlıyırsan. 4-5 günnən sora açırsan ki, əyri tutmuş yer boşalıf aralayıf. Sora təzədənnən yaxı salırsan. Taa çəkicnən vuruf qırmırsan.

**Qara yara, şirin yara**. Bu xəstəliyi kurtarmaxdan ötrü oymadərənnən istifalə eliyillər. Oymadərəni qaynadıllar. Onun suyunnan yarıyı yuyullar. Oymadərənin suyuna un çalıf yaranın üstünə üç əl qoyursan. Birdəfəliy xəstəliyi kurtarır.

**Dəriüstü yaralar.** Dərinin üstündə (nə yara olursa-olsun) olan yarıyı gəvən bitkisiynən kurtarmax olur. Gəvəni qaynadıf suyuna un çalırsan. Xamırı yaranın üstünə döşüyürsən. İki-üç əldən sora yara ölüf kurtarır. Dəndəni (əməkömәci) də gəvən kimi dəriüstü yarıya qoyanda xeyri olur.

**Yara.** Əvəliyin kökünü çıxarıf yaxçı qaynadırsan. Sıxıf, suyuna un çalıf yarıya qoyursan. Bir, iki əldən sora yara kurtarır.

**Mədə-bağırsaq xəstəliyi**. Limonu qabıxlı yaxçı əzirsən. Sora balnan qarışdırıf bir yerə qoyursan. Üş günnən sora 1-2 xörəy qaşığı acqarına yeyirsən, xəstəliyi kurtarır. Əvəliyi zeytun yağında pişirif yeməy də mədə-bağırsağa xeyirdi.

**Ürək ağrısı** Limonu balın içinə doğruyuf qarışdırırsan. Hər gün sabahlar bir xörəy qaşığı ac qarına yeyirsən, mədiyə də, ürəyə də çox xeyri var.

**Sıçancıq**. Kor siçanın ətini yedirirsən xəstə kurtarır.

**Qızıl yel.** Qızıl yel xəstəliyinə mum yaxısı yaxçıdı. Əmlakın ərimiş mumun içinə salıf çıxardırsan. Sora abrının üstünə qoyursan. Ağrıları çəkif sakitdədir.

**Simləmiş yaralar.** 2 yumrtdanın sarısınnan bir xörəy qaşığı yağ alırsan. Yumurtduyu bir qava qoyuf, yandırırsan. Yağı öz-özünə çıxır. Həmin yağı bir neçə dəfə yarıya sürtürsən kurtarır.

Alaca-bitkilərə düşən xəstəlik.

Ağunmaq-aclıq nəticəsində haldan düşmək.

Atıl-batıl olmaq-bədənin bütün əzalarının şiddətli ağrısı.

Azğıntı-əsli-nəsli bəlli olmayan adam, sahibsiz, azdırılmış it.

Aznaşmaq (aznaşıq)-kiminləsə öcəşmək, göz yağı yemək (öcəşik).

Aynaçı-olduqca çirkin adam.

Anqut-çirkin və idbar adam.

Afaranı uçmaq-qorxu nəticəsində bərk həyəcanlanmaq.

Ağuz-dələmə (təzə doğulmuş inəyin südündən hazırlanır).

Aynıt-yöndəmsiz və çirkin adam.

Aloyuşuğunu almaq -dava-dərman nəticəsində şiddətli ağrı. müəyyən qədər sakitləşəndə deyərlər: canımın əloyuşluğu alındı.

Alyana-şayana gəlməyən – (iş)-ağıla gəlməyən, gözlənilməyən (iş)

Atoyurçu-özündən qəribə hoqqalar çıxaran adam. Kiminsə rüsvayçılığını zarafatla üzünə vuran adamlar barəsində də işlənilir.

Afiyət olsun-şirin olsun, nuş olsun.

Atılama-çox hissəsi qatıq, az hissəsi sudan ibarət olan içki.

Avdıx-çox hissəsi su, az hissəsi qatıqdan ibarət olan içki.

Asılanmaq-Allaha qarşı çıxıb taledən şikayətlənmək.

Acələ-tez, təcili.

Acı xamra-xəmir yoğurmaq üçün maya kimi istifadə olunan acıdılmış xəmir.

Aloy-ploy-şənbə və novruz bayramı axşamlarında qalanan tonqal.

Afşarramaq-inək sağılarkən əmcəkdən çıxan süd şırnaqlarının səsinin ahəngə salınması.

Andır-sahibsiz.

Ağartı-süddən hazırlanmış məhsul.

Açalaqda-yumbalaqda-namünasib, məqamsız yerlə, hər hansı bir qalmaqalın sakitləşməsini gözləmədən.

Aylayıb-illəmək-həddindən artıq yubanmaq.

Alaçalpoy-qar qarışıq yağış.

Aroy-yuyulmuş paltardan qalmış çirkli su.

Ağızəmməz-əfəl, tənbəl, iş bacarmayan.
Ağırlıq-uğurluq - azar-bezar, dərd, bəla.
Anac-1.yumurtlayan toyuq və kürt yatan toyuq. 2.Təcrübəli, işini tam dəqiqliyi ilə bilən adam (məc).
Aşan-kaşan - saya-hesaba gəlməyən.
Alanğı-1.alovu gücləndirmək üçün təndirə atılan çır-çırpı 2.Təndirin, sobanın bir-iki dəqiqəliyə əlüstü qalanması.
Ağzı pis olmaq-hamilə olmaq (ağzı pisdir-yəni hamilədir, ürəyi turş, şor və s.yeməklər istəyir).
Alısın-vaxtından ya çox əvvəl, ya da çox sonra bitmiş göbələk, bitki.
Aldəyişik-ikitərəfli razılaşma əsasında bir-birinə nə isə vermək, dəyişmək.
Ağamallahsaxlasın - ev-eşik işlərindən yayınıb gəzəyənnik edən.
Axbun-hələ qurulmamış yaş peyin.
Alaqallağa qoymaq-adına hər cür hədyan demək.

Bökən-qalın təndir çörəyi.
Bad-təndirin divarları.
Bəlleylənmək-kimdənsə gizlənən bir kəsin boynunu uzadaraq uzaqdan onu axtaranı izləməsi.
Bırız-bırız gəzmək-qaşqabaqlı dolanmaq, incik və küsülü münasibətdə olmaq.
Bərrədayı-özbaşına.
Baş-baş-Arpanın və ya buğdanın döyülməmiş, sünbüldə qalmış hissəsi.
Bıcı-anaya, bacıya və başqa qadın qohumlara müraciət.
Batdax-qatı palçıq.
Bicinə gəlmək-düyənin vaxtından əvvəl mayalanması, boğaz olması.
Bicərtdək-tərbiyəsiz və dəcəl uşaqlara verilən ad.
Basma-mal-qara peyininin 10-15 sm. qalınlığında yayılıb ayaqlanması. Sonradan kəsilərək yanacaq kimi istifadə edilir.
Bulğur-yarma hazırlamaq üçün bişirilmiş buğda.
Bılıx-baca-bayrama qədərki bir il müddətində nişanlanmış və yaxud ailə qurmuş gənclərin bayram mübarəkbadlığı.
Balıqbeli-ev üstü örtməyin bir forması.

Boşuruğu (durmaq)-dayanıqsız tarazlıq vəziyyətində durmaq.
Bacaxlaşmaq-ayaqlaşmaq.
Bıyığ - bığ.
Bavar eləmək - dözmək, tab gətirmək.
Bulul-kiçik topalar şəklində yığılmış ot.
Burunlamaq-boz sifət göstərmək, başqasanın hərəkət və davranışını qəsdən bəyənməmək.
Barranmaq-1.müxtəlif yeyinti məhsullarının üzərinin kif atması. 2.Ağız boşluğu və dodaqlarda quruyub ağarmış selik təbəqəsi.
Bıldır-bıldır ağlamaq-iri damlalarla dayanmadan göz yaşı axıdaraq ağlamaq.
Baylamaq-hər hansı vacib bir işi bacarıqsızlıq üzündən və ya bilmədən zay etmək, yarıtmamaq.
Barınmaq-faydalanmaq, göz tikəcəyin və umduğun şəxsdən yarımaq.
Burcutmaq-müxtəlif bəhanələrlə hər hansı bir işdən boyun qaçırmaq.
Bafard etmək-dözmək
Bənöyüş-bənövşəyi.
Bədafa-müftə, boş yerə.
Bayılmaq-özündən getmək, huşunu itirmək.
Bilik-qazın balası.
Binəli-daima, həmişəlik.
Boğma-(boğma çıxarmaq)-qadınların gözləri götürmədikləri adamın arxasınca etdikləri əl hərəkəti. Nəzərdə tutulan adamın arxasınca barmaqlar açıq, pəncələr azca yuxarı qatlanmış vəziyyətdə istiqamətləndirilir.
Bayanqı olmaq-yarıyuxulu olmaq. Bərk yorğunluğa baxmayaraq yatıb dincəlmək imkanı əldə edə bilməmək.
Bocca (bozca)-üzə düşən ağ rəngli ləkə.
Bök eləmək-malik olduğun bir şeyi müftəcə ona-buna paylamaq.

Cıvıx-duru (məhlul), qatı olmayan.
Cələ-gərmənin (təzək) qurumaq üçün xüsusi düzümlə düzülməsi.
Cərcənək- iç-içalat.

Cında-yararsız əski.
Cılbır-təzə pencərdən və yarmadan hazırlanmış yemək növü.
Cırbız-söz götürməyən, narazı qaldığı hər bir şeyə mütləq öz münasibətini bildirən.
Cıppa-yuxa təndir çörəyi.
Cızdax-quyruq qızartması.
Cız-cizgi, xətt.
Colpa - atın cılovundan tutan adam.
Cingənə-cinxasiyyət (qız).
Cev-cib.
cırtqoz-hər sözə cavab verən.
Cecim-palaz növü.
Cey-tərəf, işbirliyi,məqsədbirliyi ilə əlaqədar 5-10 nəfərlik qrup. Ən çox qadınların süd alıb verməsi ilə əlaqədardır.
Cirtmə-ayağın ucu ilə vurulan sərt zərbə.
Cınqır-vedrə.
Cicik-şüşə, şüşə qırıntıları.
Curum-başqasına cərimə olan bacarıqsız adam.
Cöngə-altı ayı ötmüş buzov.

Çavımaq-özünü oda-közə vurmaq, daim hərəkətdə olmaq.
Çamçax-Ekskavatorun yük götürən hissəsi.
Çapıt-əski, cır-cında.
Çimçəşmək-nədənsə iyrənmək.
Çatoy-əxlaqdan pozğun.
Çappa-rəqs vaxtı paça vurmaq.
Çalıbalma-davakün, nadinc, şuluq.
Çalğu - iri süpürgə.
Çiftənmək - soxulmaq, pərçim olmaq.
Çəkəllək - şap-şap.
Çıqqır-səs; çıqqırı çıxmır-səsi çıxmır.
Çirgimək-daimi olaraq istifadə edilən bir şeydən bezikmək.
Çəçimək-yemək vaxtı qidanın tələffüs yoluna düşməsi nəticəsində öskürmək.
Çəlləşik-qatma-qarışıq, tərs.

Dıbır-erkək və cavan keçi.
Dumbuz-yumruğun alt tərəfi ilə kürəyə vurulan zərbə.

Dınqılı-çox kiçik, bapbalaca.

Duş-yuxu

Danqa-arıq, bir sümük-bir dəri.

Dümsük-dirsəklə vurulan zərbə.

Dıcıq etmək-küsmək.

Dıbırcıqlanmaq-özünü öymək.

Dırcılmaq-haqlı sözə dözməyib küsmək.

Dirciklәmək-hoppana-hoppana qaçmaq, acığından atılıb düşmək.

Düzdənmək-var-yoxdan çıxmaq.

Dürzü-namussuz, qeyrətsiz.

Dəbərmək (dəbərtmək)-tərpənmək, söz qaytarmaq (tərpətmək, qurdalanma).

Danqır-arıq, sümükləri çıxmış heyvan.

Doruq-qabığı soyulmamış nazik tir.

Düdük-1.nəfəs musiqi aləti 2.xeyir-şər qanmayan adam.

Dəbbə-köhnə işləri qurdalayan adam.

Dıydıx-boş, mənasız iş tutan və ya danışan adam.

Dibək-yarma döymək üçün istifadə olunan içi oyulmuş göy daş.

Dingə - baş geyimi (gümüş və qızıldan hazırlanırdı).

Didişmək-bir-biri ilə mübahisə etmək.

Darağına salmaq-fürsətə salmaq.

Dingiləfis oynamaq-boş işlərlə məşğul olmaq.

Diblərdə qalmaq-adam içinə çıxmamaq, qarıyıb evdə qalmaq.

Damnançıxma-bir yaşı tamam olmuş buzov.

Döyməc-narın doğranmış çörək və ərinmiş yağdan ibarət yemək növü.

Düngür-övladlarının bir-biri ilə evlənməsi nəticəsində qohum olmuş valideynlərə verilən ad.

Dınqıra çalmaq-vedrə, qazan və s. əşyalardan istifadə etməklə ritmlər ifa eləmək.

Dırdan (dırdança)-yetim (yetimçə).

Dıdan-siçan balası.

Dəfə-darağını çəkmək-rədd olub getmək.

Dəmgil-dəmgil-seyrək-seyrək, fasilələrlə.

Dişəmək-kirkirə və dəyirman daşlarında dənin ufalanması və üyünməsi üçün dişlər açılması.

Dirənmək-1.Bir sözün üstündə möhkəm dayanmaq, inad

göstərmək.2.Uçan bir şeyə dayaq olmaq.

Dükcə-cəhrənin milinə (iyinə) uzunsov şəkildə sarınmış əyirilmiş sap yumağı.

Dimdələnmək-iştahasız, candərdi yemək yemək, ürəksiz işləmək.

Durtdumduymaz-danışığını bilməyən adam.

Duvalıqlı-ağlını itirmiş, duaya ehtiyacı olan adam.

Dambat-lovğa, şişkin.

Dülü (dulley)-uca, hündür.

Dərdəqayım-dözümlü.

Dayıdostu-dayı arvadına müraciət.

Dolama-barmağın çevrəsini sarmış yara növü.

Devikmək-narahat şəkildə boylanmaq.

Daratmaq-qablanmış, nizamla düzülmüş, nəyinsə içinə doldurulmuş bir şeyi darayıb-tökmək.

Dazalax-daz, keçəl.

Duzdaq-1.mal-qaranın duz yalaması üçün yer. 2.Tor, tələ.

Dılğır-mərifətsiz, yerini bilməyən.

Dəhləmək-qovmaq, qovub içəri doldurmaq (toyuq-cücəni, mal-qaranı).

Dikci-sözə baxmayan, söz qaytaran.

Dirgan-yaba ilə götürülən ot və ya küləş tayı.

Döşənmək-üzüqoyulu bir yerə uzanmaq, ölüm yatağına düşmək (məc.)

Düşük-utanmaz, ədəbsiz, pis yola düşmüş adam.

Dabboy-kəmərdən asılan ağzı burğu-qapaqlı su qabı.

Daşgir (daşgözər)-iri deşikləri olan xəlbir.

Epey (epeycə)-çox (çoxluca).

Eydirmək-inəyi avazla sağmaq.

Eyrəti-çirkin , bədheybət.

Eymənmək-qorxmaq, xoflanmaq.

Ennəmək-heyvanın qulaqlarının ucundan azcacıq kəsmək, çərtmək.

Endirmək-adam yerinə qoymaq, layiq bilmək.

Eycə-yaxşı-yaxşı, yaxşıca, diqqətlə.

Eylik-yaxşılıq, hörmət.

Eldənçıxarı-rüsvayçı, elin xoşuna gəlməyən.

Eyvallah - xudahafiz, sağollaşmaq.

Əndək-döndək-sözünün üstündə durmayan.
Əfkələmək-bir şeyi ovucla əzişdirmək, qırışdırmaq.
Ərişmək (ərişik)-zarafat etmək (zarafatcıl).
Əfsəmək-düyünü, taxılı və s. dənləri məcməyi içərisində xüsusi hərəkətlərlə və üfürməklə zibildən təmizləmək.
Ədə-düdədə saxlamaq-əzizləmək, hörmətdə saxlamaq.
Əhli-yaşlı, lakin hələ qocalmamış adam.
Ərdəmli olmaq-ləyaqətli, ədəbli və işgüzar olmaq.
Əhədi alınmaq-haldan düşmək, var-yoxdan olmaq, saysız-hesabsız müsibətlərə düçar olmaq.
Ərdək-2x3 sm ölçüdə yağda qızardılmız xəmir.
Əppəyişi-boyat çörəyi doğrayıb yemək üçün qovrulmuş əriştə ilə bişirilən şorba növü.
Əvillənmək-körpə uşağın yalandan ağlayıb anasına əzizlənməsi.
Əçə-vəçə soruşmaq-bütün təfərrüatı ilə soruşmaq.
Əlçim-uzunsov şəkildə ovuca yığılmış daranmış yun.
Ərcanlı-həyat yoldaşını çox sevən qadın.
Ərcəşmək-dilxoşluq etmək, öcəşmək.
Əcaz-mürəkkəb qurğu, baş çıxmayan iş.
Əvlət-övlad.
Əyiş-təndirdən çörək çıxarmaq üçün işlədilən dəmir alət.
Əmgək-başın alından yuxarı qabaq hissəsi.
Əməlli (əməllənmək) – yaxşı kök (yaxşılanmaq, kökəlmək).
Əmidostu-əmi arvadına müraciət.
Əndərqat-əndərqat - sanballı, las-las.
Əndərmək-qabı ağzı aşağı çevirib içindəki hər hansı bir şeyi sürəkli tökmək.
Əlləmayaq-nadinc, şuluq, öcəşik.
Əvədimək-eşələnmək.
Ənqəsid-bilərəkdən, qəsdən.

Faraş-vaxtında,təzə-təzə; (Allah işinə faraş versin-yəni niyyətə tez çatasan).
Fasıl-müddət.
Fıs-boş; qoz fıs çıxdı, boş çıxdı.

Fənikmək-naümid vəziyyətdə başını itirmək.
Fırıq-pis; işlər fırıqdı-işlər pisdi.
Fır-bədəndə əmələ gələn sümük xarakterli şiş.
Fəfə-çox şeyi fəhm edə bilməyən.
Fırıtdamaq-qızışdırıb təhrik eləmək.
Fot eləmək-axırına çıxmaq.
Fşoy-taxılın içində bitən sıx vələmirə oxşar alaq otu.
Füşkürək-fit.
Fiyət-qiymət, dəyər.
Froyun olmaq-kimdənsə qaçmaq, xoşu gəlməmək.

Gap etmək-söhbət etmək, laqqırtı vurmaq.
Gəviş-mal-qoyunun gəvşəməsi.
Gənə-yenə.
Gəmik-sümük.
Gəvələmək-quru tikəni iştahasız, candərdi çeynəmək.
Gənəşmək-getmək, uzaqlaşmaq.
Görk-bədnam, adı pisliyə çıxan.
Girdin-girdin -qat-qat.
Gicimək-ortaya deyilmiş sözün, haqlı tənqidin özünə aid olduğunu hiss edib narahat olmaq, cırnamaq.
Gərdən-bədənin ombadan yuxarı hissəsi. Məs. gərdən çəkmək-dərdi-səri olmadan keyf içində yaşamaq.
Güzdük-payızlıq taxıl, payızlıq əkin sahəsi.
Gir-təpər-qüvvə.
God-iri ölçü qabı.
Göpənək-biabırçı, rüsvayçı.
Görümçə-üz görmə haqqı, nəməri.
Gönsökən-hər şeyə tamah salan.
Gəm-taxıl döymək üçün ucu yuxarı qatlanmış, altına çaxmaq daşı, dəmir qırıqları çalınmış qədim kənd təsərrüfatı aləti.
Gəvəzə-çox və boş danışan adam.
Gond-yoğun tir, karan.
Gavır-kafir.
Gülbəngi-kəlağayı.
Günü-eyni kişidə ərdə olan iki qadının bir-birinə münasibət normasının adı.
Gözə-su hövzəsinə malik olan yaşıl çəmən.

Gərməşoy- ağac növü, onun yaşıl budağından kəsilmiş nazik və uzun çubuq.
Gürbüz-iri, yekəpər.
Günsük-gün vurmuş südün verdiyi dad.
Gilif- dar keçid, hasarda qoyulmuş dar su yolu.
Gəvən- dağlarda bitən tikanlı, yağlı bitki. Qıtlıq vaxtları yanacaq kimi istifadə edilirdi.
Güyüm-ağzı dar uzun su qabı.
Günəvar-gün tutan yer.
Ged-kiçik ot qalıqlarını daşımaq üçün istifadə edilən uzun ağac.
Gəzyazma-vaxtından əvvəl mayalanmış düyə.

Hacı-bucu - başdan eləmək.
Hayta-tutmaca; haytası qalxıb-tutmacası tutub.
Hillə-hiylə, tor.
Him-1.özül, bünövrə. 2.İşarə, qandırmaq.
Harba-qozbel.
Həvəçi-mamaça.
Həvə-xana (xalça, kilim toxumaq üçün qurğu).
Hiz-utanmaz, həyasız qız uşağı.
Harma-dirəyə vurulmuş mıxça.
Haqıx-qiymətli bəzək daşı, muncuq.
Hədik-dənli və paxlalı bitkilərdən hazırlanan xörək. Körpə uşaq ilk dəfə diş çıxaranda və müxtəlif mərasimlərdə hazırlanır.
Havar-1.havar salmaq-hay-küy salmaq. 2. Havara çatmaq-köməyə çatmaq, hoyuna yetmək.
Hodax-cütcünün köməkçisi, öküzlərin kəndirindən tutub lazımi istiqamətə çəkən adam.
Hingilti-ədəbsiz və mənasız gülüş.
Hibə-yuva; çilik-ağac oyununda dayaz çuxur.
Har-otun tayadan səliqə ilə işlənən hissəsi.
Hertik-ədəb gözləməyən başıaçıq gəzəyən qız.
Hırı tutmaq-dəlisi tutmaq.
Hayıxmaq-qudurğanlıq eləmək, həyasızlaşmaq, bolluqdan qudurmaq.
Hayapözənlik salmaq-boş şeyin üstündə özünü gözə soxmaq üçün hay-küy salmaq.

Hedi qurmaq-təkbaşına yasa batmaq, bayatı deyib ağlamaq.
Havlı-dəhliz.

Xəmişdik-xəlvət yer, sakitlik.
Xıl-çoxluq, it sürüsü.
Xır-daşlı, gilli yer.
Xırça - balaca boy.
Xıla-ayaqyolu.
Xırpilik-balacaboy.
Xım-xım-qapalı, məqsədi bilinməyən adam.
Xəvçi-qonşularla növbə ilə süd dəyişən.
Xurduna girmək-qılığına girmək.
Xəfə-bürkü, havası boğuq yer.
Xəpək-tüstü çəkildikdən sonra bacanı xapamaq üçün istifadə olunan əşya.
Xəcirgət-qazan asmaq üçün təndirin ağzına qoyulan dəmir əşya.
Xəcil olmaq-bədbəxt olmaq.
Xərgə- sahibsiz, tökülüb-dağılmış.
Xıbar-tikinti üçün hazırlanan daşdan qopmuş uzunsov yuxa daş qırığı.
Xırxa-qolsuz və qalın pambıq yun gödəkçə, dərviş geyimi.
Xaltax-işə haram qatan, əyri adam.
Xərək-əkin vaxtı kotanın ağzından qalan şumlanmamış nazik şırım.
Xösöy-ev, koma.
Xər-xəşək - zir-zibil.
Xizər (xırxı)- bıçqı.
Xəsim-ortaq.
Xosumat- qaş-qabaqlı, eqoist.
Xəkə qoymaq-əl çəkmək, tərgini vermək, susmaq.
Xəşənəkli-çorlu, xəstə.
Xon açmaq-geniş süfrə açmaq.
Xeyrət-ehsan.
Xünük-isinmiş su.
Xızan-bir nəfərin başına toplanmış çoxluq.
Xızan təpmək- bir neçə adamla zarafatlaşmaq.
Xızdamaq-döymək, vurmaq.

Xuruşdu-paxıl.
Xozan-köhnə əkin yeri.

İkiləmək - iki eləmək
İrgənçi-iyrənc işlər tutan adam.
İllət (illətli)-çarəsiz xəstəlik (çarəsiz xəstəliyə tutulmuş adam).
İrbət-pis işlərə ibrət göstərilən adam.
İrişmək-mənasız yerə, arsız-arsız hırıldamaq.
İrmikləmək-irini xırdadan seçmək.
İlıtmaq-1.yumartanı boş bişirmək 2.Kiminsə zəhləsini tökmək.
İdaradan çıxmaq-yorulub əldən düşmək, qəza və ya döyülmək nəticəsində çoxlu xəsarət almaq, tam müflisləşmək.
İdarası olmamaq-mümkünü olmamaq.
İdm (idim)-uğur, niyyət (idmin pisdir-niyyətin pisdir).
İrəfətə-Təndirə çörək yapmaq üçün istifadə olunan ev əşyası.
İnağ olmaq-həddindən artıq yağ və yumurta yeyib iştahası pozulmaq.
İflim etmək-oynaqlardan ayıraraq əti doğramaq.
İmsiləmək-1.iyləmək 2.heyvanların bir-birini nəvazişlə iylənməsi.
İv-bədənin oynaqları.
İrpənmək-iyrənib diksinmək.
İrəmşəmək-başdan çıxıb nəyə isə meyl etmək.
İldırmaq-boğaza yığmaq, bezdirmək.
İybaldır-nazik baldır.
İsbaha - baha, qiymətli.
İbtida - əvvəl, qədim.
İy-cəhrənin və ya teşinin sap dolanan mili.
İfliyi (işliyi) üzülmək-əlləşib çalışmaqdan əldən düşmək (ip bağlanan yerin, yəni belin nazilməsi).
İrz-irəng-adamın rəngi-ruhu.
İrsiz-abırsız, utanmaz.
İsraf-qənaət.

Kambax-uçuq-sökük, dağılmış (və ya dağılası) ev, ocaq.
Kirtik-ərimiş sabunun, əzilmiş qurudun kiçik hissəsi.

Kələcoş-quruddan düzəldilmiş yemək növü.

Kürsək-itlərin nəsl artırma mövsümündə bir yerə toplaşması.

Küz-qoyunları salmaq üçün taxtadan kiçik yer.

Kəmçik-torpaq sahəsinin bir küncü, çıxıntısı.

Kaşan-biçilib yığılmış ot qalaqlarının uzun və qalın örkənlə qoşqu heyvanları vasitəsi ilə müəyyən yerə çəkilməsi.

Kərki-yonucu dülgər aləti.

Kərmə-basmanın, qoyunun ağılında yığılıb bərkimiş peyinin kvadrat şəklində kəsilərək çıxarılmasından ibarət yanacaq.

Kəsik-qız övladına deyilir (xətrinə dəyməyin, kəsikdir, axırəzəl bu evdən gedəcək) .

Kəf-ərinmiş kərə yağın dibinə çökən hissə və ya qaynayan ətin üzünə yığılan köpük, çirk.

Köntöy-nahamvar, nataraz.

Kəm (kem)-1.Cilov. 2.Özünü asmaq üçün boğaza salınan kəndir.

Kirt-tən yarı.

Kün-yumurtanın arxa tərəfi.

Küngün-qozbel.

Kürüşnə-kürü, toyuğun yumurtalığı.

Kirnaz-danışmağa xəsislik edən adam.

Kafır-rəhmsiz, qəddar.

Keçinsoy-nazik astarlı dəri gödəkçə.

Kərt-düz bir şeyi iki və daha çox hissələrə bölən bucaq (lar).

Kürd yarması-azacıq donmuş yağış damlası, tam buza çevrilməmiş dumurça.

Kütah olmaq-tükənmək (ömrün kütah olsun-ömrün tükənsin).

-Küt-təndirin divarından qopub küldə bişən xəmir yayması.

Kalafa-çox geniş çala, enli kilif.

Küflə-külfə, təndirin nəfəsliyi.

Kəllə-daban-baş ayaq (kəllə-daban danışmaq-sözü qəsdən tərsinə çəkmək).

Koma-nəyinsə sıx və çox olduğu yer.

Kom-mal saxlanılan pəyə.

Koğ-koğuş-müvəqqəti düzəldilmiş alçaq torpaq daxma.

Kosdanmaq-üst-üstə qalaqlanmış, bir yerə yığışmaq.

Kəprimək- bərkimək.

Kələfətir-alovu səngiməmiş təndirə yapılan (əlüstü) çörək. Nökər-naib üçün nəzərdə tutulmuş.

Kora mıx-mismar.

Körrü-köməşdi - yerli-dibli.

Körtmel-kobud, nahamvar.

Kölük-buynuzsuz qoyun, quzu.

Köp-şiş, şişmanlıq xəstəliyi.

Küpəmək-həddindən artıq yemək, nəyi isə axıradək çalmaq.

Köləmək-karxanadan qırılıb gətirilmiş daşı lazımi qaydada yonub hörgü üçün hazırlamaq.

Kefqom-kefcil.

Karsala-qalınbaş, söz təsir eləməyən adam.

Karavəngi-qanmaz, laqeyd.

Komaş-tütün qırıntısı (maxorka).

Kösöy-yarıyadək yanmış odun.

Kükrəmək-əsib-coşmaq.

Kərti-boyat, köhnə.

Kirsoy-saçın və ya paltarın təmiz yuyulmaması.

Kiriməkq-susmaq.

Qərəmət (qərəmət basmaq)-(tənbəllik, ağırlıq) (tənbəlləşmək).

Qalın - 1. təndir çörəyi, 2. qalın adam - qanmaz adam.

Qənətmə-yemlik südündən (şirəsindən) hazırlanmış saqqız.

Qamqax-balta ilə yonulmuş ağac qırıntıları.

Qərtmək-dərinin və ya yaranın üzərindəki çirk qatı.

Qocunmaq-qaşınmağı əllərin köməyi olmadan bədən hərəkətləri ilə rəf etmək. Məc; təsirli sözdən narahat olmaq.

Qomarmaq - qəflətən mühasirəyə almaq.

Qurcuxmaq-durduğu yerdə narahatcasına hərəkətlər etmək.

Qurcalanmaq-qurdalanmaq, özünü işləyən kimi göstərmək.

Qərcmək-1.Nəyisə uzunluğundan müəyyən hissəni kəsib qısaltmaq. 2.Baş və şəhadət barmaqları ilə (açılı halda) ölçmək.

Qırışığı açılmaq-eyni açılmaq.

Qırışmal-bəd fikirli, şərəfi, namusu vecinə almayan.

Qırcın-çör-çöp.

Qərrahlanmaq-kimə və nəyə isə ümidli olmaq.

Qırtım-xarici görünüşün, hərəkətlərin və üzün ifadəsinin müəyyən halı.

Qımıldamaq-azacıq-azacıq tərpənmək.

Qıncıtmaq-1.siçanın parçanı kəsib-doğraması. 2.Nəyinsə ucundan dişləməklə və ya küt alət zərbəsi ilə kəsmək. 3.Qıncıq-qıncıq olmaq-hirsindən və ya utandığından qızarmaq.

Qaçamaya qaçmaq-şər gəzmək, bəhanə gəzmək.

Qarğaşa-əziyyət, zəhmət.

Qaravənə-qalın tənəkə vanna.

Qatma-ayaqqabı bağı.

Qoşam - iki ovuc tutumu.

Qurumuzd etmək-işlədib haqqını verməmək.

Qilley-baş barmaqla şəhadət barmaqların (tam açılmış halda) ucları arasındakı məsafə.

Qızırğalanmaq-xəsislik etmək.

Qayım - həmişəlik, daimi.

Qıyımsız - cimic, heç kəsə heç nə qıymayan.

Qıjğırılmaq - şeşələnmək.

Qöcük-qadınlar üçün üst geyim.

Qıdanı-qısa baş örtüsü.

Qanqıc-bitkini kökü ilə birgə çıxarmaq üçün işlədilən ucu döyülmüş dəmir alət.

Qursax-mədə.

Qırxlıq-qoyun qırxmaq üçün qayçıya oxşar alət.

Qırp etmək-taxıl bitkilərinin sünbül hissəsini kəsib yığmaq

Qantar-çiyində su daşımaq üçün hər iki ucuna qarmaq asılmış ağac.

Qarama-ovucun içi ilə başa vurulan zərbə, qapaz.

Qamətli - qəmənin altından kəmərə bağlanan sümük dəstəkli bıçaq.

Qımcırramaq-tolazlamaq.

Qoma-dəstə (gül və s. dəstəsi).

Quşquşu - düşüncəsiz, yüngül hərəkətlər edən adam.

Qarsmaq-gen və ya uzun paltarı tikiş vasitəsi ilə ölçüyə salmaq.

Qaytan-ayaqqabı bağı.

Qonqutmaq-çöməlib oturmaq.

Qaranquc-dırnaq ətrafındakı dəri qatının soyulması.

Qoxağan-yabanı süpürgə növü.

Qoçbaşı-ev üstü örtməyin bir forması.

Qıdmaq-bir adama nəyi isə təmənnasız verərkən onun kiçik bir hissəsini qısıb saxlamaq.

Quzulamaq-divarın, dağ süxurlarının nəm çəkərək möhkəmliyini itirib tökülməsi.

Qarqara-yazbaşı qarın əriyib boşalması.

Qırğın-qarın ərinməsi nəticəsində (yazbaşı) dağlardan axan sel.

Qurdyeməz-mal-qaranın boyun fəqərəsində yeyilməyə yaramayan hissə.

Qumquma-ağzı dar su qabı.

Qarqovan-astananı qar və sudan qorumaq üçün tikili.

Qüzdüh-qozbel.

Qıy-qıy-uşaq oyunu.

Qıypınmaq-ağrıdan diksinmək.

Qurdeşənək-xora növü.

Qıvla-qiblə.

Qartoyunu qaldırmaq-hoydu-hoyduya qoymaq, adını çıxarmaq.

Qurğu-1.dünyanın qanunauyğunluqları 2.Qəsd, hiylə.

Qıda (muda)-göz dikdiyin bir şey (murazında olduğun)

Qat-qat-mal qarnının bükümlü və qalın hissəsi.

Qılqənə-qıl kimi nazik (arıq).

Qarmalamaq-qamarlamaq.

Qıcqırılmaq-əsib-coşmaq, kiminsə üstünə xoruzlanmaq.

Qıloyşa-yaltaq.

Qomroy-qonur (rəng)

Qarayandı-ev-eşik işlərini təkcə yola aparan çalışqan gəlin.

Qərəli gəlməmək-səbri tükənmək

Qısnaq-dar ayaq üçün, çətin gün üçün qısdırılıb saxlanmış şey.

Qırtdatmaq-ağına-bozuna baxmadan istəyəni danışmaq.

Qəhət-tapılmayan (qəhətlik-yoxsulluq).

Ləlöyün-yalvarıb-ləliyən adam.

Ləstik-yun parça növü.

Ləjim gəlmək - özünü göstərmək.

Lapban-iri, lomba (lapban ayaq-iri ayaq).

Lor - ayrandan-qaymaqdan yağ alındıqdan sonra yerdə qalan hissədən alınan yeyinti məhsulu.

Lort-löhrəm yeriş (lortdaşmaq-tənbəlləşmək).

Ləpik (daş) - ensiz yuxa (daş).
Ləvərdə döymək-baş girləmək, boş-boş danışıb vaxt keçirmək.
Latı-qaxı - qaxınc, söyüş.
Loş-tənbəl, ərincək.
Ləvin-ləvin - çeşid-çeşid, müxtəlif hazır yeməklərə və meyvələrə aiddir.
Lıx-boş yumurta və s., lax.
Lopa-Novruz bayramı və bayram ərəfəsindəki çərşənbə axşamları məftilə bağlanıb göyə atılan məşəl.
Ləhləmək-tövşümək.
Ləlik olmaq-əldən-dildən düşmək.
Lopux-barmaqların ucu ilə şişirdilmiş ovurda vurulan yüngül zərbə.
Lütdənmək-var-yoxdan çıxmaq.
Lalıqqa-dildən kasad, nitqi əngəlli.
Lalanqa-fətir növü (un, süd və yumurtadan ibarət olur, yağda qızardılır).
Lillətmək-gizlətmək.
Lafazan-laf danışan, yalançı.
Loda-böyük ot qalağı.
Ləvərə-iri (ləvərə dodaq-iri dodaq) (ləvərə danışmaq-yekə danışmaq).
Lədim-mazarrat, eyhamla danışan, çox bilən (mənfi mənada)
Lıxtırım-dolu, silə.

Minder (-çə)-təndir səkisinin üstünə sərilən parça-palaz.
Mazman-ağır, qırtımlı.
Matrax - sallaq.
Mırız-qaş-qabax (mırızdanmaq-qaş-qabaq tökmək).
Mət-hadisə, əhvalat (mət eləmək-əhvalat danışmaq).
Mışqı-tula.
Mərtək-evin üstünü basırmaq (örtmək) üçün istifadə olunan ağac parçaları.
Meçid-məscid.
Mayıf-gözdən və ya ağıldan əngəlli.
Merət-miras.
Mənsil-süddən alınan yeyinti məhsulları.
Murçalıq-kökü yeyilən yabanı dağ bitkisi.

Mollabaşı-qar çiçəyinin bir növü.
Mığı-mığmığa.
Mitil-döşəyin içi örtüyü.
Mədik-kökü yeyilən yabanı bitki.
Mərək-ot-ələf, küləş, saman saxlanılan tikili.
Mözələk-mığmığa, böcək yığnağı.
Mıy-mıy-işyarıtmaz, ləng iş görən.
Mağıl - yaxşı, yerində olan.
Mağzal - nov (mal peyini üçün).
Mot-motu-söz-söhbət (Mot-motuya qoymaq - söz-söhbətə salmaq).
Mətəris-səngər.
Mazax - şit zarafat (Mazaxlaşmaq-oynayıb zarafatlaşmaq; mazax gəzmək-əyləncə gəzmək).
Matrax-bir qat göndən ibarət dəstəksiz qamçı.
Məc-xışın dəstəkləri.
Məjgal-cüt əkərkən xışın dəstəyindən tutan adam.
Mehirsəmək-mehir salmaq, isnişmək.
Mərgümüş-zəhər dərmanı.
Mustux-içində su saxlanılan iri həcmli daş. Daşın içi yonularaq çıxarılırdı.
Mırroy-nəsl artırma mövsümündə pişiklərin cinsi əlaqəsi.
Mürlət-dam üstü ayaqlarının mismarlanıb bərkidilməsi üçün divarların üstünə qoyulan enli və qalın taxta.
Mənşir-1.Məşhur. 2.Nişan (mənşir qoymaq-nəyə isə nişan qoymaq). (mənşirləmək-bəlləmək).
Modara-gödən.
Modyam olmaq-ortaq olmaq.
Məğlətə- qalmaqallı iş (məğlətə çıxarmaq-qalmaqal salmaq).
Muda-qismət, murazında olduğun bir şey.
Mahna-bəhanə.
Marfax-zəif, xəstə, bərk olmayan əşya, cism.
Müddahınca-istədiyin qədər.
Mırd-çirk.

Nat-kərəntinin, dırmığın sapı.
Naştoylanmaq-özünü çəkmək.
Nıxt-nitq.

Naxıs-tərs, bədxasiyyət.
Nabalıx-məlumatsız, xam adam.
Nanay-xalq mahnılarının bir növü.
Nəfit-neft.
Nimtənə - qolsuz qadın geyimi.

Oymadərən-sarı və ağ rənglə olan çiçək növü.
Oxley-oxlov
Otdağa-örüş, mal-qara otlayan yer.
Oma-omba.
Ot kəsən-tayadan ot kəsmək üçün işlədilən kəsici alət.
Otyığan-mal-qaranın altını təmizləmək üçün işlədilən çalğı
Ocax (q)-pir, müqəddəs yer.
Odaha (olahana)-odur ha.

Öddək-tələsik.
Özələnmək-bir şeyi əldə etmək üçün özünü oda-közə vurmaq.
Öfkələnmək-əsəbiləşmək, nəyə isə heyfsilənmək.
Öcəşik-dəcəl, şitəngi, qəsdən başqasına sataşan.
Öküz möçüyü-özəyi yeyilən yabanı bitki.
Öfkə-ağ ciyar.
Öyə-növbə.
Öynə-növbə.
Öc almaq-hayıf almaq.
Özünə yörənmək-özünə yığılmaq, həddini aşmamaq.

Sosur-qaş-qabaq göstərən, səxavətsiz, simic
Soyxa-miras paltar.
Sormağı çıxmaq-arıqlamaq, ovurdu ovurdundan keçmək.
Salğar-bulğuru (bişirilmiş buğdanı) döymə üsulu ilə qabıqdan çıxarmaq üçün istifadə edilən çəkicə oxşar iri ağac alət.
Sınıxmaq-bir az arıqlamaq.
Somun-qəlibdə bişirilmiş çörək.
Sevə-soba.
Seşkin - seçilən.
Sələ-deşikli həsir şlyapa.
Səmə-avara.

Sozalmaq-əriyib getmək, tam haldan düşmək (adam), çayırın, gözənin quruması, yaşıl bitkilərin susuzluqdan solması.
Siftəmək-ətin müəyyən hissəsinin bıçaqla sümükdən ayırmaq.
Sirillah-qapalı adam, baş çıxmayan, sirli iş.
Sivilcik olmaq-üzdən çıxan kiçik səpişiklər.
Siməcət olmaq-üzlülük edib kiminsə yaxasından yapışmaq, əl çəkməmək.
Sıpıxmaq-fürsət tapıb yavaşca aradan çıxmaq.
Sıyırtmac-düyün salmaq növü.
Sapılca-böyründə sapdan dəstəyi olan alçaq dəyirmi qab.
Sağanaq- xəlbirin, ələyin ağac hissəsi.
Salıq-soraq.
Sibey-subay, öz əli öz başı olan adam.
Sədəmə-xətər, ziyan.
Sərnə - yer (biçin, əkin sahəsi).
Saşma-ufalanmış peyinin nisbətən iri hissəsi.
Sapıtmaq-müxtəlif bəhanələrlə hər hansı tapşırıqdan, işdən boyun qaçırmaq. (Başını sapıtmaq-baş girləmək, bir təhər yola vermək).
Sonulamaq-qüsur tapmaq, bəyənməmək.
Sarma-çəpinə sınmış hər hansı alətin (bel, balta və s.) sapını düzəltmək üçün tənəkə və ya məftildən ibarət sarıq.
Səllimi-sahibsiz, özbaşına (Səllimi soğan (selim soğan)-yabanı soğan).
Səbərilmək-ədəbsiz şəkildə necə gəldi uzanmaq.
Səng olmaq-quruyub sönmək, dağılıb tükənmək, puç olub getmək.
Samı-öküzlər qoşulandan sonra boyunduruğun hər iki başındakı xüsusi deşiklərə salınan dəmir çubuq.
Soranı-daş gələmək üçün istifadə olunan ucu miz bənna aləti.
Simləmək-təzə yaranın soyuğa dəyib pisləşməsi.
Səngin-arxayın, rahat.
Sur vermək-gen-bol imkan, ixtiyar vermək.
Sərələnmək-sərilib uzanmaq.
Sıxcalamaq-suyun quruması.
Sapax-saplaq.
Suçuxmaq-günahını anlayıb susmaq.
Sonu-sopu olmamaq - övlad-uşağı olmamaq.

Suya düşmək-çimmək (evdə).
Sinor-sərhəd.
Saqqa-içinə qurğuşun doldurulmuş ağırlaşdırılmış aşıq, müxtəlif oyunlar üçün istifadə edilən girdə, ləpik daş.
Saqqat-1.Şikəst adam. 2. əzazil, kəmfürsət adam. 3. hədəfi daşla düzgün vuran adam.
Sümürmək—suyu birsoluğa, acgözlüklə içmək.
Sinirsəmək-1.odun zəif olması nəticəsində ətin alaçiy olması.
2.arsızlaşmaq, deyilən sözə, danlaq və qınağa biganə olmaq.
Sinsitmək-həqiqətən bacarmadığı, bilmədiyi bir işin üstündə kimin isə üstünə düşüb qısnamaq.
Sitilləmək-yazıqlanıb yalvarmaq.
Sıtqamaq-yalvarıb təmənna etmək.
Sıxtı və ya sıtqı (sidqi) sıyrılmaq-inamı qırılmaq. Məs.: səndən sıtqım sıyrılıb-səndən incimişəm, sənə olan inamımı itirmişəm.
Sırımaq-1.Yorğan, döşək tikmək. 2.Özünün yararsız bir şeyini aldadıb kimə isə vermək.
Sadır-qoyunun döş ətrafında, alt hissədəki yunun üzərində təbəqələşən peyin qarışıq çirk.
Səvi-südəmər uşaq.

Şiltiyini atmaq-müddahınca döymək.
Şəngi- tula, küçük.
Şay olmaq-başqasının xoş gününə sevinmək, kimdənsə razı qalmaq.
Şırvanmaq-kiməsə xoş gəlmək üçün yan-yörədə vurnuxub yaranmaq, yaltaqlanmaq.
Şırğa-bəzək-düzək.
Şəpə-küləyin sovurduğu qar qalağı.
Şəhrə-dən-dən sarı yağın üzünə çıxmış şirə.
Şavax-sübh üzü, dan sökülən vaxt.
Şülüngü-nadinc, dəcəl, bivec.
Şətəl törətmək- mane olmaq.
Şırat-südün qaymaqdan ayrılmış hissəsi.
Şamarta-vurhavur, qalmaqal.
Şırtıx-deyib-gülən.
Şəppəli-dəli.
Şitəngi-öcəşgən, dəcəl.

Şikat-şəfkə - şikayət.

Tapan - ağac mala (əkində işlədilir).

Təntimək-tələsmək, qısqanıb karıxmaq.

Təlləmək-tovlamaq.

Tırıs çıxmaq-haqlı sözün qabağında cavab tapmadıqda dinməz-söyləməz bayıra çıxmaq.

Tasası yatmaq-istəyinə nail olduqdan sonra sakitləşmək.

Titiz-kəmhövsələ, tələsik adam.

Tütyə-minalanmamış metal qab.

Tıncıxmaq-qəbahətini başa düşərək utanıb-qızarmaq.

Tejgirə-yük daşımaq üçün xərək.

Təvgir görmək - tədbir görmək.

Tec-bir yerə qalaqlanmış torpaq, taxıl və s.

Təpitmə-orqanizmin əzilmiş yerinə bağlanan ağrını zəiflədən döyülmüş çiy ət.

Təpimək- güclü yağış nəticəsində bərk islanmış torpağın azacıq quruyub bərkiməsi, şiddətli ağrının səngiməsi.

Tapaşdamaq-əl ilə tapdalamaq.

Tafdalamaq-kimi isə həmişə tapdalamaq, göz verib işıq verməmək.

Taytımaq-azacıq axsamaq.

Taraqqa-tərəqqi (taraqqaya minmək-tərəqqiyə, mənsəbə çatmaq).

Pərəsəng olmaq-başsızlıq, sahibsizlik ucbatından tökülüb-dağılmaq, məlik olmaq.

Tavlamaq—1.tablaşmaq. 2.Təzə əti yağda azacıq qızartmaq.

Tavla mıxı-tövlə mıxı, atın hörüyünün bağlandığı mıxça.

Tüyünmək-nəyi isə əldə etməyə cəhd edərək vurnuxmaq.

Til-bıçağın tiyəsi, daşın iti tərəfi.

Turşalıq-özəyi yeyilən dadı turş yabanı bitki.

Tırpan gəlmək-zulum etmək, başına oyun gətirmək, darma-dağın etmək.

Tipi - boran.

Tulamazdı qoymaq-tolazlamaq.

Tubulğu-dağlarda bitən möhkəm gövdəli bitki. Tövləni, pəyəni təmizləmək üçün çalğı bağlanmaqda istifadə olunurdu.

Tamsınmaq-yeməyin dadını uzaqdan hiss edib ağzı sulanmaq.

Təhlim- tə'lim.
Tozanqı-toz halında yağan yağış.
Törəli (törəlçə)-qəribə, yaramaz.
Törpü-uyğunluq, mərifət, qanacaq, davranış qabiliyyəti.
Təvgir-tədbir.
Təfcimək-parçanın üzülmüş yerini sapla gözəyib birləşdirmək.
Taxtasız-danışıq və hərəkətlərini bilməyən adam.
Təmbəki-tütün.
Tetik-parçanın, pərdənin, örtüyün kənarlarına vurulmuş kəsmə və ya bükmə üsulu ilə düzəldilən bəzək füquru.
Təyərə - mal-qaranın altından təmizlənib çöldə qalaqlanmış peyin yığımı.

Urvat-ədəb, hörmət, xeyirxahlıq və s. müsbət əxlaqi kateqoriyalar məcmusu.
Urqan-örkən.
Urva-xəmirin kündələnməsində və kündənin yayılmasında istifadə olunan un.
Uyar (uyğar)-uyğunluq.
Ufaq-ufalanmış, narın. Məs.:ufaq adam-zəif adam.
Usduf-ehtiyatla, üsullu.
Urcah-tuş, qabaq (urcah olmaq- rast gəlmək).
Ucuq-qulaq, az-maz, ucdan-qulaqdan.
Uç-uç - may böcəyi.
Uşqunmaq-körpə uşağın əllərini uzadıb kiminsə qucağına getmək istəməsi.
Uşam-uşam olmaq-uşaqlara edilən qarğış.
Uruzqu-ruzi.
Uruf-adət-hörmət-izzət, qayda-qanun, ədəb-ərkan.
Umsuq olmaq-umduğun bir şeyin həsrətini çəkmək.

Ütmək (ütüləmək)-toyuğun tükünü alazdayıb yandırmaq. Məs.:kimi isə soyub var-yoxunu əlindən almaq.
Üşənmək-hər hansı bədbəxt hadisəni sövq-təbii hadisə ilə əlaqədar bədənin çimçəşməsi, tüklərin biz-biz olması.
Üşütmə-soyuqdəymə ilə əlaqədar xəstəlik növü.
Üçən-üç bala verməklə doğuş.
Üfək-qoyunun sidik kisəsi.

Üröyüş vermək-üz vermək.
Üzükmək-haraya isə dəymək, baş çəkmək.

Vərdənə-kündəni yaymaq üçün alət.
Vərəvurd etmək-götür-qoy etmək, fikirləşmək.
Vayıs-şər işlərə bais olan adam.
Vay-vay çanağı-zorla ayaq üstə duran tikili, qurğu, masa və s.
Vıncılıq-əzilib bir-birinə qarışan meyvə, ət,pendir və s.
Vayqanlı-kiminsə şikəst olmasına və yaxud ölümünə bilmədən bais olan adam.
Vala - kiçik baş yaylığı.
Vaynaçar-əlacsız.
Vız vermək-qorxmaq.
Vasvası-hər şeyi bəyənməyən, təmizkar.
Virdini salmaq-şüğlünü salmaq, bəzi halda öcəşmək.

Yasdana-yamacın az mailli hissəsi.
Yasdanmaq-göy otun üstündə dirsəklənib uzanmaq.
Yaxı-yumurta sarısından düzəldilir və parça üzərinə yaxılaraq bədənin sınıq yerlərinə sarınır (gips əvəzidir).
Yemirmək - devirmək.
Yapba (yəni yapma)-yumrulanaraq divara yaxud təzək qalağına yapılmış yaş mal peyini (quruyandan sonra yanacaq kimi istifadə edilir).
Yekinmək-qovzanmaq.
Yerikləmək-ürəyi turş yeməklər istəmək, hamiləliyin ilkin biruzəsi.
Yengə-əmi, dayı, böyük qardaş və s. yaxın qohumların zövcələrinə müraciət.
Yetik olmaq-xəbər tutmaq, öyrənmək.
Yeləkçə-qolsuz, qısa və nazik sırıqlı.
Yaraf-ya rəbb!
Yanoy-qapı çərçivəsinin yanları.
Yoz malı-mayalanma həddinə çatmış düyə və erkək mal.
Yörə - ərazi, yer.
Yöntələmək-başdansovdu iş görmək.
Yazmaq-kartofu dilimləyib bişmək üçün sobanın üstünə düzmək.
Yanımını verməmək-tərəfini saxlamaq, təəssübünü verməmək.

Yesir-əsir.
Yalxı-tək, əkiz olmayan.
Yaranmaq-kimə isə qulluq edərək yaltaqlanmaq.
Yeykinmək - qalxmaq.
Yarı mənsil - məhsulun yarısının itkiyə getməsi.
Yayma-yayılıb açılmış xəmir kündəsi.
Yığbal-iqbal.
Yaş təzəyi-naxır otlayan zaman çölə tökülüb qurumuş mal təzəyi. Əvvəllər yanacaq üçün istifadə edilirdi.
Yapıxmaq-qalaqlanmış otun və s. uzun müddət qalıb basırıqlanması.
Yayaq-piyada.
Yöhsünlü-bənzərli. Məs. filankəs yöhsünlü-filankəsə bənzərli.
Yavıq-yaxın.
Yavımaq-yovuşmaq, yaxşı münasibət yaratmaq.
Yeddi ləvin-novruz bayramı ərəfəsindəki son çərşənbə axşamı açılan süfrə. Süfrədə ən azı yeddi cür meyvə olmalıdı.
Yaxmac-üstünə yağ yaxılmış çörək.
Yolmalamaq-1.Otu və başqa cücərtini tələm-tələsik yoluşdurmaq. 2.Bir qadının başqa bir qadının saçından tutub əzişdirməsi.
Yelpənək-yeni çıxmış xiyar.
Yelavar-yel tutan sahə, yamac.
Yehdən-qəflətən, birdən-birə.
Yehdecəyin-vaxt-bivaxt, həmişə, ağzımı açan kimi.
Yeznə-kürəkən.
Yerdən-yerə vurmaq-adamı peşman etmək, hörməti heç eləmək.
Yelin-inəyin, qoyunun əmcəyi.
Yelinləmək-yelinə süd gəlmək-boğazlıq əlaməti.
Yərənnik-şit zarafat.
Yan çəkmək-təəssüb çəkmək.
Yalama-1.Üyünməmiş daş duz. 2.Şümal və iri daş.
Yalınqat-1.Yüngül geyimli adam. 2.Bir qat daşla hörülmüş divar.
Yelli-yeyin, sürətlə.
Yellə (yeltə) – çilik, ağac oyununun bir növü.
Yavıncı (olmaq)-asılı, möhtac (olmaq).
Yalaq-köpəyə yal verilən çanaq.

Zircin-durub-dincəlməyən, nadinc uşaq.
Zəvzək-(zarıyan adam), yalvarıb zarıyan adam.
Zərillik-ayaq yolu.
Zəvzəmək-yalvarıb zarımaq.
Zinhara gəlmək-bezmək, boğaza yığılmaq.
Zağzamaq-yalvarmaq.
Zıvrıt çıxarmaq-bıçaq vurmadan dərini çıxarmaq.
Zoxma-barmaqların pəncəyə birləşən yeri ilə zərbə.
Zırzıtmaq-zəhlə aparmaq, bezdirmək.
Zaft eləmək-öhdəsindən gəlmək (zəbt eləmək).
Zırtdamaq-deyinmək, baş-beyin aparmaq.
Zarıncı-xəstə, başqasına ehtiyacı olan, yalvarıb dilənən adam.
Zümbə-bitkiləri kökü ilə birlikdə çıxarmaq üçün işlədilən ucu döyülmüş dəmir alət.
Zırza-rəzə, qapının içəridən kilidi.
Zıvrılmaq-sürüşüb aradan çıxmaq, sivrilmək.
Zırza çəkmə-yerli-köklü.
Zinrik-zil qaranlıq.
Zulatma-çilik ağac oyununun bir növü.
Zayfa-zəif, halsız.
Zollama-birbaşa, kobudcasına, ədəb gözləmədən.
Zifir-fikir, əhval-ruhiyyə (zifirimi qarışdırma-əhvalımı pozma).
Zağar-1.Həşəri tula. 2.Özünə görə olmayan balacaboy adam.
Zaha-hamiləlikdən yeni azad olmuş qadın.
Zing-oynaq sümükləri (dirsək və dizdə).

# GÖSTƏRİCİ

## I. Şəxs adları, mifoloji və folklor obrazları

Alı
Aşdıbaba
Ağ qurd
Alp Rüstəm
Alpcıq
Arpaxan
Asdan xoca
Avdılla
Ağac əyəsi
Asdana cini
Aşıq Polad
Araz
Ağ Dərviş
Aşıx Nəsiv
Aşıx Şennik
Ay

Babal
Bəytoba
Bağdəmir
Bəkir kişi
Boz ay
Bacıxanım

Cin
Cin dəyisiyi
Cələkəsən
Cəlil
Cinni Söyün

Çoban Calal
Çorru Məhəmməd

Damdabaca

Dəyirman əyəsi
Dəli Dəmril
Dardarı
Dadlı
Dəli Dadaş
Dodu
Der
Daş oğlan
Dədə Aral
Dəli Qacar
Dəli Bayram
Dizyanlı Məhəmməd
Dev

Ev əyəsi

Əv əyəsi
Əv sahabı
Əsəd
Əmraslan ağa
Əzim
Əmrah ağa
Ələşrəf
Əli

Fəriştə
Fərişdə

Göyatlı
Göl buğası
Gülbağı
Gülxanım
Güllü

Hasan
Hacı Yaqub
Hadi
Hal anası

Hürü
Hacı Abbas
Hacı Xəlilbaba
Həzrət Əli.
Hacı Kərim

Xırxalı qoca
Xanzadə
Xalid paşa
Xalit
Xəstə Hasan
Xıdırelləz

İmanı dayı
İsmayıl
İsgəndər
İbiş

Küflə əyəsi
Kəsikbaş
Kafdarküstü
Kor Bilal
Kor Dədə
Kaloğlan
Kəlbağı
Kəlləgöz
Kokor
Kalvayı Səməd

Qurban
Quşoğlu
Qaraçuxalı
Qara at
Qurdoğlu
Qalaca
Qaraxan
Qaragünə
Qaraqorxu

Qaraca
Qaranamaz
Qacax Usuf
Qalacaylı
Qara Qısxanım
Qara Əyyar
Qara Dərviş
Qaya cini

Mumuxan
Məhərrəm dayı
Madar
Məhəmmədağa
Məşədi Hümmət
Mozmanov
Məhəmməd kişi
Mustafa
Məşədi Hasan
Minas
Maxsud
Mahmud kişi
Məsim

Namaz kişi
Nəzərəli

Oğuzoğlu

Pəri
Paşa
Piçan
Pir Sultan

Su əyəsi
Saraltmış
Sucul Dev
Sadıx molla
Salatın

Sarıbaba

Şəyətin
Şər vaxtı
Şeşə
Şahi-Mərdan

Təmiz ağa
Tanrıverdi
Tapdıq
Törə Dərviş
Toyçu Xəlil

Ucubulux
Uz Hasan

Vurğun cini
Vəll
Vurğun

Yetər xala
Yaruq
Yer əyəsi

**II. Yer adları**

Ağbaba
Arpa gölü
Ağbava dağı
Azərbaycan
Aydərəsi
Asdanın dərəsi
Abutalıbın dərəsi
Arpaçay
Aydın bulağı
Ağsu
Altıbulaq
Ahar-Bahar dağı

Aşdıbaba dağı
Allahı-Əkbər dağı
Ağbaba ziyarətgahı
Ağbaba zirvəsi
Aşdıbaba zirvəsi
Axılkələk
Aran

Bığelli dağı
Borçalı
Bolu
Bayramalının təpəsi
Börəel dərəsi
Balıxlı
Bolluq dağı
Biryana dağı

Cinli dərə
Cin qayası
Cıldır
Ceyran qayası

Çınqıl
Çətin dərə
Çivin
Çıldır gölü
Çıldır
Çaxmaq dərəsi
Çələb dərəsi
Çaxmaq
Çaybasar
Çalağan yuvası
Çivinli qalaçası

Daşüzdü
Duran
Dərin dərə
Danbat Dönə

Daşdıqullar
Dərvişin dərəsi
Dağ Borçalı
Düzxaraba
Daşkörpü
Düzkənd
Danasulağı
Dihnə dağı
Dədəpir piri

Ellərkənd

Fezi

Göy dağ
Gümrü
Gürcüstan
Günəş
Güllübulaq meşəsi
Gümrü
Güllü
Güllücə
Gölbülaq
Göy bulaq
Güney
Göllü
Gəlin qaya

Həmzənin bulağı
Hacıxəlil baba piri

Xozu
Xatınoğlunun təpəsi
Xozeyn dərəsi
Xəncərdüşən
Xorozan hodağı
Xəsim

İşıqlı Baba piri
İrəvan
İqdır
İlanlı bulaq
İkiqat dağı

Kalley dağı
Kaldağ
Kaloğlan zirvəsi
Korbulaq

Qalaca
Qarayola
Qars
Qaynar bulaq
Qızılqalaya
Qonçalı
Qaragüneytəpə
Qara qaya
Quş qayası
Qızıl qayası
Qızıl qaya
Qızılçaxçax
Qaranamaz
Qaraçanta
Qarabulaq
Qanqallı bulaq
Qoşabulaq
Qarasu
Qaradaşaltı bulaq
Qırmızı bulaq
Qaraxan çayı
Qızılkilsə
Qəribağanın dəyirmanı
Qırellərin dəyirmanı
Qardaşvay dağı
Qoyundağı dağı
Qızıldağ

Qızılməzər ziyarətgahı
Qara Çantey kəndi
Qars - Axılkələk

Lalaxan

Məzar təpə
Mumuxan dərəsi
Məmmədqasım ağanın dərəsi
Məmmədəminin dərəsi
Muş
Məşədi Əhmədin bulağı
Muncuqlu bulaq
Məsimin bulağı
Məşədi meşəsi
Maral yatağı dağı
Mumuxan kəndi

Novruz bayramı
Nazik dərə

Oy dərəsi
Orta yol

Öysüz
Ömər dərəsi
Öksüz piri

Paşa körpüsü
Paşanın dəyirmanı
Pir Sultan ocağı

Səmərqənd
Sağamoy
Sadıqlının dərəsi
Sınıqdərə
Söyünpaşanın dərəsi
Selim xarabası

Sarıqamış
Soyuqbulaq
Sallı bulaq
Səfərin dəyirmanı
Səngər dağı
Süddaşı piri
Sınıq kənd
Sarı baba ocağı
Sudur dağı
Suxara

Şiştəpə
Şəlalə dərəsi
Şişqaya
Şurabad
Şağlamgözə
Şışdağ
Şaban katbanın dəyirmanı
Səfa bulağı

Tiflis
Toxmaq göl
Taya qaya
Topqaya
Tez xaraba
Təzə İbiş
Təpəköy
Tağı bulağı
Təndir bulaq
Turşxalxalın bulağı
Taya qaya mağarası
Tazıuçan düzənliyi

Urmiya

Üç təpə
Üç bulaq
Üç qardaş piri

Yayla dağı
Yanıq dağı
Yabıqıran meşəsi
Yabıqırılan dağı

Zalqa (yer)
Ziyarət dağı
Ziyarət bulağı

## III. Bitki, ağac, heyvan və quş

At
Ayğır
Arpa
Arı
Alma
Armud
Andız

Buğda
Bənövşə
Bülbül

Camıs
Canavar
Cökə

Çaqqal
Çiyələk
Çobanyastığı
Çəpiş

Dağdağan
Danaqıran
Darçin
Damotu
Dovşan

Əvəlik
Ərik

Gicirtikan
Gülxətmi

Heyva

Xoruz
Xına
Xurma

İlan
İt
İnək
İtburnu

Keçi
Kəklikotu
Kəl
Köpək
Kələm
Kartof

Qartal
Qurd
Qoyun
Qarpız
Qoz
Qantəpər
Quzu
Qatırquyruğu
Qoyun
Qarağac
Qızılgül

Lalə
Lalaxoş

Moruq

Nərgiz
Nar
Nanə

Öküz

Pişik
Palıd

Siçan
Səməni
Soğan
Sarımsaq

Şam
Şabalıd

Tülkü
Toyuq
Tütün
Turp

Üzüm
Üzərlik

Yasəmən
Yemişan
Yarpız

Zəyrək
Zoğal

**IV. Peşə, sənət, alət, silah adları və digər anlamlar**

Ağam hey havası
Ayran

Ayaqqabı
Aşıqlıq
Araqçın

Balaban
Bəzirdaşları - (alət)
Başmaq
Bəzirgan
Barama

Cüt
Colpa

Çırax
Çörək
Çuval

Dam
Dərviş
Dəyirmançı
Dəryaz
Dəmirçi

Ələk

Göyaltı - (saz havası)
Gümüş

Hodaq
Haqos

Xərək
Xoca
Xəncər
Xırman
Xalça
Xidmətçi
Xəlbir

Zırzaq

Koxa
Kötan
Kötük
Köy
Kabab
Kürəkən

Qamçı
Qızıl
Qənd
Qılınc
Qəlyan

Lampa

Məjgal - (cütün məcini tutan adam)
Meşəbəyi
Mis
Mala

Nehrə
Nal
Nalbənd

Örüş

Pukrur - (kotan)
Padşax

Rəhmanı - (saz havası)

Sövdəgər
Sirri-subhan - (saz havası)
Süpürgə
Saz

Səngər

Şimşək

Taxça
Tapan - (mala)
Tonqal
Tövlə
Tüfəng
Təndir
Tacir

Varansov - (kotan)

Yasovul
Yəhər

## SÖYLƏYİCİLƏR VƏ TOPLAYICILAR HAQQINDA

### I. MÖVSÜM-MƏRASİM NƏĞMƏLƏRİ

**Holavarlar** - söyləyəni: İsgəndər baba (Ağbaba bölgəsi, Göllü kəndi), 80 yaşlı

**Novruz mərasimləri**

Deyişmələr, görüşmələr - söyləyəni Gülxanım nənə (Ağbaba bölgəsi, Təzə İbiş kəndi) 60 yaşlı

Bəxti bağlı qızların bulaq üstə getməsi - söyləyəni Leylan nənə (Ağbaba bölgəsi, Təzə İbiş kəndi) 78 yaşlı

Papaqaltı, Yaylıqaltı - söyləyəni Əmir baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi) 67 yaşında

**Vəsfi-hallar** - söyləyənlər: Gülxanım nənə (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 65 yaşında, Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 80 yaşlı

**Toy adətləri** - söyləyənlər: Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi) 80 yaşlı, Qəmər nənə (Ağbaba bölgəsi, Qaraçanta kəndi) 65 yaşlı, Qızıllar Seyidova (Ağbaba bölgəsi, Qaraçanta kəndi) 49 yaşlı

### II. MİFOLOJİ MƏTN VƏ RƏVAYƏTLƏR

Şəyətin, Dambaca - söyləyəni Aşıq İsgəndər Ağbabalı, 67 yaşlı (Ağbaba bölgəsi, Ellərkənd kəndi)

Quşoğlu - söyləyəni Cəlil baba (Ağbaba bölgəsi, Qaraçanta kəndi), 100 yaşlı

Ağac əyəsi, Şeşə - söyləyəni İsgəndər baba (Ağbaba bölgəsi, Göllü kəndi), 80 yaşlı

Qaraçuxalı - söyləyəni Səriyyə nənə (Ağbaba bölgəsi, Qaraçanta kəndi), 60 yaşlı

Baba ruhu - söyləyəni Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 80 yaşlı

Fərşitə - söyləyəni Mahmud baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 70 yaşlı

Küflə əyəsi - söyləyəni Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 80 yaşlı

Göyatlı - söyləyəni Mahmud baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 70 yaşlı

Babal, Sehirli ot, Qara at, Kəsihbaş - söyləyəni: Alı baba (Ağ-

baba bölgəsi, Göllü kndi) 70 yaşlı

Astana cini (vurğun) - söyləyəni Cəlil baba (Ağbaba bölgəsi, Qaraçanta kəndi), 100 yaşlı

Qalaçanın sirri. Su əyəsi-söyləyəni İsgəndər baba (Ağbaba bölgəsi, Göllü kəndi), 80 yaşlı

Kaftarküştü - söyləyəni Əsəd baba (Ağbaba bölgəsi, Çivinli kəndi), 72 yaşlı

Dəyirman əyəsi - söyləyəni İsgəndər baba (Ağbaba bölgəsi, Göllü kəndi), 80 yaşlı

Cin dəyişiyi. Saraltmış - söyləyəni Mahmud baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 70 yaşlı

Ucubılıx. Sucul dev - söyləyəni Məcnun Ağbabalı (Ağbaba bölgəsi, Güllücə kəndi), 62 yaşlı

Kor Dədə - söyləyəni Alı baba (Ağbaba bölgəsi, Göllü kəndi), 70 yaşlı

Qurdoğlu. Qaraxan yanması. Göl buğası. Alp Rüstəmin Qarayola getməsi. Qara xanın Kəlləgözü öldürməsi - söyləyəni Cəlil baba (Ağbaba bölgəsi, Qaraçanta kəndi), 100 yaşlı

Ufuldayan daş - söyləyəni Alı baba (Ağbaba bölgəsi, Göllü kəndi), 70 yaşlı

Hal anası - söyləyəni Güllər nənə (Ağbaba bölgəsi, Qara çanta kəndi), 80 yaşlı

Mifoloji rəvayətlər

1 - söyləyəni Alışan baba (Ağbaba bölgəsi, Amasiya kəndi), 67 yaşlı

2-3-4-5 söyləyəni: Əsəd baba (Ağbaba bölgəsi, Çivinli kəndi), 72 yaşlı

6-7 - söyləyəni: İmanı baba (Ağbaba bölgəsi, Çivinli kəndi), 80 yaşlı

8 - söyləyəni Calal baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 70 yaşlı

9-10 - söyləyəni Əli baba (Ağbaba bölgəsi, Qaranamaz kəndi), 70 yaşlı

11 - söyləyəni Elbəyi baba (Ağbaba bölgəsi, Çivinli kəndi), 70 yaşlı

13. 14 - söyləyəni Əsəd baba (Ağbaba bölgəsi, Çivinli kəndi), 72 yaşlı

15 - söyləyəni Səriyyə nənə (Ağbaba bölgəsi, Qaraçanta

kəndi), 60 yaşlı

17 - söyləyəni Zəhra nənə (Ağbaba bölgəsi, Güllücə kəndi), 80 yaşlı

18 - söyləyəni Rəşid baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 68 yaşlı

19 - söyləyəni Aşıq İsgəndər Ağbabalı (Ağbaba bölgəsi, Ellərkənd kəndi), 66 yaşlı

20 - söyləyəni Mahmud baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 70 yaşlı

21 - söyləyəni Calal baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 72 yaşlı

22 - söyləyəni Elbəyi baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 62 yaşlı

23 - söyləyəni Mahmud baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 70 yaşlı

24 - söyləyəni Calal baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 72 yaşlı

25 - söyləyəni Əsəd baba (Ağbaba bölgəsi, Xozu kəndi) 72 yaşlı

26 - söyləyəni Calal baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 72 yaşlı

27 - söyləyəni Cəlil baba (Ağbaba bölgəsi Qaraçanta kəndi), 100 yaşlı

28 - söyləyəni Calal baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 72 yaşlı

29 - söyləyəni Yunis baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 68 yaşlı

30 - söyləyəni İsmayıl baba (Ağbaba bölgəsi, Ağbaba kəndi), 67 yaşlı

31-32-33-34-35 - söyləyəni Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş), 80 yaşlı

**III. İNAM VƏ ETİQADLAR, ALQIŞLAR (DUALAR)** - söyləyəni: Xəstə Zərnişin (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 80 yaşlı, İmanı baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi) 80 yaşlı

**S**öyləyənlər – Xəstə Zərnişan (Ağbaba bölgəsi Təzə İbiş kəndi), 80 yaşlı; Səltənət nənə (Ağbaba bölgəsi, Mağaracıq kəndi), 75 yaşlı (toplayanlar: Sultan Orucoğlu, Tacir Qurbanov)

# IV. ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

Gəlinqaya, Yanıq, Ahar-Baharnan Qardaşvay, Sudur-Budur, Tazıuçan, Mumaq xan, Sınıq, Yabıqırılan, Ağbaba, Aşdıbaba, Kaloğlan, Ağbaba, Sarıbaba, Hacıxəlilbaba, Pir Sultan, Qoyun dağı - söyləyəni Cəlil baba (Ağbaba bölgəsi, Qaraçanta kəndi), 100 yaşlı

Qış-Bahar, Böyük Çilə və Kiçik Çilə, Gülxətmi, Qızılgül və bülbül, Lalə (Lalaxaş), Yasəmən, Danaqıran, Arpa və buğda, Gicirtkan əfsanələrini Ağbaba bölgəsinin Qaranamaz kənd sakini Sultan Baxşı qızı Musayevə (110 yaşlı) söyləmişdir

Qaraçantey. Kor bulaq - söyləyən Binnət Hüseyn oğlu Musayev (Ağbaba bölgəsi, Qaranamaz kəndi) 83 yaşlı

Canavar bulağı. Qaranamaz Danasulağı söyləyən - İmanı baba (Ağbaba bölgəsi, Çivinli kəndi) 80 yaşlı

Xəncərli - söyləyəni Nəsibə Paşa qızı Hüseynova (Ağbaba bölgəsi, Qaranamaz kəndi) 57 yaşlı

Dəli çay, Səfərin batığı, Yeddi bölük, Ağ bulaq, Baldırğanlı, Xanxallı bulaq, Ayranlı bulaq, Üç bulaq, Kirpi əfsanəsi, Gəlinboğan, Pəri enməyən dağ, Yemlik. Qazançı və Şiştəpə - söyləyən Binnət Hüseyn oğlu Musayev (Ağbaba bölgəsi, Qaranamaz kəndi), 83 yaşlı

Qoşa bulaq - söyləyən Nəsibə Paşa qızı Hüseynova (Ağbaba bölgəsi, Qaranamaz kəndi) 59 yaşlı

Martla qarı - söyləyəni Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi) 80 yaşlı

Od alıf yansın. Pulu yerinə qoyufsan ki - söyləyəni Fəxrəddin baba (Ağbaba bölgəsi, Oxçuoğlu kəndi), 68 yaşlı

Mazmanın eşşəyi - söyləyəni Mahmud baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 70 yaşlı

Kokorun bağrı çatladı - söyləyəni Əmir baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 72 yaşlı

Qarnını arğıtmasa yaxşıdı. Üzünü unnamaxnan ağarmaz. Qazan ye, asan ye - söyləyəni Həsən baba (Ağbaba bölgəsi, Güllücə kəndi), 100 yaşlı

Sakit olsaydın yaxşı olardı - söyləyən Həmid baba (Ağbaba bölgəsi, Göllü kəndi), 62 yaşında

Qaçaxdan da qorxum, yoxsul qoçaxdan da. Ötən dilin olunca

vuran əlin olsun. Sınamaq istədim, gördüm... - söyləyəni Mədəd baba (Ağbaba bölgəsi, Göllü kəndi), 72 yaşında

Baxma yuxarı-aşağı, Dünyanın malı dünyada, əhli-halı yadda qalacaq. Özü dalda başı qalda olacax. Qaynənənin pətişaxlığının axırı - söyləyən Daşdəmir baba (Ağbaba bölgəsi, Göllü kəndi), 70 yaşlı

Bizdə də vardı belə bir kişi - söyləyən Fatma nənə (Ağbaba bölgəsi, Mağaracıq kəndi), 70 yaşlı

Gör cana qıymağı, Əzim bilər, Xaş bilər. Dediyini də unutma - söyləyən Alışan baba (Ağbaba bölgəsi Amasiya kəndi), 68 yaşlı

Cəhənnəm pulu, Mana bir arvad al. Səni soyallar - söləyəni Salman baba (Ağbaba bölgəsi, Sultanabad kəndi), 64 yaşlı

Torpaq bölgüsü. Xata nökərdən dəydi - söyləyəni Alışan baba (Ağbaba bölgəsi, Amasiya kəndi), 68 yaşlı

Öysüzlü Mustafanın dana əhvalatı. Qəmər, qaç... - söyləyəni Mürtüz baba (Ağbaba bölgəsi Balıqlı kəndi), 72 yaşlı

Tez gəl, ağam - söyləyəni Səhnə nənə (Ağbaba bölgəsi, Balıqlı kəndi), 101 yaşlı

Borcunu unut, əmə malını mökkəm tut. Məşədi Hümbət - söyləyəni: Əsəd baba (Ağbaba bölgəsi, Oxçoğlu kəndi), 75 yaşlı

At ülkdü, Minas da dürəhdi - söyləyən Əmir baba 72 yaşlı (Ağbaba bölgəst, Təzə İbiş kəndi)

Xoruzun quyruğu görünür - söyləyəni Fatma nənə (Ağbaba bölgəsi, Mağaracıq kəndi), 70 yaşlı

Nə dil bildi, nə dodaq - söyləyəni Çeşmi nənə (Ağbaba bölgəsi, Güllücə kəndi), 80 yaşlı

Tanrı dadına yetdi. Kor Bilal. Qeyratı bəlli, özü düzəməlli. Osmannı xofu - söyləyən Əmir baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 72 yaşlı

Adam varrıxdan yox, darrıxdan ağlayar - söyləyəni Mustafa baba (Ağbaba bölgəsi, Mağaracıq kəndi) 65 yaşlı

Arpa yeməyə gəlif, yoxsa toxum səpbəyə? - söyləyən Salman baba (Ağbaba bölgəsi, Sultanabad kəndi), 64 yaşlı

Aş da qana döndü - söyləyəni Süleyman baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 74 yaşlı

Öküzü quyruğa düşmənin özü boyunduruğa düşər - söyləyən

Mustafa baba (Ağbaba bölgəsi, Mağaracıq kəndi), 65 yaşlı

Sən deyən olmaz, a kişi - söyləyən Fatma nənə (Ağbaba bölgəsi, Mağaracıq kəndi), 70 yaşlı

Dediyini dedi, yediyini yedi - söyləyən Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 80 yaşlı

Nə zərəli - söyləyəni Salman baba (Ağbaba bölgəsi, Sultanabad kəndi), 64 yaşlı

Adam dilində danışırsınız ki. Ağbabaq oğlan - söyləyən Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 80 yaşlı

## V. NAĞILLAR

Kasıvın nəfsi - söyləyəni Əli baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 76 yaşlı

Daş - ağac - söyləyəni Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 80 yaşlı

Canavar oğlu - söyləyəni Səltənət nənə (Ağbaba bölgəsi, Mağaracıq kəndi, 75 yaşlı

Yoxsulnan ilan. Baxt - söyləyəni Mədəd baba (Ağbaba bölgəsi, Göllü kəndi), 74 yaşlı

Yetim Madarın nağılı - söyləyəni Gülxanım nənə (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 65 yaşlı

Yeddi qardaş, yeddi bacı - söyləyəni Məcnun Ağbabalı (Ağbaba bölgəsi, Güllücə kəndi), 62 yaşlı

Şahzadəynən qurbağa - söyləyəni Musayev Binnət Hüseyn oğlu (Ağbaba bölgəsi, Qaranamaz kəndi), 83 yaşlı

Gülxanım. Qarpızın nağılı - söyləyən Sultan Baxşı qızı (Ağbaba bölgəsi, Qaranamaz kəndi), 110 yaşlı

## VI. QARAVƏLLİLƏR

Axmaq gəlin - söyləyən Cəlil baba (Ağbaba bölgəsi, Qaraçanta kəndi), 100 yaşlı

Qarınqulu pəhlivan - söyləyən Əsəd baba (Ağbaba bölgəsi, Xozu kəndi), 70 yaşlı

Hadı, Hudu, Godu, Dodu - söyləyəni Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 80 yaşlı

Mən arvadım, oğlum, bir də dəvə. Av - söyləyəni Cəlil baba (Ağbaba bölgəsi, Qaraçanta kəndi), 100 yaşlı

## VII. ATALAR SÖZLƏRİ

Söyləyəni - Xəstə Zərnişan (Ağbaba bölgəsi Təzə İbiş kəndi) 80 yaşlı, İmanı baba (Ağbaba bölgəsi, Çivinli kəndi) 80 yaşlı

## VIII. LƏTİFƏLƏR

Mən sənə camış verdim, Gölənin yaylasını da vermədim. İstəyirsən ağla, istəyirsən saxla - söyləyəni Həsən baba (Ağbaba bölgəsi, Güllücə kəndi), 100 yaşlı

Bileti kimdən alacıyıq - söyləyəni Hacı baba (Ağbaba bölgəsi, Amasiya kəndi), 70 yaşlı

Sayıqla, ha sayıqla - söyləyəni Qara baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 76 yaşlı

Yerə basdırmaq lazımmış. Acgözü belə doyurarlar. Düz sözün duzu - söyləyəni Əsəd baba (Ağbaba bölgəsi, Xozu kəndi), 70 yaşlı

Ağıldan yüngül deyiləm, Xalçanı da pulun üstündə verim?! - söyləyəni: Əsəd baba (Ağbaba bölgəsi, Oxçoğlu kəndi) 75 yaşlı

Sən dedin, mən də yedim? Düş də, düşürt də - söyləyəni Fatma nənə (Ağbaba bölgəsi, Mağaracıq kəndi) 70 yaşlı

Dədənin adından - söyləyəni: Süleyman baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi) 74 yaşlı

Dədənin adından - söyləyəni Süleyman baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 74 yaşlı

Anama deyərəm sizə də iki arvad alar - söyləyəni Alışan baba (Ağbaba bölgəsi, Ağbaba kəndi) 68 yaşlı

Dədəm ölür ət yeyəcih - söyləyəni: Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi) 80 yaşlı

Bə mən acından ölüm?! - söyləyəni: Süleyman baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 74 yaşlı

Sövdələşmə - söyləyəni: Əsəd baba (Ağbaba bölgəsi, Xozu kəndi), 70 yaşlı

Zalım qaynananın axırı - söyləyəni: Fatma nənə (Ağbaba bölgəsi, Mağaracıq kəndi), 70 yaşlı

Macalım olmayıb - söyləyəni: Xanəhməd baba (Ağbaba bölgəsi, Qaraçanta kəndi) 67 yaşlı

Mənə yuxu danışırsan?! Qoy biz də bir şey yeyək - söyləyəni: Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 80 yaşlı

Heç görmür ki! Utanmıyıf hələ danışırsan da - söyləyəni: Salman baba (Ağbaba bölgəsi, Sultanabad kəndi) 64 yaşlı

Belə Zarafat olmaz, a qadan alım. Tamah bahası. İş görənə bir şahı, "bəh-bəh" deyənə bir abbası - söyləyəni: Cəlil baba (Ağbaba bölgəsi, Qaraçanta kəndi) 100 yaşlı

Gəlinnən qaynata - söyləyəni: Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi) 80 yaşlı

Allahın könlündə olsa. Qarın-qarta dartan baba. "Bərəkətli" ev. Axmaq adəti - söyləyəni: Cəlil baba (Ağbaba bölgəsi, Qaraçanta kəndi) 100 yaşlı

Cinni Söyünün lətifələri - söyləyəni Mahmud baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi) 70 yaşlı

Mahmudun lətifələri. Çoban Calalın lətifələri. Toyçu Xəlilin lətifələri - söyləyən Salman baba (Ağbaba bölgəsi, Sultanabad kəndi), 64 yaşlı

## IX. BAYATILAR

Söyləyənlər: Fatma nənə (Ağbaba bölgəsi, Mağaracıq kəndi), 70 yaşlı; Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 80 yaşlı; Leylan nənə (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 75 yaşlı; İsgəndər baba (Ağbaba bölgəsi, Göllü kəndi), 80 yaşlı

## X. TAPMACALAR

Söyləyəni: Fatma nənə (Ağbaba bölgəsi, Mağaracıq kəndi) 70 yaşlı

## XI. NANAYLAR

Nadan yar, əylən, əylən. Gümüş kəmər, zərbin tənə - söyləyəni: Məryəm nənə (Ağbaba bölgəsi, Ellərkənd kəndi), 65 yaşlı

Göyər yaylalar, göyər - söyləyəni: Mürtüz baba (Ağbaba bölgəsi, Balıqlı kəndi), 72 yaşlı

Səndə dərd havası var - söyləyəni: Aşıq İsgəndər Ağbabalı (Ağbaba bölgəsi, Ellərkənd kəndi), 66 yaşlı

Ala gülbəngi. Nanay, ay nanay - söyləyəni: Gülxanım nənə (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 65 yaşlı

Nar qoydum ləngəriyə, ləngəriyə. Ay qəmərim, qəmərim. Qadan canıma, a kəklik - söyləyəni: Qəmər nənə (Ağbaba

bölgəsi, Qaraçanta kəndi), 70 yaşlı

Alma sənə, heyva sənə nar sənə. Valam yana, valam yana-yana - söyləyəni: Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 80 yaşlı

Ay niyə doğmur şavağın ildızı. Bu dağdan qovun maralı, maralı - söyləyəni: Hüseyn baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 79 yaşlı

## XII. TIRINQILAR

1-5 - söyləyəni Aşıq Paşa Göydağlı (Ağbaba bölgəsi, Çivinli kəndi), 59 yaşlı

6 - söyləyəni İmanı baba (Ağbaba bölgəsi, Çivinli kəndi), 80 yaşlı

7-17 - söyləyəni Yetim Əsgər (Daşkəsən şəhəri), 75 yaşlı

18-24 - söyləyəni Mahmud baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 70 yaşlı

25-28 - söyləyəni Cəlil baba (Ağbaba bölgəsi, Qaraçanta kəndi), 100 yaşlı

## XIII. DEYİMLƏR

Toplayanlar: Sultan Orucoğlu, Tacir Qurbanov.

## XIV. AŞIQ RƏVAYƏTLƏRİ

Qara Əyyarla Uz Hasanın görüşməyi - söyləyəni: Mahmud baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 70 yaşlı

Novruz - söyləyəni: Aşıq Paşa Göydağlı (Ağbaba bölgəsi, Çivinli kəndi), 59 yaşlı

Ellərkətdi Bilalın ermənilərnən qabaxlaşması. Aşıx Şennihnən Nəsivin görüşməyi, Nəsivin ona şəyird olmağı - söyləyəni: Aşıq İsgəndər Ağbabalı (Ağbaba bölgəsi, Ellərkənd kəndi) 66 yaşlı

Aşıx Nəsivin Tacir Söyünnən görüşməyi. Haxverdi Qarammədoğlunun əhvalatı - söyləyəni: Mahmud baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 70 yaşlı

Çorru Məhəmmədin Suxara Səfəri - söyləyəni: İslam baba (Ağbaba bölgəsi, Xozu kəndi), 70 yaşlı

Aşıx Nəsivin İrişli səfəri. Aşıx Nəsivin Öysüz səfəri. Ları xoruz əhvalatı - söyləyəni: İsgəndər baba (Ağbaba bölgəsi,

Göllü kəndi), 80 yaşlı

Pəhlivan Ağaynan Çələbi pəhlivanın görüşü - söyləyəni: Hacı baba (Ağbaba bölgəsi, Göllü kəndi), 80 yaşlı

Aşıx Şenliyin Mumuxan səfəri - söyləyəni: Mahmud baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 70 yaşında

Yetim Tafdağın pendir-yağ əhvalatı - söyləyəni: Aşıx Paşa Göydağlı (Ağbaba bölgəsi, Çivinli kəndi), 59 yaşlı

Alaşanın otunun kutarması - söyləyəni: Aşıq İsgəndər Ağbabalı (Ağbaba bölgəsi, Ellərkənd kəndi), 66 yaşlı

Canbaz qızı - söyləyəni: İsgəndər baba (Ağbaba bölgəsi, Göllü kəndi), 80 yaşlı

Xəsdə Hasanın Xosbiya bəylərinə şikatı. Həsdə hasanın daşdıqullar səfəri. Aşıx Qərif Hasanın Gümrü Səfəri - söyləyəni Aşıq İsgəndər Ağbabalı (Ağbaba bölgəsi, Ellərkənd kəndi(, 66 yaşlı

Dizaynalı Məhəmmədin Usda Allahyarnan görüşü. Qaçax İsgəndərin Çamçavuş səfəri. Aşıx Nəsivin Təpəköy səfəri. Aşıx Nəsivin İrəvan səfəri. Aşıx Nəsivin Öysüz səfəri - söyləyəni: Aşıq Paşa Göydağlı (Ağbaba bölgəsi, Çivinli kəndi), 59 yaşlı

## XV. UŞAQ FOLKLORU

**Sanamalar** – söyləyəni: Əli baba (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 75 yaşlı

**Düzgülər** – Dəyirmançı -söyləyəni: Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 80 yaşlı

Ağbabanın boranı. Qara Dərviş. Qara-ağın ağası - söyləyəni: İsgəndər baba (Ağbaba bölgəsi, Göllü kəndi), 80 yaşlı

Boz oğlan - söyləyəni: Yetim Əsgər (Daşkəsən şəhəri) 75 yaşlı

Boz ay - söyləyəni: Leylan nənə (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 75 yaşlı

Ərzi-hal. Palıda yalvarma. Sən də qocalacaxsan. Ağackəsən oğlanın əhvalatı - söyləyəni: Əsgər baba (Daşkəsən şəhəri), 75 yaşlı

Dərviş torbası. Qocanın sözü. Qış. Qırmızıdon. Tənbəl - söyləyəni: Seyid Həsən baba (Ağbaba bölgəsi, Qaraçanta kəndi), 101 yaşlı

Dərviş - söyləyəni: Cəlil baba (Ağbaba bölgəsi, Qaraçanta

kəndi), 100 yaşlı

Danaçıya nəsihət. Kosa - söyləyəni: Seyid Həsən baba (Ağbaba bölgəsi, Qaraçanta kəndi), 101 yaşlı

Ala dana - söyləyəni: Cəlil baba (Ağbaba bölgəsi Qaraçanta kəndi), 101 yaşlı

Düzgü-güzgü.Qaralı-ağlı baba - söyləyəni: Xəstə Zərnişan (Ağbaba bölgəsi, Təzə İbiş kəndi), 80 yaşlı

**Yanıltmaclar** – söyləyəni: Cəlil baba (Ağbaba bölgəsi, Qaraçanta kəndi) 100 yaşlı

**Oyunlar** – söyləyəni: Haqverdi Aydınov (Ağbaba bölgəsi, Qaraçanta kəndi) 80 yaşlı, Almaz Haqverdi qızı (Ağbaba bölgəsi, Qaraçanta kəndi) 59 yaşlı, Sənəm nənə (Ağbaba bölgəsi, Mağaracıq kəndi) 73 yaşlı, Kazım baba (Ağbaba bölgəsi, Mağaracıq kəndi) 74 yaşlı

## XVI. XALQ TƏBABƏTİ

Əziz babadan (Ağbaba bölgəsi, Oxçoğlu kəndi) 80 yaşlı, Sultan Musayevdən (Ağbaba bölgəsi, Qaranamaz kəndi 110 yaşlı) toplanmışdır

Ağbaba dialekti (tərtib edənlər: Sultan Orucoğlu, Tacir Qurbanov)

# KİTABIN İÇİNDƏKİLƏR


***Ağbaba folkloru (H.İsmayılov)..........................................5***

**I. Mövsüm - mərasim nəğmələri**

Holavarlar..............................................................................21
Novruz mərasimləri...............................................................28
Görüşmələr, deyişmələr........................................................32
Bəxti bağlı qızların bulaq üstə getməsi..............................35
Papaqaltı.................................................................................36
Yaylıqaltı...............................................................................37
Vəsfi-hallar...........................................................................38
Toy adətləri...........................................................................47

**II. Mifoloji mətn və rəvayətlər**

Şəyətin...................................................................................51
Damdabaca...........................................................................51
Quşoğlu.................................................................................52
Ağac əyəsi...........................................................................54
Şeşə.......................................................................................55
Qaraçuxalı...........................................................................55
Baba ruhu.............................................................................55
Fəriştə...................................................................................56
Küflə əyəsi...........................................................................56
Göyatlı..................................................................................56
Babal.....................................................................................56
Sehirri ot..............................................................................57
Qara at..................................................................................58
Kəsihbaş..............................................................................59
Astana cini (vurğun)...........................................................60
Qalaçanın sirri.....................................................................60
Su əyəsi................................................................................61
Kaftarküştü.........................................................................61
Dəyirman əyəsi...................................................................61
Cin dəyişiyi.........................................................................62
Saraltmış.............................................................................62
Ucubılıx..............................................................................62
Sucul dev.............................................................................63

Kor Dədə.....63
Qurdoğlu.....64
Qaraxan yapması.....66
Göl buğası.....67
Alp Rüstəmin Qarayola getməsi.....67
Qaraxanın Kəlləgözü öldürməsi.....70
Ufullayan daş.....72
Hal anası.....72

**III.İnam və etiqadlar, alqışlar (dualar).....89**

**IV. Əfsanə və rəvayətlər**
Gəlin qaya.....96
Yanıq, Ahar-Baharnan Qardaşvay.....96
Sudur-Budur.....97
Tazıuçan.....98
Mumaq xan.....98
Sınıq .....98
Yabıqırılan.....99
Ağbaba, Aşdıbaba, Kaloğlan.....99
Ağbaba, Sarıbaba, Hacıxəlilbaba, Pir Sultan.....99
Qoyun dağı.....100
Qış-Bahar.....100
Böyük Çillə, Kiçik Çillə.....103
Qızılgüllə bülbül.....104
Gülxətmi.....105
Lalə (Lalaxaş).....105
Yasəmən.....106
Gicitkan.....107
Danaqıran.....107
Arpayla Buğda.....108
Qara çantey.....109
Kor bulaq.....112
Canavar bulağı.....112
Qaranamaz, Danasulağı .....113
Xəncərli.....113
Dəli çay.....115
Səfərin batığı.....118

Yeddi bölük....................................................................119
Ağ bulaq.......................................................................119
Baldırğanlı....................................................................120
Xalxallı bulaq.................................................................122
Ayranlı bulaq..................................................................122
Qoşa bulaq.....................................................................123
Üç bulaq.......................................................................123
Kirpi əfsanəsi.................................................................124
Gəlinboğan.....................................................................124
Pəri enməyən dağ...............................................................125
Yemlik.........................................................................127
Qazançı, şiştəpə...............................................................127
Martla qarı....................................................................128
Od alıf yansın.................................................................128
Pulu yerinə qoyufsan ki........................................................129
Mazmanın eşşəyi................................................................130
Kokorun bağrı çatladı..........................................................130
Qarnını arğıtmasa yaxşıdı......................................................131
Üzü unnamaxnan ağarmaz..........................................................131
Qazan ye, asan ye..............................................................131
Sakit olsaydın yaxşı olardı....................................................132
Qaçaxdan da qorxum, yoxsul qoçaxdan da?!........................................132
Ötən dilin oluncax, vuran əlin olsun...........................................133
Sınamax istədim, gördüm........................................................133
Baxma yuxarı - aşağı...........................................................133
Özü dalda, başı qalda olacax...................................................134
Qaynənənin pətişaxlığının axırı................................................134
Bizdə də vardı belə bir kişi...................................................136
Gör cana qıymağı...............................................................136
Əzim bilər, Xaş bilər..........................................................137
Dediyini də unutma.............................................................138
Cəhənnəm pulu..................................................................138
Mana bir arvad al..............................................................139
Səni soyallar..................................................................140
Torpaq bölgüsü.................................................................140
Xata nökərdən dəydi............................................................141
Öysüzlü Mustafanın dana əhvalatı...............................................142
Qəmər, qaç.....................................................................143

Tez gəl, ağam....................................................................143
Borcunu unut, əmə malını mökkəm tut.............................143
Məşədi Hümbət.................................................................144
At ürkdü, Minas da kı dürəhdi...........................................145
Xoruzun quyruğu görünür..................................................145
Nə dil bildi, nə dodaq.........................................................146
Tanrı dadına yetdi...............................................................146
Sən verdin, mən də yedim..................................................147
Kor Bilal.............................................................................148
Qeyratı bəlli, özü düzəməlli...............................................148
Osmannı xofu.....................................................................149
Adam varrıxdan yox, darrıxdan ağlayar............................150
Dekabr ayı deyilmi..............................................................151
Arpa yeməyə gəlif, yoxsa toxum səpbəyə?!.....................151
Aş da qana döndü...............................................................151
Öküzü quyruğa düşmənin özü boyunduruğa keçər...........152
Sən deyən olmaz, a kişi......................................................152
Dediyini dedi, yediyini yedi...............................................153
Nə zərəli.............................................................................154
Adam dilində danışırsınız ki...............................................154
Ağpapaq oğlan....................................................................154

**V. Nağıllar**

Kasıvın nəfsi......................................................................156
Daş-ağac..............................................................................158
Canavar oğlu.......................................................................162
Yoxsulnan ilan....................................................................172
Baxt.....................................................................................176
Yetim Madarın nağılı..........................................................178
Yeddi qardaş, yeddi bacı.....................................................184
Şahzadəynən qurbağa..........................................................189
Gülxanım.............................................................................193
Qarqızın nağılı ....................................................................199

**VI. Qaravəllilər**

Axmaq gəlin........................................................................204
Qarınqulu pəhlivan..............................................................205
Hadı, Hudu, Godu, Dodu....................................................207

Mən, arvadım, oğlum, bir də dəvə....................................208
Av...........................................................................................209

**VII. Atalar sözləri.........................................................211**

**VIII. Lətifələr** ................................................................218
Cinni Söyünün lətifələri.................................................238
Mahmudun lətifələri......................................................239
Çoban Calalın lətifələri .................................................241
Toyçu Xəlilin lətifələri ...................................................244

**IX. Bayatılar**...............................................................247

**X. Tapmacalar**...............................................................250

**XI. Nanaylar**...............................................................252

**XII. Tırınqılar**...............................................................261

**XIII Deyimlər** ...............................................................273

**XIV. Aşıq rəvayətləri**
Qara Əyyarnan Uz Hasanın görüşməyi ............................283
Novruz...................................................................................289
Ellərkətdi Bilalın ermənilərnən qabaxlaşması..................295
Aşıx Şenniyin Nəsifnən görüşməsi, Nəsivin ona
şəyird olması.........................................................................299
Aşıx Nəsivin Tacir Söyünnən görüşməyi........................304
Haxverdi Qaramədoğlunun əhvalatı............................309
Çorru Məhəmmədin Suxara səfəri..................................314
Aşıx Nəsivin İrişdi səfəri...................................................321
Pəhlivan Ağaynan Cələbi pəhlivanın görüşü...................324
Aşıx Şenniyin Mumuxan səfəri........................................329
Yetim Tafdığın pendir-yağ əhvalatı.................................335
Alaşanın otunun qutarması................................................338
Canbaz qızı...........................................................................340
Xəsdə Hasanın Xosbiya bəylərinə şikatı..........................343
Xəstə Hasanın Daşdıqullar səfəri.....................................350

Aşıx Qərif Hasanın Gümrü səfəri....................................358
Dizaynalı Məhəmmədin Usda Allahyarnan görüşü..........362
Qaçax İsgəndərin Çamçavuş səfəri.................................366
Aşıx Nəsivin Təpəköy səfəri...........................................373
Aşıx Nəsivin İrəvan səfəri..............................................375
Aşıx Nəsivin Öysüz səfəri...............................................379

**XV. Uşaq folkloru**
Sanamalar...........................................................................383
Düzgülər..............................................................................384
Yanıltmaclar........................................................................398
Oyunlar................................................................................399

**XVI. Xalq təbabəti**.........................................................412

**Dialektoloji sözlük**.........................................................418
**Göstərici**..........................................................................448
**Söyləyicilər və toplayıcılar haqqında**............................459

**Azərbaycan folkloru antologiyası,**
**VIII kitab, (Ağbaba folkloru).**
Bakı, “Səda“ nəşriyyatı, 2003.

Nəşriyyatın direktoru: ***Elşən Hətəmzadə***
Kompüterdə yığdı: ***Samirə Əlihüseynova***
***Ruhəngiz Əfəndiyeva***
Kompüter tərtibatçısı: ***Baxşəli Süleymanov***
Korrektor: ***Elçin Ramazanov***

Çapa verilmiş: 28.10.2002
Çapa imzalanmış: 25.01. 2003
Kağız formatı: 84/108 32/1
Mətbəə kağızı: №1
Həcmi: 30 ç/v.
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab Dədə Qorqud adına Folklor EMM-nin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Səda“ nəşriyyatında hazır diapozitivlərdən ofset üsulu ilə çap edilmişdir.